AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

**NAMİQ ƏLİŞAH oğlu KƏRİMOV**

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU VƏ SAHİLYANI DÖVLƏTLƏRİN MARAQLARI

***Dərs vəsaiti***

*Azərbaycan Dillər Universiteti*
*Elmi Şurasının 27 noyabr 2023-cü il*
*tarixli iclasının qərarı ilə (pr. №32)*
*çapa tövsiyə olunur*

**Bakı – Mütərcim – 2023**

**Elmi redaktor:**

*tarix üzrə fəlsəfə doktoru, dosent* **X.Z.Hacıyeva**

**Rəyçilər:**

*tarix üzrə elmlər doktoru, professor* **İ.F.Kazımbəyli**
*tarix üzrə elmlər doktoru, professor* **H.N.Məmmədov**
*tarix üzrə elmlər doktoru, professor* **M.Ə.Abbasova**
*tarix üzrə fəlsəfə doktoru, dosent* **E.A.Qasımov**
*tarix üzrə fəlsəfə doktoru, dosent* **N.C.Əsədov**

**Namiq Əlişah oğlu Kərimov. Xəzər dənizinin hüquqi statusu və sahilyanı dövlətlərin maraqları.** *Dərs vəsaiti.*
**– Bakı: Mütərcim, 2023. – 320 səh.**

*Oxucuların diqqətinə təqdim olunan "Xəzər dənizinin hüquqi statusu və sahilyanı dövlətlərin maraqları" adlı kitabda kompleks şəkildə məsələlərə yanaşılmışdır. Xəzərin təbii coğrafi xüsusiyyətləri və onun uğrunda tarixən aparılmış dövlətlərarası mübarizə, problemin meydana çıxma şəraiti və onun tarixi kökləri, Xəzərin neft-qaz ehtiyatları və onun sahilyanı dövlətlər üzrə bölgüsü, beynəlxalq və regional aktorların Xəzər hövzəsində geoiqtisadi və geosiyasi maraqları, hüquqi statusun müəyyənləşməsində sahilyanı dövlətlərin maraqları, Xəzərsahili dövlət başçılarının sammitləri və burada əldə edilmiş razılaşmalar geniş şəkildə şərh edilmişdir.*

*Kitab Xəzər problemləri ilə məşğul olan mütəxəssislər, tədqiqatçılar, beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr və geniş oxucu dairəsi üçün nəzərdə tutulur.*

$K\ \frac{4306020000}{026}\ 287\text{-}23$

© N.Ə.Kərimov, 2023

## MÜNDƏRİCAT


**GİRİŞ** .......... 5

**I FƏSİL.**
**XƏZƏRİN TƏBİİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ VƏ ONUN UĞRUNDA TARİXƏN APARILMIŞ DÖVLƏTLƏRARASI MÜBARİZƏ**

I.1. Xəzərin təbii-coğrafi xüsusiyyətləri .......... 9
I.2. Xəzərə nəzarəti ələ keçirmək uğrunda tarixən aparılmış dövlətlərarası mübarizə .......... 20
I.3. Xəzəri dünya okeanı ilə əlaqələndirmək istiqamətində atılan addımlar – Volqa-Baltik (Marinski su sistemi) və Volqa-Don kanalı layihələri .......... 37

**II FƏSİL**
**XƏZƏRİN NEFT-QAZ EHTİYATLARI VƏ ONUN SAHİLYANI DÖVLƏTLƏR ÜZRƏ YERLƏŞMƏSİ**

II.1. Dünyanın karbohidrogen ehtiyatları fonunda Xəzərin neft-qaz rezervləri .......... 63
II.2. Rusiyanın Xəzərdə neft-qaz ehtiyatları .......... 70
II.3. Qazaxıstanın Xəzərdə neft-qaz ehtiyatları .......... 76
II.4. Türkmənistanın Xəzərdə neft-qaz ehtiyatları .......... 79
II.5. İranın Xəzərdə neft-qaz ehtiyatları .......... 82
II.6. Azərbaycanın Xəzərdə neft-qaz ehtiyatları .......... 89

**III FƏSİL**
**BEYNƏLXALQ VƏ REGİONAL AKTORLARIN XƏZƏR HÖVZƏSİNDƏ GEOİQTİSADİ VƏ GEOSİYASİ MARAQLARI**

III.1. ABŞ-ın Xəzər hövzəsində geoiqtisadi və geosiyasi maraqları .......... 97
III.2. Avropa İttifaqının Xəzər hövzəsində geoiqtisadi maraqları .......... 108
III.3. Çinin Xəzər hövzəsində geoiqtisadi və geosiyasi maraqları .......... 126
III.4. Türkiyənin Xəzər hövzəsində geosiyasi və geoiqtisadi maraqları .......... 139

**IV FƏSİL**
**XƏZƏRİN HÜQUQİ STATUSU VƏ SAHİLYANI DÖVLƏTLƏRİN MÖVQEYİ**

IV.1. Xəzər dənizdir, yoxsa göl? ........ 158
IV.2. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Rusiyanın mövqeyi ........ 169
IV.3. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Qazaxıstanın mövqeyi ........ 185
IV.4. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Türkmənistanın mövqeyi ........ 201
IV.5. Xəzərin hüquqi statusunun müəyyənləşməsində İranın mövqeyi ........ 214
IV.6. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Azərbaycanın mövqeyi ........ 234

**V FƏSİL**
**SAHİLYANI DÖVLƏT BAŞÇILARININ XƏZƏR SAMMİTLƏRİ**

V.1. Aşqabad sammiti ........ 257
V.2. Tehran sammiti ........ 262
V.3. Bakı sammiti ........ 266
V.4. Həştərxan sammiti ........ 273
V.5. Aktau sammiti ........ 277
V.6. II Aşqabad sammiti ........ 292

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI** ........ 307

# GİRİŞ

Soyuq müharibənin yekunu olaraq iki mühüm siyasi düşərgədən biri olan SSRİ-nin çöküşü yeni geosiyasi və geoiqtisadi reallıqların yaranması ilə nəticələndi. SSRİ-nin çöküşü bir tərəfdən ABŞ başda olmaqla Qərb dövlətləri ilə kəskin siyasi, iqtisadi, ideoloji və yarımhərbi qarşudurma şəraitində baş verirdisə, digər tərəfdən isə daxildə xalqların azadlıq mübarizəsinin labüd nəticəsi olaraq reallaşmışdır. Bu nəhəng imperiyanın çöküşü Avrasiya materikində bir xeyli etnik, siyasi və ərazi münaqişələrinin meydana gəlməsini də qaçılmaz etdi. Belə gərginlik ocaqlarından biri də Xəzər və onun hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı olaraq meydana çıxmışdır. 1991-ci ildə Xəzərsahili ərazilərdə Qazaxıstan, Azərbaycan və Türkmənistanın dövlət müstəqilliklərini bərpa etməsi, həmin ölkələrin özlərinə aid ərazilərdə, o cümlədən Xəzərdəki sektorlarında mövcud sərvətlərdən sərbəst şəkildə istifadə hüquqi verirdi. Təbii ki, bu hüquq həmin dövlətlərin Xəzərdə özlərinə aid sektorlarına da şamil edilməli idi. 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən Xəzərin sovetlərə aid hissəsi 4 sahilyanı respublika-Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan arasında bölüşdürüldüyündən yekun hüquqi status qəbul eilənə qədər həmin bölgünün əsasında adıçəkilən su hövzəsinin təkindən və səthindən istifadə mümkünlüyü rəsmi Bakı tərəfindən müdafiə olunurdu. İran və Rusiya isə buna kəskin etiraz etməklə yanaşı. Azzərbaycan və Qazaxıstanın dünyanın aparıcı şirkətləri ilə Xəzərdə neft-qaz sahəsində birgə əməkdaşlığını hər vəchlə əngəlləməyə çalışırdı.

Uzun müddət Xəzərin Rusiya və Qacarlar dövləti, 1920-ci illərdən isə SSRİ və İranın (qeyri-bərabər şəkildə, birincinin daha çox üstünlüyü şəklində) idarəçiliyində olması yeni şəraidə-müstəqil sahilyanı dövlətlərin-Azərbaycan, Qazaxıstan və Türkmənistanın Xəzərdə su sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı tələbləri rəsmi Moskva və Tehranda birmənalı qarşılanmadı. SSRİ kimi nəhəng imperiyanın malik olduğu ərazi, iqtisadi, hərbi və s. üstünlüklərin itirilməsini həzm edə bilməyən Rusiyanın Xəzərin hüquqi statusu probleminə yanaşması da yeni siyasi reallıqlarla uzlaşmayan imperiya düşüncəsi ilə həyata keçirilirdi. SSRİ-nin çöküşünü tarixi fürsət hesab edən İran isə Xəzərdən daha çox pay almaqda israr edirdi.

Xəzər hövzsi zəngin karbohidrogen ehtiyatlarına malik olduğundan onun hüquqi statusunun müəyyənləşməsi sırf hüquqi məsələ olmaqdan çıxıb, özündə digər komponentləri-iqtisadi, təhlükəsizlik, ekoloji və s. problemləri ehtiva etməkdə idi. Müstəqilliyini yeni bərpa etmiş və Xəzərdə böyük həcmdə neft-qaz ehtiyatlarına malik olan Azərbaycan və Qazaxıstan üzləşdiyi ağır iqtisadi-maliyyə durumundan çıxmaq üçün həmin resursları iqtisadi dövriyyəyə cəlb etmək üçün dünyanın (xüsusi ilə də Qərb ölkələrinin) aparıcı neft şirkətləri ilə əməkdaşlıq etməkdə qərarlı idi. Təsadüfü deyildir ki, Xəzərin hüquqi statusunun siyasi gündəmə gəlişi də məhz Azərbaycanın Qərb neft şirkətləri ilə aktiv şəkildə neft müqavilələrinin bağlanması istiqamətində aparılan danışıqlar zamanı meydana gəlmiş oldu. Həmin vaxt Rusiya və İran hüquqi statusun müəyyənləşmədiyini əsas gətirərək bunun qarşısını almağa çalışsalar da, ona nail ola bilmədilər. Rusiya rəsmiləri hesab edirdi ki, hüquqi statusun tezliklə müəyyənləşəcəyi təqdirdə Qazaxıstan və Azərbaycan daha sərbəst şəkildə Qərb şirkətləri ilə Xəzərin özlərinə aid sektorlarında (1970-ci il sektorial bölgüsünə əsasən) əməkdaşlığı gücləndirməklə rəsmi Moskvanın "orbitindən" bir o qədər çox uzaqlaşmış olacaqdır. İran isə kəskin münasibətlər konteksində Qərb şirkətlərinin Xəzərə gəlişini dövlət təhlükəsizliyi üçün "təhdid" kimi qələmə verirdi. Digər tərəfdən isə, İran böyük neft-qaz potensialına malik olmasına baxmayaraq, məlum sanksiyalar səbəbindən onu dünya bazarlarına çı-

xara bilmədiyi halda qonşuluqda Azərbaycan, Qazaxıstan və Türkmənistanın bunu reallaşdırmasını qəbul edə bilmirdi. Hətta, Rusiya Azərbaycanın dünyanın aparıcı neft şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi" ilə bağlı BMT-yə etiraz məktubu ünvüanlasa da böyük dövlət xadimi H.Əliyev tərəfindən bütün maneələr dəf edilə bildi. Ümummilli lider H.Əliyevin birbaşa rəhbərliyi altında 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan konstitusiyasıının 11-ci maddəsinin 2-ci bəndində Xəzər ilə bağlı müddəa yer aldı. Xəzər ilə bağlı müddəa sahilyanı dövlətlərdən məhz ilkin olaraq Azərbaycanın konstitusiyasında yer almışdır. Burada aydın şəkildə göstərilirdi ki, Xəzərin Azərbaycana aid olan sektoru və onun üzərindəki hava məkanı Azərbaycan Respublikasının ərazisi hesab edilir.

Rusiya və İrandan fərqli olaraq Azərbaycan, Qazaxıstan və Türkmənistan açıq dənizlərə çıxışı olmayan, qapalı, qitədaxili ölkələr hesab edildiyindən Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi kommunikasiyaların inkişaf etdirilməsi baxımından da adıçəkilən dövlətlər üçün əhəmiyyətli idi.

Tarixin bütün dövrlərində Xəzər hövzəsinə nəzarəti ələ keçirmək uğrunda böyük dövlətlər arasında kəskin mübarizə mövcud olmuşdur. Rusiya və İran başda ABŞ olmaqla qeyri Xəzər dövlətlərinin hüquqi status məsləsinə müdaxilə etməməsinə çalışırdı. Amma, özlüyündə regionda böyük aktorların maraqları kəsişdiyindən, ABŞ Xəzər hövzəsində özünün başlıca rəqibləri hesab etdiyi Rusiya və Çin ilə güc mücadiləsinə girmişdir. XIX əsrin ikinci yarısında Rusiya ilə İngiltərə arasında Mərkəzi Asiyaya sahiblənmək uğrunda gedən "Böyük oyun" (Great game) yeni çağda, yeni formatda davam edirdi. ABŞ regionun zəngin karbohidrogen resurslarının işlənməsində mühüm pay sahibi olmaq istəyi ilə yanaşı, həmin resursların Qərb bazarlarına nəqlini Rusiyadan yan keçməklə reallaşdırılmasına çalışırdı. Bununla Rusiyanın regionu iqtisadi baxımdan öz təsir dairəsində saxlanılmasına qarşı çıxırdı. ABŞ-ın Xəzər regionuna yönəlik siyasətinin mühüm bir istiqaməti sözügedən regionun kommunikasiya baxımdan (Şərq-Qərb və Şimal-Cənub ticarətində oynadığı rol) əhəmiyyətli mövqeyə sahib olması ilə bağlı idi.

Avropa Birliyi Xəzər regionunda əsasən iqtisadi maraqlar güdür və başlıca məqsəd kimi öz enerji təhlükəsizliyini ön plana çəkirdi.

Qlobal gücə çevirilməkdə olan Çin üçün region təhlükəsizlik, enerji resursları, nəqliyyat-kommunikasiya, xammal və satış bazarları baxımından olduqca əhəmiyyətli idi.

Türkiyənin Xəzər regionunda maraqları çoxvektorluluğu ilə seçilirdi. Rəsmi Ankaranın regiona yönəlik siyasəti özündə iqtisadi, siyasi, hərbi, mədəni, tarixi və ideoloji məsələləri ehtiva edirdi.

Oxucuların diqqətinə təqdim olunan "Xəzərin hüquqi statusu və sahilyanı dövlətlərin maraqları" adlı kitabda kompleks şəkildə məsələlərə yanaşılmışdır. Xəzərin təbii coğrafi xüsusiyyətləri, və onun uğrunda tarixən aparılmış dövlətlərarası mübarizə, problemin meydana çıxma şəraiti və onun tarixi kökləri, Xəzərin neft-qaz ehtiyatları və onun sahilyanı dövlətlər üzrə bölgüsü, beynəlxalq və regional aktorların Xəzər hövzəsində geoiqtisadi və geosiyasi maraqları, hüquqi statusun müəyyənləşməsində sahilyanı dövlətlərin maraqları, Xəzərsahili dövlət başçılarının sammitləri və burada əldə edilmiş razılaşmalar geniş şəkildə şərh edilmişdir.

# I FƏSİL

## XƏZƏRİN TƏBİİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ VƏ ONUN UĞRUNDA TARİXƏN APARILMIŞ DÖVLƏTLƏRARASI MÜBARİZƏ

### I.1. Xəzərin təbii-coğrafi xüsusiyyətləri

Xəzər Avropa və Asiya qitələrinin qovşağında yerləşməklə, Rusiya, Qazaxıstan, Türkmənistan, İran və Azərbaycan respublikalarının əraziləri ilə əhatələnmişdir. Bu sututarın dəniz adlandırılması uzun müddət mübahisələrə səbəb olmuşdur. Məsələyə geniş baxdıqda aydın olur ki, Xəzər dünya okeanı ilə təbii yolla əlaqəsi olmayan qapalı su hövzəsidir. Mütəxəssislər Xəzərin dəniz adlanması üçün əsas arqument kimi onun sahəsinin böyüklüyünü, suyunun duzlu olmasını və hidro-bioloji rejimini əasas götürürlər.

Xəzər 371 min kvadrat kilometr sahəyə malik olan, dünya okeanına birbaşa çıxışı olmayan qapalı su hövzəsidir. Bu sahə 1977-ci ilə qədərki ölçülərdir. 1978-ci ildən isə Xəzərdə su səviyyəsinin intensiv qalxması ilə əlaqədar onun sahəsi də bir qədər genişlənmişdir. Su səviyyəsinin qalxıb-enməsinin sahə ölçülərinə təsirini 1929-cu ildə qeydə alınmış ölçülərdə əyanı görmək olar. Belə ki, 1929-cu ildə Xəzərin sahəsi 422 min kvadrat kilometrə bərabər olmuşdur. Xəzər dənizi Volqa və Don çaylarının qollarına bitişik kanallar vasitəsilə Qara dənizə və keçmiş Marinisk su yolu, hazırda isə Volqa-

Baltik kanalı ilə Baltik dənizinə çıxışı olması ilə dünya okeanı ilə əlaqə yaratması mümkün olmuşdur. Xəzərin müəyyən dövrlərdə müxtəlif cür adlanması adətən onun sahilində məskunlaşmış əhalinin, böyük tayfa birlikləri ilə, ya da ətrafında yerləşən şəhər, vilayət və ölkələrin adları ilə bağlı olmuşdur. (Xəzər, Kaspi, Hirkan, Abaskun, Bakı, Dərbənd və s). Xəzər meridian istiqamətində 1200 kilometr məsafədə uzanaraq iki qitənin – Avropa və Asiyanın təmas zonasını təşkil edir. Xəzərin sahil xətlərinin ümumi uzunluğu 7 min kilometrə yaxındır ki, bunun da 955 km-i Azərbaycanın, 695 km-i Rusiyanın, 2320 km-i Qazaxıstanın, 1220 km-i Türkmənistanın, 900 km-ə yaxın hissəsi isə İranın payına düşür.

Xəzərin orta eni 320 km, orta dərinliyi 184 m-dir.130-a qədər irili-xırdalı çay bu sututara tökülür və 50-yə qədər adaya malik olan bu qapalı su hövzəsinin ən dərin hissəsi Lənkəran çökəkliyidir (1020 m).Ən dayaz yeri şimalda 1-5 m arasında dəyişir ki, bu da Volqa çayı vasitəsi ilə böyük qum kütləsinin bura toplanması ilə əlaqədardır. Son illərdə Xəzərdə su səviyyəsinin aşağı enməsi dayazlıq səviyyəsinə öz təsirini göstərmişdir. Xəzərin şimal hissəsində bir neçə kilometr məsafəni yeriyərək gəzmək mümkün olmuşdur.

Dərinliyi 100 metr olan sahələr Xəzərin 62,2%-ni, 0-10 m dərinlikli sahələr Xəzər dənizinin şimal hissəsini (44%), 100-200 m dərinlikdə olan sahələr 6,6%-ni, 700-800 m dərinlikli sahələr – 5,6%-ni, 900 m-dən çox dərinliyi olan sahələr isə 1%-ni təşkil edir.

Yer kürəsinin ən böyük qapalı su hövzəsi olan Xəzər şimal, orta və cənub olmaqla 3 hövzəyə (sahəyə) bölünür. Sahə baxımdan bu uç hövzə bir-birindən kəskin fərqlənməsə də, bunu orta dərinlik və suyun həcmi baxımından söyləmək olmaz. Xəzərin şimal hissəsinin su kütləsi onun ümumi su həcminin yalnız 1%-ni təşkil edir. Bu, şimal hissənin orta dərinliyinin 10-15 metrdən çox olmaması və Volqa çayının gətirdiyi böyük həcmli qum kütləsinin yaratdığı dayazlıqla bağlıdır. Hətta şimali Xəzərin 20% hissəsinin dərinliyi 1 metrdən çox deyil ki, bu da əsasən Volqaın mənsəbinə yaxın olan ərazilərdir.




*Şəkil 1. Xəzərin coğrafi baxımdan 3 hissəyə ayırılması*

**Əsas yarımadaları – Abşeron, Mangistau, Buzaçı, Çələkən, Türkmənbaşı.** Abşeron yarımadası Xəzərin qərbində – Azərbaycan ərazisində yerləşir. 2110 km$^2$ ərazisi olan yarımadada paytaxt Bakı şəhəri ilə yanaşı, Sumqayıt və Xırdalan şəhərləri də yer alır ki, burada daimi yaşayan əhalinin sayı 5 milyon nəfərə yaxındır. Xəzərin Azərbaycan sahilində digər nisbətən kiçik yarımadalar Kür dili və Şah dili yarımadalarıdır.

Aqraxan yarımadası 50 kilometr uzunluğunda, 8 kilometr enində, 212 $km^2$ sahəyə malik olmaqla Rusiya Federasiyasının Dağıstan sahilində Terek çayının tarixən mövcud olmuş deltasında yer almaqdadır. Yarımadanın qərb hissəsində eyniadlı körfəz yerləşir. Yarımada əvvəllər Üç Kosa adı ilə məlum olmuşdur.

Xəzərin Qazaxıstan sahillərində Buzaçi və Mangistau yarımadaları yerləşir. Qeyd etmək lazımdır ki, sövet dönəmində adıçəkilən yarımada Manqışlaq olaraq adlandırılmışdır. 1990-cı ildən yarımada yenidən Mangistau adlanmağa başlamışdır. Buzaçi Qazaxıstanın çənub-qərbində yer almaqla, ərazisi əsasən barxan və qum təpələri ilə müşayət olunan düzənlikdən ibarətdir.

Xəzərin Türkmənistan sahilində Türkmənbaşı və Çələkən yarımadaları yerləşir. Su səviyyəsinin aşağı düşməsi səbəbi ilə sahəsi 500 kvadrat km olan Çələkən yarımadası hələ 1930-cu illərdə materik hissə ilə birləşmişdir. Çələkən yarımadasının səth hissəi duz və qumla örtülmüşdür. Vaxtilə burada neft yataqları aşkarlanmışdır. XX əsrin əvvəllərində Azərbaycanlı neft sənayeçisi İsa bəy Hacınisskinin də burada neft quyuları olmuşdur. Türkmənbaşı yarımadası Türkmənistanın Balkan vilayətində yerləşir. Yarımadanın şimalında Qaraboğazqol körfəzi, cənubunda isə eyniadlı (Türkmənbaşı) körfəz yer alır. Yarımadanın sovet hakimiyyəti dönəmində Krasnovodsk adlanması rusların 1869-cu ildə burada tikdirdikləri eyniadlı qala ilə bağlı olmuşdur. Türkmənistan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra yarımadanın tarixi adı-Türkmənbaşı özünə qaytarıldı. Xatırladaq ki, yarımadanın cənubunda Türkmənbaşı şəhəri yerləşir.

Xəzərin İran sahilləri digər ölkə sahilləri ilə müqayisədə sadə və az girintili-çıxıntılı olduğundan burada yarımada və körfəzlərin də sayı azdır. İran sahilində əsas yarımada Miyanqala yarımadası hesab olunur. Miyanqala yarımadası İranın Mazandaran ostanlığı ərazisndə yerləşir. Yarımada şərqdən qərbə doğru 800 m ilə 3,5 km en arasında 55 km uzanaraq Astrabad körfəzini əmələ gətirmiş olur.

**Körfəzləri** – Xəzərin sahilləri girintili-çıxıntılı olduğundan materikin içərilərinə daxil olmuş hissələrində körfəzlər – Qaraboğazqol, Türkmənbaşı, Manqistau, Qızılağac, Bayıl buxtası əmələ

gəlmişdir. Bunların içərisində ən böyüyü Qaraboğazqol körfəzidir. Qaraboğazqol körfəzi Xəzərin şərq sahilində-Türkmənistan ərazisində yerləşir. Sahəsi 18 min $km^2$ təşkil edir. Su səviyyəsinin enib-qalxması təbii ki, bu körfəzin də sahə ölçülərinə təsir etmiş olur. Qaraboğazqol körfəzi 7-8 km uzunluğunda və 250-300 m enində dar bir boğazla Xəzərə birləşir. Körfəzdə suyun səviyyəsi dənizlə müqayisədə aşağı olduğundan su kütləsi sürətlə bura tökülür. Amma, məlumdur ki, körfəzlər dənizlə birləşik olaraq eyni su səviyyəsinə malik olurlar. Burada isə bu təbii qanunauyğunluq pozulub. Su səviyyəsində mövcud fərqlilik körfəzə sürətli su axınına səbəb olmaqla yanaşı, həmçinin burada güclü burulğanın da yaranmasına şərait yaratmış olur. Körfəz böyük ölçüdə Qaraqum səhrası ilə əhatələnmiş və bu da iqlimə öz təsirini göstərir. İsti tropik iqlimlə yanaşı, Qaraboğazqola heç bir çay tökülmədiyindən duzluluq səviyyəsi çox yüksəkdir. Burada suyun duzluluğu 300%-dən yüksəkdir ki, bu da Xəzərdən sözügedən körfəzə gələn balıqların demək olar ki, məhvinə səbəb olur. Yüksək duzluluq bioresursların məhvini şərtləndirirməklə yanaşı, təsərrüfat-iqtisadi əhəmiyyətə də malikdir. Sahilə toplanmış qlauber duzlarından toxuculuqda, soda, şüşə, kağız istehsalında və dəri emalında geniş istifadə olunr.

Qızılağac körfəzi-Xəzərin cənub-qərbində-Azərbaycan ərazisində, Salyan rayonunun cənubunda yerləşir. Sahəsi 1228 $km^2$ təşkil edir ki, bu da yuxarıda qeyd etdiyimiz kimi su səviyyəsinin tərəddüdlərindən asılı olaraq dəyişir. Körfəz dənizdən Kür dili vasitəsi ilə ayrılır. Tarixi mənbələrdə tez-tez rast gəlinən Sara (Sarı) adası da burada yerləşir. Körfəzin sahili girintili-çıxıntılıdır və bataqlıqdır. Burada həmçinin körfəzin adı ilə Qızılağac dövlət qoruğu yaradılmışdır ki, qış aylarında mülayim iqlim hakim olduğundan, qoruq köçəri quşların bir növ sığınacaq yerinə çevrilmişdir. Digər heyvanlar da adıçəkilən qoruqda mühafizə olunub saxlanmaqdadır.

**Çayları** – Xəzərə 130-dan artıq irili-xırdalı çay tökülür ki, bunların da əksəriyyəti şimal və qərb hissədən daxil olur. Şimaldan-Volqa, Emba, Ural; qərbdən-Terek, Samur, Kür; cənub-şərqdən-Atrek; cənubdan-Qızılüzən (Səfidrud) çayları tökülür. Xəzərə tökülən bütün

çay sularının 82%-i Volqanın payına düşür. Bu hissə Xəzərin ən "şirin" sulu hissəsi sayılır. Volqa çayı həmçinin Xəzərin dünya okeanına çıxışını mümkün edən yeganə su yoludur. Adıçəkilən çay Xəzəri Volqa-Baltik su yolu ilə Baltik dənizi ilə, Şimali Dvin sistemi və Belomor-Baltik kanalı vasitəsi ilə Ağ dənizlə, Volqa-Don kanalı ilə Qara və Azov dənizləri ilə birləşdirir. Xəzərə daxil olan suyun təxminən 82%-i təmin edən Volqa çayının uzunluğu 3531 kilometr, çoxillik orta axını isə 251-254 $km^3$/ildir. 1881-ci ildən bəri aparılan ölçmələrə görə onun axımının dəyişmə diapazonu 220 $km^3$-dir. 1926-cı ildə axımın miqdarı 380- $km^3$, 1937-ci ildə isə 160 $km^3$ olmuşdur.

Azərbaycan ərazisindən Kür (illik axım – 16 $km^3$), Lənkəran-çay, Sumqayıt, Vəvələçay, Qudyalçay, Astaraçay (Azərbaycanla İran sərhədində), Rusiyanın Azərbaycanla sərhəddində Samur (2,7 $km^3$) Xəzərə tökülən əsas iri çaylardır. Rusiya ərazisində Volqadan sonra Xəzərə tökülən ikinci böyük çay Terekdir. (8,5-11,4 $km^3$). Şərq hissədə çay şəbəkəsi olduqca zəifdir. Qazaxıstan ərazisindən Xəzərə tökülən Ural və Emba çaylarıdır ki, bunlardan da Emba yalnız mövsümü olaraq, yağıntıların miqdarı çox olduqda sözügedən su hövzəsinə yetişə bilir. İlin çox aylarında isə əsasən Emba Xəzərə qovuşa bilmir. Ural çayının isə illik axım 8,1 $km^3$-dir. Türkmənistan ərazisində Xəzərə axan əsas çay Artekdir ki, bunun da ümumi uzunluğu 635 kilometrdir. Artek çayının 500 kilometrlik hissəsi İran, 135 kilometri isə Türkmənistan ərazisindən keçir. Emba kimi Artek çayı da mövsümü olaraq, yəni daha çox yaz mövsümündə, yağıntıların miqdarı artdıqda Xəzərə tökülə bilir. Qalan vaxtlarda əsasən çayda sululuğun az olması səbəbimdən Xəzərə yetişə bilmir. İran ərazisində isə Səfidrud, Həraz, Polerud, Babol, Çalus, Görgan, Tecan, Talar çayları Xəzərə tökülürr. Alimlərin hesablamalarına görə Xəzərin ümumi su balansının yalnız 5%-i İran ərazisindən bura tökülən çayların hesabına formalaşır. Ümumilikdə Xəzərin su balansında yağıntılar mühüm əhəmiyyət kəsb etmir. Dəniz səthinə düşən illik yağıntının miqdarı təxminən 200 mm-ə çatır.

**Əsas adaları** – Ümumilikdə Xəzərdə 50-yə yaxın irili-xırdalı ada vardır ki, bunların da bütövlükdə sahəsi 350 $km^2$ təşkil edir.

Amma, su səviyyəsinin enib-qalxması və palçıq vulkanlarının vaxtaşırı aktivləşməsi kiçik adaların həm sayınım, həm də sahəsinin dəyişməsinə səbəb olur. Adalar əsasən kiçik olub, böyük hissəsi isə şimali Xəzərdə yerləşir. Burada əsasən Tulen adaları arxipelağı yerləşir ki, onun da içərisində Kulalı və Morskoy adaları xüsusi yer tutur. Burada həmçinin Çeçen kimi nisbətən böyük ada da yerləşir. Şimaldan Xəzərə tökülən Volqa özü ilə bərabər xeyli miqdarda çöküntü gətirdiyindən həmin hissədə səth suları xeyli dayazdır və bu səbəbdən çoxlu kiçik adalar meydana gəlmişdir. Yeri gəlmişkən qeyd edək ki, Volqanın mənsəbində çayın gətirdiyi çoküntülər səbəbi ilə səth sularının xeyli dayaz olmasından iri tonnajlı gəmilərin Volqaya daxil olması xeyli çətinləşir.

Xəzərin orta hissəsində Abşeron arxipelağı adaları yerləşir. Bunların da içərisində ən böyüyü Çilov adasıdır. Həmçinin Pirallahı adası da burada yerləşir. Hələ 1723-cü ildə I Pyotrun Xəzər sahili Azərbaycan ərazilərinə yürüşü gedişində "Avtronal" gəmisində aparılan qeydlərdə sözügedən adanın adı rus dilində "Svyatoy" kimi qeydə alınmışdır. Azərbaycanda sovet hakimiyyəti qyrukduqdan sonra – 1936-cı ildə inqilabçı F.A.Sergeyevin gizli ləqəbi olan "Artyom"un şərəfinə ada Artyom olaraq adlanmağa başlamışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra-1999-cu ildə Milli Məclisin 708 saylı qərarı ilə ada öz tarixi adına yenidən qovuşdu. Yeri gəlmişkən Pirallahı adası Orta Xəzərdə Çilov adasından sonra böyüklüyünə görə ikinci sırada yer alır. Xəzərin cənubunda Qum, Daş-Zirə, Böyük-Zirə, Xara-Zirə, Zənbil, Qarasu, Səngi-Muğan və s. kimi kiçik adalar yer almaqdadır. Cənubi Xəzərin şərq hissəsində Oqurçinski adası yerləşir. Bundan əlavə Xəzərin cənubunda həmçinin Aşur-ada və bir sıra digər kiçik adalar vardır.

**İqlim:** Dəniz hövzəsində yaranan təbii şəraitdə soyuq Arktika hava kütlələri, rütubətli Atlantik okeanı, Orta Asiya quru kontinental və isti tropik Aralıq dənizi hava cərəyanları həlledici rol oynayır. Sahilboyu ərazilərdə formalaşan təbii iqlim şəraiti hər bir konkret sahənin relyefindən bilavasitə asılıdır. Şimalda düzən sahillər üçün mülayim quru kontinental iqlim tipikdir. Dənizin qərb sahillərinin

dağlıq zonasında mülayim-isti iqlim, şərq sahillərində isə çox isti, kəskin-kontinental və arid iqlim üstünlük təşkil edir. Cənub-qərb və cənub sahilləri isə rütubətli subtropik zonası kimi başqa Xəzəryanı sahələrdən fərqlənir. Bu hövzədə küləklər əsasən şimal-qərb, şimal istiqamətində əsir ki, bu da daha çox Abşeron yarımadasını tutur.

Xəzər coğrafi baxımdan əsasən aşağı en dairəsində yerləşdiyindən bol günəş enerjisi düşür və buradakı radiasiya balansı müsbətdir. Radiasiya balansının qiyməti 60 kkal/sm$^2$ bərabərdir.

**Axınlar:** Xəzərdə axınların yaranması bura tökülən çaylar və küləklərin təsiri ilə baş verir. Xəzərə tökülən ən böyük çay Volqa olduğundan axınların yaranmasının bir qismi həmin çayın təsiri altında baş verir və onun mənsəbindən xeyli məsafədə bu axınlar müşahidə edilir. Hakim küləklərin təsiri altında da cəryanlar yaranır. Qeyd edək ki, axınların yaranma səbəbləri arasında küləklər əsas yer tutur. Bundan əlavə, dənizin müxtəlif sahələrində yerli şəraitdən asılı olaraq axınlar meydana gəlir. Tempratur fərqliliyi suyun sıxlığına təsir göstərir ki, bu da sututarın şimalı ilə cənubu arasında ortaya çıxır. Adıçəkilən fərqlilik öz növbəsində qradient axınların yaranmasına səbəb olur. Bu tip axınlar əsasən qışda olur ki, bu da daha çox həmin vaxt dənizin şimal ilə cənub hissələri arasında temperatur fərqliliyinin yüksək olması ilə bağlıdır. Cərəyanların axın istiqaməti əsasən saat əqrəbinin əksi istiqamətindədir və onların orta sürəti saniyədə 15-20 metrdir.

**Duzluluq:** Baxnayaraq ki, Xəzərin suları okean mənşəlidir, ümumilikdə onun suyunun duzluluq səviyyəsi okean suları ilə müqayisədə 3 dəfə aşağıdır. Alimlər hesab edir ki, Xəzər qədim dövrdə Qara və Azov dənizləri ilə birlikdə Para Tetis dənizinin tərkibində olmuşdur. Bu da Xəzərə daha çox şirin sulu çayların tökülməsi ilə bağlıdır. Sututarın daxilində də suyun duzluluq göstəriciləri müxtəlifdir. Belə ki, şimaldan şirin sulu Volqa, Ural və Emba kimi çayların tökülməsi ilə əlaqədar şimal hissədə duzluluq göstəricisi xeyli aşağıdır. Volqanın mənsəb hissəsi və ətrafında duzluluq 0,3%-dir. Cənuba doğru isə duzluluq göstəricisi artır. Dənizin qərb hissəsində duzluğun illik orta qiyməti 12,5%, şərq hissəsində isə 13.0%-dir.

Ən yüksək duzluluq Qaraboğazqol körfəzində qeydə alınmışdır ki, (300-350 promil) bu da qeyd etdiyimiz kimi bura heç bir çayın tökülməməsi ilə bağlıdır. Ümumilikdə Xəzərin orta duzluluğu 12,85 promildir. Okean suyunun orta duzluluq göstəricisi isə 35 promildir. Dənizin müxtəlif hissələrində duzluluq fərqli olduğu kimi, mövsümdən də asılı olaraq duzluluq dəyişir. Qış aylarında şimaldan Xəzərə tökülən çayların donması səbəbilə şirin suyun həcmi azalır ki, bu da duzluluğun artmasını şərtləndirir.

**Tempratur:** Xəzərin iqlimində kəskin kontinentallıq xüsusiyyətləri vardır ki, bu da onun meredian boyunca və komtinentin dərinliyində yerləşməsi ilə bağlıdır. Xəzərin şimal hissəsində qış aylarında havanın orta aylıq tempraturu -8...-10° dərəcə müşahidə edildiya halda cənub hissədə isə tam bunun əksi olur. Müvafiq zamanda cənub hissədə tempratur +8°...+10°C olur. Şimalda mülayim quru kontinental iqlim üstünlük təşkil edir. Xəzərin qərb sahilləri üçün mülayim-isti iqlim, şərq sahillərində isə çox isti, kəskin-kontinental və arid iqlim üstünlük təşkil edir. Yay mövsümündə isə bu kəskin temperatur fərqi daha az müşahidə olunur və demək olar ki, bərabərləşir. Qeyd olunan dövrdə şimal hissədə +24-25°C, cənub hissədə isə +26-27°C olur. Qərb hissədə xüsusilə Lənkəran-Astara bölgəsində və müəyyən qədər də cənubda həmçinin rütubətli subtropik iqlim mövcuddur. Xəzərin şimal ilə cənubu arasında tempratur fərqi qış aylarında daha çox nəzərə çarpır. Xəzərin şimal hissəsi qışda 3-4 ay buzlarla örtülü olur. Orta və Cənubi Xəzərdə çox nadir hallarda buz əmələ gəlir. Şimali Xəzərdə isə buzlanma noyabr ayından başlayaraq yaz aylarının başlanğıcına qədər davam edir. Buz təbəqəsinin qalınlığı 40-70 sm-ə çatır.

**Küləklər:** Xəzərdə əsən kükəklər əsasən şimal-qərb, şimal və cənub istiqamətlərində olur. Şimal küləyi xalq arasında "xəzri", cənub küləyi isə "gilavar" adlanır. Şimal külələri daha çox Orta Xəzər və xüsusən də Abşeron yarımadası üçün spesfikdir. Xəzri adlanan şimal küləyinə əsasən qış aylarında rast gəlinir. Şimal və şimal-qərb küləkləri güclü qasırğalar əmələ gətirir. Belə vaxtlarda küləyin sürəti saniyədə 40-44 metrə çatır. Sözügedən su hövzəsində küləyin illik or-

ta sürəti 3/7 m-san-dir. Belə güclü küləkli günlərin sayı adətən 24-32 gün müddətində olur. Orta Xəzərin şərq sahillərində sentyabr-aprel aylarında əsasən şərq küləkləri, may-avqust aylarında isə şimal-qərb və qərb küləkləri əsir. Cənubi Xəzərin orta hissəsində isə il boyu şimal küləkləri hakim olur. Xəzərdə küləyin sürəti qışda daha çox olur. Bununla belə Abşeron yarımadasında iyul-avqust aylarında da güclü küləklər olur. Sözügedən su hövzəsinin ən az külək olan yeri İran və Dağıstan sahilləridir ki, bu da burada mövcud olan yüksək dağ silsilələri ilə bağlıdır.

**Bioresursları (nərəkimilər):** Dünyanın ən məhsuldar su sahəsi olan Xəzər yeganə dənizdir ki, nərə balıqlarının böyük ehtiyatı (təxminən 95%) burada cəmləşmişdir. Məlumdur ki, nərə balığı dünya bazarında çox qiymətli sayılan qara kürünün "istehsalçısıdır". Xatırlasaq ki, dünya bazarında 1 kq qara kürünün qiyməti 750 dollar civarındadır, onda dünyanın bu nadir canlılarının Xəzəryanı dövlətlər üçün əhəmiyyəti tam aydın olur. Təəssüf ki, bu nadir canlıların sayı sürətlə azalmaqdadır ki, bunun da əsas səbəbi kimi qanunsuz balıq ovu və həddən artıq ekoloji vəziyyətin pisləşməsi hesab edilir. Nərəkimilərin qanunsuz ovlanması bütün sahilyanı dövlətlərdə aparılsa da, bu daha çox Rusiya ərazisində müşühidə edilir. Əvvala qeyd edək ki, Xəzərdə yeganə balıqçılıq donanması məhz Rusiya ərazisində-Həştərxanda yerləşir. Digər tərəfdən nərəkimilərin kütləvi ovu məhz onların kürü tökmə vaxtına təsadüf edir. Kürü tökmək üçün isə balıqlar şirin su olan yerə kütləvi axın edirlər ki, bu da daha çox sözügedən su hövzəsinə ən böyük çay olaraq tökülən Volqanın mənsəbi ilə bağlıdır. Hüquqi statusun müəyyənləşməsində mühüm komponentlərdən biri də onun bioloji resurslarından istifadənin tənzimlənməsi məsələsidir. Baxmayaraq ki, təbiətin bu nadir canlılarının mühafizəsi üçün sahilyanı dövlətlər üçün ov kvotası müəyyən edilmişdir, amma brokonyerlər qanunsuz fəaliyyətlərini davam etdirirlər. Ona görə də, nərəkimilərin Xəzərdəki genofondu ciddi şəkildə qorunur. Qeyd edək ki, planetdə qara kürünün əsas ixracı məhz Xəzərin hesabınadır. Xəzərin hüquqi statusu böyük məsələləri-ekologiya, gəmiçilik, dənizin təbii və bioloji ehtiyatlarının qo-

runması, çirklənmənin qarşısının alınması və s. məsələləri əhatə edir. Bu məsələlər üzərində bu günə qədər də dövlətlərarası siyasi və elmi-nəzəri diskussiyalar getməkdədir. Yeni müstəqillik qazanmış hər bir sahilyanı dövlət öz müstəqilliyini möhkəmləndirmək və iqtisadiyyatının çoxsaylı problemlərini həll etmək üçün Xəzərin təbii ehtiyatlarından maksimum şəkildə bəhrələnmək istəyir.

**Su səviyyəsinin dəyişkənliyi:** Xəzərin mühüm xüsusiyyətlərindən biri onun su səviyyəsinin qalxıb-enməsidir ki, mütəxəssislər tərəfindən bunun da əsas səbəbi kimi su balansı elementlərinin dəyişməsi göstərilir. Xəzərin su balansının isə təxminən 80%-ni bura tökülən çay suları təşkil edir. Çay sularının isə 82%-i məhz Volqa vasitəsilə bura daxil olur. Hərçənd sy səviyyəsinin dəyişməsi səbəblərində alim və mütəxəssislər yekdil fikirə malik deyildir. Alimlərin bir qismi iqlim dəyişikliyini önə çəkərək yağıntıların azalması və bunun müqabilində dənizə tökülən çayların sululuğunun azalması və tempraturun yüksəlməsi ilə buxarlanma səviyyəsinin də müvafiq olaraq artmasını önə çəkirlər. Digər qrup alimlər isə əsasən geoloji amilləri önə çəkir. Xəzərdə su səviyyəsinin dəyişməsi son 200 ildə 3,5 metr olmuşdur. Dəniz səviyyəsinin dəyişməsi bəzən aylar üzrə də müşahidə edilir. Bu da 30-40 sm civarında müşahidə edilir. İllik su səviyyəsinin qalxmasında maksimal hədd iyul-avqust aylarında, minimal hədd isə dekabr-fevral aylarında baş verir ki, bunun da əsas səbəbi kimi qış aylarında Volqanın donması nəticəsində Xəzərə daxil olan çay sularının həcminin azlması ilə izah edilə bilər. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, sözügedən su hövzəsinin səviyyəsi 1830-cu ildən 1929-cu ilə qədər 100 il müddətində okean səviyyəsinin mənfi 26,00 MBS mütləq yüksəklikində (Baltik Sistemi) yerləşmiş və səviyyə dəyişmələrinin amplitudu 0,5 m olmuşdur. 1930-cu ildən başlayaraq su səviyyəsi enməyə başlamış və 1977-ci ilə qədər 3 m aşağı düşmüşdür. Həmin ildə son 500 ildə Xəzərin ən aşağı su səviyyəsi qeydə alınmışdır ki, bu da mənfi 29,00 MBS mütləq yüksəklikdə olmuşdur. 1978-ci ildən başlayaraq su səviyyəsinin sürətlə qalxması başlamışdır. Bu da ən yüksək həddinə 1995-ci ildə çatmışdır. Əgər 1996-2000-ci illərdə su səviyyəsinin

enməsi müşahidə olunubsa, 2001-ci ildən bu azalma yüksəlmə ilə əvəzlənmişdir. 2001-2005-ci illərdə Xəzərin səviyyəsi 30 sm-ə qədər qalxmışdır. 2006-cı ildən isə yenidən enmə nəzərə çarpmağa başlamışdır. Dəniz səviyyəsinin tərəddüdü iqlim elementləri ilə əlaqədar olduğundan həmin prosesin uzun müddətli proqnozunu vermək çətinlik yaradır. Paleocoğrafi və tarixi məlumatlara görə son üç min ildə Xəzərin su səviyyəsinin dəyişmə amplitudası 15 metrə yaxın olmuşdur. Ümumiyyətlə, Xəzərdə səviyyə dəyişikliyinin öyrənilməsinə 1837-ci ildən etibarən başlanmışdır. Maraqlı faktdır ki, Xəzərin digər iri sututarlardan fərqləndirən mühüm xüsusiyyətlərindən biru olan səviyyə tərəddünün öyrənilməsi işi akademik C.Lents tərəfindən məhz Bakıda başlanmışdır. İndiyə qədər aparılan müşahidə-tədqiqatlar nəticəsində ən yüksək su səviyyəsi 1882-ci ildə qeydə alınmışdır ki, bu vaxt Xəzərin səviyyəsi 25,2 metr qalxmışdır. Ən aşağı su səviyyəsi isə 1977-ci ildə olmuşdur ki, həmin vaxt da su səviyyəsi 29 metr aşağı enmişdir.

**Təbii qoruqlar:** Xəzər sahilində mühüm əhəmiyyətə malik qoruqlar vardır. Rusiyada Həştərxan, Türkmənistanda Xəzər (əvvəlki adı Krasnovodsk), Azərbaycanda isə Qızılağac təbii qoruqları nəinki, regionun, ümumilikdə dünya təbiətinin qorunmasında özünəməxsus yerə malikdirlər. Adıçəkilən qoruqların fəaliyyəti Xəzərin rejimi ilə sıx surətdə bağlıdır. Xəzərin su səviyyəsi, duzluluğu, eləcə də bioloji rejimi qoruqlara bilavasitə təsir göstərir.

## I.2. Xəzərə nəzarəti ələ keçirmək uğrunda tarixən aparılmış dövlətlərarası mübarizə

Tarix boyu Xəzərin geosiyasi xüsusiyyətləri mühüm əhəmiyyət kəsb etmişdir. Bizə gəlib çatmış yazılı mənbələrdən aydın olur ki, Xəzəri hələ antik dövrün alim və səyyahları öyrənib təsvir etmişlər. Onların bəziləri ehtimal edirdilər ki Xəzərin nə vaxtsa Qara dənizlə əlaqəsi olmuşdur. Qədim yunan əsatirlərinin əfsanəvi qəhrəmanları – arqonavtlar guya Manıc boğazı vasitəsilə Qara dənizdən

Xəzərə keçmişdilər. Miletli Hekatey, Herodot, Aristotel və eləcə də, yaxın dövrün alim və coğrafiyaşünaslarının əsərlərində Xəzər dənizi qapalı hövzə yaxud, okean körfəzi kimi təsvir olunur. Yeri gəlmişkən qeyd edək ki, Xəzər haqqında ilk yazılı məlumatlar e.ə VI-V əsrlərdə yaşamış qədim yunan coğrafşünası və tarixçisi hesab edilən Miletli Hekateyə məxsusdur. Strabonun Coğrafiya əsərində Xəzər qərbdən şərqə doğru paralel uzanmış hövzə kimi səciyyələndirilir. Böyük mütəfəkkir Aristotel Xəzərin qapalı su hövzəsi olması fikrini söyləməklə yanaşı onun Qara dənizlə yeraltı əlaqəsinin olmasını söyləməsi bir qədər təəccüb doğurur. Flavi Arrian məlumat verir ki, e.ə IV əsrin 20-ci illərinin əvvəllərində Orta Asiyanın işğalını həyata keçirən Makedoniyalı İsgəndər Xəzərin okeanla əlaqəsinin olub-olmamasını aydınlaşdırmaq üçün sərkərdəsi Heraklitə donanma yaradıb bu əmri yerinə yetirməyi tapşırsa da onun vaxtsız ölümü bunu reallaşdırmağa imkan verməmişdir. E.ə 285-280-ci illərdə I Selevk Nikator Hirkan hakimi Partokla Xəzərin bütün sahillərinə üzüb onun xüsusiyyətlərinin öyrənməsini tapşırmışdır. Partokl səfərinin sonunda Xəzərin şimalda okean ilə birləşdiyi qənaətinə gəlir. Bu fikirlə bağlı müxtəlif fərziyyələr irəli sürülmüşdür. Bir fikirə görə Partokl Qaraboğazqöl bağazına gedən yolu okeana gedən böğaz hesab etmiş, digər fikirə görə isə Volqanı okeana gedən böğaz hesab etmişdir və s. E.ə II əsrdə Ptolomey Xəzərin qapalı su hövzəsi olması fikrini tam qətiyyətlə söyləmişdir.

E.ə. I əsrdə Pompeyin başçılığı altında Roma ordusunun Qafqaza, o cümlədən Albaniyaya yürüşünün bir məqsədi də Xəzər sahilinə çıxıb, burada möhkəmlənmək və Hindistanla Qara dəniz arasındakı ticarət yoluna nəzarəti əlində saxlamaq idi.

VII əsrdə islamın yayılması və ərəb xilafətinin sərhədlərinin genişlənməsi ilə Xəzər və onun sahilyanı zolağı ərəb işğalçılarının və tədqiqatçı alimlərin xüsusi diqqət obyektinə çevrildi. VII əsrdən IX əsrədək Xəzərin cənub və eləcə də qərb və şərq hissələri ərəblərin nəzarəti altında olmuşdur. Ona görə də VIII-XI əsrlər ərəb mənbələrinin bir çoxu Xəzərə həsr edilmişdir və bu mənbələrdə o, Xarəzim dənizi, Təbəristan dənizi, əl-Xəzər, əl-Xəzəriyyə və s. hid-

ronimlər kimi də işlədilirdi. X əsr ərəb coğrafşünaslarından olan Əbu-İshaq-İbrahim ibn Məhəmməd İstəxri çoxillik səyahətinin yekunu olaraq "Məmləkətə yollar kitabı"nı yazmışdır və burada bir neçə xəritə çəkmişdir. Həmin xəritələrdən birində Xəzərin təsviri verilmişdir. İstəxrinin xəritəsində həmin dövr ərəb coğrafşünaslığına xas olaraq Xəzər girdə formada, adalar isə dairə formasında təsvir edilmişdir. Müəllif Xəzəri Bəhr-ül-Xəzər adlandırırdı. Maraqlıdır ki, xəritədə müəyyən yanlışlıqlara yol verilsə də (Xəritədə Xəzərin sahilindəki məntəqələrin yerləşməsində bura tökülən çaylar və hövsənin adalarının yerləşməsində uyğunsuzlar vardır) Xəzər dünya okeanı ilə əlaqəsi olmayan qapalı bir dəniz kimi verilmişdir.

1099-1165-ci illərdə yaşamış digər ərəb coğrafşünası Əbü-Abdulla Məhəmməd İdrisi "Nuzhatul-muştak" adlı əsər yazmış və həmin əsərə əlavə olaraq 70 vərəqlik xəritə yaratmışdır. Müəllif bu sahədə xeyli təcrübə topladıqdan sonra 1154-cü ildə ərəb coğrafşünaslığına xas olaraq dairəvi formada dünyanın icmalı xəritəsini hazırlamışdır. İdrisinin xəritəsini İstəxrinin xəritəsi ilə müqyisə etdikdə onun üstünlükləri aydın görünür. Belə ki, İdrisi atlası hazırlayarkən meridian və paralellər də göstərilmişdir. Xəritədə Xəzər dənizi Təbəristan dənizi olaraq adlandırılmışdır. Qeyd edək ki, İdrisinin hazırladığı bu xəritə 1926-cı ildə Şturqatda Müller tərəfindən latın hərfləri ilə nəşr edilmişdir. Xəritədə Xəzər şimaldan cənuba doğru meridian istiqamətində uzanan şəkildə verilmişdir. Orta əsrlərin digər həm şərq (Mahmud Kaşğari, Mustovfi Qəzvini, Məhəmməd İbn-Əli İbn-Əhməd Əl-Şərəfi) həm də qərb (Riçard Heldinhen (Gereford kilsəsində saxlanıldığı üçün tarixə məhz bu adla daxil olmuşdur), Marino Sanuto, Kataloniya xəritəsi, Fra Mauro, Martin Valdzemyuller, Lezina portulan xəritəsi (Lezina Xvar adasında yer adıdır), Antoni Cenkinson, Adam Oliyari, Gessel Kerrits xəritəsi, Nikolay Piskator, Nikolay Vitsen, Yan Strüys, Van Verden, Fyodor İvanoviç Soymonov və digərlərinin xəritələrində Xəzərin təsviri verilmişdir. Araşdırmamız bu istiqamətdə olmadığından həmin müəlliflərin adlarının çəkilməsi ilə kifayətlənirik.

IX-XI əsrlərdə mövcud olmuş Azərbaycan feodal dövlətləri Xəzərdə hərbi donanma yarada bilmədilər. Müəyyən məqamları hə-

lə də şübhə doğuran slavyanların yürüşləri belə həmin dövlətləri donanma yaratmaq istiqamətində real addımlar atmağa məcbur etmədi. Xəzərdən elə bir ciddi təhlükənin olmadığından orta əsr Azərbaycan dövlətləri ticarət əlaqələrinə daha çox diqqət yetirərək donanma quruculuğuna önəm verməmişlər ki, bu da sonradan Rusiyanın burada hökmran olmasına müəyyən mənada şərait yaratmışdır.

Xəzərin tarixən mövcud olan İpək yolunun, eləcə də Şimal-Cənub tranzit ticarət yolunun üzərində yerləşməsi onun əhəmiyyətini daha da artırırdı. Amma, bununla belə Xəzər qapalı su hövzəsi olduğundan, dünya okeanına birbaşa bağlantısı olmadığından daxili su hövzəsi hesab olunurdu. XV əsrin sonunda böyük coğrafi kəşflər nəticəsində ticarət mərkəzi kimi Antverpen şəhərinin rolu artmağa başlamışdır. Artıq bununla dünya ticarət əlaqələrində yeni bir sistem formalaşırdı. İtaliya şəhər dövlətləri şərq-qərb ticarətində oynadıqları mühüm rolu itirməyə başlamışdır. Böyük coğrafi kəşflər nəticəsində yeni ticarət yollarının açılması ənənəvi karvan yolu ilə aparılan ticarətin əhəmiyyətinin itirilməsinə, Atlantik okeanı boyu isə ticarətin inkişafına şərait yaratmış oldu. Hindistana gedən ticarət yollarında Portuqaliyanın ağalıq etməsi digər dövlətlərin şərq ölkələri ilə olan ticarətinə maneyə yaradırdı. Əslində digər qərbi Avropa dövlətlərinin şərq ölkələri ilə ticarət aparması üçün 2 yolu qalırdı. 1. Ya Uzaq Şərqə yetişmək üçün İspaniya və Portuqaliyanın nəzarətindən kənarda olan bir yol tapmaq, 2. Ya da, ənənəvi olaraq Çindən başlayıb Aralıq dənizində bitən tarixi İpək yolu ilə ticarəti davam etdirmək. İkinci istiqamət isə mütləq şəkildə Osmanlı və Səfəvi dövlətləri ilə ticari-iqtisadi münasibətləri genişləndirməyi tələb edirdi. Göründüyü kimi böyük coğrafi kəşflər nəticəsində dünya ticarət yollarının istiqamətinin dəyişməsi hələ ilk dövrlərdə İpək yoluna marağı azaltmırdı. Deməli, Xəzər hövzəsi də hələ əski çağlarda olduğu kimi tranzit əhəmiyyətini tam itirməmişdir.

Yeri gəlmişkən qeyd edək ki, İpək yolunun bitdiyi Aralıq dənizi tarixin bütün dövrlərində dünya ticarətinin əsas keçid yolu olmuşdur. Əski çağlarda Yunan şəhər dövlətləri, Finikiya, orta əsrlərdə isə İtaliya şəhər dövlətləri (Venesiya, Genuya, Florensiya) və

Osmanlı imperiyası Aralıq dənizi vasitəsilə Şərq ilə Qərb arasında, əslində isə dünya ticarətində əsas aktor olmaq uğrunda mübarizə aparmışlar. İpək yolunun bitiş nöqtəsi olan Aralıq dənizi böyük coğrafi kəşflərdən sonra bir müddət ticarət əhəmiyyətini itirsə də Süveyş kanalının açılması ilə əvvəlki tranzit üstünlüyü bərpa edilmiş oldu. Bu kanalın çəkilməsi ilə sözügedən su hövzəsi Atlantik, Hind və Sakit okeanları arasında gedən ticarətin əsas mərkəzinə çevrilmişdir. Şimali Avropanın əsas liman şəhərləri Rotterdam (Hollandiya), Antverpen (Belçika), Hamburq, Bremen (Almaniya), Felixstove-dən (İngiltərə) Çinin əsas istehsal və ixrac məntəqələrinə gedən mühüm ticarət yolu da məhz Aralıq dənizindən keçməkdədir. Başqa sözlə günümüzdə dünya dəniz daşımalarının üçdə iki hissəsi məhz bu dəniz vasitəsi ilə reallaşdırılır. Bu konteksdə əsas ixrac kəmərinin də Aralıq dənizi sahilindəki Ceyhana çəkilməsi fikrimizcə geoiqtisadi və geosiyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Xatırlasaq ki, Aralıq dənizinin sahilində 22 dövlət yerləşir və onların əksəriyyəti neft idxal edən dövlətlər olmaqla yanaşı, digər tərəfdən Qara dəniz keçidli bazarlarla müqayisədə daha böyük olan Cəbəllütariq bazarının da məhz burada yerləşməsi yuxarıda söylədiyimiz fikiri bir daha təsdiq etmiş olur. Aralıq dənizinin çox mühüm geosiyasi və geoiqtisadi əhəmiyyəti var. Hər şeydən öncə Aralıq dənizi üç qitəni-Avropa, Asiya və Afrikanı birləşdirir.

Qərbi Avropanın sürətlə dirçəlməkdə olan dövləti İngiltərə də Uzaq Şərqə çıxış əldə etmək üçün qərb istiqamətində şimala doğru çıxmağa müəyyən çətinliklər üzündən nail ola bilmədiklərindən onlar demək olr ki, bütün ümüdlərini şərq istiqamətində şimaldan Hindistana yeni yol axtarmağa yönəltdilər.

İkinci istiqamət Moskva knyazlığının ərazisindən keçirdi. İngiltərə Amerikaya gedən ticarət yollarında Portuqaliya və İspaniya, Hindistana gedən ənənəvi yolda isə Osmanlı rəqabəti ilə üzləşməli olurdu. Bütün bunlardan qurtulmaq üçün Moskva knyazlığı ərazisindən keçən və Hindistana yetişməyə imkan verən Volqa-Xəzər ticarət yolu bu ada dövlətinin xüsusi olaraq diqqət mərkəzində idi. Qeyd edək ki, bu yolla ticarətin genişləndirilməsində Osmanlı ilə

kəskin münasibətlər fonunda Səfəvi dövləti də maraqlı idi. Artıq bu vaxt Moskva knyazlığının Yaxın və Orta Şərqlə olan ticarəti bu dövlətin iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu isə həmin regionla ticarətdə vasitəçi olan Qazan və Həştərxan xanlıqlarının Moskva knyazlığı tərəfindən işğalını iqtisadi baxımdan stimullaşdırırdı. Rusiyanın Xəzər sahilinə çıxışı Qazan (1552-ci il) və Həştərxan xanlığının (1556-cı il) işğalı ilə mümkün oldu. Rusiya tarixşünaslığında adıçəkilən xanlıqların işğalını Rusiyanın yenidən Xəzər bölgəsinə qayıdışı kimi qələmə verməyə çalışırlar. IX əsrin II yarısından başlayaraq Xəzər sahillərinə yürüş pik nöqtəsinə 944-cü ildə Bərdənin işğalı ilə çatır və XI əsrdə də talançı yürüşlər davam etmişdir ki, ruslar bunu öz adlarına çıxırlar. Amma, son tədqiqatlar IX-XI əsrlərdə Xəzər sahillərinə yürüş edənlərin slavyan olmalarını şübhə altına qoyan tutarlı dəlillər ortaya çıxarmışdır.

Həştərxan xanlığının işğalı ilə Xəzər sahilinə çıxan Rusiya şərqi Avropadan Hindistana gedən Volqa-Xəzər su ticarət yolunun mühüm bir hissəsinə nəzarəti ələ keçirməklə, geniş anlamda Avrasiya məkanında əsas tranzit arteriyalarından birinə qoşulmuş oldu. Xəzər sahilində möhkəmlənmək gələcəkdə Mərkəzi Asiya və Cənubi Qafqaz istiqamətində irəliləmək üçün Rusiyaya əlavə imkanlar yaratmış olacaqdır. Rusiya qeyd olunan ərazilərin işğalını həyata keçirmək üçün Xəzərdə hərbi donanma quruculuğuna başlayacaqdır. Xəzər tək hərbi güc baxımından deyil, iqtisadi-ticari əlaqələrin inkişafı ilə cəlbedici və təşviq baxımından "yumşaq güc" anlamında da Rusiyanın istilaçı siyasətinin reallaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Qazan və Xəzər sahilində mühüm ticarət məntəqəsinə çevrilmiş Həştərxan xanlığının Moskva knyazlığı tərəfindən işğalı Osmanlı imperiyasının maraqlarına zidd idi. XVI əsrin II yarısında artıq Həştərxan Xəzərin şimalında mühüm ticarət mərkəzinə çevrilmişdir. Sənədlərdən aydın olur ki, Moskva knyazı Həştərxanda Şərqlə ticarəti aparmaq üçün iki xüsusi mehmanxana (Gilan və Rəşt) ayırıbmiş. Xəzərin şimalındakı bu liman şəhər sözügedən dövrdə Moskva knyazlığının Orta Asiya, Osmanlı imperiyası, həm-

çinin Azərbaycan və İran ilə ticarətində tranzit rolu oynayırdı. Yuxarıda qeyd etdiyimiz kimi İngiltərənin Şərq ilə ticarət etmək üçün təsis etdikləri "Moskva" kompaniyası ilə Səfəvi dövləti arasında ticarət sövdələşməsi var idi. Məlumat üçün qeyd edək ki, İngiltərənin adı çəkilən şirkəti 1555-ci ildə yaradılmışdır. "Moskva" şirkəti 1560-1570-ci illərdə Səfəvi ərazisinə 6 dəfə ekspedisiya göndərmişdir və ilk dəfə olaraq İngiltərə ilə Azərbaycan arasında birbaşa ticarət əlaqələri yaranmış olurdu ki, məhz bu ticarət də Xəzər vasitəsi ilə həyata keçirilirdi. Bu məsələlər İngiltərə kraliçası I Yelizavetanın (1558-1603) 25 aprel 1561-ci ildə Səfəvi şahı Şah I Təhmasibə göndərdiyi məktubunda da öz əksini tapmışdır. İngiltərə hökümətinin 8 may 1561-ci tarixli rəsmi tapşırığı ilə Həştərxandan Səfıvi sarayına göndərilmiş "Moskva"şirkətinin nümayəndəsi Antoni Ceniksonun diplomatik fəaliyyətində Hindistanla ticarət əlaqələrinin qurulmasında Xəzər-Volqa su yolu qırmızı xətlə keçir. Xəzər-Volqa su yolunun əhəmiyyətini anlamaq üçün "Moskva"şirkətinin agenti olan M.Lokk qeyd edirdi ki, Volqa-Xəzər su yolu ilə ticarət Osmanlı dövlətinin təhlükəsi, italyanların və ispanların xəbəri, Portuqaliya kralının icazəsi olmadan ingilislərin vasitəçiliyi ilə Avropa ölkələrinə yayıla bilər".

Şirvanın "kralı" Abdulla xan Ustaclının İngiltərənin "Moskva" şirkəti ilə ticarət müqaviləsi bağlaması həm dediklərimizi təsdiq edir həm də Xəzər hövzəsinin ticarət əhəmiyyətinin hələ də qaldığını göstərmiş olur.

Avropa dövlətlərinin Volqa-Xəzər vasitəsilə ticarətində Təbriz-Ərdəbil-Lənkəran-Bakı yolundan istifadə olunurdu ki, bu da şübhəsiz ki, həmin məntəqələrin iqtisadi inkişafına müsbət təsir göstərirdi. Əvvəllər Asiya və Avropa Aralıq dənizi vasitəsi ilə İran ərazisindən keçməklə ticarət əlaqələri həyata keçirilirdisə, XVI-VVII əsrlərdə şimaldan – Volqa-Xəzər yolu ilə Hindistanla ticarət daha əhəmiyyətli oldu. Bu isə özlüyündə Avropa tacirlərinin Azərbaycan ərazisinə axını üçün şərait yaratmış olurdu.

Rus çarı IV İvanın 1552- ci ildə Qazan xanlığını işğal etməsi ilə rusların Xəzər istiqamətində irəlləyişi daha planlı və qorxulu

şəkil aldı. Məhz belə bir vaxtda Volqaboyu, Qafqaz və Orta Asiyada strateji məqsədlərini həyata keçirmək istəyən Osmanlı sultanı II Səlimin hazırladığı plan həmin dövrdə Xəzərin dünya okeanı ilə birləşməsinə şərait yaradacaqdır.

XV əsrin II yarısında Orta Asiya ticarətinin mühüm məntəqələrindən olan Azov və Kafənin Osmanlıların əlinə keçməsi həm siyasi həm də iqtisadi baxımdan mühüm hadisə idi. Kafə gömrüyü dövlət xəzinəsinə mühüm miqdarda vəsait gətirirdi. Digər tətəfdən Osmanlı qüdrətini və nüfuzunu Asiyanın içərilərinə döğru yaymaq və şiə Səfəvilər dövlətini müəyyən qədər sıxışmış vəziyyətə salmaq üçün Orta Asiyanın sünnü xanlıqları ilə birbaşa əlaqənin yaradılması vacib idi. Bütün bunları nəzərə alan II Səlim Qara dənizi Xəzərlə birləşdirəcək kanalın çəkilməsi ilə bağlı 1569-cu ildə fərman verdi. II Səlimin bu kanalın çəkilməsi ilə məqsədlərini konkret olaraq aşağıdakı kimi qruplaşdırmaq olar

1. Rusların Qafqazlara və Orta Asiyaya çıxmasına əngəl törətmək;
2. Türküstan türkləri ilə daimi bir bağlantı qurmaq;
3. Səfəvilər dövlətini şərqdən mühasirə vəziyyətinə salmaq;
4. Sünnü Türküstan türklərinin həcc yollarını güvənlik altına almaq;
5. Xarəzm-Həştərxan-Krım ticarət yolunun güvənlik altına alınması və canlandırılması.

Tikinti işlərinə rəhbərlik etmək Kafə sancaqbəyi Qasım bəyə tapşırıldı. İşlərə sürətlə başlanılsa da, özünü göstərməkdə olan sərt qış, həmçinin qazmaçılar üzərinə kazakların arasıkəsilməz basqınları səbəbindən çox keçmədən narazılıq artdı, Bir yandan Həştərxanı mühasirədə saxlayan Osmanlı əsgərlərinin üzücü mühasirə vəziyyətindən yorulması, digər tərəfdən isə üzbəüz vuruşduqları Moskva qüvvələri ilə yanaşı kazakların arxadan həmlələri də qoşun daxilində hərcmərcliyi artırırdı. Bununla yanaşı, Osmanlı dövlətindən asılı olan Krım xanı Dövlət Gəray xan da, bu kanalın açılmasında maraqlı deyildi. Əksinə o hesab edirdi ki, inşaat layihəsi Osmanlı dövləti tərəfindən uğurla həyata keçiriləcəyi təqdirdə onsuz da yarımasılı vəziyyətində olduğu Osmanlı dövlətindən tam asılı vəziyyətə düşəcək-

dir. Bunu nəzərə alaraq Krım xanı hətta kanalın çəkilməsinin mümkünsüzlüyü ilə bağlı gizli təbliğat işi də aparırdı. Bütün bu yuxarıda deyilənlər həmin dövrdə kanalın çəkilib başa çatmasına imkan vermədi.

Osmanlı dövləti və Qafqaz əraziləri hesabına, Rusiyanı cənuba doğru genişləndirmək istəyən I Pyotrun vaxtilə türklər tərəfindən inşaasına başlanmış Volqa-Don kanalı diqqətini çəkir. Azov dənizinə uğurlu yürüşün gedişində kanalın tikintisi daha da aktuallaşdı və I Pyotr ingilis mütəxəssislərinin iştirakı ilə yenidən bu kanalın tikintisinə başladı. Kanalın tikintisində əsasən Volqaboyu türk əhalisindən və müharibələr zamanı əsir götürülmüş əhalidən geniş istifadə olunurdu. Lakin bu dəfə də kanalın tikintisi başa çatdırılmadı. Baltik sahillərinə çıxan və burada daha çox Peterburqun inşaası ilə məşğul olan I Pyotr kanalın tikilib tamamlanmasına lazımı diqqət yetirmədi. Digər tərəfdən 1711-ci ildə Rusiyanın biabırcasına Osmanlı dövlətinə uduzub Prut müqaviləsini bağlaması ilə bu kanalın tikintisi də arxa plana keçmiş oldu. Xəzərin coğrafi vəziyyətinə dəyişiklik gətirəcək bu kanalın tikintisi yalnız 1948-1952-ci illərdə başa çatdırıldı.

Avrasiya məkanında strateji mərkəz kimi Xəzər regionuna məqsədyönlü şəkildə nəzarətin həyata keçirilməsi I Pytorun adı ilə bağlıdır. I Pyotr İstanbuldakı səfiri İ.Neplyuyevə ünvanladığı məktubunda yazırdı ki, Rusiyanın maraqları zamanından və hansı qüvvənin olmasından asılı olmayaraq imkan vermir ki, Xəzərdə başqa qüvvələr möhkəmlənsin. 1714-1717-ci illərdə məhz I Pyotrun göstərişi ilə knyaz A.Bekoviç-Çerkasskinin rəhbərliyi altında Xəzərin şərq sahillərini tədqiq etmək və Mərkəzi Asiya istiqamətində rus işğalını genişləndirmək üçün bir-neçə elmi ekspedisiya təşkil edilmişdir.

Xəzərin daha ətraflı tədqiqi I Pyotrun göstərişi ilə ruslar tərəfindən aparılmışdır. I Pyotr məşhur İran yürüşündən əvvəl Xəzərin hərtərəfli öyrənilməsi haqqında göstəriş vermiş və buna uyğun olaraq A.Beskoviç-Çerkaskinin başçılığı ilə ekspedisiya təşkil olunmuşdur. XVIII əsrin 20-ci illərində İ.F.Soymonov tərəfindən Xəzərin tədqiqi aparılmış və 1731-ci ildə onun ümumi xəritəsini hazırlamışdır. Rusiyanın 1717-ci il 30 iyul tarixində Səfəvi dövləti ilə bağladığı ticarət müqaviləsi Xəzərin iqtisadi əhəmiyyətini daha da artırmış olurdu.

Sonrakı illərdə İ.V.Tokmaçev, Voynoviçem, İ.İvasintsev, Q.V.Abix, N.İ.Andrusov və digərləri Xəzərin təbii-coğrafi şəraitinin öyrənilməsində müxtəlif səviyyəli tədqiqatlar aparmışlar.

XVIII əsrin I yarısında Xəzər və onun sahilyanı ərazilərini ələ keçirmək uğrunda Rusiya-İngiltərə münasibətləri kəskinləşir. Bu rəqabət 1734-cü ildə Böyük Britaniya krallığı ilə Rusiya imperiyası arasında ticarət müqaviləsinin bağlanmasına gətirib çıxardı. Müqavilə ingilis tacirlərinə Rusiya ərazisindən keçərək Xəzər vasitəsilə Şərq ölkələri ilə ticarət etmək imkanı verirdi. Müqavilə bağlandıqdan sonra İngiltərə ilə Rusiya arasında Xəzər uğrunda mübarizə daha da gücləndi. Rusiya ilə rəsmi müqavilə bağlandıqdan sonra İran, Cənubi Qafqaz, Hindistan və Çinə Rusiya ərazisindən daha rahat, ucuz və yaxın yol axtaran İngiltərə 1735-ci ildə özünün məxfi agenti-dəniz kapitanı C.Eltonu Rusiyaya göndərmişdir. 1740-cı ildə Nadir şahla görüşən C.Elton şahdan donannma yaratmaq təklifini almışdır. Bunun müqabilində şah hər il ona 6000 tümən ödəməyə razılıq vermişdir. Xatırladaq ki, bu bizim Xəsər dənizində hərbi donanma yaratmaq üçün ilk böyük cəhdimiz idi. C.Eltonun bu fəaliyyəti Rusiya-İngiltərə münasibətlərinə soyuqluq gətirmişdir. Onun fəaliyyəti ilə bağlı bəzi məsələləri qeyd etməyi lazımli bilirik ki, təmsil etdiyi dövlətin-İngiltərənin Xəzər regionundakı maraqlarını daha aydın göstərə bilək. Con Elton 1740-cı ildə rus ordusunda xidmət etmiş Böyük Britaniya vətəndaşı idi. İstefaya çıxdıqdan sonra Azərbaycana gəlmiş, Hindistanla əlaqədə Xəzər dənizinin ticarət imkanları haqqında məlumat toplayır. Nadir şahın oğlu Rzaqulu Mirzə və şahın özü ilə görüşüb ingilis tacirlərinin burada güzəştli ticarət etməsinə dair imtiyazlar əldə edir. Bununla yanaşı İngiltərənin Şərqlə ticarətində Xəzər və ətaraf ərazilərin əhəmiyyətini özündə əks etdirən ticarət layihəsi hazırlayıb ölkəsinə göndərir. Elton məktublarında Xəzərətrafı bazarların ingilis kapitalı ilə fəth edilməsinin iqtisadi əhəmiyyətini, siyasi və beynəlxalq nəticələrini göstərməklə yanaşı ingilis hakim dairələrini inandırmağa şalışırdı ki, Xəzər ətrafında – Azərbaycanda möhkəmlənən dövlət Şərq ölkələrinə qüvvətli təsir göstərə bilər. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra himayəsiz qalmış C. Elton bir müddət İranda yaşadıqdan sonra 1751-

ci ildə öldürülmüşdür. Qeyd edək ki, XVIII əsrdə Xəzər sahillərinə səyahət etmiş digər səyyah və səfarət nümayəndələri də maraqlı məlumatlar vermişlər.

XVII əsrin 60-cı illərinin axırlarında Xəzər dənizində Stepan Razinin kazak dəstəsi ağalıq edirdi. Bu dəstə qayıqlarda Xəzərin cənub sahilində yerləşən Rəşt, Fərəhabad, Astrabad və s. Xəzərsahhili şəhərlərə basqın edirdi. Stepan Razinin kazaklarının Xəzəryanı şəhərlərə, xüsusilə 1668-ci ildə Mazandarana quldur yürüşləri Rusiyanın bu dənizi tamamilə işğal edəcəyinə işarə idi. I Pyotr Xəzəri Orta Asiya ölkələrinə və Hindistana aparan mühüm strateji yol kimi qiymətləndirərək bu su hövzəsinin və ona bitişik torpaqların ələ keçirilməsi zərurətini əsaslandırarkən göstərirdi ki, "isti sular"a yol bütün bu regiona yiyələnməkdən keçməlidir. 1722-ci ilin noyabrında I Pyotr Həştərxanda hərbi limanın tikilməsi barədə fərman verdi. Fikrimizcə, məhz bu fərman Xəzər dənizinə hərbi ekspansiyanın hüquqi əsasını qoydu.

Xəzərsahili ərazilərin bölüşdürülməsi və "hüquqi status" ilə bağlı ilk dövlətlərarası sənəd Rusiya ilə Səfəvi dövləti arasında 1723-cü il sentyabrın 12-də bağlanmış Peterburq müqaviləsidir. Bu müqavilə preambula və 5 maddədən ibarətdir. II maddədə qeyd olunurdu ki, şah əleyhinə qalxmış üsyanların yatırılması və onun hakimiyyətinin bərpası bunun müqabilində isə şah həzrətləri bütün Rusiya İmperatoru Həzrətlərinə Dərbənd, Bakı şəhərlərini,onlara məxsus torpaqları, Gilan, Mazandaran və Astrabad əyalətlərini güzəştə gedir. Bu zamandan etibarən yuxarıda göstərilən şəhərlər və əyalətlər bütün Rusiya İmperatoru Həzrətlərinin mülkiyyətinə keçir. 1724-cü il iyunun 12-də Rusiya ilə Osmanlı dövləti arasında preambula, 6 maddə və nəticədən ibarət İstanbul müqaviləsi bağlandı. Bu müqavilədə Xəzərin qərb və cənub sahilyanı ərazilərinin Rusiyanın tabeçiliyində qalması Osmanlı dövləti tərəfindən də tanındı.

XVIII əsrin I yarısında Xəzər və onun sahilyanı ərazilərini ələ keçirmək uğrunda Rusiya-İngiltərə münasibətləri kəskinləşir. Bu rəqabət 1734-cü ildə Böyük Britaniya krallığı ilə Rusiya imperiyası arasında ticarət müqaviləsinin bağlanmasına gətirib çıxardı. Müqa-

vilə ingilis tacirlərinə Rusiya ərazisindən keçərək Xəzər vasitəsilə Şərq ölkələri ilə ticarət etmək imkanı verirdi. Müqavilə bağlandıqdan sonra İngiltərə ilə Rusiya arasında Xəzər uğrunda mübarizə daha da gücləndi. Rusiya ilə rəsmi müqavilə bağlandıqdan sonra İrana, Zaqafqaziyaya, Hindistana və Çinə Rusiya ərazisindən daha rahat, ucuz və yaxın yol axtaran İngiltərə 1735-ci ildə özünün məxfi agenti-dəniz kapitanı Con Eltonu Rusiyaya göndərmişdir. Con Elton İngiltərənin Şərqlə ticarətində Xəzər və ətaraf ərazilərin əhəmiyyətini özündə əks etdirən ticarət layihəsi hazırlayıb ölkəsinə göndərmişdir. Elton məktublarında Xəzərətrafı bazarların ingilis kapitalı ilə fəth edilməsinin iqtisadi əhəmiyyətini, siyasi və beynəlxalq nəticələrini göstərməklə yanaşı ingilis hakim dairələrini inandırmağa çalışırdı ki, Xəzər ətrafında-Azərbaycanda möhkəmlənən dövlət Şərq ölkələrinə qüvvətli təsir göstərə bilər.

Xəzərətrafı Azərbaycan torpaqlarının statusu ilə bağlı Rusiya və Səfəvilər dövləti arasında növbəti müqavilə 1732-ci il yanvarın 21-də Rəşt şəhərində imzalanmışdır. Bu sazişə görə Rusiya 1722-1723-cü illərdə ələ keçirdiyi Xəzərin cənub sahillərini-daha doğrusu Kürdən cənubdakı sahilyanı əraziləri geri qaytarır və əvəzində Xəzər dənizində sərbəst üzmək, Səfəvilərlə məhdudiyyətsiz ticarət etmək hüququ əldə edirdi. 1735-ci ildə Nadir şah höküməti ilə Rusiya arasında bağlanmış Gəncə müqaviləsinə görə Kürdən şimaldakı Xəzərsahili ərazilər Nadir şah hökümətinə geri qaytarılıdı. Nadir şahın 1747-ci ildə sui-qəsd nəticəsində öldürülməsindən sonra Azərbaycanda xanlıqlar dövrü başlayır ki, bu dövrdə də vahid mərkəzləşmiş dövlətin yaradılması mümkün olmadığından bu ərazidə iri dövlətlərin xüsusilə Rusiyanın təcavüzkar siyasəti xeyli fəallaşdı. XVIII yüzillikdən başlayaraq Rusiyanın Qara dəniz və Xəzər sahillərindəki torpaqlara doğru irəliləməsi Qafqazda vəziyyəti xeyli mürəkkəbləşdirdi. XIX əsrin əvvəllərində Rusiya, Böyük Britaniya, Fransa və Almaniya (Prussiya) bütün vasitələrlə Xəzər regionunda öz hökmranlığını bərqərar etməyə çalışırdı. 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsilə bütün Azərbaycanı ələ keçirmək üçün strateji meydan yaranmaqla yanaşı həmin müqavilə ilə

Qazax, Şəmşəddil, Borçalı və Pəmbək ərazilərinin Şərqi Gürcüstanın tərkibində Rusiya tərəfindən işğalı rəsmiləşdi. Elə həmin vaxt İngiltərə də İranda Xəzərin cənub sahillərində mövqeyini möhkəmləndirməyə çalışırdı. Bu həm hərbi-geostrateji həm də ticari-iqtisadi maraqlardan irəli gəlirdi. 1801-ci il yanvarın 4-də İngiltərə (Con Malkolm) və İran (İranın birinci naziri Hacı İbrahim xan) arasında siyasi və ticarət əlaqələrinə həsr edilmiş iki müqavilə imzalandı. Ticarət müqaviləsi 5 əsas və yekun maddədən ibarət idi. Bizim diqqətimizi daha çox V maddə çəkir ki, bu maddə ilə ingilislər istənilən İran limanında və şəhərində sərbəst yaşayış evləri və saraylar tikə, sata və icarə edə bilər. İran limanlarında ingilis gəmiləri zədələndiyi halda, onların hakimləri bu gəmilərin təmirinə kömək göstərməli idi. Göründüyü kimi bu maddə ingilislərə Qacarlar dövlətinin bütün limanlarında o cümlədən onların nəzarət etdiyi Xəzər sularında sərbəst hərəkət etmək hüququ verirdi.

Birinci Rus-Qacar müharibəsi 1813-cü il oktyabrın 12-də preambula, 11 maddə və separat aktdan ibarət Gülüstan müqaviləsinin bağlanması ilə başa çatdı. Müqavilənin V maddəsi ilə Xəzərdə yalnız Rusiyaya hərbi donanma saxlamaq hüququ verilirdi. Bu maddə ilə Xəzərə sahib olmaq uğrunda Rusiyanın apardığı məqsədyönlü işğalçılıq planının həyata keçirilməsində yeni qələbəsi təsdiq olundu. 1828-ci il fevralın 10-da II Rus-Qacar müharibəsinin yekunu və Şimali Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalını rəsmiləşdirən preambula və 16 maddədən ibarət Türkmənçay müqaviləsi bağlandı. Bu müqavilənin VIII maddəsi Gülüstan müqaviləsinin V maddəsini təsdiq edirdi, yəni Rusiya Xəzər dənizində istisnasız hərbi donanma saxlamaq və İranla müstəsna ticarət etmək hüququ əldə edirdi. Bu maddə Türkmənçay müqaviləsinin qüvvədən düşməsinin elan edilməsinədək fəaliyyətdə olmuş, rəsmən 1921-ci il RSFSR-İran müqaviləsinin XI maddəsilə ləğv edilmiş, İranın Xəzərdə öz bayrağı altında üzmək hüququ təsbit olunmuşdur. Hər iki müqavilə (Gülüstan və Türkmənçay müqavilələri) Xəzər hövzəsində Rusiyanın mövqeyini gücləndirdi və Orta Asiyanın işğalı üçün imkan yaratmış oldu.

XIX əsrin ikinci yarısında, daha doğrusu 1873-cü ildə general Kaufmanın başçılığı altında rus hərbi birləşmələrinin Xivə xanlığına olan hərbi yürüşü nəticəsində Xəzərin şərq sahillərinin böyük hissəsi çar Rusiyasının nəzarəti altına keçmiş oldu. 1881-ci ildə Rusiya hərbi qüvvələri general M.D.Skobelevin rəhbərliyi altında Xəzərin şərq hissəsində yaşayan türkmən tayfalarını ram etmək üçün Axal-Təkə təşkil edilən hərbi ekspedisiya ruslar üçün uğurla nəticələndi. Xəzərin şərq hissəsi tamamilə Rusiyanın nəzarəti altına keçdi.

Bu dönəmdə Xəzərin cənubunda Qacar xanədanı xeyli zəifləmiş və rus işğalına ciddi müqavimət göstərmək iqtidarında deyildir. Tərəflər arasında 1881-ci ildə bağlanmış Ahal müqaviəsi və ardınca isə 1894-cü ildə bu müqavilənin yenilənməsi ilə Çar Rusiyasının Xəzərin şərq sahillərində sərhədləri müəyyənləşmiş oldu. 1881-ci il müqaviləsi Xəzərin istifadə rejimində hüquqi dəyişiklik etdi və hər iki dövlətin öz payını müəyyənləşdirməsini rəsmiləşdirdi. Məsələnin elmi-hüquqi əhəmiyyətə malik olan cəhəti ondan ibarət idi ki, 1881-ci il müqaviləsi Rusiya və İranın Xəzərdəki su sərhəddini müəyyən etdi. Astara (Azərbaycan) – Həsənqulu (Türkmənistan) xətti hər iki ölkənin quru ərazisinin son nöqtəsindən düz xətt boyunca çəkildi. Həmin xətdən Xəzərin cənub hissəsinə İran tərəfi, şimal hissəsinə isə, Xəzərin təxminən 85%-dən artığına Rusiya tərəfi nəzarət edirdi. Rusiya ilə Qacarlar dövləti arasında sözügedən ərazinin yekun bölünməsi prosesi 1893-cü ildə reallaşdırıldı. Bununla da Xəzər dənizinin üç tərəfinə nəzarət Rusiyanın nəzarəti altına keçmiş oldu. Amma bununla belə İngiltərə də Xəzərəyanı bölgələr uğrunda mübarizəsini davam etdirirdi. I Dünya müharibəsi zamanı dördüncü "K"-nın-Kanberranın üç "K" ilə (Keyptaun-Qahirə-Kəlküttə) Britaniya nəzarəti altında birləşməsi yolu ilə bütöv ərazinin yaradılması ideyası İngiltərənin Orta Şərqdəki siyasətinin yeni məzmununu – Xəzər və Qafqazətrafı ərazi üzərində nəzarətin yaradılmasını stimullaşdırırdı.

1917-ci ilin fevralında II rus burjua inqilabı, ardınca isə oktyabr silahlı çevrilişi ilə Rusiya imperiyası dağıldı. Bir əsrdən artıq davam edən azadlıq mücadiləsi Azərbaycan xalqının müstəqillik əldə etməsi ilə nəticələndi. 1918-ci il mayın 28-də "İstiqlaliyyət Bə-

yannaməsi"nin qəbul edilməsi yaranan Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ay ərzində çətin şərtlər daxilində ərazi bütövlüyünün təmin edilməsi istiqamətində çox ciddi addımlar atmış oldu. Dövlətçilik tariximizdə ən zəif müdafiə məslələrindən olan donanma quruculuğuna diqqət artırıldı. Xüsusilə Bakıda olan ingilis hərbi birləşmələrinin komandanlığı ilə bu istiqamətdə danışıqlar aparıldı. Baxmayaraq ki, ingilis qoşunları Bakını tərk edərkən hərbi gəmiləri Denikin qüvvələrinə verilməsi haqqında qərar verdilər, Azərbaycan Xalq Cümhuriyyəti qısa zaman ərzində Xəzərdə hərbi donanma yaradılmasına nail ola bildi. Amma bütün bunlarla yanaşı, həm regionda həm də beynəlxalq aləmdə siyasi proseslərin sürətlə irəliləməsi, bolşeviklərin yenidən rus imperiyasını bərpa etmək istiqamətində işğalçı addımları Cümhuriyyət hökümətinə Xəzərin hüquqi statusu məsələsini həll etməyə imkan vermədi. 1920-ci il 28 apreldə Azərbaycan Xalq Cümhuriyyəti bolşeviklər tərəfindən devirildi və daha 70 il müddətinə Xəzərin hüquqi statusu SSRİ ilə İran arasında imzalanmış müqavilələrlə tənzimlənəcəkdir.

III maddəsinə görə 1881-ci ildə müəyyən edilmiş Astara-Həsənqulu xətti tərəflər arasında su sərhəddi kimi qəbul edilirdi. XI maddəyə görə isə Türkmənçay müqaviləsinə əsasən Xəzərdə donanma saxlamaq hüququnu itirmiş Qacarlar dövləti bu hüququ bərpa edirdi. Burada diqqətiçəkən məqam ondan ibarət idi ki, özünü dünyaya demokratik bir ölkə kimi təqdim etməyə çalışan RSFSR formal da olsa müstəqilliyini saxlayan Azərbaycanın Xəzərdə olan hüquqlarından nə bir kəlmə danışır, nə də sözügedən 1921-ci il müqaviləsində onun adının belə çəkilməsinə imkan verməmişdir. Unutmayaq ki, həmin vaxt SSRİ hələ qurulmamış və formal da olsa Azərbaycan müstəqilliyini saxlayırdı. Yeri gəlmişkən qeyd edək ki, Rusiya tarixşünaslığında bu müqavilə böyük uğur hesab edilirdi. Müqavilənin V və VI maddələrinə görə İran ərazisindən Rusiya üçün təhlükə yaranardısa öz silahlı qüvvələrini İran ərazisinə yeridə bilirdi. 1941-ci il avqustun 25-də SSRİ İran ərazisinə müdaxilə edərkən məhz həmin müqaviləyə istinad etmişdir. 1979-cu il İran islam inqilabına qədər hüquqi qüvvəsini saxlayan müqavilə 11 no-

yabr 1979-cu ildə İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin 453/1/7640/18) nömrəli notası əsasında ləğv edilmişdir.

1922-ci ildə SSRİ qurulduqdan sonra Xəzərə üçüncü dövlətin hərbi qüvvələrinin buraxılmaması həm Moskvanın, həm də Tehranın maraqlarında xüsusi önəm daşıyırdı. 1927-ci il oktyabrın 1-də 1921-ci il 26 fevral sazişində balıqçılıqla bağlı tam nizamlanmamış məsələlərə aydınlıq gətirmək məqsədi ilə İran ilə SSRİ arasında yeni bir müqavilə imzalandı. Müqvilənin şərtlərinə görə Xəzərin cənubunda İran sahillərində balıqçılıqla məşğul olmaq üçün SSRİ ilə İran qarışıq birgə "Persrıba" ("Farsbalıq") şirkəti yaratmalı idi ki, bunun da fəaliyyət müddəti ilkin olaraq 25 il göstərilirdi.

1927-ci ildə təhlükəsizlik məsələlərini önə çəkərək SSRİ ilə İran arasında Pəhləvi limanı haqqında növbəti müqavilə imzalandı. Müqavilədə Xəzərin bir daha müstəsna formada Sovet-İran dənizi olduğu göstərilir və adıçəkilən limanda fəhlə, qulluqçu, icarədar və hansısa başqa bir formada xarici dövlətlərin vətəndaşları çalışa bilməzdilər.

Xəzərin hüquqi statusu ilə bağlı 1921-ci ili Rusiya-İran müqaviləsi SSRİ yaradılandan sonra da 1931-ci ilə qədər öz hüquqi qüvvəsini olduğu kimi saxlamış və müvafiq olaraq SSRİ-İran razılaşması kimi fəaliyyət göstərmişdir. Xəzərdən istifadə-dənizə daxilolma, ticarət və gəmiçilik haqqında növbəti SSRİ-İran müqaviləsi 27 oktyabr 1931-ci ildə bağlandı. Xəzərin üçüncü ölkələr üçün bağlı olması 1935-ci il müqaviləsinin 14 və 16-cı bəndində aydın şəkildə müəyyən edilmişdir. Orada deyilir: "Bütün Xəzər boyunca yalnız SSRİ və İrana və eynilə razılığa gələn tərəflərdən birinin vətəndaşları və ticarət-nəqliyyat təşkilatlarına məxsus olan və müvafiq olaraq SSRİ və İran bayrağı altında üzən gəmilər yerləşə bilər". Onlar gəmilərdə heyət qismində yalnız onların dövlətlərinə aid şəxslərin olması haqqında bərabərhüquqlu şəkildə razılığa gəldilər. İran hətta SSRİ-nin Pəhləvi (Ənzəli) limanının idarə heyətinin tərkibində fars vətəndaşı olmayan xidmətçilərin, işçilərin və podratçıların olmaması xahişini də yerinə yetirdi.

Bu şərtlər daxilində növbəti müqavilə 1940-cı il 25 martda bağlandı. Müqaviləyə görə Xəzərin 86%-i SSRI-nin, 14%-i isə İranın payına düşürdü. Bu müqavilə hər iki ölkənin 1921-ci il 16 fev-

ralda imzaladıqları müqavilə şərtlərinin bir daha təsdiq olunmasını özündə əks etdirmiş və Xəzərin əhəmiyyətinin hər iki tərəf üçün müstəsna dərəcədə maraqlı olduğunu vurğulamışdır. Həmçinin bu müqavilə əsasında beynəlxalq hüquq normalarına uyğun olaraq Xəzərdə azad gəmiçilik və sərbəst ticarət əlaqələri əldə edilmişdir.

1964-cü ildə İran və Sovetlər Birliyi arasında Hava sərhədləri haqqında müqavilə imzalanmışdır. Bu müqavilədə Xəzərin hava sahəsi ilə bağlı maddə yer almasa da burada iki ölkənin ərazi(quru) sularının uc nöqtələrindən (Astara-Azərbaycan, Hüseyngül (Esen-Gül)-Türkmənistan) düz bir çizgi çəkilərək Xəzər üçün uçuş bilgi bölgəsi xətti müəyyən edilmişdir. Astara-Hüseyngül hava uçuş xətti Xəzərin bölünməsi anlamına gəlməsə də həmin dönəmdə hər iki dövlətin (SSRİ və İran) Xəzərlə bağlı sərhəd məsələsində dolayı da olsa bir razılaşma kimi qiymətləndirilə bilər.

1970-ci ildə SSRİ-nin Neft Sənaye Nazirliyi tərəfindən Xəzərdə kəşfiyyat işlərinin aparılması və neft-qaz yataqlarının işlənməsi üçün hövzənin milli sektorlara bölünməsi, habelə Sovet İttifaqının quru sərhəddi ilə müəyyən edilən İran sektoruna bölünməsi həyata keçirilmişdir. Nəhayət SSRİ-nin dağılması və Xəzərsahili dövlətlərin müstəqilliklərinə qovuşması ilə bu qapalı su hövzəsinin hüquqi statusu yeni formatda aktuallıq kəsb etdi. Bu dövrdə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi ilk dəfə böyük masştabda "Əsrin Müqaviləsi"nin reallaşması ilə gündəmə gəldi ki, bunun da əsas səbəbi Rusiya və İran kimi dövlətlərin Azərbaycanın bu müqavilənin reallaşdırmasını əngəlləmək üçün bir təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdılar. Rusiya 1991-ci il 21 dekabr Alma-Ata bəyannaməsini xatırladaraq müstəqilliklərini bərpa etmiş dövlətlərin (keçmiş sovet respublikaları nəzərdə tutulr) SSRİ-nin bağladığı bütün müqavilələrin qüvvədə qalmasına razılıqlarını əsas gətirərək sovet dönəmində olduğu kimi Xəzərin 86%-nə iddialı olduğunu göstərmiş oldu. Təbii ki, belə vəziyyət Azərbaycan, Qazaxıstan və Türkmənistan tərəfindən qəbul edilə bilməzdi. Bu üç sahilyanı türk dövləti Rusiyanın belə davranışlarını beynəlxalq hüquqa zidd və onların suveren hüquqlarına müdaxilə kimi qiymətləndirdilər.

1992-ci ilin fevral ayında Tehranda təşkil olunan İqtisadi Əməkdaşlıq Təşkilatının konfransında İran prezidenti Ə.H.Rəfsəncani Xəzərin hüquqi rejiminin müəyyənləşdirilməsi istiqamətində sahilyanı dövlətlərin danışıqlarının başlanması və onların koordinasiya edilməsi üçün əməkdaşlıq platformasının yaradılamsının vacibliyini bildirdi. Beləliklə 1992-ci illərdən başlayaraq sahilyanı dövlətlərin ikitərəfli və çoxtərəfli görüşlərdə Xəzərin hüquqi statusu məsələsi ilə bağlı müzakirələr aparılmağa başlanılır. Aparılan danışıqlarda ilkin olaraq mübahisə doğuran obyektin-Xəzərin dəniz yoxsa göl olması daha çox müzakirə olunmağa başladı. Əgər tərəflər Xəzəri dəniz kimi qəbul etmiş olsaydı, onda 1982-ci il dənizlər haqqında beynəlxalq "Cenevrə Konvensiyası"nın müddəaları Xəzərə şamil edilməli idi. Yox, Xəzər dəniz deyil, göl kimi qəbul edilərdisə onda o sahilyanı dövlər arasında milli sektorlara bölünməli idi.

## I.3. Xəzəri dünya okeanı ilə əlaqələndirmək istiqamətində atılan addımlar-Volqa-Baltik (Marinski su sistemi) və Volqa-Don kanalı layihələri

Bilindiyi kimi Xəzər qapalı su hövzəsidir və onun təbii yolla dünya okeanı ilə əlaqəsi yoxdur. Amma, süni yolla-çəkilmiş kanallar vasitəsilə Xəzərin Qara, Azov Baltik və Ağ dənizləri ilə əlaqəsi yaranmışdır. Həmin kanalların çəkilişi iqtisadi-siyasi və hərbi-strateji məqsədlər üçün həyata keçirilmişdir ki, günümüzdə də əhəmiyyətini saxlamaqdadır. Bu kanalların tikintisi tarixinə qısa nəzərin salınması Xəzərin dünya okeanı ilə necə və hansı formada əlaqəsinin yarandığını daha aydın şəkildə başa düşməyimizə kömək etmiş olardı.

Xəzərin Baltik dənizi ilə əlqələndirlməsi ideyası Rusiya çarı I Pyotra məxsusdur. I Pyotr Baltik sahilində Sankt-Peterburq şəhərini saldırmaqla Rusiyadan Avropaya "pəncərə" açmış oldu. Şəhər nə qədər əzəmətli olsa da, onun tikintisi xeyli çətinliklər hesabına başa gəlmişdir.Yeni qurulan şəhərin tikinti materiallarına və burada məskunlaşan, inşaat işlərində çalışan insanların qida məhsullarına olan

tələbatını ödəmək üçün şəhərə alternativ və daha böyük həcmdə yüklərin daşınmasını mümkün edən yollara ehtiyac yaranmışdır. Yaradılacaq həmin su yolu ilə Rusiyanın cənub və mərkəzi hissələrindən tikinti materialları və qida məhsullarının imperiyanın şimal paytaxtına daha böyük həcmdə daşınması mümkün olmalı idi. Bu aspektdə Volqanı Neva ilə birləşdirəcək su qovşağının tikilməsi gündəmə gəlmiş oldu.

İlk olaraq 1709-cu ildə Volqanın bir qolu olan Tvertsa çayı ilə İlmen gölünə tökülən Çna çayını əlaqələndirmək üçün kanal qazıldı. İlmen gölündən isə Volxov çayı, Ladoqa gölü və Neva çayı ilə Sankt-Peterburqa yetişmək mümkün olacaqdır. Vaxtilə bu hidro sistem Vışnevolotsk su sistemi adlanırdı və adıçəkilən bu mürəkkəb hidroqrafik sistemin bir seqmentini təşkil edirdi.

I Pyotr Sankt-Peterburqa daha geniş həcmli yükləri daşınmasını təmin etmək üçün Ladoqa gölünün cənub sahili boyunca Volxov və Neva çayları arasında kanal inşa etmək fikrində idi. I Pyotrun göstərişi ilə həmin sistemin bir seqmenti olaraq Vıteqra və Kovja çaylarını əlaqələndirmək üçün kanalın tikintisinə başlanılmışdır. I Pyotrun ölümü ilə işlər tamamlanmamış qaldı.

1785-ci ildə çar II Yekatrinanın göstərişi ilə Jacob de Wittenin rəhbərliyi ilə yenidən tikinti işlərinə başlanıldı. II Yekatrina tərəfindən inşaat işləri üçün 500 min rubl ayrılsa da, vəsaitin böyük hissəsi aidiyyatı üzrə xərclənmədi və işə təhkim olunmuş şəxslər tərəfindən mənimsənildi. Sankt-Peterbuq kimi mühüm bir şəhərə yüklərin xüsusən də, qida məhsullarının çatdırılması tikinti işlərinin tezliklə başa çatdırılmasını zəruri edirdi. 1796-cı ildə vəfat edən II Yekaterinanı I Pavel əvəz edir və o da tikinti işlərinin davam etdirilməsi üçün maliyyə mənbələri axtarır. Maraqlı faktdır ki, kanalın tikintisi üçün 1799-cu ildə çar I Pavel Vyteqorsk kanalının tikintisinin davam etdirilməsi üçün 400 min rubl ayırılması haqqında göstəriş vermişdir. Həmin pul isə Rusiyada kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş fonddan ayrılmış oldu. Başqa sözlə, söyləmək nə qədr çətin osa da, "yetim uşqaların boğazından kəsərək" kanalın tikintisinin maliyyə xərclərinin qaşılanmasına qərar verilmişdir. 1799-cu ildə başlanan

inşaat işləri Rusiya Su Rabitə İdarəsinin nəzarəti altında həyata keçirilirdi. Məsələni bir az da dəqiqləşdirsək oxucular üçün daha da aydınlaşmış olardı. Həmin vaxt imperator I Pavelin xanımı Mariya Fyodrovna Sankt-Peterburq Uşaq Evinin müdirəsi idi. İmperatiça Mariya hər il kanalın tikintisi üçün Peterburq Uşaq Evinin büdcəsindən 400 min rubl vəsaitin ayrılması haqqında göstəriş vermişdir. İ Pavelin qərarı ilə xanımı Mariya Fyodrovanın bu "lütfükarlığı"nın əvəzində tikilən kanala onun şərəfinə Marinski adı verildi.

Marinski kanalının inşaası üçün layihələndirlmiş 32 şlyuzdan keçidi asanlaşdırmaq üçün I Pavel 1800-cü ildə Belozerkas tipində nisbətən yüngül və ensiz gəmilərin tikintisi üçün göstəriş vermişdir. Marinski kanalının qazıntı işlərinə 1808-ci ildə başlanılmış və iki il davam edən tikinti-qazma işlərinin ardından 21 iyul 1810-cu ildə kanalın açılış mərasimi olmuşdur. Bu sonradan Volqa-Baltik kanalı adlanacaq mürəkkəb hidroqrafik sistemin növbəti seqmenti idi. Marinski kanalının tikintisinə baş mühəndis Frans Pavloviç de-Vollant rəhbərlik etmişdir. Mürəkkəb qurluşa malik olan bu su sistemi dövrün yeni texnologiyalarından isifadə edilməklə tikilmişdır. Əslində Marinski su sistemi hidrotexniki qurğular sistemidir. Tikinti xəzinəyə təxminən 3 milyon rubla başa gəlmişdir. Marinski su sistemi Volqa çayı üzərindəki Rıbınisk şəhərindən başlayır və Şeksne çayı, Ağ göl və Kovje çayı, Marin kanalı, Viteqra çayı, Onej gölü, Sviri çayından keçərək Priladoj kanalları vasitəsi ilə Neva çayı ilə birləşir. Adıçəkilən hidroqrafik sistemin sonuncu məntəqəsi Sankt-Peterburq limanı idi.

Marinski kanalı işə düşdükdən sonra dövlət daim onu nəzarətində saxlamış və strateji əhəmiyyətini heç vaxt unutmamışdır. 1809-cu ildə çar I Aleksandr Marinsk kanalı sistemində gəmiçilik qaydalarını nizamlamaq üçün xüsusi göstəriş verdi. Burada sözügedən su sitemi ilə hərəkət edəcək gəmilərin ölçüləri, daşıma qabiliyyəti və işçi heyətinin tərkibi müəyyənləşdirilirdi. Marinski kanalında üzmək üçün tikilən gəmilərə dövlət tərəfindən müəyyən güzəştlər edilməyə başlanıldı. Belə ki, həmin şirkətlərin 3 il müddətində Meşə Təsərrüfatı İdarəsi tərəfindən vergi və cərimələrdən azad

olunması nəzərdə tutulurdu. Yuxarıda da qeyd etdiyimiz kimi sözügedən su sisteminin çəkilməsində əsas məqsəd Sankt-Peterburq şəhərinini zəruri qida və tikinti materialları ilə təhciz etmək olmuşdur. Bu aspektdə Volqa sahilindən Peterburqa göndərilən yüklər adıçəkilən çayın sahilində yerləşən Rıbıniski şəhərinə barjalarda daşınır, buradan isə gəmilərə yüklənərək Peterburq istiqamətində hərəkət edirdi. Rıbınskidən Kroxa qəsəbəsinə qədər yüklər barjlarda daşınırdı ki, bu da böyük gəmilərin dayazlıq səbəbi ilə burada üzə bilməməsi ilə əlaqədar idi. Şeksne çayının mənbə hissəsi xeyli dayaz olma səbəbi ilə gəmilər Belozerkasa yaxınlaşa bilmirdi. Buna görə də, boşaltma və yenidən yükləmə əməliyyatları həyata keçirilirdi ki, bu həm əlavə vaxt itkisi, həm də izafi maliyə xərci yaradırdı. Bundan əlavə, gəmi sahibləri yola düşmək üçün münasib küləyin əsməsini də gözləməli olurdu. Rıbınskidən Peterburqa yüklərin çatdırılması 2,5 bəzən də 3 aya qədər vaxt çəkirdi. Bütün bu çətinliklər Marinski kanalının yenidən qurulmasını tələb edirdi. XIX əsrin əvvəllərində həyata keçirilən yenidənqurma işləri çərçivəsində şlyuzlar yenilənməklə yanaşı, onların ötürücülük qabiliyyətləri də artırıldı. Sərt çay döngələri gəmilərin hərəkəti üçün daha münasib hala gətirildi. 31 mart 1809-cu ildə Rusiya imperatoru I Aleksandr Marinski hidroqrafik sistemində naviqasiya təhlükəsizliyinin yaxşılaşdırılması haqqında fərman imzalamışdı. Tikinti işlərinə rəhbərlik etmiş baş mühəndis de-Volant sözügedən su qurğusunun çatışmazlıqları arasında kanalın keçdiyi ərazi boyunca əhali məskunlaşmasının aşağı səviyyədə olmasını göstərmişdir. Bu mürəkkəb hidroqrafik sistemin təkmilləşdirilməsi üçün dövlət xəzinəsində kifayət qədər vəsait olmadığından 22 mart 1818-ci ildə imperator I Aleksandrın fərmanına əsasən Marinski kanalı ilə üzən gəmi və sallardan rüsum tutulmalı idi. Bu rüsumlar isə gəmilərin uzunluğu və dirəklərin sayına görə alınmalı idi. Bundan əlavə audit yoxlamalarından 5 qəpik və tacir rüsumlarından 5% hədəf haqqı müəyyən edilmişdir.

1820-ci ildə Viteqra çayından Qara Qum sahəsinə qədər Oneqa kanalının qazılmasına başlanılsa da, iş dəfələrlə təxirə salınmalı oldu. Yalnız 1852-ci ildə bu istiqamətdə aparılan tikinti işləri

yekunlaşdı və Oneqa kanalı gəmiçilik üçün açıq elan edildi. Bundan bir neçə il əvvəl-1846-cı ildə isə Belozorski (şlyuz) kanalının tikintisi yekunlaşdı. Adıçəkilən kanallar da Volqa-Baltik su yolunun növbəti seqmentlərini təşkil edirdi. Bu tikintilərin sayəsində Rıbınskidən Peterburqa yüklərin daşınması xeyli asanlaşmış oldu. Marinski kanalı hərbi baxımdan da özünü doğrultmuşdur. 1853-1856-cı illər Krım müharibəsində Petrburqu lazımi tikinti materialları, duz və digər qida məhsulları ilə təmin olunmasında nəqliyyat arteriyası kimi Marinski kanalı əhəmiyyətli rol oynamışdır.

7 avqust 1855-ci ildə İmperator II Aleksandr yük daşıyan gəmilərin kanaldan maneəsiz keçməsi haqqında iki mühüm fərman verdi. Demək olar ki, bütün XIX əsrdə Marinski su sistemi və onun ötürmə qabiliyyəti davamlı olaraq yenidən quruldu və təkmilləşdirildi. Görülən tədbirlər artan ehtiyac ilə əlaqələndirilirdi. 1858-ci ildən 1890-cı ilə qədər gəmilərin ölçülərinin və daşıma qabiliyyətinin artması Mariinskinin əhəmiyyətli dərəcədə yenidən qurulmasına səbəb oldu. 1870-ci ildə Mariinski su sistemi ilə bağlı xüsusi bir komitə yaradıldı. Komitənin fəaliyyətinin nəticəsi olaraq su sistemini yaxşılaşdırmaq üçün yeni bir proqram hazırlandı. Proqramın icrası ilə bütün şüluzlar uzadıldı, çoxkameralı şlyuzlar iki və tək kameralıları ilə əvəz edildi. Bütün su yolu dərinləşdirildi.

Köhnə Ladoqa, Svirski və Syasski kanallarında da yenidənqurma işləri aparıldı və bəzi yerləri isə ümumiyyətlə yenidən inşaa olundu. Marinski kanalının özü də demək olar ki, yenidən quruldu. Bu təkmiləşdirmə işləri nəticəsində Marinski sistemi Volqa çayını Baltik dənizi ilə birləşdirən mühüm nəqliyyat arteriyasına çevrildi. Yuxarıda qeyd etdiyimiz kimi, Marinski mürəkkəb hidroqrafik sistemi bir neçə dəfə yenidənqurma işlərinə məruz qalıb. Hər dəfə də artan ehtiyac onun genişləndirilməsini və daha tez Peterburqa və əks istiqamətdə yüklərin çatdırılması zərurətindən doğmuşdur. Növbəti belə yenidənqurma işləri 1890-cı illərdə həyata keçirilmişdir. Bu tədbirlər nəticəsində gəmilərin Rıbınskidən Peterburqa yetişmə müddəti 30 sutkaya enmişdir. Bunula yanaşı, yüklərin yenidən boşaltma və yükləmə prosesinə məruz qalması geniş ölçüdə həllini

tapdı. Demək olar ki, bütün şlyuzlar, kanallar dərinləşdirildi və buraxılış qabiliyyətləri artırıldı. Çaylarda da dərinləşmə işləri görüldü. Xəzinəyə 14 milyon rubla başa gələn yenidənqurma işləri 1896-cı ildə tamalanmış oldu.

Marinski sistemi ilə bağlı imperiyanın iqtisadi maraqları özünü doğrultmuşdur. İqtisadi baxımdan Rusiyanın ən məhsuldar bölgələrindən biri olan Volqa-Kama regionu hər mövsüm təxminən 500 milyon puda qədər taxıl istehsal edirdi ki, bu da sənayesi sürətlə inkişaf edən və buna adekvat olaraq əhali artımı olan Peterburqun təhcizatı baxımından olduqca mühüm əhəmiyyət daşıyırdı. Digər tərəfdən, Volqa sahilində yerləşən Rıbınski ərzaq, tikinti və digər məhsulların imperiyanın daxili quberniyalarına çatdırılması baxımından bir növ paylama məntəqəsi rolunu oynayırdı. Rıbıniskidən hər pud yükün su yolu ilə Sankt-Peterburqa çatdırılması dəmir yolu ilə müqayisədə təxminən 5 qəpik ucuz başa gəlirdi. Bu da, sözsüz ki, strateji qida məhsulu hesab edilən çörəyin qiymətinə müsbət mənada öz təsirini göstərmiş olurdu.

Marinski su sistemi tam işə düşdükdən sonra nəinki Peterburqa, demək olar ki, Rusiyanın bütün Avropa hissəsinin şimalına (Finlandiya istisna olmaqla) yüklərin əsas hissəsi məhz bu su yolu ilə daşınırdı. Yeni, daimi iş yerlərinin açılması və gəmiçiliyin inkişafı baxımından da adıçəkilən su sistemini faydalı hesab etmək olardı. Mütəxəssislər zamanında Marinski sisteminin Rusiyanin iqtisadi inkişafına mühüm töhfə verdiyini bildirir. Marinski su sisteminin bir neçə dəfə yenidən qurulması heç də onun texnoloji baxımından geri qalması və yaxud düzgün layihələndirilməməsi ilə bağlı olmayıb, sadəcə olaraq sənayenin və ticarətin sürətli inkişafı daha böyük həcmdə yüklərin daşınmasını tələb edirdi ki, bu da öz növbəsində sistemin imkanlarının artılması zərurətini qaçılmaz edirdi.

İqtisadi faktorlarla yanaşı, I Dünya müharibəsində Marinski su sistemi hərbi strateji baxımından da özünü doğrultmuşdur. Rusiyada vətəndaş müharibəsi illərində Marinski kanalında tikinti-genişləndirmə işləri dayandırılmaqla bərabər, müəyyən dağıntılara da məruz qalmışdır. Sovet hakimiyyəti bütün Rusiya ərazisində tam

olaraq bərqərar oduqdan sonra Marinski kanalının da təkmilləşdirilməsi işləri davam etdirildi. 1923-cü ildən sovet hökümətinin adıçəkilən su sistemində tikinti işləri başlamış oldu. Bu tikinti-quraşdırma konteksində Svir çayı üzərində 2 su elektrik stansiyası-Nijnesvirski (1933) və Verxnesvirski (1952) tikilib istifadəyə verildi. Bundan əlavə, adıçəkilən çay yatağı dərinləşdirilərək gəmiçilik üçün daha münasib hala gətirildi. 1941-ci ilə qədər Rıbinsk şəhərindən 13 km yuxarıda – Volqa çayı üzərində böyük su elektrik kompleksi tikildi ki, onun da əsas funksiyası suyu hündür əraziyə təzyiqlə vurmaq (ötürmək) idi. Aparılan inşaat işlərinin gedişində burada sahəsi 4500 $m^2$ olan su anbarı yaradılmış oldu.

24 sentyabr 1940-cı ildə SovİKP MK və SSRİ XKS Volqa-Baltik kanalının tikintisi haqqında qərar qəbul etdi. Elə həmin ildə Viteqra şəhərində 1 nömrəli şlyuzun inşaası üçün qazıntı işlərinə başlanıldı. Amma, 1941-ci ildə Almaniyanın SSRİ-yə hücümu ilə əlaqədar tikinti işləri yarımçıq qaldı.




*Şəkil 2. Volqa-Baltik kanalının xəritəsi*

Xatırladaq ki, adıçəkilən su qurğusu II Dünya müharibəsi dövründə Volqanı Baltiklə birləşdirən yeganə su yolu kimi istifadə

edilmişdir. Cəbhənin ehtiyaclarının ödənilməsi-ərzaq və silah-sursatın daşınması, yaralıların evakuasiyasında bu su sistemi mühüm rol oynamışdır.

Müharibə qurtardıqdan sonra-1947-ci ildən kanalın tikintisinə yenidən başlanılmış oldu. Müharibənin ölkə iqtisadiyyatına ağır zərbə vurması, işçi qüvvəsinin çatışmazlığı, maliyyə imkanlarının məhdudluğu, avadanlıq və materialların qıtlığı tikinti işlərinin sürətlə aparılmasına əngəl yaradırdı. Xatırladaq ki, həmin vaxt paralel olaraq Volqa-Don kanalının da tikintisi aparılırdı. Volqa-Don kanalında tikinti işləri tam yekunlaşmamış texnikanın bir hissəsi Volqa-Baltik kanalının tikintisinə yönəldildi. 1953-cü ildə tikinti işlərinin yenidən dayandırılmasının səbəbi isə İ.Stalinin ölümü ilə bağlı yaranmış qeyri-müəyyənlik idi. 1956-cı ildə inşaat işlərinə "Hidrolayihə"nin Leninqrad (indiki Sankt-Peterburq) filialının mühəndisi G.A.Krılovun başçılığı altında hazırlanmış layihə əsasında başlanıldı. Bu, Stalinin ölümündən sonra layihənin dəyişdirilməsi anlamına gəlirdi. Kanalda tikinti işlərinin sürətlənməsi 1959-cü ilə təsadüf edir. Həmin vaxt inşaat işlərinə A.S.Xmelnitski rəhbərlik edirdi. II Dünya müharibəsində SSRİ təxminən 27 milyon insan itkisinə məruz qaldığından və xeyli sayda insanın əmək qabiliyyətini itirməsi işçi qüvvəsinə kəskin ehtiyac yaratmışdır. SSRİ rəhbərliyi gəncləri işə cəlb etməklə vəziyyətdən çıxmağa çalışırdı. Ona görə də Volqa-Baltik kanalının tikintisi "Komsomol layihəsi" elan edildi. Kanalın tikintisinə SSRİ-nin müxtəlif bölgələrindən 25 millətin nümayəndəsi olaraq 3500-dən çox gənc oğlan və qız cəlb edilmişdir. Tikinti gedişində – 1962-ci il iyulun 7-dən başlayaraq "Volqa-Baltın inşaatçısı" adlı qəzet də çıxmağa başladı. Qəzetdə əsasən kanalın tikitisi gedişində qarşıya çıxan problemlər və baş verən mühüm hadisələr haqqında məlumat verilirdi.

Volqa-Baltik kanalı Xəzər və Baltik hövzələrini birləşdirməklə yanaşı, Qara və Azov dənizlərini də əlaqələndirmiş olur. Yuxarıda göstərilənlərdən aydın olur ki, hələ I Pyotrun dövründə bu işlərə başlanılmış, sonrakı dönəmdə II Yekatrina, I Pavel, I Aleksandrın hakimiyyəti dönəmlərində işlər davam etdirilmişdir. Bir sistem ha-

lında isə Volqa-Baltik kanalı XX əsrdə formalaşmış oldu. Sözügedən su sisteminin ümumi uzunluğu təxminən 1100 kilometrdir.




*Şəkil 3. Volqa-Baltik kanalının sxemi*

Volqa-Baltik kanalının tikintisi dövlətə 218 mln rubla başa gəlmişdir. Tikinti çox ağır şəraitdə-sərt iqlim, bataqlıqda aparılmaqla yanaşı, tikintiyə cəlb olunmuş texnikalar da inkişaf etmiş Qərb dövlətlərində istifadə olunan texnikalarla müqayisədə geridə qalırdı. Tikinti gedişində 200-dən çox yaşayış məntəqəsi köçürülmüşdür. Onlardan bir hissəsi su altında qalmışdır.

Volqa-Baltik kanalının 1 və 2 nömrəli şlyuzlarının açılışı 21 may 1961-ci ildə oldu. Ümumilikdə yenilənmiş Volqa-Baltik kanalı 1963-cü ildə istismara verildi. Yenilənmədən sonra kanalın yük dövriyyəsi də xeyli artmışdır. Volqa-Baltik kanalında 5 suqovşağı (Vıteqorski, Belousovski, Novinski, Paxomovski, Çerepovetsk), 4 su anbarı (Vıteqorski, Belousovski, Novinski, Şeksna), 3 su elektrik stansiyası (Vıteqorski, Belousovski, Şeksna), 25 bənd, 2 bərə keçidi və digər qurğular tikilmişdir. İstismara verilən zamanda kanalın yükötürmə qabiliyyəti illik 15 milyon ton idi.

Keçmişdən günümüzə Rusiyanın daxili yükdaşımalarında landşaft və iqlim səbəblərindən dolayı çaylar, göllər və daha sonra onları əlaqələndirən kanallar mühüm rol oynamışdır. 1917-ci il

Fevral burjua inqilabına qədər Rusiyanın daxili su nəqliyyatı onun Avropa hissəsində daha çox inkişaf etmişdir ki, heç şübhəsiz ki, burada da Marinski su sistemi mühüm əhəmiyyətə malik idi. Günümüzdə Rusiyada 101 min km uzunluğa malik daxili su yolunda Volqa-Baltik kanalı strateji əhəmiyyətini saxlamaqdadır. Xatırladaq ki, Rusiya dünyada ən uzun daxili su yoluna sahib ölkə ünvanına sahibdir. Rusiyanın günümüzdə hava, quru və dəmir yolu şəbəkəsi inkişaf etmiş ölkələrlə müqayisədə geri qaldığı halda, çay, göl, kanal və dənizlə birləşən su yolları isə daha yaxşı vəziyyətdir. Daxili su daşımalarının 94,4% özəl sektorun payına düşməkdədir. Rusiya daxilində ümümi yükdaşımaların 22%-i su nəqliyyatı vasitəsi ilə reallaşmaqdadır ki, heç şübhəsiz burada Volqa-Baltik kanalı əhəmiyyətli paya sahibdir. Bütün bunlarla yanaşı, günümüzdə kanalın yükötürmə qabiliyyəti illik 24 milyon tona çatdırılsa da, yükgöötürmə qabiliyyəti 5500 tona çatan gəmilərin keçidinə nail olunsa da, zaman keçdikcə Volqa-Baltik kanalının da yenidən qurulması və genişlənməsinə ehtiyac yaranmışdır.

**Volqa-Don kanalının tikintisi**

Rusiya akademik çevrəsində Volqa və Don çaylarını birləşdirən, bununla da praktik olaraq Xəzərin Azov və Qara dənizlərə çıxışının təmin olunması ideyası ətrafında bir xeyli fikir mübadiləsi aparılmışdır. Təəssüf olsun ki, rus bilim adamları adıçəkilən kanalın tikilməsi planının meydana gəlməsindən danışarkən Osmanlı sultanı II Səlimin hələ 1560-cı illərdə bu istiqamətdə aparılan fəaliyyətini "həqiqiliyi şübhə doğuran hekayə" hesab edirlər. Osmanlı sultanı II Səlimin sözügedən kanalın inşaası ilə bağlı məqsədləri əvvəlki bölmədə ətraflı şərh edildiyindən bunun üzərində təkrar dayanmağa ehtiyac duymuruq. Burada sadəcə olaraq bir-neçə məqamı qabartmağı özümüzə borc bilirik. Volqa-Don kanalının Osmanlı dövləti tərəfindən irəli sürüldüyü və bu istiqamətdə aparılmış işləri göz ardı edənlər XVI əsr gerçəkliklərini yaxşı bilməli və təhlil etməlidir. Hər şeydən öncə altı əsrlik mövcudluğu dönəmində XVI əsr Osmanlı tarixinin ən yüksək zirvə nöqtəsi "möhtəşəm yüzillik" hesab olunur. Bu əsrdə tək

Volqa-Don kanalı deyil, Süveyş və günümüzdə Mərmərə layihələri kimi tanınan projelər üzərində gərgin əmək sərf olunmuşdur.

XVI əsrin gerçəkliyi prizmasında Osmanlı dövləti Qara dənizdə şəriksiz hökmran olduğu halda, Aralıq dənizi və Hind okeanında Avropa gücləri, xüsusilə də Portuqaliya ilə kəskin bir rəqabət içərisində idi. Səfəvi dövlətinin okeana yeganə çıxışı olan Hörmüzün də Portuqaliyaya güzəştə gedilməsi məhz həmin dövrə təsadüf edir. Yavuz Sultan Səlim dönəmində böyük ölçüdə fəth edilən Ərəbistan yarımadası portuqalların təhdidləri ilə üz-üzə qalmışdır. Burada mətləbdən çox uzaqlaşmadan qısa olaraq onu da bildirməkdə fayda olduğunu hesab edirik ki, XVI əsrdə Osmanlı dövlətinin Romanın fəthi ilə də bağlı ciddi planları olmuşdur. Amma, dönəmin gerçəkliyində Roma sadəcə olaraq "keçmişin xəyali əzəməti" ünvanına sahib olduğu halda, dünya ticarətində Ərəbistan yarımadası, Hind okeanı daha böyük paya sahib idi. Başqa sözlə Ərəbistanın fəthi Romadan iqtisadi baxımdan daha üstün idi. Fəth edilən Ərəbistan yarımadasının təhlükəsizliyini təmin etmək üçün həmin əraziyə tez bir zamanda Osmanlı donanmasının çıxarılması mümkünlüyünə nail olmaq lazım idi. Osmanlı dövlətinin II Səlim dönəmində, ideyası baş vəzir Sokullu Mehmet paşaya məxsus olan Süveyş kanalı layihəsini yalnız iqtisadi məsələlərlə əlaqələndirmək həqiqətdən uzaq olardı. Bildiyimiz kimi bütün müsəlmanlar üçün müqəddəs sayılan Kəbə və peygəmbərimiz Məhəmməd ə.s.-ın məzarı yerləşən Mədinə şəhəri də buarda yerləşir. Sultan Səlimin Ərəbistan yarımadasını fəth etməsinin ardından portuqaliyalı admiral Alfanso d'Albukerenin olduqca qorxulu hesab edilən planı Osmanlı saryında ciddi müzakirələrə səbəb olmuşdur. Alfonso d'Albukerenin adıçəkilən qorxunc planına görə Ciddənın alınmasının ardından islam peyğəmbərinin nəşi qaçırılaraq Vatikana aparılmalı idi. Yeri gəlmişkən, bu avropalıların islam peyğəmbərinin nəşinin qaçırılması ilə bağlı ilk planı deyildi. Hələ xaçlı səfərləri gedişində səlbiçilər buna cəhd etmişdir. Həmin dönəm parçalanmış Səlcuqlu imperiyası içərisində ən qüdrətlisi hesab olunan Mosul Atabəyliyinin başında duran Nurəddin Zəngi (Səlahəddin Əyyubinin atası) bunun qarşısını ala bil-

mişdir. Portuqaliyalı admiral bir neçə il işləyib hazırladığı planı həyata keçirmək üçün 1517-ci ildə Ciddəyə doğru hücuma başlamış oldu. "İldırım sürəti" ilə hərəkət edən d'Albukerenin qarşısının alınması avropalıların düşüncəsində mümkünsüz hesab edildiyi halda mehmetciyin ağılasığmaz şücaəti sayəsində müsəlman dünyası bu qorxunc plandan qurtulmuş oldu. d'Albukere məğlub edilsə də, sabah digər d'Albukerinin bu iddiaya düşməyəcəyinə təminat yox idi. Məhz belə bir vaxtda Osmanlı sarayında Qırmızı dənizi Aralıq dənizi ilə birləşdirəcək Süveyş kanalının tikintisi və bunun sayəsində tez bir zamanda Hind okeanına donanma çıxara bilməsi ilə Ərəbistan yarımadasının təhlükəsizliyinin təmin edilməsi ciddi müzakirələrə yol açmışdır. Bütün bunların fonunda XVI əsrdə-özünün ən yüksək inkişaf mərhələsində Osmanlı dövləti tərəfindən Volqa-Don kanalının çəkilməsi "həqiqiliyi şübhə doğuran" hekayə deyil, həmin dövrün gerçəkliyi içərisndə tam real məsələ idi.



***Şəkil 4. Osmanlı dövlətinin tikib başa çatdıra bilmədiyi Volqa-Don kanalının bir hissəsinin görüntüsü. (Foto XX əsrin əvvəllərində Rusiya qəzetlərinin birindən götürülüb)***

250 ilə yaxın müddətdətdə Volqa ilə Don arasında kanalın açılması ilə Xəzərin Qara dəniz ilə əlaqələndirilməsi Rusiya elmi və siyasi mühitində müzakirə olunmuş və dövlətin həyatında baş vermiş siyasi-iqtisadi dəyişikliklər onun aktuallığını azaltmamışdır. Adıçəkilən kanalın çəkilməsi ilə mərkəzi Rusiya, Ural, Sibir və cənubu Rusiya, habelə digər dövlətlər arasında Qara və Aralıq dənizləri vasitəsi ilə yük dövriyyəsinin artırılması, daşıma xərclərinin azaldılması probleminin optimal şəkildə həll olunması mümkün idi.

Rusiya siyasi elitasında Volqa-Don kanalının tikintisi ideyasının meydana gəlməsi 1696-cı ildə Azova çıxış əldə edildikdən sonra Rusiyanın daxili vilayətlərindən cənub sərhədlərinə doğru su yolları yaratmaq və yeni işğal edilmiş ərazilərin də iqtisadi baxımdan dirçəlişinə imkan yaradılacağı ilə əlaqələndirilirdi. I Pyotr adıçəkilən kanalı hərbi-strateji baxımından əhəmiyyətli olacağını qeyd edirdi. Osmanlı tarixinə həsr olunmuş əsərlərdə qeyd olunur ki, "Azov sahilinə çıxış əldə etdikdən sonra bu əraziləri gəzən I Pyotr 130 il əvvəl türklərin tikdikləri, lakin yarımçıq qoyduqları kanalın qalıqlarını görərkən dərin xəyala dalaraq, sözügedən kanalın tez bir zamanda tikilməsinə göstəriş verir." Tikinti işlərinə əsasən Azov yürüşü nəticəsində ələ keçirilmiş əsirlər cəlb edilmişdir. Rus məmur və zabitləri əsir götürülmüş və çox ağır şəraitdə işləməyə məcbur edilən bu şəxsləri həqarətlə "lopatniki" (bellə işləyənlər) adlandırırdı. Maraqlıdır ki, Rusiyanın sonrakı işğalları gedişində ələ keçirdiyi və ən ağır işlərə cəl etdiyi əsirlər məhz bu adla çağırılırdı.

I Pyotrun hakimiyyəti dönəmində kanalın çəkilməsi üçün iki dəfə cəhd edildi. İlk cəhd Fransa Elmlər Akademiyasının hazırladığı layihə üzrə edilmişdir. Pyotrun göstərişi ilə Rusiyada adıçəkilən layihə ilə bağlı yüksək bilik mənsublarını böyük məvacib qarşılığında işə götürürdülər. Belə şəxslərdən biri ingilis mühəndis Y.Breykel idi ki, o 1696-cı ildə Rusiyada fəaliyyətə başlamışdır. Y.Breykel Don çayını onun qolu olan İlovlya çayı ilə Volqanın sağ qolu olan Kamışinka çayını birləşdirən 4 km uzunluğunda bir şlyuz inşaa etsə də istənilən nəticəni ala bilmədi. Rusiya dövlətinn etimadını itirən Y.Breykel çarəni qaçmaqda gördü. Kanalın çəkilməsində inad göstə-

rərən I Pyotr işlərin davam etdirilməsinə göstəriş verdi. Bu dəfə tikinti işləri digər ingilis mühəndis Con Perriyə həvalə edildi. C.Perri 1698-1712-ci illərdə Rusiyada xidmət etmiş dəniz zabiti və hidrotexniki qurğular üzrə mühəndis idi. Birinci mərhələ ilə müqayisədə indi tikinti işləri daha cənubda aparıldı ki, bu da qazıntı işlərinin daha az həcmdə aparılmasına imkan verməli idi. C.Perri qələmə aldığı "Mövcud çar hakimiyyəti dövründə Rusiyanın təsviri" adlı kitabında Kamışinka və İlovlya arasında kanalın qazılması ilə Volqa ilə Donu birləşdirmənin mümkünlüyünü bildirmişdir. C.Perri kanalın çəkilməsinin strateji baxımdan məqsədəuyğunluğunun əsaslı təhlilini vermişdir. İngilis mühəndis kanalın çəkilməsini osmanlılar, Krım türkləri, səfəvilər və Xəzər sahilində yerləşən digət ölkələr ilə müharibədə xüsusi əhəmiyyət kəsb edəcəyini əsaslandırırdı. C.Perri özündən əvvəlki mühəndislərdən fərqli olaraq layihəni daha inandırıcı arqumentlərlə əsaslandıraraq onu real hidrotexniki sistem hesab etmişdir.

Kanalın tikinti işləri ləng getdiyi bir vaxtda onun əleyhinə çıxanlar da az olmamışdır. Bunların içərisində məmurlar da var idi. Həştərxan qubernatoru B.A.Qolitsin işlərin ləng getməsindən narazılığını gizlətməyərək qeyd edirdi ki, "Allah çayları yaratmışdırsa, onlara axın üçün müəyyən bir məcra vermişdirsə, sonradan insanların onu başqa istiqamətə yönəltmək təkəbbürü" ağılsızlıqdan başqa bir şey deyildir. Hələ I Pyotrun hakimiyyəti dönəmində isveçli alim Filipp İohan fon Stralenberq Rusiyaya həsr olunmuş və daha çox Sibirdə rus əsirliyində olduğu müddətdə topladığı materiallar əsasında qələmə aldığı özünün "Avropa və Asiyanın şimal və şərq hissələrinin tarixi-coğrafi təsviri" adlı ensiklopedik əsərində Volqa-Don kanalını I Pyotr tərəfindən yaxşı planlaşdırılmış, amma reallaşdırılması böyük sayda insan həyatı bahasına başa gələn tədbirlərdən biri hesab edirdi. Müəllif sözügedən əsərində qeyd edir ki, Volqa-Don kanalın çəkilişi zamanı minlərlə insan aclıq və şaxtada həyatını itirmişdir. Üç il aparılan tikinti işləri tamamlanmamış başa çatdı. Artıq Rusiya Şimal müharibəsinə girmiş, həm müharibənin xərcləri, həm də kanal üçün lazım olan vəsaitin ödənilməsi çətinlik yaradırdı. Digər tərəfdən, tikinti işlərinin aparılması xeyli sayda işçi qüvvəsi

də tələb edirdi ki, bu da müharibə aparan bir dövlət üçün əlavə problemlər yaratmış olurdu. Qeyd olunan bu çətinliklərlə əlaqədar I Pyotr 1701-ci ildə kanalın tikintisinin dayandırılması haqqında göstəriş verdi.

C.Perri üç il ərzində tikinti işlərinin tamamlanmamasının başlıca səbəbi kimi inzibati maneələri əsas göstərmişdir. Lazımı sayda işçi qüvvəsi ilə təmin olunmama və zəruru matereallarin çatışmazlığı və ya zamanında çatdırılmaması da işlərin vaxtında tamamlanmasına şərait yaratmışdır.

II Yekatrinanın hakimiyyəti dönəmində (1762-1796) kanalın tikintisi yenidən elm adamları və dövlət səviyyəsində müzakirə olunmağa başladı. Volqaboyuna təşkil olunmuş ekspedisiyanın üzvləri akademik İ.İ. Lopaxin və P.S. Pallas Aşağı kanal yatağının təsvirlərini hazırlamışdır. Bunun ardınca 1769-cu ildə kanalın layihəsini yenidən hazırlamaq məqsədilə Volqaboyuna G.V.Lovits və P.B.İnoxdçevin rəhbərliyi altında xüsusi elmi ekspedisiya təşkil edildi. Elmi ekspedisiya hələ XVIII əsrin əvvəllərində başlanan tikinti işlərinin davam etdirilməsi imkanlarını öyrənməli idi. 1774-cü ildə Rusiyada Y.Puqaçovun rəhbərliyi altında baş vermiş üsyan gedişində akademik G.V.Lovitsnin öldürülməsi ekspedisiyanın işini yekunlaşdırmağa imkan vermədi. Ekspedisiyanın uğurla başa çatmamasına ramən, G.V.Lovitsnin köməkçisi P.B.İnoxdçev aparılan tədqiqat işləri haqqında hesabatı, o cümlədən hələ XVIII əsrin əvvəllərində ingilis mühəndis C.Perrinin rəhbərliyi altında inşa edilmiş mühəndis qurğularının nisbətən sağ qalan hissələrinin təsvirini Rusiya Elmlər Akademiyasına təqdim etmişdir. Hesabatda həmçinin, Volqa ilə Donun İlovlya və Kamışinka arasında kanalın çəkilməsi ilə birləşdirilməsinin aktuallığı əsaslandırılmışdır. Hesabatda kanalın tiintisi üçün seçilmiş ərazinin səhv olduğu bildirilir və bunu kanalın keçəcəyi traektoriyada çox sayda dolanbacların olması ilə əlaqələndirmişdir. P.B.İnoxodtsev fikrini davam etdirərək əsaslandırmağa çalışırdı ki, kanal çox dar və dolama şəkildə layihələndirilmişdir ki, bu da onun gələcəkdə genişləndirilməsi üçün bahalı torpaq işlərinə ehtiyac yaradacaqdır.

Mühəndislər tərəfindən aparılan çoxsaylı mzakirələr gedişində kanalın çəkilməsi marşurutu üçün ən optimal yer kimi Volqa ilə Donun ən yaxın məsafədə keçdiyi Çariçina ətrafının seçildiyi bildirilirdi. Bunun reallaşması üçün isə insanların orada məskunlaşması üçün yollar çəkilməli, körpülər salınmalı və bir sözlə Volqadan Dona yüklərin daşınması üçün əlverişli şərait yaradılmalı idi. XVIII əsrin 80-ci illərində bu fikirlərin bir hissəsi reallaşmağa başladı. Belə ki, Volqa kazak ordusunun ləğvindən sonra kazak yaşayış məntəqəsi Dubovka qəsəbəsinə çevirilir və bura burjua, tacir, kəndli təbəqələri tərəfindən sıx şəkildə məskunlaşdırılaraq Volqadan Dona və əks istiqamətdə yüklərin daşındığı bir tranzit ərazi statusu qazanır.

XIX əsrin 20-ci illərində Rusiyanın həm xarici, həm də daxili ticarətinin xeyli inkişaf etməsi sözügedən kanalın tikintisinə marağın yenidən artmasına səbəb oldu. Mühəndis Nikolay Kraft tərəfindən əvvəlki layihələr öyrənilərək 4 yeni variant hazırlandı. Bu vaxt çəkilməsi nəzərdə tutulan kanalın ilk dəfə olaraq iqtisadi əsaslandırılması hazırlandı. Mühəndis və eyni zamanda general olan N.Kraft tədqiqat işləri apararkən iki böyük kanalın qalıqları ilə rastlaşdığını yazırdı. Kraftın qeydlərindən aydın olur ki, yuxarı xəndək adlandırdığı 22 metr enində və 8 metr dərinliyində olan kanal vaxtilə-1569-cu ildə türklər tərəfindən qazılmışdır. Aşağı xəndək adlandırılan və 7 metr dərinliyində olan kanal isə I Pyotrun göstərişi ilə inşaa edilmişdir. Kraft yuxarı kanalın daha düzgün çəkildiyini qeyd etmişdir. XX əsrin əvvəllərində Rusiya imperiyasının Yol Nəqliyyat Nazirliyinin baş mühəndisi olan Moquçiyin də qeydlərindən anlaşılır ki, türklərin inşaa etdiyi kanal I Pyotrun göstərişi ilə çəkilən kanaldan mühəndislik və davamlılıq baxımdan daha üstün olmuşdur.

Bununla belə, kanalın tikintisi üçün tələb olunan vəsait çar admnistrasiysı tərəfindən baha hesab edildiyindən, növbəti dəfə təxirə salınmalı oldu.

XIX əsrin ikinci yarısında Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra dəmir yollarının daşıma gücünün kifayət etmədiyi və Volqaboyundan imperiyanın şimal əyalətlərinə taxıl daşınmasının fasiləsiz və böyük həcmdə həyata keçirilməsi ehtiyacı Volqa-

Don kanalının çəkilməsi zərurətini yenidən gündəmə gətirmişdir. Bundan əlavə, Donetsk kömürünün Volqaya, Ural filizinin isə Donbasa çatdırılması vacibliyi də kanalın tikintisinə olan marağı artırırdı. Kanalın layihəsinin yenidən işlənməsi üçün Şişov, Qamalitski, L.Dryu, knyaz N.Şerbatov və hüquqşünas P.Lıjindən ibarət işçi qrupu yaradıldı. Amma işçi qruunun layihəsi bəyənilmədi. Bundan sonra professor N.P.Puzırevski kanalın hidrotexniki baxımdan ən optimal variantını işləyib hazırladı. O, həmçinin tikinti işlərinə xarici kapitalı cəlb etmək məqsədilə onun tikintisi və istismarını 99 illik müddətə "Fransa-Rusiya cəmiyyəti"nə verilməsini təklif edirdi. Həmin vaxt Fransa Rusiyaya böyük həcmdə borc vermişdir ki, bunun da əsas hissəsi yeni tikilən fabrik və zavodlar üçün ayırılmışdır. Rusiyada maliyyə çatışmazlığı "xroniki" hal aldığından N.P.Puzırevski bunu "sınaqdan çıxmış Fransa kapitalı" ilə reallaşdırmağın mümkünlüyünə inanırdı.

Kanalın Rusiya üçün tək iqtisadi mahiyyətli olmaması, onun həm də strateji əhəmiyyət kəsb etməsi I Dünya müharibəsində daha aydın şəkildə göründü. Amma, iqtisadi böhranlar, ardınca isə Rus-Yapon və I Dünya müharibələri kanalın tikintisi üçün vəsait çatışmazlığını daha qabarıq şəkildə üzə çıxarmış oldu.

Rusiyada bolşeviklər siyasi hakimiyyətə gəldikdən sonra kanalın aktuallağı azalmadı, əksinə onun tikintisi yeni istismar istiqamətləri-suvarma və hidroenergetika istehsalı ilə əsaslandırılırdı. Hələ sovetləşmənin ilk çağlarında – 1918-ci ildə sovet rəhbəri V.İ.Leninin əmri ilə M.M.Qrişinin rəhbərliyi altında vaxtı ilə professor N.P.Puzırevski tərəfindən kanalın hidrotexniki baxımdan işlənən layihəsi müəyyən yeniliklər edilməklə tamamlandı. 1920-ci illərdə Volqa-Don kanalı layihəsinə daha böyük masştabda baxımağa başlanıldı. Xəzər və Volqaboyunu Rusiyanın şimal hissəsi-Sankt-Peterburq (Leninqrad) ilə birləşdirməklə yanaşı, Versal müqaviləsi müddəaları yerinə yetiriləcəyi təqdirdə Avropa su yolunun inşaası həyata keçirilməli idi ki, bu tərzdə Volqa-Don kanalı Dunay və Reyn çayları ilə də əlaqələnmiş olacaqdır. Bundan əlavə elm adamları hesab edirdilər ki, sözügedən kanalın tikintisi Ural və Donetsk kömür

mədənlərinin məhsullarının daşınması xərclərini azaldacaq, bu da həmin məhsulların satış bazarlarının genişlənməsinə şərait yaradacaqdır. Adıçəkilən kanalın çəkilməsi Rusiyanın "taxıl anbarı" hesab olunan Volqaboyundan taxıl daşınmasını ucuzlaşdırmaqla strateji qida məhsulu hesab edilən çörəyin istehsal xərclərinin aşağı salınmasına imkan verəcəkdir. Eyni zamanda, tikiləcək hidrotexniki qurğu taxta-şalban daşınması üçün də əlverişli hesab edilirdi.

1927-ci ildə Volqa-Don kanalının tikintisi ilə əlaqədar xüsusi tədqiqat və inzibati qurumlar təsis edildi. Bu qurumlar layihənin həyata keçirilməsi üçün bütün detalları özündə ehtiva edən, xüsusi bir plan işləyib hazırlamalı idi. Aparılan tədqiqat və görülən işlər 1929-1930-cu illərdə "Volqa-Don su yolu. Layihə 1927-1928" adı altında çap oundu. Bu illərdə A.S.Aksamitnovonun rəhbərliyi altında Volqa-Don kanalının texniki-iqtisadi əsaslandırılması yenidən işlənib hazırlandı. Mütəxəssislər aparılan tədqiqat işlərinin mənfi cəhətinə diqqəti çəkərək qeyd etmişdirlər ki, texniki-iqtisadi əsaslandırma hazırlanarkən elektrik enerjisi və suvarma istiqamətlərinə əhəmiyyət verilməmiş, onu yalnız nəqliyyat layihəsi kimi düşünmüşdülər.

1930-cu ildə sözügedən layihənin həyata keçirilməsi ilə əlaqədar yaradılmış bütün qurumlar ləğv edildi. Kanalın tikintisi "Hidroelektrolayihə" İnstitutuna həvalə edildi ki, bu qurum da professor Puzırevskinin layihəsinə yenidən qayıtdılar. "Hidroelektrolayihə" İnstitutu Puzırevskinin layihəsinə energetika, irriqasiya, meliorasiya və Xəzər dənizində suyun səviyyəsinin yüksəlməsi məsələlərini daxil etməklə müəyyən əlavələr etdi. Dövrün tələbinə uyğun olaraq istənilən mühüm layihə Dövlət Plan Komissiyasına təqdim edilməli, yalnız onun müsbət rəyindən sonra tikinti işlərinə başlamaq olardı. Volqa-Don kanalı ilə bağlı layihə də bu baxımdan istisna təşkil etmədi. Layihə baxılmaq üçün Dövlət Plan Komissiyasına verildi və bir müddətdən sonra mənfi rəy alındı. Kanalın strateji əhəmiyyəti nəzərə alınıb, Ümumittifaq Bolşevik Kommunist Partiyasının XVIII qurultayında layihə işlərində qüsurların tez bir zamanda aradan qaldırılıb və "üçüncü beşillik"də tikinti işlərinə başlanılması qərara alındı. II Dünya müharibəsinin başlanması layihənin tezliklə ta-

mamlanıb, tikinti işlərinə başlanmasını xeyli çətinləşdirdi. Nəhayət, kanalın sonuncu layihələndirmə işi 1940-1948-ci illərdə S.Y.Jukov-un rəhbərliyi altında SSRİ Daxili İşlər Komissarlığının "Hidrotexniki işlərin layihə-axtarış şöbəsi"nin əməkdaşları tərəfindən hazırlandı. Müharibə dövründə layihənin işlənməsinin dayandırılmaması bir daha onun strateji əhəmiyyətindən xəbər vermiş olur. 1945-ci ildə II Dünya müharibəsini qələbə ilə başa çatdıran İ.Stalinin şəxsiyyətinə, "dahiliyinə" pərəstiş pik nöqtəyə çatmışdır. Hətta, "dahi rəhbər"in təbiəti də dəyişdirməyə qadir olduğu cəmiyyətə aşılanırdı. 1940-cı illərin sonunda "təbiəti dəyişdirmək üçün Stalin planı" adlanan layihə həyata keçirilməyə başlanıldı. Bu plana əsasən SSRİ-nin cənub və cənub-şərqində iqlimi dəyişdirməli olan təbiətin elmi tənzimlənməsi üçün genişmiqyaslı bir layihə həyata keçirilməli idi ki, Volqa-Don kanalının tikintisi də onun tərkib hissəsi hesab edilirdi.

Tikinti işlərinə geniş ölçüdə II Dünya müharibəsi gedişində ələ keçirilmiş alman əsirləri və QULAQ düşərgələrində sürgün, həbs həyatı yaşayan şəxslər cəlb edilmişdir.

Müzakirələri iki əsr yarım davam edən Volqa-Don kanalının tikintisi 1948-1952-ci illərdə alman əsirlərinin iştirakı ilə həyata keçirildi. 1948-1952-ci illərdə kanalın tikintisinə ümumilikdə 236 mindən çox məhbusun cəl olunduğu bildirilir. Məhbusların sıralarında müxtəlif maddələrlə təqsirləndirilən-adi məişət cinayətlərindən tutmuş külli miqdarda dövlət əmlakının mənimsiniməsi və daha qatı cinayətlərdə ittiham olunan şəxslər yer alırdı. Siyasi baxışlararına görə həbs olunan şəxslər – residivistlər isə çoxluq təşkil etmirdi. Tikinti işləri ilə bağlı arxiv sənədlərindən aydın olur ki, hər 10 əsir və məhbus işçi üçün 1 gözətçi, 750 nəfər üçün isə 1gözətçi it ayrılmışdır. Nəzarətçilərin böyük əksəriyyəti Orta Asiya və Cənubi Qafqazdan təyin olunmuşdur ki, onlar da demək olar ki, rus dilini bilmir və işçilərlə ünsiyyət qurmağı bacarmırdılar.



*Şəkil 5. Volqa-Don kanalının tikintisində işləyən məhbus-işçilərin saxlandığı düşərgə*

Tikinti gedişində bir-neçə dəfə iğtişaşların baş verdiyi və dövlətə qarşı anti-sovet təbliğatının aparılması da sənədlərdən məlum olur. Günlük iş saatı rəsmi şəkildə 8 saat müəyyənləşməsinə baxmayaraq, Daxili İşlər naziri S.Kruqlovun 25 may 1951-ci ildə hökümətə təqdim etdiyi müraciətində kanalın tikintisini vaxtında başa çatdırılması üçün iş vaxtının 10 saata çatdırılmasına icazə verilməsini xahiş edirdi. Həmin ilin iyunun 12-də İ.Stalinin əmri ilə iş vaxtı 10 saata çatdırılır. Maraqlı faktdır ki, tikintini sürətləndirmək üçün Daxili İşlər naziri S.Kruqlov Dövlət Təhlükəsizlik Komitəsinin sədri L.Beriyaya 584 nəfərin şərti azadlığa buraxılmasına icazə istəyir və qarşı tərəf də buna müsbət yanaşaraq həmin şəxslərin azadlığa buraxılmasını təmin edir. 24 may 1949-cü il tarixində SSRİ Daxili İşlər naziri S.Kruqlov "Volqa-Don kanalının tikintisinin sürətləndirilməsi tədbirləri haqqında" xüsusi göstəriş verdi. Bu göstərişə görə tikintiyə cəlb olunmuş şəxslərə əmək haqqının verilməsi nəzərdə tutulurdu. Qeyd olunan tədbirlər tikintinin müəyyən qədər canlanmasına şərait yaratmış oldu. İşçilərdə stimul yaratmaq məqsədilə

yaxşı işləyənlərə mükafat təsis edilmişdir. Tikinti gedişində 100-ə yaxın işçi mükafata layiq görülmüşdür. Tikinti işlərini aparmaq üçün 320 ekskavator. 300 buldozer və ümumilkdə 4000 mindən çox texnika cəlb edilmişdir. Bəzi texnologiyalar isə məhz ilk dəfə burada sınaqdan çıxarılmışdır.



***Şəkil 6. Volqa-Don kanalının tikintisində çalışan məhbus-işçilər***

Kanalın tikitisi SSRİ sərhədlərindən kənarda ABŞ-da da yaxından izlənilirdi. Dönəmin ABŞ-ın öndə gedən mətbu orqanlarında “The New York Times” qəzetində kanalın tikintisi ilə bağlı SSRİ-nin XX əsrin ortalarında hələ də məcburi əməyin tətbiqindən çəkilmədiyi qeyd olunurdu.

İ.Stalinin kanalın tikintisi istiqamətində mühüm addımlar atması və xüsusi olaraq inşaat işlərini nəzarətində saxlamasına baxmayaraq, bu mühüm hidroqrafik qurğuya öz adının verilməsinə razılıq verməmişdir. Düzdür, kanalın birinci şlyuzunun qarşısında heykəltaraş Yevgeni Vuçeteçin hazırladığı 24 metr hündürlükdə Stalinin heykəli qoyulsa da 1961-ci ildə abidə sökülür və onun yerində 1973-cü ildə V.İ.Leninin abidəsi qoyulur.

Volqa ilə Donun kanal vasitəsi ilə birləşdirilməsi 1952-ci il mayın 31-də baş tutur. Kanala V.İ.Lenin adı verilir. Kanal ilə ilk dəfə S.M.Kirov adına sərnişin gəmisi hərəkət edərək 9 iyul 1952-ci ildə Volqadan Dona keçid etmişdir. Kanalın rəsmi açılışı ilə bağlı 1952-ci il iyulun 10-da SSRİ Nazirlər Sovetinin qərarı elan edildi. Qərarda göstərilirdi ki, 1952-ci il iyulun 27-dən kanalda müntəzəm olaraq sərnişin və yük gəmiləri hərəkət edəcəkdir. Sözügedən qərarla Tsimlyansk su elektrik stansiyası və suvarma qurğuları da rəsmən istifadəyə verilmiş olurdu. Elə həmin gün də bu mürəkkəb hidroqrafik qurğunun açılış mərasimi keçirilir.



***Şəkil 7. Volqa-Don kanalının açılış mərasimi***

Hökümətin qənaətinə görə Volqa-Don kanalının istismara verilməsi ilə Ağ, Baltik, Qara, Azov və Xəzər dənizlərinin vahid su nəqliyyat sisteminə qoşulması mümkün oldu.101 kilometr uzunluğunda olan kanalda 13 gəmi şlyuzu, 3 nasos stansiyası, 7 sel və suötürücü, 8 körpü, 2 qəzalı təmir maneəsi, bərə keçidləri, dayanacaq məntəqələri mövcud idi. Kanalın 45 kilometri su anbarından keçirdi.

Volqa-Don kanalının tikintisi iqtisadi, hərbi-strateji əhəmiyyəti ilə yanaşı siyasi-ideoloji baxımdan da Sovetlər Birliyi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə ki, bu dövrünə görə böyük və mühüm sayılan tikintinin reallaşdırılması SSRİ-nin iqtisadi-siyasi və hərbi qüdrətinin təcəssümü kimi qələmə verilir, rəsmi Moskva üçün heç bir işin çətinlik yaratmadığı, istənilən işin öhdəsindən gələ bilmək ehtişamıını yaradırdı.

Tikintisi iki əsr yarım müzakirə edilən sözügedən hidroqrafik qurğu ona bəslənilən ümidləri doğrultmadı. Çünki, həmin su qovşağı ilə müqayisədə ona parelel olan dəmir yolu ilə daşımalar daha ucuz və tez həyata keçirilir. Digər tərəfdən kanal Xəzər dənizini praktik olaraq qapalı su hövzəsindən tam olaraq çıxara bilmədi. İl ərzində Volqa-Don kanalından 7 mindən çox gəmi keçir ki, onların da ümumi yük dövriyyəsi 12 milyon tondan çox olur. Sonuncu dəfə 2020-2022-ci illərdə bu hidroqrafik qurğuda geniş təmir və yenidənqurma işləri aparılmışdır.

Volqa-Baltik və Volqa Don kanalları Xəzəri süni yolla da olsa, dünya okeanı ilə əlaqələndirsə də, bu su sistemlərinin buraxılış qabiliyyəti məhduddur və Xəzəryanı ölkələrin (Azərbaycan, Qazaxıstan və Türkmənistan) qapalılıqdan çıxarmaq imkanlarına malik deyildir.

Volqa-Don kanalının hazırki şəraitdə dərinliyi 3,2 metrdir ki, bu da böyük tonnajlı gəmilərin hərəkətini mümkünsüz edir. Kanalın məhdud cəhəti bununla bitmir. Oktyabr ayının sonundan başlayaraq kanalın bir hissəsi donur və bu təbiət hadisəsi martın sonlarına qədər davam edir. Həmin vaxt ərzində adıçəkilən kanalla kommersiya əhəmiyyətli yüklərin daşınması praktik olaraq dayanmış olur. Hüquqi baxımdan da kanalın sahilyanı dövlətlər tərəfindən istifadəsi xeyli çətindir. Hələ 1936-cı ildə qəbul edilmiş Rusiya Daxili Su Yolları Qanununun V maddəsi ilə Sovet İttifaqının daxili su yollarından bütün xarici gəmilərin istifadəsi qadağan edilirdi.

Həmin qanun kosmetik dəyişikliklərlə 1994-cü ilə qədər qüvvədə saxlanılmışdır ki, burada da xarici gəmilərə yalnız Rusiya hökümətinin icazəsi olduqdan sonra daxili su yollarından, o cümlədən Volqa-Don kanalından istifadə edə bilərdi. Volqa-Don kanalından

istifadə taarifləri də iqtisadi baxımdan cəlbedici görünmür və Rusiya ilə müqayisədə digər Xəzərsahili respublikalar təxminən 5 dəfə artıq rüsum ödəməli olur. Konkret olaraq söyləsək, Rusiya gəmiləri adıçəkilən kanaldan keçid üçün 5-6 min ABŞ dolları ödəməli olursa, Azərbaycam gəmiləri üçün isə bu rəqəm 20-25 min dollar həcmində olur. Kanalın dayazlıq səbəbi ilə buraxılış gücü də kifayət deyildir. Ən yaxşı halda kanal vasitəsi ilə gəmilərdə 3000 mt (metr ton) yük keçirmək mümkündür. Müqayisə üçün qeyd edək ki, Süveyş kanalında bu göstərici 160 mt, Panama kanalında isə 120 mt təşkil edir. Düzdür, Süveyş və Panama kanalları açıq dənizləri birləşdirir və bu aspektdə Volqa-Don ilə müqayisə oluna bilməz. Hər halda, sözügedən kanalın yükötürmə qabiliyyəti olduqca aşağıdır.

Qazaxıstan prezidenti N.Nazarbayev kanalın məhdud cəhətlərini səsləndirməklə Xəzəri Qara dəniz ilə birləşdirəcək yeni bir kanalın-Avrasiya kanalının çəkilməsini təklif etmişdir. Xatırladaq ki, təxminən eyni təkliflə V. Putin də 2007-ci ildə çıxış etmişdir. Sonradan bu layihə Avrasiya kanalı adını almış oldu. Qazaxıstan tərəfi Çini də bu layihəyə cəlb etməyə cəhd göstərmişdir. Rəsmi Astana hesab edir ki, Çinin "Bir yol, bir kəmər" layihəsi aspektində Avrasiya kanalı onun bir seqmentinə çevrilə bilər.

**Avrasiya kanalı layihəsi.** Xəzəri Qara və Azov dənizləri ilə birləşdirməyi nəzərdə tutan bu su sisteminin Kuma-Maniç çökəkliyi ilə tikilməsi təklif olunmuşdur. Xatırladaq ki, həmin çökəklik vasitəsilə adıçəkilən dənizlər arasında tarixin qədim çağlarında bağlantı olduğu söylənilir. Texniki qiymətləndirmə baxımından da məhz həmin ərazidən kanalın çəkilməsi uyğun hesab edilmişdir. Amma bununla belə, burada da müəyyən təbii maneələr mövcuddur. Belə ki, Azov dənizi ilə Xəzər dənizinin suayrıcının qərb yamacında 27 m, şərq hissəsində isə 54 metr fərq vardır ki, bu da şlyuzların sayında fərq yaratmış olacaqdır.

Avrasiya kanalı reallaşacağı halda Volqa-Don kanalını bir neçə parametrdə üstələmiş olcaqdır. Əvvəla. Avrasiya kanalı Volqa-Dondan fərqli olaraq dolayı deyil, Xəzər-Azov-Qara dənizləri arasında birbaşa əlaqə yaratmış olacaqdır. İkinci bir tərəfdən, yuxarıda

söylədiyimiz kimi Kuma-Maniç çökəkliyindən çəkiləcəyi halda relyefin xüsusiyyəti daha dərin qazma işlərinə ehtiyac yaratmayacaqdır. Mütəxəssislər kanalın tikintisi reallaşacağı təqdirdə 2050-ci ilə qədər onun illik axınının 50 milyon tona çatacağı bildirir.




*Şəkil 8. Volqa-Don və Avrasiya kanalları layihəsi*

Xəzəri qapalı su hövzəsindən çıxararaq dünya okeanı ilə bağlanması istiqamətində İran da aktivlik nümayiş etdirməkdədir. Hələ 2012-ci ildə rəsmi Tehran Xəzəri İran (tarixi adı Kəngər) körfəzi ilə bağlamaq üçün İranrud (farscadan-İran çayı) layihəsini irəli sürmüşdür. İran Xəzərin özünə aid hissəsinin hər iki tərəfindən şərq və qərb sahillərindən kanalın çəkilməsinə müsbət yanaşsa da, hər iki variantda xeyli problemlər mövcuddur. Qərb marşurutu şərq ilə müqayisədə qısa olsa da, relyef baxımından əlverişsizdir. Qərb marşurutunun uzunluğu 950 km təşkil edir ki, bu da başlanğıcını Səfid-rud çayından götürür. Həmçinin kanal Karun və Arvand çaylalarının yatağı ilə çəkilməli idi ki, bu da tikinti qazma işlərini bir qədər yüngülləşdirmiş olardı. Qərb marşurutunun ən böyük problemi onun Əlbruz dağ silsiləsindən keçməsi hesab olunur. 600 km məsafədə təxminən 1800 metr hündürlükdə kanal çəkilməsi reallıqdan uzaq görünür.

Şərq marşurutu daha uzun məsafəli olsa da (1600 km) burada yüksək dağ silsiləsi kimi təbii maneələr yoxdur. Əvəzində kanal İranın ən susuz ərazisi hesab olunan Daş-e lut və Daş-e Kavir kimi səhra zonalarından keçməli olacaqdır. İran mütəxəssisləri həmin ərazilərin geniş ölçüdə su probleminin həll olunacağına ümid edir. İranlı mütəxəssislər Xəzərin suyunun duzsuzlaşdırdıqdan sonra həmin kanalla axıdılması lazım gələcəyini bildirirlər. Bunun ekosistemə vuracağı ziyanla yanaşı, Xəzərin səviyyəsinin kəskin aşağı düşdüyü hazırki şəraitdə hər il təxminə 500 milyon $m^3$ suyun adıçəkilən su hövzəsindən axıdılması daha böyük fəsadlara yol açabilərdi.




***Şəkil 9. Xəzərin Hind okeanı (İran körfəzi) ilə birləşdirilməsi layihəsi (qrafiki)***

Digər tərəfdən, İranın adıçəkilən Daş-e Lut ərazisində temperatur həddindən artıq yüksəkdir, bəzən burada istilik +70° C-ə çatır ki, bu da buxarlanma məsələsinin həllini qarşıya çıxarmış olurdu. Sadaladığımız bütün bu çatışmazlıqlar Xəzərdən Hind okeanına (İran körfəzinə) kanal çəkilməsini hələ ki, mümkünsüz edir.

# II FƏSİL

## XƏZƏRİN NEFT-QAZ EHTİYATLARI VƏ ONUN SAHİLYANI DÖVLƏTLƏR ÜZRƏ YERLƏŞMƏSİ

### II.1. Dünyanın karbohidrogen ehtiyatları fonunda Xəzərin neft-qaz rezervləri

Dünya sənayesi inkişaf etdikcə enerjiyə olan tələbat da ona adekvat olaraq durmadan artmaqdadır. Enerji mənbələri içərisində isə neft və təbi qaz öz öncül yerini qoruyub saxlamaqdadır. Mütəxəssislərin mülahizələrinə görə də yaxın 50 ildə neft və təbi qaz əsas enerji mənbəyi olaraq qalacaqdır. Dünya iqtisadi artımı indi hər il daha çox enerji resurslarının mənimsənilməsi ilə təmin olunur. Neftə olan tələb mütəmadi olaraq artır. Demoqrafik dəyişikliklərin də müsbət yöndə inkişafı (dünya əhalisinin getdikcə artması) neft və təbii qaza olan ehtiyacı davamlı olaraq artırmaqdadır. Bu səbəblə dünyadakı neft və təbii qaz qaynaqları tükənənə qədər və ya bu enerji qaynaqlarının cazibəsini kölgələyəcək yeni enerji növləri tapılan zamanadək neft və təbii qaz əhəmiyyətini qoruyacaqdır. Bu enerji qaynaqları üzərində edilən mübarizələr də davam edəcəkdir. Müasir günümüzdə enerji mənbələrinə sahib olmaq tək sənaye ehtiyaclarını qarşılamaq və iqtisadi inkişafa nail olmaqla kifayətlənməyib, həmçinin dövlətlərin milli təhlükəsizliklərinin mühüm komponenti kimi qəbul edilməkdədir. Təsadüfü deyildir ki, ABŞ prezidenti

kiçik C.Buş qeyd etmişdir ki, "Enerji qaynaqlarında müxtəliflik Amerika üçün vacibdir, yalnız enerji təhlükəsizliyi üçün deyil, milli təhlükəsizlik baxımından da böyük dəyər daşımaqdadır". Açıq söyləmək olar ki, Körfəz savaşı, "Ərəb baharı" və son vaxtlarda baş qaldırmış Qətər böhranının da alt qatında məhz neft və qaz ehtiyatlarına sahiblənmək, onların nəqli marşurutları üzərində ciddi nəzarətə sahib olmaq istəkləri durmaqdadır. Bu baxımdan Xəzərin əlverişli geo-siyasi vəziyyəti belə nəzərə alınmamaqla onun malik olduğu karbohidrogen ehtiyatları regionu super güclərin maraq dairəsinə salmışdır.

Xəzərətrafı ərazilərin konkret olaraq Azərbaycanın zəngin enerji ehtiyatlarına malik olması hələ əsrlər öncə Avropa dövlətlərinə məlum idi. Antik mənbələr daxil olmaqla fars, ərəb, türk və eləcə də tarixin nisbətən sonrakı dövrlərində Azərbaycana səyahət etmiş Avropa ölkələrinin səfarət nümayəndələri, səyyahlar buradakı zəngin nefi ehtiyatları haqqında məlumatlar vermişlər. Onların bəziləri isə öz qeydlərini çap etdirmişdilər ki, bu sahə ilə məşğul olan tədqiqatçılar da bunlardan bir mənbə kimi istifadə etməkdədirlər. Azərbaycan ərazisində neftdən istifadə ən qədim dövrlərdən məlumdur. Ondan işıqlandırıcı material, gəmilərin qətranlanması, arabaların yağlanması, habelə yanacaq və müalicə vasitəsi kimi istifadə olunurdu. Çıraqların (fənərlərin) meydana çıxması ilə neftdən işıqlandırıcı kimi fərdi istifadə xeyli artmışdır.

Neftə tələbatın durmadan artması onun hasilatının yeni üsullarını meydana çıxardı, neft hasilatının köhnə çala üsulu quyu üsulu ilə əvəzləndi. Bu keçidin, dəyişikliyin dəqiq tarixini müəyyənləşdirmək qeyri-mümkündür. Lakin Bakı neft mədənlərinin 1636-cı ildə Xəzər sahillərinə səfər etmiş Adam Oleari tərəfindən tərtib olunmuş təsviri vardır. O, yazırdı ki, neft Bakıdan bir qədər aralıda daimi quyulardan çıxarılır və satış üçün iri arabalarla müxtəlif yerlərə daşınırdı. Otuza qədər neft quyusu bir-birindən bir tüfəng atəşi məsafədə yerləşir və onlardan neft güclü bulaq kimi çıxır.

1683-cü ildə Səfəvilər dövlətinə göndərilmiş İsveç səfarətinin katibi Kempfer Bakıda olmuş və buradakı "neft bulaqlarının" təsvirini tərtib etmişdir.

İngilislər də Bakı neftinə maraq göstərirdilər. 1741-ci ildə ingilis-rus ticarət kompaniyası öz direktorlarından biri olan S. Hanveyi Bakıya göndərərək ona buradakı neft mədənləri ilə bağlı olan işlərin durumunu öyrənməyi tapşırmışdı. 1754-cü ildə o, "Xəzər dənizində ingilis ticarəti haqqında tarixi oçerk" əsərini çap etdirdi. Bu əsərdə müəllif Bakı ərazisində neft işinin durumunu təsvir edirdi.

Səfəvilər səltənətindəki Rusiya səfirliyinin əməkdaşı, 1733-1735-ci illərdə Bakıda olmuş doktor S.Lerxin 1790-cı ildə nəşr olunmuş əsərində müəllif bildirirdi ki, neft quyulardan iri daş çalalara axır, sonra isə oradan nefti satmaq üçün iri tuluqlarda arabalarla Şamaxıya, Gilana və b. yerlərə aparır, qalanından isə şəhərdə istifadə edirdilər.

Amma bildiyimiz kimi neftdən həmin vaxtlar enerji vasitəsi kimi istifadə edilmədiyindən ona maraq da bir o qədər cəlbedici olmamışdır. Diyara gəlmiş səfarət nümayəndələrinin və səyyahların əsas məqsədi buranın neft ehtiyatlarını öyrənmək olmadığından onların verdiyi məlumatlar da əsasən təsviri xarakter daşımışdır. Digər tərəfdən isə həmin dövrün texnologiyası da buranın neft ehtiyatlarının öyrənilməsi baxımından yetərli hesab edilə bilməzdi. Qısa söyləsək, neftə bir enerji daşıyıcısı kimi böyük maraq onun sənaye miqyasında yanacaq vasitəsi kimi istifadə edilməsi ilə başladı ki, bu da təqribən XIX əsrin 60-cı illərinin sonuna aiddir. Demək olar ki, regionun neft ehtiyatlarının öyrənilməsi də bu dövrdən başlanır. Bildiyimiz kimi 1806-cı ilin oktyabrında Bakı və Abşeron yarımadası ruslar tərəfindən işğal olunduğundan və əsas neft ehtiyatlarımız da burada yerləşdiyindən bu sahənin idarəsi də tam olaraq çar Rusiyasının əlinə keçir. Məlum məsələdir ki, həmin vaxt yalnız quru sahədə (dəniz sahili) neft çıxarmaq mümkün idi. Çar Rusiyası admnistrasiyası müxtəlif vaxtlarda özlərinin bu sahə ilə bağlı ən məşhur mütəxəssislərini (Abix, Mendeleyev, Quluşambarov, Raqozin və s.) Bakıya göndərmiş və buranın neft ehtiyatlarını, onun hasilatı, emalı və nəqli məsələlərini daha dərindən mənimsəyə çalışmışlar. Əslində çəkinmədən söyləmək olar ki, Rusiyanın neft sənayesi tarixi məhz Azərbaycan neft sənayesindən başlanır.

Ümumilikdə neft-qaz resursları ilə zəngin olan sahələrin ehtiyatlarının dəqiq və dürüst təsviri çox vaxt gizlədilir və yaxud biləməkdən səhv məlumat verilir. Bunu da doğuran müxtəlif səbəblər mövcuddur. Hər şeydən öncə karbohidrogen ehtiyatları ilə zəngin olan ölkələr öz təbii sərvətlərinin daha böyük həcmdə olduğunu göstərməklə dünyaca məşhur neft və qaz şirkətlərinin marağını çəkmək, əlverişli şərtlərlə investisiya cəlb etməyə çalışırlar. Bundan əlavə, həmin dövlətlər inkişaf etmiş və etməkdə olan dövlətlərin enerji təhlükəsizliyində oynaya biləcəkləri rolu qabartmaqla həm də siyasi dvidentlər əldə etmək istəyirlər. Sərmayə qoymaq istəyən tərəf isə qəsdən ehtiyatların az olduğunu göstərir və bununla özünə daha sərfəli formada kredit yatırmasına çalışmaqdadır. Bu səbəbdən də ehtiyatlarla bağlı müxtəlif mənbələrdə fərqli rəqəmlərə rast gəlinir ki, qeyd etdiyimiz kimi bunu da doğuran iqtisadi və siyasi səbəblərdir. Siyasi səbəbə isə rəqabətdə olduğu ölkə və onları təmsil edən şirkətlərin vaxtilə inhisarçı mövqeyə malik olduğu regionun enerji resurslarının işlənməsinə bilərəkdən, məqsədli şəkildə ehtiyatların az olması haqqında məlumat verməklə, onların rentabelsiz olması haqqında rəy formalaşdırmaqla son nəticədə həmin mənbələrin işlənməmiş halda qalmasına nail olmaqdan ibarətdir. Buna misal olaraq Rusiya və İranın Xəzərin, o cümlədən Azərbaycanın karbohidrogen ehtiyatları haqqında söylədiyi fikirlər reallıqdan uzaq olub, daha çox Qərb şirkətlərinin Azərbaycanın Xəzərdəki neft-qaz yataqlarına böyük sərmayələr qoymaqdan çəkindirməyə xidmət edirdi.

Xəzərin neft-qaz ehtiyatlarını təhlil etməzdən öncə dünyanın duru və mavi yanacaq ehtiyatlarını təsvirini verib onun fonunda Xəzərin, o cümlədən Azərbaycanım enerji potensialını rassional formada nəzər-diqqətdən keçirmək daha faydalı hesab olunar. Neftin istehsalına görə dünyada 1 və 2-ci yerləri Rusiya (480 mln.ton) və Səudiyyə Ərəbistanı tuturlar. Ən çox neft istehsal edən ölkələr sırasına ABŞ (350 mln.ton), İran, Meksika, Venesuela, Çin, Norveç də daxildirlər.

Dünyanın məşhur neft mütəxəssisləri və elm mərkəzləri planetin karbohidrogen ehtiyatları haqqında öz praqnozlarını işləyib

hazırlamışlar ki, onların da bəziləri nikbin, bir hissəsi isə duru və mavi yanacağın yaxın zamanlarda tükənmə ehtimalının olduğu qənaətinə gəlirlər. Dünyaca məşhur geofizik Kinq Hubbert planetin neft rezervləri haqqında hələ 1956-cı ildə öz proqnozlarını verniş və bunu qrafik təsvir formasında işləmişdir. Onun mülahizələrinə görə "Neftdən enerji mənbəyi kimi o zamana qədər istifadə ediləcəkdir ki, onun hasilatı ondan alınan enerjidən ucuz olacaqdır. Bundan sonra neft hasilatı onun "pul-kredit qiymətindən" asılı olmayaraq dayanacaqdır. K.Hubbertə görə, 1965-ci ildən 2023-cü ilədək – 58 il ərzində bəşəriyyət 89% dünya ehtiyatlarını istehlak edəcəkdir. Bu dövr isə bəşər sivilizasiyasının üstün pik çağları olacaqdır. Neft üzrə digər mtəxəssis Kolin Kempell isə hesab edir ki, neft bumu (hasilatın yüksək dövrü) artıq 2005-ci ildən illik 2%-lə azalma ilə müşayət olunmağa başlamışdır. ABŞ alimləri kəşfiyyat altında olan sahələrdə 112 milyard ton neftin mövcudluğu proqnozunu verirlər. Onlar həm də qeyd edirlər ki, kontinental şelfdən uzaq dərinliklərdə yerləşən qatlardakı neftin müasir texnologiya ilə hasilatı rentabelsizdir. Buna görə də, bu ehtiyatlar nəzərə alınmamalıdır.

XXI əsrin əvvəlinə dünya neft ehtiyatları 142 milyard ton hesablanır, onun 92,5 milyard tonu və ya 65,1%-i Yaxın Şərq ölkələrinin payına düşür. İkinci yeri regional təsnifatda Mərkəzi və Cənubi Amerika 13,6 milyard ton (9%), üçüncü yeri Afrika 10 milyard ton (7,1%), dördüncü yeri keçmiş SSRİ məkanı 9 milyard ton (6,4%), beşinci yeri Şimali Amerika 8,5 milyard ton (6,1%), altıncı yeri Asiya Sakit Okean regionu 6 milyard ton (4,2%) və həlqənin yeddinci yeri 2,5 milyard tonla (1,9%) Avropa qapayır. Dünyanın mövcud 28 min neft yatağının çox cüzi bir hissəsi nəhənglər qrupuna aiddir ki, burada da planetin əksər ehtiyatları cəmləşmişdir.

Sənayenin və ümumilikdə iqtisadiyyatın inkişafında təbi sərvətlərin, o cümlədən enerji daşıyıcılarının coğrafi yerləşməsi mühüm rol oynayır. Düzdür, müasir elmi texniki tərəqqinin sürətlə irəllədiyi bir zamanda təbi sərvətlər baxımından kasad olan ölkələrin də bir qismi yüksələn xətlə inkişaf etməkdədir. Amma onlar da neft və təbii qaza, eləcə də digər enerji resurslarına böyük ehtiyac duyurlar.

Təbii resursların xüsusən də neftin coğrafi yerləşməsinin sənayenin inkişafında oynadığı mühüm rolu hələ 1909-cu ildə alman alimi Arfred Veber yazdığı "Sənayenin yerləşməsi nəzəriyyəsi" adlı əsərində geniş şərh etmişdir. Nəzəriyyə görə sənayenin yerləşməsinin başlıca şərtlərindən əsası kimi də təbii sərvətlərin coğrafiyası amili dominatlıq təşkil edir.

Ümumilikdə dünyanın və ya hər hansı regionun neft ehtiyatlarının hesablanması şərti xarakter daşıyır. Hər şeydən öncə daha təkmil texnologiyaların tətbiqi yeni neft və qaz yataqlarının aşkarlanmasını mümkün edir. Bununla yanaşı, əvvəlcədən rezervləri təsdiqlənmiş köhnə yataqların da, daha çox karbohidrogen ehtiyatlarına malik olduğu üzə çıxır. Belə ki, XX əsrin 70-ci illərində məlum neft böhranında (1973-cü il Ərəb-İsrail müharibəsində ABŞ-ın birtərəfli şəkildə İsraili müdafiə etməsinə cavab olaraq, ərəb dövlətlərinin bu ölkəyə satılan neftə qoyduqları embarqo cəmi 5 ay qüvvədə olmasına baxmayaraq neftin qiymətini 370% artaraq 2 dollardan 11,75 dollara çatdı. Bu isə təkcə ABŞ-da 500 000 iş yerinin bağlanmasına və ümumiyyətlə, dünya iqtisadiyyatında böhrana səbəb oldu) dünya neft ehtiyatları 600 milyon barrel hesablanırdı. Dünya iqtisadi artımına qeyri-adekvat olan belə vəziyyət yeni neftli yataqların kəşfini sürətləndirdi. 15 il keçdikdən sonra – 1980-ci illərdə neft ehtiyatları on dəfədən də çox artaraq 700 milyard barel təşkil etdi və əsrin sonunda isə dünya neft ehtiyatları bir trilyon barrellik həddi ötüb keçdi. Mütəxəssis hesablamalarına görə dünya neft ehtiyatlarının potensial maksimal həddi 310-315 milyard ton təşkil edə bilər. İndiki zamanda kəşf olunmuş ehtiyatlar isə 136 milyard tona bərabərdir.

Fikrimizi sübut etmək üçün digər fakta istinad etmək olar. "Əsrin müqaviləsi" bağlanarkən "Azəri", "Çıraq" və "dərin sulu Günəşli" yataqlarının neft ehtiyatları 511 milyon ton qiymətləndirilirdisə istismar gedişində onun 640 milyon ton təşkil etdiyi məlum oldu.

Xəzərin neft ehtiyatları sürətlə inkişaf edən iki mühüm iqtisadi güc mərkəzindən Avropa Birliyi və Çindən demək olar ki, eyni məsafədə yerləşir. Dünyanın super gücü olmağa iddialı görünən Çin neftə olan təlabatının böyük hissəsini Yaxın Orta Şərqdən xüsusən

də İran körfəzi ölkələrindən edilən idxal hesabına ödəyir. Avropa Birliyi isə neft və təbii qaza olan ehtiyacının xeyli hissəsini Rusiyadan idxal etməkdədir. Əgər birinci karbohidrogen mənbəyi daha çox qaynar münaqişə ocağı olması ilə təhlükə doğurursa, ikincisi isə enerjidən bir siyasi təzyiq vasitəsi kimi istifadə etməklə öz siyasi nüfuzunu daha da möhkəmləndirməklə real bazar mexanizmlərindən uzaq dayanmaqdadır. Belə bir şəraitdə neft-qaz potensialı Yaxın Orta Şərqin ehtiyatlarına adekvat olmasa belə, yenə adını çəkdiyimiz tərəflər üçün olduqca cəlbedici görünür. Digər tərəfdən xatırlasaq ki, Avropanın neft təhcizatında mühüm əhəmiyyət kəsb edən Norveçin 2007-ci ildən Şimal və Barents dənizləri şelfində aşkar olunmuş neft ehtiyatlarının praktik olaraq tükənməsi fonunda Xəzərin karbohidrogen ehtiyatlarına ehtiyac daha da artmışdır.

Mühüm neft istehlakçısı olan və bununla əlaqədar əsas duru yanacaq idxal edən böyük dövlətlərin (ABŞ, Çin, Avropa Birliyi və başqaları) aidiyyatı orqanlarında-Dövlət Departamenti, Enerji Nazirliyi, Kəşfiyyat İdarəsi və s. qurumlarının hesabatlarında Xəzər hövzəsinin enerji potensialı haqqında mxtəlif hesabatlar hazırlanmışdır.

Misal olaraq, ABŞ-ın Enerji İnformasiya İdarəsi özünün 2013-cü il hesabatında Xəzərin su sektorunda ümumi neft ehtiyatlarının 19,6 milyard barel, qaz ehtiyatlarının 106 trilyon kub fut, sahil ərazilərində isə müvafiq olaraq 28,6 milyard barel və 186 trilyon kub fut (7 trilyon m$^3$ ) həcmində qiymətləndirir. Bununla yanaşı qeyd olunur ki, beş sahilyanı ölkənin Xəzərin su və quru sektorundakı ümumi neft ehtiyatları 48,2 milyard barel, qaz ehtiyatları isə 285 trilyon kub fut (10,6 trilyon3 ) həcmində qiymətləndirilir. Sənəddə Azərbaycanın Xəzərin su sektorundakı qaz ehtiyatlarının həcmi 1,5 trilyon m$^3$, Qazaxıstanın 1,3 trilyon m$^3$, Rusiyanın 0,5 trilyon m$^3$, Türkmənistanın 0,3 trilyon m$^3$ kimi göstərilir. Hesabatda, həmçinin bildirilir ki, Qazaxıstanın Xəzərin su sektorundakı neft ehtiyatları 15,8 milyard barel, Azərbaycanın isə 6,8 milyard barel təşkil edir. Hesabatda vurğulanır ki, İran istisna olmaqla, bütün digər sahilyanı dövlətlər Xəzərin su sektorundakı enerji ehtiyatlarının işlənməsindən mənfəət götürür. Sənədin sonun-

da bütün sahilyanı ölkələrin ümumi gündəlik neft hasilatının 945 min barel təşkil etdiyi və bunun da 890 min barelinin (94%) Azərbaycanın payına düşdüyü göstərilir. Qeyd edək ki, həmin vaxt Qazaxıstanın Xəzərdəki neft yataqları tam şəkildə hasilata cəlb edilməmişdir.

Neft və qaz yataqlarının uzun müddət istismar edilməsinə baxmayaraq, mütəxəssislər torpağın dərin qatlarında xeyli miqdarda karbohidrogen ehtiyatları olduğunu müəyyən etmişdir.

Xəzərin Azərbaycan sektorunda eləcə də quru ərazilərdə mövcud yataqların ehtiyatlarının müəyyən edilməsi uzun müddət keçmiş SSRİ Nazirlər Soveti nəzdində fəaliyyət göstərmiş Faydalı Qazıntılar Üzrə Dövlət Komissiyasının 1983-cü ildə təsdiq etdiyi təlimatın tələbləri əsasında aparılmışdır. Keçmiş SSRİ-də karbohidrogen ehtiyatlarının ilk təsnifatı 1928-ci ildə, ölkədə neft ehtiyatını hesablamaq məqsədi ilə, Geoloji Komitənin nəzdində yaradılmış komissiya tərəfindən hazırlanmışdır. Həmin təsnifat, yataqların sənaye mənimsənilməsinə hazırlıq dərəcəsindən asılı olaraq, bu və ya digər kateqoriyalara aid edilməsi şəraitini nəzərə alaraq, illər ərzində dəyişikliklərə uğramışdır. Sonuncu dəyişiklik 1983-cü ildə edilmişdir ki, bu da yataqların ehtiyatlarının dürst məyyənləşdirilməsində çətinliklər yaradır. Yeni metodların tətbiqinə ehtiyac artmışdır.

## II.2. Rusiyanın Xəzərdə neft-qaz ehtiyatları

Böyük neft-qaz ehtiyatlarına malik ölkə kimi tanınan Rusiyanın (dünyanın proqnoz edilən neft ehtiyatlarının 12%, təbii qazın isə 1/3-dən çoxu məhz bu dövlətə məxsusdur) əsas perespektivli yataqları Sibir və Ural bölgələrindədir. Xəzərin Rusiya sektoru 64 min kvadrat kilometr sahəni əhatə edir. Rusiya burada 20 potensial neft-qaz strukturuna malikdir. Şimal qonşumuzun ümumi kəşf edilmiş karbohidrogen ehtiyatlarının 10%-i Xəzərdə yerləşir ki, daha konkret göstərsək neftin 15%-i, qazın isə 5%-i burada yerləşir.

Dağıstan şelf zonasında 340 milyon ton neft, 540 milyard kub metr təbii qaz olduğu bildirilir. Ümumilikdə Rusiyanın Xəzər sekto-

runda 1,5 milyon neft, 3 trilyon kub metr qaz ehtiyatı olduğu bildirilir. Yuxarıda söylədiyimiz kimi Xəzərin karbohidrogen ehtiyatlarının miqdarı ilə bağlı ayrı-ayrı mənbələr müxtəlif rəqəmlər göstərməkdədir.

Ümumiyyətlə Rusiya hökümətinin məlumatına görə Rusiyanın Xəzərdə özünə aid hissəsində 2,95 milyard ton neft. 3,1 trilyon $m^3$ isə qaz ehtiyatı vardır.

Rusiyanın şelf sahəsində ümumilikdə 178 neft-qaz quyusu qazılmışdır ki, bu quyuların da bütövlükdə uzunluğu 440 min metrdən çoxdur. Eyni zamanda qeyd etmək lazımdır ki, Rusiyanın şelf sahələrinin öyrənilməsi dərəcəsi də qeyri-bərabərdir. Yaxşı və nisbətən yaxşı öyrənilmiş Rusiyaya məxsus şelf sahələri əsasən Baltik və Cənub dənizləri, Saxalin və Peçorski dənizlərinin şelf hissələri, Barens dənizinin cənub hissəsi, Arktikanın əhəmiyyətli hissəsi (o cümlədən Barens dənizinin şimal hissəsi, Karsk dənizi, Laptev dənizi, Şərqi Sibir və Çuxot dənizləri). Zəif öyrənilmiş şelf sahələrinə isə Arktikada Taymirdən ABŞ sərhəddinə qədər olan su sahələri daxildir. Sözügedən ərazidə demək olar ki, bir dənə də olsun quyu qazılmamışdır.

Aparılan geoloji-kəşfiyyat işləri zamanı Rusiyada şelf sahələrində 32 yataq aşkar edilmişdir ki, onların içərisində Arktikanın qərbində yerləşən "Ştokmanov", "Rusanovsk", "Leninqrad" kimi super-nəhəng təbii qaz yataqları yer alır. Qaz yataqları ilə yanaşı Saxalin və Peçorsk dənizlərinin şimal-şərq şelfində bir neçə nəhəng neft yataqları aşkar edilmişdir. Hesablamalara görə Rusiyanın dəniz periferiyasında 100 milyon ton həcmində yanacaq olduğu bildirilir. Dənizlərdə yerləşən karbohidrogen ehtiyatlarının böyük hissəsi Qərbi Arktika dənizlərinin-Barens, Peçora və Kars dənizlərinin payına düşür. Sonrakı yerləri ardıcıllıqla Oxot, Şərqi Sibir və Xəzər tutur. Göründüyü kimi Rusiyanın dəniz periferiyasında karbohidrogen ehtiyatları böyükdür və bu potensial hasilatı yüksək səviyyədə saxlamağa qadirdir. Ümumilkdə Rusiyanın potensial neft hasilatının 20%-i, qaz hasilatının isə 45%-i dəniz yataqları təşkil edə bilər. Barens dənizində karbohidrogen ehtiyatlarının əsas hissəsi Şərqi Barens çökəkliyi, Şimali Barens hövzəsi, Frans İosif Torpağı və Prinovozemeliya ərazilərində cəmlənmişdir. Həmçinin Laptev dənizinin

mərkəz və cənub hissələri də karbohidrogen ehtiyatları ilə zəngin hesab edilir. Xəzərin də Orta və Şimal hissələrində potensial neft ehtiyatarının mövcudluğu bildirilir.

Rusiyanın dəniz neft-qaz resursları içərisində Xəzər akvatoriyası özünəməxsus yer tutur. Öncə qeyd edək ki, Rusiyanın bu regionunda mühüm infrastruktur formalaşşmışdır ki, bu da həm geoloji kəşfiyyat, həm də hasilat işlərini aparmağa imkan verir. Burada yataqlar həm dənizdə həm də quru sahədə cəmləşmişdir. Mütəxəssislər Xəzər regionunda Rusiyanın ilkin hasil oluna bilən karbohidrogen ehtiyatlarını 1046 milyon ton neft və 1905 milyard kub metr təbii qaz həcmində qiymətləndirir.

Rusiyanın Xəzər sahilində əsas neft-qaz yataqları Həştərxan vilayətində yerləşir. Bu əyalət geoloji baxımdan zəif öyrənilmişdir (6,1%), Əyalətdə quruda təsdiqlənmiş neft ehtiyatları cəmi 30 milyon tondur (potensial qiymətləndirildikdə – 0,7 milyard ton) və rezervlərinin 32%-i istismar edilmişdir. Təsdiq edilmiş qaz ehtiyatlarına görə əyalət ümumrusiya ehtiyatlarının 3%-ni təşkil edir. Regionun geoloji baxımdan zəif öyrənilməsi hövzənin mürəkkəb struktura malik olması-əsas perespektivli karbohidrogen resurslarının 5000 m-dən çox dərinlikdə şoran çöküntülərinin qalın təbəqəsi altında yerləşməsi ilə əlaqədərdir.

Ən qədimi və tədqiq edilmiş ehtiyatlarının 74,5%-i, istismar edilmiş yataqların 80%-dən çoxu Şimali Qafqaz neft-qaz regionunda yerləşir. Rusiyada neftin ilkin ümumi resurslarının cəmi 2,7%-i və eyni aspektdə qazın 1,2%-i burada cəmləşib. Şimali Qafqazda demək olar ki, bütün yataqlar kiçikdir və ehtiyatlara dərin qatlarda (5000 metrə qədər dərinlikdə) yetişmək olur. Amma bununla belə, xammalın kefiyyəti yüksəkdir. Rusiyanın şelf ehtiyatlarında Xəzər şelfinin payı demək olar ki, neft üçün 33%, qaz üçün isə cəmi 4,4% təşkil edir. Şelf nefti yaxşı kefiyyətdədir-az kükürdlü (0,5%-ə qədər), yüngül və aşağı özlüdür (маловязкие.). İlk yataq olan "Korçagin" – 2010-cu ildə istismara verilib.

Xəzərin Rusiya sektorunda ümumilikdə 7 karbohidrogen yatağı aşkar edilmişdir ki, ("Y.Korçaqin", "V.Filanovski", "Y.Kuvıkin",

“Xvalınskoye”, “Rakuşeçnoye”, “170-ci km” və “Mərkəz” yataqları) bunun da beşi neftqazkondensat yatağıdır. Dənizdə geoloji kəşfiyyat işlərinin aparılmasından tutmuş hasilat işləri və nəql prosesləri öz çətinliyi ilə seçilir. Bununla belə, neft və qaza hər ötən gün artan tələbat onun daha çox hasilatını tələb edir. Dünyada hasil olunan neftin təxminən yarısı dəniz şelfindən əldə edilir.

2000-ci ildə kəşf edilən “Korçagin” yatağından neft hasilatı yalnız 2010-cu ildə mümkün olmuşdur. Xəzərin ən dayaz yeri Rusiya sektoru olduğundan (bu Volqa çayının gətirdiyi böyük həcmdə çöküntülərlə bağlıdır) adıçəkilən yataq da təxminən 13 metr orta dərinlikdə yerləşməkdədir. Ümumilkdə Xəzərin şimalı və şimali-qərbi üçün səciyyəvi olan dayazlıq yataqların işlənməsi üçün müəyyən problemlər yaradır. “Korçagin” yatağının timsalında göstərə bilərik ki, hasilat işlərinin aparılması üçün üfüqi istiqamətdə təxminən 8 kilometr məsafədə quyular qazmaq lazım gəlmişdir.




***Şəkil 10. “V.Filanovski” yatağının yerləşməsinin ümumi sxemi***

“V.Filanovski” neft və qaz-kondensat yatağı Xəzərin Rusiya sektorunda ən böyük yataq hesab edilir. Adıçəkilən yataq Astarxan

şəhərindən 220 kilometr məsafədə yerləşir və "Rakuşeçnoye" yatağı ilə aralarında 8.5 kilometr məsafə vardır.

"Rakuşeçnaya" yatağı mürəkkəb struktura malikdir. Belə ki, yataq 60 kolometr məsafədə uzanan şimal, 4 kilometr enə malik cənub xətlərindən ibarətdir.

Karbohidrogen resursları Xəzərdə qeyri-bərabər şəkildə yerləşmişdir. Neft-qaz ehtiyatlarının mühüm hissəsi Cənubi Xəzər və Şimali Xəzər hövzələrinin şimalında cəmlənmişdir. Bu su ərazilərində müvafiq olaraq 42 və 24 milyard ton yanacaq cəmləşmişdir. Ən az miqdarda karbohidrogen resursları (4 milyard ton şərti yanacaq həcmində) şimali-qərbdə-Ustyurt hövzəsində möbcuddur.

Xəzərin Rusiya sektorunda kommersiya işlənmə mərhələsinə ən yaxın yataqlar Severnı lisenziyalı blokunda yerləşən və "LUKoil" tərəfindən işlənilən yataqlardır. "Korçagin"-də yuxarıda qeyd etdiyimiz kimi mədən işlərinə 2010-cu ildə başlanılıb. Adıçəkilən blokda "Korçagin" yatağınında ikinci mərhələ işlərinə 2015-ci ildə start verilmişdir. Həmin ildə də "Filanovski" yatağındada hasilat işlərinə başlanılmışdır. "Sarmatskoye" və "Rakuşeçnoye" yataqlarında 2017-ci ildə, "Xvalınskoye" yatağında isə 2020-ci ildə hasilat işlərinə başlanılmışdır. 2011-ci ilin oktyabrında "LUKoil" şirkəti "Filanovski" neft-qaz yatağı üçün iki infrastruktur obyektinin tikintisi üçün yüksələn blok platforması və körpüləri olan yaşayış modul platforması sifariş vermişdir. Onlar Həştərxandakı "Qırmızı Barrikadalar" gəmiqayırma zavodunda tikilmişdir. Platformaların dənizdə quraşdırılması 2013-2014-cü illər ərzində həyata keçirilmişdir.

2011-ci ilin noyabr ayında Xəzərin Rusiyaya məxsus sektorunda hasilat işlərini həyata keçirmək üçün "Birləşmiş Gəmiqayırma Korporasiyası" ASC (USC) və "Globalstroy-Engineering" ASC ilə müqavilələr imzalanmışdır. Müqaviləyə əsasən USC işçi sənədləri işləyib hazırlamalı, avadanlıq və materiallar alışını həyata keçirməli, 1 nömrəli buza davamlı stasionar platforma tikərək istismara verməli idi. "Qlobalstroy-Engineering" isə mərkəzi texnoloji platformanın və LSP-1 ilə mərkəzi istilik stansiyası arasında keçid körpüsünün tikintisini həyata keçirməli idi. Göstərilən işlər 2015-ci ildə

tamamlandı. Mütəxəssislər hesab edirlər ki, Xəzər dənizinin Rusiya sektorunda 2020-ci ilədək 1-ci ssenariyə əsasən, ildə 9,5 milyon ton neft və kondensat və 10 milyard kubmetr qaz hasil edilməli idi. Bütün hasilat "Y.Korçagin", "V.Filanovski" və "Sarmatskoye" yataqlarında həyata keçirilməsi planlaşdırılmışdır. Adıçəkilən yataqların işlənməsi "LUKoil" tərəfindən həyata keçirilir. 2-ci ssenari həyata keçirildikdə, Mərkəzi blokda, Laqanski və Şimali Xəzər bloklarında, həmçinin transsərhəd "Xvalınski" yatağında hasil edilən karbohidrogenlər bura əlavə olunacaq. Belə olan halda neft hasilatının ildə 19,5 milyon tona, qaz hasilatının isə 26 milyard kubmetrə qədər artacağı ehtimal edilir. Bu qiymətləndirmə neft və qaz hasilatının mümkün həcmlərinin yuxarı həddi kimi qəbul edilməlidir.




*Şəkil 11. Xəzərdə aşkar edilmiş neft və təbii qaz sahələri*

Rusiya 3 trilyon $m^3$ təbii qaz ehiyatı ilə Xəzərdəki toplam təbii qaz rezervlərinin 25%-ə sahibdir. Dünyanın təbii qaz ehtiyatlarına görə ən zəngin ölkələri hesab edilən İran və Türkmənistanın isə Xəzərdəki rezervləri elə də böyük deyildir. 2014-cü ilin məlumatına görə 14 trilyon $m^3$ təbii qaz ehtiyatı ilə dünyada 4-cü sırada yer alan Türkmənistanın bölgədə məlum olan cəmi 536 milyard $m^3$ ehtiyatı vardır. İran isə 56,6 milyard $m^3$ ehtiyatla bölgədə ən az ehtiyata malik olan ölkədir.

Xəzərin Rusiyaya məxsus şelf hissəsində 5 neft, qaz və kondensat yatağının istismarı üzrə işlər aparılmaqdadır.

## II.3. Qazaxıstanın Xəzərdə neft-qaz ehtiyatları

Xəzərdə Qazaxıstan böyk neft və təbii qaz ehtiyatlarına malikdir. Qazaxıstanın neft ehtiyatları 9-17,6 milyard barel civarında göstərilir ki, bu göstəriciyə görə sözügedən dövlət dünya ölkələri arasında 17-ci yerdədir. Qazaxıstanın neftlə zəngin əsas yataqları "Tengiz", "Kaşağan" və "Karaçaqanaq"dır. Bunların da içərisində öz ehtiyatları ilə daha çox "Tengiz" yatağı seçilir. "Tengiz" ytağı potensial ehtiyatlarına görə dnyanın 10 böyük neft yatağı sırasına aiddir. Konkret söyləsək "Tengiz" yatağı potensial neft ehtiyatına görə dünyada altıncı böyük yataq hesab olunur. Qeyd edək ki, bu nəhəng yataq Qazaxıstanın şimal-qərbində, Xəzərin isə şimal-şərqində yerləşir. "Tengiz" yatağı 1979-cu ildə kəşf edilmiş və 1988-ci ildən isə hasilat işlərinə başlanılmışdır. Sözügedən yatağın karbohidrogen ehtiyatları ilə bağlı müxtəlif rəqəmlər göstərilir. Bəzi mənbələrdə "Tengiz" yatağının neft ehtiyatları 6 milyard bareldən artıq olduğu göstərilir. Hətta mütəxəssislərin bir qismi sözügedən yatağın rezerv ehtiyatlarının 3 milyard ton (26 milyard barrel) civarında olduğu göstərilir. "Tengiz" yatağı Qazaxıstanın dövlət neft şirkəti olan "Kazmunayqaz" və "Chevron"un birgə ortaqlığı şəkilində (50/50 prinsipi ilə) istismar olunmaqdadır. Xəzərin Qazaxıstan sektoruna aid olan hissəsində ehtimal olunan neftin 17 milyard tondan

çox olduğu güman edilir. Yataq ildə təxminən 25,936 milyon ton hasilat çəkisinə malikdir. “Tengiz” yatağında neft hasilatı ilə bağlı yaranan əsas problem böyük həcmdə kükürd tullantısının yaranmasıdır. Hasilat prosesi gedişində sutka ərzində kükürd tullantısının miqdarı 5 min tona çatır ki, bu da ətraf ərazilərə böyük həcmdə mənfi təsir göstərir. Yaranmış böyük həcmli kükürd zibillikləri ictimaiyyətin ciddi narahatçılığına səbəb olur. 2013-cü ildə Qazaxıstanın “Tengiz” yatağından ildə 513 milyon barrel neft hasil olunmaqla Xəzərin ən çox neft çıxarıldığı yatağı olmuşdur.

Bəzi mütəxəssislər “Kaşaqan” neft yatağının məhsuldarlığını “Tengiz”ə nisbətdə daha çox qiymətləndirir. Sözügedən yataq 1970-ci illərdə kəşf edilsə də texniki çətinliklər və eləcə də yüksək maliyə qoyuluşu lazım olduğundan hasilat işlərinə xeyli müddət başlanılmamışdır. 75 kilometr uzunluq və 45 kilometr en sahəsinə malik olan karbohidrogen yatağına XIX əsr məşhur Qazax şairi Kaşağanın adı verilmişdir. Xatırladaq ki, “Kaşaqan” yatağı Qazaxıstanın Xəzərdə ən böyük yatağıdır və burada 16 milyard barrel neft ehtiyatı olduğu söylənilir ki, bu da dünyanın nəhəng yataqlarından hesab olunur. “Kaşaqan” yatağı Xəzərin şimal-şərqində, “Tengiz” yatağından qərbdə yerləşir. Yeri gəlmişkən qeyd edək ki, bu yataq Alyaska və Prubhoze körfəzi neft yataqlarının kəşfindən sonra son 40 ildə kəşf edilmiş ən böyük yataq hesab edilir. 1998-ci ildə “Kaşaqan” yatağını birgə istismar etmək üçün “ENİ” (İtaliya), “BP” (İngiltərə), “Exxon Mobile” (ABŞ), “Royal Dutch Shell” (İngiltərə/Hollandiya), “Total” (Fransa), “Phillips Petroleum” (ABŞ), “Statoil” (Norveç) və “Inpex” (Yaponiya) şirkətləri tərəfindən konsorsium yaradılmışdır. Buradan ilk neft 2000-ci ilin yazında Vostok-1 quyusundan çıxarılmışdır. Yatağın ehtiyatları 38 milyard barel olaraq qiymətləndirilir ki, mütəxəssislər bunun da 13 milyard barelini qazın laylara təkrar vurulması ilə əldə edilə biləcəyini söyləyir. “Kaşağan” yatağının ehtiyatları yüksək təzyiq (800 bar), 125 C temperatur və hidrogen-sulfidin miqdarı 15-20% və bundan əlavə digər qarışıqların olması səbəbi ilə neftin hasilatı və emalı işini xeyli çətinləşdirir.




*Şəkil 12. Şimali Xəzərin böyük neft yataqları*

Qazaxıstanda hər il orta hesabla 80 milyon tondan çox neft hasil olunur. Yaxın illərdə bu həcmin 120-150 milyon tona qədər artacağı gözlənilir.

"Qaraçaqanak" yatağı Xəzərdən kənarda Qazaxıstanın şimal-qərbində Rusiya ilə sərhəddə yerləşir və 1979-cu ildə kəşf edilmişdir. 1984-cü ildən isə burada istismar işlərinə başlanılmışdır. Yataq "BP", "ENİ", "Chevron" və "LUKoil" şirkətlərinin yer aldığı konsorsium tətəfindən işlənməkdədir. Qeyd edək ki, konsorsiumda "BP" və "ENİ" şirkətləri birlikdə 32,5%, "Chevron" 20%, "LUKoil" isə 15% paya sahibdir. Mütəxəssislər bu yatağın neft ehtiyatlarını 8-9 milyard barel, təbii qaz ehtiyatını isə 1,3 trilyon kub metr həcmində qiymətləndirmişlər. Qazaxıstanın təbii qaz ehtiyatlarının da təxminən 25%-i məhz bu nəhəng yataqda yerləşməkdədir. Digər qaz yataqları isə ölkənin cənub hissəsində yerləşən Amangəldi bölgəsindədir. Yatağın Rusiyanın Orenburq neft emalı zavoduna yaxın yerləşməsi Rusiyanın bura marağını daha da artırmışdır. Rusiya ilk

vaxtlardan etibarən bu yataqdan hasil olunan neftin daşınmasında əsas tranzit ölkə olmaq istəyini ortaya qoymuş və bu yoldakı bütün maneələrə qarşı ciddi təzyiqlər göstərmişdir.

Qazaxıstanın Enerji və Mineral Ehtiyatlar Nazirliyinin 2010-cu il məlumatına əsasən, ölkənin sübut olunmuş neft ehtiyatları 5,5 milyard ton, təbii qaz ehtiyatları isə 3 trilyon $m^3$ göstərilir. Qeyd edək ki, bu rəqəmlər "BP" şirkətinin 2010-cu ildə təqdim etdiyi-müvafiq olaraq 39,83 milyard barel (5,6 milyard ton) və 1,82 trilyon $m^3$ qaz həcminə yaxın olsa da, təbii qazın miqdarı ilə bağlı üst-üstə düşmür.

## II.4. Türkmənistanın Xəzərdə neft-qaz ehtiyatları

Türkmənistan rəsmiləri bu olkənin 20 milyard ton neft ehtiyatının olduğunu bildirsələr də xarici mütəxəssislər həmin rəqəmi təsdiq etmir. Türkmənistan ərazisində 144 neft və qaz yatağı aşkar edilmişdir ki, onlardan da yalnız 40-ı istismar edilir. Ölkədə neft hasilatı hazırda 10 mln tonu ötmüşdür ki, bunun da 6,5 mln tonu ixraca yönəldilir. Türkmənistan qaz ehtiyatlarının həcminə görə dünya liderləri sırasındadır. Burada sübut olunmuş ehtiyatlar 25,2 tln kubmetrdən çoxdur. Məhz izafi qaz ehtiyatları bu ölkəni xeyli münbit müstəviyə gətirmişdir. Burada illik qaz hasilatı 75 mlrd $m^3$-i keçmişdir ki, onun da 60 mlrd kubmetri ixraca yönəldilmişdir. Ölkənin neft-qaz kompleksinin inkişaf proqramına əsasən 2030-cu ilədək qaz hasilatının 250 mlrd kubmetrə, neft hasilatının isə 110 mln tona çatdırılması planlaşdırılır.

Digər Xəzəryanı ölkələr kimi, Türkmənistanda da neft sənayesinə xarici investorları cəlb etməyə çalışırlar. Lakin bu iş çox ləng getdiyi üçün burada yalnız üç xarici neft şirkəti fəaliyyət göstərir. Onlardan yalnız biri – ingilis-ərəb "Dragon Oil" şirkəti, "məhsulun tən bölünməsi" şərti ilə fəaliyyət göstərir, yəni konkret neft çıxarır. Danimarka şirkəti "Maersk Oil" və Malaziya şirkəti "Petronas" hələ ki neft kəşfiyyatı işləri ilə məşğuldurlar.Türkmənistanın Xəzər sahili perspektivli yataqları olan Qotutəpə, Barsa-Gəlməz və Burun strukturlarında neft 4500-5000 metr dərinlikdə yerləşən məhsuldar

qatdadır. Belə artımı təmin etmək üçün neft sənayesinə 25 mlrd. ABŞ dolları investisiyaların cəlb olunması nəzərdə tutulur.

Xəzərin Türkmənistan sektorunda 60 milyon ton neft, 1,5-4,8 mlrd $m^3$ təbii qaz ehtiyatının olduğu mütəxəssislər tərəfindən bildirilir.

Böyük qaz ehtiyatlarına malik Türkmənistanın mavi yanacaq resursunun yalnız 12%-i Xəzər ətrafı sahil zolağında yerləşir. Pəri-Balxan Türkmənistanın Xəzərdə mühüm karbohidrogen yataqlarından biri hesab edilir. Xəzərin Türkmənistan sektorunda Blok-1 sahəsi üzrə hasilatın pay bölgüsünə əsaslanaraq 1996-cı ildə Malayziyanın Petronas şirkəti ilə müqavilə imzalanmışdır. Müqavilə 28 il müddətinə nəzərdə tutulmuşdur. Müqavilədə nəzərdə tutulan sahənin həcmi 1467 $km^2$ (şelfi) təşkil edirdi. Sözügedən blokun kəşf olunmuş ehtiyatları 1 tln $m^3$ qaz, 200 mln tondan çox neft və 300 mln tondan çox qaz kondensatı həcmində qiymətləndirilir. Türkmənistan Xəzərdəki yataqlarından ildə 5 milyard kub metr qaz hasil edə bilər. Xəzərin Türkmənistan sektorunda neft-qaz yataqlarının işlənməsində mühüm operatorlardan biri Malayziyanın Petronas şirkətidir. Bu şirkət neft və qazın hasilatının həcminə görə dünyanın ilk beşliyinə aiddir. 2007-ci ilin əvvəlləri üçün Petronas şirkətinin Blok-1 layihəsinə yatırdığı investisiyanın həcmi 705,3 milyon dollar həcmində olmuşdur.

2011-ci ilin noyabr ayında Türkmənistanın Baş nazirinin müavini Bəymurad Xocamuxammedov ölkəsinin geoloji ehtiyatlarının 71,21 milyard ton təşkil etdiyini bildirmişdir ki, bunun da 18,2 milyard tonu Xəzərdə yerləşir. Türkmənistanın təsdiq olunmuş qaz ehtiyatları isə 25,13 tln $m^2$-dir. “BP” isə təsdiq olunmuş qaz ehtiyatlarını 17,5 tln $m^2$ həcmində qiymətləndirir. Rəsmi statistikaya görə hər il Türkmənistanda 70 mlrd $m^2$ təbii qaz, təxminən 10 mln ton neft hasil olunur. Əsas ehtiyatların bir hissəsi rezervləri 26,2 tln $m^2$ həcmində qiymətləndirilən Məryəm veleyat ərazisində yerləşən” Qalkınış” qaz yatağıdır.

Türkmənistanın təbii qaz ehtiyatlarının mühüm hissəsi Amudərya çayı hövzəsindəki Dövlətabad bölgəsində yerləşir. Burada cəmləşmiş rezervlər ölkənin ümumilikdə təbii qaz ehtiyatının yarısına bərabərdir. Adıçəkilən ərazidə ilk təbii qaz yatağı 1956-cı ildə Dərvə-

zədə kəşf edilmişdir. “Dönməz”, “Kərpiçli”, “Balquyu”, “Tejen”, “Mollaker”, “Seyrap” və “Naip” əsas təbii qaz sahələridir.

Türkmənistanın malik olduğu təbii qaz ehtiyatlarının iqtisadi baxımdan effektivliyi, həmçinin xarici investisiya üçün cəlbedici olması onun səthə yaxın olması və hasilat üçün daha az maliyyə vəsaiti tələb etməsidir. Türkmənistanın böyük təbii qaz ehtiyatları olsa da onun nəqli imkanları məhduddur. Keçmiş SSRİ zamanında tikilib istismara verilən və Rusiyaya məxsus ixrac boru-kəmər sistemi vasitəsilə nəql bu ölkənin maraqlarına uyğun gəlmir. Düzdür, son zamanlar Türkmənistandan Çinə boru xətləri çəkilib istifadəyə verilmişdir. Amma bu qonşu dövlətin təbii qaz ehtiyatlarının ixracı üçün yetərli sayıla bilməz. Xatırlasaq ki, Türkmənistan təbii qaz ehtiyatlarına görə Rusiya, İran və Qətərdən sonra 4-cü sırada yer alır, onda alternativ ixrac kəmərlərinin çəkilməsi zərurəti aydın görünür. 2015-ci ilin dekabr ayında TAPİ (Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan) kəmərinin təməli qoyulsa da Əfqanıstanda və Pakistanda mövcud qeyri-stabil vəziyyət bu xəttin taleyini sual altında qoymuş olur. Layihəyə əsasən Türkmənistan təbii qazı Əfqanıstan və Pakistandan keçməklə Hindistanın Hind okeanı sahilindəki Fazilka depo limanına çatdırılacaqdır. Adıçəkilən layihə ötən əsrin sonlarından müzakirə olunmağa başlamış və hətta zaman-zaman Əfqanıstandakı Taliban hərakatının da alt qatında məhz yeni enerji dəhlizinin yaradılması fikri olduğu bəzi siyasətçilər tərəfindən səsləndirilmişdir. Qeyd edək ki, TAPİ layihəsi ABŞ tərəfindən güclü dəstəklənməkdədir. Əgər sözügedən layihə reallaşarsa onda regionda yeni enerji düzəni yaranacaqdır ki, bu da daha çox Türkiyənin tranzit imkanları ilə rəqabət formalaşdıracaqdır və bu haqda qardaş ölkənin mətbuatında, eləcə də bilim adamlarının mülahizələrində fikirlər yer almaqdadır. Türkiyə Türkmənistan qazını Trans-Xəzər layihəsinə uyğun olaraq Xəzərin dibi ilə boru xəttinin Azərbaycana çəkilməsi buradan isə Cənub Qaz Dəhlizi infrastruktu vasitəsi ilə nəqlində maraqlıdır. Bundan öncə rəsmi Ankara Türkmənistan qazının İrandan keçməklə və həmçinin İranın öz qazını belə Avropaya nəql edilməsində əsas tranzit ölkə olmaq istəyini bildirmişdir. Hətta İran tərəfi ilə 17 noyabr 2008-ci ildə bu haqda müqavilə də imzalan-

mışdır. Lakin ABŞ və Qərb dövlətlərinin İrana məlum sanksiyaları səbəbi ilə layihə hələ ki kağız üzərində qalmaqdadır. Yeri gəlmişkən qeyd edək ki, Xəzərin statusu ilə bağlı Türkmənistanın İranının mövqeyinə yaxın mövqey nümayiş etdirməsinin bir səbəbi də İran vasitəsi ilə təbii qazın nəqlinə nail olmaq istəyi idi.

Yuxarıda qeyd etmişdik ki, Türkmənistan qazı həm də Çinə ixrac olunur. Tərəflər arasında hələ 1994-cü ildə müqavilə imzalansa da bu xeyli müddət real işlək vəziyyətə gəlmədi. 14 dekabr 2009-cu ildə Türkmən qazını Çinə daşıyacaq 7 min kilometr uzunluğunda olan kəmər nəhayət ki, istifadəyə verildi.

## II.5. İranın Xəzərdə neft-qaz ehtiyatları

2014-cü ilin məlumatına görə İranın neft ehtiyatları 157,8 milyard barel, təbii qaz ehtiyatları isə 34 tln $m^3$ həcmində qiymətləndirilir. Dünyanın toplam neft ehtiyatlarının da 9,3%-i, təbii qazın isə 18,2%-i İranın payına düşməkdədir ki, bu da İranın neft-qaz ölkəsi kimi əhəmiyyətini bir daha təsdiqləmiş olur. Qeyd edək ki, İranın əsas neft-qaz yataqları Xəzərdə deyil, Fars körfəzində və ölkənin əsasən cənubunda yerləşir. Belə ki, cənub qonşumuzun təbii qaz rezervlərinin böyük bir hissəsi (14 tln $m^3$-i) Cənubi Fars bölgəsində toplanmışdır ki, bunun istismarı Qətərlə birgə həyata keçirilir. İranın neft ehtiyatlarının 70%-i sahil zonasında, 30%-i isə quruda yerləşir. Xəzərin İrana aid olan sektorunda neft ehtiyatları 500 mln barel həcmində qiymətləndirilir ki, bu da cənub qonşumuz üçün prioritet təşkil etmir.

Böyük Britaniyanın "BP" şirkətinin 2010-cu il məlumatına görə İranın təsdiqlənmiş neft ehtiyatları 137,0 mlrd barel, təbii qaz ehtiyatları isə 29,6 tln $m^3$ təşkil etmişdir. İranın təbii qazı dünya qaz ehtiyatlarının 14%-ni təşkil edir ki, bunun da böyük əksəriyyəti quruda, az bir hissəsi isə Xəzər dənizindədir.

Neft ehtiyatlarının isə təxminən 70%-i əsasən İraq ilə sərhəd ərazilərdə, Körfəz sahili bölgələrdə yer almaqdadır. Sahildən kənar, birbaşa quruda yerləşən neftli ərazilər içərisində Abuzər adlanan sahə öz zənginliyi ilə seçilir. İranın cənub əraziləri tək karbohidrogen

ehtiyatlarının zənginliyi ilə diqqəti çəkmir, həm də neft və sixılmış qazın (LİNG) daşınmasında əsas keçid hesab edilən Hörmüz boğazında mühüm üstünlüklərə malikdir. Boğazın əhəmiyyətini göstərmək üçün qısa olaraq qeyd edək ki, dünya dəniz neft və sıxılmış qaz ticarətinin üçdə bir hissəsi bu boğaz vasitəsi ilə həyata keçirilir. Bütün bu üstünlüklərə baxmayaraq başda ABŞ olmaqla Qərb dövlətlərinin İrana məlum sanksiyaları səbəbi ilə bu ölkə neft və təbii qazın istehsalını və satışını tam reallaşdıra bilmir. Yeni texnologiyaların tətbiq edilməməsi səbəbindən İranın neft-qaz sənayesinin-xüsusən ixrac potensialının artırılması üçün xeyli vəsait tələb olunur.

İranın Xəzərdə neft ehtiyatları isə elə də böyük deyildir. Belə ki, mütəxəssislərin hesablamalarına görə İranın Xəzərdə neft ehtiyatları 15 milyard barel civarında qiymətləndirilir. Dənizin dərin sularında axtarış kəşfiyyat işlərinin aparılması və hasilatı üçün lazım olan yeni texnoloji avadanlıqlar, eləcə də kifayət qədər maliyyə yatırımları edilmədiyindən bu ehtiyatları tam reallaşdırmaq hələ ki, mümkün deyildir. Xəzərin səthindəki su axını da İran üçün əlavə problemlər yaratmaqdadır. Belə ki, axımın istiqamətinin şimaldan cənuba olması quzey və qərbdəki çirkli suları İran sahəsinə gətirir ki, bu da işləri çətinləşdirir.




***Şəkil 13. İranın neft və təbii qaz yataqlarının xəritəsi***

İrana tətbiq edilmiş sanksiyalar və Qərb ilə münasibətlərin pozulması səbəbi ilə böyük həcmdə investisiya və qabaqcıl texnologiya İrana daxil ola bilməmişdir. İran özü isə zəif iqtisadiyyata malik olduğundan həmin isvestisiyaları daxili imkanları hesabına edə bilmir və bununla yanaşı geri texnologiya fonunda Xəzərin İrana aid olan hissəsində neft və təbii qaz ehtiyatlarının kəşfi məhdud şəkildə aparılır. Əslində, daha zəngin Fars və Oman körfəzlərində aşkar edilmiş ehtiyatların hasilatı və nəqli məlum sanksiyalar səbəbindən ciddi məhdudiyyətlərlə qarşılaşdığı halda Xəzərdə geoloji axtarış işlərinin aparılması İran üçün elə də əhəmiyyətli görünmür. Daha çox bu səbəbdən İranın Xəzərin özünə aid hissəsində geoloji kəşfiyyat işlərinə başlaması digər sahilyanı dövlətlərlə müqayisədə gec başlamışdır. Xəzərin İran sektorunda ilk karbohidrogen yatağı "İran Milli Neft Şirkəti"nin törəməsi olan "Khazar Co" (KEPCO) tərəfindən aşkar edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, "KEPCO" İranın Xəzər və üç sahilyanı əyalət-Mazandaran, Gilan və Gülüstan ərazilərində neft və təbii qazın kəşfiyyatı, hasilatı, nəqli ilə bağlı səlahiyyətli şirkəti hesab olunur. İranın Xəzərdə nisbətən prespektivli yatağı hesab edilən "Sərdar-Cəngəl" 6.2-ci blokda yer almaqla, Mazandaran vilayətinin sahil zolağından 250 km aralıda yerləşir. Yataq ərazisində suyun dərinliyi 750 metrə çatır.




***Şəkil 14. İranın Xəzərdə Sərdar-e Cəngəl qaz və neft yatağı***

2012-ci ildə İran Xəzərdə 700 metr dərinlikdə yerləşən Sərdar-e Cəngəl neft və qaz yatağının perespektivliyini açıqladı. Qeyd edək ki, sözügedən yataq texnoloji baxımdan işlənməli, onun resurslarının kommersiya baxımdam rentabelliyi müəyyən edilməlidir. Amma bu tətbiq olunmuş sanksiyalar nəticəsində xarici investisiyaya "möhtac" qalan aparıcı beynəlxalq neft şirkətlərinə investisiya yatırmaq və birgə işlənilmə üçün təklif olunan 55 quru və dəniz yataqlarından biridir.

Yeri gəlmişkən qeyd edək ki, "Sərdar-Cəngəl" neft-qaz yatağı Gilan əyalətində İran sərhəddinin qurtaracağında yerləşir. Yataq 2002-ci ildə İran geoloqları tərəfindən aşkar edilmişdir. Sözügedən yataq 24 kilometr uzunluğunda, 16 kilometr enində olub və bir neçə laydan ibarətdir. Yatağın 2001-ci ildə tapıldığı və 2011-ci ildə isə kəşfiyyat qazma işlərinə başlanıldığı qeyd edilir. Bundan əlavə İranın Xəzərdə "Nur", "Royan", "Ramsar" və "Rodsar" yataqlarında neft-qaz ehtiyatlarının olduğu İran geoloqları tərəfindən bildirilir.

"Sərdar-Cəngəl" yatağının operatoru "KEPCO"-nun məlumatına görə burada 1,4 trilyon kubmetr təbii qaz ehtiyatı vardır. Amma, xarici mütəxəssislər bu rəqəmi real hesab etmirlər. İranın Xəzər hövzəsində və ona bitişik ərazilərində-Mazandaran, Gilan və Qolestan əyalətlərində kəşfiyyat işlərini aparmaq üçün "Shell", "Lasmo" və "Veba Oil" şirkətləri birləşərək müştərək "SCSG" kompaniyasını yaratmışdır.Xatırladaq ki, İranın Xəzərdə iddia etdikləri karbohidrogen yataqlarının bir hissəsi Azərbaycan ilə mübahisəlidir. Aşqabad sammitindən (2002-ci il) bir ay sonra, yenidən bu şəhərdə görüşən Azərbaycan və İran nümayəndələri qərara gəldi ki, mübahisəli dəniz yataqlarının hansı dövlətə mənsub olduğu həll olunana qədər həmin yataqlarda qazma işlərinin dayandırılsın. Amma, az sonra İran tərəfindən hazırlanmış SCSG qurğusu ilə rəsmi Tehranın bilavasitə göstərişi əsasında mübahisəli hesab edilən strukturlardan birində qazma işlərinə başlanılmış oldu. Bir müddət sonra-2009-cu ilin yayında İran Əmir-Kəbir adlandırılan Əlbruz platformasını rəsmən istifadəyə verdi. Əlbruz platforması İranın dərin sularda qazma işləri üzrə ilk təcrübəsi idi. İran mütəxəssisləri belə bir fikir səslən-

dirirdi ki, 2460 metr dərinliyində qazılan ilk quyu ilə "Sərdar-Cəngəl" yatağı aşkar edildiyi halda, paralel olaraq Xəzərin Rusiya sektorundakı "Yuri Korçaqin" yatağı 3500 metr, Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqları 3500-4000 metr, Qazaxıstan sektorundakı "Kaşaqan" yatağı 4700 metr və "Sərdar-Cəngəl" yatağına yaxın ərazidə yerləşən "Şahdəniz" yatağı isə 7000 metr dərinlikdə aşkar edilmişdir. Başqa sözlə, İran mütəxəssisləri qazma işlərinin dərinləşdirdikcə Xəzərin İran sektorunda daha prespektivli yataqların aşkar edilməsini mümkün hesab edirlər. Fars admnistrasiyası təkidlə birdirir ki, "Sərdər-Cəngəl" Xəzərdə "KEPCO" tərəfindən aşkar edilmiş yeganə mübahisəsiz neft-qaz yatağıdır. Amma, məsələ heç də rəsmi Tehranın iddia etdiyi kimi deyil. "Sərdar-Cəngəl" yatağı Astaradan 180 kilometr şimal-qərbdə, Azərbaycanın "Neft Daşları Yatağı"ndan isə 194 kilometr cənub-qərbdə yerləşir. Maraqlıdır ki, İran dəfələrlə 1921 və 1940-cı il müqavilələrinə istinad edilməsini vacib hesab etməsinə baxmayaraq, Sovet-İran sərhəddi kimi tanınan və adıçəkilən müqavilələrlə də təsdiqlənən Astara-Həsənqulu xəttindən "Sərar-Cəngəl" yatağı şimalda yerləşir. Xatırlasaq ki, İran ilə Azərbaycan arasında Xəzərdə sərhədlər müəyyənləşməyib, onda mövcud sərhədlər əsas götürülməlidir. Belə olduqda isə yuxarıda qeyd etdiyimiz kimi "Sərdar-Cəngəl" yatağı Sovet-İran sərhəddi hesab edilən Astara-Həsənqulu xəttindən şimala düşür və İran tərəfindən sözügedən yatağın işlənməsi qanunsuz hesab edilə bilər.

İrana tətbiq olunan sanksiyalar səbəbi ilə Xəzərdəki karbohidrogen ehtiyatlarının geoloji kəşfiyyatı, hasilatı ilə bağlı imkanları məhdud olduğundan 2015-ci ildə Xəzər üzrə əsas şirkəti hesab olunan "KEPCO" Xəzərdə 4 neft-qaz layihəsini təqdim etdi. Bu layihələr içərisində "Sərdar-Cəngəl" yatağı da var idi. 2017-ci il noyabrın 1-də Tehranda sözügedən 4 layihənin prespektivliyini (inkişafını) öyrənmək üçün Norveçin "Dəniz Resursları Qrupu" (ORG) ilə "KEPCO" arasında memorandum imzalanmışdır. İran rəsmiləri hesab edirlər ki, Norveçin adı çəkilən şirkətinin timsalında xüsusi texnikaya və bu sahədə yetərincə təcrübəyə malik partnyor tapa bilindi ki, onun dəstəyi ilə

Xəzərdə geoloji kəşfiyyat və qazma işlərinin həyata keçirməyə nail olmaq mümkündür. İranın bütün cəhdlərinə baxmayaraq "Sərdar-Cəngəl" yatağının kommersiya əhəmiyyəti hələ ki təsdiqini tapmayıb.

İranın neft-qaz ehtiyatlarının dördən üç hissəsi onun dövlət sərhədləri içərisindədir. Amma, rəsmi Tehran 28 neft-qaz yatağını qonşu dövlətlərlə paylaşır ki, həmin yataaqlarda İranın neft ehtiyatlarının 20%-i, qaz resurslarının isə 30%-i cəmləşmişdir. Gətirilən misaldan aydın olur ki, İranın trans-sərhəd bölgələrində yerləşən yataqların qonşu dövlətlərlə bigə işlənməsi təcrübəsi vardır. 2017-ci il noyabrın 1-də Tehranda Rusiya-Azərbaycan-İran dövlət başçılarının keçirdiyi sammitdə İran prezidenti H.Ruhani Xəzərdə neft-qaz kəşfiyyatı sahəsində əməkdaşlığa hazır olduğunu səsləndirmişdir. Həmin ilin 28 sentyabr tarixində Azərbaycanın "SOCAR" şirkətinin rəhbəri R.Abdullayevin dəvəti ilə İranın "KEPCO" şirkətinin rəhbəri M.Delavizin başçılığı altında nümayəndə heyəti Bakıda Xəzərdə iki ölkə arasında mübahisə doğuran yataqlar haqqında danışıqlar aparılmışdır. Bundan öncə isə Azərbaycan Respublikasinin Prezidenti İ.Əliyevin 2016-cı ilin fevral ayında İrana rəsmi səfəri gedişində tərəflər arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

İranın Xəzərdə perespektivli hesab edilən qaz yataqlarından biri də "Qonbədli" yatağıdır ki, onun da bir hissəsi Türkmənistan sektoruna düşür. Daha doğru söyləsək yataq Xəzərin İran və Türkmənistan sərhəddində yerləşir. Təbii olaraq ilk yanaşmada yatağın hansı dövlətə məxsus olması üstündə mübahisə yarandığını zənn etmək olar. Amma məsələyə rassional yanaşdıqda Tehrana tətbiq olunmuş sanksiyalar fonunda İran üçün sözügedən yatağın Türkmənistanla birgə istismarı daha məqsədəuyğun hesab edilə bilər. Başqa sözlə, Türkmənistan İran kimi sanksiyalara məruz qalmadığından xarici investisiyaların cəlbi onun üçün daha əlyetən görünür. "Qonbədli" yatağında faktiki olaraq üç quyu fəaliyyət göstərir və gündəlik qaz istehsalı 1 milyon kubmetrdir.

İran kəşfiyyat və işlənilmə üçün Xəzərin özünəməxsus hissəsində xarici investorlara dörd layihə təklif etmişdir ki, bunlar da 24,

26, 29-cu bloklar və "Sərdar-e Cəngəl" neft yataqlarıdır. Ümumilikdə İran Xəzərin ona aid olan sektorunda 46 bloka sahibdir, onlardan 8-i prioritet təşkil edir.

İran Xəzrdə enerji sahəsində Rusiyanı özünün tərəfdaşı hesab edir. 3 oktyabr 2017-ci ildə Moskvada Qaz İxrac Edən Ölkələr Forumunda Rusiyanın "Lukoyl" neft şirkəti ilə İranın "NOİC" milli şirkəti arasında Xəzərdə karbohidrogen ehtiyatlarının öyrənilməsi məqsədi ilə birgə geoloji kəşfiyyat işlərinin aparılması haqqında müqavilə imzalanmışdır. Xatırladaq ki, bu iki ölkə arasında Xəzərdə neft-qaz sahəsində əməkdaşlığı nəzərdə tutan ilk müqavilə idi. Adıçəkilən müqavilə Rusiyanın ilkinci neft nəhəngi olan "Lukoyl"-un timsalında Rusiyanın İranın neft-qaz bzarında mövqeyini möhkəmlənməsinə də şərait yaradacağı gözlənilir. Amma, bütün bunlar İranın Xəzərdə enerji və sərhədlərin müəyyənləşdirilməsi sahəsində əməkdaşlığa hazır olması anlamına gəlməməlidir. İran rəsmilərinin vaxtaşırı təhdid dolu çıxışları və hərbi ritorikadan tez-tez istifadə etmələri bunu bir daha göstərmiş olur.

Xəzərin İran sektorundakı karbohidrogen ehtiyatlarının rəsmi Tehran üçün prioritet olmadığını neft naziri Bijan Zəngənə də etiraf etmişdir. (Mütəxəssislər İranın neft nazirinin belə yanaşmasını, dərin qatlarda qazma işlərini səmərəli şəkildə həyata keçirəcək texnologiyanın olmaması və böyük həcmli investisiyaların cəlb edilməsi mümkünsüzlüyü səbəbi ilə tamamilə məntiqə uyğun hesab edirlər. Məsələyə digər tərəfdən yanaşdıqda, Xəzərdə İran ilə Azərbaycan arasında mübahisəli olan yataqlara böyük həcmli investisiyaların qoyulması da reallıqdan uzaq görünür.

İrana tətbiq edilən sanksiyalar səbəbi ilə böyük investisiyaları öz enerji sektoruna cəlb edə bilmədiyindən Fars körfəzi bölgəsindəki mövcud və zəngin neft-qaz yataqları Xəzər region ilə müqayisədə daha cəlbedici görünür. Rəsmi Tehran Xəzərdə iqtisadi siyasətdən daha çox təhlükəsizlik məsələlərinə diqqət yetirir və bu haqlı olaraq bəzi İran iqtisadçıları tərəfində tənqid olunur.

Aparılan təhlildən belə qənaətə gəlmək mümkündür ki, İranın Xəzərdəki yataqlarının işlənməsinin iqtisadi rentabelliyi hələ ki, təs-

diqini tapmayıb. Belə olduğu halda İranın Xəzərdəki karbohidrogen yatalarının işlənməsini daha çox geo-siyasi əhəmiyyət daşıdığını söyləyə bilərik.

Yuxarıda qeyd etdiyimiz sanksiyalar səbəbindən Tehran kəşf olunmuş və real istismara cəlb olunmuş yataqlarının karbohidrogen məhsullarına bazar tapmaqda xeyli çətinliklərlə qarşılaşmışdır. Bu isə təbii olaraq ixrac-boru kəməri sisteminin də zəif olmasını şərtləndirmişdir. Qeyd olunan kompleks problemlər konteksində yeni kəşfiyyat işlərinin aparılması İran üçün əsas prioritet təşkil etmir. Halbu ki, cənub qonşumuzun kəşf edilməli və iqtisadi-kommersiya baxımından mühüm əhəmiyyəti olan böyük həcmdə işlənməmiş ehtiyatları var.

Yeri gəlmişkən qeyd edək ki, xarici investisiyanın cəlbi və yeni texnologiyaların tətbiqi, eləcə də bu sahədə kifayət qədər elmi-texniki təcrübəyə malik olan Azərbaycan ilə əməkdaşlıq İran üçün faydalı ola bilər. Bu həm də Azərbaycan üçün də maraq doğuran məsələlərdəndir. Məsələnin iqtisadi-kommersiya əhəmiyyəti ilə yanaşı İranla münasibətlərin istiləşməsi heç kimə sirr olmayan Tehran-Yeravan "yaxınlığı"na da öz "təsirini" göstərə bilər. Bundan əlavə 2018-ci ilin payızında qüvvəyə minmiş daha sərt sanksiyaların İran iqtisadiyyatına böyük ölçüdə mənfi təsirləri artıq görünməkdədir. Azərbaycan isə İranda hansısa formada qarışıqlığın olmasını istəmir. Ən azından İranda yaşayan təxminən 40 mln soydaşımızın taleyi üçün məsuliyyət daşımağımız bunu vacib edir. Bu konteksdə prezident İlham Əliyevin 2016-cı ilin fevral ayında Tehrana rəsmi səfəri zamanı İranın Xəzər sektorunda və digər ərazilərində birgə kəşfiyyat işlərinin aparılması müzakirə mövzularından biri olmuşdur.

## II.6. Azərbaycanın Xəzərdə neft-qaz ehtiyatları

Mütəxəssislər Xəzərin toplam 48,2 mlrd barel neft ehtiyatının 32,1 mlrd bareli Qazaxıstanın payına düşdüyünü qeyd edir. Azərbaycanın adekvat olaraq 8,6, Rusiyanın isə 6,1 mlrd barel neft ehtiyatına malik olduğu bildirilir.

Hal-hazırda "SOCAR" üzrə 58 neft-qaz yatağından karbohidrogen hasil edilir ki, onlardan da 41-i Azərbaycanın quru və 17-si isə dəniz ərazisindədir.

Apardığımız tədqiqatlardan məlum olur ki, respublikanın ümumi quru ərazisinin 2%-ə qədəri, Xəzərin Azərbaycan sektorunda 64 min $km^2$ və ya 81,2% sahə neftli-qazlı strukturların payına düşür. Hazırda Azərbaycanın quru sahəsində kəşf olunmuş 67 neft-qaz yatağının 54-ü və dənizdəki 28 neft-qaz yatağının 18-i istismar olunur. Azərbaycanın quru ərazisində 5 neftli-qazlı kondensatlı region – Abşeron yarımadası, Aşağı Kür, Orta Kür, Quba, Xəzəryanı və Şamaxı-Qobustan ayrılır. Göstərilən ərazilərdə 43 neft, qaz və kondensat yataqları yerləşir və bunlardan 38-i istismar üçün yararlıdır.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 tln $m^2$ həcmindərdir. Hazırda "Abşeron" və "Ümid" yataqlarının işlənilməsi ilə bağlı hazırlıq işləri aparılır, "Azəri", "Çıraq", "Günəşli" yatağının dərin laylarında böyük qaz ehtiyatları var.

"SOCAR"-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə 2015-ci il üzrə açıqlamalarında ölkədə proqnoz neft ehtiyatlarının 4 mld ton, qaz ehtiyatlarının isə 6 mlrd $m^3$ civarında olduğunu bildirmişdir. Azərbaycanın neft-qaz resurslarının böyük hissəsi Xəzərin Azərbaycan sektorunda yerləşir ki, bunların da əksəriyyəti xarici şirkətlərin iştirakı ilə istismara cəlb olunmuşdur. Xəzərdəki əsas karbohidrogen yataqlarımız isə əsasən üç ərazidə cəmlənmişdir – Abşeron ərazisi, Bakı arxipelağı və Xəzərin Azərbaycan sektorunun cənub hissəsi. Ümumilikdə Xəzərin Azərbaycan sektoru (şelf hissəsi nəzərdə tutulur) 78,8 min kvadrat kilometr sahəni əhatə edir ki, bunun da 64 min $km^2$ perespektivli neft-qaz yataqları vardır. Xəzərin Azərbaycan sektorunda təbii qaz ehtiyatlarımızın 80%-i, qaz kondensatının isə 93%-i yerləşir. Neft ehtiyatlarımız bəzi mütəxəssislər tətəfindən 3,6 milyard ton civarında qiymətləndirilir ki, bu da əsasən "Azəri", "Çıraq", "Günəşli" yataqlarında cəmlənmişdir. 1979-cu ildə aparılmış kəşfiyyat işləri zamanı "Günəşli" yatağı Azərbaycan neftçiləri tərəfindən kəşf edilmişdir. Yataqda ilk quyu isə №4 adı altında 1980-ci ilin aprelində qazılıb. "Çıraq" yatağı

1985-ci ildə, “Azəri” yatağı isə 1987-ci ildə Xəzər dənizinin Azərbaycan sektorunda kəşf olunmuşdur. Meqa struktur kimi tanınan bu üç yataq çıxarıla bilən ehtiyatlarına görə dünyanın ən iri dəniz yataqları sırasına daxildir. 1994-cü il sentyabrın 20-də qeyd olunan yataqların hasilatın pay bölgüsü əsasında birgə işlənməsinə dair dünyanın 8 ölkəsinin 11 neft şirkəti ilə “Əsrin müqaviləsi” adlanan müqavilə bağlandı. 30 il müddətinə bağlanmış və 432,4 kvadrat kilometr sahəni əhatə edən müqavilə tarixi, siyasi, iqtisadi əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını almışdır. Bu tarix Azərbaycanda yeni neft strategiyasının başlanğıcı kimi qeyd olunur. “Əsrin müqaviləsi”nin əhatə etdiyi “Azəri”, “Çıraq”, “Günəşli” sahəsində ilkin neft ehtiyatları 511 mln ton səviyyəsində qiymətləndirilirdi. Qazma nəticəsində müəyyən olundu ki, neft ehyiyatları 640 milyon ton, səmt qazı ehtiyatları 100 mlrd $m^3$, sərbəst təbii qaz ehtiyatları isə 100-150 mlrd $m^3$-dir.

Xəzərin karbohidrogen ehtiyatlarının əhəmiyyəti həm də onunla seçilir ki, o mühüm bazarlar arasında əlverişli bir coğrafi xüsusiyyətə malikdir. Geoloji rayonlaşma baxımından “Azəri”, “Çıraq” və “Günəşli” yataqları Xəzərin cənub akvatoriyasında yerləşir. Yataqların yerləşdiyi ərazidə Xəzərin dərinliyi 110-180 metr arasında dəyişir. “Qarabağ” yatağı-Bakıdan 130 kilometr şimalda, Abşeron arxipelaqında yerləşir. 1995-ci il noyabrın 11-də Rusiyanın LUKoyl neft şirkətinin 45%-lik payla operatorluğu ilə 25 il müddətinə bu yatağın istismarı haqqında müqavilə bağlanılmışdır. Qarabağ yatağının neft ehtiyatları 120 mln. ton, qaz ehiyatlarıl isə 50 mlrd, kub metr həcmində qiymətləndirilmişdir. Lakin, 1999-cu ildə kompaniya Qarabağ yatağında kommersiya əhəmiyyətli neft olmadığını elan edib bu yataqla bağlı fəaliyyətini dayandırdı. 2006-cı ildə isə “SOCAR” özü bu yatağın işlənməsinə başlamışdır

“Dan Ulduzu-Əşrəfi” yatağı-1970-ci ildə Azərbaycan geoloqları tərəfindən aşkar edilmiş və 14 dekabr 1996-cı ildə yatağın işlənməsi ilə bağlı “SOCAR” ilə “Şimali Abşeron Əməliyyat Şirkəti” arasında müqavilə bağlanmışdır. Qeyd edək ki, yatağın ümumi sahəsi 453 $km^2$-dir. Burada neft ehtiyatları 150 mln. ton, təbii qaz eh-

tiyataları 60 mlrd. kub metr həcmində qiymətləndirilirdi. Kəşfiyyat quyularının qazılmasından sonra konsorsium burada kommersiya baxımından əhəmiyyətli hesab ediləcək neft olmadığını əsas gətirib 2000-ci ildə müqaviləyə xitam verilmişdir.

"Lənnkəran dəniz", "Talış dəniz" yatqlarının birgə işlənməsi və istifadəsi haqqında 1997-ci ilin yanvarında Parisdə "SOCAR" ilə Fransanın ən iri "Elf Akiten" və "Total" şirkətləri arasında 25 il müddətinə müqavilə bağlanılmışdır. Neft ehtiyatlan 350 mln. barrel civarında qiymətləndirilirdi. Lakin kommersiya əhəmiyyətli neft-qaz aşkar edilmədiyindən 2001-ci ilin dekabrında müqaviləyə xitam verildi.

Azərbaycanın ən böyük qaz yatağı hesab edilən "Şahdəniz" Xəzərin cənub hissəsində – Bakıdan 70 kilometr cənub-şərqdə yerləşir. Adıçəkilən yataq Azərbaycan geoloqları tərəfindən 1954-cü ildə aşkar edilmişdir. Təbii qazın sözügedən yataqdan hasilatı çətin və baha başa gəldiyi üçün sovet dönəmində burada qazma işləri aparılmamış, yalnız 1999-cu ildə böyük həcmli investisiyaar qoyulduqdan sonra yatağın geniş istismarına başlanılmışdır. Xatırladaq ki, Şahdəniz yatağı BP-nin yüzillik tarixində kəşf edilmiş ən böyük qaz yatağıdır. Xəzərin Azərbaycan sektorunda ən böyük qaz ehtiyatlarının cəmləndiyi "Şahdəniz" yatağının işlənməsi ilə bağlı bir qədər geniş məlumat verməyi faydalı hesab edirik. Yatağın birinci mərhələsi 2006-cı ilə qədər işlənmişdir. 2006-cı ildən isə ikinci mərhələ işlənməyə başlamışdır. Birinci mərhələ çərçivəsində hasil olunmuş qazın Türkiyəyə ixracı üçün Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri) kəmərinin tikintizi nəzərdə tutulurdu. 2001-ci il 12 mart tarixində prezident Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətininin Türkiyəyə rəsmi səfəri gedişində Azərbaycan təbii qazının Türkiyəyə ixrac edilməsini nəzərdə tutan hökümətlərarası müqavilə imzalandı. İlkin olaraq 2 milyard kub metr, sonrakı mərhələdə isə 6,6 mlrd $m^3$ təbii qazın Türkiyəyə çatdırılması müqavilədə təsbit olunmuşdur. 2007-ci ildə istismara verilən kəmərin "Şahdəniz-2" layihəsinin işə düməsi ilə genişləndirilməsi və Cənub Qaz Dəhlizinin bir hissəsini təşkil etməsi gündəmə gəlmiş oldu. Qeyd edək ki, layihə çərçivəsində Bakı-Tbilisi-

Ərzurum qaz kəmərinin Azərbaycandan keçən 443 kilometrlik hissənin 424 km-i, 249 km-lik Gürcüstandan keçən hissənin isə 62 km-i əvvəlki xəttə paralel olaraq yenidən çəkilməsi nəzərdə tutulurdu. Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi 2017-ci ildə başa çatdırıldı. Cənub Qaz Dəhlizi Şahdəniz Faza-2, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələrini əhatə etməklə ümumilikdə 4 seqmentdən ibarətdir. Cənub Qaz Dəhlizi Türkiyənin Yunanıstanla sərhəddindən başlayıb Yunanıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya yetişərək TAP layihəsi ilə tamamlanmaqdadır.

Layihə çərçivəsində iki yeni hasilat platforması tikilmişdir və onlar bir-birilə körpü vasitəsi ilə birləşdirilmişdir. "Şahdəniz Mərhələ-2"-nin işlənməsi gedişində 26 sualtı quyunun qazılması hasil olunan təbii qazın Səngəçal terminalına çatdırılması üçün sualtı boru kəmərinin çəkilməsi həyata keçirilmişdir. Qeyd edək ki, "Şahdəniz Mərhələ-2" layihəsində Azərbaycanda ilk dəfə Xəzərdə sualtı infrastuktur yaradılmışdır. Bununla yanaşı, neft-qaz sektorunda tikinti-quraşdırma işlərinin hamısının bütövlükdə ölkə ərazisində reallaşdırılmaqla həyata keçirilirdi. Bu da, Azərbaycan tarixində bir ilk hesab olunur. İki yarımdalma qazma qurğusu və Səngəçal terminalının genişləndirilməsi də adıçəkilən layihənin reallaşması gedişində tikilib istifadəyə verilmişdir. Birimci dayaq blokunun tikintisi Bakı Dərin Dəniz Özüllər Zavodunda və "Amec-Tekfen-Azfen" şirkətində "BOS Shelf", "Star Gulf və Saiperm" şirkətlərindən təşkil olunmuş konsorsium tərəfindən həyata keçirilmişdir. Dayaq bloku suyun 94 metr dərinliyində quraşdırılmışdır. Tikintisində 5 mindən çov insanın çalışdığı və onların da 90%-i yerli işçilər təşkil etdiyi sözügedən qurğunun 1 sentyabr 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınma mərasimi keçirilmişdi. Dayaq bloku hündürlüyü 105 metr, çəkisi 13 min 150 ton, 12 hasilat, 3 ixrac dikborusundan və bir idxal dikborusundan ibarətdir. Qeyd edək ki, bu Xəzərdə ən çox sayda dikborusu olan qurğu hesab edilir.

"Şahdəniz Mərhələ-2" çərçivəsində tikilən növbəti qurğu Heydər Əliyev adına yarımdalma qazma qurğusudur ki, bu da

“SOCAR”-ın “Caspian Drilling” şirkətinin logistika bazasında tikilmişdir. Sözügedən qurğunun ümumi çəkisi 29 min 200 ton təşkil edir ki, bu da 16 min 500 boru qovşağından və 881 km kabel xəttindən ibarətdir. Tikintidə son texnoloji yeniliklərdən istifadə edilmişdir. Üst tikililər yuxarıda qeyd etdiyimiz 94 metr suyun dərinliyində quraşdırılan dayaq blokunun üzərində yerləşdirilmişdir. Üst tkililər ümumilikdə 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 mvt olan 4 elektrik generatorundan ibarətdir ki, burada da işçilərin istirahət, ofis otaqları və idman zalları yer alır. Qurğunun inşası “AMEK-Azfen-Tekfen”şirkəti tərəfindən həyata keçirilmişdir. Tikinti quraşdırılma işləri bütövlükdə ölkə daxilində həyata keçirilmiş və inşaat işlərinə cəlb edilmiş 5 mindən artıq işçinin 90%-dən çoxu yerli kadrlar olmuşdur. Yüksək texnoloji təhcizatla təmin edilmiş belə qurğular “Şahdəniz Mərhələ-2” layihəsinin təhlükəsiz və uğurla həyata keçirilməsinə şərait yaratmış olur.

“Şahdəniz Mərhələ-2” çərçivəsində sualtı qurğuları birləşdirmək və digər texniki prosesləri həyata keçirmək üçün “Xankəndi” sualtı tikinti gəmisi inşaa edilmişdir. 6 sentyabr 2017-ci ildə Prezident İlham Əliyevin iştirakı bu nəhəng qurğunun təqdimatı keçirildi. Qeyd edək ki, bu sualtı tikinti işlərini həyata keçirən gəmi BP şirkətinin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşaa edilmiş və 2017-2027-ci illərdə “Şahdəniz” yatağının işlənməsində sualtı işləri həyata keçirməli id. Gəminin tikintisi üçün lazım olan iki gövdə hissə Sinqapurdan gətirilmiş və Bakı Gəmiqayırma zavodunda inşa edilən burun hissə ilə birləşdirilmişdir. “Xankəndi” sualtı tikinti gəmisi bütövlükdə Xəzər gəmiçilik tarixində texnoloji baxımdan yeni bir eranın başlanğıcı hesab edilə bilər. “Xankəndi” gəmisi suyun 550 metrə qədər dərinliyində tikinti-quaşdırma işlərini həyata keçirməyə qadirdir. Xatırladaq ki, bütövlükdə dünyada bu tipli 10 gəmi vardır ki, bunun da biri Azərbaycanın payına düşür. Bu nəhəng qurğuya tarixi və əzəli Azərbaycan şəhəri, hazırda isə müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altında olan Xankəndinin adının verilməsi xüsusi əhəmiyyət kəsb edir. Sözügedən gəminin uzunluğu 155 metr, eni 32 metr olub, ümumi çəkisi isə 17 600 tondur. Gəmi-

nin suya oturma hissəsi 6,5 metr, daşıma gücü isə 5000 metrik ton təşkil edir. Gəminin göyərtə hissəsinin ümumi sahəsi 2000 kvadrat metrdir. Tikinti işləri DNV GL-in (Norveç və Almaniya) təsnifat nəzarəti altında həyata keçirildiyindən təhlükəsizlik məsələləri ən yüksək səviyyədə həll edilmişdir. Gəmidə suyun 600 metr dərinliyində quraşdırma işlərini həyata keçirməyə imkan verən 900 metrik tonluq kraan quraşdırılmışdır. Bundan əlavə 18 nəfərlik dalğıc kapsulu sistemi, 6 ədədə 4 MVT və 2 ədəd 3,2 MVT gücümdə olmaqla ümumilikdə 8 genaratoru olacaq iki mühərrik hissəsi vardır. Bundan əlavə, məsafədən idarə olunan aparat və avadanlıq endirmə şaxtası da gəmidə quraşdırılmışdır. Bu unukal və çox funksiyalı gəminin tikinti xərcləri 378 milyon dollar təşkil etmişdir. Tikinti-quraşdırma işlərində 2000-dən çox adam cəlb olunmuşdur ki, bunun da 75%-i yerli işçilər olmuşdur. Bir sözlə, gəmi çox böyük texniki göstəricilərə malik olmaqla nürəkkəb qurluşlu "Şahdəniz mərhələ-2" çərçivəsində sualti-tikinti quraşdırma işlərini həyata keçirməyə tam qadirdir. Belə bir gəminin Azərbaycanda tikilməsi isə qürur verməklə yanaşı, gələcəkdə Azərbaycanın bu sahədə bölgədə əsas texniki mərkəzə çeviriləcəyini ehtimal etməyə əsas verir.

Dünyada ilk dəfə dənizdə neft hasilatına məhz Xəzərin Azərbaycan sektorunda "Pirallahı" (1902), "Gürgan-dəniz" (1947), "Cilov adası" (1948) yataqlarında həyata keçirilmişdir. 1949-cu ildə Bakıdan 100 kilometr uzaqlıqda "Neft daşları" yatağı aşkar edilmişdir. Sonrakı illərdə bir-birinin ardınca – "Darvin bankası" (1950), "Qum-dəniz" (1951), "Palçıq pilpiləsi" və "Abşeron bankası" (1953), "Cənub" (1962), "Bahar" (1968), "Həzi Aslanov" (1969), "Bulla" (1973), "Qarasu" (1974), "Dayazsulu Günəşli" (1980-ci illərin əvvəlləri), "8 mart" (1982), "Ələt" (1983). "Qərbi Abşeron" (1985) aşkar edilmişdir.

Hazırda Xəzərin Azərbaycan sektorunda (SOCAR-ın balansında) 22 neft yatağı mövcuddur. Dəniz neft yataqları içərisində ehtiyatlarına və hasilat göstəricilərinə görə Günəşli yatağı xüsusi ilə seçilir. Hazırkı şəraitdə Azərbaycanda ilk neft hasilatın təxminən 60%-i bu yatağın payına düşür. Xəzərin Azərbaycan sektorunda hazırki şəraitdə mövcud 22 dəniz neft yatağından 4-ü kəşfiyyatda (Cə-

nub-2, Kəpəz, Qarabağ, Əşrəfi), 2-si konservasiyada (Qarasu, Həzi Aslanov), 16-sı isə işlənmədədir. Bu yataqlardan da 12-si Abşeron arxipelaqında və 4-ü isə Bakı arxipelaqında yerləşir.

"Kəpəz" yatğaı Xəzərdə Azərbaycanın Türkmənistanla sərhəddinə yerləşməklə əsas mübahisə doğuran məsələlərdən birinə çevirilmişdir. Məlumat üçün bildirək ki, Kəpəz yatağı 1959-cu ildə seysmik kəşfiyyatın əks olunan dalğa üsulu ilə Azərbaycan geoloqları tərəfindən kəşf edilmiş və onun adlandırılması da (Kəpəz) məhz Azərbaycan ilə bağlı olmuşdur. "Kəpəz" təbii qaz yatağı Bakıdan 160 kilometr cənub-şərqdə yerləşir. 44,55 $km^2$ sahəyə malik olan yataq şimal-qərb və cənub-şərq istiqamətində uzanmaqla, biri uzununa olmaqla hər bir qanadı 4 eninə qırılma ilə davam edir ki, bu da onun strukturunu xeyli mürəkkəbləşdirir. 1983-cü ildən başlayaraq Kəpəz yatağında qazma işlərinə başlanmışdır. Lakin, əsas ehtiyatlar yatağın dərin qatlarında cəmlənməsi və dövrün sovet texnologiyası ilə həmin dərinlikdə hasilat işlərinin aparılması çətinlik yaratdığından "Kəpəz" strukturu işlənilməmiş vəziyyətdə qaldı. Digər bölmədə bu haqda geniş məlumat verildiyindən burada yalnız yatağın ehtiyatlarının həcmi barədə məlumatla kifayətlənəcəyik.

Bəzi mütəxəssislər Xəzərsahili ölkələrin Xəzərdə malik olduğu xam neft ehtiyatlarının ümumilikdə 95,7 milyard ton olduğunu bildirir ki, bunun da 60 milyard tonu Qazaxıstana, 16,5 mlrd tonu Türkmənistana, 2,2-5 mlrd tonu Rusiyaya, 2 mlrd tonu İrana, 5-12 mlrd tonu isə Azərbaycana aid edilir. Həmçinin mütəxəssislər X-əzəri enerji resurslarının miqdarı baxımından neft-qazla zəngin müxtəlif bölgələrlə də müqayisə edirlər. Beynəlxalq Enerji Agentliyinin məlumatında Xəzərin enerji ehtiyatları dünyanın bilinən ən böyük neft yatağına sahib Səudiyyə Ərəbistanının 261 milyard barel neft ehtiyatının üçdə ikisi civarında olduğu göstərilir. Xəzər regionunun qaynaqları mövzusunda araşdırmaçılar tərəfindən tələffüz edilən ən aşağı rəqəm belə, ABŞ ərazisindəki (22 mlrd barel) və Şimali dənizindəki (17 mlrd barel) isbat edilmiş neft ehtiyatlarının böyüklüyü ilə müqayisə edilir. Digər yanaşmaya görə Xəzərin karbohidrogen rezervləri Bəsrə körfəzi bölgəsindəki ehtiyatların dörddə birinə ekvivalent olduğu bilinməkdədir.

# III FƏSİL

# BEYNƏLXALQ VƏ REGİONAL AKTORLARIN XƏZƏR HÖVZƏSİNDƏ GEOİQTİSADİ VƏ GEOSİYASİ MARAQLARI

## III.1. ABŞ-ın Xəzər hövzəsində geoiqtisadi və geosiyasi maraqları

Xəzər hövzəsində xüsusi marağı olan dövlətlərdən biri də ABŞ-dır. Çikaqo universitetinin siyasi elmlər üzrə professoru J.J.Mearsheimer soyuq müharibənin bitməsindən sonra ABŞ-ın təməl məqsədinin qərb yarımkürəsinə hakim olmaq, digər yarımkürədə isə başqa bir dövlətin tək hakim olmasını əngəlləmək olduğunu iddia edir. Bu səbəblə ABŞ Xəzər hövzəsində özünə planetar bir rəqib olaraq ortaya çıxma potensialına malik olan Rusiya və Çin ilə güc mücadiləsinə girmişdir. ABŞ-ın bölgə ilə bağlı siyasətini şərti olaraq 3 dövrə-SSRİ-nin dağılmasından 1990-cı illərin ortalarına qədər, 90-cı illərin ortalarından məlum 2001-ci il 11 sentyabr hadisələrinə və 2001-ci ildən günümüzə qədərki dövrlərə ayırmaq mümkündür. Birinci mərhələdə ABŞ region dövlətlərinə birbaşa iqtisadi və maliyyə yardımları etməklə sovet rejimində formalaşmış, mərkəzləşmiş və daha çox dövlətin inhisarında olan iqtisadiyyatı liberallaşdırmaq, bazar yönümlü iqtisadiyyatın qurulması üçün islahatların aparılmasında maliyyə və digər yardımlar etmişdir. Məqsəd isə

regionun zəngin yeraltı və yerüstü sərvətlərinə ABŞ sərmayəsinin yatırılmasına və dövlətin qəbul etdiyi qanunlarla bu sərmayələrin qorunmasının təminatına nail olmaq idi. Birinci mərhələdə həmçinin, ABŞ xüsusilə Qazaxıstan və qismən Özbəkistanda sovet dönəmindən qalmış nüvə silahları qalıqlarının, eləcə də kimyəvi silahların zərərsizləşdirilməsinə nail olmaq istəyirdi. Xatırlasaq ki, sözügedən bölgə terorrist qrupların geniş fəaliyyət göstərdiyi Əfqanıstan, Pakistan kimi ölkələrlə birbaşa sərhəddir və ABŞ-ın Yaxın Orta Şərqdəki ən mühüm rəqibi olan İran da regionla uzun bir quru sərhəddə malikdir, onda ABŞ-n narahatlığını anlamaq çətinlik yaratmır.

XX əsrin 90-cı illərinin əvvəllərində ABŞ-n "Xəzər regionu siyasəti" adlı yeni bir xarici siyasət fəaliyyəti istiqaməti müəyyənləşmişdir. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər-diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir. Hələ keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq, "Fayneşil Tayms" qəzetinin yazdığı kimi, ABŞ əsas səylərini Qafqazda və Xəzərdə neft üzərində nəzarətə malik olmaq naminə amerikan təsir dairəsini yaratmaq və Xəzər neftinə yönəltmişdir. Həmin dövrdə ABŞ possovet məkanına fəal surətdə müdaxilə etmək imkanına malik olmadığından 3 həlledici istiqamətdə Balkanlara Ukraynadan, Cənubi Qafqaza Azərbaycandan və Mərkəzi Asiyaya Qazaxıstandan Rusiyanın təsirinin yayılması hüdudlarını müəyyən etmək kimi geosiyasi vəzifəni qarşısına qoyaraq rəsmi Vaşinqton üçün üç fovarit ölkə kimi Ukrayna, Azərbaycan və Qazaxıstanı seçmişdir. Nəzərə almaq lazımdır ki, sonuncu iki istiqamət bilavasitə olaraq Xəzər regionu ilə bağlıdır. Z.Bjeziniski "Böyük şahmat taxtası" əsərində ABŞ-ın Xəzər hövzəsində ilk növbədə Qazaxıstan və Azərbaycanın Rusiyanın orbitindən çıxmasına dəstək verməli olduğunu bildirməklə Gürcüstanın da müstəqil siyasət aparmasına nail olunması enerji resurslarının qərb istiqamətində nəqlinə şərait yaradacağını qeyd edirdi. Qazaxıstan və Azərbaycanın müstə-

qil enerji siyasəti aparması isə Bjeziniskinin düşüncəsinə görə karbohidrogen ehtiyatları zəngin olan Türkmənistanın da mövqeyinə böyük ölçüdə təsir göstərmiş olacaqdır.

1994-cü ildə prezident B. Klintonun göstərişi ilə ABŞ-ın Xəzər siyasəti ilə məşğul olan Xüsusu İşçi Qrupu yaradıldı. Xüsusi İşçi Qrupunun tərkibinə kifayət qədər nüfuzlu dövlət orqanları və onların aparıcı nümayəndələri daxil olmuşdur ki, bu da regionun ABŞ üçün mühüm əhəmiyyət daşıdığını göstərir. İşçi Qrupunun qənaətinə görə Xəzərin enerji qaynaqları yaxın gələcəkdə ABŞ-ın Orta Şərqdəki enerji mənbələrindən asılılığını azalda bilər. ABŞ-ın bölgə ilə bağlı siyasətinin bəzi detalları Dövlət Departamentinin 1997-ci ildə hazırladığı "Xəzər hövzəsinin Enerji İnkişafı" adlı məruzəsində müəyyən edilmişdir. Burada göstərilir; Dünya enerji təminatının artımı və genişlənməsi İran körfəzinə əlavə kimi, eləcə də Qərbin buradakı enerji maraqlarını sığortalamaq məqsədilə Xəzər hövzəsinin enerji ehtiyatlarının istismarı; "İranın izolyası" üçün bu olkənin gəlirlərinin məhdudlaşdırılması, və bu məqsədə nail olmaq üçün Xəzərin enerji resurslarının işlənməsində və nəqlində mümkün qədər İranı kənarda saxlamaq və s.

1996-cı ilin noyabrında ABŞ Prezidentinin MDB üzrə xüsusi nümayəndəsi Ceyms Kollinz Azərbaaycan Respublikasının Prezidenti H.Əliyevə məktub göndərərək Xəzərin milli sektorlara bölünməsi ideyasını müdafiə etdiklərini bildirdi. Bu dolayısı ilə ABŞ-ın Azərbaycanın mənafeyini müdafiə etməsi demək idi. Bu həm də Xəzərin hüquqi statusu məsələsinin sahilyanı dövlətlərin müzakirələrindən çıxaraq, daha geniş siyasi müstəvidə müzakirə mövzusu olmağa başladı.

1998-ci ildə ABŞ prezidentinin Xəzər Hövzəsi Üzrə Xüsusi Müşaviri vəzifəsi təsis edildi və enerji məsələləri üzrə tanınmış mütəxəssis olan və sonradan ABŞ-ın Azərbaycanda səfiri olacaq Riçard Morrinqstar bu posta təyin edildi. Bu isə özlüyündə bir daha sübut edir ki, bölgə ABŞ-ın xüsusi maraq dairəsinə daxil olmuşdur.

Amma, Rusiya Xəzər bölgəsini özünün "arxa bağçası" hesab etdiyindən strateji baxımdan bu ölkə üçün mühüm əhəmiyyət kəsb edir və rəsmi Moskva buradakı söz sahibliyini ABŞ-a güzəştə get-

mək istəmirdi. ABŞ-ın bölgəyə yerləşməsinin ən praqmatik yolu Avropa dəstəkli "boru xətləri diplomatiyası" ola bilərdi.

Rusiya Strateji Araşdırmalar Mərkəzinin direktoru A.Quşer ABŞ-ın Xəzər regionunda 3 əsas marağı olduğunu göstərir: kommersiya marağı, enerji marağı və geosiyasi maraq. A.Quşer geosiyasi marağı şərh edərkən bildirir ki, hal-hazırda ABŞ-ın Xəzərin neft layihələrinin işlənməsində iştirakı iqtisadiyyatdan daha çox geosiyasi məna kəsb edir. Müəllif Xəzərin yerləşmə coğrafiyasına diqqəti çəkərək göstərir ki, bu su hövzəsi qlobal məkanda ABŞ-ın geosiyasi və hərbi rəqibləri olan Rusiya, Çin və İran üçbucağında yerləşir. Xəzər hövzəsində nəzarət ABŞ-a beş dənizdə (Qara dəniz, Aralıq dənizi, Xəzər dənizi, Fars körfəzi və Ərəbistan dənizi) və bütün kontinentdə qlobal hegemonluğa nail olmağa imkan verir. Bundan əlavə Xəzər hövzəsində yerləşmə, iqtisadiyyatları hələ kövrək olan köhnə sovet respublikalarına Rusiyanın əzələ nümayiş etdirməsinə qarşı həmin dövlətlərin duruş gətirməsinə və eləcə də rus eksponsionist siyasətinin genişlənməsinə qarşı etibarlı sipər rolunu oynaya bilərdi. ABŞ kimi dövlətin regionda apardığı siyasət iqtisadi maraqların reallaşmasından daha çox, strateji mövqelərin ələ alınmasına yönəlmişdir. ABŞ-ın geostrateji taktikasını əks etdirən belə siyasi yanaşmada Xəzərin resursları üzərində nəzarətə nail olmaq, regionu Qərb məkanına cəlb etmək üçün mümkün olan bütün vasitələrdən istifadə olunurdu. Yuxarıda qeyd edildiyi kimi Qazaxıstan və Türkmənistan enerji resurslarının ixracı baxımından Rusiya boru-kəmər sistemindən asılı idi ki, bundan da rəsmi Moskva siyasi təzyiq vasitəsi kimi istifadə edir. ABŞ isə diverfikasiya olunmuş boru-kəmərlərin çəkilişini dəstəkləməklə yanaşı, bu sahədə Rusiyanın hegemonluğuna son qoymaq istəyirdi. Bununla özünün və Avropadakı müttəfiqlərinin daha etibarlı enerji ilə təhcizinə nail olmaq istəyir. Fikrimizcə ABŞ-n regionda möhkəmlənməsi həm də Rusiya və Çinin formalaşdırmaq istədiyi və NATO-ya alternativ kimi fəaliyyət göstərməsi proqnozlaşdırılan ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı)-in genişlənməsinə imkan verməməyə yönəlmişdir.

1990-cı illərin birici yarısında ABŞ Xəzərin hüquqi statusu məsələsində daha çox bitərəf mövqe sərgiləyirdisə, həmin onilliyin ikinci yarısında, daha dəqiq söyləsək 1996-cı ildə sektorial bölgünün daha ədalətli yanaşma olduğunu bildirmiş oldu. ABŞ-ın Xəzər regionunda kəskin rəqabətdə olduğu Rusiya Xəzərin sektorial bölgüyə qarşı çıxmaqla Qərb şirkətlərinin bölgəyə yerləşməsinin qarşısını almağa çalışırdısa, bunun əksinə rəsmi Vaşinqton daha böyük maliyyə və texnoloji imkanlara malik qərb şirkətlərinin Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsində pay almaqla yanaşı, növbəti mərhələdə onun nəqlində Rusiyanı by-pas etməklə proseslərdən kənarda saxlamağa çalışırdı. ABŞ-ın sektorial bölgünü dəstəkləməsi Müstəqil Dövlətlər Üzrə Xüsusi Elçisi Ceyms Kollinzin 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti H.Əliyevə ünvanladığı məktubda da "ABŞ Xəzərin sektorial bölgüsünü dəstəkləyir" fikri qırmızı xətlə keçirdi. Sektorial bölgü prinsipinin ABŞ-ın regionla bağlı siyasəti ilə tam ahənglik təşkil edirdi. İranın tam izoliyasiya edilməsi. onunla istənilən iqtisadi əməkdaşlıqdan qaçmaq və sanksiyalar tətbiq etmək, Rusiyanın isə hələ də Xəzərə daxili dənizi kimi baxmaq sterotipindən azad ola bilməməsi və regiona Qərbin istənilən formada daxil olmasını özü üçün təhlükə hesab etməsi fonunda Xəzərin milli sektorlara bölünməsi ABŞ iqtisadi maraqlarının təmin olunması baxımdan "ən ideal yanaşma" hesab olunurdu.

ABŞ-ın Xəzər hövzəsi ilə bağlı siyasətinin mühüm istiqamətləri digər bir dövlət sənədində öz əksini tapmışdır. Belə ki, bu məsələ 1997-ci ilin noyabrında Konqresin Qafqaz və Mərkəzi Asiya ölkələri barədə siyasəti haqqında qəbul etdiyi qərarda yer almışdır. Qərarda nəqliyyat, kommunikasiya və energetika sahələri üçün zəruri infrastrukturun, eləcə də Qərb-Şərq ticarət dəhlizinin inkişafına kömək edilməsi, bununla da həmin ölkələrin bir-biri ilə və Avro-Atlantika ittifaqına daxil olan sabit, demokratik, azad bazar iqtisadiyyatının hökm sürdüyü ölkələrlə daxili əlaqələr və kommersiya əlaqələrinin möhkəmlənməsi məsələləri yer almışdır. Sənəddən də göründüyü kimi ABŞ-ın bölgədəki maraqlarının bir hissəsini də regionun nəqliyyat-kommunikasiya infrastrukturunun genişlənməsi və

onun üzərində müəyyən nəzarətə sahib olmaq təşkil edir. Bu baxımdan tarixi "İpək yolu"nun bərpası bu super dövlət üçün sərfəlidir.

ABŞ-n Xəzəryanı bölgə ilə bağlı siyasətində əsas 3 ana xətt qırmızı çizgi ilə keçməkdədir. 1) Rusiyanın bölgəni nüfuzu altına salmağa imkan verməmək, 2) İranın radikal islamı yaymaqla regionda mövqeyini gücləndirməsinə mane olmaq, 3) İnsan haqlarının, demokratiyanın inkişafına nail olmaqla daha etibarlı iqtisadi-ticari əməkdaşlıq qurmaq. Regionda ən böyük güc mücadiləsinin ABŞ ilə Rusiya Federasiyası arasında getdiyi görülməkdədir. Rusiyanın Xəzəryanı respublikaların (Qazaxıstan, Türkmənistan və Azərbaycan) zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasında keçmiş Sovetlər dönəmində olduğu kumi yalnız Rusiya ərazisindən keçməsində israrlı olması ABŞ-ı rahatsız etməkdədir. Qeyd edək ki, Xəzəryanı ölkələrdə mövcud boru-kəmər sistemi Sovetlər dönəmindən qalmaqla texniki göstəriciləri qənaətbəxş vəziyyətdə deyildir.

Super güc olan ABŞ regionunun enerji ehtiyatlarının Rusiyanı by-pass etməklə diverfikasiya edilmiş boru-kəmər sistemi ilə nəqlində maraqlıdır.Rusiyanın məşhur geopolitiklərindən olan N.A.Nartovun fikrincə ABŞ-ın Xəzərin qərb bölgəsində möhkəmlənməyə can atması ilk öncə Rusiyanın regiondan sıxışdırılmasına. və enerji resurslarının rəsmi Moskvanın və Tehranın nəzarətindən kənarda nəqlinə nail olmağa hesablanmışdır.

ABŞ-da bir sıra hökümət dəyişiklikləri fonunda müxtəlif siyasi dairələr tərəfindən bir layihəni dəstəkləmə və onda davamlı iştiraketmə həqiqətən az nəzərə çarpan bir hal olmuşdur. Buna baxmayaraq BTC ABŞ-ın üç müxtəlif höküməti dövründə keçmiş Sovet İttifaqı yerində dəstəklədiyi, inkişaf etdirdiyi və strateji olaraq həyata keçirilməsinə yardımçı olduğu ən böyük layihədir.

ABŞ diverfikasiya olunmuş boru-kəmər sistemini müdafiə etməklə bölgə dövlətlərinin ərazi bütövlüyünü və inkişafını dəstəkləmək, onların müstəqilliyini gücləndirmək və bazar iqtisadiyyatına keçidə dəstək vermək, ABŞ şirkətlərinin bu regionda ticarət fəaliyyətini genişləndirmək, enerji təhlükəsizliyinin təmini və s məqsədlər güdür.

ABŞ-ın beynəlxalq sistem üzərindəki suverenliyini davam etdirmə mübarizəsini indiki vaxtda milli gücün ən əhəmiyyətli ünsürü halına gələn iqtisadi gücün mühafizəsi təşkil edir. İqtisadi strategiya ABŞ-ın müasir xarici siyasətinin prioriteti hesab olunur. 1990-2000-ci illərdə ABŞ iqtisadiyyatı 27% artmışdır. Dünya bazarında ABŞ-ın payı 1996-2002-ci illər arasında 25,9 %-dən 31,2 %-ə qədər yüksəlmişdir. ABŞ iqtisadi suverenliyini davam etdirə bilmək və super güc ünvanını digər dövlətlərə verməməsi üçün iqtisadiyyatın "canı" olan enerji qaynaqlarının idarəsini hədəfləməkdədir. Bu çərçivədə Prezident Corc Buşun təlimatı ilə "Milli Enerji Siyasəti İnkişaf Qrupu" (National Energy Policy Development Group) tərəfindən 2001-ci ilin mayında gələcək 20 illik bir müddətdə ABŞ-ın enerji sahəsindəki yeri və siyasətlərini açıqlayan və bu istiqamətdə edilən işlərin təməlini meydana gətirən bir hesabat hazırlanmışdır. Bu hesabata görə 1990-2000-ci illər arasında enerji istehsal nisbəti daha sonrakı illərdə eyni statistikanı izlədiyi təqdirdə ABŞ-ın enerji istehlakını qarşılamaqda qeyri-kafi qalacağı və enerji ehtiyacı artaraq böyüyəcəkdir. Bu vəziyyət ABŞ iqtisadiyyatını dərindən sarsıdacağı narahatlığına səbəb olmuşdur.

Dünya əhalisinin təxminən 5%-nin yaşadığı ABŞ-da gündəlik 21 mln (20,7 mln) barel dünya neft hasilatının 25%-ni istehlak etməkdədir. Dünyanın super gücü ünvanını daşıyan ABŞ-da gündəlik neft hasilatı 5,1 milyon barel təşkil etdiyindən istehlakla hasilat arasındakı 75%-lik böyük fərq göz qabağındadır ki, belə vəziyyət rəsmi Voşinqtonun enerji təhlükəsizliyinin təmin edilməsi üçün diqqətini Yaxın Orta Şərqə yönəldilməsinə məcbur edir. Yaxın Orta Şərqdəki qeyr-sabit vəziyyət, regionun "alov çənbərinə bürünməsi" ABŞ üçün əlavə qayğılar yaratmış olur. Bu aspektdə Xəzər regionunun zəngin neft-qaz resursları ABŞ üçün daha cəlbedici görülməkdədir.

ABŞ dünyanın üçüncü böyük (Səudiyyə Ərəbistanı və Rusiya Federasiyasından sonra) neft istehsalçısı və dünyanın ən böyük neft istehlakçısıdır. Neft 39% ilə ABŞ-ın ən çox istifadə etdiyi enerji qaynağıdır və neftin istehlak içindəki qabaqcıl yeri gələcəkdə də davam edəcəyi proqnoz edilir.

Enerji istehlakında neftin prioritet olmasına baxmayaraq ölkədəki duru yanacaq ehtiyatları sürətlə azalmaqda və beləcə ABŞ-ın neftdən xaricə asılılığı hər keçən gün artmaqdadır. 2000-cü ildə ABŞ-ın idxal neftə asılılığı 56% səviyyəsində ikən 2010-ci ildə isə bu göstərici 60%-in üzərində qərarlaşmışdır.

ABŞ-ın artan enerji ehtiyacını qarşılamaq məqsədi ilə gələcək 25 il müddətindəki olabiləcək prioritetli bazar sahələri əsasən aşağıdakılardır.

– Rusiya-Şərq Sibir bölgəsi
– Xəzər hövzəsi
– Qərbi Afrika

Qeyd edək ki, 1998-ci ilin oktyabrında Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan dövlət başçıları ilə birlikdə ABŞ-ın energetika nazirinin BTC-nin əsas ixrac kəməri kimi təsdiqinə çağıran bəyannaməni imzalaması rəsmi Vaşinqtonun layihədə maraqlı olduğunu bir daha təsdiqləyir. Bunun ardınca isə Ağ Evdə ABŞ neft şirkətləri rəhbərləri ilə görüşün keçirilməsi və burada BTC-nin geosiyasi və geostrateji əhəmiyyəti əsaslandırılmışdır. İstanbul bəyannaməsinin imzalanma mərasimində prezident B.Klintonun da iştirak etməsi yuxarıda söyləniləri bir daha təsdiq etmiş olur. ABŞ-ın BTC layihəsi ilə bağlı konkret iki marağının təmin olunduğu daha aydın görünür. Birincisi, bu layihənin reallaşması ilə Azərbaycan və Gürcüstanın müstəqilliyi daha da möhkəmlənir və Rusiyanın bölgəyə təsiri isə azalmış olurdu. İkincisi isə Fars körfəzinə alternativ olaraq neft mənbəyinə nail olunurdu.

Rusiya Qlobal Poblemlər İnstitutunun müdiri M. Delyaqin BTC-ni ABŞ-ın Qafqazı Rusiyadan strateji anlamda qoparmaq məqsədilə həyata keçirdiyi bir proje olaraq qiymətləndirir. Müəllifin qənaətinə görə Cənubi Qafqazda müstəqilliklərini yeni qazanan respublikaların iqtisadi baxımdan inkişaf etmələri Rusiyanın region üzərindəki hakimiyyət qurma imkanlarını daraltmaqdadır.

İqtisadi və coğrafi baxımdan Xəzərin karbohidrogen ehtiyatlarının Fars körfəzi vasitəsi ilə nəqli daha faydalı görünürdü. ABŞ Xəzərin duru və mavi yanacağının İran ərazisindən nəqlinə qarşı çıxır və bu istiqamətdə olan bütün təşəbbüsləri boğmağa çalışırdı. Cə-

nub qonşumuz ilə ABŞ və ümumilikdə Qərb arasındakı məlum böhran səbəbindən rəsmi Vaşinqtonun bölgənin neft-qaz resurslarının ixracında izlədiyi siyasətində İranın by-pass edilməsi qırmızı xətlə keçir. Tarixi, mədəni, dini və coğrafi anlamda İranın Xəzərətrafı ölkələrlə yaxınlığı və onun bu üstünlüklərdən yararlanaraq bölgədə nüfuzunun artırmaq istəyi ABŞ tərəfindən kəskin reaksiyalarla qarşılanmaqdadır. Xəzərin enerji resurslarının cənub istiqamətdə nəqlində ABŞ yenə də İrandan yan keçən TAPİ (Türkmənistan, Əfqanıstan, Pakistan və Hindistan) layihəsini dəstəkləyir.

Yeni qurulan boru-kəmər konsorsiumlarında ABŞ şirkətlərinin iştirakının təmin edilməsi də Vaşinqtonun izlədiyi siyasii kursun tərkib hissəsidir.

Beynəlxalq münasibətlər və geosiyasətlə məşğul olan mütəxəssislərin rəylərindən bu qənaətə gəlmək olur ki, qarşıdakı bir neçə on ildə Xəzərin neft-qaz resurslarının hasilatı və ixracı istiqamətində kəskin rəqabət davam edəcəkdir.

ABŞ müttəfiqi olan Aİ dövlətlərinin sürətlə artan enerji tələbatının qarşılanmasında onların Rusiyadan daha çox asılı olmasının qarşısını almağa çalışır.Bu həm Rusiyanın Avropada nüfuzunun güclənməsinin qarşısını alar, digər tərəfdən Xəzərsahili Azərbaycan, Qazaxıstan və Türkmənistanın müstəqil şəkildə enerji ixracı siyasəti apara bilmələri onların iqtisadi vəziyyətlərini xeyli yaxşılaşdıra bilər. Bu da sözsüz ki, müstəqilliyini yeni qazanmış bu dövlətlərin iqtisadi-siyasi mövqeylərinin güclənməsinə gətirib çıxarar və Moskvanın orbitindən xeyli uzaqlaşmış olarlar. Qərbə inteqrasiya isə liberal iqtisadiyyatın formalaşmasına təkan verməklə ABŞ şirkətlərinin fəaliyyəti üçün geniş imkanlar yaranmış olar.

ABŞ Xəzərin karbohidrogen ehtiyatlarının Rusiya vasitəsilə nəqlini istəməməsi ilə yanaşı, həmçinin İran ərazisindən də daşınmasına qarşı çıxırdı. Regionda başlıca iki rəqibindən biri olan Çinə (digəri Rusiya) yönəlik boru kəmər sisteminin qurulması da rəsmi Vaşinqtonun maraqlarına uyğun deyildir.

ABŞ-ın Xəzər hövzəsində daha çox Qərb istiqamətində divefikasiya olunmuş boru kəmər sisteminin qurulmasında maraqlarını aşağıdakı kimi qruplaşdırmaq olar.

A) Rusiya və İranın nəzarətindən kənar boru kəmər sisteminin qurulmasını müstəqilliyini yeni qazanmış Xəzəryanı respublikaların iqtisadi və siyasi baxımdan möhkəmlənməsinə olan dəsyəyi

B) Boru kəmərinin Türkiyədən keçməklə ABŞ-ın bölgədə müttəfiqlərinin enerji təhlükəsizliyində oynayacağı rol

C) ABŞ-ın biznes maraqları-ABŞ şirkətlərinin yeni layihələrdə iştirakını təmin etmək

D) Regionda demokratik proseslərə dəstək vermək

Bəzi ekspertlər ABŞ-ın Bakı-Tbilisi-Ceyhan layihəsinin dəstəkləməsinin bir həlqəsini də Ceyhan limanına axacaq neftin potensial alıcılarından birinin Yaxın Orta Şərqdə əsas müttəfiqi olan və İrana yönəlik siyasətində başlıca yer alan İsrailin olmasını hesab edirlər.

ABŞ gündəlik 8,69 milyard barel neft hasilatı ilə dünyada üçüncü sırada yer almaqdadır. Xatırladaq ki, ilk iki yeri Səudiyyə Ərəbistanı və Rusiya Fedarasiyası tutur. ABŞ-ın neft istehsalı ilə istifadəsi arasında mənfi saldo mövcuddur. Belə ki. yuxarıda göstərdiyimiz kimi, günlük neft hasilatı 8,69 mlrd barel oduğu halda, istifadə isə 20,5 mlrd barel təşkil edirdi. Yeri gəlmişkən qeyd edək ki, ABŞ bu göstərici ilə (neft istifadəsinə görə) ən yaxın izləyicisi Çini (8,69 mlrd barel) təxminən 2 dəfə yarım üstələyir. Rəsmi Vaşinqton 189 tln kub feet təbii qaz ehtiyatları ilə dünya sıralamasında 6-cı sırada yer almaqdadır. ABŞ neft ixracını əsasən Kanada, Meksika. Venesuela, Səudiyyə Ərəbistanı və müaqişələrlə dolu olan Orta Şərq ölkələrindən etməkdədir. ABŞ soyuq müharibənin bitməsindən sonra dünyanın super dövləti ünvanını qoruyub saxlaması üçün yalnız özünün enerji ehtiyaclarının ödənilməsi deyil, iqtisadiyyatının sıx bağlı olduğu müttəfiqlərinin də enerji çıxarılarının ödənilməsi ehtiyacı yaranmışdır. Dünyanın super dövləti ola bilməsi üçün rəsmi Vaşinqton üçün enerji güvənliyinin təmin edilməsi başlıca məsələdir. Bunu həm də ABŞ-ın dünyanın ən böyük neft idxalatçısı olması da diqtə edir ki, öz növbəsində belə vəziyyət ilk öncə mənbə çeşidliyinin təmin olunmasını diqtə edir. Məhz mənbə çeşidliliyinin çox olmasına verilən önəmdən irəli gəlir ki, ABŞ 60-dan çox ölkədən neft ixrac edir. Təbii olaraq neft idxal edilən dövlətlər rəsmi Vaşinqtonun maraq dairəsinə çevrilirlər.

Beləliklə, XX əsrin 90-cı iilərin əvvəllərində müstəqil dövlətlərin yaranması ilə SSRİ imperiyası süqut etdi və 1992-ci ildən Xəzərin hüquqi statusu rəsmən beynəlxalq münasibətlərin müzakirə obyektinə çevrilmiş oldu. Həm geosiyasi, həm də geoiqtisadi baxımdam mühüm əhəmiyyət daşıyan Xəzər regionu dünyanın şəriksiz super gücü olan ABŞ-ın maraqlarından kənarda qala bilməzdi. ABŞ sözügedən bölgədə Rusiya və Çin kimi rəqiblərini sıxışdıraraq həm geosiyasi, həm də geoiqtisadi maraqlarını gücləndirmək əzmində idi. Rəsmi Vaşinqtonun Xəzər regionunda izlədiyi siyasətin əsas prioritetləri-zəngin neft-qaz resurslarının istismarında yaxından iştirak etmək, həmin resursların nəqli marşurutlarının müəyyən edilməsində maraqlarının (neft-qaz ehtiyatlarının Rusiya və İrandan yan keçməklə dünya bazarlarına daşınması) təmin olunmasına nail olmaq, bölgədə münaqişələrin nizamlanmasında ABŞ-ın iştirakını təmin etməklə onların həllinə çalışmaq. Xəzəryanı respublikaların bazar iqtisadiyyatına keçidini sürətləndirməklə, onlarla iqtisadi-ticarət əlaqələrinin dərinləşdirilməsi və s. məsələlər təşkil edirdi. Qeyd olunan məqsədlərə çatmaq üçün ABŞ sahilyanı respublikaların demokratiyaya keçidini sürətləndirmək üçün liberal islahatların davamlı olaraq həyata keçirilməsində mümkün iqtisadi və siyasi dəstəyini artırmaqda davam edir. ABŞ Xəzərin hüquqi statusu məsələsində orta xətt üzrə sektorial bölgü prinsipini müdafiə etməklə özünün və müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunmasında regionun karbohidrogen ehtiyatlarından maksimum yararlanmaq istəyi Azərbaycanın müəllifi olduğu Baki-Supsa, BTC. BTƏ, TANAP, TAP kimi layihələrin dünyanın super gücü tərəfindən dəstəklənməsinə şərait yaratmışdır.

Bununla belə, "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycan ilə əməkdaşlıq edən Qərb şirkətlər və onların mənsub olduqları dövlətlər Xəzərin hüquqi statusu ilə bağlı birbaşa, açıq fikir söyləməkdən yayınırdılar. Həmin dövlətlər hüquqi status ilə bağlı hansı dövlətin mövqeyinin beynəlxalq hüquqa və mövcud təcrübəyə uyğun olduğunu yaxşı bilsələr də, diplomatik etiket baxımından bunun ilk öncə Xəzər sahili dövlətlərin "işi" olduğunda bunu açıq dillə söyləmirdilər.

## III.2. Avropa İttifaqının Xəzər hövzəsində geoiqtisadi maraqları

ABŞ-dan fərqli olaraq tərkibinə 28 dövlət daxil olan, ümumi sahəsi 4,2 mln və $km^2$ əhalisi 487 mln təşkil edən Avropa Birliyi Xəzər regionunda əsasən, iqtisadi maraqlar güdür və əsas məqsəd kimi öz enerji təhlükəsizliyini ön plana çəkir. AI-nin regionla bağlı ikinci mühüm məqsədi isə, sərhədlərindən kənarda mövcud olan daha zəngin enerji yataqlarında neft-qaz şirkətlərinin fəaliyyət sferasını genişləndirməkdir. Qeyd edək ki, təbii qaz istehlakına görə Avropa Birliyi yalnız ABŞ-dan geri qalır.

Avropa enerji mənbələrinin müxtəlifliyinə və alternativ nəqletmə marşurutlarına, habelə Mərkəzi Avrasiyanın daxilinə strateji çıxışa ehtiyac duyur. Xəzər sahilində müstəqilliyini yeni əldə etmiş dövlətlər (Azərbaycan, Qazaxıstan, Türkmənistan) isə siyasi baxımdan müstəqil və iqtisadi baxımdan yaşamağa qadir olmalı və dünyanın böyük dövlətlərindən təhlükəsizliklə bağlı ciddi zəmanətlər almaq istəyirdi. Belə bir şərait BTC və Cənub Qaz Dəhlizi layihələrinin müəllifi olan Azərbaycanın genişlənmiş Avropa ilə əlaqələrinə yeni ölçülər gətirir. Cənubi Qafqaz Avropadan Mərkəzi Asiya və Əfqanıstana qədər uzanan geostrateji sistemin inkişaf etdirilməsi üçün mərkəz rolunu oynayır. Bu Xəzərin enerji ehtiyatlarının və Mərkəzi Asiyanın müxtəlif mallarının Avroatlantik məkana çıxarılması üçün tranzit dəhlizi kimi mühüm əhəmiyyət kəsb etməkdədir.

2009-cu ildə Aİ-nin enerji istehlakı 1.927,4 mln ton neft ekvivalentində olmuşdur ki, bunun da 37,4%-i neft, 26,1%-i təbii qaz, 15,1%-i kömür, 14,7%-i nüvə enerjisi, 6,5%-i isə yenilənən enerji qaynaqları təşkil etmişdir. Statistik rəqəmlərdən də göründüyü kimi Avropa Birliyinin enerji istehlakının təxminən 3/2 hissəsi neft və təbii qazla təmin edilmişdir.

Avropa İttifaqının geoiqtisadi və geosiyasi anlamda Xəzər dənizinin neft-qaz resurslarının Rusiyadan yan keçməklə köhnə qitəyə

nəqlində xüsusu maraqları vardır. 2006-cı ildə Avropa Komissiyası Avropanın enerji strategiyası kimi qəbul edilən "Yaşıl kitab"ı çap etdirmişdi. Burada Aİ-nin enerji ilə bağlı izləyəcəyi siyasətin əsas istiqamətləri yer almışdır. Sənəddə Aİ-nin enerji təhcizatının təminində 3 əsas məsələ hədəf kimi götürülür. 1. Davamlılıq, 2. Rəqabətlilik, 3. Təhlükəsizlik. Bu 3 təməl prinsipdən aydın görünür ki, Avropa Birliyi idxal etdiyi enerji (neft-qaz) mənbələrinin çeşidlənməsini təməl prinsip kimi qəbul edir. Təbii ki, idxal enerji mənbələrinin çeşidləndirilməsi qiymətlərə də enmə baxımından təsirini göstərəcəkdir. Enerji strtegiyasının üçüncü seqmentini təşkil edən təhlükəsizlik məsələsi son illərdə daha çox aktuallıq kəsb etməkdədir.

**Aİ-nin enerji baxımından Rusiyadan asılılığı:** Burada əsasən Ukrayna müharibəsinə qədər (2022-ci il fevral) vəziyyət şərh edilir. İttifaqa daxil olan dövlətlərin sayı artdıqca xaricdən enerji (xüsusilə neft və qaz) asılılığı daha da artmaqdadır. Bu isə Ukrayna müharibəsinə qədər (2022-ci il fevral) Aİ-ni enerji təhcizatında inhisarçı mövqeyə malik Rusiyadan daha çox asılı vəziyyətə salmışdır. Ukrayna müharibəsinin necə yekunlaşacağı haqqında dəqiq proqnoz vermək çətindir. Müharibənin yekununda əldə edilmiş sülh və enerji təhcizatı məslələrinin necə həllini tapacağını əvvəlcədən söyləmək mümkün deyildir. Aİ ölkələrinin yerli neft ehtiyatları cəmi 750 mln ton həcmində qiymətləndirilir ki, bu da ümumi istehlakın yalnız 9,9%-ni təşkil edir. Artan enerji ehtiyacları fonunda bu rəqəmin 2030-cu ildə 4,4%-ə qədər enəcəyi proqnoz edilir. Birlik ölkələri Ukrayna müharibəsinə qədər istehlak etdikləri neftin təqribən 35%-i Rusiyadan idxal etməkdə idi. Rusiya isə bundan təzyiq vasitəsi kimi istifadə etməklə, yaranmış vəziyyətdən hərtərəfli yararlanmaq istəyindədir. Məhz Avropa İttifaqının enerji sahəsində getdikcə Rusiyadan daha çox asılı vəziyyətə düşməsinin nəticəsi kimi Gürcüstan hadisələrində, Krımın işğalında və eləcə də Suriyada Rusiyanın fəaliyyətinə qarşı rəsmi Brüssel "dişsizlik" nümayiş etdirmişdir.Yeri gəlmişkən qeyd edək ki, İttifaqa yeni qəbul olunmuş Şərqi Avropa dövlətləri daha çox neft və təbii qaz təhcizatı baxımından Rusiya-

dan asılı vəziyyətdə idi və bu dövlətlər siyasi müstəvidə də rəsmi Moskvanın təzyiqləri ilə qarşılaşmaqdadırlar. Məhz belə bir şəraitdə Avropa İttifaqı alternativ enerji mənbələrinə və onu kəsintisiz, etibarlı şəkildə Rusiyadan yan keçməklə Avropaya daşıyacaq neft-qaz kəmərlərinə ehtiyac duymaqdadır. Birlik ölkələri tələb olunan neftin bir hissəsini də Orta Şərqdən idxal edir. Amma, son illərdə bu regionda cərayan edən hadisələr və müharibələr sözügedən ərazidən enerji idxalını böyük dərəcədə risk altına almışdır.

Aİ-nın xarici enerji fakturası günlük 1 mld avrodan və qurumun ümumi idxalının beşdə birindən çoxdur. Aİ illik 350 milyard avrodan çox enerji idxal edir ki, bunun da üçdə biri Rusiyadan təmin edilirdi. Buna görə də enerji təchizatı təhlükəsizliyi digər üzv dövlətlərə nisbətən, Avropa İttifaqının, xüsusilə Baltik və Şərqi Avropa kimi az inteqrasiya olunmuş ölkələri üçün daha çox həssas məsələdir. Son illərdə Çin və Hindistanın eləcə də “Asiya pələngləri” adlandırılan Malayziya, Filippin, Tailand, Sinqapur, Cənubi Koreya və digər inkişaf etməkdə olan dövlətlər daha çox enerji resursları idxal etməkdədir. Bu da, ənənəvi neft-qaz marşurutlarının dəyişməsinə öz təsirini göstərir. Başqa sözlə, tükənən enerji resursu sayılan neft-qaz ehtiyatları zamanla tükəndikcə, ondan daha çox istifadə edən dövlətlərin sayının artması Aİ-nin çevik və rassional enerji siyasəti aparmağa məcbur edir. Enerji mənbələrinin əldə edilməsi getdikcə artan bir şəkildə geosiyasi mülahizələrin mövzusu olmaqdadır. Rusiya ilə Ukrayna arasında baş verən müharibə diverfikasiya olunmuş boru kəmərləri vasitəsilə neft-qaz təhcizatını həyata keçirməyi məcbur edir. Rusiyadan AB dövlətlərinə ixrac edilən təbii qazın təxminən yarısı, İttifaq dövlətlərinin isə ümumilikdə idxal etdikləri mavi yanacağın təxminən 20% civarında olan hissəsi Ukrayna üzərindən daşındığından bu dövlət tranzit ölkə kimi həm rəsmi Moskva, həm də Brüsselin mövqeyi baxımından xüsusi əhəmiyyət daşımışdır.




*Şəkil 15. Ukrayna üzərindən Avropaya daxil olan qaz boru kəmərləri (Ukrayna münaqişəsinə qədər)*

2016-cı ildə "Qazprom" şirkətinin boru xətti ilə Aİ dövlətlərinə qaz ixracı rekord həddə çatmışdır. Həmin ildə Aİ dövlətlərinə ixrac edilən mavi yanacağın ümumi həcmi 156,7 mld $m^3$ təşkil etmişdir. Aİ dövlətləri içərisində Rusiya qazının ən böyük alıcıları sırasında son 5 ildə Almaniya və İtaliya yer almaqdadır. 2012-ci ildə Şimal Axını layihəsinin istismara verilməsi ilə Rusiya qazı birbaşa Almaniya ərazisinə daxil olmağa başladı və bu təbii ki, Ukrayna ərazisindən keçən rus qazının həcminin azalmasına səbəb oldu. Bununla belə Ukrayna yenə də Rusiya qazının Avropaya daşınmasında əsas tranzit ölkə mövqeyini saxlaya bilmişdir. Belə ki, 2017-ci ildə Rusiya Ukrayna ərazisi vasitəsi ilə Avropaya 93,5 mld $m^3$ qaz ixrac etmişdir. Rusiya hökuməti dəfələrlə bildirmişdir ki, Ukrayna ərazisində ixrac infrastruktur sistemi köhnəlib, onun modernizasiyasına investisiya yatırılmalıdır və mövcud vəziyyət böyük həcmdə mavi yanacağın daşınmasını riskli hala gətirmişdir. Digər tərəfdən rəsmi Moskva Kiyev hökümətini iqtisadi əsaslar gətirmədən tranzit taariflərinin artırmasında ittiham edir. AI ölkələrinə Rusiya təbii qazı əsasən Şimal axını (Rusiya-Almaniya), Yamal-Avropa kəməri (Belarus vasitəsilə tranzit) və Ukraynanın qaz nəqli sistemi (Ukraynadan tranzit) ilə daşınır. Bundan əlavə Rusiya qazının Avropaya nəqlində Türkiyə, Estoniya və Finlandiya da tranzit ölkə statusunda hesab edilə bilər.

Ukrayna müharibəsinə qədər Avropa Birliyinin qaz idxalatının 42%-i Rusiyadan edilməkdə idi və artan tələbat fonunda bu göstəricinin də yüksəlməsi gözlənilirdi. Təbii ki, Ukrayna müharibəsi Rusiyadan qaz asılılığını xeyli azaltmış oldu. Avropanın qaz təhcizatına diqqət yetirdikdə aydın olur ki, Aralıq dənizi sahilində yerləşən Fransa, İspaniya, Portuqaliya və İtaliyada Əlcəzairdən idxal olunan təbii qaz xüsusi əhəmiyyətə malik olduğu halda, Şərqi və Mərkəzi Avropa dövlətləri, eləcə də Baltikyanı respublikalar daha çox Rusiya qazından asılı vəziyyətdədirlər.




***Şəkil 16. AB ölkələrinin təbii qaz idxalı baxımdan Rusiyadan asılılığı rəqəmlərlə (Ukrayna münaqişəsinə qədər)***

Avropada təbii qaz istehlakı 2010-cu ildə maksimum səviyyəyə – 597,9 mld $m^3$ çatmış oldu. Bundan sonrakı 4 il müddətində tələbat 23% azalmışdır. Avropa qaz bazarının daralmasının əsas səbəbi elektrik enerjisi sahəsində təbii qaza olan tələbatın azalması ilə bağlı idi. Belə ki, 2013-cü ildə elektrik enerjisi istehsalında təbii qaza olan tələbat 2003-cü il səviyyəsindən də aşağı düşdü

2014-2016-cı illərdə isə İttifaq dövlətlərində mavi yanacaq istehlakı yenidən artmış və 2016-cı ildə 425,5 mld $m^3$ təşkil etmişdir. Azalma tendesiyasını diqqətlə izlədikdə görürük ki, bu məişət sektorunda deyil, daha çox elektrik enerjisinin alınmasında, sənaye və digər sahələrdə baş vermişdir. Avropa İttifaqı rəsmiləri artan tələbat

fonunda idxal mənbələrinin də çeşidləndirilməsində maraqlıdırlar və bir ölkədən (Rusiyadan) asılılığın azaldılmasında israrlıdırlar. Alternativ enerji mənbələrindən istifadənin genişlənməsinə baxmayaraq iqtisadiyyatın sürətli artımı və bərpa olunan enerji mənbələrinin daha baha başa gəlməsi yaxın bir neçə on ildə təbii qazın öz yerini qoruyub saxlayacağını deməyə əsas verir.

2050-ci ilə qədər Aİ dövlətlərinin mavi yanacaq tələbatı analiz edildikdə əksərən göstərilən müddətə qədər sözügedən dövlətlərin təbii qaz tələbatının sabitləşməsi və yaxud azalması tendensiyalarının üstünlük təşkil etdiyini görsək də, təbii qazın istehlakında ciddi, radikal azalmaların olması real görünmür. Fikrimizi inkişaf etdirərək qeyd edə bilərik ki, Beynəlxalq Enerji Agentliyi tərəfindən 2017-ci ildə dərc olunmuş Aİ ölkələrinin qaz tələbləri ilə bağlı qeydlərindən də aydın görünür ki, mavi yanacaq tələbatı sabit qalacaq və hətta artacaq. Belə bir təxmini ssenari BP-nin 2018-ci ildə dərc olunmuş hesabatında da əksini tapmışdır. Ümuilikdə isə ekspertlər bir-birinə yaxın olan 3 mümkün ssenarinin ola biləcəyini qeyd edirlər. 1) 2016-cı illə müqayisədə durğunluq-yəni illik 420-425 mld $m^3$ həcmində tələbat; 2) 20% artım; 3) 20% azalma. Ekspertlər 2035-2040-cı illərdə Aİ dövlətlərinin təbii qaz tələbatının 340-510 mld $m^3$ arasında dəyişə biləcəyini qeyd edirlər. Bununla yanaşı karbon emissiyasının azalmasını prioritet seçilməsi kömürün enerji istelakında payının azalması ilə yanaşı təbii qazın isə sabit qalma ehtimalını artırmış olur.

Maraqlıdır ki, Aİ ölkələrinin özündə təbii qaz hasilatı getdikcə azalmaqdadır. Belə ki, 2016-cı ildə təbii qaz hasilatı sözügedən dövlətlərdə 121,2 mld $m^3$ olmuşdur ki, bu da 2010-cu illə müqayisədə 54,3 mld $m^3$ azdır.

Mavi yanacağa tələbat bu qədər artdığı bir şəraitdə köhnə qitənin özünün isə ehtiyatları bu tələbatı ödəməkdən uzaqdır. Belə ki, Avropa Birliyinin əsas təbii qaz ehtiyatları olan ölkələri əsasən Danimarka – 90 mld $m^3$, Almaniya – 210 mld $m^3$, İtaliya – 220 mld $m^3$, İngiltərə – 630 mld $m^3$, Hollandiya – 1.630 mld $m^3$ və Polşa – 120 mld $m^3$ olmaqla toplam 2.949 mld $m^3$ təbii qaz ehtiyatına malikdir.

Dünyanın mavi yanacaq ehtiyatlarının yalnız 2%-i Avropa İttifaqının payına düşür ki, bu da qaz istehlakında artım olmasa yalnız 20 il üçün yetərli ola bilər. Qərbi Avropada təbii qaza olan tələbat orta hesaabla illik 2,4% artmaqla 2025-ci ilə qədər xaricdən asılılıq 70%-ə qədər yüksələ bilər. Norveç neft ehtiyatlarına görə Avropa qitəsində ilk sırada yer alarkən, mavi yanacaq baxımından isə ikinci yerdə qərarlaşmışdır. Ümumilikdə isə Avropanın təsdiq olunmuş neft-qaz ehtiyatlarının 75%-i bu ölkənin payına düşür. 2020-ci ilin məlumatına görə Norveç dünyada duru yanacaq hasilatına görə 18-ci, mavi yanacaq hasilatına görə isə 21-ci sırada yer alır. 2021-ci ilin birinci yarısında Norveçdə ümumi ehtiyatları 60 mln ton olan 8 yeni yataq aşkar edilsə də ümumilikdə bu Skandinaviya ölkəsinin bir çox yataqları tükənmək üzrədir. Norveçdə neft və təbii qaz çox çətin şəraitdə – dənizdən hasil olunur. Neftin 1 barelinin hasil olunması təxminən 30 dollara başa gəlir.

Avropada təbii qaz hasilatının mühüm hissəsi İngiltərə və Hollandiyanın payına düşür ki, Avrostatın verdiyi məlumata görə 2016-cı ildə burada hasil olunan təbii qazın 37%-i Hollandiyanın, 33%-i isə Britaniyanın payına düşmüşdür. Bundan əlavə qeyd etmək lazımdır ki, Polşada və digər Avropa ölkələrində şist qazının geoloji kəşfiyyatı ilə bağlı aparılan işlər uğurlu nəticələr verməmişdir. Hollandiyada hasilatın azalması səbəbi tək ehtiyatların tükənməsi ilə əlaqəli olmayıb, həm də 2014-cü ildə Avropanın ən böyük təbii qaz yatağı olan Qroningenin yerləşdiyi Loppersum qəsəbəsində zəlzələ baş verməsi ilə əlaqədar tətbiq olunan məhdudiyyətlərlə də bağlıdır. Hollandiya höküməti zəlzələdən dərhal sonra yataqda gündəlik hasilatın azaldılması ilə bağlı konkret göstərişlər verdi. İngiltərənin də kontinental şelfində yataqlar əvvəlki güclərini itirərək, hər il azalmaqda davam edir. Bütün bu göstəricilər ümumilikdə Aİ ölkələrində təbii qaz hasilatının azalmasını şərtləndirir və bunu konkret rəqəmlərdə də izləmək olur. Mütəxəssislərin hesablamalarına görə 2017-ci ildəki Aİ ölkələrində 116,4 mld $m^3$-lik hasilat, belə temp ilə 2035-ci ildə 2 dəfə azalaraq 51 mld $m^3$-ə enə bilər. Aİ ölkələri içərisində Kipr təbii qaz ehtiyatlarına görə Hollandiyadan sonra

ikinci sırada yer almağa iddialı görünür. Amma rəsmi Afinanın Şimali Kiprin haqlarını tanımazdan gəlməsi Ankarada olduqca sərt qarşılanmaqla yanaşı, Aralıq dənizində siyasi gəlişmələri də xeyli canlandırmışdır. Türkiyə höküməti Şimali Kiprin Aralıq dənizində haqlarını sonuna qədər qorumaqda qərarlı olduqlarını nümayiş etdirməsi İttifaq rəsmilərinin yerli ehtiyatlara güvənməkdə tələskənliyə yol verməməyə yönəldir.




***Şəkil 17. İsrail və Cənubi Kipr Yunan Respublikasının Aralıq dənizində təbii qaz yataqları***

2010-2016-cı illərdə Norveç istisna olmaqla Avropada təbii qaz hasilatı 31% azalmışdır. Sadaladığımız bu problemlərdən Aİ dövlətlərində mavi yanacaq baxımdam xaricdən asılılıq 2010-cu illə müqayisədə 7% artaraq 2016-cı ildə 72% təşkil etmişdir. Daxildə hasilatın azalması fonunda 2035-ci ilə qədər Aİ ölkələrinin mavi yanacağa tələbatının xaricdən ödəmək tələbatının artacağını söyləməyə əsas verir.

Aİ dövlətlərinin təbii qaz tələbatı ilə bağlı 3 ssenari ilə yola çıxsaq onda aşağıdakı mənzərə ilə qarşılaşmağımız mümkündür. 1) Aİ ölkələrində 2035-ci ilə qədər tələbat sabit qalacaq (yəni illik təxminən 425 mld $m^3$). Belə halda xaricdən asılılıq 374 mld $m^3$, başqa sözlə 88% təşkil edəcəkdir. 2) Aİ dövlətlərinin təbii qaz tələbatı 20% artaraq 2035-ci ilə qədər 511 mld $m^3$ təşkil edir. Bu halda

xaricdən asılılıq 460 mld $m^3$, başqa sözlə 90%-ə yüksəlmiş olacaqdır. 3) 2016-cı illə müqayisədə 2035-ci ilə qədər tələbat 20% azalaraq 340 mld $m^3$ təşkil edəcək. Buna adekvat olaraq xaricdən asılılıq da azalaraq 289 mld $m^3$, yaxud 85% təşkil edəcək.

2016-cı ilin sonuna olan məlumata görə Aİ ölkələrinə boru kəməri ilə qaz tədarükü Aİ qaz bazarında idxal-ixrac əməliyyatlarının ümumi həcminin 88%-i, və ya 376,3 milyard kub metrini təşkil etmişdir. Eyni ildə Aİ-yə daxil olmayan təhcizatçı dövlətlərdən boru kəmər vasitəsi ilə 289,9 mld $m^3$ təbii qaz idxalı həyata keçirilmişdir. Aİ-yə boru kəmər vasitəsilə təbii qaz ixrac edən əsas dövlətlər Rusiya, Norveç, Əlcəzair və Liviyadır. Norveç təbii qazının ən böyük alıcıları 2012-2016-cı illərdə Almaniya və Böyük Britaniya olmuşdur. Əlcəzair qazının əsas alıcıları Aİ ölkələri olan İtaliya və İspaniyadır. Liviya qazının isə yeganə alıcısı İtaliyadır. Amma son vaxtlar Liviyadan İtaliyaya qaz ixracı azalmaqda davam edir. 2016-cı ildə Liviyadan İtaliyaya qaz ixracı 4,4 mld $m^3$ təşkil etmişdir ki, bu da 2012-ci illə müqayisədə 32% azdır. Beləliklə Aİ ölkələri boru kəməri ilə təbii qazı əsasən Rusiya, Norveç, Əlcəzair və Liviyadan idxal edir. Bunların içərisində isə ən böyük pay Rusiyaya məxsusdur. Ümumilikdə Aİ dövlətlərinin kəmər vasitəsi ilə idxal etdiyi qazın 41%-i Rusiyadan, 29%-i Norveçdən, 9%-i Əlcəzairdən və 1%-i isə Liviyadan alır. ENTSOG-un 2017-ci il üçün rəsmi məlumatına görə əsas təhcizatçı dövlətlərdən (Rusiya, Norveç, Əlcəzair, Liviyadan) Aİ dövlətlərinə mavi yanacaq nəql edən kəmərlərin ümumu gücü 430,1 mld $m^3$ təşkil etmişdir. Aİ dövlətləri xaricdən təbii qaz almaq üçün mövcud kəmər sisteminin daşıma gücündən istifadə yalnız 67% təşkil edir. Göründüyü kimi gələcəkdə qaz tələbatı artarsa mövcud kəmər sisteminin onu nəql etməyə gücü çatar. Bundan əlavə Şimal Axını-2, Türk Axını və Cənub Qaz Dəhlizi kimi yeni layihələrin reallaşması İttifaq dövlətlərinin xarici mənbələrdə təbii qaz alınmasında texniki baxımdan ciddi problemlərlə qarşılaşmayacağını proqnoz etməyə imkan verir.

Aİ ölkələrinin ikinci ən böyük qaz idxalı mənbəyi Norveç hesab olunur. 2016-cı ildə 109,8 mld $m^3$ qaz ixrac etməklə faktiki ola-

raq Norveç Rusiyadan sonra Aİ ölkələrinin ikinci ən böyük qaz idxalı nənbəyi olduğunu bir daha təsdiqləmiş oldu. Amma, hər ötən il Norveçdə təbii qaz hasilatı azalır. Norveç azalan hasilatı konpensasiya etmək üçün Şimal dənizində yeni qaz yataqlarının istismara verilməsinə çalışmaqdadır. GASSCO-nun proqnozlarına görə Norveçin mövcud ixrac kəmərləri Aİ ölkələrinə maksimum ildə 110 mld $m^3$ təbii qaz ixrac edə bilər. Norveç qazı dəniz dibi ilə və yüksək keyfiyyətlə çəkilmiş kəmərlə Böyük Britaniyaya ixrac olunur. Eyni zamanda bu xətt Almaniya, Böyük Britaniya, Fransa, Hollandiya və Macarıstanı eyni şəbəkədə birləşdirir. Norveçdən boru kəmər ilə mümkün daşımaların 80%-dən istifadə edilir ki, bu da gələcəkdə idxalın həcminin artırılmasına imkan verir.

Avropanın mavi yanacağa olan tələbatının ödənilməsində İsrail, İran, Misr və Türkmənistan da mühüm mənbə rolunda çıxış edə bilərlər. Hətta bunların içərisində İran və Türkmənistan öz ehtiyatlarına görə dünya ölkələri arasında 2-ci və 4-cü sıralarda yer almaqdadır. Amma adıçəkilən dövlətlərlə danışıqlar hələ praktik mərhələyə qədəm qoymamışdır. Aparılan qısa təhlildən də göründüyü kimi Aİ ölkələrinin əsas mavi yanacaq aldığı ölkə Rusiyadır.

**Aİ-nin alternativ mənbələrdən enerji təhcizatı üçün irəlü sürdüyü layihələr:** Avropa İttifaqının Enerji Təhlükəsizliyi Strategiyasında alternativ enerji mənbələrindən istifadəyə üstünlük verilməsi, rəqabət qabiliyyətli bazar mühütünün formalaşdırılması ilə yanaşı idxal olunan neft-qaz marşurutlarının çeşidləndirilməsi də mühüm yer almaqdadır. Avropanın enerji təhlükəsizliyində Xəzər hövzəsi mühüm əhəmiyyətə malikdir. İttifaq hələ ötən əsrin 90-cı illərində adıçəkilən region ilə sıx iqtisadi əlaqələr qurmaq, həmçinin regionun karbohidrogen ehtiyatlarının idxalını nəzərdə tutan TRASEKA, TASİS, İNOGEYT (Avropaya dövlətlərarası neft və qaz ixracı) kimi proqramlar işləyib hazırlamışdır.

**TRACECA** (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı 3 may 1993-cü il tarixində Brrüsseldə keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin konfransında Brüssel deklarasiyası ilə təsis olun-

muşdur. Proqramın məqsədi qeyd edilən dövlətlərin iqtisadi-siyasi müstəqilliklərini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə ən tez və daha ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir. Eyni zamanda TRACECA layihəsi ilə AB Mərkəzi Asiyadan və Cənubi Qafqazdan keçməklə Şərqi Avropa dövlətlərinə yüklərin daşınmasında Rusiya inhisarından qurtarmağa çalışır. Proqram çərçivəsində şose və dəmir yolları, dəniz limanları, eləcə də hava dəhlizi qurmaqla Rusiyanın by-pass edilməsi, qarşılıqlı yükdaşımaları həyata keçirilməsi planlaşdırılmışdır. Boru kəmər nəqliyyatının genişləndirilməsi və daha təhlükəsiz hala gətirilməsi sözügedən layihədə xüsusi yer tutur. Tarixi İpək Yolunun bərpası istiqamətində mühüm addım 1998-ci il sentyabrın 7-də Bakıda keçirilən Rumıniya, Bolqarıstan, Moldava, Ukrayna, Türkiyə, Gürcüstan, Azərbaycan, Özbəkistan, Qırğızıstanın, dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 30-dan çox dövlət nümayəndələrinin iştirak etdiyi beynəlxalq konfransın mühüm əhəmiyyəti oldu. Konfransın yekununda "Bakı Bəyannaməsi" qəbul edilmiş və TRACECA layihəsinin reallaşdırılması üçün əsas olan "Çoxtərəfli Əsas Saziş (MLA)" imzalanmışdır. Qeyd edək ki, bu saziş adıçəkilən proqramın reallaşması üçün əsas sənəd (müqavilə) hesab olunur. Xəzər hövzəsinin zəngin təbii qaz ehtiyatlarına malik dövləti olan Türkmənistan layihəyə qoşulsa da "Çoxtərəfli Əsas Saziş (MLA)"i imzalamamışdır. Rəsmi Tehran isə bu müqaviləni 2009-cu ildə imzalamaqla TRACECA proqramına qoşulmuş oldu. Layihədə Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının bu dəhlizlə istehlak bazarlarına çatdırılması nəzərdə tutulurdu.

**İNOGEYT** (The Interstate Oil & Gas Transport to Europe-Avropaya dövlətlərarası neft və qaz nəqli) proqramı isə 1999-cu ildə qəbul edilmiş və dövlətlərarası neft və qaz ixracını nəzərdə tutur. Aİ tərəfindən Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyada tərəfdaş ölkələr arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyan enerji yardımı proqramıdır. Proqrama Belarusiya, Moldova,

Ukrayna, Türkiyə, Gürcüstan, Azərbaycan Ermənistan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Tacikistan, və Qırğızıstan olmaqla ümumilikdə 12 üzv dövlət daxil olmuşdur. Sözügedən proqram çərçivəsində Avropa Birliyinin daxili enerji bazarına uyğun şəkildə enerji bazarlarına yaxınlaşma, enerji təhlükəsizliyinin təmininə töhvə vermək, enerji səmərəliliyinin gücləndirilməsi. Birliyin maraqlarına uyğun gələn naft-qaz layihələrinə yatırımlar etmək nəzərdə tutulurdu.

Proqram həmçinin Xəzər hövzəsi neft-qaz resurslarının Qara dənizə, oradan isə Avropanın içərilərinə doğru daşınmasını həyata keçirən mövcud infrastrukturları texniki baxımdan yeniləmək və bu çərçivədə meydana gələn layihələrə texniki və maliyyə yardımı göstərməklə ittifaqın enerji təhlükəsizliyinin təmininə çalışmaqdır.

**TASİS** (Technical Assistance for the Commonwealth of Independent States, Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) proqramı Avropa İttifaqının post sovet respublikalarına (Baltikyanı respublikalar istisna olmaqla) bazar iqtisadiyyatına keçidin sürətləndirilməsinə texnoloji yardım dəstəyinin verilməsi məqsədi ilə reallaşdırılan proqramdır.

Ukrayna müharibəsinə qədər Rusiyanın toplam qaz ixracatının 62%-i Aİ idxal etməkdədir ki, bu da, Avropa Birliyi ölkələrinin mavi yanacaq istehlakının 40%-dən çoxunu təşkil etməkdə idi.

Vəziyyəti təhlükəli edən digər bir məsələ Rusiyanın qaz sektorunda inhisarçı mövqeyə malik Qazprom şirkətinin dövlətin tabeliyində olmasıdır. Digər tərəfdən, Rusiya hasilatçı ölkə olmaqla yanaşı, həm də böyük ölçüdə mavi yanacağın nəqli sahəsini də öz əlində cəmləmişdir ki, bu da doğrudan da təhlükəli bir vəziyyət yaratmışdır. Ai-nin qəbul etdiyi üçüncü enerji paketi layihəsinə görə karbohidrogen mənbələrinin və onu nəql edəcək boru-kəmər sisteminin eyni ölkənin əlində cəmləşməsinin qarşısı alınmalı idi. Enerjiyə olan tələbatın ödənilməsində Birlik dövlətləri arasında fərqli fikirlər olsa belə, Rusiyadan olan asılılığın azaldılması məsələsində həmfikir olduqları görünməkdədir. Belə olduğu halda isə yeni alternativ təbii qaz mənbələrinə böyük ehtiyac yaranır ki, bu baxımdan da Azərbaycanın Avropa üçün əhəmiyyəti getdikcə artmaqdadır.

Cənub Qaz Dəhlizi Avropa İttifaqının qaz təhcizatında mühüm əhəmiyyət kəsb edən bir layihədir. Aİ-nin mavi yanacaq tələbatını qarşılayacaq enerji siyasəti fonunda Cənub Qaz Dəhlizinin əhəmiyyəti daha aydın görünmüş olur.

**Avropaya təbii qaz ixrac edən dövlətlər**




*Şəkil 18. Aİ-nin təbii qaz idxal etdiyi ölkələr*

Bu anlamda yeni enerji axtarışında olan Avropa üçün Cənub Qaz Dəhlizi iqtisadi mənfəəti ilə yanaşı siyasi dvidentləri ilə də diqqət çəkməkdədir.

Cənub Qaz dəhlizi Azərbaycanın Xəzər sektorunda Şahdəniz qaz yatağının ikinci mərhələsinin işlənməsi nəticəsində hasil olunan təbii qazın dünya bazarına nəqlini həyata keçirmək üçün nəzərdə tutulmuşdur. Cənub Qaz Dəhlizi Şahdəniz Faza-2, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələrini əhatə etməklə ümumilikdə 4 seqmentdən ibarətdir. Cənub Qaz Dəhlizi Türkiyənin Yunanıstanla sərhəddindən başlayıb Yunanıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya çatan TAP layihəsi ilə tamamlanmaqdadır. Cənub Qaz Dəhlizinin yaradılması hər şeydən öncə dəqiq və aydın siyasi çərçivələr tə-

ləb etdiyindən 2011-ci ildə Aİ ilə Azərbaycan arasında Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən "Birgə Bəyannamə"nin imzalanması olduqca mühüm əhəmiyyətə malikdir. 2011-ci il yanvarın 13-də Bakıda Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu "Cənub Qaz Dəhlizi Haqqında Birgə Bəyannamə"ni imzaladılar. Ümumilikdə Cənub Qaz Dəhlizinə 45 milyard dollar sərmayə qoyulacağı praqnozlaşdırılırdı. Sözügedən qaz dəhlizinin miqyasının böyüklüyünü anlatmaq üçün qeyd etmək lazımdır ki, bu BP şirkətinin bir əsrdən çox fəaliyyət göstərdiyi müddət ərzində həyata keçirdiyi ən bahalı layihədir.

Layihədə 7 hökümətin birbaşa marağı var. 11 şirkət isə projenin bir və yaxud bir neçə bölümündə hissə payına malikdir. Cənub Qaz Dəhlizi daha çox 27 iyul 2012-ci il tarixində Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında TANAP layihəsi ilə bağlı hökümətlərarası müqavilənin bağlanması ilə real müstəviyə daxil olmuş oldu. "Əsrin müqaviləsi"nin bağlanmasının 20-ci il dönümündə – 24 sentyabr 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimi keçirildi.

2011-ci il 25 oktyabrda imzalanan müqavilədə ildə 16 mld $m^3$ (6 mld $m^3$-i Türkiyəyə, 10 mld $m^3$ isə Türkiyə vasitəsi ilə Avropaya) təbii qazın nəqli nəzərdə tutulurdu. Daha dəqiq ifadə etsək Avropaya nəql olunacaq 10 mld $m^3$ təbii qazın 2 mld $m^3$ Bolqarıstan və Yunanıstana (hər biri üçün 1 mld $m^3$), qalan 8 mld $m^3$-i isə İtaliyaya nəql olunması planlaşdırılırdı.

Yaxın gələcəkdə həcmin illik 24 mld $m^3$-ə, hətta növbəti mərhələdə-2026-cı ildə əlavə investisiyaların qoyulması ilə illik 30 mld $m^3$-ə çatdırılması hədəflənməkdədir. Bu artımı "Abşeron", "Ümid", "Babək" və "Şah Dəniz" yatağının III fazasının işlənməsi ilə əldə olunan mavi yanacaq hesabına həyata keçirmək mümkündür.

TANAP boru xətti 12 iyun 2018-ci ildə Əskişəhərdə Azərbaycan Prezidenti İ.Əliyev, Türkiyə Prezidenti R.T.Ərdoğan, Serbiya Prezidenti A.Vuçiç, Ukrayna Prezidenti P.Poroşenko və Şimali Kipr Türk Respublikasının Prezidenti M.Akınçının iştirakı ilə rəsmən

açılmış oldu. TANAP boru xəttinin tikilib istismara verilməsi regionda Azərbaycan-Türkiyə strateji müttəfiqliyini nümayiş etdirməklə yanaşı, Azərbaycanı Avropanın mavi yanacaq bazarına daxil olmasına xeyli yaxınlaşdırmış oldu. Cənub Qaz Dəhlizinin dördüncü seqmentini təşkil edən TAP-ın inşasının başa çatması ilə bu tam reallaşmış oldu. Rusiya ilə Ukrayna arasında gedən müharibə səbəbi ilə Avropanın mavi yanacaqla təhcizatı xeyli çətinləşmiş və Cənub Qaz Dəhlizinin nəqletmə gücünün artırılması daha aktual şəkildə gündəmə gəlmişdir.

TAP layihəsi çərçivəsində Azərbaycan təbii qazının interkonnektorlar vasitəsi ilə Balkan ölkələrinə də nəql olunduğunu nəzərə alaraq, tarixi aspektdə məsələyə yanaşaraq söyləmək olar ki, şərqi və cənub-şərqi (Balkanlar) Avropada nüfuz uğrunda Rusiya, Türkiyə və Avstriya arasında mövcud omuş mübarizə XXI əsrə Avropaya mavi yanacaq ixracında inhisarçı mövqeyə sahib olmaq istəyən Qazpromun timsalında Moskva, Nabucco və Nabucco-West layihələrini müdafiə etməklə Avropanın təbii qaz təhcizatında "HUB" olma imkanlarını genişləndirmək istəyən OMV-nin timsalında Vyana, Xəzər qazının Cənub Qaz Dəhlizi ilə Avropaya nəqlində enerji mərkəzi (HUB) olmaq strategiyasını reallaşdırmaq istəyində olan BOTAŞ-ın timsalında Ankara arasında gedirdi.

2016-cı il maayın 18-də Yunanıstanın Saloniki şəhərində Azərbaycan, Albaniya, Türkiyə, Bolqarıstan, Gürcüstan və İtaliyanın yüksək çinli hökümət nümayəndələrinin iştirakı ilə təməli qoyulan Trans-Adriatik boru kəməri 2020-ci il dekabrın 30-da rəsmən istismara verilmişdir.

Yuxarıda göstərdiyimiz kimi bu Avropa İttifaqının Xəzər hövzəsi ilə bağlı izlədiyi enerji siyasətinin – Rusiyadan asılılığın minimuma endirilməsi və diverfikasiya olunmuş boru kəmər sisteminə malik olmaqla çeşidli mənbələrdən neft-qaz idxal etmək planlarının mühüm bir hissəsinin reallaşması anlamına gəlir.

Rusiya və İranın təkidlərinə baxmayaraq Xəzərin hüquqi rejimi problemi artıq beş sahilyanı dövlətin münasibətlərini aşaraq beynəlxalq münasibətlərin həlli vacib olan probleminə çevirilməkdə idi.

Enerji təhlükəsizliyi üçün Avropa İttifaqı Xəzər regionunu alternativ mənbə hesab etdiyindən, təbii ki, Xəzərin hüquqi rejimi onun maraq dairəsində yer alan məsələyə çevirilmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan ilə enerji sahəsində sıx əməkdaşlıq edən Aİ Xəzərin hüquqi statusunun müəyyənləşməsində Azərbaycanın haqlı mövqeyini-sektorial bölgünü müdafiə edirdi. 11-13 mart 2002-ci ildə Aİ-nin və ayrıca Almaniyanın dəstəyi ilə Berlində "Avropa İttifaqı və Xəzər hövzəsində dialoq: bölgədə inkişaf və ətraf mühiti mühafizə siyasəti" adlı simpozium keçirildi. Beynəlxalq sipoziumda Xəzərin ekioloji vəziyyəti, bioresurslarından istifadə, enerji resurslarının hasilatı və nəqli məsələləri, su səviyyəsinin dəyişkənliyi, hüquqi status və digər məsələlər geniş nüzakirə olundu.

Digər mühüm bir konfrans 18-23 mart 2002-ci il tarixində Londonda Uilton Park müstəqil elm mərkəzi və Kembric Biznes Məktəbinnin birgə təşkilatçılığı ilə "Xəzər dənizi: yeni əsrdə siyasət" adlı beynəlxalq konfrans keçirildi. Konfransda ABŞ-ın Xəzər Məsələləri Üzrə Xüsusi Müşaviri Stiven Mənn, Rusiya Xarici İşlər nazirinin müavini və Xəzər Məsələləri Üzrə Prezidentin xüsusi nümayəndəsi Viktor Kalyujnıy, həmçinin Türkiyə, Fransa, Almaniya, İsveç və digər Avropa dövlətlərinin Xarici İşlər Nazirliklərinin əməkdaşlarının konfransda iştirakı onun mühüm əhəmiyyətindən xəbər verirdi. Azərbaycanı isə SOCAR-ın Xarici Sərmayələr İdarəsinin rəisi V.Ələsgərov və Londondakı səfirlik əməkdaşları təmsil edirdi.

SSRİ-nin çöküşü ilə Xəzərsahili dövlətlər (Azərbaycan, Qazaxıstan, Türkmənistan) yeni bir siyasi düzənə daxil olmuş oldu. Qərb (Avropa) ilə Şərq (Çin, Yaponiya və digər dövlətlər) arasında iqtisad-ticari münasibətlər durmadan genişlənirdi. Belə şəraitdə Xəzərsahili dövlətlərin Şərq-Qərb ticarətində tranzit imkanları xeyli genişlənmişdir. Geniş anlamda **Trans-Xəzər layihəsi** Şərqi Asiyadan Qərbi Avropaya qədər dövlətlər arasında Xəzər üzərindən həyata keçirilən və planlaşdırılan iş birliklərinin bütün sahələrini əhatə edir. Amma bu çərçivədə daha çox neft-qaz resursları həm masştabına, həm də siyasi əhəmiyyətinə görə mühüm önəm kəsb etdiyindən günümüzdə Trans-Xəzər layihəsi dedikdə Xəzər üzərindən kar-

bohidrogen ehtiyatlarının nəqli başa düşülür. Bu aspektdə əsas məsələ Türkmənistan qazının Azərbaycan və Türkiyə üzərindən Avropa bazarlarına nəqil edilməsidir. Təbii qaz ilə bağlı Trans-Xəzər layihəsinin meydana gəlməsi Sovetlər Birliyinin çöküşünün ilk illərinə təsadüf edir. Tədqiqat obyektimiz Trans-Xəzər layihəsi olmadığından onun Aİ üçün əhəmiyyəti və hələ ki, rellaşa bilməmə səbəbləri üzərində dayanacağıq. AB, Türkiyə, Azərbaycan və Türkmənistan arasında 1 may 2015-ci il tarixində Trans-Xəzər ilə bağlı Aşqabadda keçirilən dördlü görüşmənin yekununda bir razılaşma anlaşması imzalansa da bunu praktik müstəviyə keçirmək hələ də mümkün olmamışdır. Son illərdə Qazaxıstan təbii qazının da, çəkilməsi planlaşdırılan bu kəmərlə daşınması müzakirə olunmaqdadır. Azərbaycanın həyata keçirdiyi BTC, BTƏ, və Cənub Qaz dəhlizi kimi layihələr Rusiyanın sərt təpkilərinə baxmayaraq Türkmənistanı da Trans-Xəzər məsələsində xeyli cəsarətləndirmişdir.

Hər şeydən öncə Rusiya layihə meydana gəldiyi gündən ona qarşı sərt mövqeyini ortaya qoymuş oldu. Mərkəzi Asiya təbii qaz bazarında əsas oyunçu olan Rusiya bunu inhisarçı mövqeyinin itirilməsi təhlükəsi kimi qəbul edirdi. Digər yandan, Rusiya regionun qeyri-neft-qaz sektoruna yatıra biləcək kifayət qədər maliyyəyə sahib olmadığından mövcud infrastrukturla, ən yaxşı halda isə onların yenidən qurulması ilə əvvəlki üstünlüyünü qoruyub saxlamağa çalışmaq istəyirdi.

Bilindiyi kimi Türkmənistanın əsasn təbii qaz ehtiyatları ölkənin şərqində yerləşir. Mavi yanacağın Trans-Xəzər layihəsi əsasında Qərb bazarlarına daşınması üçün ilk növbədə Türkmənistan hökuməti şərqdə yerləşən resursları Xəzər sahilinə daşınmasını təmin etmək üçün infrastruktur qurmalı idi. 2016-cı ildə istismara verilən Şərq-Qərb qaz kəməri qeyd edilən problemi böyük ölçüdə aradan qaldırdı. Hətta gələcəkdə Qazaxıstan və Özbəkistan qazı da bu kəmər vasitəsi ilə Xəzər sahilinə daşına bilər.

Xəzərin hüquqi statusu ilə bağlı yekun konvensiyada Rusiya Xəzərin dibi ilə kəmərlərin çəkilməsinə razılığını bildirsə də ekoloji problemləri önə çəkərək, bunun üçün sahilyanı dövlətlərinin hamısı-

nın razılığının olmasnı da sənədə daxil edilməsinə nail olmuşdur. Bu isə gələcəkdə Trans-Xəzər kimi layihələrin reallaşacağı zamanı Rusiyanın ekologiya pərdəsi altında bütövlükdə belə layihələrin pozulması üçün müəyyən imkanlar əldə etməsinə şərait yaradırdı.

Xəzərin yekun hüquqi statusunda dənizin dibi ilə qaz kəmərinin çəkilməsi məsələsinə tam aydınlıq gətirilməmişdir. Konvensiyanın XIV maddəsinin I bölümündə Xəzərin dibi ilə boru kəmərlərinin çəkilişinə icazə verildiyi halda, həmin maddənin II bölümündə isə qeyd olunur: Tərəflər Xəzərin dibi ilə boru kəməri çəkmək üçün Xəzərin dəniz mühütünün qorunması üzrə Cenevrə konvensiyası və ona əlavə edilmiş pratokollar da daxil olmaqla tərəfdar olduqları beynəlxalq müqavilələrdə əksini tapmış ekoloji standartlara uyğun hərəkət etməlidir. Qeyd edək ki, Xəzərin dəniz mühütinin qorunması haqqında sahilyanı dövlətlərin tərəfdar olduqları və qəbul etdikləri müqavilələr dedikdə daha çox 2003-cü ildə Tehranda imzalanmış sənəd nəzərdə tutulur ki, burada da əsas ekoloji müddəalar və onların reallaşması üçün mexanizmlərin qurulması və tərəflərin öhdəlikləri yer almışdır. 20 iyul 2018-ci ildə Moskvada Tehran konvensiyası iştirakçılarının iclasında Transsərhəd konteksində ətraf mühitə təsirlərin qiymətləndirilməsi haqqına Protokol inzalanmışdır. Adları çəkilən hər iki sənədə əsasən Xəzərin dibi ilə istənilən boru kəmərinin çəkilməsi bütün sahilyanı dövlətlərlə razılaşdırılmalı və onların yekdilliklə Xəzərin ekosisteminə zərər verməyəcəyi barədə rəy alındıqdan sonra reallaşa bilər. Bu isə özlüyündə Rusiya və İrana ekologiyanı bəhanə edərək Trans-Xəzər qaz kəmərinin reallaşmasına qarşı çıxmağa müəyyən əsaslar yaratmış olur.

Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə əlaqədar Qərb dövlətlərinin Rusiyaya tətbiq etdiyi çoxsaylı sanksiyalar mavi yanacaq idxalından da yan keçmədi. Qərb dövlətləri böyük ölçüdə rus mavi yanacağından imtina etməsi alternativ təbii qaz mənbələrinin dövriyyəyə gətirilməzini zəruri etdi. Bu aspektdə Azərbaycan Avropanın enerji təhlükəsizliyində daha böyük önəm daşımağa başladı. 16 mld $m^3$ nəqletmə gücünə malik Cənub Qaz Dəhlizinin əlavə kompressor stansiyalarının tikilməsi ilə 31 mld $m^3$ çatdırılması haqqında razılıq

əldə edilmişdir. Genəşləndirilmədən sonra 31 mld $m^3$ illik daşıma yalnız Azərbaycan qazı ilə təmin ediləcəkdir. Belə olduğu təqdirdə Türkmən qazının ixracı üçün paralel boru xəttinin çəkilməsi zərurəti yaranır. Bu isə öz növbəsində yeni müqavilələrin bağlanmasını və ən mühümü isə maliyyə mənbələrinin tapılmasını qaçılmaz edir.

## III.3. Çinin Xəzər hövzəsində geoiqtisadi və geosiyasi maraqları

Çinin Xəzər hövzəsinə yönəlik siyasəti Mərkəzi Asiya əhalisi ilə eyni etnik qrupdan olan və müstəqillikləri uğrunda mübarizə aparan Sincan bölgəsində sabitliyi sağlamaq, və sürətli iqtisadi inkişafını sağlayacaq enerjini güvənli şəkildə sözügedən regiondan idxal etməklə, kritik sərhəd bölgəsində siyasi nüfuzunu artırmaq istəyinə köklənmişdir. Sürətlə yüksələn ixrac yönümlü Çin iqtisadiyyatı üçün region böyük alıcı kütləsi olan real bazar kimi də mühüm əhəmiyyət kəsb edir. Çinin sürətlə böyüyən iqtisadiyyatı onun eneji daşıyıcılarına olan tələbatını da yüksəltməkdədir ki, bu da sözügedən dövlətin Xəzər hövzəsinə marağını artırmaqdadır. 1978-ci ildən 2004-cü ilədək Çinin enerji istehlakı 245% artmışdır. Enerji istehsalı isə 194% artıb ki, bu da dünyanın supergücü olmağa iddialı olan Çinin enerji ehtiyaclarını qarşılaya bilmir. Hazırda Çinin günlük neft idxalı 8 mln barel təşkil edirsə, 2035-ci ildə bunun 18 mln barel olacağı proqnoz edilir. Hətta bu dövlətin 2030-cu ildə neft istehlakının həcminə görə ABŞ-ı geridə qoyacağı da mütəxəssislər tərəfindən söylənməkdədir.

Çin enerji ehtiyaclarını strateji təhlükəsizlik məsələsi kimi qəbul edir. 2002-ci ildə Çin artan enerji tələbatını ödəmək üçün "Xaricə çıxış" (Zou Chu Qu-Going Out) strategiyasını təqdim etdi. Bu strategiya ilə ölkə xaricindən güvənli neft idxalının təmin edilməsi, tədqiqat və istehsal müqavilələri hazırlamaq, Sibir və Orta Asiyadan Çinə yeni boru kəmərləri çəkmək məqsədi güdülür. Bu ana hədəfə çata bilmək üçün Çinin, Qərbə açılan tək təbii qapısı Şərqi Türkistandakı hakimiyyətini möhkəmləndirmək, Xəzər hövzəsi ölkələri və

şimaldan gələ biləcək təhdidlərə qarşı Rusiya Federasiyası (RF) və Türkiyə yolu ilə Avropa ölkələri ilə əlaqələrini inkişaf etdirməkdir. Baxmayaraq ki, rəsmi Pekin TRASECA, "Bir kəmər-Bir yol" layihələri çərçivəsində digər dövlətlərlə də sıx iqtisadi əlaqələr qurmağa çalışsa da, Xəzər regionunda Çin siyasətinə baxdığımızda əlaqələr İran, Qazaxıstan və Türkmənistana yönəlmiş görünür.

Yeri gəlmişkən qeyd edək ki, "Bir kəmər-Bir Yol" layihəsi Çin dövlət başçısı Si Tszinpinin 2013-cü ilin sentyabrında Qazaxıstana səfəri gedişində geniş ictimaiyyətə açıqlanmışdır. Proqram çərçivəsində Çinin Avrasiyanın 60-dan çox ölkəsinə yüz milyardlarla dollar həcmində sərmayə qoymaqla rəsmi Pekinin Avrasiyanın iqtisadi sferasına nəzarət etmək imkanı yaratmağı hədəflənmişdir. Altı dəhliz və bir Dəniz İpək Yolundan ibarət olan "Bir Kəmər-Bir Yol" layihəsinin ən mühüm seqmentlərindən birini Çin-Orta Asiya-Qərbi Asiya dəhlizi təşkil etməkdədir. Sovetlər Birliyinin dağılmasından sonra böyük güclər arasında geo-siyasi, geo-iqtisadi və hətta svilizasiyaların rəqabət meydanına çevrilən Orta Asiya Uzaq Şərqlə Avropa arasında yeni dünya düzəmində böyük ölçüdə dəniz ticarət yollarına alternativ olaraq görülməkdədir. Xatırladaq ki, 1949-cu ildə yarandığı gündən Çin Xalq Respublikasının beynəlxalq arenaya irəli sürdüyü ilk təşəbbüs olan "Bir kəmər-Bir yol" layihəsi həm də, ilk növbədə qonşu dövlətlərlə-Orta Asiya respublikaları ilə ticari-iqtisadi münasibətlərin ən yüksək səviyyəyə qaldırılmasını nəzərdə tutur. Bunun üçün isə lazım olan əsas infrastruktur bazasının yaradılmasına rəsmi Pekin böyük investisiyalar yatırmaqla regionda əsas söz sahibinə çevrilmək niyyətindədir. Orta Asiyada Rusiya-ABŞ-Çin rəqabəti bu dövlətlərin irəli sürdükləri sistemlər arasındakı rəqabəti qaçılmaz etməkdədir. Rusiya Avrasiya İqtisad Birliyi, ABŞ "Yeni İpək Yolu", Çin isə "Bir kəmər-Bir yol" layihəsini təklif etməklə əslində regionda əsas gücə çevrilmək niyyətindədirlər və bu layihələr də həmin niyyəti həyata keçirməyə yardım etməli idi. XXI əsrin ilk illərindən başlayaraq Çin Xəzər hövzəsində aktiv enerji alıcısına çevrilməklə xüsusən də Qazaxıstan və Türkmənistana ciddi yatırımlar etməkdədir. İqtisadi sferada Orta Asiyada Rusiyanın üstələyən

Çin mədəni kültürəl sahədə isə hələ də Rusiyaya uduzmaqdadır. Bu baxımdan rəsmi Pekin son illərdə regionda daha qalıcı hala gəlmək üçün "yumşaq güc" siyasətini izləməkdədir.

**CXR-in Xəzər regionunun neft-qaz resurslarına marağının artmasını şərtləndirən səbəblər:** Çinin Xəzər hövzəsinə marağının artmasını mümkün edən səbəblər arasında ABŞ-ın Çinin şərqində – Sakit okeanda daha aktiv siyasət aparmasıdır. Hələ 2011-ci ildə ABŞ dövlət katibi H.Klintonun Vaşinqtonun xarici siyasətinin Yaxın Şərqdən Sakit okeana keçəcəyini bildirməsi Pekində Vaşinqton tərəfindən mühasirə həlqəsi yaratmağa başlanması kimi başa düşüldü. H.Klintonun bu təşəbbüsünə cavab olaraq Pekin universitetinin professoru Vang Jisi 2012-ci ildə qələmə aldığı "Qərbə yürüş" adlı məqaləsində Çinin dəniz yollarının ABŞ tərəfindən təhdit edilməsinə qarşılıq qərb istiqamətində quru çıxışımız gücləndirilməlidir tezisini irəli sürdü. Tramp admnistrasiyasının Hindistanla daha da yaxınlaşmaq istəyi Çinin Hind-Sakit okean çevrələməsi əndişəsini artırmaqdadır. Şərqdə Cənubi Koreya, Yaponiya və Tayvanın ABŞ ilə yaxın müttəfiqlik içərisində olması Pekinin bu çərçivədə qayğılarını artırmaqdadır. Çinin idxal etdiyi neft və LNC şəklində maye qazın çox böyük hissəsi ABŞ-ın nəzarəti altında olan Malakka boğazı vasitəsi ilə daxil olduğundan Pekinin qərbə-Orta Asiya istiqamətində geniş açılımı aydın olur.

Maraqlıdır ki, Çin üzrə ekspertlərin bir qismi belə hesab edirlər ki, bu dövlətin tarixinə və mədəniyyətinə nəzər saldıqda görürük ki, onun heç vaxt super güc olmaq iddiası olmayıb. Baxmayaraq ki, okean sahilində yerləşir, Qərbi Avropa dövlətlərindən fərqli olaraq, bu uzaq şərq dövləti dənizlərdə böyük məsafələr qət edə bilməmişdir. Bunun məntiqi davımı olaraq günümüzdə də Çin hərbi donanması yeni texnoloji avadanlıqların tətbiqi baxımdan ABŞ, Rusiya və İngiltərədən geri qalır. Bu qəbildən olan mütəxəssislər tək bir halda Çinin super güc olmaq iddiasında olmaq istəyinə düşməsini mümkün hesab edirlər ki, bunun da sürətlə artan sənayeləşmə fonunda enerji qaynaqlarının ABŞ-ın əlində cəmlənməsi baş versin. Məhz enerjiyə olan kəskin ehtiyac Çini super dövlət olmaq iddiasına gətirə bilər. Bu baxımdan qonşu Xəzər hövzəsi regionu Çin üçün olduq-

ca cəlbedici görünür. ABŞ-ın regiondan sıxışdırılması üçün rəsmi Pekin Moskva ilə eyni cəbhədə yer alır.

Günümüzdə dünya ticarətinin mühüm hissəsini təşkil edən neft və təbii qazın nəqli əsasən dəniz yolu ilə həyata keçirildiyindən təhlükəsizlik problemləmləri ön plana çıxmışdır Bu da enerji təhlükəsizliyi probleminin bir hissəsinin hərbi dəniz qüvvələrinin üzərinə düşdüyünü göstərir. Bu anlamda “eneji təhlükəsizliyinin hərbiləşməsi” daha çox dəniz hərbi qüvvələri ilə bağlanmış olur. Enerji təhlükəsizliyinin hərbiləşməsi yeni dönəm dəniz stategiyalarının yaranmasına əsas vermiş olur. Çinin enerji güvənliyinin təmin olunmasında Tayvandan Hörmüz boğazı və şərqi Afrikaya qədər uzanan xətt “İnci dizisi” olaraq adlanmaqdadır. Bu xəttin üzərində olan Malakka boğazı, Myanmar, Chittagong, Hambantota, Maldivlər, Pakistandakı Gvadar limanı, Hörmüz boğazı və Ədən körfəzi mühüm məntəqələr hesab olunur.

**Çinin “İnci dizi” strategiyası**




*Şəkil 19. Çinin dəniz yolu ilə neft idxalı*

Çin planetar güc olma yolunda başlıca maneyə olaraq ABŞ-ı görməkdədir. Rəsmi Pekinin yeni neft-qaz mənbələrinə yetişməkdə ABŞ-ın təpkisi ilə qarşılaşır. Digər tərəfdən. Çinin idxal etdiyi neft

daha çox Malakka boğazından keçərək bu ölkəyə daxil olur. Bu su keçidi isə ABŞ-ın nəzarətində olduğundan bir xeyli problemlərlə qarşılaşmış olur. İzahat üçün qısa olaraq qeyd edək ki, Malakka boğazı Malayziya yarımadası ilə Sumatra adası arasında 805 km məsafədə uzanır. Sözügedən boğaz Hind və Sakit okeanlar arasında əsas dəniz keçidi olmaqla yanaşı, dünyanın ən çox əhalisi olan dövlətləri olan Çin, Hindistan və İndoneziyanı su yolu ilə bir-birinə bağlamaqdadır. Dünya ticarətində aparıcı aktorlardan sayılan Yaponiya, Cənubi Koreya və Tailand da beynəlxalq ticarətdə bu dəniz yolundan çox geniş istifadə etməkdədir. Hər il təxminən 50 000 gəmi Malakka boğazından keçərək hərəkət edir ki, bu da çox sıxlığa səbəb olmuşdur. Hər il dəniz yolu ilə daşınan neftin təxminən ¼-i bu bağazdan keçir. Çin nefti daha çox Yaxın Orta Şərqdən idxal edir ki, bu yüklər də tankerlər vasitəsilə Malakka boğazından keçməklə daşınır. Boğazın eni Sinqapur yaxınlığında Phillips kanalında 2,8 km-ə qədər daralır ki, bu qəza risklərini xeyli artırmış olur. Son illərdə boğazda piratçılıq da xeyli artmışdır və bu daşımaçılıq ilə məşğul olan şirkətlərə ciddi "başağrısına" çevrilmişdir. Ətraf ərazilərdə xüsusilə də, Sumatra adasında təsərrüfatla məşğul olan insanların səhlənkarlığı üzündən yanğınların sayı artmışdır ki, bu da boğazın üstünün qatı tüstü dumanı örtülməsinə gətirib çıxarır və nəticədə isə görmə məsafəsi azaldığında gəmi qəzalarının sayı artır. Bütün bunlar isə Çini ona daha yaxın olan Mərkəzi Asiya və Xəzər hövzəsi enerji resurslarına çıxış əldə etməyə məcbur edir.

**Qazaxıstan ilə Çin arasında neft kəmərlərinin çəkilişi:** Çin ilə qonşu olan və böyük neft ehtiyatlarına malik Qazaxıstan Çin üçün olduqca cəlbedici idi. Rəsmi Pekinin enerji strategiyasının əsasında duran uzun müddətli, böyük həcmli və stabil qiymətlərlə neft-qaz əldə etmək istəyi. Qazaxıstandan bu istiqamətdə kəmərlərin çəkilişini mümkün edirdi. Çinin Qazaxıstan neft-qaz sənayesinə daxil olması 90-cı illərin ortasında bu sahəyə kapital qoyması ilə başlamışdır. 1996-cı ilin əvvəlində Qazaxıstan höküməti "Uzenmunay-qaz" ASC-nin nizamnamə kapitalının 60%- satmaqla bağlı elan etdiyi tenderin qalibi Çin Milli Neft Şirkəti (CNPC) olduqdan sonra boru kəmərinin çəkilməsi daha real görünməyə başladı. Çin "Akto-

bemunayqaz" və "Uzenmunayqaz"-da nəzarət paketinə sahib olmaqla, 20 il müddətinə neftin hasilatı və daşınması üçün 20 mld dollar kapital qoymağı öhdəsinə götürmüşdür. Çin 2004-cü ilə qədər Qazaxıstandan neft kəməri çəkməyi planlaşdırırdı. Amma, dünya bazarında neftin aşağı qiyməyə olması, çəkilməsi planlaşdırılan xəttin kommersiya baxımdan effektivliyi sualını doğururdu. 1997-ci ilin sentyabrında Çin Xalq Respublikasının Dövlət Şurasının sədri Li Pyenin Qazaxıstana rəsmi səfəri gedişində iki dövlət arasında "Neft və qaz sahəsində əməkdaşlıq", "Qərbi Qazaxıstandan Qərbi Çinə neft kəmərinin çəkilməsi" haqqında müqavilə imzalandı. Müqaviləyə uyğun olaraq Uzen və Aktöbedən (Aktyubinsk) Çinə 3 min kilometr uzunluğunda neft kəmərinin çəkilməsi nəzərdə tutulurdu və bunun üçün rəsmi Pekin 3 mld dollar investisiya qoymağı da öhdəsinə götürmüşdür. Kəmər ilə ildə 20 mln ton neft daşınmalı idi. Bundan əlavə, Çinin Qazaxıstanın neft-qaz sənayesinə 11 mld dollar həcmində investisiya qoyması planlaşdırılırdı. 90-cı illərin sonunda ABŞ şirkətlərinin Qazaxıstanın neft-qaz yataqlarına artan marağı Çin ilə münasibətlərin soyumasına öz "töhvəsini" vermiş oldu. Rəsmi Vaşinqton Mərkəzi Asiyada Çinin möhkəmlənməsini istəmirdi. Neft boru kəmərinin çəkilməsi ilə bağlı iqtisadi faktorlardan daha çox siyasi mülahizələrlə bağlı olan tərəddüdlərlə müşayət olunan danışıqlar 2000-ci ilin ortalarına qədər davam etdi. 2000-ci ilin iyulunda Qazaxıstan prezidenti N.Nazarbayevin Çin Xalq Respublikası Dövlət Şurasının sədri Xu Çzintao ilə görüşündə sözügedən kəmərə siyasi dəstək ifadə edilsə də, bu yenə də bir müddət layihəni yerindən tərpətmədi. Ekspertlər hesab edirdilər ki, illik daşıma gücü 20 mln tondan az olmayaraq çəkiləcək neft kəməri Çin üçün rentabelli hesab edilə bilərdi. Qazaxıstanda fəaliyyət göstərən Çin şirkətləri isə ildə 5 mln ton neft hasil edirdi və digər şirkətlərin də buna dəstək verməsi lazım gəlirdi. Digər tərəfdən həmin vaxt (2001-ci ildə) Xəzər Kəmər Konsorsiumu istifadəyə verildi. Atrau-Samara neft kəmərinin yenidən qurulması da ildə 20 mln ton neftin Çinə ixracını xeyli çətinləşdirirdi. Qazaxıistanda fəaliyyət göstərən şirkətləri geoiqtisadi maraqlar deyil, biznes maraqları daha çox düşündürdüyündən ən sərfəli marşurutla neftin nəqlini həyata keçir-

məyə çalışırdılar. Qazaxıstanın qərbindən Çinə böyük bir məsafə olduğundan, demək olar ki, infrastrukturun olmaması, ərazinin bir hissəsinin dağlıq olması, seysmoloji aktivliklə yanaşı kəskin iqlim dəyişkənliyi və Qazaxıstan neftinin aşağı keyfiyyəti onun qızdırılmasına ehtiyac yaradırdı. Bütün bunlar isə sözsüz ki, Çinə neftin nəqlinin baha başa gəlməsinə təsir göstərmiş olacaqdır. Neftin bir barelinin daşıma taarifini 9,5 dollar səviyyəsində müəyyənləşdirmək istəyirdilər ki, bu da layihənin rentabelliyini sual altında qoyurdu. Bununla yanaşı, çəkilməsi planlaşdırılan kəmər Qazaxıstan ilə Çin arasında gərginliyə səbəb olan və uyğur türklərinin kompakt yaşadığı Sincan Muxtar Vilayətindən keçməli idi. Bütün bu çətinliklərə baxmayaraq prezident N.Nazarbayevin 2002-ci ilin dekabrında Pekinə rəsmi səfəri gedişində iki ölkə arasında enerji, xüsusən də neft və qaz sahəsində əməkdaşlığın prioritet olduğu vurğulanmaqla yanaşı, Qazaxıstandan Çinə neft kəmərinin çəkilməsinin zəruriliyi qeyd olundu. 2004-cü ilin ortalarında Qərbi Qazaxıstandan Qərbi Çinə illik 20 mln ton daşıma gücünə malik olan neft kəmərinin çəkilməsi haqqında müqavilə imzalandı. Razılaşmaya əsasən gələcəkdə kəmərin nəql gücünün 50 mln tona çatdırılması nəzərdə tutulurdu. Çəkiləcək kəmərin birgə idarə olunması üçün “Kaztransoil” ASC və Çin Milli Neft-Qaz Kəşfiyyatı və İnkişaf Korporasiyası hər biri 50% paya sahib olmaqla Qazaxıstan-Çin Boru Kəmər Müəssisəsi yaradıldı. Qeyd edək ki, layihənin icrasının ilkin olaraq iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu. Birinci mərhələdə illik daşıma gücü 10 mln ton olan, sora isə 20 mln tona qədər genişləndirilə bilən Atasu-Alaşankou neft kəmərinin tikintisi həyata keçirilməli idi. İkinci mərhələdə isə illik nəqletmə gücü 20 mln ton olan və 50 mln tona qədər genişləndirilə bilən Kenkiyak-Kumkol-Atasu neft kəmərinin tikintisi həyata keçirilməli idi. Uzunluğu 965 km olan Atasu-Alaşankou neft kəmərinin tikintisinə 2004-cü ilin sentyabrında başlandı və 2005-ci ilin dekabrında başa çatdı. Kəmərin diametri isə 810 mm həcmində idi. 2006-cı ilin iyulunda istismara verilən bu kəmər Qazaxıstanın Rusiya ərazisindən keçməyən ilk nef boru xətti idi. Bundan əvvəl 2003-cü ildə illik daşıma gücü 6 mln ton olan Kenkiyak-Atrau neft kəməri istifadəyə verilmişdir. 448 km uzunluğunda

olan kəmərin diametri 610 mm və genişləndirilmə imkanı ilə ildə daşıma gücü 12 mln tona qədərdir. Sözügedən kəmər Kenkiyak, Janajol, Alibekmola, Kojasay və digər yataqlardan hasil olunan neftin ixracı üçün nəzərdə tutulmuşdur və Qərbi Qazaxıstan-Qərbi Çin neft kəmərinin ilk hissəsini təşkil etməli idi.

Bunların ardınca, Qərbi Qazaxıstan-Qərbi Çin boru xəttinin üçüncü mərhələsinin – Kenkiyak-Kumkol xəttinin tikintisinə başlanıldı. Bu xətt 793 km məsafədə uzanıb Qazaxıstanın Çin ilə sərhəddinə çatmış olacaqdır. İllik daşıma gücü 10 mln ton, genişləndirildikdə isə 20 mln tona qədər çata bilərdi. Kəmər 2009-cu ilin iyulunda istismara verilmişdir.

2006-cı ildə istismara verilmiş "Atasu-Alaşanko boru xətti vasitəsilə Çin Qazaxıstandan ildə 25-30 mln ton neft idxal edir ki, bununla da daha yaxın və müvafiq olaraq daha ucuz məsrəflərlə enerji ehtiyaclarının müəyyən hissəsini ödəmiş olur. Dünya bazarına birbaşa çıxışı olmayan və bu sahədə daha çox Rusiyadan asılı olan Qazaxıstan üçün bu olduqca əhəmiyyətlidir.

Qazaxıstanın ən böyük neft şirkətlərindən olan Petro Qazaxıstanı Çinin Milli Neft Şirkəti satın almışdır.

Qazaxıstan-Çin münasibətləri strateji xarakter daşıyır. Çin Qazaxıstanın və digər Orta Asiya dövlətlərinin iqtisadiyyatına, xüsusən də enerji sektoruna böyük sərmayələr qoymuşdur və bu davam edir. Sürətlə inkişaf edən Çin iqtisadiyyatının xammala olan ehtiyacının bir hissəsi məhz buradan təmin olunmaqdadır. Çin Orta Asiyada mühüm geo-siyasi oyunçuya çevrilmişdir. Qazaxıstan-Çin neft kəmərinin heç bir dövlətin ərazisindən tranzit olaraq keçməməsi və buna uyğun tranzit taariflərinin də olmaması (üçüncü dövlətə) boru xəttinin ən mühüm üstünlüklərindən hesab edilə bilər. Üçüncü bir dövlətin ərazisindən keçmədiyindən kəmərin fəaliyyətinə siyasi mexanizmlərlə maneyə törətmək də xeyli çətinəşmişdir.

1996-cı ilin mayında Məşhəd-Tejen dəmir yolu bağlantısının qurulması Çini Türkmənistan üzərindən İran ilə bağlamışdır. Çinin İrandan neft idxalı ümumi neft ehtiyacının 17%-i qarşılamaqdadır.

**Çinin Türkmənistan, Qazaxıstan və Özbəkistan ilə təbii qaz sahəsində əməkdaşlığı:** Çin Mərkəzi Asiyanın nefti ilə yanaşı

təbii qaz yanacağına da ehtiyac duyurdu. Rəsmi Pekinin bu aspektdə Türkmənistanla danışıqları 1996-cı ildə başlasa da, hələ 1992-ci ildə Türkmənistan-Çin-Yaponiya qaz kəmərinin gündəmə gəldiyini deyə bilərik. Layihənin tərtibçiləri-"Mitsubishi Korporasiyası" və "Ekson" şirkətl Türkmənistan təbii qazını Sibir təbii qazı ilə müqayisədə daha sərfəli olduğu qənaətində idilər.

Türkmənistan-Çin qaz kəmərinin 1998-ci ilin oktyabr ayında texniki-iqtisadi əsaslandırılması başa çatdırıldı. Bununla yanaşı, Türkmənistan-Özbəkistan-Çin-Koreya qaz kəməri layihəsi də müzakirə olunurdu. Lakin həmin vaxt dünya bazarında təbii qazın qiymətinin aşağı olması və tikinti işləri üçün təxminən 9 mld dollar həcmində vəsaitin tələb olunması Türkmənistan-Qərbi Çin-Yaponiya qaz kəməri layihəsinin mütəxəssislər tərəfindən rentabelli olmayacağı qiymətini aldı. 2006-cı aprelində Türkmənistan prezidenti S.Niyazovun Çinə rəsmi səfəri ilə enerji sahəsində əməkdaşlıq praktik müstəviyə keçmiş oldu. Əldə olunmuş razılığa əsasən Çin Xalq Respublikası Türkmənistanın qaz sənayesinin inkişafına 1,5 mld dollar sərmayə qoymalı idi. Həmçinin ildə 30 milyard kub metr həcmində nəqletmə gücünə malik Türkmənistan-Çin qaz kəmərinin çəkilməsi haqqında da razılıq əldə edildi.

2007-ci ilin iyul ayında isə Çin ilə Türkmənistan arasında Amudərya çayının sağ sahilində yerləşən və ehtiyatları 1,3 tln $m^3$ həcmində qiymətləndirilən "Bəxtiyarlıq" qaz yatağında pay bölgüsü haqqında müqavilə bağlandı. Xatırladaq ki, bu sahədən ildə 15 mld $m^3$ təbii qaz hasil etmək mümkün idi, 17 mlrd $m^3$ isə digər yataqlardan əldə edilməsi planlaşdırılırdı.

Türkmənistandan Çinə çəkiləcək kəmərin uzunluğu isə 7000 km müəyyən edilmişdir ki, bu da həmin vaxt dünyanın ən uzun qaz kəməri hesab edilirdi. 2006-cı ilin aprel ayında Pekində Türkmənistan və Çin hökümətləri arasında qaz alqı-satqısı haqqında anlaşma imzalandıqdan sonra qaz kəmərinin tikintisi real fazaya daxil olmuşdur. İldə 30 mlrd $m^3$ nəqletmə gücünə malik Türkmənistan-Çin qaz kəmərinin tikintisinə 2008-ci ildə başlanmışdır. 2008-ci ildə Pekində iki ölkə arasında aparılmış danışıqlar nəticəsində kəmərin daşıma gücünün 40 mld-a çatdırılması və 2009-cu ildə isə tikintisi-

nin başa çatdırılması razılaşdırıldı. 7 min km uzunluğunda olan kəmər Türkmənistan ərazisində – Amudərya çayının sağ sahilində yerləşən Qalxınış və Dövlətabad təbii qaz yataqlarından başlayıb, Özbəkistan və Qazaxıstan ərazisindən keçməklə Sincan Uyğur Muxtar Vilayətinin Horqos məntəqəsindən Çinə daxil olub, onun içərilərinə doğru 5 min km uzanmalı idi. Sözügedən kəmərin tikintisi bir neçə mərhələdə həyata keçirilmişdir. Kəmərin Türkmənistan hissəsi 188 km, Qazaxıstan hissəsi 1293 km, Özbəkistan hissəsi isə 525 km təşkil edir. 2009-cu ildə boru xəttinin birinci mərhələsinin inşaası başa çatdı. 2010-cu ildə paralel olaraq 1833 km uzunluğunda ikinci kəmərin inşaası tamamlandı. Türkmənistan ilə Çin arasında 1830 km uzunluğunda üçüncü qaz kəmərinin tikintisinə 2012-ci başlanmışdır. Kəmər Türkmənistan-Özbəkistan sərhəddindən başlayıb, Qazaxıstan ərazisindən keçərək Sincan Uyöur Muxtar Vilayətində Çinin Şərq-Qərb boru kəməri ilə birləşir. Sözügedən kəmərlə Türkmənistanla bərabər Qazaxıstan və Özbəkistan təbii qazı da Çinə ixrac olunmaqdadır. Daha dəqiq söyləsək müqaviləyə görə bu kəmərlə ildə 10 mld $m^3$ Türkmənistan, 10 mld $m^3$ Özbəkistan, 5 mld $m^3$ isə Qazaxıstan Çinə təbii qaz ixrac etməli idi.




***Şəkil 20. Türkmənistanın ixrac qaz kəmərləri***

2014-cü ildə Türkmənistan təbii qazını Çinə daşıyacaq üçüncü kəmərin tikintisa başa çatdırıldı. Bu kəmərin ötürmə gücü ildə 25 mld $m^3$ idi. Beləliklə Türkmənistandan Çinə daşınan təbii qazın illik həcmi 65 mld $m^3$ çatmış oldu.

Rəsmi Pekinin regionun infrastruktur layihələrinə böyük investisiyalar qoyması onu regionda daha qalıcı olmasına və geosiyasi oyunda möhkəm mövqey tutmasına imkan yaratmış olur.

Hələ 2006-cı ildə Qazaxıstanın "KazMunayGaz" şirkəti ilə Çinin "Milli Neft Şirkəti" arasında Türkmənistan-Çin qaz kəmərinin bir hissəsi olaraq planlaşdırılan və uzunluğu 1304 km olan Qazaxıstandan Çinə qaz kəmərinin çəkilməsi haqqında müqavilə bağlanmışdır. İki paralel xətdən ibarət olacaq kəmər Qazaxıstan-Özbəkistan sərhəddindən başlayıb, 650 km məsafədə Qazaxıstanın şərqinə doğru uzanaraq, Qazaxıstan-Çin sərhəddi Xorqosda yekunlaşmalı idi. Sözügedən qaz kəməri həmçinin, Qazaxıstanın cənub hissəsinin qazlaşdırılmasıında mühüm rol oynamalı idi. Çəkilməsi planlaşdırılan kəmər iki hissədən ibarət olmalı idi. Birinci qol illik daşıma gücü 40 mld $m^3$ olub, Qazaxıstan-Özbəkistan sərhəddindən başlayıb, Çin sərhəddinə çatmalı idi. İkinci qol isə illik nəqletmə gücü 10 mld $m^3$ olub, Baynau-Bozoy-Qızıl Orda-Şimken marşurutu boyu çəkilməli idi. 2008-ci ilin martında "KazTransGaz" və Çinin "Milli Neft Şirkəti"nin törəmə firması olan "Trans-Asiya Qaz Boru Kəməri Limited" Qazaxıstan-Çin qaz kəmərinin inşaası üçün ortaq "Asiya Qaz Boru Kəməri Şirkəti" yaratdı. Layihənin dəyəri 6 mld dollar həcmində qiymətləmdirilirdi. 2008-ci ilin iyulunda inşaasına başlanılan kəmərin birinci hissəsinin tikintisi 2009-cu ilin iyulunda başa çatdı. Beləliklə Qazaxıstan xarici bazara tək neft deyil, eyni zamanda qaz kəməri ilə açıla bildi. Türkmənistandan və Qazaxıstandan neft-qaz kəməri çəkməklə Çin uzun müddət regionun karbohidrogen ehtiyatlarının ixracında Rusiya monopoliyasını aradan qaldırmış oldu. Türkmənistandan Çinə uzanan, yuxarıda bəhs etdiyimiz qaz kəməri "Əsrin qaz kəməri" adlandırılmışdır. Çin iqtisadiyyatı böyüdükcə karbohidrogen ehtiyatlarına da tələbatı artmaqdadır və belə vəziyyət Çinin Xəzər bölgəsinə olan marağını daha da artırır.

2013-cü ilin sentyabrında Çinin dövlət başçısı Si Tszinpinin Orta Asiya dövlətlərinə səfəri gedişində enerji sahəsində əməkdaşlığın daha da genişləndirilməsi geniş müzakirə edildi. Səfər gedişində Çin rəsmiləri Qazaxıstana 30 mlrd dollar həcmində sərmayə qoymağa hazır olduqlarını bildirdi. Çinin Xəzər regionunun neft-qaz resurslarına artan marağının digər təzahür forması, dünyanın zəngin neft yataqlarından biri hesab edilən Kaşağan (Qazaxıstan) sahəsinin işlənməsində 5 mld dollar sərmayəyə sahib olmasıdır. Təsadüfü deyildir ki, son 10 ildə Qazaxıstanın neft-qaz sektoruna qoyulan xarici sərmayənin 25%-i Çinin payına düşür.

Çin dövlət başçısı Si Cinpinqin 2013-cü ilin sentyabrında Türkmənistana səfəri gedişatında iki ölkə arasında dördüncü qaz kəmərinin çəkilməsi ilə bağlı razılıq əldə edilmişdir. Kəmərin tikintisinə 2014-cü ildə başlanmış, 2017-ci ildə isə istismara verilmişdir. Dördüncü kəmər Qırğızıstan ərazisindən keçməklə Çinin Kaşqar vilayətinə qədər uzanır.




***Qrafik 1. Türkmənistan qazının ixrac olunduğu ölkələr***

Göründüyü kimi Türkmənistandan Çinə çəkilən kəmərlər sayəsində türkmən qazının əsas alıcısı statusu Rusiyadan Çinə devr edilməkdədir. Bunu yuxarıdakı qrafik təsvirlə daha aydın görmək olar.

Çinin Xəzər hövzəsində neft-qaz resurslarının ixracı ilə bağlı siyasəti həm də Böyük İpək Yolu layihəsi konteksində də dəyərlən-

dirilə bilər. İpək Yolunun (Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Gürcistan Türkiyə-Avropa) istər dəniz əlaqələndirməsinə, istərsə də Rusya üzərindən keçən "Şimal Əlaqələndirmə xəttiı"nə nəzərən önəmli üstünlükləri görünməkdədir. Günümüzdə İpək Yolu Çin, Hindistan, Cənubi Asya ölkələrinin diqqətçəkən iqtisadi inkişafı, Orta Asya ölkələrindəki geniş enerji qaynaqları və Şərq-Qərb ticarətindəki strateji mövqeyi ilə bir daha qlobal iqtisadiyyatın mühüm seqmentlərindən biri olduğunu təsdiq etmişdir.

Aparılan araşdırmadan bu qənaətə gəlinir ki, Çin enerji ehtiyaclarını strateji təhlükəsizlik məsələsi kimi qəbul edir. Artan neft və təbii qaz ehtiyaclarının ödənilməsində Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarına getdikcə daha çox önəm verilməkdədir. Bu enerjinin daha təhlükəsiz əldə edilməsi ilə yanaşı, həm də geopolitik baxımdan da rəsmi Pekin üçün mühm əhəmiyyət kəsb edir. Belə ki, Çin Xəzər regionuna böyük həcmdə investisiya qoymaqla, əslində regionda özünə qalıcı və daha güclü bir yer tutmasına şərait yaratmış olur. Uyğurların kompakt yaşadığı Sincan vilayətinin regionla sərhəddə yerləşməsi Çinin bölgədə daha aktiv siyasət yeritməsini şərtləndirir. Çin duru yanacağı geniş şəkildə Malakka boğazından keçməklə qəbul edir ki, sözügedən su hövzəsində ABŞ-ın nəzarəti güclüdür. Belə vəziyyət Çini Xəzər regionun neft-qaz resurslarına daha çox yönəlməyə sövq edir. Tədqiqat nəticəsində aydın olur ki, region dövlətləri-xüsusilə də Qazaxıstan və Türkmənistan karbohidrogen resurslarının ixracında Rusiyanın inhisarçı mövqeyindən qurtulmaq üçün Çin bazarıa xüsusi önəm verirlər. Məz bunun nəticəsidir ki, əgər ötən əsrin 90-cı illərində və yeni əsrin ilk on illiyində Rusiya istiqamətli enerji ixracı üstünlük təşkil edirdisə artıq Çin istiqamətində neft-qaz resurslarını daşınması hər ötən il artır və Rusiyanı üstələyir. Bu həmçinin sözügedən dövlətlərə Rusiyanın təzyiqlərini də müəyyən qədər azaltmış olur.

## III.4. Türkiyənin Xəzər hövzəsində geosiyasi və geoiqtisadi maraqları

Türkiyənin Xəzər regionunda maraqları çoxvektorlu olub özündə iqtisadi, siyasi, hərbi, mədəni və ideoloji məsələləri ehtiva edir. Hər şeydən öncə Xəzər sahilində müstəqilliyini bərpa edən Azərbaycan, Qazaxıstan və Türkmənistan soykök, ortaq tarix, mədəniyyət, din baxımdan Türkiyə ilə olduqca yaxındır və bu dövlətlər XIX-XX əsrlərdə rus işğalı ilə əlaqədar Türkiyədən uzaq düşmüşdür. Düzdür, orta əsrlərdə Bayandurlu (Ağqoyunlu) və Səfəvilər dövlətləri ilə Osmanlı dövləti arasında uzun sürən müharibələr ikincinin Mərkəzi Asiyaya çıxışını böyük ölçüdə mümkünsüz etmişdir. II Səlimin hakimiyyəti dönəmində Qara dəniz ilə Xəzər arasında kanal çəkilməsi ilə Osmanlı dövlətinin şimaldan Xəzərə çıxmaqla Orta Asiya türk torpaqlarına öz təsirlərini yaymaq planı da uğurla nəticələnməmişdir. Tarixin sonrakı dönəmində-I Dünya müharibəsi illərində hakimiyyətdə olan "İttihad və Tərəqqi" partiyasının siyasi dünyagörüşündə turançı bir baxış hakim idi. Xüsusilə də həmin dönəm Osmanlı dövlətinin müdafiə naziri olmuş Ənvər paşanın Mərkəzi Asiya ilə bağlı ciddi planları mövcud idi. Müharibənin ilk illərində hökümətə bağlı "Qara qılınc" təşkilatının həm Azərbaycanda, həm də Türküstanda apardığı gizli fəaliyyət yuxarıda qeyd edilən fikirləri bir daha təsdiqləmiş olur. Azərbaycan, ardınca isə Mərkəzi Asiyanın bolşevik Rusiyası tərəfindən işğalı daha 70 il müddətinə Türkiyəni "ana torpaq"la əlaqəsini kəsmiş olacaqdır. İşğalın ilk illərində Mərkəzi Asiyada bolşevik hakimiyyətinə qarşı yönəlmiş və onların regionda möhkəmlənməsinə ciddi əngəl yaratmış "Basmaçı hərakatı"nda Ənvər paşanın iştirakı və burada həlak olması Türkiyənin Mərkəzi Asiya ilə bağlı planlarında heç vaxt asanlıqla əl çəkməyəcəyinin bariz nümunəsi hesab etmək olar. 1991-ci ildə Xəzər sahilində türk dövlətlərinin – Azərbaycan, Qazaxıstan və Türkmənistanın dövlət müstəqilliyini bərpa etməsi qardaş Türkiyə ilə münasibətlərin yenidən qurulmasına şərait yaratmış oldu. Müstəqilliyini yeni bərpa etmiş bu respublikalar dövlət suverinliklərinin möhkəm-

ləndirilməsi, dünya birliyinə inteqrasiya, xarici təhdidlərdən qorunma, investisiyaların cəlbi və s. bu kimi məsələlərdə qardaş Türkiyə ilə əməkdaşlığa meyl edirdisə, Türkiyə də öz növbəsində Xəzər regionunda "tarixi misiyasını" uğurla həyata keçirmək, bu dövlətlərlə daha dərin iqtisadi-siyasi inteqrasiyaya nail olmaqla yanaşı, konkret iqtisadi maraqlar da güdürdü. Heç şübhəsiz ki, bu iqtisadi maraqlar içərisində sürətlə inkişaf etməkdə olan Türkiyə iqtisadiyyatının kəskin ehtiyac duyduğu karbohidrogen resurslarının Xəzər regionundan daha əlverişli şərtlərlə idxalı məsələsi dayanırdı.

Xəzərin o cümlədən Azərbaycanın karbohidrogen ehtiyatlarının ixracı ilə bağlı mühüm geoiqtisadi və geosiyasi maraqları olan dövlətlərdən biri də qardaş Türkiyə Cümhuriyyətidir. Sovetlər imperiyasının dağılması ilə Türkiyə Cümhuriyyəti enerjiyə olan kəskin tələbatının ödənilməsində Xəzərin neft və təbii qaz ehtiyatlarından daha ucuz və uzunmüddətli istifadə ilə enerji təhlükəsizliyinin təmininə çalışırdı. Həmçinin yeni yaranan müstəqil türk dövlətlərinin zəngin enerji ehtiyatlarının Qərb bazarlarına daşınmasında əsas tranzit ölkə statusunu qazanmaq istəyirdi. SSRİ-nin dağılması ilə Türkiyə bu siyasətini fəal şəkildə rellaşdırmaq istiqamətində mühüm işlər görməyə başladı. Belə ki, 1992-ci ilin sonlarında Türkiyənin o zamankı xarici işlər naziri H. Çətinin Orta Asiya respublikalarına olan səfərində adıçəkilən yeni müstəqil türk dövlətlərinin neft və təbii qaz ehtiyatlarının Azərbaycandan keçməklə Türkiyə vastəsi ilə Qərbə daşınması təklifi irəli sürüldü. Həmçinin, Sovetlərin yeni dağıldığı bir dönəmdə iqtisadiyyatları tənəzzülə uğramış və infrastrukturları dağılmış bu respublikaların daha çox təbii ehtiyatları regionun aparıcı aktoru olmağa çalışan Türkiyə sərmayəsi üçün cəlbedici görünürdü. 1992-ci ilin mayında Aşqabad Zirvə Toplantısında Türkiyənin xarici işlər naziri H. Çətin regionun neft və qaz ehtiyatlarının Türkiyənin Aralıq dənizi limanı olan Ceyhana boru kəməri vasitəsilə nəqli, buradan isə tankerlər ilə istehlak məntəqələrinə daşınmasını təklif etməklə Ceyhan projesi rəsmən siyasi gündəmə gəlmiş oldu. Artıq bu vaxt Xəzər nefti və təbii qazının çıxarılması və boru xətləri vasitəsi ilə nəqli üzərində "böyük oyun" qurul-

mağa başlamışdır. Yeni "Böyük oyun" da oyunçular ABŞ, Rusiya, Avropa Birliyi, Çin, Türkiyə, İran və müstəqilliklərini yeni qazanmış Xəzəryanı respublikalar idi.

Yeri gəlmişkən qeyd edək ki, XIX əsrin II yarısında Orta Asiyanı işğal edən Rusiya ilə İngiltərə arasında Əfqanıstanı işğal etmək uğrunda gedən mübarizə tarixə "Böyük oyun" (Qreate game) olaraq keçmişdir. Bu termini ilk dəfə XIX əsrdə ingilis hərbiçisi (yüzbaşı) Arthur Conoly tərəfindən bir dostuna yazılan məktubda istifadə olunmuşdur. Daha sonra bu ifadəni 1907-ci ildə ədəbiyyat üzrə Nobel mükafatını alan ingilis yazıçısı Rudyard Tipling "Kim" adlı əsərində istifadə etmişdir. Enerji sahəsində böyük neft şirkətlərinin və super güclərin XX əsrdə vermiş olduqları bu amansız mücadilə nəticəsində "Böyük oyun" termini dünya siyasi ədəbiyyatına yenidən və fərqli biçimdə gəlmişdir. Beləliklə bu termin siyasi ədəbiyyatda çox populyar bir ifadəyə çevrilmişdir. Araşdırmaçı Luts Kleveman Rudyard Tiplingin "Kim" adlı əsərində məşhurlaşdırılmış "Böyük oyun" ifadəsini bölgədə Böyük Britaniya və Çar Rusiyasının XIX əsrdə apardıqları imperialist mücadilənin modern bir versiyası olan bir "Yeni böyük oyun" un oynandığını iddia etmişdir. Oyun içərisində Türkiyə ABŞ-n çətiri altında yer alırkən (1990-cı illərin əvvəlləri nəzərdə tutulur) İran Rusiya ilə işbirliyi içində bölgədə özünə yer etməyə çalışmışdır. Dolayısı ilə Rusiya ilə qurulan strateji iş birliyi İranın bölgəyə yönəlik siyasətində önəmli bir ünsür halına gəlmişdir.

Türkiyə üçün enerji mənbələrinin çeşidlənməsi, daha sabit və təhlükəsiz neft-qaz idxalı olduqca vacib faktora çevirilmişdir. 2012-ci ilin statistikasına görə Türkiyənin xaricdən etdiyi idxalın 9%-ni tək xam neft təşkil edir və keçən müddət ərzində bu hər il artmaqda davam etmişdir. Bir başqa sözlə ifadə etmiş olsaq Türkiyənin milli gəlirinin 2%-dən çoxu xam neftin idxalına xərclənmiş olur.

Türkiyənin istifadə etdiyi əsas kart Qara dənizi dünya okeanı ilə birləşdirən 27 kilometrlik Bosfor boğazında gəmilərin hərəkət intensivliyinin həddən artıq artmasi ilə bağlı idi. Məlum olduğu kimi boğazların hüquqi rejimi 1936-cı ildə qəbul olunmuş Montre

konvensiyası ilə tənzimlənir. Montre konvensiyası türk boğazlarını ticarət gəmiləri üçün açıq elan etsə də həmin vaxt il ərzində bu su keçidindən keçən gəmilərin sayı 2000 civarında idi ki, bu da gün ərzində 4-5 gəmi edirdi. 1997-ci ildə isə bu rəqəm ildə 51 minə bərabər olmuşdur ki, bu da hər gün 150 gəminin Bosforu keçməsi demək idi. Belə vəziyyət meqapolis olan, təxminən 15 milyonluq əhaliyə sahib və eyni zamanda unikal memarlıq abidələrinə malik İstanbul üçün ciddi təhlükə mənbəyi hesab olunurdu. Digər tərəfdən qeyd etmək lazımdır ki, Bakı-Novorossiysk, Bakı-Supsa və Tengiz-Novorossiysk neft kəmərlərinin işə düşməsi ilə boğazlardan keçən neft tankerlərinin də sayı xeyli dərəcədə artmışdır. Hərçənd ekspertlərin bir çoxu rəsmi Ankaranın təhlükəsizlik məsələlərini qabardıb, əslində boğazları by-pass etməklə əsas ixrac neft kəmərinin öz ərazisindən keçməsinə nail olmaq fikrini səsləndirsələr də, boğazlardan keçən yüklərin çoxunun yanacaq və kimyəvi məhsullar olduğunu xatırlasaq, eləcə də sözügedən su keçidində son illərdə tankerlərin yaratdığı sıxlıq da təhlükəsizlik baxımından xeyli gərginlik yaratmışdır. Bu baxımdan qardaş ölkənin gətirdiyi arqumentləri kənara qoymaq olmaz və onların əndişələri başadüşüləndir. Türkiyənin bütün təbəqələri, siyasi birlikləri boğazlardan keçən yüklərin azaldılmasında həmrəylik göstərirdilər.

Türkiyənin bölgəyə yönəlik enerji siyasətinin əsas məqsədi heç də duru və mavi yanacağa olan tələbatının ödənilməsi deyil, Azərbaycanla yanaşı Qazaxıstan və Türkmənistan daha sonra isə gələcəkdə İranın karbohidrogen ehtiyatlarının Qərbə nəqlində əsas enerji mərkəzi ölkə olmağı hədəfləməklə Avropa İttifaqı ilə münasibətlərində əlavə güc qazanmaqdır.

1993-cü ilin avqustunda Türkiyənin baş naziri T.Çillərin Rusiya prezidenti B.Yeltsinə boğazlar və Montre müqaviləsi ilə bağlı 4 maddəlik xəbərdarlıq notasında boğazların əhəmiyyəti, buradan neft və digər yanacaq tərkibli məhsulların daşınmasının artmasının təhlükəli olması, adıçəkilən məhsulların boğazlardan daşınması artacağı təqdirdə Montre müqaviləsinin şərtlərinə yenidən baxılması və bunun müqabilində daha çox hərbi təyinatlı gəmilərin Qara dənizə daxil ol-

ması mümkünlüyü öz əksini tapmışdır. Sonuncu məsələ Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyi üçün xüsusi önəm daşıyırdı.

Türkiyə siyasi dairələrində hesab edirdilər ki, ilkin neftin Rusiya ərazisindən nəqli əsas neftin də gələcəkdə bu istiqamətdə daşınmasını mümkün edə bilərdi. Bu baxımdan "Əsrin müqaviləsi" çərçivəsində hasil ediləcək ilkin neftin Gürcüstan ərazisindən nəqlini dəstəkləməklə, gələcəkdə həmin xəttin Ceyhana qədər uzadılmasını mümkün sayırdılar.

1995-ci il avqustun 2-də Türkiyədə CHP və DYP -nin koalision hakimiyyəti dönəmində Başbakanlığın tabeliyində "Uluslararası boru xətləri koordinasiya qurumu"nun yaradılması rəsmi Ankaranın Azərbaycan neftinin ixracında əsas tranzit ölkə olma uğrunda mübarizəsini aydın göstərirdi.

Nəhayət, uzun sürən danışıqlarıdan sonra – 26 aprel 1998-ci ildə Trabzon şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin görüşündə əsas ixrac kəmərinin Bakı-Tbilisi-Ceyhan olması haqqında razılığa gəlindiyi və siyasi qərarın verilmiş olduğu bildirildi.

1998-ci ilin oktyabrında Türkiyə Cümhuriyyətinin yaradılmasının 75 illiyinə həsr olunmuş tədbirdə Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentlərinin, eləcə də ABŞ Energetika nazirinin iştirakı ilə əsas ixrac kəmərinin – Bakı-Tbilisi-Ceyhan istiqamətində çəkilməsinə tərəfdar olan 6 maddədən ibarət "Ankara bəyannaməsi"i imzalandı. Uzun sürən gərgin geoiqtisadi, geosiyasi mübarizənin sonunda, nəhayət 1999-cu il oktyabrın 18-də ATƏT-in İstanbul Zirvə Toplantısında 1990-ci illərin əvvəllərindən danışıqlar aparılan əsas ixrac kəməri – BTC-nin reallaşması haqqında Azərbaycan, Gürcüstan və Türkiyə Respublikaları arasında saziş imzalandı. 18 sentyabr 2002-ci ildə təməli qoyulan Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri tam olaraq 2006-cı ildə istismara verilmişdir. Qeyd edək ki, hələ 1991-ci ildə Körfəz müharibəsi ilə əlaqədar Kərkük-Ceyhan neft kəmərinin fəaliyyətinin dayandırılması, sonradan müəyyən qədər işləməsinə icazə verilsə belə, Ceyhan limanını aparıcı neft terminalına çevrilə bilməmişdir. BTC-nin fəaliyyətə başlaması ilə Ceyhan limanı Aralıq dənizi hövzəsində

mühüm neft terminalına çevrilməklə özünün dirçəliş dövrünə qədəm qoydu. Kəmərin tikilib istifadəyə verilməsi ilə Azərbaycan ilə Türkiyə arasında münasibətlər yeni bir dönəmə qoydu ki, bu da növbəti layihələrin-BTƏ qaz kəməri, BTQ dəmir yolu, Cənub Qaz Dəhlizi kimi yeni projelərin ön ayağı hesab edilə bilər.

Türkiyə Azərbaycan təbii qazının ən böyük alıcılarından biri və eyni zamanda ixrac qaz kəmərimizin keçdiyi əsas ölkə olduğundan onun təbii qaz təlabatının və tranzit siyasətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Günümüzdə Türkiyənin enerji təlabatında təbii qaz 35%, neft 27%, kömür 28,5%, hidro 7%, digər bərpa oluna bilən enerji mənbələri 2,5% paya sahibdir. Düzdür, dünya ölkələri arasında Türkiyə ən çox təbii qaz istehlak edən ilk onluğa daxil olmasa belə, mavi yanacağa olan tələbatın artım sürətinə görə isə qardaş ölkə yalnız Çindən geri qalmaqdadır. Mavi yanacağa olan təlabatın 99%-i isə xaricdən idxal hesabına ödənilir. 2015-ci ildə Türkiyə istehlak etdiyi 51 mld $m^3$ qazın 58 %-i Rusiyadan, 15%-i İrandan, 12%-i Azərbaycandan, 7,7 %-i Əlcəzairdən (LNG şəklində), 2,4 %-i isə Nigeriyadan (LNG şəklində) idxal etmişdir.




***Qrafik 2. Türkiyənin təbii qaz idxal etdiyi ölkələr (rəqəmlərlə)***

Artan sənaye, elektrik enerjisi istesalı, əhalinin məişət tələbatı və hətta aqrar sektorda böyük istixana təsərrüfatı mavi yanacağa olan ehtiyacı Türkiyədə durmadan artırmaqdadır. Düzdür, son illərdə Türkiyə geoloqları Qara və Aralıq dənizlrində, eləcə də Anadolunun cənub-şərq hissəisndə, Trakya, Mersin və İsgəndərun civarında təbii qaz yataqları aşkarlamış, hətta Qara dənizdə praktik olaraq hasilata da başlanılsa da bu qardaş ölkənin ehtiyaclarını ödəməkdən hələ ki, uzaqdır. Dünyanın və eləcə də Türkiyənin enerji təhcizatında da təbii qazın hər il artımı müşahidə olunur. Belə ki, 1938-ci ildə dünya enerji təhcizatında kömür 75%, neft 21% paya sahib ikən, təbii qaz isə 5,6% paya malik olmaqla, elə də mühüm əhəmiyyət kəsb etmirdi. Bu anlamda mavi yanacağın payı 1957-ci ildə 9,7%-ə, 1965-ci ildə 16%-ə, 1970-ci ildə 17%-ə, 1980-ci ildə 19,1%-ə, 1990-cı ildə 22,2%-ə, günümzdə isə 25%-ə qədər yüksəlmişdir.

Türkiyə dünyanın ən böyük duru və mavi yanacaq resurslarının yerləşdiyi Yaxın Şərq və Xəzər hövzəsi ilə böyük istehlakçı olan Avropa arasında "Strateji Terminal Mərkəzi" olmağa namizəd ölkədir. Türkiyənin coğrafi mövqeyi elədir ki, onun enerji koridoru olmaq imkanı ikitərəflidir. Belə ki, 300 mlrd dollarlıq neft və təbii qaza ehtiyac duyan Avropanı Yaxın Şərq və Xəzər hövzəsinin karbohidrogen ehtiyatları ilə təmin edən şərq-qərb koridoru, digər tərəfdən isə Rusiyanın malik olduğu neft və təbii qazı nəql etmək üçün Qara dəniz keçidli tranzit imkanları daha real görünür. Xüsusilə də, Rusiyanın Ukrayna ilə apardığı müharibə şəraiti Türkiyənin "Strateji Terminal Mərkəzi" olmaq inkanları daha da artmışdır.




*Şəkil 21. Türkiyənin enerji mərkəzi olma imkanları*

Burada bir məsələyə xüsusi diqqət yetirmək lazımdır ki, enerji sahəsində Türkiyənin Rusiya ilə əməkdaşlığının bir istiqamətdə qiymətləndirilməsi düzgün olmazdı. Belə ki, Mərkəzi Asiya və Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropa bazarlarına nəqlində Türkiyə Rusiya rəqabəti mövcuddursa digər tərəfdən isə Rusiya özü təbii qazınıı Ukrayna böhranından sonra Türkiyə ərazisindən nəqlində maraqlıdır. Məsələ bununla da yekunlaşmır. Unutmaq olmaz ki, Türkiyənin təbii qaza olan ehtiyacının 50 %-dən çoxu məhz Rusiyadan idxal hesabına ödənilməkdədir. Rusiyanın təbii qaz ixrac etdiyi ölkələr arasında Türkiyə Almaniyadan sonra ikinci sırada yer alır. Türkiyənin isə mavi yanacağın idxal etdiyi ölkələr sırasında Rusiya ildə 27,3 mld $m^3$ təbii qazla ilk sırada yer almaqdadır.




*Şəkil 22. 2014-cü ildə Türkiyənin idxal etdiyi təbii qazın ölkələrə görə qrafik təsviri*

Şahdəniz 2 layihəsi əsasında hasil olunacaq təbii qazın nəqli ilə bağlı Azərbaycan höküməti ilə Türkiyə höküməti arasında gərgin danışıqlar 3 il davam etmişdir. Danışıqların gərginliyi onda idi ki, Türkiyə tərəfi Azərbaycan qazını alıb, özü onun Avropaya daha baha qiymətə satmaqla, təbi qaz ixracatçısına çevrilmək istəyirdi. Amma, artıq dünya enerji bazarında təbii qazın dəyəri artmaqla yanaşı, həm də, mavi yanacaq mühüm geoiqtisadi əhəmiyyət də daşımaqda idi. Azərbaycan tərəfi isə qardaş ölkəyə təbii qazın dünya bazarındakı mövcud qiymətindən aşağı satmaqla yanaşı, həm də mavi yanacağın və kəmərin sahibi kimi Türkiyə ərazisindən keçməklə onu Avropa bazarına özü nəql etmək istəyirdi.

Belə bir şəraitdə TANAP layihəsinin Türkiyə üçün iqtisadi baxımdan əhəmiyyəti tam aydınlığı ilə görünməkdədir. Bundan əvvəlki boru xətlərinə (Kərkük-Yumurtalık, Bakı-Tbilisi-Ceyhan, Mavi Axın) diqqət yetirdikdə aydın olur ki, Türkiyə bu layihələrdə tranzit ölkə statusu ilə məhdudlaşıb. TANAP layihəsində isə Türkiyə keçid ölkəsi olma statusundan əlavə bu proyektin hər bir zəncirində yer almaqdadır. Hər şeydən əvvəl Cənub Qaz Dəhlizini mavi yanacaqla dolduracaq mənbə olan Şahdəniz prespektivli yatağının

birgə işlənməsində Türkiyənin "TPAO" şirkəti 19% paya sahibdir ki, bu da "BP"-dən sonra ikinci ən böyük pay sahibi olmaq deməkdir. Digər tərəfdən isə "TPAO" Cənubi Qafqaz Boru kəmərində 19% paya sahibdir. Cənub Qaz Dəhlizinin ən önəmli hissəsini təşkil edən TANAP layihəsində isə Türkiyənin digər şirkəti olan "BOTAŞ" 30% paya sahibdir. Göründüyü kimi TANAP layihəsində Türkiyə həm Şahdəniz qaz yatağında paya sahibdir, həm də sahib olduğu və əlavə qazın daşıyıcısı rolunda çıxış etməklə iki qat gəlirə sahib olur. Mütəxəssis hesablamalarına görə Türkiyənin Şahdəniz yatağından 2044-cü ilə qədər gəliri 28 mlrd dollar olacaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi Türkiyə təbii qazın böyük hissəsini Rusiyadan, sonra isə İrandan idxal etməkdədir ki, hər iki dövlət daha baha qiymətlə mavi yanacağı təklif etməkdədir. Xüsusi olaraq qeyd edək ki, Türkiyə ən ucuz mavi yanacağı məhz Azərbaycandan almaqdadır. Bu baxımdan TANAP Türkiyəyə əlavə üstünlüklər verməkdədir. Belə ki, daha ucuz qiymətə aldığı qazın həcmini artırmaqla xeyli maliyyə vəsaitinə qənaət etmiş olmaqla yanaşı, digər tədarükçülərlə qiymət məsələsində bazarlıq etmək imkanlarını artıracaqdır. Bununla yanaşı, Rusiya və xüsusilə embarqolara məruz qalan İran Türkiyə kimi əlverişlı bazarı itirməmək üçün qiymətlərə yenidən baxılmasına sadəcə məcbur olacaqlar. Nəticə etibarı ilə enerji sahəsində əlverişli bazar mühütünün yaranması mümkün olacaqdır.

Bu müsbət tendensiyalarla yanaşı, bəzi elmi-siyasi dairələrdə TANAP-ın Türkiyə üçün strateji önəmi ilə bərabər, ümumilikdə bu layihənin Türkiyənin eneji siyasətindəki hədəfləri ilə uzlaşmadığını söyləyənlər də var. Belə ki, Türkiyənin çox mühüm coğrafi-strateji mövqeyini önə çəkən bu siyasilər coğrafi üstünlükdən yararlanaraq rəsmi Ankaranın sadəcə enerji koridoru olmaqla qalmasını qəbul etmirlər. Onların fikrincə Türkiyə neft və qaz resursları baxımından kifayət qədər zəngin olan Rusiya, Xəzər hövzəsi, eləcə də, Yaxın və Orta Şərqin arasında çox mühüm bir ərazidə yerləşir ki, bu təbii-coğrafi üstünlük diqtə edir ki, Türkiyə bir enerji koridoru olmaqdan daha çox enerji mərkəzi olmalıdır.




*Şəkil 23. Türkiyənin tranzit ölkə və enerji mərkəzli ölkə olmasının qrafik təsviri*

Mütəxəssis hesablamalarına görə mövcud və planlaşdırılan qaz kəmərləri işə düşəcəyi halda Türkiyə üzərindən daşınan mavi yanacağın həcmi illik 100 mld $m^3$-ə çatmış olar. Türkiyənin izlədiyi xarici siyasət həm əsas istehlakçı, həm də sərmayəçi Qərb dövlətlərinin maraqlarını təmin etmədiyindən onun bir enerji halına gəlməsində də həvəsli görünmürlər. 1963-cü ildən bəri Aİ-yə daxil olmaq istəyən Türkiyənin gözlədilməsi, sözsüz ki, qardaş ölkənin daha da güclənməsi ehtimalı ilə bağlıdır. Bir enerji mərkəzinə çevriləcəyi təqdirdə rəsmi Ankaranın əlini Brüssel qarşısında gücləndirmiş olardı ki, bu da ikincinin planlarına uyğun gəlmir. Xarici faktorlarla yanaşı qardaş ölkə daxili məslələrin də həllinə diqqəti artırmalıdır ki, bu da onun iddia etdiyi eneji "hub"-ı olmağı reallığa çevirsin. Bu istiqamətdə görüləcək mühüm tədbirlərdən biri ölkə daxilində enerji bazarının liberallaşdırılmasını həyata keçirməkdir. 2001-ci ildə Türkiyədə 4646 saylı qanunun qüvvəyə minməsi ilə təbii qaz bazarının liberallaşdırılması yolunda praktik addım atılmış oldu. Sözügedən qanun təbii qazın stabil və rəqabətə davamlı qiymətə satışını təmin etməklə bərabər, "BOTAŞ" şirkətinin inhisarçı mövqeyinin ləğvini, özəl şirkətlərin təbii qaz bazarına daxil olmasını, istehlakçılara münasib qiymətlərin təklif olunması və bu qəbildən olan digər məsə-ləlri özündə ehtiva edir. Qanun layihəsinin qəbul olunmasına baxmayaraq, reallıqda ölkənin qaz bazarının təxminən 80-90%-i yenə də "BOTAŞ"-ın nəzarəti altındadır.

Türkiyənin içində yer aldığı həm TANAP, həm də Türk Axını layihələri isə bu imkanı Ankara hökümətinə vermir. Bu fikirlər reallıqla uzlaşmayan hədsiz ifrata varmaqla söylənilən hədəflər kimi qəbul edilsə də TANAP-la bağlı danışıqların uzanmasında və yekun qərarın geçikməsinə təsirsiz ötüşmədi. Rəsmi Ankara üçün layihə ilə bağlı yekun qərarın verilməsində əsas problemlərdən biri də məhz Türkiyənin Azərbaycan qazını alıb özü Avropaya satmaq istəməsi ilə bağlı idi. Yəni, Türkiyənin enerji strategiyasında bir tranzit ölkədən daha çox enerji mərkəzi olması yer alır ki, bu da yuxarıda söylənilən fikirlərlə səsləşir.




***Şəkil 24. TANAP-ın tranzit marşurutu***

Türkiyə dünya karbohidrogen ehtiyatlarının böyük hissəsinin yerləşdiyi Avrasiyada çox mühüm tranzit imkanlarına malik ölkədir. Belə ki, həm şərq-qərb, həm də nəhəng neft-qaz ölkəsi olan Rusiyanın mavi və duru yanacağının nəqlində Türkiyə Qara dəniz keçidli mühüm enerji koridoru olmaqdadır. Şərq-Qərb enerji koridoru anlamında Orta Asiya və Azərbaycanın eneji resurslarının Avropa

bazarlarına nəqlində Türkiyənin oynadığı və gələcəkdə planlaşdırılan tranzit layihələr başa düşülür. Göründüyü kimi bu istiqamətdə Türkiyə və Azərbaycan bir-neçə layihənin reallaşmasına nail olmuşlar. Qara dəniz keçidli enerji koridorunda isə daha çox Rusiyanın duru və məvi yanacağının ixracı ilə Türkiyə həm özünün ehtiyacını böyük ölçüdə qapayacaq, həm də digər tərəfdən tranzit imkanlarını daha da artırmış olacaqdır. Hər iki enerji dəhlizinin iqtisadi dvidentləri ilə bərabər strateji və geopolitik əhəmiyyəti də yüksəkdir. Belə ki, şərq-qərb dəhlizi ilə Türkiyə həm də tarix, etnik, dil, din və ortaq mədəniyyət baxımından Mərkəzi Asiya və Azərbaycanla əlaqə bağlarını daha da gücləndirəcəkdir ki, bu sahədə də Türkiyə qarşısında Rusiya təpkisini görməkdədir. Qara dəniz keçidli enerji koridoru isə Moskva-Kiyev münasibətlərinin gərginləşməsi fonunda Ukraynanın by-pass edilməsi ilə rus qazının ixracının Türkiyə vasitəsilə nəqlini mümkün edir ki, bu həm yuxarıda söylədiyimiz şərq-qərb dəh-lizində yaranan Türkiyə-Rusiya rəqabətinə bir yumşaqlıq gətirir və digər tərəfdən isə 1963-cü ildən bəri daxil olmağa cəhd etdiyi Avropa İttifaqı qarşısında qardaş ölkənin imkanlarını daha da artırmış olur. Türkiyə təbii qazı boru kəmər vasitəsi ilə Rusiyadan, İrandan və Azərbaycandan idxal edir. Bundan əlavə LNC şəklində Əlcəzair, Qətər və Nigeriyadan da mavi yanacaq idxal edilməkdədir. LNC şəklində qazın idxalı üçün Türkiyədə üç reqazifikasiya terminalı tikilmişdir ki, bunlar da aşağıdakılardır.1) Mərmərə Ereglisi (22 mln kub metr/gün), 2) Əliağa (24,5 mln kub metr/gün), 3) Əliağa FSRU (14,1 mln kub metr/gün).

Türkiyənin Xəzər bölgəsindəki maraqları tək iqtisadi məsələlərlə bağlı olmayıb, daha strateji xarekter daşımaqdadır. 1990-cı illərin koalisyon və bir qədər də qeyri-sabit hökümətlərin ardından R.T.Ərdoğanın timsalında 20 ildən artıq bir dönəmdə təkbaşına iqtidar olan AKP türk dünyasının birliyi yolunda mühüm addımlar atmışdır. Düzdür, Türkiyənin Xəzər regionunda yeni müstəqilliklərini elan etmiş türk respublikaları – Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Azərbaycan ilə sıx əlaqələr qurmaq istəyi hökümətlərdən asılı olmayaraq, bir dövlət siyasəti, çıxarıları anlamına

gəlməkdə idi. Amma, bununla belə R.T.Ərdoğanın hakimiyyətə gəlişi ilə birlik ideyası daha real məzmun daşımağa başlamışdır. Hələ 1992-ci ildə T.Özalın liderliyi ilə Ankarada keçirilən və dönəmin türk respublikalarının prezidentləri olan Ə.Elçibəy, N.Nazarbayev, S.Niyazov, İ.Kərimov və Ə.Akayevin iştirakı ilə Türk Dövlətlərinin I Zirvə Görüşü keçirilmişdir. Zirvə görüşünün yekunu olaraq "Ankara bəyannaməsi" imzalanmışdır. Sammitdə türkdilli respublikalar arasında siyasi-iqtisadi əməkdaşlıq, birgə investisiya və dünya iqtisadiyyatına inteqrasiya imkanları geniş müzakirə olunmuşdur. Bu, tarixin elə bir dövrü idi ki, yenicə müstəqilliklərini elan etmiş respublikalar dövlət quruculuğu proseslərində Türkiyəni bir örnək kimi görür və suveren hüquqlarının möhkəmləndirilməsində qardaş ölkənin dəstəyinə ehtiyac duyurdular. Yuxarıda qeyd etdiyimiz kimi 1990-cı illərin əvvəllərində Türkiyənin daxilində baş verən proseslər, tez-tez hakimiyyət dəyişikliyi, iqtisadi və hərbi baxımdan kifayət qədər güclü olmaması həmin dəstəyi yetərincə göstərməyə imkan verməsə də rəsmi Ankara regionda gedən geosiyasi və geoiqtisadi proseslərdə aktorlardan biri idi. Burada haşiyəyə çıxaraq, hələ 1930-cu illərdə Atatürkün qeyd etdiyi "bir gün sovetlər birliyi yıxılacaq və bizim həmin günə hazırlıqlı olmamız gərəkdir" ifadəsi 90-cı illərin əvvəllərində daha aktual şəkildə ortaya çıxmış oldu. Türkiyə nəinki yeni siyasi proseslərə hazır deyildi, əksinə ikiqütüblü dünya düzəninin dağılması ilə rəsmi Ankara NATO-nun cənub qanadı kimi strateji əhəmiyyətini itirmiş oldu. Sonrakı dönəmdə bu qəbildən Zirvə görüşləri – 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda, 2006-cı ildə Antaliyada, 2009-cu ildə Naxçıvanda və digər şəhərlərdə keçirilmişdir. Göstərilən Sammitlər içərisində 2009-cu ildə keçirilmiş Naxçıvan Zirvə görüşü xüsusi əhəmiyyətə malikdir. Məhz bu görüşdə rəsmi olaraq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adı altında təşkilat kimi formalaşmış oldu. Bu isə Türkdilli Dövlətlərin inteqrasiyasının yeni mərhələsi idi.

44 günlük Vətən müharibəsinin zəfərlə başa çatması və onun nəticələrindən biri olaraq Zəngəzur dəhlizinin açılması Türkiyənin

regiona yönəlik siyasətini daha da gücləndirmiş olacaqdır. Hər şeydən öncə dəhlizin açılması ilə 100 ildən artıq işğal dönəmi ilə əlaqədar olaraq Türkiyə ilə türk dünyası arasında kəsilmiş quru əlaqələri bərpa olunmuş olacaqdır.

Zəngəzur dəhlizi ətrafında aparılan danışıqlar Ermənistan və İranın buna qarşı sərt mövqe sərgiləməsi fikrimizcə əbəsdir. Ona görə ki, sözügedən dəhliz qlobal nəqliyyat qovşağının tərkib hissəsi kimi qəbul edilməkdədir. Çinin 2013-cü ildə qəbul etdiyi "Bir kəmər bir yol" layihəsinin davamı olaraq "orta dəhliz"in bir seqmenti kimi qiymətləndirilir. Zəngəzur dəhlizi geniş anlamda Asiya-Sakit okean regionunu Avropa ilə quru bağlantısını təmin edəcək strateji bir önəmə sahibdir. Dünyanın əsas iqtisadi güc mərkəzi-Çin ilə Aİ arasında 2019-cu il üçün ticarət dövriyyəsi 560 mld avro təşkil etmişdir ki, tərəflər arasında yeni investisiya sazişinin imzalanması ilə daha da artacağı real görünməkdədir. Bu isə özlüyündə tərəflər arasında sürətli və maneəsiz daşımaları qaçılmaz edir ki, bu konteksdə Zəngəzur dəhlizinin qlobal dəyəri aydın sezilmiş olur. Çin ilə Aİ arasında ticarət dövriyyəsinin artması paralel olaraq alternativ dəhlizlərin açılmasını vacib edir. Bunu gətirdiyimiz praktiki bir nümunə də aydın şəkildə göstərir. 2021-ci ilin martın 24-də "Evergreen" gəmisinin Süveyş kanalında qəzaya uğraması ilə qərb istiqamətində daşımalara 5,1 mld, şərq istiqamətində daşımalara isə 4,5 mld dollar, ümumilikdə isə dünya iqtisadiyyatına 9,6 milyard dollar itki ilə nəticələnmişdir. Qırmızı dəniz ilə Aralıq dənizini birləşdirən Süveyş kanalı vasitəsi ilə dünya gəmi daşımalarının təxminən 15% həyata keçirilir. İl ərzində Süveyş kanalından keçməklə 1 mld tondan artıq yük daşınır. Belə durum təhlükəsizlik baxımından riskləri xeyli artırmaqla yanaşı, alternativ dəhlizlərin açılmasını zəruri edir ki, Zəngəzur dəhlizi bu aspektdə böyük maraq doğurmaqdadır.

Əslində 44 günlük Vətən müharibəsi on illər ərzində regionda formalaşmış nəqliyyat arxitekturasının dəyişilməsini mümkün etdi. Ermənistan-Azərbaycan-Rusiya arasında imzalanmış 10 noyabr bəyanatının 9-cu maddəsinə görə Azərbaycan ilə Naxçıvan arasında maneəsiz olaraq nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması

nəzərdə tutulurdu. Bəyanatda birbaşa Zəngəzur adı çəkilməsə də, Azərbaycan ilə onun anklav ərazisi olan Naxçıvan arasında nəqliyyat-kommunikasiya əlaqələri Zəngəzur üzərindən qurula bilər. Xatırladaq ki, 1920-ci ilin dekabrına qədər adıçəkilən ərazi Azərbaycanın tərkibində olmuş və tarixən də Azərbaycan ərazisi kimi tanınmışdır. Məhz Ermənistanda 1920-ci il noyabrın 30-da sovet hakimiyyətinin qurulmasının ardından Zəngəzurun şərq hissəsi məcbiri şəkildə Ermənistana verilmişdir. Tədqiqat obyektimiz Zəngəzur tarixi olmadığından bu məsələ üzərində çox dayanmayacağıq. Zəngəzur dəhlizinin açılması Türkiyə üçün olduqca əhəmiyyətlidir və geniş anlamda onun Xəzər hövzəsindəki strateji maraqlarının tərkib hissəsi sayıla bilər. Dəhlizin uzunluğu böyük deyil və dünya xəritəsində çox kiçik bir sahəni əhatə etməsinə rəmən, geo-siyasi və geostrateji əhəmiyyəti olduqca böyükdür. Zəngəzur coğrafi baxımdan Anadolu yaylasının yüksəklikləri, Kiçik Qafqaz və Zaqros dağ silsilələri arasında kiçik bir ərazini əhatə edir.Tarixən buradan keçən yollar öz əhəmiyyəti ilə böyük dövlətlərin maraq dairəsində olmuşdur. Uzun müddət qapalı olması ilə əlaqədar sözügedən dəhlizin imkanları elə də maraq kəsb etməmişdir. Koridorun açılması ilə Türkiyə özünün ən yaxın müttəfiqi hesab etdiyi Azərbaycan ilə birbaşa quru əlaqəsi yaradılmasına nail olacaqdır. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Naxçıvan ilə birbaşa əlaqə kəsildiyindən Türkiyədən Azərbaycana yükdaşımalar İran və Gürcüstan vasitəsilə həyata keçirilirdi ki, bu da bir çox çətinliklərlə qarşılaşırdı. Əvvəla, Zəngəzur dəhlizi qeyd olunan hər iki istiqamətdəki yollardan daha qısadır və deməli az xərc tələb edir. Digər tərəfdən, dəhlizin açılması ilə Türkiyə bu istiqamətdə İran asılılığından xilas olmuş olardı. Birbaşa dilə gətirilməsə də, regionda nüfuz əldə edilməsində Tehran və Ankara rəqib düşərgələrdə yer almaqdadır. Sözügedən dəhlizin Türkiyə üçün əhəmiyyəti Azərbaycan ilə birbaşa quru bağlantısı qurmaqla yekunlaşmır. Zəngəzur dəhlizi rəsmi Ankaraya Azərbaycan və Xəzər dənizi üzərindən Mərkəzi Asiya regionuna daha əlverişli şəkildə çıxış əldə etməyə imkan yaratmış olur ki, bu da inteqrasiya proseslərini xeyli sürətləndirmiş olacaqdır. Maraqlı məsələlərdən

biri də budur ki, Türkiyə Azərbaycan ilə Bakı-Tbilisi-Qars dəmir yolu ilə də bağlantı yaratmışdır və bunun da əhəmiyyəti mütəxəssislər tərəfindən kifayət qədər yüksək qiymətləndirilir. Bakı-Tbilisi-Qars dəmir yolu və Zəngəzur dəhlizi bir-birinə rəqib olmayıb, əksinə tamamlayıcı funksiyaya malikdirlər.

Haşiyəyə çıxaraq qeyd etmək istərdim ki, Zəngəzur dəhlizin açılması istiqamətində Azərbaycan qardaş Türkiyə ilə birlikdə 3+3 (Azərbaycan, Gürcüstan, Ermənistan +Türkiyə, İran və Rusiya) formatını təkilf etsə də Gürcüstan bundan imtina etmişdir. Gürcü ekspertlər bunu onunla əsalandırmağa çalışırlar ki, 44 günlük müharibəyə qədərki vəziyyətdə Gürcüstan Türkiyə ilə Mərkəzi Asiya və Çin arasında quru yolla daşımalarda əsas tranzit ölkə kimi iqtisadi və siyasi dvidentlər əldə etmişdir. Onun geosiyasi mövqeyi xeyli güclənmişdir. Azərbaycanın reallaşdırdığı mühüm neft-qaz kəmərləri Gürcüstan ərazisindən keşməkdədir. Zəngəzur dəhlizinin açılması isə onun bu mövqeyinə mənfi təsir edə bilər. Rəsmi Tbilisini narahat edən əsas məqamlardan biri də odur ki, 44 günlük müharibənin reallıqları Gürcüstanı Rusiyadan asılı salmaq ehtimalını artırmış olmasıdır. Gürcü ekspertlər hesab edir ki, konkret olaraq yükdaşımaların bir hissəsi Zəngəzur dəhlizinə yönələcəyindən onların gəlirləri azalmış olacaqdır. Bununla bərabər, Zəngəzur dəhlizinə də rusların nəzarət etməsi Gürcüstan üçün növbəti xoşagəlməz hal hesab edilir. Bu vaxta qədər Rusiya Cənubi Qafqazda özünün əsas müttəfiqi hesab etdiyi Ermənistan ilə yalnız Gürcüstan ərazisi-Yuxarı Lars yolu vasitəsi ilə əlaqə yarada bilirdisə Zəngəzur dəhlizinin açılmasından sonra Azərbaycan ərazisi vasitəsi ilə daha əlverişli şəkildə alternativ çıxış əldə etmiş olacaqdır ki, bu da Rusiyanın bu istiqamətdə Gürcüstandan asılılığını aradan qaldırmış olacaqdır. Burada bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır ki, Rusiya Abxaziyadan keçən dəmir yolu vasitəsi ilə də Ermənistan ilə əlaqə qurmaq imkanına malikdir. Vaxtı ilə həmin dəmir yolu ilə Ermənistana yüklər daşınırdı. Gürcüstan ilə Rusiya arasında yaşanan məlum hadisələrlə əlaqədar olaraq rəsmi Tbilisi həmin dəmir yolunu bağlamışıdır ki, bu da Gürcüstanın əlini Rusiya qarşısında bir qədər möh-

kəmləndirirdi. Zəngəzur dəhlizinin açılması isə Rusiyaya Ermənistan, İran və hətta Orta Şərqə çıxış əldə etməyə imkan vermiş olacaqdır. Bura əlavə etsək ki, İran ilə Rusiya artıq bir-neçə ildir ki, İran-Ermənistan-Gürcüstan-Rusiya nəqliyyat yolunun açılmasını istəyir və bu istiqamətdə planlı iş aparılır, onda yaxın gələcəkdə Gürcüstanın Abxaziya dəmir yolunu açmaq reallığı qarşısında qalmaq ehtimalı artmış olur. İran-Ermənistan-Gürcüstan-Rusiya dəmir və şose yolları Şimal-Cənub nəqliyyat dəhlizinin bir qolu kimi düşünülür. Əgər Gürcüstan Abxaziya dəmir yolunu açmasa Rusiya bütün vasitələrlə həmin layihənin reallaşmasına qarşı çıxacaqdır. Fikrimizcə Zəngəzur dəhlizinin açılması tranzit ölkə kimi regionda Gürcüstanı proseslərdən kənarda saxlamaq məqsdi daşımır və əslində bu praktik olaraq mümkün deyildir. Azərbaycanın reallaşdırdığı neft-qaz kəmərləri layihəsi Gürcüstan ərazisindən keçir və onlara milyardlarla dollar sərmayə qoyulmuşdur. Onun tezliklə Zəngəzur dəhlizinə transferi sadəcə mümkün görünmür. Digər tərəfdən Gürcüstan üzərindən daşımaların əsas üstünlüklərindən biri də onun Qara dənizdə Batumi və Poti kimi limanlara sahib olmasıdır. Aparılan qısa təhlildən bu qənaətə gəlinir ki, Zəngəzur dəhlizinin açılması Türkiyənin Gürcüstan üzərindən Mərkəzi Asiyaya və əks istiqamətdə daşımalara əsaslı təsir göstərməyəcəkdir.

Zəngəzur dəhlizinin açılmasına qarşı ən sərt mövqe sərgiləyən dövlət İrandır. Məsələyə sadə məntiqlə, stateji dərinliyə enmədən yanaşdıqda aydın olur ki, sözügedən dəhlizin açılması ilə İran Azərbaycan üzərində təsir vasitəsini itirəcəkdir. Bəs bu təsir vasitəsi nədir? Bildiyimiz kimi anklav ərazimiz olan Naxçıvanın enerji təminatı, xüsusi ilə də təbii qaza olan ehtiyacı İran tərəfindən ödənilir. Düzdür, bunun qarşılığında Hacıqabul-Astara kəməri vasitəsi ilə eyni həcmdə mavi yanacaq İrana qaytarılır. Bununla belə Naxçıvan bizim “zəif” yerimiz olduğundan rəsmi Tehran bundan yararlana bilər. Zəngəzur dəhlizinin açılması ilə bu asılılıq aradan qalxmış olacaqdır. Digər tərəfdən Naxçıvana quru yolla keçid də İran vasitəsi ilə həyata keçirildiyindən sözügedən dəhliz bu blokadanı xeyli qırmış olacaqdır. Eyni zamanda Mərkəzi Asiyada və Cənubi Qafqazda

nüfuz üstünlüyü əldə edilməsində rəsmi Tehran və Ankara rəqib düşərgələrdə yer almaqdadır. İran Türkiyədən və Türkiyə üzərindən gələn yüklərin Mərkəzi Asiya və Çinə çatdırılmasında özünü əlverişli tranzit ölkə hesab edir və Zəngəzur dəhlizinin açılmasını bunun ertələyəcəyini düşünür. Təsadüfi deyildir ki, İranlı ekspertlər ifadə edirlər ki, əgər Tehran Zəngəzur dəhlizin açılması reallığı qarşısında qalarsa onda, bu yalnız yerli əhəmiyyətli, yəni Azərbaycandan Naxçıvana yükdaşımaları həyata keçirməklə məhdudlaşmalıdır. Sanksiyalar fonunda kövrək iqtisadiyyata sahib olan İran dəhlizin açılması ilə regionda Türkiyəyə daha böyük ölçüdə yeniləcəyi əndişəsindədir. İran Cənubi Qafqazda Ermənistanı özünün əsas müttəfiqi hesab edir və onunla dəmir yolu əlaqəsinin yaradılmasında maraqlıdır. Dəfələrlə hər iki ölkənin yüksək çinli məmurları arasında Mehridən İrana dəmir yol xəttinin çəkilməsi müzakirə olunmuşdur. Bunu isə əngəlləyən bir neçə səbəb vardır. Əvvəla iki ölkə arasında dəmir yolunun çəkilməsini zəruri edən iqtisadi faktorlar yoxdur. Belə ki. 2018-ci ilin statistikasına görə İranın xarici ölkələrə əmtəə ixracında Ermənistanın payı 0,16%, Ermənistandan idxalı isə 0,05% təşkil etmişdir ki, bu da özlüyündə yuxarıda söylədiyimiz fikiri bir daha təsdiqləmiş olur. İkincisi isə relyef dağlıq ərazi olduğundan dəmir yolu xəttinin çəkilişini xeyli çətinləşdiri və buna müvafiq olaraq onun maliyyə tutumunu da bir neçə dəfə artırmış olur. Mütəxəssislər sözügedən dəmir yolunun çəkilməsi üçün 3,5-4 mld dollar həcmində maliyyə vəsaitinin tələb olunduğunu bildirirlər ki, bunun da sanksiyalardan əziyyət çəkən İran tərəfindən təmin edilməsi reallıqdan uzaq görünməkdədir. Münaqişədən öncə Ermənistandan Naxçıvandan keçməklə İrana dəmir yolu mövcud idi. Bütün bu məhdudiyyətlər Zəngəzur dəhlizinin açıması ilə aradan qalxmış olacaqdır və İran Ermənistan ilə dəmir yolu vasitəsi ilə bağlantı yarada bilmək imkanı əldə edə biləcəkdir. Beləliklə 44 günlük Vətən müharibəsi və onun nəticəsində meydana gələn Zəngəzur dəhlizi həm regional həm də beynəlxalq aktorlar arasında Xəzər regionunda möhkəmlənmək üçün yeni imkanlar yaratmışdır. Bu aktorlar içərisində isə Türkiyənin daha öndə olduğunu söyləyə bilərik.

# IV FƏSİL

## XƏZƏRİN HÜQUQİ STATUSU VƏ SAHİLYANI DÖVLƏTLƏRİN MÖVQEYİ

### IV.1. Xəzər dənizdir, yoxsa göl?

Xəzərin hüquqi statusunun müəyyən edilməsində əsas məsələlərdən biri də onun dəniz yaxud göl olmasının hüquqi baxımdan həll edilməsi idi ki, bu da özlüyündə problemin elmi baxımdan dərin tədqiqini tələb edirdi. Xəzəryanı dövlətlərin fəaliyyət və mülkiyyət əraziləri müəyyənləşdirilməli, bölgü strategiyası və taktikası işlənilib yaradılmalı idi. Bunun üçün ilk növbədə, bölüşdürülən obyektin mahiyyətini – yəni Xəzərin "dəniz" və ya "göl" olmasının müəyyənləşməsi vacib hesab olunurdu. Bunu aydınlaşdırmazdan öncə 1982-ci ildə BMT-nin qəbul etdiyi Beynəlxalq Dəniz Hüququ Konvensiyası əsasında bu anlayışların mahiyyətini açmağa çalışaq. Adıçəkilən Konvensiyasının 89-cu maddəsində göstərilir: Açıq dəniz-ərazi dənizindən kənarda yerləşən, hər hansı dövlətin və ya dövlətlərin suverenliyinin şamil edilmədiyi, bütün xalqların bərabərhüquqlu və ümumi istifadəsində olan dəniz sahəsidir. Açıq dənizin iki mühüm əlaməti diqqəti daha çox cəlb edirr. 1. O, heç bir dövlətin suverenliyinə tabe deyil, 2. Ərazi dənizindən kənarda yerləşir. Konvensiyanın 87-ci maddəsində açıq dənizin həm sahilyanı, həm də

dənizə çıxışı olmayan bütün dövlətlər üçün açıq olduğu göstərilir. 1982-ci il Konvensiyasının açıq dənizlərə aid müddəaları Xəzərə tətbiq edildiyi halda sahilyanı dövlətlərin hər biri 12 millik ərazi sularına, 12 millik bitişik ərazilərə, 200 millik xüsusi iqtisadi zonalara sahib olmalı idi ki, bildiyimiz kimi Xəzərin sahəsi buna imkan vermir. Göründüyü kimi, dərin təhlil aparmadan belə, Xəzərin coğrafi mövqeyi-dünya okeanınana təbii yolla çıxışının olmaması ona açıq dəniz statusunu şamil etməyə imkan vermir.

İkinci yanaşma Xəzərin qapalı dəniz olmasıdır. Qapalı dəniz konsepsiyasının müəllifi ingilis hüquqşünası və siyasi xadimi Con Seldendir. Qeyd etmək lazımdır ki, qapalı dənizin hüquqi normaları zaman keçdikcə müxtəlif dəyişikliklərə məruz qalmışdır. SSRİ-də 1970-ci illərin sonlarına qədər mövcud olan konsepsiyaya müvafiq olaraq "qapalı dəniz" anlayışı bir qayda olaraq, quruya dərin girən (daxil olan), məhdud sayda dövlətlərin sahillərini yuyan dənizlərə tətbiq edilirdi. 1982-ci ildə BMT-nin qəbul etdiyi Beynəlxalq Dəniz Hüququ Konvensiyasının IX bölümü 122-ci maddəsinə görə qapalı və ya yarımqapalı dəniz iki, yaxud daha çox dövlət tərəfindən əhatə olunan digər dənizlə, yaxud okeanla dar keçid ilə birləşən və ya tamamilə, ya da əsasən iki və ya daha çox sahilyanı dövlətin müstəsna iqtisadi zonasından və ərazi dənizindən ibarət körfəz, hövzə və ya dəniz deməkdir.

Qeyd edək ki, Xəzərin daha çox qapalı dəniz və ya sərhəd gölü olması haqqında elmi mübahisələr mövcuddur. Bilindiyi kimi, sovet dövründə imzalanılan müqavilələrdə Xəzər SSRİ-İran dənizi kimi qəbul edilirdi və bu da, özlüyündə qapalı dəniz anlamı kəsb edirdi. Xəzərin qapalı dəniz olması fikrini daha çox rus alimləri, hüquqşünasları (L.Komarovskiy, V.Ulyanitskiy, V.S.Boytsov, Q.Q.İvanov, A.L.Makovskiy və başqaları) müdafiə edirlər. Xəzər qapalı və ya yarımqapalı dəniz kimi qəbul edilmiş olarsa, onu Qara və Baltik dənizləri ilə bağlayan kanalların (Volqa-Don və Volqa-Baltik) beynəlxalq su rejiminə tabe edilməsi qaçılmaz olurdu ki, bu da rəsmi Moskva tərəfindən qəbuledilməz idi. Yeri gəlmişkən qeyd edək ki, istər sovet Rusiyası,

istərsə də müsair günümüzdə Rusiyanın həmin kanallar (Volqa-Don, Volqa-Baltik) üzərində müstəsna hüquqları vardır ki, yuxarıda qeyd etdiyimiz kimi Xəzərin qapalı və yaxud yarımqapalı dəniz olması qəbul olunardısa sahilyanı dövlətlərin adıçəkilən kanallardan tranzit kimi istifadə etmək hüququ olması ilə yanaşı, beynəlxalq su yolu rejiminin tətbiqi gərəkəcəkdir.

Məşhur İran alimi H.Moqtədari də, Xəzərin coğrafi xüsusiyyətlərini – sahəsini, uzunluq və enini, ümumilkdə sahil xətlərinin ölçüsü, dərinliyini və digər xüsusiyyətlərini qabardaraq onu qapalı dəniz hesab edir. (əslində bunların heç biri Xəzəri dəniz adlandırmağa əsas vermir).

İngilis hüquqşünas Q.İnqfild də, Xəzərin Mərkəzi Asiya və Cənubi Qafqaz arasında böyük bir məsafədə yerləşməsinə diqqət çəkərək və onun süni yolla Qara və Azov dənizləri ilə birləşdiyini qeyd edərək, onu qapalı dəniz hesab edir.

Yarımqapalı və yaxud qapalı dəniz rejimini Xəzərə tətbiqini çətinləşdirən faktorlardan biri də, Beynəlxalq Dəniz Hüququ haqqında Cenevrə Konvensiyasının bütün sahilyanı dövlətlər tərəfindən qəbul edilməməsidir. Rusiya 12 mart 1997-ci ildə, Azərbaycan isə 16 iyun 2016-cı ildə adıçəkilən konvensiyaya qoşulsa da Qazaxıstan və Türkmənistan isə hələ də sözügedən sənədi imzalamamışdır. İran isə 10 dekabr 1982-ci ildə Beynəlxalq Dəniz Hüququ Konvensiyasına qoşulmaq barədə sənədi imzalasa da parlament tərəfindən ratifikasiya olunmadığından hüquqi qüvvəyə malik deyildir.

Xəzərin qapalı dəniz hesab edilməsini zəruri edən mühüm məsələlərdən biri hərbi strategiya il bağlı idi. Xatırladaq ki, qapalı dəniz yanaşması daha çox 1930-40-cı illərdə aparıcı mövqey qazanmışdır. Bu yanaşmanın tərəfdarları su hövzələrində, dənizlərdə milli təhlükəsiz məsələləri ilə bağlılığı önə çəkirdilər. Demək olar ki, dünya dövlətləri ilə (qeyri-sosialist dövlətlər nəzərdə tutulur) əməkdaşlığa bağlı hesab edilən SSRİ-də qapalı dəniz konsepsiyası hələ dünya sosializm sisteminin qurulmasına qədərki dövrdə təhlükəsizlik baxımından olduqca vacib hesab edilirdi.

Xəzərin qapalı dəniz hesabedilməsini mümkün edən səbəblər sırasında həmin dövrdə (yəni 60-cı illərə qədər) həm Qərb ölkələrinin beynəlxalq hüquq doktrinalarında sərhəd gölü ilə bağlı fikirlərin az olması və yetərincə işlənməməsi ilə yanaşı, sosializm düşərgəsinin hüquqi ədəbiyyatında, hərbi və xarici siyasət doktrinalarında sərhəd göllərinin zəif yer alması və öyrənilməsi ilə bağlı olmuşdur.

Bəzən Xəzərin dəniz hesab edilməsini qədim dövrlərdən səyyahların onun belə adlandırılması ilə əlaqələndirməyə cəhd edirlər. Amma nə tarixi təcrübə, nə coğrafi xüsusiyyətlər hər hansı su hövzəsinin beynəlxalq hüquqda dəniz yaxud göl adlandırılmasına əsas yaratmır.

Əksər coğrafi ensiklopediyalarda da, Xəzərin dəniz və ya göl olmasına aydınlıq gətirilməmişdir. Ümumiyyətlə, hansı su hövzəsinin dəniz, hansının isə göl olmasını müəyyən edən və ümumi qəbul edilmiş hüquqi meyarlar yoxdur.

Burada okeanların təbii şəkildə Xəzərə təsirinin olub-olmaması mühüm əhəmiyyətə malikdir. Açıq dənizlərin əsas göstəricilərindən biri onların gəmiçilik üçün sərbəst və azad olmasıdır. Xəzər kimi daxili su hövzələri isə belə hüquqlardan kənarda qalmaqdadır. Misal olaraq, Aralıq dənizini Atlantik okeanına təbii yolla bağlayan Cəbəllütariq boğazını, Qara dənizi Aralıq dənizi ilə birləşdirən və onu beynəlxalq ticarət üçün mühüm bir kommunikasiya halına gətirən Bosfor boğazını göstərə bilərik. Qeyd etdiyimiz kimi, Xəzərin isə təbii yolla okeanla əlaqəsi yoxdur.

Xəzərin dəniz statusu tanınardısa BMT-nin dənizlər haqqında 1982-ci il "Cenevrə Konvensiyası"na uyğun olaraq ona daxili sular-ərazi suları, kontinental şelf və xüsusi iqtisadi zonalar tətbiqiq edilməli idi ki, Xəzərin sahəsi isə bu bölgünü həyata keçirməyə imkan vermir.

K.A.Esterhey buna işarə edərək bildirirdi ki, göl məkanı daxilində birgə suverenlik eyni anda bir neçə dövlət tərəfindən həyata keçirilə bilməz, sahilyanı dövlətlər ərazi bölgüsünə üstünlük verməlidir. Adıçəkilən müəllif hesab edirdi ki, Xəzər sahilyanı dövlətlər tərəfindən orta xətt prinsipi əsasında bölünməlidir.




*Şəkil 25. Xəzərin göl kimi qəbul edilməsi*




*Şəkil 26. Xəzərin dəniz kimi qəbul edilməsi*

Xəzərin göl olması yanaşmasında da iki fikir mövcuddur. Birinci yanaşmanı daha çox Rusiya və İran müdafiə edərək bildirirlər ki, Xəzərin dünya okeanı ilə birbaşa əlaqəsi yoxdur və göl olaraq sahilyanı dövlətlər tərəfindən ortaq şəkildə istifadə olunmalııdr. Beynəlxalq hüquqda ümumi suverenlik (ortaq ümumi istifadə) kondominium anlamını kəsb edir. Termin latın dilindən con (birlikdə) və dominium (mülkiyyət) sözlərinin birləşməsindən əmələ gələrək beynəlxalq hüquqda eyni ərazinin iki və daha çox dövlət tərəfindən ortaq şəkildə idarə edilməsi anlamını kəsb etməkdədir. Ümumi suverenliyi ehtiva edən kondominium, iki və daha çox dövlətin bir ölkə, ərazi, sututar üzərində səlahiyyətlərini ortaq formada və bərabər şəkildə həyata keçirdiyi, başqa sözlə həmin dövlətlərin heç birinin özünə aid olmadığı və müvafiq dövlətlərin bu sahədəki səlahiyyətlərindən birlikdə istifadə etdiyi bir rejimi ifadə edir.

Kondominiuma tarixdə elə də sıx-sıx rast gəlinmir. Bunun da səbəbi dövlətlər arasında bigə mülkiyyətin və əməkdaşlıq təminatının həyata keçirilməsinin çətinliyidir. Kondominiumla bağlı nümunələrə erkən orta əsrlərdən günümüzə qədər rast gəlmək mümkün-

dür. Erkən orta əsrlərdə – 688-ci ildə Bizans imperiyası ilə Ərəb xilafəti arasında razılığa görə Kipr adası üzərində kondominium əldə edilmişdir. Bu anlaşmaya görə ada ərazisindən toplanan vergilər iki imperiya (Bizans və Ərəb xilafəti) arasında bərabər şəkildə bölünməli idi. 1908-1918-ci illərdə Bosniya və Herseqovina Osmanlı və Avstriya-Macarıstan imperiyaları tərəfindən kondominium şəklində idarə olunmuşdur. 1939-cu ildən 1970-cu ilə qədər Kanton və Enderberi adaları Böyük Britaniya və ABŞ tərəfindən kondominium formasında idarə olunmuşdur. Digər belə nümunələri də göstərmək olsa da, yuxarıda qeyd etdiyimiz kimi kondominium uğurlu və çox da uzun ömürlü olmur. Tərəflər arasında gərginlik yaranan kimi kondominium idarəçiliyə dərhal mənfi təsirini göstərir və daha çox onun ləğvi ilə nəticələnmiş olur.

Qapalı su hövzəsinin kondominium şəklində idarə olunmasını isə hələ ki, yeganə olaraq, Nikaraqua, Honduras və El Salvador arasında Foneska körfəzinin timsalında görmüş oluruq. Kondominiumun təməlində ortaq mülkiyyət dayanmaqla tərəflərin ümumi razılığa gəlmələri əsasında idarəetmə və sahiblik həyata keçirilməli olsa da, Foneska körfəzinin timsalında bu sahilyanı dövlətlərin ümumi razılığı ilə yanaşı, Beynəlxalq Ədalət Məhkəməsinin qərarına söykənir. Beynəlxalq Ədalət Məhkəməsinin Foneska körfəzi ilə bağlı qərarında göstərilir ki, "Foneska körfəzi uzun müddət bir dövlətə-İspaniyaya aid olmuşdur və onun tərəfindən təkbaşına mülkiyyət sahibliyi həyata keçirilmişdir. İspaniya müstəmləkəçiliyinin sona çatması ilə əlaqədar xələf dövlətlər-Nikaraqua, Honduras və El Salvador kondominium əsasında Foneska körfəzini idarə edəcəkdir". Körfəzin 3 dəniz mili xaricindəki suları üç dövlətin ortaq mülkiyyəti olaraq qəbul edilmişdir. Beynəlxalq Ədalət Məhkəməsi bu qərarı çıxararkən onu əsas gətirmişdir ki, İspaniya idarəçiliyindən sonra xələfləri tərəfindən körfəzin ayrılıqda idarə edilməsinin bir faydası olmayacaqdır. Foneska körfəzinin kondominium əsasında idarə olunması imkanlarını Xəzərə aid etmək çətinlik yaradır və əslində mümkün deyildir. Hər şeydən öncə, Foneska körfəzi uzun müddət bir dövlətin-İspaniyanın mülkiyyətində olmuşdur. Amma, Xəzərin heç vaxt bir dövlətin yurisdiksiyasına aid olmaması həmin təcrübəni

bura şamil edilməsini mümükünsüz edirdi. Digər tərəfdən, Foneska göl deyil, tarixən təbii körfəz olmuşdur.

Bu müddəaya qarşı Azərbaycan tərəfi Xəzərin bir sərhəd gölü olduğu fikrini irəli sürür və onun milli sektorlara bölünməsinin vacibliyini bildirirdi.

XX əsrin 80-ci illərindən Sovet hüquqi ədəbiyyatında Xəzərin sərhəd gölü olması haqqında fikirlər meydana gəldi. Ayrı-ayrı sərhəd göllərinin hüquqi tənzimlənməsi ilə bağlı xeyli sayda aktlar, müqavilələr, sənədlər olsa belə, konkret olaraq bütün sərhəd gölləri üçün vahid beynəlxalq qaydalar işlənib hazırlanmamışdır. Düzdür, 1966-cı ildə Beynəxalq Hüquq Assosiasiyası tərəfindən "Sərhəd Göllərinin Ətraf Mühitinin Mühafizəsi və Gəmiçiliyə Aid Helsinki Qaydaları" qəbul edilsə də, bu qeyd olunan problemin aradan qaldırılmasında mühüm rol oynamadı. Adıçəkilən sənədlərin beynəlxalq səviyyədə qəbul edilməməsi həmin qaydaları hazırlayanların qeyri-hökümət nümayəndələrinin təmsilçiləri olması ilə əlaqədar idi. Bu istiqamətdə oxşar durumdakı nümunələr Xəzərə də şamil edilə bilər. Tərəflər delimitasiya ilə bağlı razılıq əldə edərək, hər hansı bir tənzimləməni həyata keçirməkdə sərbəst olsalar da, bir çox razılaşmalarda sərhəd göllərinə münasibətdə orta xətt (bərabər məsafə xətti) prinsipinin tətbiq edildiyi görünür. Sərhəd göllərinin bölünməsinə nümunə olaraq 1783-cü ildə ABŞ ilə Kanada arasında orta xətt prinsipi əsasında bölünən Böyük Şimali Amerika göllərini göstərmək olar. Bundan əlavə digər nümunələr də göstərmək mümkündür. Belə ki, Keniya, Tanzaliya və Uqanda arasında Viktoriya gölü, Malavi ilə Mozambik arasında Malavi gölü, Fransa ilə İsveçrə arasında Cenevrə gölü, Nigeriya, Niger, Çad və Kamerun arasında Çad gölü məhz orta xətt (median line/equidistance line) prinsipi əsasında sərhəd gölü kimi bölünmüşdür. Sahilində iki və daha çox dövlətin yer aldığı qapalı dəniz və ya gölün hüquqi statusu müəyyənləşdirilərkən orta xətt prinsipi daha ədalətli yanaşma hesab edilə bilər. Buna nümunə olaraq göstərə bilərik ki, 1920-ci ildə Konstans gölü ilə bağlı Almaniya məhkəməsi "orta xətt prinsipi"ni beynəlxalq hüququn ümumi prinsipi kimi qəbul etmişdir.

İki və daha çox dövlətin sərhəddində yerləşən göllərin ortaq suverenlik prinsipi əsasında bölüşdürülməsinin az təsadüf edilən üsulu-hər bir sahilyanı dövlətin müstəsna səlahiyyətlərini həyata keçirə biləcəyi ərazi suları sahəsinə (əsasən 12 mil uzunluğunda) malik olma və bu sahədən kənarda ümumi istifadə prinsipinin tətbiq edilməsidir.

Qərb ölkələrinin hüquqi-siyasi ədəbiyyatında da Xəzərin sərhəd gölü olması ilə bağlı xeyli fikirlər vardır. Fransız alimi Frans de Xartiq qeyd edir ki. Xəzər dənizi eləcə də Aral dənizi milli yurisdikasiyalara tabe olan böyük göllərdir. Tədqiqatçılardan V.F.Meşeran, V.S.Vereşet, S.A.Malin Xəzəri sərhəd gölü kimi xarakterizə edir. F.Pondavenin fikrincə, Xəzər dənizi sərhəd gölüdür, yəni. xüsusi beynəlxalq hüquqi statusa və rejimə malik göldür və onu sərhəd göllərinə aid etmək olar. İ.N.Tarasovanın fikrinə görə sərhəd gölü, müxtəlif dövlətlərin quru ərazisi ilə əhatə olunmuş göldür. Sərhəd (beynəlxalq) göllərinin sularından istifadə sahilyanı dövlətlərin dövlət sərhədinin müəyyən edilməsi, naviqasiya hüququ və sulardan qeyri-naviqasiya məqsədləri üçün istifadə şərtləri" ni özündə ehtiva edən beynəlxalq müqavilələr ilə tənzimlənir. Azərbaycanlı tədqiqatçılardan daha çox bu məsələ ilə bağlı hüquq elmləri doktoru R.Məmmədov tədqiqat aparmış və sərhəd gölünün tərifini vermişdir. R.Məmmədovun tərifinə görə-sərhəd gölü iki və ya daha çox dövlətlərin sahillərini əhatə edən, dünya okeanı ilə təbii birləşməsi olmayan və gölətrafı dövlətlər tərəfindən bağlanan konkret beynəlxalq müqavilədə müəyyən edilən müstəqil beynəlxalq-hüququ statusa və rejimə malik olan su sahələri hesab edilməlidir.

Məşhur azərbaycanlı Xəzərşünas alim Qasım Gül (əsl adı Ağaqasım Güləhmədov) də Xəzəri dünyanın ən böyük gölü hesab edirdi. O, bunun üçün əsas arqument kimi sahənin böyüklüyünü və suyunun duzluluğunu göstərirdi. Böyük göllərin coğrafi xüsusiyyətlərinə görə dəniz adlandırılması Nquen Nqok Minanın 1981-ci ildə Moskvada nəşr olunan «Международное морское право» adlı əsərində də yer almışdır.

Adlarını çəkdiyimiz və çəkə bilmədiyimiz mütəxəssislər hələ də Xəzərin dəniz və ya göl olması haqqında ümumi razılığa gələ

bilməmişdilər. Bunun da başlıca səbəbi beynəlxalq dəniz hüququnda "sərhəd gölü" konsepsiyasının tam işlənməməsidir. Xəzər sərhəd gölü kimi qəbul edildiyi halda, onun bölüşdürülməsi problemi meydana çıxmış olur. Yuxarıda qeyd etdiyimiz kimi sərhəd göllərinin bölünməsi ilə bağlı beynəlxalq hüquqda hansısa bir konvensiya olmadığından, bu mövcud nümunələr əsasında tənzimlənə bilər. Mövcud nümunələrə diqqət etdikdə əksər sərhəd göllərinin sektorial bölgüsü orta xətt-bərabər məsafə (uzaqlıq) prinsipi əsasında aparıldığını görürük. Kanada ilə ABŞ arasında Böyük Şimali Amerika gölləri, Fransa və İsveçrə arasında Cenevrə gölü və digərləri məhz bu prinsip əsasında bölünmüşdür. Uzun illər hüquqi statusu müzakirə olunan və siyasi polemikalara yol açan Tanqanika gölü də məhz orta xət prinsipi əsasında – 9%-i Burundi, 43%-i Konqo, 36%-i Tanzaliya və 12%-i isə Zambiyaya verilməsi şəklində bölünmüşdür.

Təbii ki, cəmiyyətin bütün sahələri ilə bağlı elm inkişaf etdikcə hüquq sahəsi də bu prosesdən kənarda qala bilməzdir. Artıq, su hövzələrinin sahəsinə görə onu, qapalı dəniz və yaxud sərhəd gölü kimi qəbul edilməsinin "vaxtı" çoxdan keçmişdir. İndi onların hər birinin hüquqi rejimi formalaşıb. Düzdür, sərhəd gölləri ilə bağlı beynəlxalq konvensiya hələ ki qəbul olunmamışdır. Bununla belə, yuxrıda qeyd etdiyimiz kimi xeyli sayda təcrübə vardır ki, məhz həmin təcrübədən yararlanmaq olar. Yeri gəlmişkən ötən əsrin ortalarında və bir qədər də əvvəl (1930-40-cı illərdə) qapalı dəniz konsepsiyasının Xəzərə şamil edilməsinin dominant mövqeyi XX əsrin sonlarına doğru aradan qalxmış və onun sərhəd gölü olması haqqında elmi mühakimələr daha da artmışdır.

Xəzərşünas alimlərin əksəriyyətinin onun göl olmasını bildirməsinə ramən, az bir qisim isə hidroloji, geofiziki və bioloji baxımdan bu sututanı dəniz hesab edir. Həmin mütəxəssislər Xəzərin duzluluq səviyyəsinin Baltik dənizinin duzluluq səviyyəsinə bərabər olduğunu bildirir və fikirlərini davam etdirərək qeyd edirlər ki, bütün dənizlərin suyu duzlu olduğu halda, bunu göllərə aid etmək olmaz və hətta suyu duzlu göllərin əksəriyyətində duzluluq səviyyəsi dənizlərlə müqayisədə xeyli aşağıdır.

Bütün bunlarla yanaşı, hüquqi status və hüquqi rejim anlayışlarının fərqləndirilməsi vacibdir. Qeyd edək ki, hətta beynəlxalq dənizçilik doktrinasında hüquqi status və hüquqi rejim anlayışları bir-birini əvəzləyən mənalarda işlədilir. Xəzərin hüquqi statusu ilə bağlı yazılmış monoqrafiyalarda və dissertasiyalrda da əksərən qeyd etdiyimiz ifadələr eyni məzmun kəsb edir. Mövcud tədqiqatlardan bu qənaətə gəlmək olur ki, dənizlərdən istifadə qaydası elə məhz onların hüquqi rejimi anlamını kəsb edir. E.G.Anyanova bildirir ki, Xəzər xüsusi statusa və rejimə malik beynəlxalq göl kimi qəbul edilməlidir. Müvafiq elmi ədəbiyyatda hüquqi status hüquqi rejimlə müqayisədə daha çox ümumi mənada işlədilir. Məsələyə daha konkret müstəvidə yanaşsaq görərik ki, adıçəkilən anlayışlar (hüquqi status və hüquqi rejim) hissə və tam kimi korrelyasiya olunur. Burada tam qismində hüquqi status, hissə anlamında isə hüquqi rejim başa düşülür. Onu da qeyd edək ki, Xəzərlə məşğul olan alimlərin əksəriyyəti onu dəniz, göl və yaxud xüsusi su hövzəsi kimi xarakterizə etdikdə daha çox hüquqi status terminindən istifadə edir. Yuxarıda da qeyd etdiyimiz kimi Xəzərin qapalı dəniz, göl və xüsusi su hövzəsi («sui generis», уникальный водоем, suigeneris) kimi qəbul edilməsinin onun hüquqi statusnun müəyyənləşdirilməsində böyük əhəmiyyəti var. Xəzərin təbii yolla dünya okeanı ilə əlaqəsinin olmaması ona dəniz statusunun verilməsini mümkünsüz edir.

A.L.Kolodkin dünya okeanının dəniz məkanlarını hüquqi baxımdan şərti olaraq üç hissəyə bölünməsini təklif etmişdir. 1. Sahilyanı dövlətlərin ərazilərinin tərkib hissəsi olan və suverenliklərinin təmin olunduğu daxili sular və yaxud ərazi suları. 2. Sahilyanı dövlətlərin ərazilənə aid olmayan, amma onun yurisdiksiyasına aid hesab olunan müstəsna iqtisadi zona və yaxud kontinental şelf. 3. Sahilyanı dövlətlərin suverenliyinə və yurisdiksiyasına aid hesab olunmayan açıq məkanlar – dənizlər. A.L.Kolodkin belə hesab edir ki, hüquqi status dəniz məkanlarının – məslən, ərazi sularının sahilyanı dövlətlərin suverenliyinə tabe olmasını və yaxud açıq məkanların heç bir sahilyanı dövlətin suverenliyinə və yurisdiksiyasına aid olmamasını müəyyən edir. "Hüquqi rejim" anlayışına gəlincə, "hüqu-

qi status"dan fərqli olaraq o, yuxarıda qeyd olunan dəniz məkanından istifadə ilə bağlı dövlətlərin hüquq və öhdəliklərinin məcmusu ilə birbaşa bağlı" məsələdir. V.N.Quçulyak da, "hüquqi status" anlayışının sahilyanı dövlətlərin suverenliyi və yurisdikasıyası ilə bağlı olduğunu bildirir. Quçulyak da, Kolodkin kimi açıq dənizlərin hüquqi baxımdan bölgüsünü aparmışdır. Lakin, Quçulyak Kolodkindən fərqli olaraq açıq dənizləri 4 məkana-ərazi suları, müstəsna iqtisadi zona, açıq dənizlər (məkanlar) və xüsusi hüquqi statusa malik dəniz məkanları (arxipelaq suları, beynəlxalq boğazlar və kanallar) na bölür. V.N.Quçulyak belə hesab edir ki, dənizlərin beynəlxalq hüquqi statusu ilk növbədə sahilyanı dövlətlərin suverenliyi və yurisdiksiyasını özündə ehtiva edir. Dəniz məkanlarının beynəlxalq hüquqi rejim isə daha çox dövlətlərarası və eəcə də dəniz hüquqi ilə bağlı digər hüquqi subyektlər arasında münasibətləri nizamlayan beynəlxalq hüquq qaydalarının məcmusunu əhatə edir. V.N.Quçulyakın fikrincə hüquqi status və hüquqi rejim terminləri yaxın anlayışlar olsa da, onları eyniləşdirmək olmaz. Adıçəkilən müəllif fikrini daha da inkişaf etdirərək hesab edir ki, daxili sular və ərazi dənizi eyni hüquqi statusa malik olsalar da, hüquqi rejim baxımından fərqlidirlər. Belə ki, daxili sulardan fərqli olaraq ərazi dənizində beynəlxalq hüquq dinc keçid (мирного прохода) hüququnu təmin edir. Yeri gəlmişkən xatırladaq ki, 1982-ci il Beynəlxalq Dəniz Hüquqi Konvensiyasında da hüquqi status və hüquqi rejim anlayışları fərqləndirilir.

Yuxarıda aparılan təhlildən bu qənaətə gəlmək mümkündür ki, istənilən sututarın dəniz kimi qəbul edilməsi 1982-ci ildə BMT-nin qəbul etdiyi Cenevrə Konvensiyasının müddəalarına əsaslanmalıdır. Sözügedən konvensiyada göstərilir ki, dünya okeanı ilə birbaşa əlaqəsi olan sututar-açıq dəniz hesab olunur. Bu əlaqə digər dəniz vasitəsi ilə reallaşırsa onda həmin sututar yarımqapalı dəniz adlanır. Əgər bu bağlantı təbii yolla dar bir keçid vasitəsi ilə mümkün olursa həmin sututar qapalı dəniz kimi qəbul edilir. 1982-ci il Beynəlxalq Dəniz Konvensiyasında çaylar və süni kanallar haqqında bəhs edilmir. Başqa sözlə o sututarın hüquqi mənsubluğunu müəyyən etmir.

Göründüyü kimi, dənizlərin təsnifatı onların fiziki-coğrafi xüsusiyyətlərinə görə müəyyən edilmişdir. Beynəlxalq dəniz hüququnun müddəalarına əsasən açıq, yarımqapalı və qapalı dəniz anlayışlarının heç birini Xəzərə şamil etmək mümkün deyildir. Xəzər öz təbii-coğrafi xüsusiyyətlərinə görə sərhəd gölüdür.

## IV.2. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Rusiyanın mövqeyi

Sovetlər Birliyinin dağılmasından sonra Rusiya post-sovet respublikalarına yenə də imperiya müstəvisindən baxaraq, onların müstəqilliyini müvəqqəti hal hesab edirdi. Yaranmış yeni müstəqil dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətlərin yeni formatda formalaşmasında daha çox təzyiq və güc nümayiş etdirilirdi. Bu mövqe digər sahələrdə olduğu kimi Xəzərin hüquqi statusu məsələsində də özünü aşkar büruzə verirdi. Aparılmış tədqiqatlardan aydın olur ki, Xəzərin hüquqi statusu daha çox Azərbaycanın Qərb neft şirkətləri ilə sözügedən sututarın Azərbaycan sektorunda (1970-ci il bölgüsünə əsasən) neftin hasilatı və ixracı ilə bağlı danışıqların intensivləşməsi və real müstəviyə keçməsi ilə siyasi aktuallıq kəsb etməyə başlamışdır. Rusiya hakim dairələri Azərbaycanın Qərb neft şirkətləri ilə Xəzərin karbohidrogen ehtiyatlarının birgə işlənməsinə dair müqavilələr bağlan-masını qəbul etmir, bunun hüquqa zidd olduğunu bildirir və əzələ nümayişilndən belə çəkinmirdi. Hər şeydən öncə Azərbaycan neft müqavilələrinin bağlanmasına nail olardısa Moskvanın orbitindən xeyli uzaqlaşmış olacaqdı. Digər tərəfdən Rusiya Avropanın-xüsusilə vaxtilə kommunist rejimlərinin mövcud olduğu Mərkəzi və Şərqi Avropa ölkələrinin (daha sonra isə bütövlükdə Avropanın) eneji təhcizatında mühüm rol oynayıdı və bu üstünlüyündən təzyiq vasitəsi kimi yararla-naraq itirilmiş siyasi nüfuzunu müəyyən qədər də olsa qorumağa çalışmaqda idi. Qonşuluqda Azərbaycan kimi yeni enerji təhcizatçısının yaranmasına hər vəchlə mane olmağa çalışırdı.

Neft hasilatı ilə yanaşı onun nəqli də yeni geo-iqtisadi reallıqlar baxımından mühüm əhəmiyyət kəsb edirdi ki, rəsmi Moskva da bu aspektdə əsas tranzit ölkə olmaqla əslində regionun yenə də açar dövləti statusunda qalmağa çalışırdı. Digər tərəfdən, tarixi-siyasi ədəbiyyatda SSRİ-nin dağılması ilə soyuq müharibə bitdi deyilsə də, nəhəng Rusiya imperiyasının gələcəyi Qərbin siyası sferalarında müzakirə olunmaqda idi. Rusiyanın tərkibində olan federasiyalardan xüsusilə Çeçenistan və Tataristandan müstəqillik səsləri eşidilməkdə idi. Belə bir vaxtda Rusiya Qərb kapitalının sərhədlərinin bir addımlığında böyük layihələr reallaşdırmasını özü üçün təhlükə hesab edirdi.

Mütəxəssislərin fikirlərinə görə Rusiyanın Xəzərin statusu ilə bağlı mövqeyini şərti olaraq 3 dövrə bölmək olar. Birinci mərhələ 1992-1995-ci illəri əhatə edir. Bu mərhələdə Rusiya yenicə dağılmış SSRİ-nin varisi kimi yenə də əsas güc və Xəzərdə aparıcı söz sahibi olduğunu "əzələ nümayişi" ilə, daha çox hərbi ritorikadan tez-tez istifadə etməklə göstərirdi. Xatırladaq ki, bu vaxt Azərbaycan Qərb neft şirkətləri ilə Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqları üzrə aktiv danışıqlar aparır və "Əsrin müqaviləsi"ni imzalayır.

İkinci mərhələ 1995-1999-ci illəri əhatə edir və mütəxəssislər tərəfindən bu dövr "praqmatik dövr" kimi xarakterizə edilir.

V.Putinin 2000-ci ildə hakimiyyətə gəlməsi ilə üçüncü mərhələ başlamış olur. Rusiyanın statusla bağlı ilkin yanaşması RSFSR və İran arasında imzalanmış 1921-ci il, sonra isə SSRİ ilə İran arasında bağlanmış 1940-cı il müqavilələrinə əsaslanaraq 10 və yaxud 20 mil məsafədə sahil sularından kənarda Xəzərin həm şelf zonasının, həm də səthinin ortaq istifadə olunmasını nəzərdə tuturdu. Bu yanaşmaya ən çox reaksiya göstərən Azərbaycan tərəfi oldu. Çünki, belə təqdirdə Azərbaycanın perespektivli yataqları onun yurisdiksiyasından kənarda qalmış olardı. Rəsmi Moskvanın bu yanaşması 1993-cü ildən səslənməyə başlamışdır. Həmçinin Rusiya 1992-ci ildən 1996-cı ilə qədər Xəzərin qapalı su hövzəsi olmasının qəbul olunmasına çalışırdı. Burada da əsas məqsəd Xəzəryanı dövlətləri Rusiyanın hərbi-siyasi nüfuz dairəsində saxlamaq, bu regionda Moskvaya rə-

qabət və təhlükə yaradacaq hansısa qüvvələrin formalaşmasına imkan verməmək idi.

Rusiyanın ilk vaxtlarda statusla bağlı sərgilədiyi mövqe İranın yanaşması ilə yaxınlıq təşkil edirdi ki, bunu da mümkün edən amillər içərisində regionu əvvəlki kimi öz nüfüz dairələrində saxlamaq, karbohidrogen ehtiyatlarının hasilatı və nəqlinin reallaşmasında əsas aktor olmalarını təmin etmək, Qərb kapitalının Xəzərə ayaq açmasının dövlət təhlükəsizlikləri baxımından zərərli olması və s. məsələlər yer almaqda idi. Rəsmi Moskva belə hesab edirdi ki, status müəyyənləşərkən 1921 və 1940-cı illərdə bağlanmış müqavilələrə istinad etmək lazımdır.

Qeyd edək ki, 1921-ci il 26 fevralda Rusiya ilə İran arasında bağlanmış müqaviləyə görə hər iki ölkə öz su ərazisində (sektorunda) hüquq bərabərliyinə malik idi. Həmçinin sözügüdən müqavilədə Xəzərin də hüquqi mənsubluğuna aydınlıq gətirilmişdir. Həmin müqaviləyə görə Xəzər dənizində yalnız bu müqaviləni bağlayan dövlətlər gəmi saxlaya, sərbəst üzə və balıqçılıqla məşğul ola bilərdi. Başqa sözlə Sovet Rusiyası və İran bu müqavilə ilə hər hansı bir xarici dövlətin gəmilərini Xəzər dənizinə buraxmamaq haqqında qarşılıqlı öhdəlik götürürdü. Müqavilənin III maddəsinə görə 1881-ci ildə müəyyən edilmiş Astara-Həsənqulu xətti tərəflər arasında su sərhəddi kimi qəbul edilirdi. XI maddəyə görə isə Türkmənçay müqaviləsinə əsasən Xəzərdə donanma saxlamaq hüququnu itirmiş Qacarlar dövləti bu hüququ bərpa edirdi. Xəzərin hüquqi statusu ilə bağlı 1921-ci ili Rusiya-İran müqaviləsi SSRİ yaradıldıqdan sonra da 1931-ci ilə qədər öz hüquqi qüvvəsini olduğu kimi saxlamış və müvafiq olaraq SSRİ-İran razılaşması kimi fəaliyyət göstərmişdir.

Xəzərdən istifadə, dənizə daxilolma, ticarət və gəmiçilik haqqında növbəti SSRİ-İran müqaviləsi 27 oktyabr 1931-ci ildə bağlandı. Xəzərin üçüncü ölkələr üçün bağlı olması sözügedən tərəflər arasında bağlanmış 1935-ci il müqaviləsinin 14 və 16-cı bəndində aydın şəkildə müəyyən edilmişdir. Orada deyilir: "Bütün Xəzər dənizi boyunca yalnız SSRİ və İrana və eynilə razılığa gələn tərəflərdən birinin vətəndaşları və ticarət-nəqliyyat təşkilatlarına

məxsus olan və müvafiq olaraq SSRİ və İran bayrağı altında üzən gəmilər yerləşə bilər”. Onlar gəmilərdə heyət qismində yalnız onların dövlətlərinə aid şəxslərin olması haqqında bərabərhüquqlu şəkildə razılığa gəldilər. İran hətta SSRİ-nin Pəhləvi (Ənzəli) limanının idarə heyətinin tərkibində İran vətəndaşı olmayan xidmətçi-lərin, işçilərin və podratçıların olmaması xahişini də yerinə yetirdi. Bu şərtlər daxilində növbəti müqavilə 1940-cı il 25 martda bağlandı. Müqaviləyə görə Xəzərin 86%-i SSRİ-nin, 14%-i isə İranın payına düşürdü. Adıçəkilən sənəddə hər iki ölkənin 1921-ci il 16 fevralda imzaladıqları müqavilə şərtləri bir daha təsdiq olunmuş və Xəzərin hər iki tərəf üçün müstəsna dərəcədə əhəmiyyəti vurğulamışdır. Həmçinin, bu müqavilə əsasında beynəlxalq hüquq normalarına uyğun olaraq Xəzərdə azad gəmiçilik və sərbəst ticarət əlaqələri müəyyən edilmişdir.

1964-cü ildə İran və SSRİ arasında hava sərhədləri haqqında müqavilə imzalanmışdır. Bu müqavilədə Xəzərin hava sahəsi ilə bağlı maddə yer almasa da burada iki ölkənin ərazi(quru) sularının uc nöqtələrindən (Astara-Azərbaycan, Həsənqulu (Esen-Gül)-Türkmənistan) düz bir çizgi çəkilərək Xəzər üçün uçuş bilgi bölgəsi xətti müəyyən edilmişdir. Astara-Həsənqulu hava uçuş xətti Xəzərin bölünməsi anlamına gəlməsə də, həmin dönəmdə hər iki dövlətin (SSRİ və İran) Xəzərlə bağlı sərhəd məsələsində dolayı da olsa bir razılaşma kimi qiymətləndirilə bilər. Amma bu qeyd olunan müqavilələr Xəzəri Rusiya-İran dənizi hesab etməyə əsas vermir. Belə ki, SSRİ 1949-cu ildə Xəzərdə neft ehtiyatlarının işlənməsinə başlayarkən İranı rəsmi şəkildə xəbərdar etməmişdir və rəsmi Tehran da buna hansısa formada etiraz etməmişdir. 1970-ci ildə SSRİ yurisdikiyasında olan hissədə sektorial bölgü apardıqda İran buna seyrici yanaşmışdır. 1991-ci ildə SSRİ-nin dağılması ilə Xəzərin hüquqi statusu yeni məzmun kəsb etməyə başladı. 1992-ci ildə Rusiyanın Neft Sənaye Nazirliyi Xəzərdəki karbohidrogen ehtiyatlarının sahilyanı dövlətlər arasında bölünməsi haqqında bir direktiv yayımladı və burada 1970-ci il sektorial bölgüsü əsas götürülmüşdü. Bundan əlavə 26 fevral 1993-cü ildə Rusiyanın Enerji Nazirliyi ilə Azərbaycan hökuməti arasında neft və qaz

sahəsində araşdıma və əməkdaşlıq haqqında hökümətlərarası saziş imzalanmışdır. Sazişdə Rusiya 1970-ci il sektorial bölgüsü əsasında Azərbaycanın öz su sahəsində mineral ehtiyatlardan tam sərbəst şəkildə faydalanmasına razılığını bildirmişdir.

Geosiyasi anlamda NATO-nun Şərqə doğru genişlənməsi və Qərbin təzyiqləri fonunda daha sıx əməkdaşlığa can atan Moskva və Tehran məhz Xəzər vasitəsi ilə birbaşa əlaqə qura bilərdi. Qeyd edək ki, adıçəkilən bu dövlətlərin Xəzərdən kənarda birbaşa əlaqə imkanı yoxdur. Rusiya üçün Xəzərin nə göl nə də dəniz statusunda olması sərfəli görünmürdü. Xəzər göl hesab edildiyi təqdirdə milli sektorlara bölünməli idi. Əgər Xəzər qapalı dəniz hesab edilərdisə, onda BMT-nin 1982-ci il Beynəlxalq Dəniz Hüququ Konvensiyasının qapalı dənizlər haqqındakı maddələri Xəzərə şamil edilməli idi. Belə olduqda, Xəzəri dünya okeanı ilə bağlayan süni yaradılmış Volqa-Don və Volqa-Baltik kanallarının istismarı beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq sahilyanı dövlətlərin də Rusiya ilə eyni – bərabər hüquqda haqqı kimi tanınacaqdır. Bunu isə Rusiya özünün dövlət təhlükəsizliyi baxımından məqbul hesab etmirdi. Nə beynəlxalq hüquq, nə də tarixi təcrübə Rusiyanın statusla bağlı maraqlarını təmin etməyə yetmədiyindən rəsmi Moskva elə bir "əlahiddə status" istəyirdi ki, onun maraqları ödənilsin. Buradan aydın olur ki, Rusiyanı Xəzərin dəniz və ya göl olmasından daha çox onun təhlükəsizliyinin və mənafeyinin nə dərəcədə və hansı formada təmin olunması maraqlandırırdı. Fikrimizi təsdiq etmək üçün qeyd edək ki, 1993-cü il oktyabrın 14-də Xəzəryanı dövlətlərin Həştərxanda keçirilən konfransında Rusiyanın həmin dönəm Baş naziri olan V.Çernomırdin qeyd edirdi: nə fərqi var, Xəzər dənizdir, yoxsa göl? Rusiyanın siyasi elitasında kifayət qədər nüfuz və səlahiyyət sahibi olan bu şəxsin səsləndirdiyi fikir əslində Rusiyanın problemə yanaşmasının bariz nümunəsi idi. Təəssüf doğurucu haldır ki, belə bir nüfuzlu şəxs mübahisə doğuran obyektin mahiyyətinin nə olduğuna varmadan, köhnə imperiya yanaşması ilə məsələni həll etməyə çalışırdı. Rusiya üçün Xəzərin statusu məsələsi və burada öz hegomoniyasını saxlamaq xüsusi əhəmiyyət kəsb edirdi. Hətta status

məsələsində Azərbaycan Rusiyanın mövqeyini müdafiə edərdisə, bunun müqabilində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Rusiya Ermənistana təzyiq göstərməyə hazır olduğunu bildirirdi. Belə ki, Rusiyanın o zamanki Yanacaq və Energetika naziri Y.Şafrannik "Moskva ilə Bakı arasında sazişin imzalanması Qarabağ probleminin həllinə öz təsirini göstərəcək" ifadəsi yuxarıda söylədiyimiz fikrə bir az da aydınlıq gətirmiş olur. Burada diqqətiçəkən məqam odur ki, rusiyalı nazir Xəzərin bu ölkə üçün nə dərəcədə əhəmiyyətli olduğunu dolayısı ilə nümayiş etdirirdi. Digər tərəfdən, Qarabağ probleminin həllinə kömək ediləcəyini vəd etməklə əslində münaqişənin kimin tərəfindən yaradıldığını və idarə olunmağa çalışıldığını dolayısı ilə etiraf etmiş olurdu. Şimal qonşumuz Xəzərin unikal qapalı su hövzəsi olduğunu bildirməklə onun bərabər şəkildə istifadə olunmasının vacibliyini əsaslandırmağa çalışırdı. Bunun üçün əvvəlcə 12 mil, daha sonra isə "güzəştə" gedərək (1996-cı ildə) 45 mil ərazi suları xaricində qalan su hövzəsinin şelfi və səthinin bərabər şəkildə sahilyanı dövlətlər tərəfindən razılaşdırılmış formada istifadəsinin mümkünlüyünü bildirirdi. Qeyd edək ki, 12 mil ərazi sularından kənarda Xəzərin bərabər şəkildə istifadəsi fikri 1993-cü ildən Rusiya tərəfindən qəti şəkildə müdafiə olunmağa başlamışdır. Bir az da qa-bağa gedərək Rusiya rəsmiləri bildirirdilər ki, 12 mil sahil sularından kənarda qalan hissədəki mineral və bioloji resurslar sahilyanı dövlətlərin ərazi böyüklüyü və əhali sayına uyğun olaraq istifadə olunmalıdır. Belə vəziyyətdə isə Xəzərdə çox zəngin neft-qaz yataqlarına malik Azərbaycan bu yataqların böyük hissəsini itirmiş olardı.

12 mil ərazi sularından kənardakı sahə bərabər və razılaşdırılmış formada istifadə olunmalı idi ki, bu da daha çox Rusiya və İranın maraqlarına cavab verirdi. Belə ki, bu əsasda Xəzərdə elə bir böyük neft-qaz yataqlarına malik olmayan Rusiya və İran Qazaxıstan, Türkmənistan və Azərbaycanın malik olduqları yataqlardan yararlana biləcəkdir. Digər tərəfdən belə bölgü əsasında Xəzərdə əsas söz sahibi Rusiya və İran olacaqdır ki, bunların da hər ikisi Qərb kapitalı və transmilli şirkətlərinin Xəzərə gəlməsini öz təhlükəsizliklə-

ri üçün təhdid hesab edirdilər. Təsadüfü deyildir ki, bu "təhlükəni" qabaqlamaq üçün 1994-cü ildə keçirilən görüşdə Rusiya və İran Xəzərdə sərhədlərinin müəyyənləşdirilməsi məsələlərini müzakirə etmişdilər. Halbuki, sektorial bölgü şəraitində Rusiyanın İranla Xəzərdə sərhəddinin olması mümkünsüzdür. Sektorial bölgü şəraitində yalnız Azərbaycanın bütün sahilyanı dövlətlər ilə birbaşa sərhəddinin olması mümkün idi.

1994-cü il sentyabrın 20-də Azərbaycanın özünəməxsus "Azəri", Çıraq" və "Günəşli" yataqlarının xarici neft şirkətləri ilə hasilatın pay bölgüsü əsasında birgə işlənməsi haqqında imzaladığı "Əsrin müqaviləsi" Rusiya tərəfindən kəskin etirazla qarşılandı. Rusiyannın həmin vaxt BMT-də daimi nümayəndəsi olan S. Lavrov (Hazırda Rusiyanin Xarici İşlər naziri) Baş Katib Butros-Butros Qaliyə Azərbaycanın atdığı bu addımdan şikyət edərək A/49/475 nömrəli məktub ünvanladı. BMT-nin rəsmi sənədi kimi yayımlanan məktubda həmçinin, Rusiyanın Xəzərin hüquqi statusu ilə bağlı yanaşması da öz əksini tapmışdır. Rusiya adıçəkilən məktubda bir daha vurğulayırdı, ki, Xəzər dünya okeanına birbaşa çıxışı olmayan daxili su hövzəsi kimi sahilyanı dövlətlər arasında birgə istifadə olunmalıdır. Sahilyanı dövlətlərin təklikdə Xəzərin resurslarından istifadə haqqında qərar verməsi, xarici şirkətlərlə müqavilələr bağlaması qəbuledilməzdir. Maraqlıdır ki, Rusiya bir tərəfdən Azərbaycanın imzaladığı müqavilələrlə bağlı BMT-yə şikayət edir, digər tərəfdən isə özü həmin müqavilələrdə iştirak edirdi.

10 iyun 1996-cı ildə Xəzərin hüquqi rejiminin müəyyənləşməsi prosesində rəsmi Moskvanın mövqeyini inkişaf etdirmək və əlaqələndirmək, eləcə də Xəzərin bioloji ehtiyatlarından istifadə, ekoloji problemlərinin həllinə kompleks yanaşmanı işləyib hazırlamaq məqsədi ilə Rusiya Xarici İşlər Nazirliyinin tərkibində 4020 saylı əmr ilə İdarələrarası İşçi Qrupu yaradıldı. Yeri gəlmişkən qeyd edək ki, buna oxşar strukturlar digər sahilyanı dövlətlərdə də yaradılmışdır.

Rusiya Xəzərin hüquqi statusunun müəyyənləşməsi prosesində Azərbaycan və Qazaxıstanın sektorial bölgünün aparılmasında israr etməsini 1970-ci il sektorial bölgüsünə görə onlara məxsus

ərazidə zəngin neft-qaz ehtiyatlarının olması ilə əlaqələndirirdi. Moskvanın siyasi elitasında hesab edirdilər ki, Azərbaycan və Qazaxıstan üçün Xəzərin karbohidrogen resursları tək iqtisadi mahiyyətli olmayıb, ölkə daxilində siyasi sabitliyin də qorunmasının qarantı hesab edilə bilər. Müstəqillikərini elan etdikdən sonra Azərbaycan və Qazaxıstan Xəzərin zəngin neft-qaz yataqlarının sərhədlərinin müəyyənləşdirilməsi prosedurunu gündəmə gətirmişdilər. Rusiya və İran isə Xəzərin özlərinə aid sektorlarındakı karbohidrogen resurslarına dövlət büdcəsinə böyük mənfəət gətirəcək çoxsaylı mənbələrdən biri kimi baxırdı.

Azərbaycan və Qazaxıstan tərəfindən tez-tez səsləndirilən 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən həyata keçirilən sektorial bölgü Rusiya tərəfindən qondarma bir bölgü hesab edilir və idarədaxili ehtiyaclar üçün belə bir addımın atıldığı bildirilirdi. 1970-ci il sektorial bölgüsünün sırf inzibati xaraker daşıdığı və sərhədlərin kordinatlarının müəyyən olunmadığı bildirilirdi. Rusiya rəsmilərinin yanaşmasına görə Neft və Sənaye Nazirliyinin idarəçiliyində olan yataqların məsuliyyət zonalarını müəyyənləşdirmək məqsədi ilə həyata keçirilən bu bölgünü Xəzərin dibinin sərhədləri kimi sayılması qəbul edilməzdir. Rəsmi Moskva və Tehran yekun hüquqi status müəyyən olunana qədər Xəzərdən kondominium əsasında istifadəni məqbul sayırdılar.

Rusiya Xəzərin dibinin və su səthinin bölgüsünün fərqli üsullarla həyata keçirilməsini istəyirdi. Rusiyanın siyasi və akademik elitasında etiraf edirdilər ki, Azərbaycanın milli sektorlara bölgü təklifi rəsmi Moskvanın maraqlarına cavab vermir və belə olduğu təqdirdə Xəzərin təkindən istifadə zonalarının demarkasiya xətləri dövlət sərhədləri ilə üst-üstə düşməli olacaqdır ki, bu da Rusiyanın ticarət və hərbi gəmilərinin Xəzərin cənubuna keçid imkanlarını məhdudlaşdıracaqdır. Rusiya gəmiləri məhdud və dayaz, gəmiçilik üçün o qədər də əlverişli olmayan şimal hissə ilə kifayətlənməli idi.

Rusiya 1996-cı ilin noyabrında yeni bir təkliflə çıxış etdi. Belə ki, əvvəlki 12 millik ərazi sularının əvəzinə 45 millik sahil ərazisi təklif olunurdu və bu sahədə sahilyanı hər bir dövlət müstəsna

hüquqlara malik olmalı idi. Xatırladaq ki, Azərbaycanın perspektivli yataqları – "Azəri", "Çıraq" və "Günəşli" yenə də bu bölgüyə görə onun yurisdiksiyasından kənarda qalmış olurdu. Rəsmi Bakı bu təklifə qəti etirazını bildirdi.

Ümumilikdə 1995-ci ildən Rusiyanın mövqeyində praqmatikliyə doğru dəyişikliklər görünməkdə idi. Rusiya rəsmiləri Qərb şirkətlərinin Xəzərə gəlişinin qarşısının alınmasının praktik olaraq mümkünsüzlüyünü anlayıb öz şirkətlərinin təşkil olunan konsorsiumlarda pay almasına çalışırdı. Xəzərin Rusiya sahəsində nisbətən zəngin "Xvalinskaya" yatağının tapılması da, Moskvanın sektorial bölgüyə tərəfdar çıxmasına müəyyən impluslar vermiş oldu. Rusiyanın Xəzərin statusunun müəyyənləşməsində izlədiyi siyasətin əsas istiqamətlərindən biri də sahilyanı dövlətlərdən başqa digər aktorların (xüsusilə ABŞ və Avropa Birliyinin) problemin həllinə hansısa bir formada qarışmasına, müdaxiləsinə yol verməmək idi. Xarici qüvvələrin problemə müdaxiləsi Rusiya ilə yanaşı İranın da yanaşmasında qırmızı xətlə keçmişdir. Sektorial bölgü təqdirində Rusiya Qazaxıstan və Azərbaycan ilə sərhədlərini müəyyənləşdirməli idi. Tərəflər arasında konsensus olmadığı əsas məsələ Xəzərin dibinin sektorlara bölünməsi idi. Azərbaycan, Qazaxıstan və Rusiya 1958-ci ildə qəbul edilmiş Cenevrə Bəyannaməsinin 6-cı maddəsinə uyğun olaraq, dənizin "orta xətt" variantı ilə bölünməsini vacib sayırdı. Ölü dəniz, Botnik körfəzi ilə Baltik dənizi, Amerikanın Böyük gölləri və digərlərində məhz bu variantdan istifadə olunmuşdur. Xəzərdəki analoji bölünmə hər bir ölkənin sahil xəttinə uyğun aparılmalı idi ki, onun da uzunluğu: Azərbaycanda 955 km, Qazaxıstanda 2020 km, İranda 724 km, Rusiyada 695 km, Türkmənistanda isə 1200 km təşkil edirdi. İlkin olaraq Rusiya Qazaxıstan ilə apardığı danışıqlarda Xəzərin şimalındakı milli sektorların kəsişdiyi nöqtələrin tapılmasında razılıq əldə etdi.

Hüquqi statusun işlənib hazırlanması istiqamətində mühüm bir addım 1996-cı ilin noyabrında sahilyanı dövlətlərin Xarici İşlər nazirlərinin müavinlərindən ibarət Xüsusi İşçi Qrupunun yaradılması oldu ki, bu qurum alt komissiya səviyyəsində mütəmadi olaraq

görüşlər keçirir və tərəflərin mövqeylərinin yaxınlaşması istiqamətində çalışmışdır. 6 iyul 1998-ci ildə Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında dəniz dibinin təkinin istifadəsinə suveren hüquqların həyata keçirilməsi məqsədilə Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi haqqında saziş bağlandı. Sözügedən müqavilədə bir çox mühüm məslələr razılaşdırıldı. Tərəflər orta xətt prinsipi əsasında dənizin dibinin bölüşdürülməsi, sərhədə yaxın ərazilərdə yerləşən yataqların birgə işlənməsi, ekoloji problemlərin həlli istiqamətində ortaq fəaliyyət, su səthinin ümumi istifadədə saxlanılması, bölünmüş dəniz dibində hər iki tərəfin tam suveren hüquqlara malik olması və digər məslələr üzrə razılıq əldə etmişdir.

Rusiyanın İran ilə birgə müdafiə etdiyi kondominium ptinsipindən əl çəkib sektorial bölgüyə razılıq verməsini mümkün edən səbəblər sırasında ilk növbədə Qazaxıstan və Türkmənistanın Azərbaycan ilə birlikdə Rusiyadan yan keçməklə eneji ixrac layihələrinin reallaşdırılması istiqamətində aparılan danışıqlar idi. Rusiya çalışırdı ki, Xəzərin karbohidrogen resursları yalnız onun ərazisindən və Rusiyaya məxsus kəmərlər vasitəsi ilə nəql olunsun. Belə vəziyyət Rusiyanın Avropa enrji bazarında inhisarçı mövqeyini daha da gücləndirmiş olardı.

Adıçəkilən müqavilənin bağlanması göstərdi ki, çoxtərəfli formatda danışıqlar nəticə vermədikcə, ikitərəfli danışıqlar intensivləşir və real nəticələr əldə edilməklə həm də yekun sazişin bağlanması üçün bir növ baza yaratmış olurdu. Sözügedən sənəd soyuq müharibənin bitməsindən sonra Xəzərin tam olmasa da müəyyən hissəsində bölünmə ilə bağlı ilk rəsmi müqavilə idi. Qazaxıstanın Rusiya ilə əldə etdiyi razılıq ilə həmçinin, Xəzərin enerji ehtiyatlarına və onların çıxarılmasına daha çox İran tərəfindən müdafiə olunan ortaq mülkiyyət yanaşmasının da aradan qalxması istiqamətində mühüm addım atılmış oldu. Rusiya-Qazaxıstan anlaşması Rusiya-İran "ittifaqı"nda çatların yaranmasına şərait yaratdı. Hətta, rəsmi Tehran bu anlaşma ilə əlaqədar BMT-yə müraciət etdi. Bu müqavilə həm də, sonradan Rusiya ilə Azərbaycan arasında təxminən eyni məzmunda 2002-ci ildə sazişin bağlanması üçün bir növ president rolunu oynadı. 1998-ci

il müqaviləsindən sonra Qazaxıstan Rusiya ilə danışıqları intensivləşdirərək digər mühüm məsələlərin həllində də razılığa gələ bildilər. 2000-ci il fevralın 9-da tərəflər arasında imzalanmış deklorasiyaya görə Xəzərin dibinin sektorlara bölünməsini, su səthinin isə ortaq istifadəsini bir daha qəbul etdiklərini təsdiqləməklə yanaşı, sərhəd xəttində yerləşən yataqların istismarı haqqında da razılıq əldə etdilər. Qeyd edək ki, "Xvolins", "Kuzmanqar", "Çentrolnoye" (Mərkəz) kimi neft yataqları Qazaxıstan ilə Rusiya sərhəddində yerləşdiyindən mübahisə doğururdu. Əldə olunmuş razılığa görə "Xvolins" və "Mərkəz" neft yataqları Rusiyanın, daha zəngin yataq hesab edilən "Kuzmanqar" isə Qazaxıstanın yurisdiksiyasında qaldı.

V.Putin hakimiyyətə gəldikdən sonra Rusiyanın Xəzərlə bağlı siyasəti mücərrədlikdən daha aydın və praqmatikliyə doğru dəyişməyə başladı. Təsadüfi deyildir ki, 2000-ci ildə Rusiya prezidentinin Xəzər məsələləri ilə məşğul olan xüsusi nümayəndəsi vəzifəsi təsis edilmişdir. Rusiyanın Xəzərdə sərhəddi olan ikinci dövlət Azərbaycan idi ki, onunla da razılığın əldə edilməsi geoiqtisadi və geosiyasi baxımdan əhəmiyyətli idi. RF-nin prezidenti V.Putinin 2001-ci il yanvarın 9-da Azərbaycana rəsmi səfəri zamanı imzalanmış "Bakı bəyannaməs"i bu baxımdan olduqca vacib sənəddir və bu həm də Rusiya tərəfindən yeni yanaşmanın başlanğıcı hesab oluna bilər. Bəyannamədə tərəflər Xəzərin dibinin bölüşdürülməsi, su səthinin isə ümumi istifadədə qalması haqqında eyni fikirdə olduqlarını rəsmən bildirdi. Adıçəkilən sənəddə həmçinin göstərilirdi ki, Azərbaycan və Rusiya razılığa gəlirdilər ki, bölgü nəticəsində sahilyanı dövlətlərdən hər birinin öz sektorunda mineral ehtiyatlar və dənizin dibində digər hüquqa uyğun təsərrüfat-iqtisadi fəaliyyət barəsində müstəsna hüquqları tanınacaqdır. 2001-ci ildə Rusiya, Qazaxıstan və Azərbaycan arasında əldə olunmuş razılığa görə müstəsna iqtisadi bölgənin genişliyi sahil dövlətlərinin paralel və bərabər uzaqlıqda olan orta bir xəttin müəyyən edilməsi ilə həll olunurdu. Müstəsna iqtisadi bölgələrin uzunluğu isə Xəzərin milli sektorlara bölünməsi sürətilə dövlətlərin sahil xətlərinin uzunluğuna mütənasib olaraq müəyyənləşdirilirdi. Bundan sonra Xəzərin şimal hissə-

sində – Rusiya, Qazaxıstan və Azərbaycan arasında hüquqi status məsələsində prinsip etibarı ilə elə bir ciddi fikir ayrılığı qalmamışdı. Buna görə də, tərəflər mövqe yaxınlıqlarını rəsmiləşdirmək haqqında qərar verdilər. 2002-ci il 23-24 sentyabr tarixlərində Prezident H.Əliyevin Moskvaya rəsmi səfəri çərçivəsində həmkarı V.Putinlə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzərin şelfinin həmhüdud sahələrinin bölünməsi haqqında" müqavilə bağlandı. Bunun ardınca 2003-cü il mayın 14-də Astanada Qazaxıstan, Rusiya və Azərbaycan arasında Xəzərin dib hissəsinin orta xətt prinsipinə əsaslanaraq, milli sektorlara bölünməsi, su səthinin isə ümumi istifadədə qalması haqqında üçtərəfli saziş imzalandı. Adıçəkilən müqaviənin imzalanması ilə praktik olaraq Moskva, Astana və Bakı arasında hüquqi status ilə bağlı ciddi fikir ayrılığının olmaması hüquqi baxımdan təsbit olundu.

Rusiyanın Xəzərlə bağlı siyasətinin ümumilikdə rəsmi Moskvanın xarici siyasətinin ptioritet istiqamətlərini müəyyən edən Xarici Siyasət Konsepsiyası çərçivəsində təhlil edilməsi daha məntiqəuyğun hesab edilməlidir. Yeri gəlmişkən qeyd edək ki, qəbul edilmiş beş xarici siyasət konsepsiyasının əksəriyyətində Xəzərin yeri və rolu aydın şəkildə göstərilmişdir.

Rusiya Federasiyası xarici siyasətinin ilk konseptual əsasları 1993-cü ildə hazırlanmışdır ki, burada da dövlət sərhəddi boyunca sabitliyin qorunması ilə yanaşı, qonşu dövlətlərlə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı etimad mühitinin formalaşdırılmasının vacibliyi qeyd edilirdi. Sözügedən sənəddə Xəzər regionu birbaşa göstərilmirdi və rusiyalı politoloqlar bunu daha çox sənədin qlobal tendensiyaları özündə əks etdirən proqram məzmunu ilə əlaqələndirirdilər. Hər halda Rusiyanın SSRİ-nin varisi olduğu sənəddə öz əksini tapmışdır.

2000-ci ildə Rusiyanın yeni Xarici Siyasət Konsepsiyası qəbul edildi. Qeyd olunan sənəddə Xəzərlə bağlı göstərilirdi ki, sahilyanı dövlətlərin maraqlarına cavab verən hüquqi statusun müəyyənləşməsi istiqamətində və eləcə də su hövzəsinin təbii ehyiyatlarından birgə səmərəli istifadənin həyata keçirilməsi istiqamətində siyasət aparılacaqdır.

Göründüyü kimi, Rusiya Xəzərin özünə aid sektorunda deyil, bütünlükdə sututarın şelf hissəindəki ehtiyatlarından ümumi istifadə prinsipini önə çəkmiş olurdu. Xəzərin hüquqi statusunun müəyyən edilməsi prosesində enerjinin prioritet rolu bu sənəddə aydın şəkildə göstərilirdi.

2008-ci ildə Rusiyanın qəbul edilmiş növbəti Xarici Siyasət Konsepsiyasında göstərilirdi ki, XXI əsrin əvvəllərində beynəlxalq münasibətlərdə baş vermiş dəyişikliklər, yeni çağırış və təhdidlərin meydana gəlməsi Rusiyanın xarici siyasət prioritetlərinə yenidən baxılması zərurətini meydana gətirmişdir. Rusiyanın dəniz məkanlarının beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsinin tezliklə başa çatdırılmasının vacibliyi vurğulanırdı. Xəzər hövzəsində Rusiyanın xarici siyasətinin mühüm vəzifəsi sahilyanı dövlətlər arasında qarşılıqlı əməkdaşlığın artırılması hesab olunurdu ki, bunun da Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə həyata keçirməyin mümkünlüyü göstərilirdi.

2013-cü ildə qəbul olunmuş yeni Xarici Siyasət Konsepsiyasında ilk dəfə geosiyasi ssenarilərin həyata keçirildiyi zaman Rusiyanın qabaqlayıcı addımlar atmasını zəruri hesab edilirdi. Bu sənəddə ilk dəfə olaraq rəsmi Moskvanın xarici siyasətinin reallaşması üçün təsir mexanizmi kimi "yumşaq güc"dən istifadə edilməsi nəzərdə tutulurdu. Bu konteksdə Xəzər regionu ölkələri ilə müstəsna şəkildə əlaqələrin qurulması vacib sayılırdı.

2016-cı ildə qəbul olunmuş Rusiyanın hazırki Xarici Siyasət Konsepsiyasında beynəlxalq münasibətlər arxitekturasının yeni siyasi və iqtisadi təsir mərkəzlərinin formalaşması səbəbindən xeyli mürəkkəbləşdiyi göstərilirdi. Sənəddə müasir beynəlxalq münasibətlərin formalaşmasında güc komponentinin nəzərəçarpacaq şəkildə artdığı qeyd edilirdi. Eyni zamanda karbohidrogen ehtiyatları uğrunda açıq və gizli mübarizənin daha şiddətli formada aparıldığı sənəddə öz əksini tapmışdır. Sənəddə həmçinin Terrorizm bəşəriyyətin ən qorxulu bəlası kimi qiymətləndirilirdi.

Eyni zamanda tədricən rəsmi Moskvanın xarici siyasət maraqlarında iqtisadi amillər üstünlük təşkil etməyə başlayırdı. Təsadüfi

deyildir ki, Rusiya xarici siyasət idarəsinin rəhbəri S.Lavrov qeyd edirdi ki, "günümüzdə iqtisadi əməkdaşlığa əsaslanmadan həqiqi tərəfdaşlığa nail olmaq mümkünsüzdür". Bütün bunlar isə Xəzər regionunda əməkdaşlığın daha da dərinləşdirilməsini qaçılmaz edirdi.

Rusiyanın Xəzər siyasətinə həmçinin 2010-cu ildə qəbul olunmuş və 2014-cü ildə isə əlavələr edilmiş hərbi doktrinası konteksindən də baxıla bilər. Adıçəkilən sənəddə göstərilir ki, xarici dövlətlərə məxsus hərbi qüvvələrin Rusiyaya və onun müttəfiqlərinə bitişik ərazilərə yerləşdirilməsi əsas xarici təhlükələrdən biri kimi qəbul edilir. Belə ki, Xəzərdə ABŞ və Böyük Britaniya başda olmaqla Qərb dövlətlərinin karbohidrogen ehtiyatlarının kəşfiyyatına, hasilatına və nəqlinə böyük həcmdə investisiyalar yatırması, özlüyündə həmin sərmayənin qorunması məslələrini gündəmə gətirirdi ki, həmin dövlətlərin Xəzərdə hərbi mövcudluğa nail olmaq istəkləri Rusiyanı çox rahatsız edirdi. Bütün bunları qabaqlamaq üçün Xəzər regionunda hərbi əməkdaşlıq üçün çoxtərəfli mexanizmin yaradılmasının zəruriliyi adıçəkilən sənəddə qeyd edilmişdir.

Rusiyanın Xəzər siyasəti 2000-ci ildə qəbul olunmuş Milli Təhlükəsizlik Konsepsiyası aspektində dəyərləndirə bilər. Adıçəkilən mühüm sənəddə göstərilirdi ki, Rusiyanın dünyanın güc mərkəzlərindən biri kimi güclənməsinə qarşı Yaxın Şərq, Cənubi Qafqaz, Mərkəzi Asiya və Asiya-Sakit okean regionunda mövqelərinin zəiflədəlilməsi istiqamətində tədbirlər həyata keçirmək istəyən qüvvələr vardır. Göstərilən ərazilərdən Cənubi Qafqazın (Azərbaycan), Mərkəzi Asiyanın (Qazaxıstan, Türkmənistan), Yaxın Şərqin (İran) bilavasitə Xəzərlə bağlı olduğunu, hətta adıçəkilən sututarın bunların arasında yerləşdiyini nəzərə alsaq Xəzərin rəsmi Moskvanın Təhlükəsizlik konsepsiyasında mühüm yer tutduğunu söyləyə bi-lərik. 2009-cu ildə Rusiyanın qəbul edilmiş yeni Təhlükəsizlik Konsepsiyasında aydın şəkildə qeyd olunur ki, Xəzər hövzəsi beynəlxalq siyasətin diqqətinin cəmləşdiyi ərazilərdən biri olacaq ki, bu da adıçəkilən su hövzəsinin Rusiya üçün əhəmiyyətini daha da artırmış olacaqdır. Təhlükəsizlik Konsepsiyasında həmçinin göstərilirdi ki, Rusiyanın Xəzərdə sahilyanı dövlətlərlə sərhədlərinin müəyyənləşdirilməsi və onun təhlükəsizliyinin təmini prioritet sayılmalıdır.

2015-ci ildə qəbul olunmuş Milli Təhlükəsizlik Strategiyasının yeni variantında göstərilir ki, resurslar, o cümlədən neft-qaz ehtiyatlarının ələ keçirilməsi uğrunda və nəqliyyat koridorlarına nəzarət istiqamətində mübarizə kəskinləşəcəkdir. Rusiyanın Xəzər hövzəsi dövlətləri ilə əməkdaşlığın gücləndirilməsinə önəm verdiyi bildirilir. 2021-ci ildə qəbul edilmiş Mili Təhlükəsizlik Strategiyasının hazırkı variantında Qərb dövlətləri ilə qarşıdurmanın daha da güclənməsi kontekstində xarici siyasətin "qırmızı xətləri" müəyyən edilməklə yanaşı, dünya okeanının, o cümlədən Xəzərin təbii ehtiyatlarının mənimsənilməsinin mühüm əhəmiyyətə malik olduğu göstərilirdi.

Rəsmi Moskvanın Xəzər strategiyasının öyrənilməsi üçün digər mühüm sənəd 2001-ci ildə qəbul olunmuş Rusiyanın Dəniz Döktrinası hesab edilə bilər. Sənəddə aydın şəkildə göstərilirdi ki, yeni dönəmdə okeanların, dənizlərin resurslarının mənimsənilməsi uğrunda böyük güclərin rəqabəti svilizasiyaların inkişafında mühüm rol oynayacaqdır. Bununla bağlı olaraq əsas aktorların milli siyasəti həmin hədəflərə çatmağa istiqamətlənəcəkdir ki, Rusiya da buna hazır olmalıdır. Rusiyanın tarixən dəniz dövləti olması bu istiqamətdə mövqeyinin möhkəmlənddirməsi tarixlə səsləşməklə yanaşı, günün də tələbi hesab edilirdi. Dünya okeanınında Rusiyanın milli maraqlarının qorunması, onun sərvətləri üzərində Rusiyanın yurisdiksiyasının həyata keçirilməsinin təmin edilməsi vəzifə kimi qarşıya qoyulurdu. Adıçəkilən sənəddə Xəzərdə Rusiyanın əsas məqsədləri kimi Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, ekoloji vəziyyətinin yaxşılaşdırılması, bioresurslarının qorunması, xarici qüvvələrin hansısa formada bura buraxılmaması, nəqliyyat istiqamətində əməkdaşlığı gücləndirməklə Rusiyanın aparıcı tranzit mövqeyinin qorunub saxlanmsı göstərilirdi.

Hüquqi statusun müəyyənləşdirilməsində ən mühüm tədbirlərdən biri də sahilyanı dövlət başçılarının birbaşa bu məsələ ilə bağlı Zirvə Sammitlərinin keçirilməsi idi ki, bu da digər bölmədə ayrıca və daha geniş şəkildə təhlil edildiyindən ona toxunmayacağıq. Qısa şəkildə 2018-ci il 12 avqust tarixində Aktauda – V Xəzər Sammitin-

də qəbul edilmiş Xəzərin yekun hüquqi statusunun Rusiya üçün əhəmiyyətini qeyd edəcəyik.

Aktau sammiti və burada qəbul olunmuş yekun konvensiya geniş anlamda Rusiya üçün məqbul hesab edilə bilər. İlk öncə Xəzərin su səthinin 15 mil ərazi suları və 10 mil balıqçılıq zonasını çıxmaq şərti ilə qalan sahəsi ümumi istifadədə saxlanılırdı. Su səthinin bu şəkildə bölünməsi İran ilə birlikdə Yaxın və Orta Şərqdə aktiv siyasət aparan Rusiya üçün regionda hərbi təminatını həyata keçirmək baxımından Xəzərin koridor kimi istifadəsi imkanını yaradır. İkinci mühüm məqam təhlükəsizliklə bağlıdır ki, yekun konvensiyada qeyri sahilyanı dövlətlərin Xəzərdə hərbi iştirakı qadağan edilirdi. Rusiyanın ətrafında hərbi münaqişələrin sayının artması və onların yeni coğrafiyalara keçmək ehtimalı rəsmi Moskva üçün NATO-nun Xəzər regionunda "peyda" olacağı, yaxud müdaxilə istəyi əlavə "qayğılar" yaradacağından Xəzərin yekun hüquqi statusunun müəyyənləşməsi ilə bağlı sənədə belə bir bəndin əlavə edilməsi Moskva üçün həlli vacib məsələ hesab olunurdu. Bununla yanaşı onsuz da yekun konvensiya imzalanana qədər Xəzərin dibi Rusiya, Qazaxıstan və Azərbaycan arasında bölünmüşdü və sözügedən sutuların dibi ilə qalan əsas məsələ boru kəmərlərinin çəkilməsi idi. Yekun Konvensiyada Rusiya Xəzərin dibi ilə kəmərlərin çəkilməsinə razılığını bildirsə də, ekoloji problemləri önə çəkərək, bunun üçün sahilyanı dövlətlərin hamısının razılığının olması bəndinin də sənədə daxil edilməsinə nail olmuşdur. Bu isə gələcəkdə Trans-Xəzər kimi layihələrin reallaşacağı zamanı Rusiyanın ekologiya pərdəsi altında bütövlükdə belə layihələrin pozulması üçün müəyyən imkanlar əldə etməsinə şərait yaradırdı. Yuxarıda apardığımız təhlildən bu nəticəyə gəlirik ki, Rusiya məcbur qalıb Xəzərin dibinin tamamilə sektorlara bölünməsinə razılıq versə də, digər məsələlərdə öz maraqlarını əsas etibarı ilə qoruya bilmişdir.

## IV.3. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Qazaxıstanın mövqeyi

Qazaxıstan sahilyanı dövlətlər içərisində Xəzərlə ən çox sahil xətləri olan dövlətdir. Deməli, adi məntiqlə söyləsək sözügedən su hövzəsindən daha çox Qazaxıstan pay almalıdır. Xəzərdə Qazaxıstanın daha çox karbohidrogen ehtiyatlarına malik olmasını nəzərə alsaq, onda rəsmi Astananın problemin konstruktiv həllinin tapılmasında daha çox maraqlı olduğu aydın olur. Qazaxıstan ilk olaraq "daxili dəniz" yanaşmasını irəli sürmüşdü və 1982-ci ildə BMT-nin qəbul etdiyi Beynəlxalq Dəniz Hüququ Konvensiyanın IX bölümünün 122-ci maddəsinin tətbiq olunmasına çalışırdı. Qazaxıstanın Xəzərin statusu ilə bağlı mövqeyi daha çox Azərbaycanın mövqeyi ilə yaxın idi ki, bunu da şərtləndirən amillər vardır. Əvvəla qeyd etdiyimiz kimi Qazaxıstan Xəzərdə çox böyük neft-qaz resurslarına malik idi ki, sektorial bölgü nəticəsində sözügedən dövlət həmin sərvətləri maneəsiz olaraq istismara cəlb etməklə küllü miqdarda vəsait əldə edə bilərdi. İqtisadi dividentlərlə yanaşı, Qazaxıstan həmçinin siyasi dvidentlər də əldə etmiş olurdu. Müstəqilliyini yeni qazanmış Qazaxıstanın Çinlə sərhəd problemləri yaranmışdı. Bundan əlavə Rusiyanın da Qazaxıstana təsir gücü xeyli böyük idi. Sektorial bölgü sayəsində Qərb kapitalının bu ölkəyə ayaq basması onun müəyyən qədər bu təzyiqlərdən qorunmasına təkan vermiş olardı. Digər tərəfdən aktiv və müstəqil enerji siyasəti aparmaq üçün "status" təhdidindən qurtulmaq vacib idi. Amma Qazaxıstan Xəzərin şelf hissəsinin sektorlara bölünməsini istəsə də, Azərbaycandan fərqli olaraq su səthinin xüsusi iqtisadi zonalar istisna olmaqla qalan su sahəsinin ümumi istifadə olunmasına etiraz etmirdi. Qazaxıstan qitə suları və müstəsna iqtisadi zonada sahilyanı dövlətlərin suveren haqlarının tanınmasını istəməklə yanaşı, balıqçılıqla bağlı ayrı bir kateqoriya yaradılmasını və bunun sahilyanı dövlətlər tərəfindən koordinasiya edilməsini təklif edirdi. Rəsmi Alma-Ata balıqçılıqla bağlı mövqeyini bir az da konkretləşdirərək hesab edirdi ki, balıqçılıq və bioloji resurslardan istifadə sahilyanı dövlətlərin

hər biri üçün öz balıqçılıq bölgələrində və açıq dənizdə müəyyən edilən ov kvotasına uyğun həyata keçirilməli idi.

Qeyd edək ki, bu görüş Qazaxıstanın ilk vaxtlarda müdafiə etdiyi mövqeyi idi. Amma Rusiyanın Qazaxıstana təsir imkanları xeyli güclü olduğundan status məsələsində Rusiyanın maraqlarını nəzərə almaq məcburiyyətində qalırdı. Hər şeydən öncə Qazaxıstanın şimalında əhalinin böyük hissəsini etnik ruslar təşkil edir ki, bu da istənilən vaxt Rusiya tərəfindən separatist hərəkətlərin başlanması üçün əlverişli şərait yaratmış olur. Hətta bəzi mütəxəssislər tərəfindən prezident N. Nazarbayevin paytaxtın ölkənin uzaq cənub-şərqindəki Alma-Atadan şimalda Astanaya köçürməsinin alt qatında məhz bu əraziyə qazaxların kütləvi axınını təmin etməklə gələcəkdə separatist hərəkətlərə yol verilməməsi kimi məqsədlər güddüyü qeyd olunur. Həqiqətən də, son illərdə şərqi Ukraynada yaşanan hadisələr separatist hərəkətlərin Qazaxıstan üçün real təhlükə olduğunu göstərməklə yanaşı, N.Nazrbayevin də nə qədər uzaqgörən siyasətçi olduğunu göstərmiş oldu.

Digər tərəfdən Qazaxıstan neftinin əsas hissəsinin SSRİ dönəmində inşa edilmiş və Rusiya ərazisindən keçən kəmərlərlə nəql edilməsi də, rəsmi Moskvanın Qazxıstan üzərində təsirlərini saxlamağa imkan verir və qarşı tərəf də Xəzərin hüquqi statusu məsələsində onun maraqlarını nəzərə almaq məcburiyyətində qalırdı. Qazaxıstan Rusiya ilə birgə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur ki, burada da heç kimə sirr deyil ki, əsas rol Rusiyaya məxsusdur. Bununla yanaşı Rusiyanın Qazaxıstan ərazisində nüvə silahları və aerokosmik bazası da vardır ki, bu da hər iki tərəfi ehtiyatlı davranmağa məcbur edir.

1991-ci il 21 dekabr tarixində Alma-Ata bəyannaməsinin müddəalarını Qazaxıstan da qəbul etmişdir. Qazaxıstan hesab edir ki, həmin müqaviləyə qoşulmaq sahilyanı dövlətlərin konstitusiya prosedurlarına uyğun şəkildə həyata keçirilmişdir. Başqa sözlə, Alma-Ata bəyannaməsi sahilyanı respublikaları (Rusiya, Qazaxıstan, Azərbaycan və Türkmənistan) SSRİ-nin varisi kimi tanıyırdısa, digər tərəfdən həmin dövlətlərin müstəqillik və suverenliyini hansısa bir formada məhdudlaşdıra bilməzdi.

Qazaxıstanın Xəzərin hüquqi statusu ilə bağlı mövqeyi Qazaxıstan Respublikası Baş nazirinin "Xəzər dənizinin problemləri haqqında" 28 iyul 1994-cü il tarixli 295 nömrəli sərəncamında da əks olunmuşdur. Həmin sənəddə açıq şəkildə göstərilirdi ki, SSRİ-nin süqutu ilə əlaqədar olaraq İran ilə SSRİ arasında 1921 və 1940-cı il müqavilələri əsasında Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi yeni reallığa və geosiyasi vəziyyətə uyğun gəlmir. Xəzərin yeni hüquqi statusunu müəyyənləşdirilməsində Qazaxıstan üçün aşağıdakı prioritetlər nəzərə alınmalı idi.

1. Hüquqi statusun müəyyənləşdirilməsi Qazaxıstana özünə aid hissəsinin mineral ehtiyatlarının işlənməsi və səmərəli istifadəsi üçün beynəlxalq səviyyədə tanınmış əsaslar və ölkənin sosial-iqtisadi inkişafı məqsədləri üçün real imkanlar yaratmalı idi. Başqa sözlə hüquqi statusun müəyyənləşməsi Qazaxıstanın Xəzərdəki neft-qaz yataqlarının xarici şirkətlərlə birgə işlənməsinə tam hüquqi əsas yaradacaqdı ki, buradan əldə edilən böyük həcmli gəlirlər ölkənin digər sahələrinə yönəldiləcəkdi.
2. Dünya okeanına birbaşa çıxışı olmayan Qazaxıstan üçün Xəzərdə gəmiçilik və balıqçılığın inkişafı baxımından əlverişli şəraitin yaradılmasına nail olmaq
3. Son vaxtlar Xəzərdə kəskin şəkildə pozulmuş ekoloji problemin sahilyanı dövlətlərlə əməkdaşlıq şəraitində həllinə nail olmaq.

Yuxarıda qeyd etdiyimiz kimi Qazaxıstan Xəzərin su səthinin bölünməsinə tərəfdar çıxmırdı və bunu Xəzərin unikal təbiətə malik olması, onun qorunması üçün isə sahilyanı dövlətlərin ümumi istifadədə olan su hissəsinin bioresurslarının qorunmasında sıx əməkdaşlığını vacib hesab edirdi. Bu aspektdə Qazaxıstan BMT-nin 1982-ci ildə Cenevrədə qəbul edilmiş beynəlxalq dəniz hüququnun əsas müddəalarının Xəzərə şamil edilməsinə tərəfdar çıxırdı. Qazaxıstan rəsmilərinin fikrincə Beynəlxalq dəniz hüququnun müddəaları əsasında Xəzərin hüquqi statusu müəyyənləşdirilərdisə ərazi sularının, müstəsna iqtisadi zonalar, balıqçılıq sahələrinin və ümumi su ərazilərinin sərhədləri müəyyənləşəcəkdir. Qazaxıstan 1982-ci il beynəlxalq dəniz hüququ əsasında açıq dəniz rejimini Xəzərin bir hissəsi-

nə qədər uzatmağı tətbiq etməyi təklif edirdi. Daha aydın başa düşülmək üçün açıq dəniz yanaşmasında sahilyanı dövlətlərin hər birinə 200 mil məsafədə ərazi suları verilməlidi ki, Xəzərin də ölçüləri buna imkan vermirdi. Açıq dəniz yanaşması tətbiq edilməsi ilə naviqasiya, hava məkanında sərbəst uçuşlar, sualtı kabel və boru xətlərinin çəkilməsi, süni adalar və digər qurğuların tikintisi. Balıqçılıq və elmi tədqiqatların aparılması azadlığı verilirdi. Beləliklə, Qazaxıstanın mövqeyi qəbul olunardısa, əvvəllər müəyyən edilmiş qeyri-Xəzəryanı ölkələrin bayraqları altında naviqasiya qadağası aradan qaldırıla bilərdi. Qazaxıstanın irəli sürdüyü bu təkliflər içərisində sahilyanı dövlətlərin ərazi sularının eni və eyni zamanda müstəsna iqtisadi zonalar üzrə dövlət sərhədlərinin müəyyənləşdirilməsi də həyata keçirilə bilərdi.

Qazaxıstanın Xarici İşlər nazirinin müavini olmuş V.Qizzətovun fikrincə Xəzərin hüquqi statusunun müəyyənləşməsində rəsmi Astananın mövqeyinin formalaşmasında regionda cərəyan edən geosiyasi proseslərlə yanaşı, Xəzərin Qazaxıstan sektorunda zəngin karbohidrogen ehtiyatlarının olması mühüm rol oynamışdır. 1994-cü ildə Azərbaycan Qərb neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladıqdan sonra, Qazaxıstan da 1970-ci il sektorial bölgüsünə görə özünə aid ərazidə möbcud yataqların işlənməsi ilə bağlı dünyanın aparıcı neft-qaz şirkətləri ilə fəal danışıqlara başladı. Əgər Azərbaycan Xəzəri sərhəd gölü hesab edirdisə, Qazaxıstan isə sözügedən sututarı qapalı dəniz kimi qəbul edirdi.

Qazaxıstan tərəfi hesab edirdi ki, hüquqi statusun müəyyən edilməsi hər bir sahilyanı dövlətin Xəzərin ehtiyatlarından təhlükəsiz, düzgün və məsuliyyətli şəkildə istifadəni və bu cür fəaliyyətlərin milli qanunvericilik əsasında səmərəli hüquqi tənzimlənməsi imkanlarını təmin edir. Digər tərəfdən hüquqi statusun müəyyənləşməsi Xəzərin resurslarının işlənməsinə xarici investisiyaların cəlb edilməsinə münbit şərait yaratmış olur. Qazaxıstan-Azərbaycan cütlüyü Rusiya-İran cütlüyünün müdafiə etdiyi Xəzərin "kondominium" əsasada bölünməsinə qarşı kəskin mövqeydən çıxış etmişdir. Qazaxıstan Xarici İşlər nazirinin müavini və həmçinin Xəzərin hüquqi

statusu ilə bağlı rəsmi Astananın siyasətinin müəyyənləşməsində bilavasitə iştirak edən V.Qizzətov Rusiyanın Xəzəri "kondominium" əsasada bölünməsi yanaşmasını kəskin tənqid edərək bildirmişdir ki, bunun heç bir hüquqi, siyasi və iqtisadi əsası yoxdur.

Xəzərin hüquqi statusu məsələsində önəmli sayıla bilən ilk addım 1996-cı ildə Aşqabadda keçirilən toplantıda atıldı və sahilyanı dövlətlər rəsmən öz mövqeylərini üç yanaşmada göstərdi. Qazaxıstan beynəlxalq hüquq normalarına bağlı olaraq sahilyanı ölkələr üçün ərazi suları və müstəsna iqtisadi zonaların müəyyənləşdirməyi təklif etdi. Həmçinin, dəniz dibinin isə milli sektorlara bölünməsi rəsmi Astana tərəfindən müdafiə olunurdu. Azərbaycan isə həm şelf hissənin həm də, su səthinin milli sektorlara bölünməsini fikrini irəli sürmüşdür. Rusiya isə hər bir sahilyanı dövlətlin 45 millik su sahəsindən kənardakı zona ümumi istifadədə olmalıdır yanaşmasını irəli sürdü.

Qazaxıstan 1997-ci ildə Türkmənistan ilə sahilyanı dövlətlər tərəfindən Xəzərin yekun hüquqi konvensiyası qəbul edilənə qədər ondan istifadə rejimini müəyyənləşdirmək üçün 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən aparılmış sektorial bölgünü tanıdıqları haqqında müqavilə bağladı. Həmçinin tərəflər razılaşırdı ki, Xəzər sülh məqsədi ilə istifadə olunmalı, hərbi xarakterli hərəkətlərdən çəkinməli, çirklənmənin qarşısını almalı, bioloji resursların yaşaması üçün normal şərait yaratmalı, ticarət gəmilərinin sərbəst və təhlükəsiz fəaliiyət göstərmələri üçün mümkün imkanı yaratsınlar. Hər iki dövlət Xəzərdə yalnız sahilyanı dövlətlərin gəmilərinin üzməsini təhlükəsizlik baxımından vacib hesab edirdi. Amma, bütün bunlarla yanaşı, əsas məsələlər – neft-qaz yataqları və orta xəttin müəyyənləşdirilməsi kimi mühüm problemlər yenə açıq olaraq qalırdı. Karbohirrogen yataqları ilə bağlı tərəflər sadəcə olaraq sahilyanı dövlətlərin haqlarını ümumi olaraq tanıdıqlarını bildirməklə mübahisəli məsələlərə aydınlıq gətirmədilər.

Qazaxıstan beştərəfli formatda aparılan danışıqların yekun nəticəyə gəlinməsində hələ çox uzaq olduğunu görüb, ikitərəfli formatda danışıqların aparılmasına üstünlük verdi. Bu konteksdə Xəzərin şimal hissəsinin dibinin delimitasiyası, yerin təkindən istifadə-

yə aid suveren hüquqların həyata keçirilməsi və nəhayət yataqların sərhədlərinin müəyyən edilməsi istiqamətində Rusiya ilə nəticəyönümlü müzakirələri sürətləndirdi.

6 iyul 1998-ci ildə "Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzərin dibinin istifadəsinə suveren hüquqların həyata keçirilməsi məqsədilə "Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi haqqında saziş" bağladı. Bu müqavilə ilə Qazaxıstan və Rusiya Xəzərin şimal hissəsinin şelfinin orta xətt prinsipi üzrə bölünməsi, su səthinin isə ortaq istifadə olunması haqqında razılıq əldə etmiş oldu. Eyni zamanda sözügedən saziş ilə sərhəd xətti və ona yaxın ərazilərdə oan neft-qaz yataqlarının birgə işlənməsi haqqında da razılıq əldə olundu. Bundan əlavə, tərəflər Xəzərin şimal hissəsinin dibinin bölünməsi nəticəsində özlərinə aid sahədə tam olaraq dövlət suverenliyinin həyata keçirilməsi hüququna malik olurdular. Hər iki tərəf su səthinin ümumi istifadədə qalmasına razılıqlarını ifadə edirdilər. Ekoloji problemlərin aradan qaldırılması, elmi tədqiqat işlərinin aparılması və digər bu qəbildən olan məsələlərdə ortaq fəaliyyət göstərilməsi qəbul edilirdi.

Qazaxıstan bir yandan Xəzərdəki dövlət maraqlarını qorumaqda israrlılıq göstərir, digər tərəfdən isə Rusiya ilə əməkdaşlıqdan da yan keçə bilmirdi. Bütövlükdə xarici siyasətdə Rusiya faktoru nəzərə alınırdısa, onun tərkib hissəsi olan Xəzərin hüquqi statusunda da bu balans qorundu. Təsadüfi deyildir ki, Qazaxıstan Xəzərdə məhz ilk dəfə Rusiya ilə ikitərəfli əsasda Xəzərin dibinin delimitasiyası haqqında razılıq əldə etmişdir. Hətta, bəzi Qazaxıstan rəsmiləri hesab edir ki, hüquqi status məsələsində digər sahələrdə olduğu kimi Qazaxıstan-Rusiya əməkdaşlığı strateji xarakter daşıyır. Yeri gəlmişkən bu yanaşmanı İran ekspertləri də qəbul edir. Onlar bildirir ki, Qazaxıstan SSRİ-nin tərkibindəki digər respublikalarla müqayisədə Rusiya üçün daha çox önəm daşımışdır. Bunu həm də iki dövlət arasında mövcud olan dünyanın ən uzun quru sərhəddi də diktə edir. (Digər bir mülahizəyə görə dünyanın ən uzun quru sərhəddi ABŞ və Kanada arasındadır).

Qazaxıstanlı mütəxəssislərərin bəziləri hesab edirlər ki, Rusiya ilə 1998-ci ildə imzalanmış müqavilə Xəzərin dəniz yoxsa göl

olmasına geniş ölçüdə aydınlıq gətirilmişdir. Adıçəkilən müqavilə ilə Qazaxıstan və Rusiya Xəzərə məhz dəniz yanaşmasını tətbiq ediblər ki, bu da hər iki tərəfə təbii ehtiyatların bölgüsü və istifadəsi üçün beynəlxalq standartlardan istifadə etməyə imkan verir. Maraqlıdır ki, Xəzər məsələləri ilə dərindən maraqlanan rusiyalı mütəxəssis siyasi elmlər doktoru, professor S.S.Jiltsov adıçəkilən sazişi (1998-ci il müqaviləsi nəzərdə tutulur) rəsmi Astananın Rusiyaya diplomatik hücümunun nəticəsi kimi qiymətləndirir. Bununla yanaşı, rusiyalı mütəxəssis adıçəkilən müqaviləni XIX-XX əsrlərdə Rusiyanın Xəzərdə müəyyən edilmiş statusunu pozan ilk dövlətlərarası müqavilə hesab edir. Qazaxıstanda isə Xəzərin hüquqi statusunun müəyyənləşdirlməsində sahilyanı dövlətlər arasında ilk olaraq Rusiya ilə razılığın əldə olunmasına "rəsmi Astananın tolerantlığı", iki dövlətin liderləri arasında yüksək səviyyəli şəxsi münasibətlər və ümumiyyətlə, Rusiya-Qazaxıstan əlaqələrinin strateji səviyyəsi ilə əlaqələndirirlər. Qazaxıstanlı Xəzər üzrə mütəxəssis M.T.Laumulin həmçinin bura Qazxıstanın Mərkəzi Asiya regionunda Rusiyanın əsas müttəffiqi olması ilə yanaşı, rəsmi Moskvanın Xəzərdə təsir imkanlarını saxlamaq istəkləri ilə də əlaqələndirir. Rusiyalı ekspertlər Qazaxıstanın Xəzərin hüquqi statusunun müəyyənləşməsində mövqeyini analiz edərkən bu qənaətə gəlirlər ki, razılaşmanın səbəbi təkcə yeni formalaşmaqda olan geosiyasi proseslərə deyil, Xəzərin dibində – Qazaxıstan sahillərinə uzaq olmayan məsafədə mövcud prespektivli neft-qaz yataqlarının olması ilə də bağlıdır. Yeri gəlmişkən rusiyalı ekspertlər həmin fikri Azərbaycan ilə bağlı da səsləndirmişdir. Rusiyalı mütəxəssislər həmçinin Azərbaycan və Qazaxıstanın mövqeyində oxşarlıq olduğunu söyləsələr də onun təqdim edilməsində fərqliliyin mövcudluğunu qeyd edirlər. Beləki, Azərbaycan Respublikası konstitusiyasının XI maddəsinin 2-ci bəndinə əsasən Xəzər dənizinin (gölünün) ona aid sektoru dövlət ərazisi kimi qəbul olunur. Rusiyalı ekspertlər bir az da irəli gedərək konstitusiyanın adıçəkilən maddəsini Azərbaycanın Xəzərin mövcud beynəlxalq hüquqi statusuna məhəl qoymadan, sahilyanı dövlətlərin ümumi məkanının ilhaqı aktı kimi qiymətləndirirdi. Əvvəla, rusiyalı

ekspertlərin iddia etdiyi kimi Xəzərin mövcud beynəlxalq hüquqi statusu mövcud idisə, sahilyanı dövlətlər 1992-ci ildən bəri nəyi müzakirə edir? İkincisi əgər 1921 və 1940-cı illər müqavilələr nəzərdə tutulursa, bu da SSRİ-nin dağılması ilə yaranan gerçəklikdə Xəzərin hüquqi statusunu müəyyən edə bilməz. Sahilyanı dövlətlərin "mənafeyi qayğısına qalan" Rusiya hesab edirdi ki, status ilə bağlı qəbul edilmiş hüquqi direktivlər ziddiyətlərin aradan qaldırılması və mövqeylərin uyğulaşdırılmasına köməklik etməlidir. Qazaxıstan və Azərbaycanın hüququ status məsələsinə yanaşmadakı mövqe yaxınlığı iki ölkə arasında 2000-ci ildə imzalanmış birgə bəyannamədə də öz əksini tapmışdır. Həmin bəyannamənin V maddəsində qeyd olunurdu ki, "sahilyanı dövlətlər olaraq Azərbaycan və Qazaxıstan iqtisadiyyatlarının inkişafında Xəzərin mühüm əhəmiyyətini qəbul edərək, onun sahilyanı dövlətlər arasında orta xətt prinsipi əsasında milli sektorlara bölünməsinə tərəfdardırlar və delimitasiya işlərinin tezliklə aparılmasının zəruriliyini qeyd edirlər"

1998-ci ildə Xəzərin şimal hissəsinin bölünməsi haqqında Qazaxıstan və Rusiya arasında bağlanmış müqviləni tərəflər digər sahilyanı dövlətlər üçün də president hesab etmişdirlər. Yeri gəlmişkən sözügedən sənəddə də bu öz əksini tapmışdı. Rusiyanın Xəzərin şimalında delimitasiya prosesinin həyata keçirilməsinə razılıq verməsinin arxasında Qazaxıstanın karbohidrogen ehtiyatlarının nəqlində yenə də aparıcı tranzit ölkə statusunu qoruyub saxlamaq məqsədlərinin dayandığı da bildirilir. Günümüzdə də Qazaxıstan neftinin əsas kütləsi məhz Rusiya vasitəsi ilə ixrac olunur ki, bu həm real iqtisadi dvidentlər baxımından, həm də Astana üzərində siyazi təzyiqlər baxımından Moskva üçün olduqca vacibdir. Rusiya hüquqi status məsələsində Qazaxıstana "güzəşt"ə getməklə əslində Xəzərin zəngin karbohidrogen resurslarının nəqlində əsas tranzit ölkə statusunun daha da gücləndirilməsində Astananının dəstəyinə arxalanırdı. Xəzər məsələləri ilə yaxından maraqlanan mütəxəssislər hesab edirlər ki, 1998-ci ildə Xəzərin şimal hissəsinin dibinin bölüşdürülməsi ilə bağlı Qazaxıstan və Rusiya arasında bağlanmış müqavilə uzun sürən danışıqlardan sonra və Astananın mövqeyi əsasında imzalanmışdır.

Bu aspektdə Xəzər Boru Kəmər Sistemini xüsusi olaraq qeyd etmək olar. 1510 kilometr uzunluğunda olan sözügedən kəmərin tikinti və idarə işlərini həyata keçirmək üçün Rusiya, Oman və Qazaxıstan dövlətləri 1992-ci ildə birgə konsorsium yaratmışdır. Kəmər Qazaxıstanın qərbindəki Tengiz yatagından başlayıb Rusiyanın Qara dəniz sahilindəki Novorossiysk limanına qədər uzanır. Yeri gəlmişkən qeyd edək ki, bu kəmər ilə Bakı-Novorossiysk kəməri birləşərək Novorossiysk limanına daxil olur. Boru xəttinin inşasına 1999-cu ildə başlanmış və 2001-ci ildə istismara verilmişdir.




*Şəkil 27. Tengiz-Novorossiysk neft kəməri*

1996-cı ildə CPC-nin (Xəzər Boru Kəmər Konsersiumu) səhm paketi yenidən qurulmuş, Oman dövlətinin payı 7%-ə enərkən, Rusiyanın payı 31%, Qazaxıstanın payı isə 19% həcmində müəyyənləşmişdir. 2008-ci ildə isə sözügedən kəmərin səhm paketi bir daha yenidənmiş və şirkətlər aldığı paylarla aşağıda göstərilmişdir. Rusi-

yanın Transneft şirkəti 31% ilə ən çox paya sahib olan şirkət olmuşdur. Qazaxıstana məxsus KMG 19% payla ikinci sırada yer almışdır. Sonrakı yerləri müvafiq olaraq 15% payla Chevron, 12,5%-lə Luk-Arco, 7,5%-lə ExxonMobile, 7,5%-lə RosneftShell, 2%-lə ENİ, 2%-lə British Gas, 1,75%-lə KPY və 1,75%-lə Oriks tutur. Qazaxıstanın digər ixrac neft kəmərləri Uzen-Atrau-Samara və Atasu-Alaşankou (Qazaxıstan-Çin) boru xətləridir.

1998-ci il Rusiya Qazaxıstan müqaviləsi status məsələsində çoxtərəfli müzakirələrin konkret nəticə vermədiyi halda ikitərəfli danışıqların effektivliyini göstərməklə yanaşı soyuq müharibənin bitməsindən sonra Xəzərin tam olmasa da, müəyyən hissəsində bölünmə ilə bağlı ilk rəsmi müqavilə idi. Bu müqavilə həm də onu göstərdi ki, status məsələsində razılığa gəlmək olar. Müqavilə yeni ikitərəfli və üçtərəfli razılaşmaların əldə olunmasına impuls vermiş oldu.

Qazaxıstanın Rusiya ilə əldə etdiyi razılıq həmçinin Xəzərin enerji ehtiyatlarına və onların çıxarılmasına daha çox İran tərəfindən müdafiə olunan ortaq mülkiyyət yanaşmasının da aradan qalxması istiqamətində atılmış mühüm addım oldu. 1998-ci il müqaviləsindən sonra Qazaxıstan və Rusiya danışıqları intensivləşdirərək digər mühüm məsələlərin həllində də razılığa gələ bildilər. 2000-ci il fevralın 9-da imzalanmış deklorasiyaya görə tərəflər Xəzərin dibinin sektorlara bölünməsini, su səthinin isə ortaq istifadəsini bir daha qəbul etdiklərini təsdiqləməklə yanaşı, sərhəd xəttində yerləşən yataqların birgə işlənməsi haqqında da razılıq əldə etdilər. Qeyd edək ki, "Xvolins", "Kuzmanqar", "Tsentrolnoye" kimi neft yataqları Qazaxıstan ilə Rusiya sərhəddində yerləşdiyindən mübahisə doğururdu. Əldə olunmuş razılığa görə "Xvolins", və "Mərkəz" neft yataqları Rusiyanın, daha zəngin yataq hesab edilən "Kuzmanqar" isə Qazaxıstanın yurisdiksiyasında qaldı.

Qazaxıstanın Rusiya ilə razılıq əldə etməsi bir müddət beştərəfli əsasda hüquqi statusun müəyyənləşdirilməsi ilə bağlı aparılan kompleks müzakirələrin dayandırılmasına səbəb oldu. Sahilyanı dövlətlər arasında yaranmış "buzları" əritmək üçün Türkmənistan Prezidenti S.Niyazovun təşəbbüsü ilə dövlət başçılarının Zirvə Top-

lantısının keçirilməsi qərara alındı ki, ilk belə görüş 23-24 aprel 2002-ci ildə Aşqabadda keçirildi. Sahilyanı dövlət başçılarının Xəzər Sammitləri digər bölmədə geniş və hərtərəfli təhlil edildiyindən bunun üzərində dayanmayacağıq.

Qazaxıstana görə, dənizin dibi ölkənin quru ərazisinin geoloji davamıdır və onun milli suverenliyinin tətbiq olunduğu ərazi hesab olunmalıdır. Qazaxıstan tərəfi hesab edirdi ki, BMT-nin 1982-ci ildə qəbul etdiyi Beynəlxalq Dəniz Hüququ haqqında Cenevrə Konvensiyanın əsas müddəaları Xəzərə tətbiq oluna bilər. Onun Barens, Baltik, Qara dəniz, Fin körfəzi və başqa sututarlarda tətbiq olunan "bərabər məsafə metodu" sadədir və praktik olaraq Xəzərdə həyata keçirilə bilər.

1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyinin Xəzərin SSRİ hüdudunda olan sahəsinin sektorlara bölgüsü nəticəsində Qazaxıstanın payı 113 min km$^2$ həcmində müəyyənləşmişdir.

Hüquqi status məsələsində başlanğıcdan Qazaxıstan ilə Azərbaycanın yanaşmasında prinsip etibarı ilə dərin bir fərq yox idi. Sadəcə olaraq Azərbaycan Xəzərin həm dibinin həm də su səthinin bölünməsini müdafiə edirdisə Qazaxıstan şelf hissənin bölünməsində israr etsə də su səthinin müəyyən ölçüdə ərazi suları və müstəsna iqtisadi hüququn təmin olunduğu sahənin xaricindəki dəniz ərazisi ümumi istifadədə qalması fikrini təklif edirdi. İki dövlət arasında oxşar yanaşmalar 1997-ci ildə, tərəflər arasında yekun konvensiyanın qəbuluna qədər 1970-ci ildə aparılmış orta xətt boyunca sektorial bölgünü əsas tutacaqları xüsusunda bir razılaşmanın əldə edilməsi ilə nəticələndi. Bundan bir il öncə isə – 16 sentyabr 1996-cı ildə Bakıda Azərbaycan ilə Qazaxıstan arasında Xəzərin hüquqi statusu, mineral və bioloji ehtiyatlarının kəşfiyyatı, işlənməsi və istifadə edilməsində Xəzəryanı dövlətlərin əməkdaşlığına dair məsələlər müzakirə edilərək, qarşılıqlı anlaşma əldə edilmişdi. Altı bənddən ibarət həmin anlaşmanın beşinci bəndi sözügedən dövlətlərin status məsələsində mövqe yaxınlığını nümayiş etdirirdi.

2001-ci ildə Qazaxıstan, Rusiya və Azərbaycan arasında əldə olunmuş razılığa görə müstəsna iqtisadi bölgənin genişliyi sahil

dövlətlərinin paralel və bərabər uzaqlıqda olan orta bir xəttin müəyyən edilməsi ilə həll olunurdu. Müstəsna iqtisadi bölgələrin uzunluğu isə Xəzərin milli sektorlara bölünməsi sürətilə dövlətlərin sahil xətlərinin uzunluğuna mütənasib olaraq müəyyənləşdirilirdi. Adıçəkilən müqaviənin imzalanması ilə praktik olaraq Moskva, Astana və Bakı arasında hüquqi status ilə bağlı ciddi fikir ayrılığının olmaması hüquqi baxımdan təsbit olundu. Azərbaycan, Qazaxıstan və Rusiya 1958-ci ildə qəbul edilmiş Cenevrə Bəyannaməsinin 6-cı maddəsinə uyğun olaraq, dənizin "orta xətt" variantı ilə bölünməsini vacib sayırdı. Xəzərdəki analoji bölünmə hər bir ölkənin sahil xəttinə uyğun aparılmalı idi ki, onun da uzunluğu: Azərbaycanda 955 km, Qazaxıstanda 2020 km, İranda 724 km, Rusiyada 695 km, Türkmənistanda isə 1200 km təşkil edirdi.

Tərəflərin imzaladıqları sazişlərdə Xəzərin şimalındakı milli sektorların kəsişdiyi nöqtə müəyyənləşdirmişdir. Qazaxıstan, Rusiya və Azərbaycan arasında Xəzərin dibinin bölünməsi ilə bağlı demək olar ki, əksər məsələlər razılaşdırılmışdır. 29 noyabr 2001-ci ildə MDB dövlət başçılarının Moskvada keçirilən görüşü gedişində Azərbaycan ilə Qazaxıstan arasında Xəzərin dibinin orta xətt prinsipi əsasında bölünməsi haqqında müqavilə imzalandı. Lakin tərəflər arasında orta xəttin kordinatlarının müəyyənləşdirilməsi bir xeyli çətinliklər yaratdı. 1978-ci ildən 2000-ci illərin əvvələrinə qədər Xəzərdə su səviyyəsi hər il təxminən 10 sm qalxmışdır. Xəzərin şərq sahillərinin qərb tərəfi ilə müqayisədə daha düz olması üzündən su səviyyəsinin qalxması nəticəsində Xəzər şərqə tərəf bir qədər genişlənmişdir ki, bu da adekvat olaraq orta xəttin şərqə doğru çəkilməsini mümkün etmişdir. Orta xəttin kordinatlarının xüsusi protakolda göstərilməsi tərəflər arasında razılaşdırılmışdır. Adıçəkilən müqavilədə Xəzərin təbii ehtiyatlarının kəşfiyyatı, neft-qaz kəmərləri və optik xətlərin çəkilməsi sahəsində tərəflərin suveren hüquqlarının tanınması qəbul edilirdi. Yuxarıda qeyd olunan orta xəttin müəyyənləşməsi üçün əlavə protokol hər iki dövlətin Xarici İşlər nazirlərinin müavinləri tərəfindən 2003-cü il 27 fevral tarixində Bakıda imzalandı.

23-24 sentyabr 2002-ci ildə Azərbaycan ilə Rusiya arasında "Xəzərin şelfinin həmhüdud sahələrinin bölünməsi haqqında" müqavilə bağlandı. Bunun ardınca 14 may 2003-cü ildə Astanada Qazaxıstan, Rusiya və Azərbaycan arasında Xəzərin su səthinin ümumi istifadədə saxlanması ilə, dibinin orta xətt prinsipi əsasında bölünməsi haqqında yekun müqavilə imzalanmış odu. Sözügedən müqavilə ilə üç dövlət (Qazaxıstan, Rusiya və Azərbaycan) arasında Xəzərin bölünməsi problemi həllini tapmış oldu. Tarixi-siyasi ədəbiyyatda "Şimal formulu" kimi tanınan bu üçtərəfli razılaşma Türkmənistan və İranın da mövqeyinə təsirsiz ötüşmədi. Təsadüfi deyildir ki, məhz sözügedən müqavilənin imzalanmasından sonra Türkmənistan Qazaxıstanla sərhədlərin delimitasiya prosesinin vacibliyi qərarına gəldi. Düzdür, bu proses bir müddət uzansa da, nəhayət 2014-cü il dekabrın 2-də Türkmənistan Qazaxıstan ilə Xəzərin su səthinin ümumi istifadədə saxlamaqla, dibinin orta xətt prinsipi əsasında bölünməsi haqqında müqavilə bağladı.

Qazaxıstanın 1982-ci il Konvensiyasının Xəzərə tətbiq edilməsini istəməsinə bu dövlətin coğrafi yerləşməsi də müəyyən təsir göstərmişdir. Qazaxıstan 2,717,300 kvadrat kilometr həcmində böyük bir əraziyə malik olmasına baxmayaraq dünya okeanına çıxışı olmadığından məhrumiyyətlərlə qarşılaşmışdır. Xəzər dəniz statusu alardısa, BMT-nin 1982-ci il Dəniz Konvensiyası tətbiq edilməli idi. Belə vəziyyətdə Volqa-Don kanalından Qazaxıstan da sərbəsi istifadə hüququ qazanacaqdır. Təsadüfü deyildir ki, dönəmin Qazaxıstan prezidenti N.Nazrbayev Xəzəri Qara dənizlə birləşdirəcək böyük bir kanalın çəkilməsinin vacibliyini qeyd etmişdir. Rusiya rəsmiləri və ekspertləri isə bu layihəyə müsbət yanaşmamışlar. Çünki, reallıqda Rusiya şərqdən xüsusən də Çindən böyük həcmdə malları dəmir yolları və digər nəqliyyat vasiyələri ilə Avropaya daşımaqdadır. Bu daşımalardan hər il Rusiya büdcəsinə kifayət qədər vəsait daxil olmaqdadır ki, sözügedən layihə reallaşacağı təqdirdə bu gəlirlər itirilməklə yanaşı, təhlükəsizlik baxımından da rəsmi Moskva əlavə qayğılarla qarşılaşmalı olacaqdır. Deməli, qitədaxili ölkə olan Qazaxıstan üçün Xəzər həm də kommunikasiya baxımından mühüm əhəmiyyət kəsb edir.

Qazaxıstan Xəzərdə qonşusu olan Türkmənistan ilə sərhədlərinin delimitasiyasını həyata keçirməli idi. Bu aspektdə 1997-ci il fevralın 27-də Alma-Atada Türkmənistan prezidenti S.Niyazovla Qazaxıstan prezidenti N.Nazrbayev hər iki dövlətin su sərhəddi məsələsini müzakirə edərək bu qənaətə gəldilər ki, yekun konvensiya qəbul olunana qədər 1970-ci il bölgüsünü rəhbər tutaraq, hər bir dövlət mövcud sektoru daxilində karbohidrogen ehtiyatlarının sərbəst şəkildə kəşfiyyatını və hasilatını həyata keçirə bilər. Qeyd olunan bu məsələlər hər iki dövlətin imzaladığı yekun bəyanatda da öz əksini tapmış oldu.

2001-ci ilin avqust ayında MDB dövlət başçılarının Soçidə keçirilən qeyri-rəsmi görüşündə Qazaxıstan prezidenti N.Nazarbayev və Azərbaycan prezidenti H.Əliyev Xəzərin hüquqi statusu ilə bağlı Rusiya prezidenti V.Putinlə müzakirələr aparmış və burada İranın "Xəzər bərabər şəkildə bölünməlidir" mövqeyinə rəsmi Moskvadan "Xəzər dənizi vaxtilə SSRİ ilə İran arasında sərhəd olmuşdur və Sovetlər dağıldıqdan sonra onun xələfləri olan Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan İran ilə bu sərhəddi miras olaraq almışdır" cavabını alması rəsmi Tehranın yanaşması xeyli zəiflətmiş oldu.

2018-ci il 12 avqustda sahilyanı dövlət başçılarının Aktauda keçirilən V Xəzər Sammiti yekun konvensiyanın imzalanması əlamətdar oldu. Yekun konvensiya 24 maddədən ibarət olub, kompleks şəkildə Xəzərlə bağlı məsələlərə hüquqi baxımdan aydınlıq gətirirdi. Sahilyanı dövlət başçılarının Xəzər sammitləri və yekun hüquqi status haqqında konvensiya digər paraqrafda geniş şəkildə təhlil edildiyindən burada bu məsələlərə toxunmayacağıq.

Aktau sammitində qeyd edildi ki, Kurık və Lyanyunqan limanlarının açılması Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar vəd edir. Qazaxıstanın Kurık, Azərbaycanın isə Ələt dəniz limanının istifadəyə verilməsi tranzit daşımaları daha da artıracaqdır.

Qazaxıstan respublikasının 2017-ci ildə qəbul edilmiş Hərbi Doktrinasında ölkənin xarici sərhədlərinin, o cümlədən Xəzərdə döv-

lət sərhəddinin, təhlükəsizliyini təmin etmək məqsədi ilə sərhəd qoşunlarının gücləndirilməsinin vacibliyi bildirilir. Baxmayaraq ki, yuxarıda söylədiyimiz kimi Qazaxıstan Xəzərdə böyük ölçüdə təhlükəsizliyə nail olmuşdur (sahilyanı dövlətlərin heç biri ilə ərazi mübahisəsi yoxdur və sərhədlərin delimitasiyasını həyata keçirmişdir). Bununla belə, Hərbi Doktrinada hipotetik olaraq təhdidlərin mümkünlüyü fonunda hərbi dəniz qüvvələrinin döyüş qabiliyyətinin daim saxlanılması istiqamətində işlərin aparılması zəruri hesab edilir.

Qeyd edək ki, 2020-ci ilin martında 2020-2030-cu illəri əhatə edən Qazaxıstanın yeni "Xarici siyasət konsepsiyası" qəbul edilmişdir ki, bu əslində 2014-2020- ci illər üçün hazırlanmış əvvəlki "Xarici siyasət konsepsiyası"nın davamı kimi qəbul edilə bilər. Sözügedən sənəd xarici siyasət imperativlərinə proqram baxış səciyyəsini ehtiva edir. Həm Qazaxıstanın yeni "Xarici siyasət konsepsiyası"nda, həm də N.Nazarbayevin "Qazaxıstan-2050" strategiyası: qurulmuş dövlətin yeni siyasi kursu" adlı tarixi çıxışında rəsmi Astananın çoxvektorlu xarici siyasətinin əsası kimi balanslaşdırılmış, praqmatizm və qarşılıqlı faydalılıq prinsiplərinə söykənməklə yanaşı, milli maraqlarını təmin olunması əsas prioritet kimi göstərilir.

Qazaxıstanın yeni dövr dövlətçilik tarixində müstəsna xidmətləri olan və ilk prezidenti olmuş N.Nazarbayev həm region həm də qlobal aktorlar arsında beynəlxalq bazarlar, siyasi-iqtisadi təsir dairələri formalaşdırmaq və investisya yatırmaq baxımından kəskin rəqabət şəraitində Qazaxıstanın Avrasiyanın mühüm elementinə çevrilməklə yanaşı, Mərkəzi Asiyanın lider dövlətinə çevrilməli olduğunu bildirirdi. Bu konteksdə Xəzərdə ölkənin milli maraqlarının təmin olunması-təhlükəsizliyin tam təmin edilməsi, enerji və nəqliyyat sahələrinin inkişafına nail olmaq bəhs edilən strateji məqsədlərə çatmaq yolunda olduqca vacib faktor kimi dəyərləndirilirdi.

Dönəmin Qazaxıstan prezidenti N.Nazarbayev milli təhlükəsizliklə bağlı qəbul edilmiş "Qazaxıstan-2030" Strategiyasının həyata keçirilməsi ilə əlaqədar qeyd etmişdir ki, aparılan düzgün siyasət nəticəsində Xəzərdə etibarlı nəzarətə nail olundu. Gələcəkdə hər hansı ərazi mübahisələri ilə bağlı insident və hərbi qarşıdurma təh-

lükəsi tam olaraq aradan qaldırıldı. "Biz Xəzərdə qonşularla mübahisəli əraziləri nəsillərə buraxmadıq". İranlı diplomat M.X.Mehdiyan Qazaxıstanın Xəzərdə bütün qonşu dövlətlərlə sərhədlərinin müəyyənləşdirilməsində uğur əldə etməsində təmkinli və ardıcıl siyasətin aparılması ilə yanaşı, Qazaxıstanın Xəzərdəki əlverişli coğrafi mövqeyinin də az rol oynamadığını qeyd etmişdir. Qazaxıstanın Xəzərdə digər sahilyanı dövlətlərdən daha çox paya sahib olması danışıqlarda ona əlavə üstünlükər vermiş olurdu.

Yuxarıda aparılan təhlildən bu qənaətə gəlmək mümkündür ki, Xəzərin hüquqi statusu tək onun karbohidrogen ehtiyatları ilə deyil, yeni dünya düzənində həmçinin nəqliyyat-kommunikasiya imkanları ilə də həm sahilyanı həm də dünyanın nəhəng dövlətləri üçün xüsusi əhəmiyyət daşıyır. Qazaxıstanın Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində ardıcıl və davamlı mövqeyi Azərbaycana yaxınlığı ilə seçilirdi. Xəzərin hüquqi statusunun müəyyənləşməsi ilə həm sahilyanı dövlətlərin ərazi sərhədləri müəyyənləşdi, həm də region üçün təhlükə mənbəyindən biri aradan qalxmış oldu. Həmçinin hüquqi statusun müəyyənləşməsi Xəzərdə aktiv nəqliyyat-kommunikasiya siyasətinin aparılmasına şərait yaratdı.

Beləliklə Qazaxıstanın Xəzərin hüquqi statusunun müəyyənləşməsində izlədiyi ardıcıl siyasət nəticəsində aşağıdakılara nail olduğunu qeyd edə bilərik:

1. Xəzərdəki zəngin neft-qaz yataqlarının tam hüquqi əsasda, heç bir yan təsirə məruz qalmadan işlənilməsinin həyata keçirilməsinə nail olundu.
2. Xəzərdəki neft-qaz yataqlarının sərbəst şəkildə işlənilməsi Respublikanın sosial-iqtisadi inkişafı üçün geniş imkanlar yaratdı.
3. Sərhəd olduğu sahilyanı dövlətlərlə delimitasiya işlərinin həyata keçirilməsinə nail olmaqla özü üçün təhlükəsizlik çəmbəri formalaşdırdı.
4. Naviqasiya, gəmiçilik, balıqçılıq, elmi-tədqiqat işlərinin aparılması və digər məsələlərdə dövlət maraqlarının reallaşdırılması təmin edildi.

## IV.4. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Türkmənistanın mövqeyi

Xəzərdən istifadə məsələləri çar Rusiyası ilə Səfəvilər dövləti arasında 1723, 1735-ci illər, ardınca isə Rusiya ilə Qacar dövləti arasında 1813, 1828, 1881, 1894-cü illər, sövet dönəmində isə 1921, 1935, 1940-ci illər Rusiya (SSRİ)-İran müqavilələri ilə tənzimlənmişdir. 1991-ci ildə SSRİ-yə daxil olan Xəzərsahili dövlətlərin müstəqillik qazanması ilə Xəzərin hüquqi statusu məsələsi yeni məzmunda və formada meydana gəlsə də, sözügedən problem yuxarıda qeyd etdiyimiz kimi daha çox Azərbaycanın reallaşdırdığı "Əsrin müqaviləsi"nin imzalanması ilə siyasi akuallıq kəsb etdi. Təbii ki, sahilyanı dövlət olan Türkmənistan da Xəzərdəki maraqlarını qorumaq üçün aktiv siyasət yürütməli idi.

Türkmənistanın Xəzərin statusu ilə bağlı mövqeti ziddiyyətli və anlaşılmazlığı ilə seçilirdi. Gözlənilən idi ki, Türkmənistan Xəzərin sektorlara bölünməsi fikrini müdafiə edəcəkdir. Ən azından ona görə ki, onun da Xəzərdə karbohidrogen ehtiyatları var və bu resursların sərbəst hasilatı və satışı aşağı səviyyədə olan Türkmən iqtisadiyyatının inkişafı üçün əlavə imkanlar açа bilərdi. Amma, bunun əksinə olaraq, sözügedən dövlət ilk vaxtdan etibarən Rusiya və İranın yanında yer almağa, status məsələsində onlarla eyni fikirdə olduğunu nümayiş etdirməyə başladı. SSRİ dağıldıqdan sonra belə, Moskvanın Aşqabad üzərində təsir və təzyiqləri olduqca böyük idi. Xüsusən də, Sovetlər dönəmində Türkmənistan təbii qazının yalnız Rusiya kəmərləri vasitəsilə ixracı üçün infrastruktur qurulmuşdu ki, nəinki, müstəqilliyin ilk illərində hətta günümüzdə belə rəsmi Aşqabad müstəqil ixrac kəmərlərinin yaradılmasında Moskvanın təzyiqlərindən qurtula bilməmişdir. 1990-cı illərdə isə Türkmənistan təbii qazını yalnız Rusiya kəmərləri vasitəsilə ixrac edirdi. Hətta Avropa bazarlarında qaz ixracında inhisara sahib olmaq istəyən Rusiya Türkmənistan qazını quyuda ucuz qiymətə alaraq özü onun sahibinə çevirilməklə daha baha qiymətə köhnə qitəyə satırdı.

1990-cı illərin əvvəllərində siyasi baxımdan da Rusiya Türkmənistanı öz təsiri altında saxlayırdı. Bunınla yanaşı, sovetlər da-

ğıldıqdan sonra öz təsirini Türkmənistana yaymaq istəyən rəsmi Tehran da iqtisadi-siyasi və mədəni sferada Aşqabadla daha sıx əlaqələr qurmağa çalışırdı. Bu anlamda İranın da Türkmənistan üzərində təzyiqləri böyük idi. Başqa sözlə, status məsələsində Türkmənistanın Rusiya və İranla eyni mövqədə dayanması yuxarıda söylənilənlərlə bilavasitə bağlı idi. 1990-cı illərin I yarısında rəsmi Aşqabad beynəlxalq dəniz hüququnun prinsiplərinin Xəzərə şamil edilməsinin mümkünsüzlüyünü və onun daxili göl olduğunu irəli sürür və milli sektorlara bölünməsini təklif edirdi. Türkmənistan 1993-cü il 1oktyabr tarixində qəbul etdiyi 876-XII nömrəli "Dövlət sərhəddi haqqında" qanunun VI maddəsində Xəzərin 12 dəniz mili həcmində olan ərazisini özünün ərazi suları kimi qəbul emişdi. Sənədin VII maddəsi Türkmənistanın daxili suları adı altında verilmişdir və burada Xəzərin Türkmənistan sahilindəki bəzi liman və körfəzləri Türkmənistanın ərazi sularına aid edilirdi. Həmçinin burada daxili suların müəyyən edilməsinin üsulları da göstərilmişdi. Bunun ardınca Türkmənistan hökümətinin qəbul etdiyi qərarlar – 23 dekabr 1997-ci ildə Xəzərin sahil sərhədlərinin koordinatlarını müəyyənləşdirmək və həmin ilin sonunda Xəzərin özünə aid sektorunda neft-qaz axtarışlarını aparmaq və hasil etmək haqqında tender elan etməsi ilə rəsmi Aşqabad daxili qanunları ilə Xəzərdə ərazi sularını "müəyyənləşdirən" ilk dövlət oldu.

Türkmənistan Xarici İşlər nazirinin müavini professor E.Keipbanovun fikrincə Azərbaycanın Xəzərdəki neft-qaz yataqlarının Qərb şirkətləri ilə birgə işlənməsini nəzərdə tutan müqavilələrin bağlanması, ardınca Rusiya-Qazaxıstan və Qazaxıstan-Azərbaycan ikitərəfli müqavilələrinin imzalanması Türkmənistanın da mövqeyinin dəyişməsinə təsir etmişdir. Türkmənistan bir tərəfdən İranın təklif etdiyi 20%-lik bölgünü qəbul etməklə yanaşı, orta xətt prinsipi üzrə bölgünün də əleyhinə olmadığını bildirirdi. Türkmənistan Azərbaycan ilə meridian istiqamətində qarşı-qarşıya Xəzərdə sərhəd olduğundan orta xəttin tapılmasında anlaşılmazlıq yaranmışdır. Türkmənistanın belə mövqeyini – 20%-lik pay almağı, ardından isə sektorial bölgünü müdafiə etməsi mütəxəssislər tərəfindən rəsmi Aşqabad üçün sabitliyin və bütün sahilyanı dövlətlərin maraqlarının

təmin olunması variantının tapılmasına üstünlük verilməsi kimi qiymətləndirilir. Ekspertlər Türkmənistanın bitərəf siyasətinin Xəzərə də sirayət etdiyini qeyd edirlər.

Türkmənistan prezidenti S.Niyazov 1998-ci ilin iyununda "Независимая газета"-ya müsahibəsində qeyd etmişdir ki, dəyişən geosiyasi vəziyyət və sahilyanı dövlətlərin Xəzərdəki sektorial bölgü ilə əlaqədar atdıqları addımlar və karbohidrogen ehtiyatlarının aktiv işlənməsinə başlanması bizim də mövqeyimizin dəyişməsinə – sektorial bölgünü müdafə etməyimizə təsir göstərmişdir. Rəsmi Aşqabad Xəzərin dibinin sektorlara bölünməsinə tərəfdar olsa da, su səthinin ümumi istifadədə qalmasında Rusiya və Qazaxıstanın mövqeyini dəstəkləyirdi ki, bunu prezident S.Niyazovun 2001-ci ildə Qazaxıstana səfərinin yekununda imzalanmış birgə bəyanatda təsdiq edir.

Türkmənistan prinsip etibarı ilə Xəzərin orta xətt üzrə milli sektorlara bölünməsini qəbul etdiyini artıq səsləndirməkdə idi. Türkmənistan tərəfi iddia edirdi ki, dünya təcrübəsində dənizlərdə orta xəttin müəyyən edilməsində "xüsusi vəziyyətlər"in nəzərə alınması praktikası mövcuddur. Bu baxımdan Xəzərdə də "xüsusi vəziyyət" yaranmışdır ki, bunu da Abşeron yarımadası və Cilov adası əmələ gətirmişdir. Türkmənistanın orta xəttin müəyyənləşməsi ilə bağlı mövqeyini daha sadə dillə izah etsək bu qənaətə gəlmək olar ki, təbii landşaft olan Abşeron yarımadası və ona yaxın yerləşən Cilov adası hesaba alınmamalı idi. Bu isə BMT-nin 1982-ci il Beynəlxal Dəniz Hüququ konvensiyasının prinsiplərinə ziddiyyət təşkil edirdi.

Türkmənistan Rusiya və İranla birlikdə 1996-cı ildə "Üç ölkənin sahil sərhədlərində birgə kəşfiyyat və qazıntı işlərinin aparılması" haqqında memorandum imzalamışdır ki, bu da daha çox Azərbaycan və Qazaxıstanın Xəzərdəki fəaliyyətinə qarşı yönəlmişdir.

1997-ci ilə qədər Türkmənistan Xəzərin 45 millik müstəsna iqtisadi zonadan kənarda qalan hissəsinin sahilyanı dövlətlər tərəfindən ortaq istifadə olunması fikrini müdafiə edirdi. Bunu Xarici İşlər naziri Boris Şıxmuradovun çıxışından da aydın görmək olar: "Xəzər, sahilyanı dövlətlərin hər birinə 45 mil ölçüdə pay ayrılmaqla sektorlara bölünə bilər. 45 mil məsafədən kənarda qalan hissə isə neytral su ərazisi kimi qəbul edilməlidir".

1998-ci ildə o vaxtki Türkmənistan prezidenti S.Niyazov "Xəzərin statusu müəyyənləşənə qədər 1921-ci il Rusiya və İran və 1940-cı il SSRİ-İran arasındakı müqavilələr əsas götürülməlidir" fikrini müdafiə etdiyini bildirmişdir. Göründüyü kimi Rusiya və İranın mövqeləri bir daha Türkmənistan rəhbərliyi tərəfindən müdafiə olunurdu. Maraqlıdır ki, bu yanaşma ilə Xəzərsahili ərazidə Türkmənistan da daxil olmaqla 3 müstəqil dövlətin (Azərbaycan, Qazaxıstan və Türkmənistan) yaranması və onların tam hüquqi əsasda Xəzərdəki payları, eləcə də 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən aparılmış sektorial bölgü rəsmi Aşqabad tərəfindən hesaba alınmırdı.

Azərbaycanın Qərb neft şirkətləri ilə neft-qaz yataqlarının birgə işlənməsi haqqında apardıqları danışıqların və bağladığı müqavilələrin praktik müstəviyə daxil olması Türkmənistanın tərəfindən kəskin etirazla qarşılanmışdı. Yeri gəlmişkən burada da Türkmənistan Rusiya və İranla birgə Azərbycanın reallaşdırdığı enerji layihələrinə qarşı çıxmışdı.

1997-ci ildən Türkmənistan 45 mil xüsusi iqtisadi zona xaricində ümumi istifadə prinsipindən əl çəkərək sektorial bölgü təklifini irəli sürdü. Bu o vaxta təsadüf edirdi ki, Rusiya Qazaxıstanla Xəzərin şimal hissəsinin dibinin bölüşdürülməsi ilə bağlı aktiv danışıqlar aparırdı. Gözləmək olardı ki, nəhayət ki, Türkmənistan konstruktiv bir mövqe sərgiləyəcək. Amma bu dəfə də rəsmi Aşqabad Xəzərdə "yeni orta xətt" təklif etdi və Azərbaycanın bir neçə yatağının ona məxsus olduğunu bildirdi.

**Türkmənistanın Xəzərdə Azərbaycan ilə su sərhədlərinin müəyyənləşdirilməsi istiqamətində fəaliyyəti və Azərbaycanın neft qaz yataqlarına iddiası.** Türkmən tərəfi 1997-ci ildə İslam Konfransı Təşkilatının Aşqabadda keçirilən konfransında Azərbaycanın ən perespektivli yataqlarından olan "Azəri" və "Çıraq" yataqlarına iddia irəli sürdü. "Kəpəz" yatağının isə tamamilə onlara məxsus olduğunu bildirdi. Bir az da irəli gedərək "Azəri" və "Çıraq" yataqlarının adlarını dəyişərək müvafiq olaraq "Osman" və "Türkmənbaşı" adlandırıb, Azərbaycanla "bazarlıq" etməyə çalışdı. Türk-

mənistan rəsmiləri nüəyyən miqdarda kompensasiyanın ödənilməsi müqabilində “Azəri” və “Çıraq” yataqlarına olan iddialarından əl çəkməyə hazır olduqlarını bildirdilər. 1997-ci ilin yanvarın 25-də Türkmənistanın bu mövqeyinə cavab olaraq Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən sözügedən yataqların Azərbaycana məxsusluğunun hərtərəfli şərhini və rəsmi Aşqabadın iddialarının isə həm beynəlxalq hüquq, həm də tarixi-coğrafi baxımdan əsassız olduğunu ehtiva edən məktub qarşı tərəfin eyniadlı orqanına göndərildi. Məktubda həmçinin, 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən aparılmış sektorial bölgü xatırladılır və həmin bölgüyə əsasən “Azəri” və “Çıraq” yataqlarının Azərbaycana məxsusluğunun aydın göründüyü qeyd edilməklə yanaşı, tarixi-mədəni və soykök yaxınlığını, eləcə də hər iki tərəfin suverenliyinə hörmət əsasında həmin yataqların kəşfiyyatı və mənsubiyyətini müəyyənləşdirmək üçün birgə komissiyanın yaradılması təklif edilirdi.

Türkmənistanla Azərbaycan arasında əsas mübahisə doğuran “Kəpəz” yatağı idi. Qeyd edək ki, bu yataq 1959-cu ildə seysmik kəşfiyyatın əks olunan dalğa üsulu ilə Azərbaycan geoloqları tərəfindən aşkar edilmiş və ona ölkəmizdəki dağlardan birinin adı (Kəpəz) verilmişdir. “Kəpəz” yatağı Bakıdan 160 kilometr cənub-şərqdə “Azəri” neft yatağına yaxın ərazidə yerləşir. Burada dənizin dərinliyi 30-90 metr arasında dəyişir. 44,55 $km^3$ sahəyə malik olan yataq şimal-qərb və cənub-şərq istiqamətində uzanmaqla, biri uzununa olmaqla hər bir qanadı 4 eninə qırılma ilə davam edir ki, bu da onun strukturunu xeyli mürəkkəbləşdirir.

Sözügedən yataqda 1983-cü ildən qazma işlərinə başlanmış və 1988-ci ildə neft və qaz sahəsinə çatmaq mümkün olmuşdur. Lakin dərin qatlarda olan bu karbohidrogen ehtiyatlarını çıxarmaq həmin dövr sovet texnologiyası ilə mümkün olmadığından yataq işlənməmiş vəziyyətdə qaldı. Türkmənistan tərəfinin kəskin etirazlarından sonra 1998-ci il avqustunda prezident H.Əliyevin fərmanı ilə bu məsələləri həll etmək üçün Xüsusu İşçi Qrupu yaradılmışdır.

Yeri gəlmişkən qeyd edək ki, 1997-ci ilin avqustunda “ARDNŞ” Rusiyanın “LUKoyl” və “Rosneft” şirkəti ilə Xəzərin

Azərbaycan sektorundakı Kəpəz yatağının hasilatın pay bölgüsü əsasında işlənməsi haqqında müqavilə bağlanmış, lakin Türkmənistan tərəfinin etirazları nəticəsində Rusiya rəsmiləri tərəfindən birtərəfli olaraq xitam verilmişdi. Ardınca həmin ilin 1 sentyabrında Türkmənistan höküməti "Sərdar" adlandırdıqları bu yataqla bağlı (Kəpəz) bərabər pay bölgüsü əsasında ABŞ-ın "Mobil" şirkəti ilə müqavilə bağlasa da bu dəfə Azərbaycan tərəfinin etirazları nəticəsində "Mobil" şirkəti rəsmiləri bağlanmış sazişdən çıxdıqlarını bəyan etdilər. "Kəpəz" yatağının kimə məxsusluğunun həlli Xəzərdə Azərbaycan və Türkmənistan arasında orta xəttin kordinatlarını müəyyən edəcək elementlərin razılaşdırılması, bazis nöqtələrinin tapılması ilə bağlı idi. Qeyd olunan məsələlərin həllini tapması ilə Xəzərdə tərəflər arasında delimitasiya işlərinin aparılması mümkün ola bilərdi. Türkmənistanın aidiyyatlı nümayəndələri hesab edirdilər ki, orta xətt müəyyənləşdirilərkən Abşeron yarımadası və Cilov adası nəzərə alınmamalıdır. Gerçəkilkdə, beynəlxalq hüquqda və təcrübədə belədir ki, bazis xətt ölkənin sahil xətlərinin konfiqurasiyası əsasında müəyyən olunur və başlanğıc nöqtə kimi məsafə oradan ölçülür. Abşeron yarımadası 60 km məsafədə Xəzərin içərilərinə doğru uzanır. Ölkə əhalisinin təxminən 30%-dən çoxunun cəmləşdiyi Abşeron yarımadasında həmçinin Azərbaycanın paytaxtı yerləşir. Bütün bunlar isə Türkmənistan ilə Azərbaycan arasında Xəzərdə orta xəttin müəyyənləşməsi üçün bazis nöqteyi baxımından Abşeron yarımadası üçün tam dominant coğrafı şərait yaratmış olur. Bununla yanaşı, Abşeron Azərbaycanda sahil xüsusiyyətlərinin demək olar ki, bütün elementlərinə malik olmaqla delimatasiyanın həyata keçirilməsi üçün coğrafi baxımdan vacib bazis hesab edilə bilər. Aparılan qısa təhlildən aydın olur ki, Abşeron yarımadası qarşı tərəfin (Türkmənistan nəzərdə tutulur) irəli sürdüyü kimi təsadüfi və yaxud xüsusi hal olmayıb, Azərbaycan Respublikasının təbii landşaftına tamamilə uyğundur. Problemə hüquqi tərəfdən yanaşdıqda da aydın olur ki, nüfuzlu beynəlxalq məhkəmələrin, o cümlədən Beynəlxalq Haaqa Məhkməsinin çıxardığı qərarların izahatında qeyd olunur ki, coğrafiya, təbii landaşft təftiş olunmur və təbii olan

xarakterik cəhətlərə görə hansısa bir tərəfə nəinki güzəşt edilmir, ümumiyyətlə bu məsələyə baxılmır. Başqa sözlə, Azərbaycan ilə Türkmənistan arasında Xəzərdə delimitasiyanın aparılması üçün Abşeron yarımadasının nəzərə alınmaması beynəlxalq hüquq və eləcə də təcrübə baxımından tam əsassızdır.

Cilov adasına gəlincə 7 km uzunluğunda, 5 km enində olan bu ada 8 mil məsafədə dənizin içərisində yerləşir. Cilov adası Azərbaycan tarixinin bir çox qarnlıq səhifələrinə (repressiya olunanların əksəriyyəti məhz bu adada güllələnmişdir) mənzil-qərargahlıq etsə də XX əsrdən başlayaraq burada böyük sayda əhali yaşamaqda davam edir və onlar burada iqtisadi fəaliyyətlə məşğul olurlar. Coğrafi baxımdan və batimetriyasına görə Cilov adası materik ərazinin davamı kimi qəbul olunur. Hüquqi baxımdan isə 1982-ci ilə BMT tərəfindən qəbul edilmiş Beynəlxalq Dəniz Hüququ Konvensiyasına görə sahilə yaxın ərazidə yerləşən adalar orta xəttin müəyyənləşdirlməsi üçün bazis kimi götürülə bilər. Həm coğrafi, həm də hüquqi baxımdan Cilov adasının Xəzərdə Türkmənistan ilə delimitasiya işlərini aparmaq üçün bazis xəttinin bir hissəsi kimi götürülməsi üçün heç bir əngəl yoxdur. Türkmənistanın iddialarının heç bir elmi və hüquqi əsası yoxdur.

1970-ci il sektorial bölgüsü zamanı orta xətt "Kəpəz" yatağından keçsə də. O Azərbaycan sektoruna aid edilmişdir.




***Şəkil 28. İranın Xəzərdə tələb etdiyi sərhəd xəttinin qrafik təsviri***

Azərbaycan İran ilə də Xəzərin delimitasiyası işlərini həyata keçirməmişdir. Türkmənistan ilə yaşanan problemlər-əsasən orta xəttin müəyyən edilməsi metodologiyası İran ilə də həll olunmamış qalır.

Əslində Türkmənistan ilə Azərbaycan arasında gərgin münasibətin qalması, ortaq məxrəcə gəlinməməsi daha çox Rusiya və İranın maraqlarına uyğun gəlirdi. Moskva və Tehran üçün status hüquqi məsələ olmaqdan daha çox geo-siyasi və geo-iqtisadi məsələ idi. Avropanın qaz bazrında inhisarçı mövqeyini qoruyub saxlamağa çalışan Rusiya Türkmənistan qazının alternativ kəmərlə ixracına imkan verməк istəmirdi. Türkmən qazının Avropaya nəqli üçün isə ən optimal yol məhz Azərbaycandan keçməklə Türkiyə ərazisi ilə nəql olunması idi. Türkiyə hökuməti də təbii qaza olan ehtiyacının bir hissəsini məhz Türkmən qazı hesabına ödəmək istəyirdi. Təsadüfü deyidir ki, 1999-cu ildə ATƏT-in İstanbul Zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə bağlı qərar verildikdə, həmçinin Türkmənistan qazının da Türkiyə vasitəsi ilə nəqli ilə bağlı prezident S.Niyazovla razılıq əldə olunmuşdur. Amma Rusiyanın təzyiqləri fonunda bu layihə donmuş şəkildə qaldı. Bu həm də, Ankaranın coğrafi üstünlüklərindən yararlanaraq bir enerji tranziti mərkəzi olmaq istəyi ilə də üst-üstə düşürdü. Günümüzdə də Trans-Xəzər layihəsi aktual olaraq qalır. Rusiya sözügedən layihənin reallaşmaması üçün bütün mümkün vasitələrdən istifadə edir. Bununla yanaşı, İran da çalışırdı ki, Türkmən qazının ixracında əsas tranzit ölkə funksiyasını öz üzərinə götürsün. Amma, İranın Qərb ölkələri ilə gərgin münasibətləri və ona qarşı tətbiq olunmuş sanksiyalar buna imkan vermir. Digər tərəfdən, cənub qonşumuz özü Türkmənistandan daha çox təbii qaz ehtiyatlarına malik olsa da, sanksiyalar səbəbilə onu sərbəst şəkildə ixrac edə bilmir və bu müstəvidə rəsmi Aşqabad istər-istəməz Tehranla bir rəqabət halında olurdu. Bununla yanaşı, Türkmənistan status məsələsində Azərbaycanla razılığa gələcəyi halda Tehran Moskva kimi güclü müttəfiqini itirdikdən sonra (1998-ci ildə Rusiya və Qazaxıstan arasında statusla bağlı müqavilə bağlanması ilə) sonuncu tərəfdaşını da əldən buraxmaqla demək olar ki, Xəzərdə "tək" qala bilərdi.

“Kəpəz” yatağı ilə bağlı mübahisəni nizama salmaq üçün Azərbaycan hökümədi sözügedən yatağın birgə işlənməsi təklifini irəli sürmüşdür ki, bunu da mütəxəssislər Türkmənistan üçün olduqca əlverişli hesab etmişdir. Azərbaycanın malik olduğu infrastruktur və ixrac qaz kəmərləri qarşı tərəfi əlavə xərclərdən, məsuliyyətdən və vaxt itkisindən azad edə bilərdi. Maraqlıdır ki, sözügedən yataq 1970-ci il məlum sektorial bölgüsünə görə Azərbaycana aid edilmiş və sonra isə ilkin işlərə başlamaq üçün lisenziya alınmışdır. Bütün bunları isə qarşı tərəf susqunluqla qarşılamış və hansısa formada etirazını bildirməmişdir. Müstəqiilik dönəminin ilkin illərində də eynən rəsmi Aşqabadın bu məsələ ilə bağlı nə Azərbaycan tərəfinə nə də aidiyyatı beynəlxalq təşkilatlara bir etirazı olmamışdır. Beynəlxalq müqavilə hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 45-ci maddəsində estopped prinsipi öz əksini tapıb. Bu prinsipə görə dövlətlərarası münasibətlərdə tərəflərdən biri baş vermiş fakta davamlı olaraq etirazını bildirməyibsə və susmaqla razılığını ifadə edibsə, müəyyən vaxtdan sonra həmin fakt əleyhinə hüquqi iddia qaldıra bilməz.

1997-ci il dekabrın 8-də İslam Konfransı Təşkilatının Tehranda keçirilən VIII Zirvə toplantısı çərçivəsində Azərbaycanla Türkmənistan arasında Xəzərin təbii ehtiyatlarının birgə işlənməsi məsələləri ilə bağlı qarşılqlı surətdə faydalı əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə işçi qrupunun yaradılması zəruriliyi bildirildi. Bunu ardınca isə 1998-ci il yanvarın 6-da Azərbaycan Respublikasının prezidenti H.Əliyev “Xəzər dənizində orta xətt kordinatlarına dair Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında danışıqlar aparılması üçün ekspert qrupunun yaradılması haqqında” sərəncam verdi. Sərəncama uyğun olaraq “ARDNŞ”-nin prezidenti N.Əliyev ekspert qrupunun rəhbəri təyin olunmuşdur. Analoji addım 1998-ci ilin yanvarın 13-də Türkmənistan prezidenti tərəfindən də atıldı. Türkmənistan Neft-Qaz Sənayesi və Mineral Ehtiyatlar naziri B.Sarcayevin rəhbərliyi altında ekspert qrupu yaradıldı. Ekspert qrupları Aşqabadda və Bakıda görüşlər keçirib, müzakirələr apararaq mübahisəli məsələlərin həlli yollarının tapılmasına çalışmışdır. Ekspert qruplarının rəsmi məlumatında bildirilirdi ki, “Tə-

rəflər razılaşmışdırlar ki, sahilyanı dövlətlər Xəzərdə müvafiq milli sektorlarda təbii ehtiyatlardan istifadə olunmasında müstəsna hüquqlara malikdirlər. Tərəflər beynəlxalq hüquq normalarına və mövcud təcrübəyə uyğun olaraq milli sektorlara və yurisdiksiya zonalarına bölünmə prinsiplərini əsas götürərək, Xəzərdə yaranmış praktikanı nəzərə almaqla orta xətt kordinalarının müəyyənləşdirilməsinə dair danışıqları ekspert qrupları çərçivəsində davam etdirmək barədə razılığa gəlmişdilər. Bu tipli bəyanatlar digər Türkmənistan rəsmilərinin dilindən səslənsə də problemin həlli ilə bağlı ciddi addımlar nəinki atılmırdı, əksinə bəzən rəsmi Aşqabad tərəfindən səsləndirilən hərbi ritorika səciyyəli bəyanatlar, hərbi eskalasiyaya keçid kimi təhdidlər tərəflər arasında gərginliyi artırmışdır. Hətta, Türkmənistan tərəfi 2001-ci ildə Azərbaycandakı səfirini belə geri çağırmışdır. Türkmənistanın sözügedən yataqda seysmoloji tədqiqat işlərinin aparılmasına başlaması Azərbaycanın etirazları ilə qarşılanmışdır. Azərbaycan Xarici İşlər Nazirliyi qarşı tərəfə Xəzərin hüququ statusu müəyyənləşməyənə qədər birtərəfli şəkildə, qarşılıqlı razılıq olmadan istənilən fəaliyyətə başlanılmasının Azərbaycan tərəfindən qəbuledilməz olduğunu çatdırmışdır.

13-14 may 1997-ci ildə Aşqabadda Türkmənistan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Özbəkistan, Türkiyə və Tacikistan dövlət və hökumət başçılarının sammiti çağırıldı. Sammitdə infrastruktur, nəqliyyat, həmçinin Xəzər hövzəsindən beynəlxalq neft-qaz kəmərləri şəbəkəsinin inkişaf perspektivləri müzakirə edildi. Bu artıq Xəzər problemlərinin sahilyanı dövlətlərdən kənarda müzakirə olunduğunu və sırf regional problem çərçivəsindən kənara çıxdığını aydın göstərmiş oldu.

Türkmənistan Xəzər sahili dövlətlərdən Rusiya istisna olmaqla digərləri ilə həmsərhəddir. Xatırladaq ki, sahilyanı dövlətlərin hamısı ilə sərhəddi olan yeganə dövlət Azərbaycandır. Ona görə də Türkmənistan Qazaxıstan ilə də Xəzərdə sərhədlərini müəyyənləşdirməli idi. 1997-ci il fevralın 27-də Qazaxıstanın o zamanki paytaxtı Alma-Atıda Türkmənistan prezidenti S. Niyazovla Qazaxıstan prezidenti N.Nazrbayev hər iki dövlətin su sərhəddi məsələsini mü-

zakirə edərək bu qənaətə gəldilər ki, Xəzərin hüquqi statusuna dair yekun konvensiya qəbul olunana qədər 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən orta xətt prinsipi üzrə bölünməsini rəhbər tutaraq, hər bir dövlət mövcud sektoru daxilində karbohidrogen ehtiyatlarının sərbəst şəkildə kəşfiyyatını və hasilatını həyata keçirə bilər. Qeyd olunan bu məsələlər hər iki dövlətin imzaladığı yekun bəyanatda da öz əksini tapmış oldu. Bununla yanaşı, Türkmənistanın mövqeyində qeyri sabitlik yenə də qalmaqda idi. Belə ki, 1998-ci ilin iyulunda İran Xarici İşlər naziri K. Xərrazinin Xəzərin statusu və onun karbohidrogen ehtiyatlarının işlənməsində və ixracında Tehranın maraqlarının təmin olunması ilə əlaqədar Bakı, Alma-Ata və Aşqabada səfərləri olmuşdur. İranın birinci diplomatının Aşqabadda apardığı danışıqlar zamanı Türkmənistan tərəfi ilə Xəzərin statusu üçün optimal variant kimi ümumi orta hissə müəyyən edilməklə, milli zonaların saxlanması prinsipinin qəbul edilməsi, sektorial bölgü olduğu halda isə hər bir dövlətin bərabər pay alması haqqında razılıq əldə edilmişdir.

2001-ci ildə Türkmənistanla Azərbaycan arsında münasibətlər səfirlərin geri çağırılmasına qədər gərginləşdi. 23-24 aprel 2002-ci ildə Xəzəryanı dövlət başçılarının Aşqabadda keçirilən I Zirvə Toplantısı nəticəsiz başa çatmaqla yanaşı, Azərbaycan və Türkmənistan arasında gərginliyin artmasına səbəb oldu. Təsadüfü deyildir ki, Türkmənistan prezidenti S.Niyazov Xəzərin qan qoxuduğunu söyləyirdi.

Q.Berdiməhəmmədovun Türkmənistanda siyasi rəhbərliyə gəlişindən sonra rəsmi Aşqabadın mövqeyində praqmatiklik nəzərə çarpmağa başladı. 19-20 may 2008-ci il tarixində Q.Berdiməhəmmədovun Azərbaycana 28 noyabr 2008-ci ildə isə İ.Əliyevin Türkmənistana qarşılıqlı rəsmi səfərləri zamanı iki ölkə arasında bir çox sahələr üzrə, o cümlədən, Xəzərin hüquqi statusu ilə bağlı geniş müzakirələr aparılmışdır. Səfər gedişində Azərbaycanın hələ ötən əsrin 90-cı illərində Türkmənistandan aldığı təbii qaza görə yaranan borcların bağlanması və tərəflər razılığa gələnə qədər "Kəpəz" yatağında kəşfiyyat və hasilat fəaliyyətinin göstərilməməsi ilə bağlı razılıq əldə olundu. Əldə olunmuş razılığa baxmayaraq, 2012-ci il 19-20 iyun tarixlərində Türk-

mənistana aid seysmoloji və geoloji işlərlə məşğul olduğu iddia edilən gəminin Azərbaycan tərəfindən saxlanılması, rəsmi Bakı tərəfindən 2008-ci ildə iki dövlət arasında əldə olunmuş razılığa zidd olduğunun bildirilməsinə rəğmən qarşı tərəfin narazılğına səbəb olmuşdur.

Türkmənistan uzun tərəddüdlərdən sonra Xəzərin sektorlara bölünməsini qəbul etsə də orta xəttin müəyyənləşməsində Azərbaycanla hələ ki, razılığa gələ bilməmişdir. Türkmənistan tərəfinin rəyinə görə orta xətt müəyyənləşərkən Abşeron yarımadası nəzərə alınmamalıdır.

Türkmənistanda da digər sahilyanı dövlər kimi aparılan danışıqların əlaqələndirilməsi və problemin praktik həlli istiqamətində vahid fikir formalaşdırmaq, çevik reaksiya göstərmək ehtiyacından prezident Q.Berdiməhəmmədovun 11 aprel 2007-ci il 8524 nömrəli fərmanı ilə Xəzər dənizi üzrə İdarələrarası Komissiya yaradılmışdır. Xatırladaq ki, bu komissiyanın yaradılmasına qədər Türkmənistanda Xəzər dənizi institutu fəaliyyət göstərirdi ki, o bu komissiya ilə paralel işini davam etdirirdi. İdarələrarası Komissiyanın səlahiyyətinə Xəzərin təkindən istifadə, balıqçılıq, gəmiçilik, ekoloji monitorinq və s. fəaliyyət sahələrini əlaqələndirilməsi, tənzimlənməsi ilə bərabər hüquqi statusun müəyyənləşməsi istiqamətində aparılan danışıqlarda rəsmi Aşqabadın yanaşmasını işləyib hazırlamaq daxil idi. Bundan əlavə, ümumiyyətlə Türkmənistanın Xəzər ilə bağlı atdığı istənilən addım, imzalanan müqavilə bu Komissiyanın daxilində müzakirə olunduqdan sonra mümkün olurdu. Bu kontekstdə Xəzərin delimitasiyası məsələsində Türkmənistanın mövqeyinin müəyyənləşməsi, təkliflərin işlənib hazırlanması, sahilyanı dövlətlərlə konsensus əldə edilməsi şərtləri də adıçəkilən Komissiyanın səlahiyyətinə aiddir. Komissiyanın tərkibi və sədri prezident tərəfindən təsdiq olunur. 2017-ci ildən İdarələrarası Komissiyanın sədri vəzifəsini Xarici İşlər naziri R.O.Meredov icra edir. R.O.Meredov həmçinin Baş Nazirin müavinidir.

Nəhayət 2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində sahilyanı dövlət başçılarının V Zirvə görüşündə Xəzərin yekun huquqi statusu ilə bağlı sənəd imzalandı. Digər bölmədə bu haqda ətraflı təhlil aparıldığından burada yalnız sərhədlərin delimitasiyası ilə bağlı məlumat verməklə kifayətlənəcəyik. Sənədin VI

maddəsində tərəflərdən hər birinin quru ərazisinin və daxili sularının davamı kimi Xəzərdə ərazi suları qəbul olunur. Onun dibi, səthi və bunun üzərindəki hava məkanı ərazi suları kimi qəbul olunurdu.

Quru sərhəd ərazilərində olduğu kimi burada da su ərazilərinin delimitasiyasının mümükünlüyü öz əksini tapmışdır. Sərhədləri olan dövlətlər arasında daxili və ərazi sularının delimitasiyası beynəlxalq hüquq prinsipləri və normalarını nəzərə alaraq, onların aralarında razılığa əsasən həyata keçirilir.

Konvensiyada Xəzərin həm dibinin, həm də su səthinin bölünməsinin ümumi prinsipləri müəyyən olunub. Konkret olaraq sərhədlərin müəyyənləşdirilməsi isə Xarici İşlər Nazirlikləri çərçivəsində yaradılmış işçi qrup tərəfindən işlənib hazırlanacaqdır.

Türkmənistan üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də Xəzərin dibi ilə qaz kəmərinin çəkilməsidir ki, yekun hüquqi konvensiyada da buna tam aydınlıq gətirilməmişdir. Konvensiyanın XIV maddəsinin I bölümündə Xəzərin dibi ilə boru kəmərlərinin çəkilişinə icazə verildiyi halda, həmin maddənin II bölümündə isə qeyd olunur: Tərəflər öhdəlik götürür ki, Xəzərin dibi ilə boru kəməri çəkilməsi Xəzərin dəniz mühütünün qorunması üzrə Cenevrə konvensiyası və ona əlavə edilmiş protokollar da daxil olmaqla tərəfdar olduqları beynəlxalq müqavilələrdə əksini tapmış ekoloji standartlara uyğun olsun. Qeyd edək ki, Xəzərin dəniz mühütünün qorunması haqqında Cenevrə konvensiyası dedikdə 2003-cü ildə Tehranda imzalanmış sənəd nəzərdə tutulur ki, burada da əsas ekoloji müddəalar və onların reallaşması üçün mexanizmlərin qurulması və tərəflərin öhdəlikləri yer almışdır. 20 iyul 2018-ci ildə Moskvada Tehran konvensiyası iştirakçılarının iclasında Transsərhəd konteksində ətraf mühitə təsirlərin qiymətləndirilməsi haqqına Protokol inzalanmışdır. Adları çəkilən hər iki sənədə əsasən Xəzərin dibi ilə istənilən boru kəmərinin çəkilməsi bütün sahilyanı dövlətlərlə razılaşdırılmalıdır və bu kəmər sahilyanı ölkələrin yekdilliklə Xəzərin ekosistemınə zərər verməyəcəyi barədə rəy alındıqdan sonra reallaşa bilər. Təbii ki, bu da əsas verir ki, Rusiya və İran Trans Xəzər layihəsinin reallaşmasına imkan verməsin.

Düzdür, Türkmənistan ilə Azərbaycan arasında mübahisəli "Kəpəz" ("Dostluq") yatağının birgə işlənməsi ilə bağlı 2021-ci ilin yanvar ayında razılıq əldə olunsa da sərhədlərin müəyyənləşdirilməsi hələ də yekunlaşmamışdır. Bununla belə, "Kəpəz" ("Dostluq") yatağı haqqında razılığın əldə edilməsi yaxın vaxtlarda sərhədlərin müəyyənləşməsində də irəliləyişin olacağına ümidləri artırmış olur.

Beləliklə Türkmənistan Xəzərin hüquqi statusu ilə bağlı ziddiyyətli bir siyasət izləmişdir və daha çox gərginlik Azərbaycanla yaşanmışdır. Xəzərin yekun hüququ statusu imzalansa da Azərbaycan ilə bağlı mübahisəli məsələlər tam həll olunmamış qalmış və bu işçi qrupuna tapşırılmışdır.

## IV.5. Xəzərin hüquqi statusunun müəyyənləşməsində İranın mövqeyi

Xəzər uzun müddət-XIX əsrin əvvəllərindən XX əsrin sonlarına qədər Rusiya (daha sonra SSRİ) və Iran arasında bərabər olmayan şəkildə istifadə edilmişdir. SSRİ-nin dağılması ilə yaranan yeni geosiyasi və geoiqtisadi gerçəkliklər Xəzərə – onun strateji əhəmiyyətinə, zəngin neft-qaz resurslarına marağı daha da artırırdı ki, bu da özlüyündə adıçəkilən su hövzəsindən istfadənin hüquqi əsaslarının yaradılmasını qaçılmaz edirdi. Xəzər həmçinin təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb etməkdə idi ki, bu aspektdə sahilyanı dövlətlərin su hövzələri onların ümumi ərazilərinin tərkib hissəsi kimi sərhədlərini müəyyənləşdirirdi. İran Xəzərin statusu ilə bağlı 1921-ci il RSFSR-İran və 1940-cı il SSRİ ilə İran arasında bağlanmış müqavilələrə əsaslanmalı olduğunu bildirirdi.

İranın Xəzərin hüquqi statusu ilə bağlı rəsmi olaraq ilk yanaşması 1992-ci ilin fevralında İƏT-in Tehranda keçirilən konfransında məlum oldu. İran Prezidenti Ə.H.Rəfsəncani Xəzərin problemlərini həll etmək üçün bir təşkilatın qurulmasına ehtiyacın olduğunu səsləndirdi. Sonrakı dönəmdə sahilyanı dövlətlərin Xarici İşlər nazirlərinin birinci müavinlərinin iştirakı ilə formalaşdırılan Xüsusi İşçi Qrupu bu missiyanı həyata keçirməyə başladı.

İlk olaraq İran rəsmiləri bildirirdilər ki, yuxarıda qeyd olunan müqavilələrə (1921 və 1940-cı il müqavilələri nəzərdə tutulur) əsasən Xəzər Rusiya və sonra isə SSRİ ilə İran arasında müştərək istismar edilmişdir. 1991-ci ilin dekabrında Alma-Atı deklarasiyasını imzalayan Qazaxıstan, Türkmənistan və Azərbaycan SSRİ-nin xələfləri olduğunu və onun imzaladığı bütün müqavilələri tanıdığını rəsmən bildirməklə bu xüsusda da sözügedən müqavilələr əsasında davranmalıdırlar. Bu əsnada İran ilk olaraq Xəzərin yarısının – 50%-nin ona aid olduğunu iddia edirdi. Yerdə qalan 50% isə 4 sahilyanı dövlət (Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan) arasında bölünməsini istəyirdi. İranın siyasi mühütü ilə yaxından tanış olduqda aydın olur ki, ölkə daxilindəki bəzi siyasi qüvvələr Xəzərin hüquqi statusu məsələsində reallıqdan uzaq və mümkünsüz görünən təklifləri ilə hökümətı bu məsələdə "dişsizlik" göstərməkdə tənqid etməklə daxili auditoriyanın rejimə qarşı ələ alınmasında istifadə etmək istəyirdilər. Müxalif qruplar hesab edirlər ki, İslam inqilabından öncə Tehranın maraqları Xəzərdə indikindən daha yaxşı və güvənli qorunurdu. Bu siyasi baxışın tərəfdarları iddia edirdilər ki, balıqçılıqdakı 10 millik məsafənin xaricində suyun həm dibi, həm də səthinin 50%-i İrana verilməlidir. İranın bu təklifi heç bir sahilyanı dövlət tərəfindən təbii ki, dəstəklənmədi. Hətta, əksinə bu dövlətlər arasında hiddətə səbəb oldu. Qeyd edək ki, nə çar Rusiyası, nə də Sovet dönəmində heç bir vaxt Xəzərdən bərabər əsasda istifadə mövcud olmamışdır. Xəzərdən gəmiçilik balıqçılıq və hərbi baxımdan daha çox yararlanan əvvəl çar Rusiyası, ardından isə onun varisi SSRİ olmuşdur. Hətta, SSRİ dönəmində-konkret olaraq 1949-cu ildən başlayaraq Azərbaycan sahillərinə yaxın hissədə böyük həcmli neft hasilatına başlanılmışdır. Rəsmi Tehran isə bütün bunlara seyirci qalmışdır. XX əsrin əvvəllərində (1905-1913-cü illərdə) Rusiya İranın Xəzərdə tək limanı olan Ənzəli limanının yenidən qurulması üçün böyük vəsaitlər qoymuşdur. Belə davranışlar isə İran tərəfindən heç vaxt olmamışdır. Digər tərəfdən, belə yanaşmanın hüquqi əsası olmadığı kimi İranın real iqtisadi-siyasi və hərbi gücü ilə də səsləşmirdi. Statusla bağlı belə yanaşmalar birinci mərhələ

(1992-1995-ci illər) üçün xarakterik idi və daha çox qarşı tərəflərin “nəbzini yoxlamaq” üçün edilirdi. Qeyd etdik ki, İran daha çox Sovet Rusiyası ilə İran arasında 1921-ci il 26 fevralda bağlanmış “Dostluq və əməkdaşlıq haqqında” və 1940-cı il 25 martda imzalanmış Tehran müqaviləsini əsas götürərək Xəzərin ortaq şəkildə istismar edilməsi tərafdarı olduğunu bildirmişdir. 1921-ci il müqaviləsi ilə Rusiya ilə İran arasındakı əvvəlki müqavilələr qüvvədən düşmüş hesab edilir və o cümlədən Türkmənçay müqaviləsinin 14-cü maddəsində göstərilən Xəzərdə donanma saxlamaq hüququnun yalnız Rusiyaya məxsus olması ifadəsi də əhəmiyyətini itirmiş oldu.

1940-cı il Tehran müqaviləsi isə 27 avqust 1935-ci il müqaviləsinin şərtlərini bir daha təsdiqləmiş olurdu. Belə ki, bu müqavilənin 14 və 15-ci maddələrinə görə hər iki tərəf üçün sərbəst naviqasiya hüququ tanınırdı. Bundan əlavə isə müqavilədə hər iki tərəf üçün 10 mil dəniz məsafəsində sərbəst balıqçılıq sahəsi nəzərdə tutulurdu. Elə həmin ildə (1935-ci ildə) SSRİ Xəzərdəki payını müəyyənləşdirmək üçün Daxili işlər naziri H.Yaqodanın rəhbərliyi altında İran ilə sərhəd xəttinin müəyyənləşdirilməsinə başladı. Nəticədə Türkmənistanın Həsən Quli (Əsən gül) ərazisindən Azərbaycanın Astara bölgəsinə düz xətt istiqamətində Xəzərdəki SSRİ-İran sərhəddi müəyyənləşmiş oldu. Xatırladaq ki, bu həmçinin, SSRİ-nin cənub sərhəddi hesab edildi. Bu bölgü ilə Xəzərin 88%-i SSRİ-nin, 12%-i isə İranın payına düşürdü.




*Şəkil 29. Xəzərin SSRİ ilə İran arasında bölüşdürülməsi (rəqəmlərlə)*

1940-cı il Tehran müqaviləsinin də 4-cü maddəsi ilə 10 mil məsafədə sərbəst balıqçılıq sahəsi nəzərdə tutulsa da burada Xəzərin hüquqi statusu haqqında konkret heç nə deyilmirdi. Yuxarıda göstərdiyimiz müqavilələrə də istinad edilərək deyə bilərik ki, heç bir vaxt Xəzərin istismarı ortaq şəkildə həyata keçirilməmişdir. Misal olaraq, 1949-cu ildə SSRİ təktərəfli olaraq Xəzərdə neft hasilatına başlayanda İran tərəfi hansısa rəsmi formada nə buna, nə də 1935-ci il SSRİ ilə İran arasında Xəzərdə sərhəddin müəyyənləşməsinə öz etirazını bildirməmişdir. 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən onun yurisdiksiyasında olan hissədə sektorial bölgü aparıldıqda da İranın heç bir rəsmi etirazı olmamışdır. Beləliklə aparılan kiçik araşdırmadan göründüyü kimi Xəzər heç vaxt ortaq şəkildə istismarda olmamışdır. Digər tərəfdən 1991-ci il Alma-Atı deklorasiyası ilə Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan SSR-nin ortaq varisləri olduqlarını bildirməklə, həm də onun bağladığı müqavilələrin də tərəflərindən tanındıqlarını bildirmişdilər. Deməli, İranın sərgilədiyi mövqeyin əksinə olaraq Alma-Atı deklorasiyası da Xəzərin ortaq istifadə edilməsinə hüquqi əsas vermir. Əksinə onun milli sektorlara bölünməsinə hüquqi əsas yaratmış olur.

İranın müdafiə etdiyi Xəzərin ortaq şəkildə istismar edilməsi-12 mil sahil sularının xaricində qalan su ərazisi sahilyanı dövlətlərin ümumi mülkiyyətində olmaqla qarşılıqlı razılıq əsasında istifadə olunmalıdır mövqeyi bir neçə səbəbdən özünü doğrultmur.

Əvvəla, belə olduğu halda Azərbaycanın yuridiksiyasında olan bir neçə perespektivli yataq – "Araz", "Alov", "Şərq" və eləcə də "Azəri" Azərbaycanın mülkiyyətindən kənarda qalmış olur ki, bununla rəsmi Bakı heç cür razılaşa bilməzdi.

Digər tərəfdən indiyə qədər Xəzərin resursları heç vaxt bərabər şəkildə istifadə olunmayıb.

Yuxarıda göstərilənlərlə yanaşı İran Qərb dövlətləri tərəfindən güclü sanksiyalara məruz qaldığı bir vaxtda Xəzərin ortaq şəkildə istifadə olunması ilə Rusiya ilə yeganə birbaşa əlaqəni (baxmayaraq ki, Rusiya özü də Ukrayna müharibəsi ilə əlaqədar böyük sanksiyalara məruz qalıb) Xəzərlə yarada bilər ki, bu da qeyd edilən sanksiyaların təsirinin azaldılmasında həlledici rola malikdir.

İranın Azərbaycanın Xəzərdəki neft müqavilələrinin reallaşmasına təpkisi 2001-ci ilin iyul ayında "Alov" neft yatağında araşdırma aparan alimlərin olduğu "Geofizik-3" və "Əlif Hacıyev" gəmilərinin İran helikopteri tərəfindən atəşə tulması ilə pik nöqtəsinə çatdı. Hadisədən bir qədər əvvəl vaxtilə SSRİ ilə İran arasında müəyyənləşmiş sərhəddən təxminən 50 kilometr şimala tərəf yerləşən "Alov-Araz-Şərq" yataqlarının birgə işlənməsi üçün Azərbaycan BP şirkəti ilə müqavilə bağlamışdır. Xatırladaq ki, bu Xəzərin hüquqi statusu ilə bağlı yaranan ilk hərbi insident idi. Yeri gəlmişkən qeyd edək ki, İran tərəfi bu yatağı özlərinə aid olduğunu bildirir və onu "Əlbruz" adlandırmışdır. Məhz qardaş Türkiyə dövlətinin işə qarışması, konkret olaraq türk şahinlərinin Azərbaycan səmasında uçuşlar keçirməsi, ardından isə Türkiyə ordusunun qərargah rəisi Hüseyn Qıvrıqoğlunun "Azərbaycanın hava sahəsi Türkiyə ilə eynidir, kim bu qardaş ölkəyə əl uzadarsa qarşısında bizi görəcək" ifadəsi İranı hərbi təhdid yanaşmasından geri çəkilməyə məcbur etdi. İranın SADRA şirkəti İsveçrənin GVA şirkətinin lisenziyası ilə tikilən gəmi ilə Azərbaycana məxsus sözügüdən yataqlarda yarımdalma platforması qurmağa cəhd etsə də, sahilyanı dövlət başçılarının Aşqabad sammitində danışıqlar prosesində rəsmi Tehran problem həllini tapana qədər tikinti-quraşdırma işlərini dayandırdığını bildirdi.

İran tərəfi nə qədər də iddia etsə də ki, Azərbaycanın Qərb şirkətləri ilə bağladıqları müqavilələri tanımır, əslində rəsmi Tehran "Lənkəran-Dəniz" və "Şahdəniz" yataqlarının birgə işlənməsinə dair müqavilələrə qoşulub müəyyən pay alması ilə Azərbaycanın bağladığı neft-qaz müqavilələrini də de-fakto tanımış oldu. Təəccüb doğuran və eyni zamanda anlaşılmayan hal budur ki, İranın sərhədlərinə yaxın olan və daha cənubda yerləşən amma cənub qonşumuzun pay aldığı "Lənkəran-Dəniz" yatağına heç bir iddia irəli sürülmədiyi halda, rəsmi Tehranın sərhədlərindən daha uzaq olan və işlənməsində pay ala bilməyən "Alov" yatağına iddia irəli sürülürdü. Mövcud şəraitdə İranın payına düşən və enerji ehtiyatları baxımından elə də zəngin olmayan 12%-lik kiçik hissədən yumşaq söyləsək fars admnistrasiyası məmun qalmamışdır. Xəzərin ortalarına doğru "strateji dərinlik" əldə etmək istəyi İranın Xəzərlə bağlı siyasətində mühüm xətt təşkil edirdi.

İran rəsmilərinin hüquqi statusla bağlı digər təklifi – bərabər bölgü əsasında yəni, hər bir sahilyanı dövlətə 20% pay ayırmaqla problemin həll edilməsində maraqlı olduqlarını göstərmələri idi. Belə olduğu halda real şəraitdə 12% paya sahib olan İran Azərbaycanın perspektivli yataqlarının bir neçəsinə ("Araz", "Alov", "Şərq" sahələrinə) sahiblənmiş olacaqdır. Bundan əlavə Xəzərdə 29% paya sahib Qazaxıstan belə olduqda cox böyük ölçüdə (9%) su ərazisini itirmiş olurdu ki, bu da adıçəkilən dövlət, eləcə də Azərbaycan tərəfindən qəbul edilə bilməzdi. İranın hüquqi statusla bağlı irəli sürdüyü təklifləri təhlil etdikdə aydın olur ki, əslində bu cür təklifləri etməklə rəsmi Tehran daha çox problemin həll edilməməsinə çalışmışdır. İranın Xəzərin statusu ilə bağlı siyasətini izlədikdə aydın olur ki, rəsmi Tehran daha çox Qərb şirkətlərinin Xəzərdə böyük həcmli layihələrinin reallaşmasını və həmin şirkətlərin təmsil olunduğu dövlətlərin perspektivdə Xəzərdə hansısa formada hərbi mövcudluğunu milli təhlükəsizliyi baxımından qəbuledilməz hesab edir. Digər tərəfdən, İran və Rusiya Qərb dövlətləri ilə kəskin münasibətləri fonunda Xəzərin tam olaraq sektorlara bölünməsini istəmirdi.

İran rəsmilərinin bir digər təklifi sahilyanı dövlətlərin hər biri üçün Xəzərin ortasına doğru 20 mil məsafədə sahil suları və onun ardınca 20 mil məsafədə iqtisadi zonaya sahib olmaq istəyi ilə bağlı idi. Belə vəziyyətdə sahilyanı dövlətlərin hər biri 20 millik sahil sularında müstəsna hüquqlara sahib olmaqla, onun dibindən və səth sularından sərbəst istifadə imkanları qazanmış olacaqdır. Digər tərəfdən isə həmin 20 millik sahil suları bu dövlətlərin su sərhəddini müəyyənləşdirməli idi. İqtisadi zonada isə kəşfiyyat işlərinin aparılmasında, eləcə də bioloji və mineral ehtiyatların qorunub saxlanma-sında sərbəst fəaliyyət hüququ saxlansa da, su səthindən və səthin üzərindəki hava məkanından digər sahilyanı dövlətlər üçün də istifadədə bərabər hüquqlar tanınırdı. 40 millik məsafədən kənardakı su ərazisi ümumi istifadədə olmaqla konsensius əsasında idarə olunmalı idi.

Qeyd edək ki, "Əsrin müqavilsi" bağlanarkən İrana da konsorsiumda 5%-lik pay ayrılmışdır. Amma, ABŞ-ın İrana qarşı sərt mövqeyi səbəbindən rəsmi Tehran bu konsorsiumda paya sahib ola bilmədi. Bunun ardından isə cənub qonşumuz Xəzərin hüquqi statu-

su ilə bağlı destruktiv mövqe tutmağa başladı. Sonrakı müqavilələrdə, konkret olaraq "Şahdəniz" və "Lənkəran-Dəniz" yataqlarının birgə işlənməsi haqqında müqavilədə İrana müəyyən pay ayrılsa da, rəsmi Tehran status məsələsində reallıqdan uzaq mövqeyini nümayiş etdirməkdə davamlı olmuşdur. Təzadlı bir vəziyyət yaranmışdır, bir tərəfdən İran Azərbaycanın bağladığı "Əsrin müqavilsi"ni tanımır, bunun Xəzərin hüquqi statusuna zidd olduğunu bildirir və bu müqavilələrin hüquqi əsasının olmadığını söyləyir, hətta bununla bağlı BMT-nin Baş Katibliyinə şikayət də edir, digər tərəfdən isə yuxarıda adlarını çəkdiyimiz "Şahdəniz" və "Lənkəran-Dəniz" layihələrində iştirak etməklə dolayısı ilə Azərbaycanın bağladığı neft-qaz müqavilələrini tanımış olurdu.

İranın Xəzərin statusu ilə bağlı siyasəti reallıqdan və hüquq normalarından daha çox tarixi şəraitdən yararlanma və ölkədəki mövcud rejimin Qərb ilə antaqonist ziddiyyətlərinin olması ucbatından həmin ölkələrin transmilli şirkətlərinin Xəzərin neft-qaz yataqlarına böyük sərmayələr yatırmasının rəsmi Tehranın milli təhlükəsizliyi baxımından "təhdid" hesab edilməsi ilə bağlıdır. Belə ki, sadə məntiqlə məsələyə yanaşdıqda İran əgər iki əsr çar və bolşevik Rusiyasının təpkisi qarşısında aciz qalıb Xəzərdə cüzi hüquqlara sahib idisə, SSRİ-nin çöküşündən sonra nədən yeni yaranmış və hərbi-iqtisadi baxımdan (SSRİ və Rusiya ilə müqayisədə) elə də güclü olmayan Xəzərsahili dövlətlərdən (Qazaxıstan, Türkmənistan və Azərbaycan) az pay almış olsun? Digər tərəfdən Xəzərin karbohidrogen ehtiyatları ilə bağlı yaradılmış konsorsiumlarda yetərincə pay ala bilməyən İran həm də hasil olunacaq neft və təbii qazın nəqlində əsas tranzit ölkə olmaq istəklərini də reallaşdıra bilmədi. Halbu ki, Xəzərdə hasil olunan neft və təbii qazın ixracında İran körfəzi istiqamətində boru kəmərlərinin çəkilişi iqtisadi baxımdan daha effektli hesab edilirdi. Yuxarıda qeyd etdiyimiz səbəblərdən İranın Qərblə barışmaz mövqeyi bu fürsətdən də yaralanmağa imkan vermədi. Bundan əlavə, Xəzərin İran sahəsində böyük neft-qaz yataqlarının aşkarlanmaması da rəsmi Tehrana "tarixi fürsət"dən yetərincə istifadə etməyə imkan vermir. İran hüquqdan daha çox, hansı formada

olursa-olsun Xəzərdən daha çox pay almaq iddiasında idi ki, bunun da bariz nümunəsi Xəzəri bərabər şəkildə hər bir sahilyanı dövlətə 20% pay ayırmaqla sektorlara bölməyi təklif etməsi idi.

İranın Xəzərdə mövcud karbohidrogen ehtiyatlarının nəqli ilə bağlı mühüm məqsədləri vardır. İlk olaraq Xəzərdə Qərb şirkətlərinin iştirakı ilə "Əsrin müqaviləi"ni reallaşdıran Azərbaycan bu müqaviləyə uyğun olaraq hasil olunacaq neftin ixracı üçün əsas ixrac boru kəmərinin çəkilişini həyata keçirməli idi. İran bu zaman Ceyhana çəkiləcək kəmərin məhz İran ərazisindən keçməklə reallaşdırılmasına çalışırdı. Qeyd edək ki, İranın əsas məqsədi Xəzərdən yetərincə pay ala bilməməsini onun neft-qaz ehtiyatlarının nəqlində əsas tranzit ölkə olmaq imkanlarını reallaşdırmaqla kompensasiya etmək idi. Hətta, bəzi ekspertlər İran ərazisindən kəmərin keçməsini Rusiya və Gürcüstan-Türkiyə variantından iqtisadi baxımdan daha rentabelli hesab edirdi. Əsas ixrac boru kəməri İrandan keçəcəyi halda, həmçinin Naxçıvan ərazisindən də keçməli idi ki, enerji təhcizatı baxımından əziyyət çəkən bu anklav ərazimizin yanacaq problemi geniş ölçüdə həll olunmuş olardı.Tehran rəsmiləri həmçinin İran marşurutunun Gürcüstan ilə müqayisədə təxminən 700 km qısa olduğunu bildirməklə, bunun da boru xəttinin inşaası üçün nəzərdə tutulmuş maliyyə yükünü xeyli yüngülləşdirmiş olacağını bildirirdi. Amma, İranın Qərb olkələri xüsusən də, ABŞ ilə məlum gərgin münasibətləri və heç şübhəsiz ki, Azərbaycan öz karbohidrogen resurslarının nəqlində qardaş Türkiyəni əsas tranzit ölkə kimi görməsi, cənub qonşumuzun bu planının reallaşmasına imkan vermədi. Bundan əlavə Qazaxıstan neftinin də Türkmənistandan keçməklə İran ərazisindən Oman körfəzinə daşınması da zaman-zaman müzakirə olunsa da, Rusiyanın təzyiqləri qarşısında bu plan ideya olaraq qalmışdır.

Digər variant olaraq İran Neka-Cask kəmərini təklif edirdi. Xatırladaq ki, Neka İranın Xəzərdəki iri limanlarından biridir. Cask isə Oman körfəzindədir. Qazaxıstan və Türkmənistan nefti belə halda Neka limanına tankerlərlə daşınmalı idi. Bu isə həm əlavə xərc, həm də vaxt itkisinə səbəb ola bilərdi. Digər tərəfdən həm də mütəmadi tanker reyslərinin təşkili məsələsi həllini tapmalı idi.

1998-ci ilin dekabrında sahilyanı dövlətlərin Xüsusi İşçi Qrupunun Moskvada keçirilən görüşündə İran tərəfi əvvəlki mövqeyindən ciddi şəkildə fərqlənən yeni təklif irəli sürmüşdür. İclasda çıxış edən İranın Xarici İşlər nazirinin müavini Murtaza Sermedi, rəsmi Tehranın Xəzərin birgə istifadəsini arzuladığını, ancaq Xəzərin bütün istiqamətlər üzrə sahilyanı dövlətlər arasında hər bir dövlətə 20% pay ayrılmaqla bölünməsinə də isti baxdıqlarını qeyd etmişdir.




***Şəkil 30. İranın təklif etdiyi ortaq mülkiyyət prinsipi***

İranın təklif etdiyi kondominium prinsipi digər sahilyanı dövlətlər tərəfindən rədd edilmişdir.

Amma İran Xəzərin dibinin orta xətt prinsipi ilə bölünməsinə qarşı idi. Bu halda Tehrana şelfin 14-16%-i düşür. Fars admnistrasiyası dənizin dibinin bərabər şəkildə 5 yerə bölünməsini tələb edirdi: dəniz hövzəsində orta nöqtə tapılmalı, oradan sahildəki sərhəd nöqtələrinə radikal xətlər çəkilməlidir. Tehran öz variantını qəbul etdir-

məklə, dənizin mərkəzi, neft və qazla zəngin hissəsinə daxil olmağı, eyni zamanda, Trans-Xəzər boru xəttinin çəkilişinə qanuni əsaslarla mane olmağa çalışırdı.

İran Xəzərdə iki dövlətlə-Türkmənistan və Azərbaycanla su sərhəddinə malikdir. Status məsələsində başlanğıcdan demək olar ki, İran, Türkmənistan və Rusiya bir cəbhədə yer almışdır. Başqa sözlə, İran status məsələsində Türkmənistanla elə bir problem yaşamamışdır. Azərbaycanın isə statusla bağlı mövqeyi Fars admnistrasiyası tərəfindən təpki ilə qarşılanmışdır. Bunu doğuran başlıca amil isə Türkmənistandan fərqli olaraq Azərbaycanın Xəzərin özünə aid hissəsindəki karbohidrogen yataqlarına əsaslı şəkildə Qərb kapitalını cəlb etməsi və İranın isə Xəzərdə elə bir perespektivli neft-qaz yatağı olmadığından sözügedən su hövzəsi geosiyasi, təhlükəsizlik və nəqliyyat-kommunikasiya baxımından əhəmiyyət doğururdu. Bütün bunların fonunda Xəzərin neft-qaz yataqlarının işlənmə-sindən kifayət qədər pay ala bilməyən və ixrac kəmərlərindən də kənarda qalan İran "yanmadım istisinə nədən kor olum tüstüsünə" prizmasından yanaşaraq Qərb kapitalının böyük həcmdə "burnunun ucunda" cəmlənməsini təhlükəsizlik baxımından dövləti maraqlarına zidd hesab edirdi. Məhz bu səbəblərdən İranın mövqeyi Türkmənistandan daha çox Azərbaycanla toqquşurdu. İran rəsmiləri bəzən reallıqdan uzaq fikirlər səsləndirirdi ki, bu da sözsüz ki, Azərbaycan tərəfinin müqaviməti ilə qarşılaşırdı. Belə fikirlərdən biri də Aram-Peqov xətti ilə bağlıdır. Yeri gəlmişkən qeyd edək ki, 1960-cı illərin əvvəllərində Karib böhranı timsalında soyuq müharibənin pik nöqtəsi fonunda ABŞ-ın nüvə başlıqlı raketlərini İran ərazisində yerləşdirməsinin qarşısını almaq üçün 15 sentyabr 1962-ci il tarixində Tehranda İranın Xarici İşlər naziri Abbas Aramla Rusiyanın bu ölkədəki səfiri Nikolay Peqov arasında məxfi bir memorandom imzalanmışdır. Bu sənədlə İran öz ərazisində ABŞ-a nüvə başlıqlı raketlərini yerləşdirməyə icazə vermir və əvəzində SSRİ Abşerondan Xəzərin cənubunda yerləşən Həsən Kiade-hə qədər olan xəttin İrana aid olduğunu tanıyırdı.

1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən Xəzərin SSRİ-yə aid olan hissəsinin 4 sahilyanı sovet Respublikası (Ru-

siya, Qazaxıstan, Türkmənistan və Azərbaycan) arasında bölüşdürülməsi neft-qaz və geoloji axtarış işlərinin daha səmərəli aparılması üçün edilsə də bu vaxt dövrün beynəlxalq hüququnun əsasları nəzərə alınmışdır. Belə ki, Xəzərin orta xətti ilə adıçəkilən respublikaların sərhəd nöqtələrini birləşdirən xətlər arasında qalan su sahəsi həmin dövlətlərin ərazisi olaraq qəbul edilirdi. 1970-ci il bölgüsünə görə Qazaxıstan 113 min, Rusiya 64 min, Azərbaycan və Türkmənistan isə hər biri 80 min kvadrat kilometr paya sahib olmuşdur.

9-10 fevral 1998-ci ildə Astanada sahilyanı dövlətlərin Xarici İşlər nazirləri çərçivəsində keçirilən görüşdə Rusiya orta xətt üzrə Xəzərin şelf hissəsinin bölünməsini, su səthinin və buradakı bioloji resursların ortaq mülkiyyətdə qalmasını təklif etdi. Bu mövqe dolayısı ilə respublikaların mübahisəli də olsa yurisdiksiyalarında olan sahələrdə tam səlahiyyət sahibi olmalarının rəsmi Moskva tərəfindən tanınması etirafı hesab edilə bilər. Su səthinin ümumi istifadədə qalması daha çox Rusiyanın maraqlarına cavab verirdi. Xəzərdə ekoloji sistemin qorunmasının ayrı ayrılıqda mümkünsüzlüyünü bəhanə edən rəsmi Moskva əslində həm iqtisadi, həm geo-siyasi, həm də hərbi maraqlarının təmin olunmasına çalışırdı. Mütəxəssis hesablamalarına görə dünya kürü ehtiyatının və nərə balığının təxminən 90 faizi məhz Xəzərdə cəmlənmişdir ki, (düzdür, son vaxtlar ekoloji durumun pisləşməsi səbəbindən bu ehtiyatlar bir qədər azalmışdır) sahilyanı dövlətlər içərisində də yeganə balıqçılıq donanması Rusiyaya məxsusdur. Başqa sözlə su səthi bölündüyü halda Həştərxanda yerləşən bu donanama ənənəvi və olduqca gəlirli balıq ovu arealından böyük ölçüdə məhrum olacaqdır. Xəzərdə balıqçılıqdan əldə edilən gəlirlərin miqyasına diqqəti çəkmək üçün məşhur Azərbaycan coğrafşünası və Xəzər üzrə mütəxəssis mərhum Q.Gülün bir fikrini qeyd etmək kifayət edər. “Xəzərin balıq ehtiyatlarından düzgün və rassional istifadə olunsa neft gəlirlərini üstələyər və ekoloji balans da pozulmaz”.

Qeyd etdiyimiz kimi Rusiya yalnız Xəzər vasitəsilə birbaşa İranla əlaqə saxlaya bilir ki, su səthi bölündüyü halda bu xeyli çətinləşmiş olacaqdır. İranın nüvə proqramının həyata keçirilməsi üçün

lazım olan texnologiyalar və eləcə də müasir silahların çoxu məhz Xəzər arteriyası vasitəsilə Rusiya tərəfindən cənub qonşumuza çatdırılır. Bununla yanaşı, günümüzdə Rusiya Yaxın Şərqdə-xüsusən də Suriyada aktiv hərbi-siyasi fəaliyyət aparır ki, burada da Xəzərdən nəqliyyat arteriyası kimi istifadə edir.

İranın Xəzər siyasəti ilə təməl problemlərindən biri rəsmi Tehranın sözügedən məsələ ilə bağlı işlənib hazırlanmış vahid konsepsiyasının olmamasıdır. Hökümət dəyişiklikləri rəsmi Tehranın da problemə müxtəlif yanaşmalar sərgiləməsinə səbəb olur.

İran Xarici İşlər Nazirliyinin Xəzər məsələləri üzrə rəhbərlərinin bəyanatlarından aydın olur ki, cənub qonşumuzun Xəzərlə bağlı maraqları 4 əsas sferada əksini tapmışdır.

1. İqtisadi sfera – karbohidrogen resursları, balıqçılıq, gəmiçilik, turizm.
2. Təhlükəsizlik sferası – İranın Xəzərdəki ən böyük narahatlığı və izlədiyi siyasətin əsas xəttini təhlükəsizlik və güc balansının təmin edilməsi təşkil edir.
3. Hüquqi sfera – Xəzərin hüquqi statusunun müəyyən edilməsi və maksimum şəkildə daha çox pay əldə etmək.
4. Ekoloji sfera – Xəzərdə ekosistemin qorunması və çirklənmənin qarşısının alınması.

Amma, bununla belə, vahid konsepsiyanın olmaması səbəbi ilə İran qeyd olunan sahələrin heç birində mühüm uğurlar əldə edə bilməmişdir. Tehran Universitetinin professoru və Avrasiya məsələləri üzrə tanınmış ekspert Elaxe Kulay İran hökümətinin Xəzər siyasətinin zəif olmasını bildirməklə yanaşı, kəskin tənqid edir və əlavə edir ki, demək olar ki, bu sahə hökümət tərəfindən unudulmuşdur. E.Kulayın sözlərinə görə, İranın Xəzər dənizinin təhlükəsizliyinin təmin olunmasına həddindən artıq diqqət göstərməsi ölkənin digər maraqlarının itirilməsinə gətirib çıxarmışdır. İranın apardığı yanlış siyasətin nəticəsidir ki, digər Xəzəryanı ölkələr (Azərbaycan, Qazaxıstan) Xəzərdə kommersiya baxımından böyük neft-qaz layihələrinin işlənməsini həyata keçirərkən rəsmi Tehran hələ də kəşfiyyat mərhələsindədir. Belə vəziyyəti Beynəlxalq Xəzər araşdırmaları

Mərkəzinin direktoru Meysam Arai Darunkola İran körfəzinin karbohidrogen ehtiyatlarının İran üçün daha çox əhəmiyyət kəsb etməsi ilə əlaqələndirir. Həqiqətən də İran körfəzində rəsmi Tehran çox böyük həcmdə neft-qaz ehtiyatlarına malikdir. Həmin resursların hasilatı və ixracı üçün Xəzərlə müqayisədə daha az vəsait tələb olunur. İran körfəzinin birbaşa dünya okeanı ilə əlaqəsinin olması ixrac məsələlərini xeyli asanlaşdırır.

İran prezidenti S.M.Hatəminin 2001-ci ilin martın 12-də Moskvaya rəsmi səfəri gedişində Xəzərin hüquqi statusu ilə bağlı Rusiya-İran birgə bəyanatı imzalandı ki, burada da hər iki dövlətin Xəzərlə bağlı baxışlarının əsas istiqamətləri yer almışdır. Hər iki dövlətin Qərb ilə münasibətləri kəskin olduğundan həmin dövlətlərə məxsus şirkətlərin Xəzərdə fəaliyyətini ən azından arzu etmirdilər. Həm Rusiya, həm də İran Xəzərin neft-qaz resurslarının ixracında mühüm tranzit ölkə olmaq (Rusiya buna nail olmuş, sadəcə bu üstünlüyünü qoruyub saxlamağa çalışır) iddiasında idilər. Bunun üçün isə Qazaxıstan, Türkmənistan və Azərbaycan arasında Xəzərin dibi ilə kəmərin çəkilməsinə ekoloji vəziyyətin pisləşməsini bəhanə gətirərək qəti etirazlarını bildirirdilər. Halbu ki, Rusiya həcminə və buna uyğun olaraq nəqletmə gücünə görə Xəzərdə çəkilməsi nəzərdə tutulan kəmərdən daha böyüyünü Baltik və Qara dənizlərdə inşa etmişdir. Sözügedən bəyanatda da Xəzərin dibi ilə boru kəmərinin çəkilməsinə etiraz bildirilir. Həmçinin tərəflər sahilyanı dövlətlər tərəfindən hüquqi statusla bağlı birgə sənəd imzalanmayana qədər Xəzərdə heç bir sərhəd tanımayacaqlarını bildirirdilər. Nə qədər paradoksal olsa da, artıq bu vaxt Rusiya Xəzərin dibinin bölüşdürülməsi ilə bağlı Qazaxıstan və Azərbaycan ilə razılığa gəlmiş, bunu rəsmiləşdirən sənəd də imzalamışdır.

29 noyabr 2001-ci ildə Moskvada MDB dövlət başçılarının toplantısı gedişində Azərbaycan və Qazaxıstan prezidentləri arasında Xəzərin dibinin bölünməsi haqqında sazişin imzalanması İran tərəfindən kəskin etirazla qarşılandı. Sazişə əsasən Azərbaycan və Qazaxıstan orta xətt əsasında Xəzərin dibinin sektorlara bölünməsi haqqında razılq əldə edirdilər ki, bu da İranın əvvəldən kəskin etira-

zına səbəb olan sektorial bölgünün reallaşması demək idi. İranı narahat edən həm də o idi ki, sazişə əlavə olaraq imzalanmış protokola görə orta xəttin müəyyənləşməsi sahil xətti və adalardakı çıxış bazis nöqtələrindən bərabər uzaqlıq əsasında müəyyən edilməli idi ki, bu da İranın iddia etdiyi "Araz", "Alov", "Şərq" yataqlarının Azərbaycan sektorunda qalmasının hüquqi baxımdan həllini tapması üçün presidentin yaranması demək idi. Sözügedən saziş əvvəlki razılaşmaları daha da qüvvətləndirsə də, İranı da bir o qədər narahat etməkdə idi. Bu narahatlığın əyani göstəricisi kimi 23-24 yanvar 2002-ci ildə Moskvada keçirilən Xüsusi İşçi Qrupunu VI iclasında İran tərəfi Azərbaycan-Qazaxıstan müqaviləsinə etirazını bildirməklə yanaşı, Xəzəryanı dövlət başçılarının Aşqabadda keçirilməsi nəzərdə tutulan birinci sammiti üçün bəyannamənin hazırlanmasına da imkan vermədi. İran bununla da kifayətlənməyib, 28 fevral 2002-ci il tarixində BMT-nin Baş katibinə müraciət edərək sözügedən dövlətlər arasında bağlanmış müqavilənin beynəlxalq hüquqa zidd olduğunu əsaslandırmağa çalışdı. Xatırladaq ki, İranın bu müraciəti A/56/850 nömrəsi ilə BMT Baş Məclisinin sənədi kimi yayımlanmışdır. İranın bu haqsız davranışına cavab olaraq, Qazaxıstan və Azərbaycanın BMT Baş Katibliyinə ünvanladıqları məktubda rəsmi Tehranın iddiaları beynəlxalq hüquqa söykənərək rədd edilirdi.

23-24 aprel 2002-ci ildə Aşqabadda keçirilən sahilyanı dövlət başçılarının I sammitində İran prezidenti S.M.Hatəmi digər sahilyanı dövlətlərin əleyhinə gedərək Xəzərin tərəflər arasında 5 bərabər hissəyə bölünməsini, bu mümkün olmadıqda isə kondominium tətbiq edilməsini təklif etdi. İranın belə yanaşması digər sahilyanı dövlətlər tərəfindən qəbul edilmədi.

İran beştərəfli müzakirələrlə yanaşı ikitərəfli əsasda da Xəzərin hüquqi statusunu müzakirə etməkdə idi. 11-12 mart 2003-cü ildə Rusiyanın Xarici İşlər naziri İ.İvanovun Tehrana səfəri gedişində hüquqi status tərəflər arasında müzakirə edilərək, qəbul edilən bəyanatda Xəzərə aid bütün problemlərin konsensus əsasında həll edilməsi və hüquqi statusunun müəyyənləşməsi istiqamətində Xüsusi İşçi Qrupunun fəaliyyətinin daha da intensivləşməsinin vacibliyi qeyd edildi.

14 may 2003-cü ildə Alma-Atıda Xüsusi İşçi Qrupunun IX iclasında İran tərəfi kondominium yanaşmasından imtina edərək, yenidən 20%-lik pay əəsasında bölgüyə qayıtdığını bildirdi ki, bunu da yuxarıda söylədiyimiz kimi Tehranın Xəzərin statusu ilə bağlı vahid platformasının olmamasının göstəricisi kimi qəbul etmək olar.

17 yanvar 2013-cü ildə İranın Mazandaran əyalətində Xəzər məsələlərinə həsr olunmuş ikinci milli konfransda hüquqi status ilə bağlı Xüsusi İşçi Qrupunun yaradılması qərara alındı. Adıçəkilən quruma rəhbərlik isə İran siyasi elitasında nüfuz sahibi olan və parlamentin Milli Təhlükəsizlik Komitəsinin üzvü Mehdi Sənayiyə tapşırıldı. Bu özlüyündə İranın Xəzərin hüquqi statusu ilə bağlı mövqeyinin pərakəndəlikdən çıxaraq, "bir mərkəzdən idarə olunması"na doğru dəyişməsini söyləməyə imkan verir.

2018-ci ilin mart ayında İran İslam Respublikasının prezidenti H.Ruhaninin Azərbaycana rəsmi səfəri gedişində tərəflər arasında Xəzərdə mübahisəli hesab edilən yataqların birgə işlənməsi haqqında Anlaşma Memarandumu imzalandı. Memorandumda "Alov-Araz-Şərq" strukturunun gələcək işlənilməsi üçün xüsusi konsorsiumun yaradılmasının planlaşdırıldığı qeyd edilmişdir. Xüsusi konsorsiumun məsuliyyət sahəsinə hüquqi mənsubiyyəti müəyyən etmədən paritet əsasında adıçəkilən sturukturun işlədilməsini təmin etmək daxil idi.

Xəzərin problemləri ilə bilavasitə məşğul olan xüsusi qurumun yaradılması digər sahilyanı dövlətlələ yanaşı İranda da həyata keçirildi. 1998-ci ildə İran Ali Təhlükəsizlik Şurasının qərarı ilə Xəzər dənizi üzrə xüsusi Katiblik yaradıldı. Xüsusi Katiblik İran İslam Respublikası Xarici İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərməli idi. Adıçəkilən qurum İranın Xəzər siyasətinin tənzimləməsi, aidiyyatı dövlət orqanları ilə əlaqələndirməni həyata keçirir. Xüsüsi Katibliyə aidiyyatı üzrə ya Xarici İşlər nazirinin müavini, ya da adıçəkilən nazirlikdə idarə rəisi rəhbərlik edir. İranın Xəzər ilə bağlı strategiyasının başlıca istiqamətləri ölkədəki mövcud dini siyasi sistemin spesifikasiyasına uyğun olaraq Ali Dini Rəhbər və Milli Təhlükəsizlik Şurasının məcburi təsdiqi ilə qəbul edilir. İranın Xəzərin yekun hüquqi statusu haqqında Konvensiyanın ratifikasiya-

sını gecikdirməsinə münasibət bildirən sözügedən Katibliyin keçmiş sədri, indi isə İranın Qazaxıstanda səlahiyyətli səfiri olan M.Saber qeyd edir ki, sənədin milli qanunvericiliyə uyğunluğu uzun müddət yoxlandıqdan sonra o ali dini liderin sanksiyası əsasında prezidentin təsdiqinə verilir.

Yekun Hüquqi Konvensiya qəti şəkildə sahilyanı dövlətlər arasında demarkasiya xəttini müəyyən etmirdi. Xüsusi ilə də Azərbaycan ilə İran arasında Xəzərin dibinin bölünməsi ilə bağlı problemlər qalmaqda davam edir. İran yeganə sahilyanı dövlətdir ki, Yekun Hüquqi Status haqqında Konvensiyanı ratifikasiya etməyib. İran tərəfi hesab edir ki, uzun müddət Xəzərin hüquqi statusu 1921 və 1940-cı il müqavilələri ilə tənzimlənib ki, burada da su hövzəsində naviqasiya azadlığı, SSRİ və İranın malik olduğu 10 millik sahil zonalarından kənardakı ərazidə sərbəst balıq ovu və qeyri Xəzər dövlətlərinə məxsus gəmilərin Xəzərə daxil olmasının qadağan olunması nəzərdə tutulurdu. Bununla belə sözügedən müqavilələrdə Xəzərin dibindən istifadə və ekoloji mühütün qorunması ilə bağlı müddəalar yer almamışdır. Bunun da səbəbi həmin vaxt Xəzərin dibindən geniş ölçüdə neft-qaz hasilatına başlanılmaması və buna müvafiq olaraq ekoloji durumun da qənaətbəxş səviyyəsi idi.

İran və Rusiya 1921 və 1940-cı il müqavilələrinə istinad edərək Qazaxıstan, Azərbaycan və Türkmənistanı Tehran və Moskva ilə koordinasiyalı şəkildə hərəkət etməyə məcbur etmək istəyirdi. İran və Rusiyalı mütəxəssislər sektorial bölgünü Xəzərin karbohidrogen ehtiyatlarından Azərbaycan və Qazaxıstanın daha çox faydalanmaq istəyi ilə əlaqələndirirdilər. Məsələ burasındadır ki, Tehranda yaxşı başa düşürdülər ki, sektorial bölgü olacağı təqdirdə İran 1921 və 1940-cı il müqavilələri ilə müqayisədə daha az pay almış olacaqdır. Praktikada heç vaxt Xəzər SSRİ ilə İran arasında bərabər şəkildə istismar edilməsə də, hər halda bunun üçün hüquqi əsas yaranmışdır. Ona görə də Tehran rəsmiləri daha çox adları çəkilən 1921 və 1940-cı il müqavilələrinə istinad edirdilər.

Müasir İran siyasi elitasında Xəzərin yekun hüquqi statusunu müəyyən edən Konvensiyaya münasibətdə iki fərqli düşərgə vardır.

1. Konvensiyanı tənqid edənlər belə düşünür ki, Xəzərin hüquqi statusu üçün əlverişli vaxt seçilməyib. Bununla yanaşı, İranın sözügedən dövr üçün beynəlxalq aləmdə mövqeyinin zəifliyi, onun eksterritorial problemlərin həll edilməsi istiqamətində diplomatik imkanların gücsüz olması nəzərə alınmamaışdır. Rəsmi Vaşinqtonun "Birgə Kompleks Fəaliyyət Planı"na əməl etməkdən təktərəfli qaydada imtina edilməsinin ardından İrana qarşı tətbiq edilən sanksiya rejimi praktik olaraq fars admnistrasiyası ətrafında vəziyyəti xeyli gərginləşdirmişdir. Bu siyasətin tərkib hissəsi olaraq "Total" şirkəti kimi Avropanın digər iri neft-qaz firmaları İranla işləməkdən imtina etdilər ki, bu faktiki olaraq Tehranın yeni izoliyasiyası demək idi. Məhz İranın praktik olaraq Qərbdən təcrid olunduğu bir vaxtda Xəzərin yekun hüqquqi statusuna aid Konvensiya imzalanmışdır. Yuxarıda söylənilən yanaşmanaın təsdiqi kimi İran parlamentini sabiq üzvü, beynəlxalq münasibətlər üzrə professor Elahe Kulai yekun Konvensiyanın imzalanmasına təsir göstərən mühüm amil kimi ABŞ-ın nüvə sazişini tərk etməsi və İrana qarşı tətbiq olunmuş ağır sanksiyaları göstərmişdir. Elahe Kulai maraqlı, bir az da fikirlərində qabağa gedərək, belə mülahizə irəli sürür ki, 2002-ci ildə ABŞ prezidenti C.Buşun İranı "şər oxu" adlandırmsı ilə Aşqabadda sahilyanı dövlət başçılarının I Sammitində rəsmi Tehranın "danışıqlar tsiklindən çıxarmaq" cəhdləri arasında mütləq şəkildə bir bağlantı vardır. Adıçəkilən müəllif fikirlərinin davamı olaraq bildirir ki, "2018-ci ildə Aktau sammiti də eyni şəraitdə ABŞ prezidenti D.Trampın İrana təzyiqlərinin artdığı bir şəraitdə" keçirilmişdir. Nəticə etibarı ilə Xəzərin hüququi statusunun müəyyən edilməsi üçün İran düzgün vaxt seçməmiş və bu səbəbdən də Tehranın maraqları təmin olunmamışdır.

Konvensiyanın digər tənqidçisi Melekzade isə belə bir fikir səsləndirmişdir ki, adıçəkilən sənədin ən çatışmayan cəhətlərindən biri onun icra təminatının olmaması ilə bağlıdır. Melekzade qeyd edir ki, Konvensiya Beynəlxalq Ədalət Məhkəməsinin yurisdiksiyasını qəbul etmir. Bununla yanaşı, heç bir digər beynəlxalq məhkəməni səlahiyyətli kimi tanımır. Maraqlıdır ki, İranda geniş əhali ara-

sında Xəzərin yekun hüquqi statusu ilə bağlı Konvensiyaya münasibət müsbət deyildir, hətta söyləmək olar ki, böyük hissə narazıdır. Ekspertlər hesab edir ki, Konvensiyanın imzalanması ilə bağlı hökümət əhali arasında kifayət qədər təbliğat apara bilməyib.

2.Tənqidi fikirlərlə yanaşı Konvensiyanı müsbət qarşılayan və İranın milli maraqlarına cavab verdiyini söyləyən siyasi qüvvələr də vardır. Həmin dönəm İran İslam Respublikasının prezidenti olan H.Ruhani Konvensiya ilə bağlı qeyd etmişdir ki, "Tehran Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyadan xüsusi imtiyazlar əldə etmişdir. H.Ruhani fikrini davam etdirərək bildirir ki, vaxtilə Xəzərin böyük bir hoissəsinə nəzarəti əlində cəmləmiş Rusiya kimi bir ölkə, indi yalnız 17% ilə qənaətlənməli olur. Xəzərin şimal hissəsində dənizin dibinin bölünməsi haqqında Rusiya, Qazaxıstan və Azərbaycan arasında üçtərəfli razılaşmaya əsasən Xəzərin yalnız 17%-i Rusiyanın payına düşüb. Həmin dönəm İranın Xarici İşlər naziri işləmiş Məhəmməd Cavad Zərif Konvensiyanı İranın milli təhlükəsizliyi baxımından olduqca əhəmiyyətli hesab edir. Jurnalistin İranın Xəzərdəki əvvəlki 50% payından 11%-ə enməsi doğrudurmu sualına İranın xarici siyasət idarəsinin rəhbəri "keçmişdə İran heç bir zaman Xəzərdə 50% paya sahib olmayıb, indi də 11% və ya başqa bir rəqəm deyil. İranın Xəzərdəki payı qonşu Türkmənistan və Azərbaycanla delimitasiya ilə bağlı sənədlərin imzalanmasından sonra məlum olcaqdır" cavabını vermişdir. İran İslam Respublikasının özünəməxsus siyasi sitemi vardır ki, konvensiyanın da təsdiqi həmin "özünəməxsusluq"dan keçməlidir. Xəzərin hüquqi statusu ilə bağlı danışıqları yuxarıda qeyd etdiyimiz kimi bilavasitə Xarici İşlər Nazirliyi və onun tərkibində fəaliyyət göstərən "Xüsusi Katiblik" həyata keçirsə də, İranın Xəzərdəki payı ilə bağrı qərarın Ali Dini Rəhbər Ayətullah Əli Xamenei tərəfindən verildiyi şübhəsizdir. Bunu İranın Xəzər məsələləri üzrə keçmiş sözçüsü Məhəmməd İbrahim Rəhimpur da müsahibələrinin birində təsdiqləmişdir.

İranın Xəzər məsələləri üzrə "Xüsusi Katibliyi"nin keçmiş rəhbəri Məcid Sabir İranın Xəzərdəki "payı"ndan zərrə qədər də geri çəkilməmişik deməklə yanaşı, sərhədlərin delimitasiyası üçün

İran sahillərinin "əlverişsiz" olmasını və bunun da nəzərə alınmasının vacibliyini də xatırlatmalı olmuşdur. Digər sahilyanı dövlətlərlə müqayisədə İranın sahil xətləri konkav formaya (вогнутую форму) malikdir. Sahil xətlərinin uc hissələri içəriyə doğru bükülmüş vəziyyətdə olması Xəzərdə İranın sərhəddinin düz xətt boyu müəyyən edilməsini müəyyən qədər çətinləşdirmiş olur. Konvensiyanın VII maddəsində ərazi sularının xarici sərhəddi dövlət sərhəddi kimi göstərilir. İran konstitusiyasının 78-ci maddəsinə əsasən bunun qəbul edilməsi üçün parlament üzvlərinin beşdə dördünün səs çoxluğu lazımdır. Xəzər məsələləri üzrə kifayət qədər məlumatlı olan M. Sabir dənizin dibinin və təkinin delimitasiyası haqqında razılığın əldə edilmədiyi təqdirdə Aktauda imzalanmış yekun hüquqi status haqqında Konvensiyanın müddəalarının praktik fəaliyyəti İran tərəfindən dayandırılacaqdır fikrini səsləndirmişdir. Buradan İranın indiyə qədər Konvensiyanı niyə ratifikasiya etmədiyinin ştrixləri görünməkdədir. İranın Xəzərdəki maraqlarının praktik olaraq qorunması ilə yaxından məşğul olan M.Sabir Konvensiyanın ratifikasiyası ilə bağlı bildirmişdir ki, "rəsmi Tehran iddia etdiyi 20%-lik payını qorumaqda israrlıdır və heç bir ölkənin bu hissədə enerji kəşfiyyatı, hasilatı işləri ilə məşğul olmasına imkan verməyəcəyik". Adıçəkilən Tehran rəsmisi bir az da irəli gedərək İranın Xəzərdə "20%-lik pay hissəsində" nəinki mülkiyyət hüququ, hətta dövlətin suveren hüquqlarının təmin olunmasının vacibliyini xüsusi vurğulamışdır. İranın 20%-lik pay iddiası 1921-1940-cı il müqavilələrindən bəhrələndiliyi vurğulanır.

İran unutmammalıdır ki, SSRİ ilə İran arasında bağlanmış müqavilə ilə Xəzərin yalnız 12%-i İrana məxsus olmuşdur. 1921 və 1940-cı illər müqaviləsi yuxarıda da qeyd edildiyi kimi Xəzərdə naviqasiya və balıqçılıqdan bərabər şəkildə istifadəni nəzərdə tuturdu. İran daxilində problemə daha praqmatik müstəvidən baxan siyasi xadimlər bildirir ki, 50% illüziyasından əl çəkmək, və belə bir razılaşmanın heç vaxt olmadığını da real qəbul etmək lazımdır. İran siyasi nümayəndələri etriaf edirlər ki, ölkə daxilindəki ziddiyyətlər də Konvensiyanın ratifikasiya edilməsini çətinləşdirir.

Rus şərqşünası S.Pritçin hesab edir ki, qeyri Xəzər dövlətlərinin bu su hövzəsinə daxil olmasının məhdudlaşdırılması barədə müddəanın Konvensiyada təsbit edilməsi Rusiya və İran diplomatiyasının uğuru hesab edilməlidir. Təhlükəsizlik vektoruna üstünlük verən İran siyasi xadimləri hesab edirlər ki, Qazaxıstan və Azərbaycan Xəzərdə ABŞ başda olmaqla Qərb dövlətləri ilə tək enerji sahəsində deyil, eyni zamanda "Xəzər mühafizəsi" adı altında hərbi əməkdaşlıq da edir və birgə təlimlər keçirirdi. Bu isə İran və Rusiya üçün təhdid mənbəyi hesab edilə bilər. Konvensiya bu kimi tədbirlərin həyata keçirilməsini qadağan edirdi. 2019-ci ilin yanvar ayında dönəmin ABŞ prezidenti D.Tramp ilə Qazaxıstan prezidenti N.Nazarbayev arasında ABŞ-ın Əfqanıstanda hərbi kontingentinin təchizatı baxımdan Xəzər vasitəsi ilə xüsusi yüklərin daşınmasında Qazaxıstanın Kurık və Aktau limanlarından istifadə edilməsi haqqında sazişin imzalanması İran və Rusiyanın təhlükəsizliklə bağlı "qayğılarını" artırmış oldu.

İranda məsələyə müsbət yöndən yanaşan siyasilər hesab edir ki, Konvensiyanın üstün cəhəti həm də onun məqbul çevikliyə malik olmasındadır. Belə ki, Konvensiyanın 18-ci maddəsində göstərilir ki, onu imzalayan tərəflərin razılığı olarsa konvensiyanın müddəaları dəyişdirilə və əlavaələr edilə bilər. Belə olan tədqirdə İran skeptiklərinin etiraz etdiyi məsələlər əlavə protokolda əksini tapa bilər.

İran Rusiya ilə Xəzərdə sahilyanı dövlətlərdən kənarda digər ölkələrin hərbi qüvvələrinin olmaması, coğrafi baxımdan iki ölkə arasında yer alan Cənubi Qafqaz və Mərkəzi Asiyada sabitliyin qorunmasında eyni baxışı bölüşsələr də, enerji tranziti və satış bazarları baxımından rəqib hesab oluna bilər. Məsələyə bir başqa istiqamətdən yanaşdıqda, Qərbin İrana uzun müddətli sanksiyalar tətbiq etməsi ən azından Rusiyanı İran kmi böyük neft-qaz resurslarına malik bir dövlətlə rəqabətdən xilas etmiş oldu və Ukrayna müharibəsinə qədər Avropa bazarlarında inhisarçı mövqeyinin güclənməsinə kömək etdi. Yekun hüquqi status İran üçün Xəzərin dibinin sərhədlərini və bu konteksdə bir neçə neft-qaz yatağının kimə məxsusluğu məsələsini həll etmədi. Göstərilən bu problemin gələcəkdə ikitərəfli münasibətlər konteksində müzakirə olunaraq həll edilməsi ehtimal edilir. İran

hakimiyyət orqanları arasındakı ziddiyyətlərin azalması və parlamentdə konvensiyaya qarşı sərt mövqeyin getdikcə yumşalması onun ratifikasiyasına ümidləri artırır. Mühafizəkar partiyanın mütləq səs çoxluğu qazandığı XI çağırış İran parlamenti konvensiyaya X parlamentlə müqayisədə nisbətən loyal münasibət göstərməkdədir.

Baxmayaraq ki, İran Xəzərdə güc tətbiqinin əleyhinə çıxış edir amma bununla belə özü silahlı qüvvələrini də bu regionda artırmaqda davam edir. İranın Xəzərdə iki bir-birindən ayrı olan hərbi dəniz donanması fəaliyyət göstərir. Bunlardan biri Hərbi Dəniz Qüvvələrinin komandanlığı altında mərkəzi bazası Ənzəlidə olmaqla, digəri isə mərkəzi bazası Noşəhrdə yerləşən İslam İnqilabı Dəniz Piyadaları Korpusunun komandanlığı altında fəaliyyət göstərir. Bundan əlavə, İran hərbi-dəniz tədris müəssisələri Noşəhr və Ənzəli liman şəhərlərində istifadədir. Rəştdə isə İran hərbi dalğıc məktəbi yerləşir.

Xəzərin İrana məxsus hissəsində aşkar edilmiş neft-qaz yataqları rəsmi Tehran üçün prioritet təşkil etməsə də Xəzərsahili dövlətlərlə əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm verir. Bunu şərtləndirən amil İranın nüvə proqramı ilə əlaqədar sanksiyalara məruz qalmasıdır.

## IV.6. Xəzərin hüquqi statusunun müəyyənləşməsində Azərbaycanın mövqeyi

SSRİ-nin çöküşü gedişində müstəqil dövlətlərin yaranması və bu proseslərin məntiqi nəticəsi kimi SSRİ ilə İran arasında bölünmüş Xəzərin hüquqi statusunun müəyyən edilməsi qaçılmaz bir hüquqi-siyasi proses kimi meydana gəlmiş oldu. Xəzərin hüquqi statusunun daha aktual şəkildə özünü büruzə verməsi Azərbaycanın sahilyanı dövlətlər arasında ilk olaraq Qərb neft şirkətləri ilə neft-qaz yataqlarının birgə işlənməsi haqqında danışıqların aparılması və bunun praktik nəticəsi olaraq “Əsrin müqaviləsi”nin bağlanması ilə əlaqədar olmuşdur. Təsadüfi deyildir ki, böyük dövlət xadimi H.Əliyev qeyd edirdi ki, “Xəzərin hüquqi statusu 1994-cü il 20

sentyabrda imzalanmış “Əsrin müqaviləsi”ndən sonra meydana çıxmış və ona qədər heç kim bu məsələni qaldırmamışdır”. Hələ sovet dönəmində-1980-ci illərin sonlarında Qərb şirkətləri Azərbaycanın Xəzərdəki neft yataqlarının işlənməsi üçün müraciətlər etmişlər. Yeni müstəqilliklərini elan etmiş respublikalar – Azərbaycan, Qazaxıstan və Türkmənistan 1921-ci ildə RSFSR və İran arasında bağlanmış müqaviləni, 1940-cı ildə isə SSRİ və İran arasında gəmiçilik və ticarət məsələlərinin nizamlanmasını nəzərdə tutan sazişin yeni şəraitdə Xəzərdən istifadənin hüquqi bazasını təşkil etmək imkanının olmamasını kəskin şəkildə bildirdilər. Bunun əksinə olaraq imperiya düşüncəsi hakim kəsilmiş Rusiya 21 dekabr 1991-ci ildə imzalanmış Almatı bəyannaməsini əsas götürərək müstəqilliklərini yeni qazanmış dövlətlərin, o cümlədən Azərbaycan, Qazaxıstan və Türkmənistanın SSRİ-nin bağladığı bütün müqavilələri qəbul etdiklərini vurğulayaraq, bunun Xəzərə də şamil edilməsinin vacibliyini bildirirdi. Belə yanaşmanın heç bir hüquqi əsası yox idi. (Əvvəla Almatı bəyannaməsini bütün sovet respublikaları imzalamamışdır. Digər tərəfdən isə yeni müstəqilliklərini qazanmış respublikalar öz ərazilərində (quru və su ərazilərində) tam suveren hüquqlara malik olduqlarını müstqəllikləri haqqındakı konstitusiya sənədində, sonrakı dönəmdə isə birbaşa konstitusiyada təsbit etmişdir).

1990-cı illərin əvvəllərində SSRİ-nin yeni dağıldığı dönəmdə Rusiya Xəzər ətrafında yaranmış yeni müstəqil dövlətlərin sözügedən su hövzəsində öz suveren hüquqlarından istifadə etmələrini qəbul etmir və keçmiş imperiya düşüncəsi ilə məsələyə yanaşırdı. Halbu ki, hələ 1991-ci il yanvarın 18-də Azərbaycan SSR Nazirlər Soveti və SSRİ Neft Sənayesi Nazirliyi arasında bağlanmış müqavilənin 25-ci bəndində “Azəri”, “Çıraq”, “Günəşli” və “Kəpəz” yataqlarının Xəzər dənizinin Azərbaycana aid olan hissəsində olması təsdiq edilirdi.

Azərbaycan hələ 1992-ci ilin sentyabr ayında Tehranda Xəzərin problemlərinə (bioresursların qorunması, su səviyyəsinin yüksəlməsi, sahilyanı dövlətlər üçün dəniz yollarının müəyyənləşdirilməsi və bu kimi digər məsələlərin müzakirə olunduğu) həsr olun-

muş konfransda sözügedən su hövzəsinin hüquqi statusunun müəyyənləşməsi məsələsində öz ilkin mövqeyini açıqlamış oldu. Konfransın gedişində Xəzərin problemləri ilə məşğul olmaq məqsədilə yaradılmış altı komissiyadan biri məhz hüquqi statusun müəyyən edilməsi ilə məşğul olmalı idi. 1992-ci ildən başlayaraq sahilyanı dövlətlər ikitərəfli və çoxtərəfli əsasda Xəzərin hüquqi statusunun müəyyənləşdirlməsi istiqamətində mütəmadi müzakirələrin aparılmasına başladılar. Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ilk olaraq onun göl, yoxsa dəniz olduğu müəyyənləşməli idi.

1994-cü il 20 sentyabrda Azərbaycanın dünyanın aparıcı neft şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi" yuxarıda qeyd etdiyimiz kimi Xəzərin hüquqi statusu məsələsinin Rusiya və İran tərəfindən daha sərt şəkildə gündəmə gətirilməsinə səbəb oldu. Əslində isə Azərbaycanın Qərb neft şirkətləri ilə neft müqavilələrini imzalaması rəsmi Bakının "Moskvanın orbitindən geridönməz şəkildə uzaqlaşması" anlamına gəlirdi və bunu imperiya düşüncəsindən xilas ola bilməyən şimal qonşumuz həzm edə bilmirdi. Məhz belə bir yanaşmanın nəticəsi idi ki, 1994-cü il dekabrın 5-də rəsmi Moskva BMT Baş Məclisinə "Xəzər dənizinin hüquqi rejimi ilə bağlı Rusiya Federasiyasının münasibəti" adı altında təqdim etdiyi sənəddə Xəzərdə xarici şirkətlərlə bağlanılan müqavilələrə kəskin etirazını bildirirdi. Rusiya Xarici İşlər Nazirliyi bununla kifayətlənməyib, başda Böyük Britaniya olmaqla "Əsrin müqaviləsi"ndə iştirak edən dövlətlərə etiraz məktubu ünvanladı. Britaniya hökuməti bu barədə Azərbaycan, Qazaxıstan və Türkmənistanı məlumatlandırmaqla yanaşı, diplomatik etikaya uyğun davranış nümayiş etdirərək, hüquqi statusun sahilyanı dövlətlərin qarşılıqlı müzakirələri gedişində həll olunmalı olduğunu bildirdi. Təbii ki, Azərbaycan tərəfi Rusiyanın belə davranışını cavabsız qoymadı və Xəzərin hüquqi statusu ilə bağlı mövqeyini xarici ölkələrdəki bütün səfirlik və nümayəndəliklərinə göndərmiş oldu.

Azərbaycan Qazaxıstanla təxminən eyni mövqeyi bölüşərək, Xəzərin göl olduğunu birldirməklə sahilyanı dövlətlər arasında onun milli sektorlara bölünməsini istəyirdi. Xəzər təbii vasitələrlə

dünya okeanı ilə birbaşa əlaqəsinin olmaması səbəbi ilə göldür. Xəzərin göl, yoxsa dəniz olması digər yarımfəsildə geniş təhlil edildiyindən bu məsələ üzərində dayanmayacağıq. 11-12 oktyabr 1994-cü ildə Moskvada sahilyanı dövlət nümayəndələrinin iştirakı ilə Xəzərin hüquqi statusu ilə bağlı keçirilən konfransda Azərbaycan nümayəndələrinin Xəzəri sərhəd gölü hesab etməsi və beynəlxalq təcrübəyə görə sərhəd göllərinin milli sektorlara bölünməsi təklifi Rusiya tərəfindən etirazla qarşılandı və hətta müzakirəyə çıxarılmadı.




***Şəkil 31. Azərbaycanın sərhəd gölü təklifi***

***Qaynaq:****https://worldview.stratfor.com/article/new-military-order-caspian-sea*

Azərbaycanın təklifinə görə milli sektorlar ərazi suları kimi qəbul edilməli, orada hər bir sahilyanı dövlət bioloji ehtiyatlar, suyun dibinin və təkinin işlənməsi, gəmiçilik və s məsələlərdə müstəsna səlahiyyətlərə malik olmalı idi. Sektorial bölgü isə orta xətt prinsipi əsasında müəyyənləşməli və onun kənar xətti dövlətin xarici sərhəddi hesab olunmalı idi. Xatırladaq ki, Azərbaycanın bu təklifi beynəlxalq təcrübəyə əsaslanırdı və dünyadakı bir çox sərhəd gölləri məhz bu prinsip əsasında bölünmüşdür. Xəzərin hüquqi statusu dövlətlərarası müzakirələrin predmeti olmaqla yanaşı, elm camiyəsinin də xüsusi önəm verdiyi məsələyə çevrilmişdir ki, artıq sözügedən problemlə bağlı elmi konfranslar keçirilməyə başlanılmışdır. Belə konfranslardan biri 30 yanvar-2 fevral 1995-ci il tarixlərində Aşqabadda keçirildi. Konfransda Xəzərin biomüxtəlifliyinin qorunması, karbohidrogen ehtiyatlarının istismarı məsələləri geniş müzakirə edildi. Konfransın gedişində hüquqşünas və diplomatların hüquqi status müəyyənləşməyənə qədər təbii sərvətlərdən, o cümlədən balıq ehtiyatlarından istifadənin mümkün olmayacağını bildirməsi-

nə balıqçılar kəskin etirazlarını bildirdi. Konfransda açıq şəkildə Rusiyanın təklif etdiyi layihə daha məqbul hesab edildi və müzakirələr də onun ətrafında aparıldı. Konfransın gedişində Azərbaycan istisna olmaqla digər sahilyanı dövlətlər 25 dəniz mili məsafədə balıqçılıq zonasını məqbul hesab etdiyini bildirdi. Bundan əlavə, sahilyanı dövlətlərin hər biri 12 mil uzunluğunda ərazi suları əldə etməli idi ki, həmin məsafədə suyun dibi və onun üzərindəki hava məkanına dövlətlərin hər birinin suverenliyi tətbiq edilirdi. Ərazi sularının ardınca isə 200 mil məsafədə müstəsna iqtisadi zona yaradılmalı idi ki, Xəzərin həcmi bunu tətbiq etməyə imkan vermirdi. Buna görə də ən yaxın sahil nöqtələri arasında bərabər məsafədən keçən orta xətt prinsipi əsasında tərəflərin qarşılıqlı razılıqları rəhbər tutularaq müəyyənləşdirilməli idi. Azərbaycan tərəfi bunu dolayısı ilə Xəzərin hüququ statusu hesab etdi və onu qəbul etməkdən imtina etdi. Növbəti elmi konfrans həmin ilin 15-16 may tarixlərində alimlərlə yanaşı diplomatların da iştirakı ilə Almatıda keçirldi. Konfransın başlıca müzakirə mövzusu hüquqi status idi. Rusiya tərəfi Xəzərdə kondominium tətbiq edilməsinin zəruriliyini əsaslandırmağa çalışırdı. Rusiya Xarici İşlər nazirinin müavini Xəzərin bölünməsinə imkan verməyəcəklərini və sözügedən sututarda əməkdaşlığın Rusiyanın maraqları çərçivəsində reallaşa biləcəyini söylədi. Rusiyanın kondominium təklifi İran tərəfindən müdafiə edilsə də, Azərbaycan nümayəndələri bunu qəbuledilməz hesab etdi. Əslində Rusiya və İranın eyni mövqedən-kondominium təklifi ilə çıxış etməsi daha çox Qərb şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzalamış Azərbaycana, onun Xəzərdəki fəaliyyətinə qarşı yönəlmişdi.

1996-cı ildən başlayaraq Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar növbəti mərhələyə qədəm qoymuş oldu. 1996-ci il oktyabrın 20-də sahilyanı dövlətlərin Xarici İşlər nazirlərinin Tehranda keçirilən konfransında Azərbaycan tərəfi hər bir Xəzərsahili dövlətin 1970-ci il bölgüsünə uyğun olaraq özünə aid sektordan istifadə etmək hüququnun olduğunu bildirdi ki, bu da Rusiya və İranın yanaşması ilə uyğun gəlmirdi.

11-12 noyabr 1996-cı ildə Aşqabadda keçirilən Xarici İşlər nazirlərinin də iştirak etdiyi konfransda Rusiya, Türkmənistan və

İran arasında birgə memrandum imzalandı. Memorandumda "açıq dəniz" prinsipinə əsaslnaraq, 20 mil ərazi suları və 20 mil müstəsna iqtisadi zona təklif edilirdi. 20 mil ərazi sularının dibi və üzərindəki hava məkanına dövlətlərin suverenliyi qeydi-şərtsiz şamil edilməli idi. Müstəsna iqtisadi zonada da hər bir dövlətin müstəsna səlahiyyətləri tanınmalı idi. Həmçinin müstəsna iqtisadi zonalarda sahilyanı dövlətlər gəmiçilik və uçuş fəaliyyətlərinin həyata keçirilməsində, eləcə də kabel və boru kəmərlərinin çəkilməsində sərbəst hesab edilirdilər. 40 mildən kənarda qalan su ərazi isə sahilyanı dövlətlərin birgə istifadəsində olmalı idi ki, bu da dolayısı ilə kondominium demək idi. Belə yanaşma Xəzərdə iri həcmli neft layihələrini reallaşdırmaqda israrlı olan Azərbaycanı qane edə bilməzdi. Həmçinin, sözügedən konfransda Xəzərin statusu ilə bağlı konvensiyanın işlənib hazırlanması üçün Xarici İşlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupunun yaradılması haqqında qərar qəbul edildi. Aşqabad görüşündə Rusiya, İran və Türkmənistan özlərinə aid sahilyanı ərazilərdə karbohidrogen yataqlarının birgə işlənməsi haqqında konsorsiumun yaradılmasına razılıqlarını bildirdilər. Rusiya və İran "güzəşt"li mövqe tutaraq sahilyanı dövlətlərin hər birinin 45 dəniz mili ölçüsində paya sahib olduqdan sonra Xəzərin qalan hissəsinin ümumi istifadədə olmasını təklif edirdi ki, Azərbaycan tərəfi yenə buna etirazını bildirmişdir. Azərbaycanın perespektivli yataqlarının bir hissəinin məhz 45 millik ölçüdən kənarda qalması səbəbindən təklif rəsmi Bakını qane etmirdi.

Xəzərin hüquqi statusu 1992-ci ildə siyasi gündəmə gəldiyi vaxtdan Azərbaycanın mövqeyi daha çox Qazaxıstan ilə yaxınlığı ilə seçilirdi. Hər iki dövlət Xəzərdə mühüm karbohidrogen ehtiyatlarına malik olduğundan onun dünyanın aparıcı şirkətləri ilə birgə işlənməsində maraqlı idi ki, bu da özlüyündə sözügedən su hövzəsinin milli sektorlara bölünməsini vacib edirdi. Bu yaxın mövqe 16 sentyabr 1996-cı ildə iki dövlət arasında Xəzər məsələlərinə aid birgə bəyannamənin imzalanmasını mümkün etdi. Bəyannamədə hər iki dövlət özlərinə aid milli sektorlarda (1970-ci il sektorial bölgüsü

nəzərdə tutulur) karbohidrogen ehtiyatları və bioloji sərvətlərdən sərbəst istifadə hüququnu tanımış olurdular.

Xəzərin hüquqi rejimi ilə bağlı ümumi konsepsiyanın işlənib hazırlanması ilə yanaşı sahilyanı dövlətlər ikitərəfli formatda da danışıqlar aparırdı. Bu konteksdə Azərbaycan ilə Türkmənistan arasında müzakirələr gedirdi. 1998-ci il 6 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin sərəncamı ilə yaradılmış ekspert qurupu Türkmənistan ilə Xəzərdə orta xəttin müəyyən edilməsi istiqamətində danışıqlar aparırdı. Həmin ilin 30 mart tarixində Bakıda Azərbaycan ilə Türkmənistanın birgə qəbul etdikləri bəyannamədə Xəzərin dibinin orta xətt prinsipi əsasında bölünməsi qəbul edilirdi.

6 iyul 1998-ci ildə Rusiya ilə Qazaxıstan arasında Xəzərin şimal hissəsinin dibinin bölüşdürülməsi haqqında müqavilə imzalandı. Saziş özlüyündə Xəzərin hüquqi statusu məsələsində yeni bir mərhələyə keçid təşkil edirdi ki, bu da tərəflərin müzakirələrdən praktik həll istiqamətində real addımların atılması kimi qiymətləndirilə bilərdi. Azərbaycan üçün müqavilənin mühüm əhəmiyyəti həm də onda idi ki, rəsmi Bakının müdafiə etdiyi milli sektorlar əsasında Xəzərin bölünməsi artıq reallığa çevrilirdi. Bu, Xəzərdə böyük enerji layihələrinin reallaşdırılmasına yeni başlamış Azərbaycanın mövqeyinin möhkəmlənməsi baxımından olduqca vacib idi.

1998-ci ilin dekabrında Moskvada keçirilən Xüsusi İşçi Qrupunun ikinci iclasında İran tərəfinin bütün cəhdlərinə baxmayaraq Xəzərin dibinin məhz milli sektorlara əsaslanaraq delimitasiyasının aparılması haqqında razılıq əldə edildi ki, bu da Azərbaycanın ilk gündən irəli sürdüyü sektorial bölgü prinsipinin qəbul edilməsi demək idi. Yeri gəlmişkən qeyd edək ki, bu, görüşün yekunu olaraq imzalanmış sənəddə də öz əksini tapmış oldu.

Moskva görüşünün ardından 1999-cu il 22-23 iyun tarixlərində Tehranda “Xəzər dənizi: imkanlar və perspektivlər” mövzusunda keçirilən növbəti elmi praktik konfransda İran nümayəndələri Azərbaycanın təklif etdiyi Xəzərin dibinin milli sektorlara bölünməsi əsasında delimitasıyasını kəskin tənqid etdi. İran yenə də əvvəlki yanaşmasını müdafiə edərək 20%-lik bölgünü daha ədalətli hesab

etdi. Konfransda iştirak edən Azərbaycan Xarici İşlər nazirinin müavini X.Xələfov İranın iddialarını elmi əsaslara söykənərək rədd etdi. Əslində, zaman keçdikcə Xəzərin hüquqi statusunun müəyyənləşməsində İranın mövqeyi təklənir, Rusiya, Qazaxıstan və Türkmənistanın mövqeyində isə yaxınlaşma hiss olunurdu. Bu yaxınlaşmanın kökündə isə Xəzərin dibinin milli sektorlara bölünməsi dayanırdı ki, yuxarıda qeyd etdiyimiz kimi bu da rəsmi Bakının ilk gündən müdafiə etdiyi yanaşma idi.

15-16 iyun 2001-ci ildə Xəzərin hüququ statusunun müəyyənləşməsi ilə bağlı Xüsusi İşçi Qrupunun Bakıda keçirilən IV iclasında Azərbaycan öz mövqeyini konvensiya şəklində təqdim etdi ki, bu Xəzərin problemlərinə rəsmi Bakının kompleks şəkildə baxışının məcmusu hesab edilə bilərdi. Görüşün yekununda tərəflər arasında kommunike də imzalandı.

Hüququ statusun müəyyənləşməsi gedişində Azərbaycanın mənafeyinin ən çox toqquşduğu dövlət İran idi. Yuxarıda İranın Rusiya ilə Xəzərdəki maraqlarının ortaq məqamları şərh edildiyindən bunun üzərində dayanmayacağıq. Qazaxıstanla da İranın Xəzərdə sərhəddi yoxdur. Xəzərdə Türkmənistan və Azərbaycan ilə sərhəd olan İranın maraqlarının daha çox rəsmi Bakı ilə toqquşmasını yalnız Xəzərlə məhdudlaşdırmaq problemə daha dar çərçivədən yanaşmaq olardı. Ümumiyyətlə İran-Azərbaycan münasibətlərinin ana xəttini Cənubi Azərbycan məsələsi təşkil edir. Türkmənistanın Xəzərdə prespektivli neft-qaz yataqları hələ ki, aşkarlanmamışdır. Təbii qaz ehtiyatlarına görə hətta bəzi ekspertlərin rəyinə görə dünyada birici sırada yer alan, neft resursları baxımından da kifayət qədər potensialı olan cənub qonşumuz məlum sanksiyalar səbəbindən onları reallaşdıra bilmir. Qonşuluğunda müstəqilliyini yeni əldə etmiş Azərbaycanın fəal enerji siyasəti aparması rəsmi Tehranı qıcıqlandırırdı. Qərb şirkətlərinin Xəzərdə aktiv fəaliyyəti fars rejiminin baxışlarına görə İran üçün əlavə "təhlükəsizlik qayğıları" yaratmış olurdu. Geosiyasi konteksdə isə Azərbaycan enerji siyasətini xüsusən də neft və qazın ixracını Türkiyənin maraqlarını nəzərə almaqla həyata keçirir ki, bu da regionda Ankaranın gücünü artırmaqla ya-

naşı, daha dərin qatlarda türk dövlətləri birliyinin formalaşması üçün iqtisadi təməl yaradılmasına xidmət etmiş olurdu.

İran rəsmiləri vaxtaşırı öz çıxışlarında Azərbaycana təhdid dili ilə təzyiqlərini davam etdirirdilər. 2001-ci il avqustun 12-də İran XİN-nin MDB Ölkələri ilə İş İdarəsinin rəisi Ə.Biqdeli Azərbaycanın İrandakı səfiri A.Həsənov ilə görüşündə diplomatik etiket qaydalarını kobud şəkildə pozaraq, Xəzərdə heç bir sərhəd xəttini qəbul etmədiklərini və yekun hüquqi status müəyyənləşənə qədər 1921 və 1940-cı il Rusiya (SSRİ)-Iran müqavilələri əsasında fəaliyyət göstərilməsinin vacibliyini vurğulamışdır. İranlı diplomat "Alov", "Şərq" və "Araz" neft yataqlarının İranın ərazi sularında yerləşdiyini iddia edərək bununla bağlı Azərbaycana nota təqdim etdiklərini və rəsmi Bakının isə bunlara lazımı diqqət yetirməyərək İranın "ərazi sularını" kobud şəkildə pozduğunu bildirmişdir. Ə.Biqdeli bir az da qabağa gedərək İranın Milli Təhlükəsizlik Üzrə Ali Şurasının katibi (bir qədər sonra İran prezidenti olacaq) H.Ruhaninin bölgəyə səfəri gedişində Azərbaycan tərəfinin sözügedən yataqlara tədqiqat gəmisinin göndərməsini İranın "ərazi bütövlüyünə təcavüz" kimi qiymətləndirməsi rəsmi Tehranın Xəzərlə bağlı rassionallıqdan uzaq davranışının bariz nümunəsi idi.

1921 və 1940-ci il müqavilələrinə görə Xəzərin yalnız 14%-i İrana məxsus idi ki, adıçəkilən Azərbaycana məxsus neft yataqları məhz həmin ərazidən kənarda yerləşirdi. Digər tərəfdən, İran sadə bir məntiqi qəbul etmirdi ki, sahilyanı dövlətlərin Xəzərin dibini bölüşdürlməsi sahil xətlərinin uzunluğu və əlverişli mövqeyə malik olmasına əsaslanaraq aparılır. Yəni, başqa sözlə hansı dövlət Xəzər ilə daha çox sahil xətinə malikdirsə və sahil əraziləri dənizə geniş ölçüdə daxil olmuş vəziyyətdədirsə o dənizin dibidən ona müvafiq paya sahib olacaqdır. Xəzər ilə ən az və eyni zamanda əlverişsiz sahil xətti olan dövlət isə İran idi.

İran ilə Azərbaycan arasında yaranan gərginlik H.Əliyevin 2001-ci ilin sentyabrında Tehrana rəsmi səfəri gedişində nisbətən yumşaldıldı. Sentyabrın 18-də iki ölkə arasında Xəzərlə bağlı birgə bəyannamə imzalandı. Birgə bəyanatda cəmi bir ay əvvəl hərbi ritorikadan gen-bol istifadə edən İranın mövqeyində xeyli yumşalmanın

olduğu aydın sezilirdi. Xəzərin sahilyanın dövlətlərin mənafeləri nəzərə alınmaqla, qarşılıqlı hörmət əsasında sülh və əməkdaşlıq dənizi olacağı sənəddə əksini tapmışdır.

2000-ci il iyulun 13-də Rusiya Federasiyasının Xəzər Məsələləri Üzrə Xüsusi Nümayəndəsi V.Kalyujniy H.Əliyev ilə görüşündə sərt tənqidlə qarşılandı. H.Əliyev Kalyujniya xatırlatdı ki, "beynəlxalq təcrübə var ki, əgər yeni müqavilə, razılaşma yoxdursa, təşəkkül tapmış praktika mövcuddur. Praktika isə ondan ibarətdir ki, 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi Xəzərdə neft hasilatını daha səmərəli həyata keçirmək üçün sektorial bölgü aparmışdır. Azərbaycan da həmin sektor daxilində fəaliyyət göstərməkdədir. Rusiyanın "Lukoil" şirkəti də bizimlə əməkdaşlıq edir. İran isə sovet dönəmində hansı sərhədə sahib idisə orada da qalmalıdır. SSRİ-nin dağılmasının ərazi baxımdan İrana bir aidiyyatı yoxdur və İranın davranışları beynəlxalq praktikaya uyğun deyildir".

Azərbaycan tərəfi Rusiya və İran rəsmilərindən fərqli olaraq bildirirdi ki, rəsmi Moskva və Tehranın təkidlə bildirdiyi "Xəzərin hüquqi statusu 1921-ci il Rusiya-İran və 1940-cı il SSRİ-İran müqavilələrinə söykənərək həll edilməlidir" yanaşması belə, rəsmi Bakını Xəzərdə özünə aid sektorda neft-qaz hasilatı ilə məşğul olmağı qadağan etmir. Sadə məntiqlə məsələyə yanaşdıqda 1921 və 1940-cı il müqavilələrinə görə Xəzərin yalnız 14%-i İrana məxsus olmuşdur. SSRİ dağılarkən Alma-Ata bəyannaməsini (21 dekabr 1991-ci il) imzalayan dövlətlər SSRİ-nin bağladığı bütün müqavilələrdən doğan öhdəlikləri tanıdıqlarını bildirmişlər. Hətta, hər iki müqavilə Azərbaycan və Qazaxıstan tərəfindən qəbul edilsə belə, bu İrana Xəzərdən kondominium formasında istifadəyə imkan vermirdi. Belə ki, İran istənilən halda, hər iki müqaviləni əsas götürəcəyi təqdirdə 14%-lik payla məhdudlaşmalıdır. Yerdə qalan 86% isə 1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi tərəfindən aparılmış sektorial bölgü əsasında dörd sahilyanı sovet respublikası arasında bolünməlidir. Təbii ki, belə haqlı yanaşma nə Rusiyanı, nə də İranı qane etmirdi. Əvvəlcə daha çox Moskvanın, 1998-ci ildən isə Tehranın yanında yer alan Türkmənistan da Azərbaycanın mövqeyinə qarşı çıxmış ol-

du. Rəsmi Bakı dəfələrlə mötəbər tədbirlərdə Azərbaycanın Xəzərdə özünə aid sektorda neft-qaz ehtiyatları ilə bağlı apardığı danışıqları və bağladığı beynəlxalq müqavilələri pozmağa yönəlmiş təhdidlər qarşısında geri çəkilməyəcəyini, öz konstruktiv mövqeyini sona qədər müdafiə edəcəyini bildirmişdir. Bu isə müstəqilliyi hələ kövrək olan bir dövlət və onun lideri üçün həqiqətən olduqca çətin idi. Məhz bütün bu təhdidləri, təzyiqləri neft strategiyamısın reallaşmaması üçün edildiyinin bilən H. Əliyev 1995-ci il 12 noyabrda müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul olunarkən ana qanunun 12-ci maddəsinin ikinci bəndini aşağıdakı kimi yazmağı təklif etdi. Azərbaycanın daxili suları, Xəzərin (gölünün) Azərbaycana mənsub olan bolməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Konstitusiyanın 3-cü madddəsinin II bəndinə görə isə Azərbaycan Respublikasının dövlət sərhədləri yalnız referendum yolu ilə dəyişdirilə bilər. Xatıladaq ki, sahilyanı dövlətlər içərisində ilk olaraq məhz Azərbaycan Xəzərin özünə aid sektorunu konstitusiyada dövlət ərazisi kimi göstərmişdir. Bu əslində qarşı tərəflərə də çox ciddi bir siqnal idi ki, Xəzərin özünə aid sektorunun dövlət ərazisi kimi konstitusiyaya salınması heç bir qüvvənin Azərbaycanı bu yoldan döndərə bilməyəcəyini bariz şəkildə nümayiş etdirirdi.

Azərbaycan digər sahilyanı dövlətlərdən fərqli olaraq Qazaxıstan istisna olmaqla yerdə qalan dövlətlərlə ciddi fikir ayrılığı olduğundan çətin bir yol qət etməli oldu. Öncə Azərbaycanın Xəzər bir sərhəd gölüdür və sahilyanı dövlətlər arasında orta xətt prinsipi üzrə milli sektorlara bölünməlidir mövqeyi Rusiya və ardınca İran tərəfindən kəskin etirazla qarşılandı. Rusiya ilə Azərbaycan arasında mübahisəli yataqlar olmasa da, şimal qonşumuz ümumilikdə sözügedən su hövzəsinin elə bir istifadə metodunun "kəşf" edilməsini istəyirdi ki, burada onun geosiyasi, iqtisadi və təhlükəsizlik məsələləri öz əksini tapsın. Türkmənistan və İran fərqli bölgü mexanizmləri təklif etməklə yanaşı, həmçinin Azərbaycanın perespektivli neft-qaz yataqlarına da iddi irəli sürürdü.

Yeri gəlmişkən qeyd edək ki, "Azəri" neft yatağı (ilkin adı 26 Bakı Komisarı)Azərbaycan sahilindən 160 kilometr, Türkmənistan sahilindən 118 kilometr, "Çıraq" neft yatağı (bu yataq əvvəlcə onu kəşf edən geoloqun adı ilə Kaverоçkin adlanmışdır) Azərbaycan sahilindən 148, Türkmənistan sahilindən isə 132 kilometr məsafədə yerləşir. "Kəpəz" yatağı (ilkin adı Promejutoçnoye) isə Azərbaycan sahilindən 184 kilometr, Türkmənistan sahilindən isə 104 kilometr məsafədə yerləşir. Məsələyə səthi yanaşdıqda yataqların Türkmənistana daha yaxın ərazidə yerləşdiyini əsas gətirib, onun rəsmi Aşqabada aid olduğunu güman etmək olar. Bu məsələ digər bölmədə daha ətraflı şərh edildiyindən, burada yalnız onu deməklə kifayətlənəcəyik ki, Abşeron yarımadasının təxminən 60 kilometr məsafədə Xəzərin içərilərinə doğru uzanması nəzərə alınmamışdır. Halbu ki, Abşeron arxipelağı tamamilə təbii landşaft olub və coğrafi vəziyyət heç bir məhkəmənin mühakimə predmeti sayılmır.

1997-ci ilin avqustunda "ARDNŞ" ilə Rusiyanın "LUKoyl" şirkəti arasında "Kəpəz" yatağının birgə işlənməsinə dair müqavilə bağlandıqdan dərhal sonra Türkmənistan prezidenti S.Niyazov "Sərdar" adlandırdığı "Kəpəz" yatağının onlara məxsus olduğunu və ardından "Azərbaycan buradakı fəaliyyətini təcili dayandırmalıdır" fikrini səsləndirdi. Əks təqdirdə Türkmənistan öz hərəkətlərinə görə məsuliyyət daşımır kimi təhdid dolu ultimatumu iki ölkə arasındakı gərginliyi xeyli artırmış oldu. Buna cavab olaraq həm "SOCAR"-ın prezidenti N.Əliyevin, həm də Azərbaycan Xarici İşlər Nazirliyinin Türkmənistan tərəfinə cavab olaraq ünvanladığı notada "Kəpəz" yatağının kəşf olunma tarixinə nəzər salınır və onun beynəlxal hüquq nöqteyi-nəzərdən, eləcə də tərkibində birgə olduqları SSRİ-nin Neft Sənaye Nazirliyi tərəfindən 1970-ci ildə aparılmış sektorial bölgü nəticəsində Azərbaycanın yurisdiksiyasında olduğu və həmin qurumun 1991-ci il 18 noyabr 25/25 nömrəli qərarında "Azəri", "Çıraq" və "Kəpəz" yataqlarının Azərbaycanın balansında olduğu detalları ilə göstərilmişdir.

1998-ci ildə Türkmənistan ilə Azərbaycan arasında Xəzərdə sərhədlərin müəyyənləşdirilməsinə dair kommunike imzalandı. Bu

kommunikeyə görə Türkmənistan Xəzərin orta xətt üzrə sektorlara bölünməsinə razılığını bildirirdi və kordinatların müəyyən edilməsi üçün işçi qrupunun yaradılması razılaşdırıldı.

Rusiya Federasiyasının Prezidenti V.Putinin 9-11 yanvar 2001-ci ildə Azərbaycana rəsmi səfəri gedişində ikitərəfli münasibətlərin ayrı-ayrı sahələrini özündə ehtiva edən "Bakı bəyannaməsi" imzalandı. Səfər gedişində həmçinin Rusiya ilə Azərbaycan arasında Xəzərin dibinin bölünməsi, su səthinin isə ümumi istifadədə qalması məsələsi də razılaşdırıldı və adıçəkilən bəyanatın mətninə daxil edildi. Bəyanatda göstərilirdi ki, hər iki dövlət Xəzərin mühüm əhəmiyyətini qeyd edərək, sahilyanı ölkələrin suveren hüquqları tanınmaqla, beynəlxalq hüquq və təcrübəyə əsaslanaraq, sözügedən su hövzəsinin sülh və əməkdaşlıq üçün istifadə ediləcəyini təsdiq edirdilər. Tərəflər təsdiq edirdilər ki, hüquqi statusun müəyyənləşməsi yalnız sahilyanı dövlətlərə aiddir və onların qarşılıqlı razılıqları əsasında müəyyənləşə bilər. Hüquqi status məsələsi ilə bilavasitə məşğul olan Xüsusi İşçi Qrupunun fəaliyyətində müntəzəmliyin təmin olunmasında tərəflər razılıqlarını bildirirdilər. Bəyanatın əsas müddəası 3-cü bənddə yer almışdır. Orada göstərilirdi ki, hüquqi statusla bağlı sahilyanı dövlətlərin mövqelərində əhəmiyyətli yanaşma fərqlilikləri olduğu üçün konsensusla mərhələli şəkildə yekun nəticəyə doğru irəliləmək vacibdir. Hər iki tərəf qəbul edirdi ki, ilkin mərhələdə bərabər məsafədə yerləşən nöqtələr əsas götürülərək çəkilən və modifikasiya edilən orta xətt metodu əsasında, həmçinin beynəlxalq hüquq normalarına əməl etməklə, Xəzərdə bu vaxta qədər mövcud olan təcrübəni nəzərə alaraq, onun dibinin sektorial zonalara bölünməsini məqbul hesab edirlər. Orta xətt metodu əsasında Xəzərin dibinin sektorlara bölünməsini tərəflər digər sahilyanı dövlətlər (İran və Türkmənistan) üçün də təklif edirdi. Rusiya və Azərbaycan razılaşırdı ki, bölgü nəticəsində yaranmış sektorlarda tərəflərin müstəsna hüquqları tanınacaqdır.

Rusiya və Azərbaycan Xəzərin ekosisteminin qorunması üçün səylərini artırmaq və monitorinq ilə məşğul olacaq beştərəfli Xəzər mərkəzinin yaradılmasına tərafdar olduqlarını bildirdilər.

Bu sənədlə Rusiya, Qazaxıstan və Azərbaycan status məsələsində eyni mövqeyə yaxınlaşdıqlarını göstərməklə yanaşı, həmçinin Azərbaycanın başlanğıcdan təklif etdiyi sektorial bölgünün daha doğru olduğunu və sahilyanı dövlətlərin maraqlarının təmin edilməsində bu prinsipin dönməzliyini göstərmiş oldu.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində ikitərəfli formatda aparılan danışıqların növbəti uğurlu yekunu 29 noyabr 2001-ci ildə MDB dövlət başçılarının Moskva sammiti gedişində Azərbaycan Respublikasının Prezidenti H.Əliyev ilə Qazaxıstan Respublikasinin Prezidenti N.Nazarbayev arasında sektorial bölgü haqqında müqavilənin bağlanması oldu. 7 maddədən ibarət olan sazişdə Xəzərin Azərbaycan ilə Qazaxıstan arasında orta xətt prinsipi əsasında bölünməsi, orta xəttin koordinatlarının isə ayrılıqda protokolda göstərilməsi, habelə dənizin dibinin və təbii ehtiyatlarının kəşfiyyatı, hasilatı, sualtı boru kəmərlərinin, kabel optik xətlərin çəkilməsi və digər məsələlərdə tərəflərin suveren hüquqlarının tanınması öz əksini tapmışdır. Adıçəkilən saziş tərəflərin müvafiq qanunverici orqanlarında (Azərbaycan Milli Məclisi tərəfindən 9 aprel 2002-ci ildə, Qazaxıstan Senatı tərəfindən isə 11 iyun 2003-cü ildə) ratifikasiya olunduqdan sonra qüvvəyə minmiş oldu. Xatırladaq ki, 27 fevral 2003-cü ildə Bakıda hər iki respublikanın Xarici İşlər nazirlərinin müavinləri tərəfindən sözügedən sazişə əlavə protokol imzalandı.

Azərbaycan yekun hüquqi statusun müəyyənləşməsinin uzanmasını görərək ikitərəfli əsasda danışıqları daha da gücləndirməyi vacib hesab edirdi. Bu kontekstdə Prezident H.Əliyevin 23-24 sentyabr 2002-ci ildə Moskvaya səfəri gedişində "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzərin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş" imzalandı. Sənəddə Rusiya və Azərbaycan arasında Xəzərin dibinin həmhüdud sahələrinin coğrafi koordinatları müəyyən edilirdi. 1979-cu ildə nəşr olunan topoqrafik xəritə əsasında iki dövlətin Xəzərin dibində həmhüdud sahələr müəyyənləşmiş olurdu.

Hələ bundan bir qədər öncə-29 noyabr 2001-ci ildə Azərbaycan ilə Qazaxıstan arasında imzalanmış əlavə protokol ilə iki dövlət arasında Xəzərin dibinin həmhüdud sahələrinin coğrafi koordinatları müəyyən edilirdi.

2003-cü il may ayında 14-də Xüsusi İşçi Qrupunun Tehranda keçirilən IX iclası gedişində Azərbaycan, Rusiya və Qazaxıstan arasında Xəzərin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında saziş imzalandı.

Azərbaycan sahilyanı dövlətlər içərisində yeganə ölkədir ki, bütün dövlətlərlə sərhəddi vardır. Statusun müəyyənləşməsində çoxtərəfli danışıqlar nəticə vermədikcə ikitərəfli müzakirələrin aparılması və müqavilələrin bağlanması zərurəti yarandıqda rəsmi Bakı sahilyanı dövlətlərin hamısı ilə belə razılaşmaları əldə etməli idi. Xatırlasaq ki, sahilyanı dövlətlərdən yalnız Qazaxıstanla ciddi fikir ayrılığı yox idi və yerdə qalan dövlətlərlə çox fərqli yanaşmalar fonunda Azərbaycan diplomatiyası mürəkkəb bir prosesdən keçməli oldu.

Yekun hüquqi konvensiyanın qəbul edilməsi gecikdikcə ikitərəfli formatda müzakirələrin aparılması və razılıqların əldə edilməsi daha məqsədəuyğun hesab edilirdi. Məhz belə yanaşmanın nəticəsi idi ki, Xəzərin hüquqi statusuna aid 2018-ci il 12 avqust tarixində Qazaxıstanın Aktau şəhərində yekun sənədin imzalanmasına qədər Azərbaycan neft-qaz yataqları ilə bağlı demək olar ki, bütün beynəlxalq müqavilələri bağlamış, hətta vaxtı bitmək üzrə olan kontaraktların müddətinin uzadılmasına, (Azəri-Çıraq-Günəşli) eləcə də, boru-kəmər layihələrinin reallaşmasına nail olmuşdur. Düzdür, sual yarana bilər ki, Xəzərin hüquqi statusnun Azərbaycan üçün iqtisadi baxımdan effekti varmı? Hər şeydən öncə müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası da yeni şəraitdə öz coğrafi mövqeyindən və tarixən daşıdığı tranzit ölkə missiyasından yararlanmağa çalışırdı. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın keçdiyi iqtisadi-siyasi yola nəzər saldıqda görürük ki, tarixi İpək yolunun bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi məqsədəuyğun və məntiqlidir. Hər şeydən öncə Azərbaycan "Əsrin müqaviləsi"ni imzalamaqla, əslində gələcək həm iqtisadi həm də siyasi inteqrasiya istiqamətini müəyyənləşdirmiş oldu.

1998-ci ildə Bakı konfransında tarixi İpək yolunun bərpası haqqında əsas iştirakçı dövlətlərin bəyanatı, ardınca isə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin

çəkilməsi ilə Azərbaycan yenə iqtisadi-siyasi xəttinə sadiqliyini göstərdi. Bütün bu sadaladığımız və ardınca müasir günümüzdə gerçəkliyə çevrilən TANAP və TAP layihələrinin reallaşması əslində Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsini məntiqə uyğun addım kimi qiymətləndirməyə əsas verir.

Bu gün Şərqə dəniz (okean) yolunun kəşfi ilə keçmiş önəmini itirən tarixi İpək yolu təkrar strateji bir dəyər qazanmaqdadır. XX yüzilliyin son on ilində Sovetlər Birliyi ölkələrinin müstəqilliklərini qazanmaları bu prosesi sürətləndirmişdir. Nəticə etibarı ilə günümüzdə İpək yolu coğrafyası, Çin, Hindistan və Cənubi Asiya ölkələrinin iqtisadi inkişafı, Orta Asya ölkələrindəki geniş enerji qaynaqları və Şərq-Qərb ticarətindəki strateji mövqeyi ilə bir daha qlobal iqtisadiyyatın diqqət çəkən coğrafyalarından biri olmağa başlamışdır. Avropa ilə Şərqi Asiya arasındakı yüksələn ticari və iqtisadi əlaqələr Avropadan Çinə və Cənubi Asiyaya qədər əlaqələndirməyə sahib olacaq uzun bir quru bağlantısına olan ehtiyacı artırmışdır.

İpək yolunun (Çin-Qazaxıstan-Xəzər dənizi (gölü)-Azərbaycan-Gürcistan Türkiyə-Avropa) istər dəniz əlaqələndirməsinə istərsə də Rusya üzərindən keçən "Şimal Əlaqələndirmə xəttı"nə nəzərən önəmli üstünlükləri görünməkdədir. Çinin qərbində istehsal olunan əmtəələrin dəniz yolu ilə Qərbi Avropaya çatdırılması üçün öncə 3000 kilometrlik bir yolu qət edərək Çinin şərq hissəsindəki limanlara yetişmək lazımdır. Daha sonra isə təxminən 20 min kilometrlik bir dəniz yolu ilə Süveyş kanalı üzərindən Qərbi Avropanın limanlarına çatmaq mümkündür. Bu yolçuluq limanların həddindən çox yüklənmələri ilə yanaşı, limanları ölkənin daxili rayonlarına bağlayan əlaqələndirmə xətlərinin yetərsizliyi, mövsümü şərtlər və Süveyş kanalı keçidində yaşanan gözləmələrlə əlaqədar olaraq 30 və 45 gün arasında uzana bilər. Ancaq, həmin həcmdə mal İpək yolu koridoru üzərindən daşındıqda təxminən 10000 kilometrlik bir yolun ardından eynı nöqtəyə yetişə bilir. Yeri gəlmişkən yolçuluğun müddəti hal-hazırda 16 gün olub, Qazaxıstanın TRACECA layihəsində aparmış olduğu "İpək Rüzgârı" (Silk Wind) projesinin tamamlanmasının ardından 12-14 günə düşməsi gözlənməkdədir.

İpək Rüzgârı ilə birlikdə Qazaxıstan yeni və daha qısa bir dəmiryolu xəttini işə salması ilə malların Xəzəri dolaşmasına ehtiyac qalmayacaqdır. Xəzəri keçəcək qatar Avropaya Bakı-Tiflis-Qars və Mərmərə projeləri ilə bağlanacaqdır. Digər yandan dəniz daşımaçılığının Avropa-Asiya arasında gedərək artan iqtisadi və ticari əlaqələrin sürətinə həm kəmiyyət (daşıma miqdarı) həm də keyfiyyət (daşıma keyfiyyəti və sürəti) baxımından yetişə bilməyəcəyi gözlənilləndir. Bu durum Şərq-Qərb arasında dəmiryolu daşımalarının getdikcə daha çox əhəmiyyətli olduğunu göstərməklə yanaşı digər vasitələrlə (xüsusən dəniz və avtomobil) daşımaları zaman və maliyyə baxımından gedərək üstələməkdədir. Bənzər şəkildə, İpək yolunun Rusiya torpaqlarından keçməkdə olan "Şimal xətti"ndən təxminən 1500 km daha qısa olması və bununla yanaşı iqlim şəraiti baxımından bir çox mütəxəssislərin fikirincə daha uygun olması da bu marşuruta üstünlük verir. İpək yolunun həm qlobal Şərq-Qərb ticarəti həm də ölkələrimiz arasındakı iqtisadi və ticari əlaqələr üçün əsas bir əlaqələndirmə seçimi ola bilməsi realdır.




Kaynak: (TITR, 2018)

***Şəkil 32. Trans-Xəzər beynəlxalq nəqliyyat marşurutu***

Aydındır ki, bu dəhlizdə Xəzərin nəqliyyat imkanları mühüm yer tuturdu. Əməli olaraq iştirakçı dövlətlər Xəzərin hüquqi statusunun təsbit edilmədiyi bir halda Xəzərdə nəqliyyat layihələrinin optimal realizə edilməsində çətinlik çəkirdilər. Xəzər Şərq-Qərb nəqliyyat dəhlizi ilə yanaşı Şimal-Cənub dəhlizinin də mühüm seqmentini təşkil etməkdədir. Hindistanın Mumbay limanından Körfəz ölkələri və İrandan keçməklə Azərbaycan da daxil olmaqla Xəzər vasitəsi ilə Rusiyaya, buradan isə şimali və qərbi Avropaya, eləcə də əks istiqamətdə yüklərin daşınmasını təmin edəcək 7200 km uzunluğunda olan Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması haqqında müqavilə 12 sentyabr 2000-ci ildə Sankt-Peterburq şəhərində Rusiya, İran və Hindistan dövlətləri arasında bağlanmışdır. Hazırkı şəraitdə daha 10 dövlət-Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkiyə, Ukrayna, Belarusiya, Oman, Ermənistan və Suriya bu nəqliyyat dəhlizinə qoşulmaq haqqında müqavilə imzalamışlar. Sözügedən layihə işə düşəcəyi təqdirdə əhali sayına görə Çindən sonra dünyada ikinci sırada yer alan 1milyard 400 mln əhalisi olan Hindistanın Mumbay, İranın Bəndər-Abbas daha sonra Bakı və Rusiya limanları nəqliyyat dəhlizi ilə birləşəcəkdir. Bu olduqca vacib və əhəmiyyətli layihədir. Göründüyü kimi Xəzərsahili dövlətlərdən Türkmənistan istisna olmaqla hamısı bu layihəyə qoşulmuşdur və bu çərçivədə də onlar sıx əməkdaşlıq qurmaq niyyətindədirlər. Artıq bu istiqamətdə real addımlar atılmışdır. Dəmir yolu, avtomobil yolu, dəniz, çay və hava nəqliyyatı xidmətlərinin beynəlxalq bazara açılması, beynəlxalq sərnişin və yük daşınmasının həcminin artırılması və bunun nəticəsində ölkələr uzrə ÜDM-in artması, turizmin inkişafı və s. üçün real imkanlar yaradan bu layihə konteksində Azərbaycan və İran arasında nəqliyyat əlaqələri güclənməkdədir.

2016-cı il fevralın 23-də Prezident İlham Əliyevin İrana rəsmi səfəri gedişində bu dövlətlə Beynəlxalq Şimal-Cənub Dəhlizinin bir seqmenti hesab edilən Astara çayı üzərindən Azərbaycan və İran dəmir yollarının birləşdirilməsini nəzərdə tutan Astara-Astara xəttinin çəkilməsi haqqında müqavilə bağlanmışdır. Əlavə olaraq qeyd edək

ki, yenə bu layihə çərçivəsində 2017-ci ilin iyun ayında Qəzvin-Rəşt-Astara dəmiryolu xətti tikilib istifadəyə verilmişdir. Bunun davamı olaraq isə Rəşt-Astara dəmir yolunun tikintisinə başlanmışdır. Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı (BBDTL) və Ələt Azad İqtisadi Zonasının yaradılmasında da əsas məqsəd Bakını bölgənin əsas nəqliyyat mərkəzinə çevirmək və Azərbaycan ərazisindən yük tranzitinin artırılmasına nail olmaqdan ibarətdir. Bu həmçinin nəqliyyat-kommunikasiya sahəsində Azərbaycanın apardığı ardıcıl siyasətin məntiqi davamı kimi qiymətləndirilməlidir. Bütün bunlar həmçinin Azərbaycanın geoiqtisadi və geosiyasi mevqeylərini də xeyli gücləndirmiş olur.

Yuxarıda aparılan təhlildən bu qənaətə gəlmək mümkündür ki, Xəzərin hüquqi statusu tək onun karbohidrogen ehtiyatları ilə deyil, yeni dünya düzənində, həmçinin nəqliyyat-kommunikasiya imkanları ilə də həm sahilyanı, həm də dünyanın nəhəng dövlətləri üçün xüsusi əhəmiyyət daşıyır.

Sahilyanı dövlətlərin statusla bağlı apardığı danışıqlar nəticəsiz bitdikcə problem bu dövlətlərin çərçivəsindən kənarda da müzakirə olunmağa başladı ki, buna da daha çox Rusiya təpki göstərirdi.

12 may 2013-cü ildə Almatıda keçirilən Xüsusi İşçi Qrupunun IX iclasında Azərbaycan, Rusiya və Qazaxıstan arasında Xəzərin dibinin sektorial bölgüsünün həyata keçirilməsi zamanı həmhüdud sahələrin kəsişmə nöqtələrinin müəyyənləşdirilməsi haqqında razılıq əldə edildi və bu rəsmi sənədlə təsdiqləndi.

Xəzərin hüquqi statusu məsələsində Azərbaycanının yanaşmasının toqquşduğu dövlətlərdən biri də Türkmənistan idi. İki dövlət arasında status ilə bağlı fikir ayrılığı 1997-ci ilin dekabrında İslam Konfransı Təşkilatının (indiki adı İƏT) Tehranda keçirilən sammitində rəsmi Aşqabadın Azərbaycanı “Əsrin müqaviləsi” çərçivəsində nəzərdə tutulan “Azəri” və “Çıraq” yataqlarının Türkmənistan sektorunda olduğunu iddia edərək, bunun müqabilində kompensasiya tələbinin ödənilməsi ilə həmin yataqlara olan iddialarından əl çəkə biləcəklərini səsləndirilməsi tərəflər arasında gərginliyə səbəb olmuşdur.




*Şəkil 33. Azərbaycan və Türkmənistanın Xəzərdə neft-qaz yataqları*

Türkmənistan prezidentinin bir az da qabağa gedərək Azərbaycan tərəfinin "Kəpəz" adlandırdığı yatağın onlara məxsus olduğunu və onun "Sərdar" adı ilə tanınması fikri tərəflər arasındakı gərginliyi daha da artırmış oldu. Türkmənistan lideri fikrini əsaslandırmaq üçün "dəniz sərhədlərinin delimitasoyası üçün yeni bir xəritə" də nümayiş etdirdi. Tərəflər arasında mübahisə doğuran məsələləri nizamlamaq məqsədi ilə birgə komissiyanın yaradılması qərara alınsa da, bir müddətdən sonra komissiya fəaliyyətini dayandırdı. Növbəti illərdə "Kəpəz" yatağı ətrafında iki dövlət arasında mübahisə davam etmişdir. Təbii ki, bu Xəzərdə Türkmənistan və Azərbaycanın birgə iştirakı ilə həyata keçirilməsi planlaşdırılan Trans-Xəzər layihəsinə də mənfi təsir göstərirdi.

12 avqust 2018-ci ildə Aktau sammitində Xəzərin yekun hüquqi statusunun müəyyənləşməsinə baxmayaraq, Azərbaycan-Türkmənistan və eləcə də Azərbaycan-İran arasında Xəzərin dibinin bölünməsi və sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı sənəd imzalanmamışdır. Başqa sözlə, yekun hüquqi status Xəzərdəki bütün hüquqi problemləri həll etmədi. "Kəpəz yatağı"nın coğrafi və hüquqi baxımdan hansı dövlətə məxsusluğu digər bölməmizdə geniş şərh edilmişdir.

2021-ci il yanvarın 21-də Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında Dostluq (Kəpəz/Sərdar) yatağının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsini haqqında "Anlaşma

memorandumu" imzalandı. 7 maddədən ibarət olan memarondumun preambula (giriş) hissəsində göstərilirdi ki, 2018-cil 12 avqustda imzalanmış Xəzərin yekun hüquqi statusuna aid konvensiyanı, eləcə də beynəlxalq hüquq normalarını əsas götürərək, tərəflər "Dostluq" yatağının karbohidrogen ehtiyatlarının işlənməsi və hasil olunan resursların nəqli üzrə layihələrin birgə həyata keçirilməsinə razılıqlarını ifadə edirdilər. I maddədə "Dostluq" yatağının birgə işlənməsini həyata keçirmək üçün onun coğrafi yerləşməsi müəyyən edilməli idi. II maddə isə adıçəkilən yataqdan hasil olunacaq neft və qazın 70%-i Türkmənistan Respublikasına, 30%-i isə Azərbaycan Respublikasına çatmalı idi. Həmçinin II maddədə açıq şəkildə göstərilirdi ki, "Dostluq" yatağından hasil olunacaq karbohidrogen resursları Azərbaycana məxsus nəqliyyat sistemləri ilə ixrac olunacaqdır. III maddəyə görə "Dostluq" yatağının müştərək işlənməsini həyata keçirmək üçün birgə əməkdaşlığı tənzimləyəcək hökümətlərarası saziş bağlanmalı idi ki, bunun işlənib hazırlanması üçün işçi qrupunun yaradılması nəzərdə tutulurdu. İşçi qrupu isə mümkün qədər qısa vaxt müddətində hökümətlərarası müqavilənin şərtlərini hazırlayıb və qarşılıqlı olaraq razılaşdırmalı idi. IV maddədə isə tərəflər memorandum və onun reallaşması ilə bağlı konfidensial informasiyanı üçüncü tərəfə yaymamağı öhdəsinə götürürdü. Bu da, onu deməyə əsas verir ki, "Dostluq" yatağının birgə işlənməsi ilə bağlı danışıqlar gizli şəkildə aparılmışdır ki, bunda da məqsəd digər dövlətlərin müdaxiləsinə imkan verməmək olmuşdur. Yalnız tərəflərin qabaqcadan və yazılı şəkildə icazəsi olduqdan sonra memorandum ilə bağlı məlumatlar üçüncü tərəfə ötürülə bilərdi. V maddəyə görə memorandumun müddəaları Azərbaycan və Türkmənistanın Xəzərdəki milli sektorlarının sərhədlərinin təyin edilməsinin öncədən müəyyənləşməsi kimi başa düşülməməlidir. Başqa sözlə sözügedən sənəd Xəzərin dibinin Azərbaycan-Türkmənistan sərhəddini müəyyən etmirdi. VI maddə memorandumun həyata keçirilməsi gedişində qarşılaşa bilinən fikir ayrılıqlarını yalnız danışıqlar yolu ilə həllinin mümükünlüyünü göstərirdi. Nəhayət, sonuncu – VII maddə memorandumun hər iki dövlətin qanunverici orqanı tərəfində ratifikasiya olunması və ümumiyyətlə bu prosedur qaydalarının yekunlaşmasın-

dan sonra diplomatik kanallar vasitəsi ilə qarşı tərəfə ötürülməsi ilə sözügedən sənədin rəsmi şəkildə qüvvəyə minməsini nəzərdə tuturdu.

Xatırladaq ki, adıçəkilən saziş Azərbaycan parlamenti tərəfindən 23 fevral 2021-ci ildə, Türkmənistan parlamenti tərəfindən isə 13 mart 2021-ci ildə ratifikasiya edilmişdir.

"Dostluq" yatağının Türkmənistan ilə birgə işlənməsini nəzərdə tutan memorandumun konkret iqtisadi dividentləri ilə yanaşı tarixi-siyasi əhəmiyyəti də olduqca böyükdür. İqtisadi baxımdan işlənməmiş və iki ölkə arasında gərginlik yaradan yatağın 70/30 nisbətində bölünməsi ilə faktiki olaraq Azərbaycan təxminən ehtiyatların üçdən bir hissəsinə malik olmaqla, hasil olunacaq resursların özünə məxsus nəqliyyat sistemi ilə daşınmasını həyata keçirməklə nisbətən "az pay almasını" kompensasiya edəcəkdir. Bundan əlavə, tərəflər arasında imzalanmış memorandum artıq bir-neçə on ildir müzakirə olunan Trans-Xəzər layihəsinin də reallaşması baxımından mühüm əhəmiiyyət kəsb etməkdədir. Düzdür, Trans-Xəzər layihəsi özündə-neft-qaz kəmərləri ilə yanaşı kabel optik xətlərin də Xəzərin dibi ilə şərqə və əks istiqamətdə çəkilməsini ehtiva etsə də, reallıqda daha çox Türkmənistandan Azərbaycana qaz boru xəttinin çəkilməsini nəzərdə tutur. Trans-Xəzər layihəsinin həyata keçməsinə tək Rusiya və İranın kəskin etirazları mane olmur, həm də Ukrayna münaqişəsi ilə əlaqədar Aİ dövlətlərinin Rusiyadan mavi yanacağın idxalını kəskin azaltması fonunda Azərbaycanın isə qaz hasilatını artırması faktiki olaraq Cənub Qaz Dəhlizinin tam gücü ilə işləməsinə səbəb olmuşdur. Başqa sözlə növbəti illərdə "Abşeron" yatağında da hasilat işlərinin daha geniş şəkildə aparılması fonunda mövcud ixrac qaz kəmərimiz Türkmənistan qazının nəqli üçün yetərli olmayacaqdır. Trans-Xəzər qaz kəmərinin reallaşması üçün bizdən daha çox Türkmənistan maraqlı olmalıdır. Layihənin həyata keçməsi üçün Cənub Qaz Dəhlizi boyunca paralel xəttin çəkilməsi lazım gəlir ki, bu da əsaslı investisiya qoyuluşları tələb edir.

"Dostluq" yatağının birgə işlənməsi ilə bağlı Türkmənistan-Azərbaycan müqaviləsi 44 günlük Vətən müharibəsi gedişində qərb istiqamətində ərazi bütövlüyünün təmin edilməsinin ardından şərqdə – Xəzərdə də Türkmənistanla su sərhədlərinin müəyyənləşməsi istiqamətində mühüm addım hesab edilə bilər.

Aparılan təhlildən də göründüyü kimi, Xəzərin hüquqi statusu ilə bağlı Azərbaycan dövlətinin izlədiyi siyasət Rusiya, İran və Türkmənistanın timsalında təpkilərlə qarşılansa da, rəsmi Bakı beynəlxalq hüquq və mövcud təcrübəyə əsaslanaraq öz mövqeyinin ədalətli olması istiqamətində fəal iş aparmışdır. Yekun hüquqi statusun müəyyənləşməsi gecikdikcə, Azərbaycan ikitərəfli formatda Rusiya və Qazaxıstan ilə Xəzərdə sərhədlərin müəyyənləşdirilməsinə nail oldu ki, bu da özlüyündə Türkmənistan və İranın mövqeyində dəyişikliyi labüd etdi. Azərbaycan Xəzərin hüquqi statusu ilə bağlı apardığı siyasət nəticəsində aşağıdakılara nail oldu.

1. Xəzərin hüquqi statusu dövlət sərhədlərimizin müəyyənləşdirilməsi baxımından olduqca mühüm hadisə idi. Bu, olduqca çətin bir proses idi. Əvvəla, Xəzər sahilində Azərbaycan yeganə dövlətdir ki, digər 4 sahilyanı dövlət ilə həmsərhəddir. Bu isə özlüyündə 4 dövlət ilə su sərhədlərinin müəyyənləşdirilməsini və eyni zamanda dövlət maraqlarının təmin olunmasını tələb edirdi. Düzdür Aktauda imzalanmış yekun hüquqi konvesiya İran və Türkmənistan ilə sərhədlərin müəyyənləşdirlməsini tam həll etmədi. Amma. Türkmənistan ilə 2020-ci il yanvar ayında "dostluq" yatağının birgə işlənməsi ilə bağlı imzalanmış memorandum bu istiqamətdə atılmış müsbət addım hesab edilə bilər.

2. Xəzərin hüquqi statusunun müəyyənləşməsi bu vaxta qədər daha çox Rusiya və İran tərəfindən istifadə olunan təzyiq vasitəsinin aradan qalxmsına şərait yaratdı. Azərbaycanın başdan bəri Xəzərdə həyata keçirdiyi layihələrin (neft-qaz yataqlarının işlənməsi, nəqli və tranzit ölkə olmaq istəyi) beynəlxalq hüquq və normalara söykəndiyini bir daha təsdiq etdi.

3. Yekun hüquqi statusun müəyyənləşməsi təhlükəsizlik baxımından da uğurlu sayıla bilər ki, bu da iki istiqamətdə qiymətləndirilməlidir.1) Sahilyanı dövlətlər arasında Xəzərdə mövcud və gələcəkdə qarşılana biləcək istənilən problemin həllində güc vasitələrindən istifadə birmənalı şəkildə istisna edilirdi. 2) Qeyri sahilyanı dövlətlər hansısa formada Xəzərdə hərbi fəaliyyətlə məşğul ola bilməz.

4. Yekun hüquqi status sahilyanı dövlətlər arasında iqtisadi-mədəni əlaqələrin daha da artırılması baxımından da önəm kəsb etməkdədir.

# V FƏSİL

## SAHİLYANI DÖVLƏT BAŞÇILARININ XƏZƏR SAMMİTLƏRİ

### V.1. Aşqabad sammiti

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində ən mühüm tədbirlərdən biri də sahilyanı dövlət başçılarının birbaşa bu məsələ ilə bağlı Zirvə toplantılarının keçirilməsi oldu. Xəzərdən istifadənin hüquqi rejiminin müəyyənləşdirilməsi ilə bağlı müxtəlif elmi konfranslar, diplomatların və xüsusi hökümət nümayəndələrinin görüşləri, bilavasitə bu işlə məşğul olmaq üçün yaradılmış işçi qruplarının fəaliyyətlərinə baxmayaraq yekun rəyə gəlmək mümkün olmurdu. Belə bir vəziyyətdə-2001-ci il 29 yanvar tarixində Türkmənistan Respublikasının Prezidenti S.Niyazov hüquqi statusun müəyyənləşdirilməsi ilə bağlı yeni bir platforma-sahilyanı dövlət başçılarının zirvə toplantısının yaradılması təşəbbüsü ilə çıxış etdi. Aşqabadda keçiriləcək zirvə toplantısı ilə bağlı sahilyanı dövlətlərin hər birinə məktubla rəsmi müraciət edildi. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev də 12 fevral 2001-ci ildə S.Niyazova ünvanladığı cavab məktubunda təklifin Azərbaycan tərəfindən məqbul sayıldığını bildirdi. Sahilyanı dövlət başçılarının zirvə toplantısının keçirilməsi təklifi, bir müddətdir süstlük hiss edilən İşçi Qrupunun

da fəaliyyətində müəyyən canlanma yaratmış oldu. Aşqabadda keçiriləcək zirvə toplantısı öncəsi-21-22 fevral tarixlərində Tehranda İşçi Qrupunun növbəti iclası keçirildi və tərəflərin mövqeyi bir daha müzakirə edildi ki, sözügedən toplantıda ortaq bəyannamə qəbul etmək mümkün olsun. Müzakirələrin gedişində Qazaxıstan, Türkmənistan və Azərbaycan Xəzərin orta xətt prinsipi əsasında bölünməsinə razı olduqlarını bildirdi. Rusiya isə artıq Xəzərin dibinin bölünməsinin qaçılmaz gerçəklik olduğunu qəbul etməkdən başqa yol olmadığını bilərək, növbəti mərhələ üçün rəsmi Moskvanı narahat edəcək məsələlərin – su səthinin də bölüşdürülməsi, dənizin dibi ilə kəmərlərin çəkilməsinin qarşısının alınması yollarını axtarırdı. Ona görə də, Rusiya tərəfi Xəzərin dibinin bölüşdürülməsinə razlığını bildirsə də, yuxarıda qeyd etdiyimiz kimi su səthinin ümumi istifadədə olması və kəmərlərin çəkilməsinin ekoloji böhran yaradacağı bəhanəsi ilə mümkünsüz hesab etdiklərini bildirdi. Əslində buna qədər Rusiya Qazaxıstan və Azərbaycan ilə Xəzərin dibinin bölüşdürülməsi ilə bağlı razılıq əldə etmişdir. Rəsmi Tehran isə ev sahibliyi etdiyi İşçi Qrupunun toplantısında da əvvəlki kimi kondominium "yanaşmasını" – sahilyanı dövlətlərin hər birinin 20% pay almaqla bərabər əsasda Xəzərdən istifadə etməli olduğunu nümayiş etdirdi. Beləliklə sahilyanı dövlət başçılarının Aşqabadda keçiriləcək birinci zirvə toplantısına gedərkən Tehranda keçirilən İşçi Qrupunun üçüncü iclasında qəbul etdikləri birgə bəyanatda Xəzərin yalnız dinc məqsədlər üçün istifadə etmək niyyətləri öz əksini tapmış oldu.

Aşqabad zirvəsi öncəsi baş verən mühüm hadisələrdən biri 12 mart 2001-ci ildə İran İslam Respublikasının Prezidenti S.M.Hatəminin Rusiyaya rəsmi səfəri gedişində tərəflər arasında Xəzərin hüquqi statusu ilə bağlı imzaladıqları birgə bəyanat idi. Bəyanatda göstərilirdi ki, sahilyanı dövlətlər tərəfindən hüquqi statusla bağlı yekun saziş imzalanmayana qədər rəsmi Moskva və Tehran Xəzərdə heç bir sərhəddi tanımayacaqdır. Bəyanatda diqqətçəkən məqamlardan biri hüquqi statusun sahilyanı dövlətlərin müstəsna səlahiyyətində olduğu və kənar qüvvələrin hansısa formada iştirakına yol verilməyəcəyi fikrinin yer alması idi. Rusiya və İran ABŞ başda ol-

maqla Qərb döblətlərinə məxsus şirkətlərin Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsinə böyük həcmdə investisiyalar yatırması, bu sərmayələrin həmin dövlətlər tərəfindən "müdafiəsi" üçün Xəzərdə və ətraf ərazilərdə "aktivləşməsindən" ehtiyat edirdilər. Bəyanatda həmçinin, Xəzərin dibi ilə kəmər çəkilişi qəbuledilməz hesab olunurdu.

Xüsusi İşçi Qrupunun növbəti – IV iclası 15-16 iyun 2001-ci il tarixində Bakıda keçirildi. Bakı görüşündə əsasən Aşqabad sammitində qəbul edilmiş bəyannamənin müddəalarının razılaşdırılması və artıq 10 ilə yaxın müddətdir davam edən hüquqi status məsələsi müzakirə edildi. Bakı görüşündə Azərbaycan tərəfi hüquqi status daxil olmaqla Xəzər ilə bağlı mövqeyini layihə şəklində təqdim etdi.

İran isə kondominium məsələsində israr etməkdə davam edirdi. Azərbaycanın Tehrandakı səfiri A.Həsənovun 19 avqust 2001-ci ildə İranın MDB ölkələri ilə baş idarəsinin rəisi M.Dövlətabadi ilə görüşündə İran tərəfinin Xəzərin 20%-nin onlara məxsusluğu və onun pozulmasının qarşısının qətiyyətlə alınacağı kimi hərbi ritorikadan istifadə, danışıqları xeyli çətinləşdirmiş oldu. İki ölkə arasında yaşanan gərginlik H.Əliyevin 2001-ci ilin sentyabrında İrana rəsmi səfəri gedişində bir qədər yumşalmış oldu. Səfər gedişində-sentyabrın 18-də Xəzər dənizi ilə bağlı İran-Azərbaycan birgə bəyanatı qəbul edildi. Xəzərdən istifadənin sahilyanı dövlətlərin bərabərhüquqlu qarşılıqlı maraqları, hüquqi statusun isə sahilyanı dövlətlərin birgə qəbul etdikləri qərar əsasında müəyyənləşə biləcəyi, kənar qüvvələrin buna müdaxiləsinin yolverilməzli kimi ümumi müddəaların yer aldığı bəyannamə 14 maddədən ibarət idi.

23-24 aprel 2002-ci ildə Xəzərsahili dövlət başçılarının (H.Əliev – Azərbaycan Respublikasının Prezidenti, V.Putin – Rusiya Federasiyasının Prezidenti, N.Nazarbayev – Qazaxıstan Respublikasının Prezidenti, S.Niyazov – Türkmənistan Respublikasının Prezidenti) Aşqabadda – "Ruhiyyət" sarayında ilk zirvə toplantısı keçirildi. Aşqabad sammiti bir sıra məsələlər baxımdan əhəmiyyətli idi. Əvvala ona görə ki, sahilyanı dövlət başçıları səviyyəsində Xəzərin problemləri və əlaləxüsus hüquqi statusu ilk dəfə idi ki, müza-

kirə olunurdu. Digər tərəfdən bu vaxta qədər ayrı-ayrı tədbirlərdə sözügedən məsələ müzakirə olunmuşdursa, indi isə sammitin birbaşa mövzusu məhz Xəzərin hüquqi statusu idi. Bu isə özlüyündə sahilyanı dövlətlərin aidiyyatı rəsmilərinin problemlə daha ali səviyyədə məşğul olduqlarını göstərməklə yanaşı, həmçinin Xəzərin hüquqi statusu məsələsinin onların xarici siyasətlərinin də prioritet məsələlərindən olduğunun göstəricisi hesab etmək olar. Sammitin ilk öncə Xəzər sahilində yerləşən Türkmənbaşı şəhərində keçirilməsi nəzərdə tutulsa da, sonda onun Aşqabadda reallaşdırılması haqqında razılıq əldə edildi. Sammitdə sahilyanı dövlət başçıları Xəzərin hüquqi statusu ətrafında səmimi fikir mübadiləsi apararaq, münasibətlərin gələcək arxitekturasının "qızıl nisbətini" əldə etməyə cəhd göstərdilər.

Zirvə görüşünü giriş nitqi ilə ev sahibi dövlətin – Türkmənistan Respublikasının Prezidenti S.Niyazov açdı və görüşün əhəmiyyətindən danışaraq, sahilyanı dövlətlərin əməkdaşlıq şurasının yaradılmasının əhəmiyyətini vurğuladı. Rusiya Federasiyasının Prezidenti V.Putin isə Xəzəri rəsmi Moskvanın nəzarətində saxlamaq üçün beş sahilyanı dövlətin iştirakı ilə bu qapalı su hövzəsinin daimi manitorinqini aparmaq məqsədilə beştərəfli mərkəzin yaradılmasını irəli sürdü.

Düzdür, Aşqabad sammiti nəticəsiz başa çatdı, amma bununla belə tərəflərin mövqeyində müəyyən qədər yumşalma hiss olunurdu. Belə ki, İran Prezidentinin Xəzərin hüquqi statusuna dair yekun konvensiyanın imzalanmasına qədər iddia etdikləri 20% ərazidə fəaliyyət göstərməyəcəklərini rəsmən bildirməsini müsbət hal kimi qiymətləndirilə bilər. Bununla belə İran İslam Respublikasının Prezidenti S.M.Hatəmi Xəzərin 20% pay əsasında bərabər şəkildə bölünməsini ən ədalətli həll olduğunu söyləyirdi. Bundan əlavə Xəzərin neft-qaz ehtiyatlarının hasilatında və nəqlində İran şirkətlərinin iştirakı, eləcə də ixrac kəmərlərinin cənub qonşumuzun ərazisindən keçməklə çəkilməsi rəsmi Tehranın Aşqabadda keçirilən ilk Xəzər sammitində istəkləri sırasında yer alırdı. Xəzərin, xüsusən də Azərbaycanın neft-qaz resurslarının İran ərazisi ilə nəqli problemləri

digər tədqiqatlarımızda geniş araşdırıldığından burada yalnız onu deməklə kifayətlənəcəyik ki, İran körfəzinə kəmərlərin çəkilişi iqtisadi baxımdan müəyyən üstünlüklər vəd etsə də başda ABŞ olmaqla Qərb dövlətlərinin tətbiq etdiyi ağır sanksiyalar və Rusiyanın bu sahədə inhisarçı mövqeyini qoruyub saxlamaq istəyi səbəbindən bu mümkünsüz görünürdü.

Zirvə görüşündə Azərbaycan, Qazaxıstan və Rusiya eyni mövqedən çıxış edərək Xəzərin dibinin orta xətt prinsipi əsasında bölünməsinə tərəfdar olduqlarını bildirdilər. Bununla yanaşı Rusiya Federasiyasının Prezidenti V.Putin Xəzərin dibinin bölüşdrülməsinə razılıq versə də, su səthinin ümumi istifadədə qalmasının vacibliyini daha çox ekoloji vəziyyətlə əlaqədar olmasını əsalandırmağa çalışırdı. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Xəzərin yekun hüquqi statusunun əldə edilməsinin hələ ki real olmadığını görüb, buna qədər mövcud istifadə qaydalarından (1970-ci ildə Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan arasında aparılmış sektorial bölgü nəzərdə tutulur) yararlanmağın yeganə düzgün yol olduğunu bildirdi. H.Əliyev qətiyyətlə bildirirdi ki, hüquqi statusun olmaması sahilyanı dövlətlərin on illərlə istifadəsində olan sektorda suveren hüquqlarının həyata keçirmələrinə mane olmamalıdır və hüquqi rejimin müəyyənləşməsi prosesində hədə-qorxu, təzyiq kimi metodlardan istifadə yolverilməzdir. Sammitin mətbuata açıq olan hissəsinin bitməsinin ardından hər bir dövlətə məxsus ekspert qrupunun da iştirak etdiyi dövlət başçılarının təxminən 5 saatlıq birgə qapalı iclasında ortaq bəyannamənin razılaşdırılması mümkün olmadı.

Aşqabad Sammitində mühüm bir sənəd imzalamasa da, zirvə görüşünün mühüm nəticəsi Xəzərə sülh, dostluq və mehriban qonşuluq dənizi kimi ümumi baxışın nümayişi, yaranan fikir ayrılıqlarının güc vasitələrinin tətbiqindən çəkinərək beştərəfli danışıqlar əsasında sülh yolu ilə həllə alternativin olmaması haqqında razılığa gəlinməsi oldu. Xəzər problemləri ilə məşğul olan tədqiqatçılar hesab edir ki, sahilyanı dövlət başçılarının Aşqabadda keçirilən I Sammiti münasibətlərin gərginləşməsi və hətta hərbi ritorikanın səsləndiyi bir vaxtda sabitləşdirici bir vəziyyət yaratmış oldu ki, bu da növbəti

danışıqlar üçün imkan yaratmış oldu. Sözügedən Sammit həmçinin sahilyanı dövlətlər arasında beştərəfli əməkdaşlıq mexanizminin tapılması, sınaqdan keçirilməsi baxımından da əhəmiyyətli hesab edilə bilər. Yeri gəlmişkən qeyd edək ki, sahilyanı dövlət başçılarının Sammiti səmərəli mexanizm kimi qəbul edildi ki, bu da qarşılıqlı olaraq maraqları nəzərə almaqla, onların birgə həlli yollarını inkişaf etdirmək istiqamətində regionda mövcud problemləri hərtərəfli müzakirə etmək imkanı verdi.

Aşqabad sammitin ardından Azərbaycan Prezidenti H.Əliyevin 2002-ci il mayın 18-də İrana rəsmi səfəri gedişində iki ölkə arasında "Dostluq və əməkdaşlıq haqqında müqavilə"nin imzalanması Xəzərin hüquqi statusunu müəyyənləşdirilməsi yolunda geniş diplomatik imkanlar açmış olurdu. Adıçəkilən müqaviləyə görə hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıyır, zor tətbiqindən qəti şəkildə çəkinəcəklərini rəsmən bildiridi.

Aşqabad sammitinə qədər Rusiya,Qazaxıstan və Azərbaycan arasında Xəzərin dibinin bölünməsi ilə bağlı razılıq əldə olunmuşdur. Aşqabad sammitində İran Rusiyanın timsalında özünün ən böyük tərəfdarını itirmiş görünürdü. Məhz bu zirvə görüşündən sonra Rusiyanın yanaşması İran və Türkmənistandan kəskin fərqlənməyə başladı.

## V.2. Tehran sammiti

Sahilyanı dövlət başçılarının növbəti – II sammiti 16 oktyabr 2007-ci ildə Tehranda keçirildi. II sammitdə keçən 5 il ərzində (2002-ci il Aşqabad sammiti nəzərdə tutulur) Xarici İşlər nazirlərinin müavinləri səviyyəsində mütamadi və digər aidiyyatı orqanların isə vaxtaşırı müzakirələri gedişində tərəflərin mövqeylərinin uzlaşdırılması baxımından xeyli iş görülmüşdür. Sammiti giriş sözü ilə açan İran İslam Respublikasının Prezidenti M.Əhmədinejad Xəzərdə sabitliyin və təhlükəsizliyin təmin olunması məqsədi ilə regional təşkilatın yaradılmasını təklif etdi. Ev sahibi ölkə olaraq İran İslam Respublikasının Prezidenti M.Əhmədinejad daha çox təşəbbüskar

kimi özünü göstərməyə çalışırdı. İran Prezidenti sahilyanı dövlətlər arasında iqtisadi-ticari əlaqələrin yüksək olmamasınan "gileyləndi" və bunun artırılması üçün xüsusi bir qurumun yaradılmasının vacibliyini bildirdi. Tehran sammitində Rusiya və İran daha çox diqqətlərini təhlükəsizlik məsələlərinə-xarici güclərin hansısa bir formada Xəzərə daxil olmasına imkan verilməməsinə yönəltmişdir. Rusiya Fedarasiyasının Prezidenti V.Putinin Tehrana gəlişi 1943-cü ildən bəri Rusiya dövlət başçısının İrana etdiyi ilk səfər kimi tarixə düşmüş oldu. V.Putin İran Prezidenti M.Əhmədinejadın Xəzəryanı Ölkələrin Əməkdaşlıq Təşkilatının yaradılması təklifini dəstəklədiyini bildirdi. Burada bir haşiyəyə çıxaraq qeyd edək ki, Rusiya və İran Xəzərlə bağlı prosesləri-neft-qaz layihələri, onların nəqli marşurutlarının müəyyəşdirilməsi, hərbi və digər məsələləri öz nəzarətlərində saxlamağa çalışırdılar. Belə bir təşkilatın da yaradılması dolayısı ilə qeyd etdimiz məsələ ilə bağlı idi. V.Putin Türkmənistan, Qazaxıstan və Rusiya arasında tikilən dəmir yolu xəttinin Rusiyanın ümumi dəmir yolu şəbəkəsi ilə birləşəcəyi və bunun gətirəcəyi faydadan danışdı. Düzdür, istənilən halda dəmir yol şəbəkəsinin çəkilməsi iqtisadi baxımdan əhəmiyyətli hadisə idi və müsbət təsirləri olacaqdır. Amma, bunun iqtisadi əhəmiyyətindən daha çox strateji məqsədləri önə çıxırdı. Belə ki, dünya bazarına birbaşa çıxışı olmayan Mərkəzi Asiya respublikaları nəqliyyat-logistika baxımından (xüsusi ilə boru-kəmər) Rusiyadan asılı idi ki, yeni dəmir yolu şəbəkəsi bunu daha da artırmış olacaqdır. Yuxarıda qeyd etdiyimiz kimi, Xəzəri daha çox Rusiyanın nəzarəti altında saxlamaq üçün V.Putin sahilyanı dövlətləri terror təhlükəsindən qorumaq, böyük dağıntılara səbəb olacaq silahların istifadəsinin qarşısını almaq, narkotik qaçaqmalçılığına qarşı birgə və daha effektiv mübarizə aparmaq "üçün" Ortaq Xəzər Donanmasının (Casfor) yaradılmasını təklif etdi. V.Putin Ortaq Xəzər Donanmasının yaradılmasını həmçinin onunla əsaslandırırdı ki, sahilyanı dövlətlərin iqtisadi maraqlarının qorunması, regioanal təhlükəsizliyin və sabitliyin qorunması baxımından bu "çox önəmlidir". Bundan əlavə Rusiya lideri "Şimal-Cənub" dəhlizinin açılması və gələcəkdə inkişafı üçün Xəzəri Qara dənizlə bir-

ləşdirəcək yeni bir kanalın tikintisinin vacibliyinə diqqəti çəkdi. O, fikrini bununla əsaslandırmağa çalışdı ki, Şimal-Cənub dəhlizi ilə getdikcə daha çox yüklərin daşınması Xəzəri Qara və Azov dənizləri ilə daha işlək və böyük tutumlu kanalla birləşməsinə ehtiyac yaradacaqdır. Bu prosesdə Xəzər bir tranzit su hövzəsi halına gəlmiş olacaqdır.

Qazaxıstan Prezidenti N.Nazarbayev sahilyanı dövlətlərin əməkdaşlıqlarının genişləndirilməsinin faydalı olduğuna inandığını bildirdi. O, fikrini davam etdirərək qeyd etdi ki, Xəzərin problemləri sahilyanı dövlətlər tərəfindən, xarici müdaxilə olmadan, birgə fəaliyyət nəticəsində həll edilməlidir. N.Nazarbayev sahilyanı dövlətlərin Xəzərdə hərbi fəaliyyətlərinin ölkələrin kontinental şelfi ilə məhdudlaşdırmağı bildirməklə yanaşı, Tehran sammitinin Xəzər dövlətlərinin daha sıx əməkdaşlığına töhfə verəcəyinə inandığını da qeyd etdi.

Azərbaycan Prezidenti İ.Əliyev Tehran sammitində Xəzərin hüquqi statusunun müəyyənləşməsinin sahilyanı dövlətlər arasında etimadın, əməkdaşlığın, sülh və sabitliyin daha da güclənməsinə şərait yaradacağını bildirdi. İ.Əliyev hüquqi statusun BMT-nin müvafiq qanunları və beynəlxalq təcrübə əsasında, dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanması çərçivəsində müəyyənləşdirilməsinin vacibliyini vurğuladı. Azərbaycan tərəfi Rusiya və Qazaxıstanla Xəzərin dibinin bölüşdürülməsi ilə bağlı imzalanmış sənədlərin Xəzərin yekun hüquqi konvensiyasının bir hissəsini təşkil etməli olduğunu bildirməklə yanaşı, Xəzərin bütün hərbi strukturlardan kənar tutulmasının vacibliyini də rəsmi Bakının mövqeyi kimi sammit iştirakçılarının diqqətinə çatdırdı.

Türkmənistan Respublikasının Prezidenti Q.Berdiməhəmmədov Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı beş sahilyanı dövlətin marağının təmin olunduğu bir konvensiyanın hazırlanmasının tərəfdarı olduğunu bildirdi. Q.Berdiməhəmmədov həmçinin mübahisəli ərazilərdə neft-qaz ehtiyatlarının geoloji axtarışlarının aparılması və hasilat işlərinin həyata keçirilməsinə qarşı olduqlarını qeyd etdi. Türkmənstan prezidentinin bu fikri daha çox Azərbaycana yönəlmişdi. Belə ki, Türkmənistan ilə Azərbaycan

arasında "Kəpəz" yatağı mübahisəli olaraq qalırdı və Q.Berdiməhəmmədov da birtərəfli təşəbbüsləri qəbul etmədiklərini bildirdi. Türkmənistan tərəfi hüquqi status ilə bağlı sahilyanı dövlətlərin konstruktiv həll yollarını tapılmalı olduğunu bildirməklə yanaşı, bu konteksdə əməkdaşlıq və dialoqun aparılmasında yeni mərhələyə keçilməli olduğunu da bildirdi. Hüquqi statusun müəyyənləşdirilməsində irəliləyişin olması üçün Xarici İşlər nazirləri çərçivəsində müntəzəm danışıqların aparılması da rəsmi Aşqabad tərəfindən təklif edildi.

Tehran sammitində ilk dəfə olaraq Xəzərin hüquqi statusu problemlərini kompleks şəkildə əhatə edən sənəd qəbul olunmuşdur. Tehran sammitində də İran Xəzərin sahilyanı dövlətlərin hər birinə 20% pay ayırılmaqla bölünməsini istədi. Amma İranın bu təklifi sahilyanı dövlətlərdən heç biri tərəfindən müdafiə olunmadı. Tehran sammitində Azərbaycan və Qazaxıstan Xəzərin demilitarizasiyasını tələb edirdilər. Rəsmi Bakı və Tehran Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi prosesində hərbi ritorikadan çəkinilməsi ilə yanaşı, həm də Xəzərdən digər dövlətlərə qarşı da hərbi dayaq məntəqəsi kimi istifadənin yolverilməz olduğunu bildirirdi. Sammitin sonunda sahilyanın dövlət başçılarının 25 bənddən ibarət "Tehran bəyannaməsi" qəbul olundu ki, bu sənədin 14-ci bəndində göstərilirdi ki, sahilyanı dövlətlər qarşılıqlı münasibətlərdə hərbi güc tətbiq etməyəcək və onların silahlı birləşmələri tərəflərdən hər hansı birinə hücum etmək üçün istifadəyə yönəldilməməlidir. Sənədin 15-ci bəndində qeyd olunurdu ki, sahilyanı dövlətlərin hər hansı birinə hərbi təcavüz təşkil etmək üçün başqa dövlətlərin öz ərazilərindən istifadəsinə heç bir vəziyyətdə yol verilməyəcəkdir. Həmçinin sahilyanı dövlətlərin hər birinin dinc məqsədlə nüvə enerjisi əldə edə bilməsi yekun sənəddə öz əksini tapmışdır.

"Tehran bəyannaməsi"ndə bu bəndlərin yer alması olduqca mühüm əhəmiyyət daşıyırdı. Xatırlasaq ki, Xəzərin Azərbaycana aid "İnam" yatağında "BP" şirkəti fəaliiyətə başlayarkən İran hərbi katerləri yataq ətrafında hərbi manevrlər edərək, şirkət əməkdaşlarını fəaliyyətlərini dayandırmağa məcbur etmişdir. Ardından isə 2001-ci

ildə "Şəfəq", "Asiman" yataqlarında geoloji axtarış aparan yerli və xarici alimlərin yer aldığı gəminin İran helikopterləri tərəfindən atəşə tutulması rəsmi Tehranın hərbi ritorikasının real müstəviyə keçdiyinin əyani nümunəsi hesab edilə bilərdi. Bu aspektdə "Tehran bəyannaməsi" bu tipli hərəkətlərin gələcəkdə təkrarlanmasını yolverilməz hesab edirdi. Qeyd edək ki, İran və Rusiya da Xəzərə böyük investisiyalar yatırmış Qərb şirkətlərinin mənsub olduğu dövlətlərin, xüsusilə ABŞ və Böyük Britaniyanın (NATO ilə birlikdə) Xəzərdə hərbi baxımdan fəallaşmasını (neft-qaz yataqlarının birgə mühafizəsi, xüsusi proqramlar çərçivəsində kiçik hərbi dəniz təlimləri və s) arzuolunmaz hesab edirdilər. Bu kontekstdə "Tehran bəyannaməsi" Rusiya və İranın da maraqlarına uyğun idi.

Sammitin yekununda keçirilən birgə mətbuat konfransında İran İslam Respublikasının Prezidenti M.Əhmədinejad zirvə toplantısının konstruktiv bir abu-havada keçdiyini və ilk dəfə sahilyanı dövlətlər arasında bigə siyasi protokol imzalandığını qeyd etdi.

Tehran sammiti Xəzərin problemlərinə həsr olunsa da, burada digər məsələlərin müzakirə olunmadığını söyləmək çətindir. Bunu Rusiya prezidenti V.Putinin "İranın nüvə proqramı rəsmi Moskva tərəfindən dəstəklənir" fikri də təsdiq etmiş olur. Tehran sammitində Rusiya ilə İran arasında aviasiya və kosmos sahəsi ilə də bağlı müzakirələrin aparıldığı mətbuata sızmışdır.

## V.3. Bakı sammiti

Regionda yeni çağırışlara və təhdidlərə qarşı beştərəfli sənədin razılaşdırılması prosesinin başa çatdırılması 18 noyabr 2010-cu ildə Bakıda keçirilən III Xəzər Sammitinə yol açdı. Sammitdə 5 Xəzərsali dövlətin prezidentləri – İ.Əliyev (Azərbaycan), D.Medvedev (Rusiya), N.Nazarbayev (Qazaxıstan), Q.Berdiməhəmmədov (Türkmənistan), M.Əhmədinejad (İran) iştirak edirdi.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev giriş nitqində dövlət başçılarını salamladıqdan sonra Bakıda keçirilən III Xəzər

Sammitinin sülhün, təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın dərinləşməsi üçün mühüm addım olacağını bildirdi. Ardınca isə prezident İ.Əliyev Azərbaycan-Rusiya və Azərbaycan-Qazaxıstan, eyni zamanda Rusiya-Qazaxıstan arasında Xəzərin sektorlara bölünməsi istiqamətində mühüm işlər görüldüyünü qeyd etdi. Praktik olaraq üç ölkə öz aralarında bu məsələni həll etmişdir və bu təcrübə gələcəkdə hüquqi baza prinsipi kimi götürülə bilər fikrini söyləməklə əslində Azərbaycanın mövqeyində dəyişikliyin olmadığını və onun konstruktivliyini nümayiş etdirmiş oldu. Sammitdə hüquqi status çərçivəsində Xəzərdə əməkdaşlıq məsələləri-xüsusən də nəqliyyat və tranzi yük daşımalar müzakirə olundu. Azərbaycan tərəfi Xəzərsahili dövlətlərin çox əlverişli coğrafi mövqeyə malik olduğunu və bundan həm Şərq-Qərb, həm də Şimal-Cənub ticarətində tranzit ölkə kimi yaralanmaq imkanlarının olduğunu bildirdi. Qeyd edildi ki, Azərbaycan bu imkanlardan faydalanmaq üçün müasir nəqliyyat infrastrukturu yaradılması istiqamətində böyük işlər görməkdədir. Sammitdə Xəzərdə nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişlənməsinin Azərbaycan üçün prioritet məsələlərdən biri olduğu açıqlandı. Bunun üçün dəniz nəqliyyatının inkişafı, Bakıda yeni ticarət limanının tikintisi, dəmir yolu nəqliyyatının yenidən qurulması və yeni xətlərin çəkilməsi barədə məlumat verildi. Bakı yaxınlığında Ələt qəsəbəsində tikilən yeni ticarət limanının əhəmiyyətinə diqqət çəkən prezident İ.Əliyev əslində bunun bütün Xəzəryanı ölkələrin maraqlarına xidmət göstərəcəyini qeyd etdi. İ.Əliyev həmçinin bildirdi ki, limanın tam gücü ilə işə düşməsindən sonra ildə 25 mln ton yük daşıma qabiliyyətinə malik olduğunu nəzərə alsaq, bu Xəzərdə yük daşımaların əsaslı şəkildə artacağına təminat vermiş olacaqdır fikrini əminliklə söyləmək olar.

Sammitdə Xəzərdə nəqliyyat-tranzit əlaqələrinin genişlənməsi sahəsində mühüm işlərdən birinin də Azərbaycanda müasit tələblərə cavab verən və ən yeni texnologiyaların tətbiqi ilə gəmiqayırma zavodunun inşaasına başlanması iştirakçıların diqqətinə çatdırıldı. Bununla da, Azərbaycanın Xəzərə tək neft-qaz mənbəyi kimi deyil, onun imkanlarından maksimum və rasional şəkildə, digər sahilyanı

dövlətlərin də qarşılıqlı faydalılığına əsaslanan siyasət apardığı bir daha sammitdə səsləndirildi.

Xəzərin ən böyük sərvəti hesab edilən neft-qaz yataqlarının işlənməsi və nəqli sahəsində də Azərbaycanın uğurları bir daha vurğulandı. Xüsusilə də Azərbaycanda dverfikasiya olunmuş, yüksək tələblərə cavab verən, təhlükəsizlik, eləcə də kommersiya baxımından çox sərfəli hesab edilən ixrac boru-kəmər sisteminin mövcudluğu və bu sistemdən digər sahilyanı dövlətlərin də istifadə imkanlarının olduğu bildirildi.

Düzdür, Rusiya və İran özləri bu sahədə əsas tranzit ölkə olmaq üçün bütün mümkün vasitələrdən, hətta yeri gəldikcə təzyiq mexanizmlərindən belə istifadə etmişdilər ki, Xəzərin karbohidrogen ehtiyatlarının nəqlində əsas tranzit ölkə statusunu qazansınlar. Bu baxımdan Azərbaycanın çağrışları daha çox Qazaxıstan və Türkmənistana aid edilə bilər. Qazaxıstan rəsmən 2007-ci ildə BTC-yə qoşulub. Amma rəsmi Astananın bu sahədəki fəaliyyətini qənaətbəxş hesab etmək olmaz və adıçəkilən boru xətti ilə daha çox neft yükləri göndərilə bilər. Digər tərəfdən, Trans-Xəzər boru kəmər sistemi bir-neçə ildir müzakirə olunur ki, bunun da reallaşması üçün Türkmənistan Xəzərin dibi ilə 300 km məsafədə bir kəmərin çəkilməsini həyata keçirməklə öz təbii qaz resurslarını Azərbaycanın malik olduğu kəmərlərlə Avropa bazarlarına ixrac edə bilmək imkanı qazanmış olur.

Bir sözlə, sammitdə Azərbaycan tərəfi neft-qaz ixracı sahəsində öz tranzit imkanlarından Xəzərdəki qonşu dövlətlərin istifadə edə bilməsini və bunun faydalı ola biləcəyini bir daha xatırlatdı.

Azərbaycan tərəfinin xüsusi önəm verdiyi məsələlərdən biri də, Xəzərdəki ekoloji durum idi. Qeyd edək ki, Rusiya və İran hər dəfə sahilyanı dövlətlərin ekoloji problemin öhdəsindən təklikdə gələ bilməyəcəklərini əsas gətirib, su səthini ümumi istifadədə saxlamağa çalımışdır. Azərbaycan tərəfindən Xəzərin çirkab sulardan və neftlə çirklənmiş hissələrin təmizlənməsi, müasir kanalizasiya sisteminin qurulması həyata keçirilmişdir, fikrini səsləndirməsi qabaqlayıcı addım kimi qiymətləndirilə bilər. Burada bir məsələyə xüsusi

diqqət yetirmək lazımdır ki, Bakı Sammitinin keçirildiyi 2010-cu ilin Azərbaycanda "Ekologiya ili" elan olunması təsadüfü hadisə olmayıb, əksinə bir sinxron uzlaşdırma olduğunu söyləməyə əsas verir. İşçi qruplanın əvvəlcədən işləyib hazırladığı təhlükəsizlik məsələləri də Azərbaycan tərəfindən xüsusi olaraq qabardıldı.

Sammitdə İran tərəfi müştərək gəmiçilik şirkətlərinin yaradılması, gömrük rüsumları ilə əlaqədar güzəştlərin müəyyən edilməsi, ticarət mübadiləsinin artırılması, neft-kimya məhsullarının nəql edilməsi üzrə şəbəkələrin birləşdirilməsi kimi təkliflər irəli sürdü. Rəsmi Tehranın ABŞ və Qərb dövlətlərinin İrana tətbiq etdiyi və yenidən ediləcək sanksiyaların təzyiqləri altında bu cür təkliflərlə çıxış etməsi başadüşüləndir. İran növbəti dəfə Xəzərin karbohidrogen resurslarının nəqlində rəsmi Tehranın imkanlarını gündəmə gətirməklə yanaşı, sanksiyalar səbəbindən bunun nümkünlüyünün çətin olduğunu anlayıb, neft məhsullarının nəqli üzrə sahilyanı dövlətlərin şəbəkələrinin birləşdirilməsi kimi absurd, və reallıqdan uzaq olan təşəbbüslə çıxış etmişdir. Fikrimizcə müştərək gəmiçilk şirkətlərinin yaradılması təşəbbüsü də yenə də daha çox sanksiyalardan qorunmaq məqsədi daşıyırdı. Bütün bunlarla yanaşı, başdan bəri İranın xüsusi önəm verdiyi məsələlərdən biri (demək olar ki, birincisi) təhlükəsizlik qayğıları idi. Qeyri-Xəzər dövlətlərinin Xəzərdə hansısa bir formada hərbi iştirakını İran tamamilə rədd edir və bunu özünün təhlükəsizliyi üçün təhdid kimi qəbul edirdi. Qeyd edək ki, bundan öncəki sammitlərdə də İran xarici dövlətlərin Xəzərdə hərbi iştirakını qəbuledilməz hesab etmişdir. Bakı sammitində də İranın bu məsələdə həssaslıq göstərməsi ümumilikdə islam rejiminin Qərblə kəskin münasibətləri fonunda aydın başa düşülür.

Məhz ABŞ başda olmaqla Qərb dövlətlərinin tətbiq etdiyi sanksiyaların İranın mövqeyinə təsirinin bir digər nümunəsi prezident M.Əhmədinejatın milli valyutalara əsaslanan iqtisadi əməkdaşlığı beynəlxalq iqtisadi sistemlərin vurduğu zərərin dərəcəsini azaltmaq üçün istifadə edilməsi təşəbbüsüdür.

Qazaxıstan Prezidenti N.Nazrbayev isə Xəzər dənizi ilə bağlı bütün məsələlərin kompleks həllinə xüsusi əhəmiyyət verdiyini vur-

ğuladı. Digər əməkdaşlıq məsələlərinin yekun hüquqi statusun müəyyənləşməsindən sonra daha cəlbedici olacağı bildirildi. Daha sonra rəsmi Astana dövlət başçılarının ildə bir dəfə görüşmələrinin vacibliyini bildirməklə bunun ümumi işin daha faydalı və səmərəli olmasına şərait yaradacağını qeyd etdi. Sahilyanı dövlət başçılarının ildə bir dəfə işgüzar görüşünü təşkil etmək üçün alt qurum olan işçi qrupunun da daha mütəmadi (ildə 5 dəfədən az olmayaraq) görüşməsinin Xarici İşlər nazirlikləri tərəfindən təşkilinin həyata keçirilməsi təklif edildi.

Sammitdə Qazaxıstanın Xəzərin hüquqi statusunun kompleks və daha tez bir zamanda müəyyənləşdirmək təklifini irəli sürməsini əslində onun Xəzərdə sərhəd olduğu Rusiya və Azərbaycanla bu müstəvidə razılığa gəldiyi, və həmin razılaşmanın ikitərəfli müqavilələr bağlamaqla rəsmiləşdirməsi şəraitindən yarandığını söyləmək olar. Başqa sözlə, Xəzərdə praktik olaraq Qazaxıstan üçün mübahisə doğuran elə bir ciddi problem qalmamışdır. Sammitdə Qazaxıstan tərəfinin təklifləri sırasında Xəzərin nadir "sakinləri" sayılan nərə balıqlarının sayının azalması səbəbi ilə onların ovlanmasına ən azı beş il müddətinə moratorium tətbiq olunması da vardır. Prezident N.Nazarbayev belə məhdudlaşdırıcı qərar ilə nərə balığı növlərinin populyasiyasını bərpa etməyə və gələcək nəsillər üçün saxlamağa imkan verəcəyinin mümkünlüyünü bildirdi. N.Nazarbayev həmçinin tərəflər arasında müvafiq müqavilələrin bağlanması ilə brakonyerlərə qarşı mübarizə sahələrində əməkdaşlığı elmi və hüquqi cəhətdən əsaslandırılmış çərçivəyə salmağın zəruriliyini qeyd etdi.

Bakı sammitində xüsusi maraq doğuran mövqelərdən biri də Türkmənistanın yanaşması idi. Prezident Q. Berdiməhəmmədov çıxışında Xəzərin hüquqi statusu haqqında konvensiyanın müddəalarının əksəriyyəti barədə konsensusa nail olunduğunu bildirdi. Q.Berdiməhəmmədov bildirdi ki, Xəzərdə təhlükəsizlik məsələləri beştərəfli şəkildə artıq razılaşdırılmışdır. Bundan əlavə, dəniz mühitinin qorunmasına dair çərçivə layihəsinin imzalanması apardığımız danışıqların uğurlu yekunu kimi qiymətləndirilməlidir.

Bakı sammitində Türkmənistan tərəfinin daha mülayim və əməkdaşlıq çərçivəsində davranışları müşahidə edilməkdə idi.

Q.Berdiməhəmmədovun "səmərəli qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün böyük tərəfdaşlıq potensialı vardır və ölkələrimiz buna hazırdırlar" fikri də dediklərimizi təsdiq edir. Rəsmi Aşqabad hesab edirdi ki, dənizin bioloji ehtiyatlarının qorunub saxlanması və bundan səmərəli istifadə olunması barədə sazişin hazırlanması işinə başlamaq da zəruridir və bunun da sözügedən sahə ilə bağlı fəaliyyətimiz üçün möhkəm hüquqi baza yaradacağı mümkün olacaqdır.

Türkmənistan tərəfinin digər təklifi Xəzərdə baş verən fövqəladə halların nəticələrinin aradan qaldırılması sahəsində sahilyanı dövlətlərin əməkdaşlığının hüququ əsasının yaradılması ilə bağlı idi. Bütün bunlarla yanaşı, əsas məsələ Xəzərin konkret olaraq bölünməsi ilə bağlı Türkmənistan tərəfinin yanşması idi. Q.Berdiməhəmmədov giriş nitqində bu məsələyə toxunaraq "Xəzərdə delimitasiya beynəlxalq hüququn ümumtanınmış normalarına, qarşılıqlı hörmət və tərəfdaşların mənafelərinin nəzərə alınması prinsiplərinə əsaslanmalıdır" kimi ümumi müddəaları bildirdikdən sonra, tərəflər arasında (xüsusən də Azərbaycan ilə Türkmənistan arasında) fikir ayrılıqlarına siyasi don geyindirilməsinin qəbuledilməz olduğunu bildirdi. Q.Berdiməhəmmədov bu siyasi deyil, hüquqi problem kimi qəbul edilməlidir.

Q.Bediməhəmmədovun çıxışında xüsusi diqqəti çəkən məqam "Xəzərin dibi ilə boru kəmərinin çəkilməsinin yalnız həmin boru kəmərinin keçdiyi hissələrin məxsus olduğu tərəflərin razılığı ilə həyata keçirilməlidir" fikrini səsləndirməsi oldu. Burada qeyd etməliyik ki, birbaşa söylənməsə də, amma faktiki olaraq söhbət daha çox Trans-Xəzər layihəsindən gedirdi. Çünki, Türkmənistanın Qazaxıstan və Rusiya ərazisindən quru sahədən keçən qaz kəmərləri ilə nəqletməni həyata keçirirdi. Həmçinin, quru ərazidən keçməklə Türkmənistan və İran arsında da boru-kəmər sistemi mövcuddur. Gətirdiyimiz arqumentlərdən də aydın olur ki, Türkmənistan tərəfi daha çox Trans-Xəzər layihəsini nəzərdə tuturdu və bunun reallaşması üçün kəmərin hansı ölkənin Xəzərdəki sektorundan keçəcəkdirsə onların razılığını həmin layihənin həyata keçirilməsi üçün əsas hesab edirdi. Bildiyimiz kimi Trans-Xəzər layihəsinin reallaşmasına ən böyük maneəni Rusiya yaratmaqdadır və rəsmi Moskva çalışır

ki, türkmən qazının ixracında əsas tranzit ölkə olaraq qalsın. Bakı sammitində Q.Berdiməhəmmədovun belə təklif etməsi Türkmənistan ilə Rusiya arasında ixrac məsələsində ciddi fikir ayrılıqlarının yaranması fonunda baş vermişdir. Hətta tərəflər Arbitraj məhkəməsinə belə müraciət etmək fikirlərini bildirmişdir. Türkmənistan tərəfinin bu mövqeyi əslində Azərbaycanın mövqeyi ilə üst-üstə düşürdü və rəsmi Bakı illərdən bəri çalışırdı ki, Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının daha qısa və iqtisadi-kommersiya, eləcə də təhlükəsizlik baxımından sərfəli olan Azərbaycan kəmərləri vasitəsilə nəqlinə nail olsun.

Burada haşiyəyə çıxaraq qeyd etmək istərdik ki, 1999-cu ildə ATƏT-in İstanbul Zirvə Toplantısında Bakı-Tbilisi-Ceyhan kəməi ilə yanaşı, həmçinin Türkmənistan qazının Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsi ilə nəqlini nəzərdə tutan deklorasiya da S.Niyazov, H.Əliyev, E.Şevarnadze və S.Dəmirəl arasında imzalanmış oldu. Bundan əlavə Azərbaycan qazının da Türkiyə bazarına və Türkiyə vasitəsilə digər bazarlara nəqlini nəzərdə tutan Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında "Qarşılıqlı anlaşma memorandomu" imzalanmışdı.

Xəzərin sektorlara bölünməsinə gəldikdə Türkmənistan tərəfi bu qapalı su hövzəsinin akvatoriyasını daxili sulara, ərazi dənizinə və ümumi su məkanına bölünməsini təklif edirdi. Müvafiq olaraq ərzi dənizinin (ərazi sularının) eninin 28 dəniz mili məsafədə olmasında israr edirdilər. Ərazi sularının isə hər bir sahilyanı dövlətin tam suverenliyi altında olmalısını və sözügedən su sahəsinin kənar xəttinin dövlət sərhədi kimi qəbul edilməsini təklif edirdi.

III Xəzər sammiti olan Bakı Zirvə Toplantısı çərçivəsində əməkdaşlığın ən perespektivli sahələri – təhlükəsizlik, kommersiya məqsədli nərə balığının ovu üçün sıfr kvotanın tətbiqi, su sahəsindəki suverenlik altında milli zonaların yaradılması haqqında ilk dəfə beştərəfli saziş imzalandı.

## V.4. Həştərxan sammiti

Sahilyanı dövlət başçılarının növbəti-IV sammiti 29 sentyabr 2014-cü ildə Həştərxanda keçirildi. Sammiti giriş sözü ilə açan Rusiya Fedarasiyasının Prezidenti V.Putin Həştərxan Zirvə Toplantısının qarşılıqlı etimad, anlaşma və konkret nəticələrə yönəlik müzakirələrin aparılması ilə yadda qalacaqdır.

Zirvə Toplantısında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev ilk növbədə sahilyanı dövlətlərin diqqətini 2010-cu ildə Bakıda keçirilən III Xəzər sammitinə yönəldərək, burada "Xəzərdəki təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"in əhəmiyyətini vurğuladı. Qeyd edək ki, adıçəkilən sazişdə qaçaqmalçılıq, brokonyerlik. qanunsuz miqrasiya, mütəşəkkil cinayətkarlıq və terrorizmə qarşı mübarizə sahəsində sahilyanı dövlətlər arasında əməkdaşlığın mühüm mexanizmləri yaradılmış oldu. İ.Əliyev Xəzərin şelf hissəsinin bölüşdürülməsi haqqında Rusiya, Qazaxıstan və Azərbaycan arasında imzalanmış müqavilənin əhəmiyyətini xüsusi olaraq qeyd etdi. Prezident İ.Əliyev Azərbaycan tərəfinin mövqeyni şərh edərkən Rusiya, Qazaxıstan və Azərbaycan arasında əldə edilmiş üçtərəfli razılığın digər dövlətlərlə də Xəzərin dibinin bölünməsi üçün president ola bilməsini sammit iştirakçılarının diqqətinə çatdırdı. Hüquqi statusun müəyyən edilməsi prosesində Azərbaycan sahilyanı dövlətlrin süverenliyinin tanındığı su məkanı daxil olmaqla milli zonanın eninin 25 mil ölçüsündə götülükməsinə razılığını bildirdi. Həmçinin, rəsmi Bakı dənizin şelf hissəsinin bölünməsi prosesində orta xəttin toxunulmazlığı prinsipini xüsusi olaraq bildirdi və Xəzərdə tranzit məsələlərinə mühüm əhəmiyyət verdiyini sammit iştirakçılarının diqqətinə çatdırdı. Qazaxıstan və Türkmənistanın karbohidrogen ehtiyatlarının Xəzər üzərindən Azərbaycan vasitəsi ilə Avropa bazarlarına nəql olunması Azərbaycan ilə yanaşı ABŞ, Aİ və Türkiyə tərəfindən də güclü dəstəklənirdi. Rusiya və İran isə qətiyyətlə bunun əleyhinə çıxırdı. Günümüzdə də Rusiya və İran Transxəzər layihəsinə qarşı sərt mövqeylərini davam etdirməkdədir. Həştərxan sammitində Azərbaycan tərəfi sahilyanı döv-

lətlərin Xəzərdə hərbi fəaliyyətini bütün dövlətlər üçün bərəbər formada təhlükəsizlik məsələlərinin həlli prinsipi əsasında həyata keçirilməli olduğunu bildirdi.

Həştərxan sammitində İran İslam Respublikasının Prezidenti H.Ruhani sahilyanı dövlət başçılarının diqqətini Xəzərdə turizmin inkişafı, bioresursların birgə qorunması, tərəflər arasında yük dövriyyəsinin artırılması və bunun fonunda gəmiçiliyin inkişafı, qarşılıqlı olaraq investisiyaların qoyulması məslələrinə yönəltmiş oldu. H.Ruhani həmçinin ekstremizm və terrorizmə qarşı birgə mübarizənin daha effektiv nəticələr verəcəyini qeyd etdi.

Qazaxıstan Respublikasının Prezidenti N.Nazarbayev isə 2010-cu ildə Bakıda keçirilən III sammitdən keçən müddət ərzində görülən işlərə nəzər salaraq, bu zaman çərçivəsində xeyli irəliləyişin əldə olunduğunu bildirdi. Qazaxıstan rəsmisi Xəzərdə təhlükəsizlik və əməkdaşlıq mühitinin getdikcə daha da yaxşılaşdığını qeyd etməklə bərabər, Həştərxan zirvə toplantısında əldə olunacaq razılaşmaların yekun hüquqi statusun tezliklə qəbul olunmasına mühüm töhfə verəcəyinə inandığını söylədi.




***Şəkil 34. Xəzərsahili dövlət başçılarının Həştərxan sammiti***

Türkmənistan Respublikasının Prezidenti Q.Berdiməhəmmədov Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində hüquqi bazanın yaradılması prosesinə mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Həmçinin Türkmənistan lideri yekun hüquqi konvensiyanın qəbul edilməsi istiqamətində sahilyanı dövlətlərin mövqelərinin xeyli yaxınlaşmasını müsbət hal kimi qiymətləndirdi və bu da yekun sənədin qəbuluna böyük ümidlər yaradır.

Xəzər problemləri ilə məşğul olan ekspertlər Həştərxan sammiti gedişində əldə olunmuş razılıqları onların həlli istiqamətində bir "sıçrayış" kimi qiymətləndirirlər. Həştərxan sammitində əldə olun razılaşma Xəzərdə hərbi əməkdaşlıq, sabit silah balansının təmin edilməsi, hərbi sahədə şəffaflığın təmin edilməsi, ərazi sularından kənarda təhlükəsiz naviqasiya azadlığının parametrləri və eləcə də sahilyanı dövlətlər arasında Xəzər problemləri ilə bağlı elmi araşdırmalar ilə bağlı işlənməkdə olan konvensiyanın ən həssas məsələləri üzrə kompromis üçün əsas yaradan dəstəkləyici hüquqi "çərçivə" hesab edilə bilər. Həştərxan sammitinin nəticəsi olaraq Xəzərin üç növə bölünən su sahəsinin eninin delimitasiyası üzrə kompromis matrisa üzrə razılığın əldə edilməsi oldu. 1) Sahilyanı dövlətlərin suverenliyi altında olan 15 dəniz mili məsafədə ərazi suları, 2) 10 dəniz mili məsafədə sahilyanı dövlətlərin müstəsna iqtisadi hüquqlarının təmin olunduğu müstəsna iqtisadi zonalar, 3) Ümumi su sahəsi. Sözügedən sammitdə həmçinin resursların delimitasiyası (yəni şelf hissənin delimitasiyası) ilə bağlı prinsipial razılıq əldə edildi. Əldə olunmuş razılığa görə sahilyanı dövlətlərin yerin təkindən istifadə və bununla bağlı iqtisadi fəaliyyətlər üzrə suveren hüquqlarını həyata keçirmək üçün Xəzərin dibi və təki hamı tərəfindən qəbul edilmiş norma və prinsiplər əsasında, beynəlxalq hüquqa söykənərək delimitasiya edilməsi haqqında razılıq əldə edilirdi. Buna qədər ilk olaraq Rusiya və Qazaxıstan Xəzərin dibinin bölüşdürülməsi ilə bağlı razılıq əldə etmişdirsə, və ardından Azərbaycan da Rusiya və Qazaxıstanla bu istiqamətdə müqavilə bağlamışdır. Həştərxan sammitində isə artıq bütün sahilyanı dövlətlər (Türkmənistan və İran da) bu formulu de-yure olaraq tanımış oldu. Rusiyalı eks-

pertlər Rusiya ilə Qazaxıstan arasında Xəzərin dibinin bölüşdürülməsi ilə bağlı razılaşmanı "şimal formulu" olaraq adlandırır. Sammitin yekununda sahilyanı dövlət başçıları tərəfindən birgə kommunike qəbul edildi. Qəbul edilmiş kommunike Xəzərin yekun hüquqi statusunun müəyyənləşdirilməsində istinad nöqtəsinə çevrilmiş oldu. Sammit çərçivəsində dövlət başçıları bir sıra təşəbbüslərlə çıxış etdilər ki, bu da Xəzərin yekun hüquqi statusunu müəyyənləşdirəcək sənəddə müəyyən qədər öz əksini tapmış oldu. Buna misal olaraq Xəzərdə qarşılıqlı iqtisadi əlaqələrin mühüm potensialı qeyd edildi. Bununla yanaşı, tranzit imkanlarının, investisiya cəlbediciliyinin gücləndirilməsinə çağırışlar edildi. Dövlət başçıları Xəzər regionunda azad ticarət zonasının formalaşdırılmasının sahilyanı dövlətlərin maraqlarına cavab verən bir layihə olaraq qiymətləndirdilər və onun gələcəkdə reallaşdırılması istiqamətində əməkdaşlığın gücləndirilməsinin vacibliyi bildirildi. Səsləndirilən təkliflər içərisində Türkmənistan Respublikasının Prezidenti Q.Berdiməhəmmədovun Xəzərdə daimi iqtisadi forum və logistikanın yaradılması təşəbbüsü xüsusi maraq doğurdu və sonrakı görüşlərdə hərtərəfli müzakirə edildi. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikası tərəfindən 2018-ci ildə Xəzər sahilində Ələt azad iqtisadi zonası yaradılmışdır.

Həştərxan sammiti çərçivəsində sahilyanı dövlətlər arasında üç mühüm hökümətlərarası sənəd imzalandı. Birinci saziş hidrometrologiya sahəsində əməkdaşlığı nəzərdə tuturdu. Su bioloji ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında saziş imzalanan ikinci sənəd idi. Üçüncü hökümətlərarası saziş isə baş vermiş fövqəladə hadisələrin qarşısının alınması və onun nəticələrinin aradan qaldırılması istiqamətində əməkdaşlığı nəzərdə tuturdu. Həştərxan sammiti bu istiqamətdə gələcək əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm baza yaratmış oldu. Həştərxan sammitini geniş çərçivədə qiymətləndirmiş olsaq deyə bilərik ki, sahilyanı dövlət başçılarının zirvə toplantısı beştərəfli danışıqlar prosesində mühüm mərhələ hesab oluna bilər. Həmçinin hüquqi statusun müəyyən edilməsi prosesinin inkişafına güclü müsbət təkan verdi və bütövlükdə diplomatla-

rın işini “canlandırmış oldu”. Siyasi ekspertlər tərəfindən Həştərxan sammiti Xəzərin hüquqi statusu ilə bağlı uzun sürən danışıqlar “marafonu”nun artıq finiş xəttinə yaxınlaşıldığı konteksində uğurlu hesab edilir. Həştərxan sammitində əldə edilmiş razılıqlar sahilyanı dövlətlərin ekspertləri və müvafiq səlahiyyətli nümayəndələri tərəfindən yekun hüququ statusu müəyyənləşdirəcək konvensiyaya hüquqi prosedurlara uyğun olaraq daxil edilməsini təmin etməli idi.

## V.5. Aktau sammiti

Aktau sammitindən öncə xüsusi İşçi Qrupunun bir neçə iclası keçirilmiş və hüquqi status iə bağlı konvensiyanın mühüm maddələri ətraflı müzakirə edilmişdir. Bundan əlavə 12-13 iyul 2016-cı ildə sahilyanı dövlətlərin Xarici İşlər nazirlərnin Astana və 4-5 dekabr 2017-ci il Moskva görüşlərində konvensiyanın mübahisə doğuran müddəaları geniş ölçüdə razılaşdırıldı.

2018-ci il avqustun 12-də Qazaxıstanın Xəzər sahilində yerləşən Aktau şəhərində sahilyanı dövlətlərin 1992-ci ildən bəri müzakirə etdikləri status məsələsinin həllini tapacaq V sammit keçirildi. Qeyd edək ki, sammitin keçirilməsi üçün 12 avqust tarixi təsadüfü seçilməmişdir. Həmin tarix beynəlxalq aləmdə Xəzər günü kimi qeyd olunur. Sammitin gündəliyində əsas müzakirə olunan məsələ su hövzəsinin hüququ statusu olmaqla Xəzərdə əməkdaşlıq, regional və qlobal təhlükəsizlik məsələləri idi. Bununla yanaşı sözügedən su hövzəsinin bioresurslarının qorunması, iqtisadiyyat, nəqliyyat, ekologiya və təhlükəsizlik mövzuları diqqət mərkəzində olaraq, müzakirə mövzularından idi. Aktau sammiti onunla əlamətdar idi ki, 20 ildən artıq bir müddətdə davam edən hüququ statusla bağlı aparılan danışıqların nəticəsi olaraq yekun hüquqi konvensiyanın imzalanması mümkün oldu. Təsadüfi deyildir ki, Qazaxıstan Respublikasının Prezidenti N.Nazarbayev Xəzərin hüquqi statusu ilə bağli müzakirələrin 20 ildən artıq bir müddətdə aparıldığını və Aktauda qəbul ediləcək yekun konvensiyanı Xəzərin “konstitusiyası” adlandırmışdır.

Yuxarıda aparılan təhlildən də göründüyü kimi konvensiyanın ərsəyə gəlməsinə qədər uzun və çətin bir yol keçilmişdir. Bunu Azərbaycan Xarici İşlər nazirinin müavini, Xəzər Məsələləri Üzrə İşçi Qrupunun sədri X.Xələfov da etiraf edir; Ümumilikdə, konvensiyanın razılaşdırılması Xüsusi İşçi Qrupu çərçivəsində keçirilmiş 52 görüş və növbədənkənar iclasların, buna paralel mütəmadi çoxsaylı ikitərəfli məsləhətləşmələrin, Xarici İşlər nazirlərinin müşavirələrinin və dövlət başçıları səviyyəsində təşkil olunan Zirvə Toplantılarında əldə olunmuş geniş konsensusun və tərəflər arasında incə balansın nəzərə alınmasının nəticəsidir.

Yekun konvensiya 1996-cı ildən sahilyanı dövlətlərin Xarici İşlər nazirləri Şurası və diplomatlarının, delimitasya və demarkasiya məsələləri üzrə ixtisaslaşmış hüquqşünasların, Xəzər problemləri üzrə araşdırma aparan alimlərin, ekologiya, nəqliyyat, iqtisadiyyat, balıqçılıq və hərbi müdafiə mütəxəssislərinin iştirakı ilə Birgə İşçi Qrupu çərçivəsində hazırlanmışdır.

Konvensiyanın qəbulu BMT-nin Baş katibi A.Quterreş tərəfindən regional əməkdaşlığın və çoxtərəfli münasibətlər prinsipinin mühüm nailiyyəti kimi yüksək qiymətləndirilmişdir.

Yekun konvensiya 24 maddədən ibarət olub, burada kompleks şəkildə Xəzərlə bağlı məsələlərə hüquqi baxımdan aydınlıq gətirilirdi. Konvensiyada ərazi suları, dəniz sərhədləri, dənizin dibinin bölgüsü, naviqasiya qaydaları, balıq ovu hüquqları, ətraf mühit məsələləri, elmi tədqiqatların aparılması, hərbi əməkdaşlıq məsələləri, dənizin sərvətlərindən istifadə və başqa məqamların tənzimlənməsi yer alır.

Aktauda keçirilən V Xəzər sammit çərçivəsində terrorizmlə mübarizə, mütəşəkkil cinayətkarlıq və sərhəd qurumlarının qarşılıqlı fəaliyyətinə dair üç əlavə protokol da imzalanmışdır.

Aktau sammiti çərçivəsində sahilyanı dövlət başçıları "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya", "Beşinci Xəzər sammitinin kommünikesi", "Xəzərdə terrorizmlə mübarizədə əməkdaşlıq haqqında Protokol" daxil olmaqla ümumilikdə səkkiz sənəd imzalamışdır.

Konvensiyanın I maddəsində ümumi müddəalar yer alır.

II maddənin 2-ci bəndinə görə Konvensiya Tərəflərin dənizin səthi, dibi, yeraltı təbii sərvətləri və hava sahəsini əhatə edən Xəzərin istifadəsi ilə bağlı hüquq və öhdəliklərini müəyyənləşdirir və tənzimləyir.

Sənədin III maddəsində Tərəflərin Xəzərdə fəaliyyəti prinsipləri göstərilir. Burada sahilyanı dövlətlərin Xəzərdə suverenliyə, ərazi bütövlüyünə, müstəqilliyə, dövlətlərin suveren bərabərliyinə, güc tətbiqinə yol verməməklə fəaliyyət göstərəcəkləri bildirilir. Həmçinin burada Xəzərdəki qarşıya çıxacaq bütün problemlərin sülh yolu ilə həll ediləcəyi göstərilir.

III maddədə diqqətiçəkən məqamlardan biri də Xəzərin sahilyanı dövlətlər istisna olmaqla digər xarici dövlətlərin hərbi birləşmələri üçün bağlı olmasıdır. Bununla yanaşı, tərəflər bir-birinin təhlükəsizliyinə zərər yetirmədən istənilən qədər hərbi quruculuqla məşğul ola bilər. Bu isə daha çox Tehran və Moskvanın maraqlarına uyğun idi. İlk baxışdan Xəzərdə xarici dövlətlərin hərbi gəmilərinin mövcudluğuna yol verilməməsinin təhlükəsizlik baxımından əhəmiyyət kəsb etdiyi şübhəsizdir. Amma, Xəzər qapalı su hövzəsi olduğundan Rusiyanın razılığı olmadan (Volqa-Don kanalı, Marinisk kanalı vasitəsi ilə) xarici dövlətlərin bura daxil olması onsuz da qeyri-mümkündür. Rusiya və İran ilk başdan bəri Qərb ilə kəskin münasibətləri fonunda və üstəlik həmin dövlətlərə məxsus neft-qaz şirkətlərinin Xəzərdə mövcudluğu ilə yanaşı hərbi qüvvələrinin də sözügedən sututara gəlməsini özlərinin dövlət təhlükəsizliyi baxımından qəbuledilməz hesab edirdilər. Həmçini bu maddədə Beynəlxalq Mülki Aviasiya Təşkilatının qaydalarına uyğun olaraq sərnişin təyyarələrin uçuş azadlığı təsbit olunmuşdur.

IV maddədə Tərəflərin Xəzərdə yekun konvensiya və ona uyğun ayrıca sazişlərə, habelə milli qanunvericiliyə uyğun fəaliyyət göstərməsi əksini tapmışdır.

Birbaşa Xəzərin hansı çərçivədə bölünməsi məsələləri V maddədə öz əksini tapmışdır və burada göstərilirdi ki, Xəzər akvatoriyası daxili sulara, ərazi sularına, balıqçılıq bölgələrinə və ümumi su sahəsinə bölünür.

VI maddədə tərəflərdən hər birinin quru ərazisinin və daxili sularının davamı kimi Xəzərdə ərazi suları qəbul olunur. Sahilyanı dövlətlərin hər birinin suverenliyi ərazi sularının dibi, səthi və bunun üzərindəki hava məkanına şamil olunurdu.

VII maddədə tərəflərin hər biri çıxış xətlərindən ölçülən, eni 15 dəniz milindən çox olmayaraq ərazi sularına malik olur. Bu, konvensiyaya uyğun olaraq müəyyən edilmiş xətlərdən ölçülür. Həmin maddənin 2-ci bəndində ərazi sularının sərhədləri göstərilir. Burada qeyd olunur ki, hər nöqtəsi çıxış xəttinin ən yaxın hissəsindən ərazi sularının eninə bərabər ölçüdə yerləşən xətt ərazi sularının xarici sərhədi hesab olunur. Ərazi sularının xarici sərhəddinin müəyyən edilməsi məqsədilə dənizdəki liman sisteminin bir hissəsi olan və sahilin davamı kimi götürülən daimi və nəzərəçarpan liman qurğuları başlanğıc kimi qəbul olunur. Daha sonra göstərilir ki, sahil qurğuları və süni adalar daimi liman obyektləri hesab edilmir. Ərazi sularının xarici sərhədləri dövlət sərhədi hesab olunur. Quru sərhəd ərazilərində olduğu kimi burada da su ərazilərinin delimitasiyasının mümkünlüyü öz əksini tapmışdır. Sərhədləri olan dövlətlər arasında daxili və ərazi sularının delimitasiyası beynəlxalq hüquq prinsipləri və normalarını nəzərə alaraq, onların aralarında əldə edilmiş razılığa əsasən həyata keçirilir.

VIII maddədə konvensiya imzalanana qədər Rusiya, Qazaxıstan və Azərbaycan arasında əldə edilmiş ikitərəfli və üçtərəfli razılaşmalar təsbi edilir və digər sahilyanı dövlətlər (İran və Türkmənistan) tərəfindən də həyata keçirilməsi mümkün hesab edilir. Belə ki, adıçəkilən maddədə aydın şəkildə göstərilir ki, Xəzərin təkinin və səthinin sektorlara bölünməsi beynəlxalq hüquqa söykənməklə yanaşı, sərhəd dövlətləri arasında qarşılıqlı razılaşma əsasında həyata keçirilir.

Həmin maddənin 2-ci bəndində qeyd olunur ki, sahilyanı dövlətlərin hər biri öz sektoru daxilində süni adaların, qurğuların, strukturların yaradılması, istifadəsi və idarə edilməsində müstəsna hüquqlara malikdir. Buna əlavə olaraq, sahilyanı dövlətlərdən hər biri zərurət yarandığı təqdirdə yuxarıda göstərilən qurğuların və gəmilərin təhlükəsizliyini təmin edilməsi məqsədi ilə eni 500 metrdən çox ol-

mayan xüsusi zonalar təşkil edə bilər. Qeyd olunan 500 metr isə süni ada, tkinti qurğusu və digər obyektin xarici kənarından ölçülməklə müəyyən edilirdi. Belə qurğunun yaradılması əvvəlcədən bütün sahilyanı dövlətlərə məlumat verildikdən sonra reallışdırıla bilərdi. Amma, bununla belə sözügedən “təhlükəsizlik zonası” sahilyanı dövlətlərin suveren hüquqlarını heç bir halda məhdudlaşdırmamalı idi.

IX maddəyə görə sahilyanı dövlətlərdən hər biri ərazi sularına bitişik 10 dəniz mili məsafədə balıqçılıq zonasına malik olurdu.

Ərazi sularında olduğu kimi balıqçılıq zonasında da bitişik sahilləri olan dövlətlər arasında balıqçılıq zonalarının delimitasiyası beynəlxalq hüquq prinsipləri və normalarını nəzərə alaraq, onların aralarında razılığa əsasən həyata keçirilməli idi.

IX maddənin 2-ci bəndində hər bir sahilyanı dövlət öz balıqçılıq sahəsində bu Konvensiyaya uyğun olaraq su bioloji ehtiyatlarının yığılmasına davam etməkdə tərəflərin qəbul etdiyi ayrı-ayrı sazişlərə və milli qanunvericiliyinə əsasən müstəsna hüquqlara malik idi.

IX maddənin 3-cü bəndinə görə tərəflər, bu konvensiya və beynəlxalq mexanizmlər əsasında, Xəzərdə paylaşılan su bioloji ehtiyatlarının ümumi icazə verilən tutumunu birgə müəyyənləşdirir və onu milli kvotalara bölürlər.

Xəzərdə birgə bioloji ehtiyatlarının hasilatına dair prosedur və şərtlər bütün tərəflər arasında ayrıca razılaşmaya əsasən müəyyən edilir.

Tərəflərdən biri öz imkanları ilə ümumi icazə verilən tutumda kvotaya sahib olmaq imkanına malik deyilsə, milli qanunvericiliyə uyğun olaraq ikitərəfli razılaşma və müqavilələr imzalamaqla, digər tərəflərə ümumi icazə verilən tutumda ovdakı kvotasının qalıqlarına çıxış imkanı verir.

Xəzərdə birgə su bioloji ehtiyatlarının yığılmasına dair prosedur və şərtlər bütün tərəflər arasında ayrıca razılaşmaya əsasən müəyyən edilir.

Tərəflərin Konvensiyanı imzalamaqla mühüm naliyyətlərindən biri də, Xəzərdə naviqasiya qaydalarının (hərbi gəmilər də daxil olmaqla) nizamlanması oldu.

X maddəyə görə sahilyanı dövlətlərin bayraqları altında üzən gəmilər ərazi suları xaricində naviqasiya azadlığından (dəniz üzgüçülüyü azadlığı) istifadə edirlər. Bu Konvensiyanın müddəalarına və tərəflərin öz aralarında bağladığı müqavilələrə əsasən, Konvensiyada nəzərdə tutulmuş tərəflərin suveren və müstəsna hüquqlarına heç bir zərər yetirmədən həyata keçirilir. Tərəflərin hər biri digərinə yüklərin, sərnişinlərin daşınması, habelə xilasetmə işləri icra edən gəmilərə özlərinə aid gəmilərə göstərdiyi münasibəti icra etməli idi. Belə yanaşma Xəzərdə tərəflərin gəmiləri üçün açıq olan limanlara şamil edilir.

X maddənin 4-cü bəndinə əsasən sahilyanı dövlətlərin hər birinə dünya okeanına sərbəst çıxışa icazə verilsə də, həmin bölmənin digər abzasında bunu həyata keçirmək üçün mümkün qaydalar və şərtlər ikitərəfli qaydada saziş və müqavilələrlə tranzit ölkə ilə razılaşdırılmalı idi. Belə razılaşma olmadığı halda, həmin qaydalar və şərtlər tranzit ölkənin milli qanunvericiliyinə uyğun olaraq tənzimlənməli idi.

Yuxarıda da qeyd etdiyimiz kimi Xəzərdən dünya okeanına çıxış Volqa-Baltik və Volqa-Don kanalları vasitəsi ilə mümkündür ki, bu da Rusiya ərazisində yerləşir. Rusiyanın Xəzərlə bağlı siyasətinin mühüm seqmentlərindən biri də sahilyanı dövlətlərə həmin kanallardan maneəsiz və milli qanunvericiliyindən kənarda istifadə hüququnu tanımasın.

XI maddədə sahilyanı dövlətlərə aid gəmilərin ərazi sularından keçmək şərtləri göstərilmişdir.

a) daxili sulara daxil olmadan, liman qurğusunun yanında dayanmadan ərazi sularında keçmək;
b) ərazi sularına keçmək və ya oranı tərk etmək, yaxud da belə bir reyddə və ya liman qurğusunun ətrafında dayanmaq.

XI maddənin 2-ci bəndində göstərilirdi ki, tərəflərə məxsus sualtı qayıqlar daxil olmaqla hərbi gəmilərin ərazi sularından keçid şərtləri sahilyanı dövlətlər arasında imzalanmış müqavilələr əsasında müəyyənləşir. Belə müqavilələr olmadıqda tərəflərin qanunvericiliyi əsas götürülürdü.

Sualtı qayıqlar daxil olmaqla hərbi gəmilər və digər texniki qurğular zərurət yarandığı halda tərəflərdən birinin ərazi sularına daxil olmaq məcuriyyətində qalırdısa, həmin gəminin kapitanı tərəfindən qarşı tərəfə bildiriş verilməli idi. Qarşı tərəfin ərazi sularına daxilolma gəmi kapitanının müəyyənləşdirilmiş və qarşı tərəflə mütləq şəkildə razılaşdırdığı treyaktoriya (marşrut) üzrə həyata keçirilir. Belə fövqəladə tpli hallar yekunlaşdıqdan dərhal sonra hərbi gəmilər qarşı tərəfin ərazi sularını tərk edir.

Yuxarıda göstərildiyi kimi hərbi gəmilərin tərəflərdən birinin ərazi sularına daxil olması qaydaları bayraq dövləti (gəminin hansı dövlətə məxsus olduğu başa düşülür) ilə sahilyanı dövlət arasında mövcud sazişlər əsasında tənzimlənməlidir. Əgər belə sazişlər yoxdursa, hərbi gəminin daxil olduğu dövlətin qanunvericiliyi əsasında həyata keçirilməlidir.

XI maddənin 3-ci bölməsində aydın şəkildə göstərilir ki, yuxarıda göstərildiyi kimi zərurət yarandığı təqdirdə hərbi gəmilərin tərəflərin ərazi sularından keçidi həmin sahilyanı dövlətin qanunlarını pozmadan, təhlükə yaratmadan fasiləsiz və tez həyata keçirilməlidir.

Bu maddənin 2-ci bölməsində göstərilən hallar (müvafiq icazənin olduğu, qarşısıalınmaz qüvvə və fəlakət nəticəsində şəxs, gəmi və digər texniki qurğulara yardım göstərmək) istisna olmaqla bir tərəfin hərbi gəmiləri və texniki qurğuları sahilyanı dövlətlərdən digərinin ərazi sularına daxil olması hüququna sahib deyildir.

XI maddənin 5-ci bəndinə əsasən yuxarıda göstərilən zərurətdən bir tərəfin sualtı qayıqları daxil olmaqla hərbi gəmiləri və digər texniki qurğuları digər tərəfin ərazi sularına yalnız bayraq qaldırmaqla və suyun səthi ilə daxil ola bilər.

XI maddənin 6-cı bəndində yuxarıda göstərilən zərurətdən bir tərəfin digər tərəfin ərazi sularından keçidi zamanı hansı hərəkətləri qanun pozuntusu və qarşı tərəfin təhlükəsizliyinin təhdidi kimi başa düşüldüyünə aydınlıq gətirilir.

a) keçid zamanı qarşı tərəfin suverenliyinə, ərazi bütövlüyünə qarşı zor işlətməklə hədələmə və yaxud zor tətbiqetmə, BMT nizamnaməsində göstərilmiş beynəlxalq hüququn prinsip və normalarını pozan digər hərəkətlər,

b) istənilən silah növü ilə manevr və ya təlimlərin keçirlməsi;
c) tərəflərin dövlət təhlükəsizliyi və müdafiəsinə xələl gətirə bilmək məqsədi ilə informasiyaların əldə edilməsinə yönəlmiş hərəkətlər;
d) tərəflərin təhlükəsizliyinə qarşı yönəlmiş istənilən təbliğat fəaliyyəti;
e) istənilən texniki uçuş aparatının havaya qaldırılması, göyərtəyə endirilməsi və idarə edilməsi;
f) istənilən texniki hərbi qurğunun suya endirilməsi, göyərtəyə qəbul edilməsi və idarə olunması;
g) tərəflərin fiskal, gömrük, sanitar və immiqrsaiya qanun-qaydalarının əksinə olaraq, istənilən mal və valyutanın yüklənməsi və boşaldılması. İstənilən şəxsin gəmiyə və digər texniki qurğulara mindirilməsi və düşürdülməsi;
h) bilərəkdən həyata keçirilən ciddi çirkləndirmə işləri;
i) istənilən balıqçılıq fəaliyyəti;
j) istənilən elmi və digər tədqiqat, hidroqrafih istiqamətli fəaliyyət;
k) tərəflərdən birinin digərinə kommunikasiya sistemlərinin və digər qurğularının fəaliyyətinin pozulmasına yönəlmiş istənilən hərəkət;
l) ərazi sularında keçidə aidiyyatı olmayan istənilən hərəkət.

XI maddənin 7-ci bəndinə görə tərəflərdən hər biri özlərinə aid ərazi sularında qeyd olunan şərtlərin pozulması ilə müşayət olunan keçidin qarşısını almaq üçün zəruri tədbirlər həyata keçirə bilər.

Həmin maddənin 8-ci bəndində qeyd olunur ki, sahilyanı dövlətlərin hər biri qəbul edilən konvensiya və beynəlxalq hüququn normalarına söykənərək aşağıda göstərilən məsələlər daxil olmaqla özlərinə məxsus ərazi sularından keçid ilə bağlı qanun və qaydalar qəbul edə bilər.

a) gəmilərin hərəkətinin nizamlanması və təhlükəsiz fəaliyyətin təmin edilməsi;
b) naviqasiya avadanlıqları, eləcə də digər tikili və qurğuların mühafizəsini təmin etmək;
c) boru kəmərlərinin və fiber optik xətlərin mühafizəsi;

d) bioloji resursların qorunması;
e) balıqçılıqla bağlı tərəflərin qəbul etdiyi qayda və qanunların pozulmasına imkan verməmək və bu baş verərsə ona qarşı mübarizə aparılması;
f) dənizin ekoloji mühitinin qorunması, çirklənmənin qarşısının alınması;
g) elmi tədqiqat işlərinin aparılması və hidroqrafik çəkilişlər;
h) tərəflərin fiskal, gömrük, sanitar və immiqrsaiya qanun-qaydalarının pozulmasına imkan verməmək və bu baş verəcəyi təqdirdə onun qarşısının alınması;
i) sahilyanı dövlətlərdən hər birinin milli təhlükəsizliyinin təmin olunması.

9-cu bəndə görə, hər bir tərəf ərazi sularında keçid ilə bağlı qəbul etdiyi bütün qanun və qaydaları müvafiq şəkildə çap etdirməli idi.

10-cu bənddə tərəflərin bayrağı altında üzən gəmilərin ərazi sularından keçidi həyata keçirilərkən yuxarıda göstərilən qaydaları qəbul etmiş sahilyanı dövlətin qanunlarına əməl olunmalı olduğu göstərilir.

11-ci bəndə əsasən sahilyanı dövlətlərdən hər biri ərazi sularından keçidi həyata keçirən digər tərəfin bayrağı altında üzən gəmidən təhlükəsizlik məsələlərinin əsas tutaraq və zərurət yaranardısa keçid qaydasını müəyyən edən hərəkət istiqaməti və hərəkətin bölünməsi sxemini tələb etmək səahiyyətinə malikdir.

12-ci bənddə bildirilirdi ki, tərəf onun daxili sularına istiqamətlənmiş və yaxud həmin sahənin kənarında liman qurğularından istifadə edən gəmilərin daxili sulara keçid qaydasının pozulmasına imkan verməmək üçün təxirəsalınmaz tədbirlər icra etmək hüququna sahibdir.

13-cü bəndə görə sahilyanı dövlətlərdən hər biri təhlükəsizlik məsələlərini önə çəkərək. zərurət yaranarsa, digər tərəflərə məxsus gəmilərə ayrı-seçkilik qoymadan onların özünə aid ərazi sularının müəyyən hissələrindən keçidini müvəqqəti olaraq dayandırmaq səlahiyyətinə malikdir.

Qarşı tərəflərin bayraqları altında üzən gəmilərin belə halda dayandırılma qaydası yalnız müvafiq xəbərdarlıq edildikdən sonra həyata keçirilə bilər.

14-cü bəndə əsasən istənilən təyinatlı gəmi ərazi sularından keçid ilə bağlı tərəfin qəbul etdiyi qanunlara əməl etmədikdə həmin dövlət dərhal ona aid ərazi sularının tərk edilməsini tələb edə bilər.

15-ci bənddə göstərilir ki, sahilyanı dövlətlərin bayraqları altında üzən hərbi və qeyri hərbi gəmilərin ərazi sularından keçidi zamanı tərəfin qəbul etdiyi qayda və qanunlara, qəbul edilən bu konvensiyanın müddəalarına, eləcə də beynəlxalq hüquq normalarına əməl edilməməsi nəticəsində həmin dövlətə dəymiş zərərə görə beynəlxalq məsuliyyət daşıyır.

16-cı bənddə sahilyanı dövlətlərdən hər biri qəbul edilən Konvensiya və müvafiq qayda-qanunlara əməl edilərək öz ərazi sularında digər tərəfə məxsus gəmilərin keçidinə maneə yaratmamalıdır. Həmçinin Tərəf:

a) Tərəf sahilyanı dövlətlərə məxsus gəmilərin ona aid ərazi sularından keçidi ilə bağlı əsassız şəkildə məhrum etmə və yaxud hüquqa zidd heç bir tələb irəli sürməməlidir
b) Digər sahilyanı dövlətlərə məxsus gəmilər və yaxud istənilən dövlətin adından yük daşıyan gəmilərə münasibətdə istənilən formada ayrı-seçkiliyə yol verilməməli idi.

XII maddənin 1-ci bəndinə əsasən sahilyanı dövlətlərin hər biri Xəzər akvatoriyasında özünə aid gəmilərə münasibətdə yurisdiksiyasını həyata keçirir.

2-ci bəndə görə tərəflərdən hər biri özlərinə aid sektorda süni adalar, tikililər, müxtəlif qurğular və özlərinə məxsus sualtı kabellər və boru xətlərinə öz yurisdiksiyasını tətbiq edə bilər.

3-cü bənddə göstərilir ki, tərəflərdən hər biri özlərinə məxsus balıqçılıq zonasında öz suverenliyini, eləcə də dənizin təkindən istifadə və bununla bağlı digər qanuni təsərrüfat-iqtisadi fəaliyyət üçün suveren hüquqlarını həyata keçirir. Sahilyanı dövlətlərdən hər biri özünə məxsus balıqçılıq zonasında su bioloji resurslarına münasibətdə müstəsna hüquqlara malik olmaqla bərabər, həmçinin onların mühafizəsi və idarə edilməsini həyata keçirmək üçün zəruru hesab olunan gəmiyə baxış, təqib etmə, saxlama, həbs və məhkəmə baxışı daxil olmaqla bütün mümkün tədbirləri reallaşdıra bilər. 3-cü bənd-

də göstərilən bu tədbirlərin tətbiq edilməsi tam qanuni əsasda həyata keçirməlidir. Qeyd edilən tədbirlər əsassız tətbiq edildikdə gəmiyə dəymiş ziyana görə qarşı tərəf kompensasiya ödəməlidir.

Bu bənddə göstərilən tədbirlər – gəmiyə baxış, isti izlərlə təqib etmə, saxlanma sahilyanı dövlətlərin dövlət xidmətində olması aydın şəkildə və tanınan nişanlarla göstərilən və bu tip işlər üçün səlahiyyətli hesab olunan nümayəndələri tərəfindən aparıla bilər.

4-cü bəndə əsasən bu konvensiyanın 11-ci maddəsində qeyd olunan hallar istisna edilməklə bu konvensiyanın heç bir maddəsi hərbi və eləcə də qeyri-kommersiya təyinatı üçün istifadə olunan digər dövlət gəmilərinin immunitetlərinə toxunmur.

XIII maddənin 1-ci bəndinə əsasən sahilyanı dövlətlərdən hər biri suveren hüquqlarını həyata keçirmək məqsədilə özünə məxsus ərazi sularında dəniz elmi tədqiqat işlərinin həyata keçirilmək hüququna sahibdir. Sahilyanı dövlətlərin bayrağı altında üzən gəmilər digər tərəfin ərazi sularında yalnız həmin dövlətin yazılı icazəsi və onun müəyyən etdiyi şərtlərə əsasən dəniz elmi tədqiqat işləri apara bilər. 2-ci bənddə göstərilir ki, tərəflərdən hər biri özünə məxsus balıqçılıq zonasında su bioloji resursları ilə bağlı özünə aid sektorda təkin resurslarının işlənməsi ilə əlaqədar dəniz elmi tədqiqat işlərini həyata keçirmək kimi müstəsna səlahiyyətlərə malikdir. Sahilyanı dövlətlərə məxsus gəmi tərəfin balıqçılıq zonasında və sektorunda yalnız həmin tərəfin yazılı formada razılığı və onun müəyyənləşdirdiyi qaydalara uyğun olaraq belə tədqiqat işləri həyata keçirə bilər. 3-cü bənddə qeyd olunur ki, sahilyanı dövlətlərin hər biri elmi tədqiqat işlərinin aparılması qaydası və şərtlərini milli qanunvericiliyə uyğun şəkildə müəyyənləşdirir və nüvafiq formada qarşı tərəflərə bildirir. 4-cü bəndə əsasən bu maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq tərəflərdən hər biri dəniz elmi tədqiqat işlərinin aparılması üçün icazə verilməsini əsassız şəkildə gecikdirməməli və bundan imtina etməməlidir. 5-ci bənddə göstərilir ki, dəniz elmi tədqiqat işlərinin aparılması sahilyanı dövlətlərin bu konvensiyada nəzərdə tutulmuş suveren hüquqlarına əsassız maneə yaratmır. 6-cı bəndə görə dəniz elmi tədqiqat işlərini aparan sahilyanı dövlət həmin işlə-

rin aparılmasına icazə vermiş tərəfin belə fəaliyyətdə, həmin tərəfin tədqiqatçılarına (alimlərinə) təmsil olunmaq (iştirak etmək) hüququnu tanımış olur. 7-ci bənddə qeyd olunur ki, dəniz elmi tədqiqat işlərini həyata keçirən tərəf həmin işlərin aparılmasına icazə verən tərəfi tədqiqat işləri yekunlaşdıqdan sonra onun nəticələri və əldə olunmuş nümunələrlə tanış olmasına şərait yaradır. 8-ci bəndə əsasən sahilyanı dövlətlərdən hər biri özünə məxsus ərzi sularında dəniz elmi tədqiqatları ilə bağlı istənilən fəaliyyətin dayandırılması və ya xitam verilməsini tələb etmək hüququna sanibdir. 9-cu bəndə görə bu maddənin 2-ci bəndinə uyğun olaraq dəniz elmi tədqiqat işlərinin aparılmasına icazə verən sahilyanı dövlət aşağıdakı hallarda həmin fəaliyyətin dayandırılması və ya xitam verilməsini tələb edə bilər.

a) dəniz elmi tədqiqat işləri iczə verən tərəfin təqdim etdiyi məlumatlara uyğun gəlməyən formada aparıldıqda;
b) dəniz elmi tədqiqat işləri icazə verən tərəfin müəyyənləşdirdiyi şərtləri pozaraq həyata keçirildikdə;
c) dəniz elmi tədqiqat işləri həyata keçirilən zaman bu maddənin (yəni XIII maddənin) müddəalarından istənilən birinə əməl edilmədikdə;
d) bu tərzdə dayandırılma və xitam verilmə icazə verən tərəfin təhlükəsizliyi baxımından xususi əhəmiyyət kəsb etdikdə.

10-cu bənddə qeyd olunur ki, sahilyanı dövlətlərə məxsus gəmilər sözügedən maddənin (yəni XIII maddənin) 2-ci və 3-cü bəndlərinə uyğun olaraq ərazi sularının xaricində dəniz elmi tədqiqat işləri həyata keçirmək hüququna sahibdir.

11-ci bənddə göstərilir ki, ikitərəfli və çoxtərəfli əsasda dəniz elmi tədqiqat işləri sahilyanı dövlətlərin razılığı əsasında aparılır.

Həm sahilyanı dövlətlərin, həm də aparıcı aktorların xüsusi maraq göstərdiyi məsələlərdən biri-Xəzərin dibi ilə fiber optik xətlərin və magistral kəmərlərin çəkilməsinin hüquqi əsasları konvensiyanın XIV maddəsi ilə təsbit olunmuşdur.

XIV maddənin 1-ci bəndində göstərilir ki, sahilyanı dövlətlər Xəzərin dibi ilə sualtı kabellər və boru kəmərləri çəkə bilər.

2-ci bənddə isə qeyd olunur ki, Xəzərin dibi ilə magistal boru xətlərinin çəkilməsi, Xəzərin dəniz ətrafı mühitinin qorunmasını haqqında Cenevrə Konvensiyası ilə yanaşı, tərəflərin qoşulduqları beynəlxalq müqavilələrdə təsbit olunmuş ekologiya ilə bağlı tələblərə uyğun olması şəraitində mümkün hesab edilir.

3-cü bəndə görə isə sualtı kabel və ya magistral boru kəmərinin çəkilməsi üçün marşurutun (treaktoriyanın) müəyyənləşdirilməsi həmin xətlərin (kabel və boru kəmərləri nəzərdə tutulur) keçəcəyi dibin sektorunun sahib olduğu dövlətlə razılaşdırılmaqla həyata keçirilir.

4-cü bəndə əsasən sualtı kabel və boru kəmərlərinin treaktoriyasının (keçid marşurutu) coğrafi kordinatları həmin xətlərin keçdiyi sektorun məxsus olduğu sahilyanı dövlət tərəfindən digər sahilyanı dövlətlərə bildirilir.

XV maddənin 1-ci bəndində qeyd olunur ki, tərəflər Xəzərin ekoloji mühitini qorumaq və mühafizə etməkdə ümumi məsuliyyət daşıyır.

2-ci bənddə isə göstərilir ki, sahilyanı dövlətlər birgə və ya müstəqil şəkildə Xəzərin bioresurslarının mühafizə edilməsi, bərpası və rasioanal şəkildə mənimsənilməsi, onun çirkləndirilməsinin qarşısının alınması istiqamətində zəruri hesab olunan bütün tədbirləri görür.

3-cü bəndə görə Xəzərin biomüxtəlifliyinə zərər yetirən fəaliyyət qadağan olunur.

4-cü bəndə əsasən beynəlxalq hüququ əsas götürərək Xəzərin ekologiyasına vurulan ziyana görə sahilyanı dövlətlər məsuliyyət daşıyır.

XVI maddəyə görə Xəzərdə tərəflərin qeyri-Xəzər dövlətləri, fiziki və hüquqi şəxsləri, eləcə də beynəlxalq təşkilatlarla istənilən əməkdaşlığı bu konvensiyanın müddəaları əsas götürülərək reallaşdırılır.

XVII maddə daha çox Xəzərdə cinayətkarlığa qarşı birgə mübarizə aparılmasına həsr olunmuşdur. Konkret olaraq həmin maddədə qeyd olunur ki, bu konvensiyanı imzalayan tərəflər Xəzərdə beynəlxalq terrorçuluq, onların maliyyələşdirilməsi, silah, qanunsuz balıq ovu ilə mübarizə, narkotik maddələr və psixotrop vasitələrin qa-

nunsuz dövriyyəsi, qanuna zidd şəkildə miqrantların gətirilməsi, eləcə də digər cinayətlərə qarşı birgə fəaliyyət göstərir.

XVIII maddəyə görə konvensiyanı imzalayan tərəflərin razılığına əsasən ona əlavə və dəyişikliklərin edilməsi mümkün hesab edilir. Tərəflərin razılığı əsasında bu konvensiyaya edilmiş əlavə və dəyişiklər onun ayrılmaz tərkib hissəsi hesab edilir. Bu konvensiyaya edilmiş əlavə və dəyişikliklərin hüquqi baxımdan qüvvəyə minməsi üçün zəruri hesab olunan dövlətdaxili prosedur qaydaların həyata keçirilməsi haqqında sonuncu – beşinci bildirişin Depozitari tərəfindən qəbul edildiyi tarixdən hüquqi qüvvəyə minən xüsusi protokollarla rəsmiləşdirilir.

XIX maddəyə əsasən sahilyanı dövlətlər konvensiyanın müddəalarını səmərəli formada həyata keçirilməsini təmin etmək, eləcə də Xəzərdə əməkdaşlığı müzakirə etmək məqsədi ilə ildə ən azı bir dəfə olmaqla, növbəli şəkildə hər sahilyanı dövlətdə olmaq şərti ilə Xarici İşlər Nazirliklərinin rəhbərliyi altında yüksəksəviyyəli beştərəfli məsləhətləşmə mexanizmi yaradırdılar.

XX maddədə qeyd olunur ki, bu konvensiyanı imzalayan dövlətlər onların qoşulduqları digər beynəlxalq müqavilələrdən doğan hüquq və öhdəliklərinə təsir göstərmir.

XXI maddənin 1-ci bəndində göstərilir ki, konvensiyanın təfsiri və tətbiqi zananı ortalığa çıxan istənilən mübahisəli məqam, fikir ayrılığı onu imzalayan tərəflər arasında məsləhətləşmələr yolu ilə həllini tapır.

1-ci bəndə uyğun formada konvensiyanın təfsiri və tətbiqi ilə bağlı yaranmış istənilən mübahisəni tərəflər müzakirə və danışıqlar vasitəsi ilə həll edə bilmədikdə tərəflərin seçimi ilə beynəlxalq hüquqa uyğun olaraq mübahisələrin dinc yolla həllinin digər vasitələrlə tənzimlənməsinə təqdim edə bilər.

XXII maddəyə görə konvensiya onu imzalayan sahilyanı dövlətlərin qanunverici orqanları tərəfindən ratifikasiya edilməli idi. Ratifikasiya haqqında müvafiq fərmanları saxlamaq hüququ konvensiyanın qəbul olunduğu məkan olaraq Depozitari funksiyasını həyata keçirən Qazaxıstana verilir. Xəzərin statusu haqqında bu

konvensiya sonuncu – beşinci ratifikasiya haqqında fərmanın Depozitari statusu almış Qazaxıstan tərəfindən alındıqdan sonra qüvvəyə minmiş hesab olunur.

XXIII maddəyə əsasən Depozitari (yəni Qazaxıstan) ona təqdim edilmiş hər ratifikasiya fərmanının saxlanca verilməsi və eyni zamanda konvensiyanın hüquqi baxımdan qüvvəyə minmə tarixi, habelə ona edilmiş əlavə və düzəlişlərin də qüvvəyə minmə tarixi ilə bağlı onu imzalayan sahilyanı dövlətləri məlumatlandırır.

BMT nizamnaməsinin 122-ci maddəsini əsas götürərək Xəzərin hüququ statusu haqqında konvensiya Depozitari (Qazaxıstan) tərəfindən qeydiyyata alınır.

XXIV maddədə konvensiyanın müddətsiz olaraq qəbul edildiyi göstərilir. Həmçinin burada adıçəkilən sənədin 5 sahilyanı dövlətin rəsmi dilində (Azərbaycan, rus, qazax, türkmən və fars) və ingilis dilində bir əsl nüsxədə imzalandığı göstərilir. Sənədlə bağlı tərəflər arasında mübahisə yarandığı təqdirdə ingilis dilində olan varianta müraciət olunacağı qeyd olunur.

Yekun hüquqi konvensiya Xəzərdə qarşılıqlı etimad, dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan yeni beynəlxalq hüquqi nizam formalaşdırmış oldu. Sənədin qəbulu BMT daxilində də yüksək qiymətləndirilmişdir. Təsadüfi deyildir ki, BMT-nin Baş katibi A.Quterreş yekun hüquqi statusun müəyənləşməsini regional əməkdaşlığın və çoxtərəfli münasibətlərin mühüm nailiyyəti olan tarixi sənəd kimi qiymətləndirmişdir.

Hüquqi status ilə bağlı müzakirələrin başlandığı ilkin vaxtdan mübahisə doğuran əsas məsələ-Xəzərin dəniz yoxsa göl olmasına konvensiyanın I maddəsində belə aydınlıq gətirilirdi: Xəzər tərəflərin quru əraziləri ilə əhatələnmiş daxili su hövzəsidir. Bu o anlama gəlir ki, klassik anlamda, hüquqi baxımdan Xəzər nə göl, nə də dənizdir. Bu isə özlüyündə 1982-ci il Beynəlxalq Dəniz Hüquqi Konvensiyasının şərtlərini Xəzərə tətbiqini mümkünsüz edir.

## V.6. II Aşqabad sammiti

VI Xəzər sammitinin 2021-ci ilin payızında Aşqabadda keçirilməsi nəzərdə tulurdu. Amma dünyanı cənginə alan məlum COVİD-19 pandemiyası səbəbi ilə görüşün keçirilməsi bir müddət təxirə salınmış oldu. 2022-ci il iyunun 29-da Türkmənistanın paytaxtı Aşqabadda VI Xəzər sammitinin keçirilməsi sahilyanı dövlətlərlə razılaşdırıldı. Sammitdən öncə Türkmənistanın yeni seçilmiş prezidenti S.Berdiməhəmmədovun ilk rəsmi səfərini Rusiyaya etməsi diqqəti cəlb edir. Həmin səfərdən sonra VI Xəzər sammitinin keçirilmə tarixi dəqiqləşdirldi. Həmin gün digər mühüm bir hadisə Türkmənistanın sabiq Prezidenti, hazırda isə Xalq Şurasının (parlamentin) sədri və Türkmənistanın lideri olan Q.Berdiməhəmmədovun 65 illik yubileyinin qeyd edilməsi idi. Sammitin keçirildiyi dövr Rusiyanın Ukrayna ilə bağlı ABŞ başda olmaqla Qərb dövlətləri ilə münasibətlərinin kəskin pisləşməsi konteksində rəsmi Moskvanın Avrasiyada bütün dialoq platformaları və o cümlədən də "Xəzər beşliyi"ilə əməkdaşlığa can atması ilə əlamətdar hesab edilə bilər. Rusiyaya qarşı nəhəng sanksiyaların tətbiqi gedişində Xəzər platforması rəsmi Moskva üçün bir "nəfəslik" kimi olduqca vacib idi. Xəzər və onun üzərində həyata keçirilən tranzit yük daşımaları həm region həm də aparıcı aktorlar üçün mühüm iqtisadi-siyasi əhəmiyyət daşımaqla yanaşı, Rusiya üçün bu sanksiyalardan müəyyən qədər yayınmaq istiqamətində nəqliyyat logistika baxımından strateji əhəmiyyət kəsb etməyə başlamışdır. Ekspertlər belə mülahizə irəli sürürlər ki, Rusiyanın məqsədlərindən biri də Cənub multimodal marşurutunun yaradılmasıdr. Şərq-Qərb tranzitinin Türkmənbaşı, Ələt və Xəzərdəki Rusiya limanları (Həştərxan, Mahaçqala və Olya) vasitəsi ilə davam etdirilməsi nəzərdə tutulurdu. Əslində bu nəqliyyat oliqopoliyası hesab edilə bilər. Yeri gəlmişkən qeyd edək ki, nəqliyyat oliqopoliyası fikri hələ XX əsrin sonlarında rusiyalı geopolitik Vadim Tsimburski tərəfindən siyasi ədabiyyata gətirilmişdir. Nəqliyyat oliqopoliyasının mahiyyəti ondan ibarətdir ki, bir neçə nəqliyyat marşurutu rəqabət aparmadan, əməkdaşlığa istiqa-

mətləndirilir və hətta birləşir. Daha sadə şəkildə desək, yüklər bir marşurutdan digərinə ötürülür. Belə vəziyyət sanksiyalardan yayınmaq istəyən Rusiyanın işinə yarayırdı. VI Xəzər sammiti daha çox nəqliyyat logistikasının inkişaf etdirilməsi baxımından əlamətdar oldu.

VI Xəzər sammiti yeni prezidentlərin iştirakı baxımından da əlamətdar idi. Sammitə ev sahibliyi edən Türkmənistanın yeni seçilmiş Prezidenti Sərdar Berdiməhəmmədov ilk dəfə idi ki, Xəzər sammitində iştirak edirdi. Bundan əlavə İran İslam Respublikasının Prezidenti İ.Rəisi və Qazaxıstan Respublikasının Prezidenti Q.C.Tokayev də ilk dəfə Xəzərsahili dövlətlərin sammitində iştirak edirdilər.

Sammitin gündəliyinə sahilyanı dövlətlər arasında əməkdaşlıq, qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər daxil edilmişdir. Sammiti giriş sözü ilə açan Türkmənistan Prezidenti S.Berdiməhəmmədov sahilyanı dövlət başçılarının bu vaxta qədər keçirdiyi beş zirvə toplantısına qısa nəzər salaraq, məhz bu formatın Türkmənistan tərəfindən irəli sürüldüyü və ilk belə görüşün də məhz Aşqbadda keçirldiyini qeyd etdi. Daha sonra S.Berdiməhəmmədov sahilyanı dövlətlər arasında əməkdaşlığı daha da gücləndirmək və hələ də açıq qalan məsələlərin həlli üçün Xarici İşlər Nazirliklərinin nəzarəti altında müntəzəm olaraq danışıqların davam etdirilməsinin zəruriliyini bildirdi. Sahəvi sazişlərin hazırlanması üçün Xarici İşlər Nazirliklərinin müvafiq nümayəndələrinin səlahiyyətlərinin artırılmasının da ümumi işin xeyrinə olması S.Berdiməhəmmədov tərəfindən təkilf edildi. Xəzərdə narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, fövqəladə hallara qarşı birgə mübarizə və gəmiçiliyin inkişafı sahəsində sənədlər üzərində işlərin aparılması Türkmənistan Prezidenti tərəfindən səsləndirildi.

Yuxarıda qeyd olunan məsələlərlə yanaşı, hesab edirik ki, VI Xəzər sammitinin əsas mövzusu iqtisadi – xüsusən dən nəqliyyatın inkişafını əngəlləyən maneələrin aradan qaldırılması idi. Rusiya-Ukrayna münaqişəsi ilə əlaqədar rəsmi Moskva üçün şimal-cənub, şərq-qərb tranzit axınlarında birləşdirici qovşaq kimi Xəzərin əhəmiyyəti xeyli artmışdır. Təbii ki, Xəzər tək Rusiya üçün deyil, bütün sahilyanı dövlətlər üçün mühüm nəqliyyat qovşağı hesab edilir.

Sahilyanı dövlətlərin biznes nümayəndələrinin maneəsiz və birbaşa əlaqələr qurması üçün İşgüzar Əməkdaşlıq Şurasının yaradılması və ekoloji problemləri daim diqqət mərkəzində saxlamaq məqsədilə Yeni Xəzər Ekoloji Proqramının yaradılması da ev sahibi dövlət tərəfindən səsləndirildi.

Sammitdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev bu vaxta qədər keçirilən Xəzər sammitlərini və bu çərçivədə imzalanmış sənədlərin əhəmiyyətini qeyd edərək, sahilyanı dövlətlər arasında başlıca prioritetin iqtisadi inkişaf üçün əlverişli şərait yaratmaq və investisiya mühitinin yaxşılaşdırılması təşkil etdiyini bildirdi. Yuxarıda qeyd etdiyimiz kimi VI Xəzər sammitində daha çox nəqliyyat-tranzit daşımalar və bu istiqamətdə mövcud problemlərin aradan qaldırılması yolları müzakirə edildi ki, bu aspektdə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev də Xəzərin multimodal daşımalar perespektivinə diqqəti yönəldələrək Xəzərin beynəlxalq logistika mərkəzinə çevirilməsi üçün sahilyanı dövlətlərin yaxşı infrasturuktura malik olduğunu vurğuladı. Daha modern və böyük yükötürmə qabiliyyətinə malik yeni dəniz limanının tikilməsi, Ələt Azad İqtisadi Zonasının yaradılması, Bakı-Tbilsi-Qars dəmir yolunun çəkilməsi, eyni zamanda şimal-cənub istiqamətində Astara-Astara dəmir yolu şəbəkəsinin qurulması Xəzərin, xüsusən də Azərbaycanın bir tranzit ölkəyə çevirilməsinə böyük imkanlar açmış olurdu. Xəzərin ekoloji problemləri digər sahilyanı dövlətlər kimi Azərbaycanı da dərindən narahat edən bir məsələ kimi VI Xəzər sammitində dayazlaşma və bunu doğuran səbəblərin araşdırılması üçün elmi tədqiqatların genişləndirilməsi zərurəti Prezident İ.Əliyev tərəfindən səsləndirildi.

İrana tətbiq edilən məlum sanksiyalar fonunda karbohidrogen ehtiyatları ilə daha zəngin İran körfəzi regionun resursları işlənməmiş qaldığı halda, rəsmi Tehranın Xəzərdə böyük ehtiyatlara malik yataqlarının hələ ki aşkar edilməməsi sözügedən su hövzəsi İran üçün daha çox təhlükəsizlik baxımından önəm kəsb edirdi. Aşqabad sammitində İran İslam Respublikasının Prezidenti İ.Rəisinin də "Xəzərə digər dövlətlərin hərbi qüvvələri hansısa bir formada daxil

olmamalıdır" fikri bu aspektdə qiymətləndirilə bilər. Yuxarıda da qeyd etdiyimiz kimi siyasi arenada kəskin münasibətləri olan Qərb ölkələrinə məxsus şirkətlərin Xəzərə böyük həcmli sərmayələr qoyması İran tərəfindən xoş qarşılanmır və "burnunun ucunda"qərb dövlətlərini görmək istəmirdi. Başda ABŞ olmaqla Xəzərə böyük həcmli sərmayələr qoyan qərb dövlətləri həmin investisiyaları qorumaq üçün Xəzərdə hərbi mövcudluğunu hiss etdirmək istəyirdi. İran və Rusiya bu məsələdə tam olaraq eyni mövqedən çıxış edərək, bunun yolverilməz olduğunu bildirirdi. İ.Rəisi Xəzər sahilində beş dövlətin tərkibində 270 milyon insanın institusionallaşma və birgə sosial-mədəni proqramlar vasitəsilə tarixə söykənən mədəni yaxınlaşmasının gücləndirilməsinin vacibliyini bildirdi.

Xəzərin ekologiyasını daim diqqət mərkəzində saxlamaq, bioresurs və mineral ehtiyatlardan məsuliyyətli, sahilyanı dövlətlərin bir-birinin suverenliyinə hörmət şəkilində istifadəsi İran rəsmisinin çıxışında yer almışdır. İran tərəfi Xəzər vasitəsi ilə daşınan yüklərin İran və Oman körfəzlərinə daha ucuz və qısa zaman kəsiyində çatdırılmasında İranın imkanları və maraqlarını da şərh etdi.

Sammitin sonunda sahilyanı dövlət başçıları birgə kommünike qəbul etdilər. Kommunikedə göstərilirdi ki, sahilyanı dövlət başçıları səmimi və etibarlı bir mühitdə Xəzərin və eyni zamanda regionun ən aktual məsələlərini müzakirə etmişdir. Sahilyanı dövlət başçıları indiyə qədər keçirilmiş Aşqabad, Tehran, Bakı, Həştərxan və Aktau sammitlərinin əhəmiyyətini, eləcə də burada qəbul edilmiş qərarların həyata keçirilməsinin zəruriliyini bir daha qeyd etdilər. Dövlət başçıları Xəzərin yeni dünya düzənində artan əhəmiyyətini nəzərə almaqla, beynəlxalq hüquq normalarına söykənərək regonal təhlükəsizliyin davamlı olaraq qorunmasına hazır olduqlarını bir daha təsdiq etmiş oldular. Eyni zamanda sözügedən dövlətlər ekoloji təhlükəsizliyin qorunması, qarşılıqlı iqtisadi əməkdaşlığın gücləndirilməsi və mədəni humanitar sahədə əməkdaşlığı daha da artırmaq haqqında razılıq əldə etdiklərini bildirdilər. Xəzərsahili dövlət başçıları suverenliyə, ərazi bütövlüyünə, güc tətbiq etməməyə qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanan fəaliyyət göstərəcəklərini qeyd et-

dilər. Kommunikedə bir daha göstərilirdi ki, Xəzərdən yalnız dinc məqsədlər üçün istifadə oluna bilər. Xəzərdə yaranmış istənilən problem yalnız sülh yolu ilə həll oluna bilər. Xəzərdə silahlanma prosesi bütün sahilyanı dövlətlərin təhlükəsizliyini nəzərə almaqla və balansın təmin edilməsi yolu ilə həyata keçirilə bilər. Həmçinin digər dövlətlərin silahlı birləşmələrinin Xəzərə daxil olması qadağan edilirdi. Sahilyanı dövlətlərdən birinin ərazisindən digərlərinə qarşı hücüm və təcavüz edilə bilməzdi.

Qazaxıstan Prezidenti Q.Tokayev COVİD-19 pandemiyası və geosiyasi gərginliyin artması fonunda Xəzər regionunda sabitliyin qorunub saxlanması üçün daha dərindən əməkdaşlıq etməyi vacib hesab etdiyini söylədi. Q.Tokayev həmçinin 2018-ci ildə Xəzərin hüquqi statusunun müəyyənləşdiyi Aktau sammitinin əhəmiyyətindən danışdı. Qazaxıstan tərəfi Xəzərin yekun huquqi statusunun müəyyənləşdirən konvensiyanın tam olaraq qüvvəyə minməməsini narahatedici hal kimi qiymətləndirdi. Çin, Mərkəzi Asiya və Avropa arasında artan ticarət dövriyyəsində Xəzər regionunun tranzit əhəmiyyətinin artması da rəsmi Astana tərəfindən səsləndirildi. Qazaxıstan lideri konkret rəqəmlərlə Xəzərin artan ticarət dövriyyəsində payının artdığını göstərdi. Belə ki, 2022-ci ilin ilk 5 ayının statistik göstəricilərinə görə yuxarıda qeyd olunan marşrut üzrə daşınan yüklərin həcmi 2,5 dəfə, sahilyanı ölkələrlə ümumi ticarət dövriyyəsi keçən ilin eyni vaxtı ilə müqayisədə 9% artmışdır. Yükdaşımaların artımı fonunda sahilyanı dövlətlərin hər birinin Xəzərdəki limanlarını modernləşdirməli və təşkilati problemləri operativ şəkildə həll etməli olduğunu da Q.Tokayev səsləndirmiş oldu. Xəzərin tək şərq-qərb ticarətində deyil, eyni zamanda şimal-cənub nəqliyyat dəhlizində də tranzit imkanlarının böyük olması və bu istiqamətdə Şərqi Asiya dövlətləri ilə İran körfəzi arasında Qazaxıstan-Türkmənistan-İran dəmir yolunun ən qısa və iqtisadi baxımdan sərfəli olması rəsmi Astana tərəfindən sammit iştirakçılarının diqqətinə çatdırıldı. Q.Tokayev Qazaxıstanın Xəzərsahili dövlətlərlə ticarət dövriyyəsinə nəzər salaraq, ötən illər ilə müqayisədə xeyli artım olduğunu bildirdi. Konkret olaraq Qazaxıstan və Azərbaycan arasındakı ticarət

dövriyyəsinin 2,3 dəfə, İran və Türkmənistanla isə 2 dəfə artdığına diqqəti yönəldərək ixrac məhsulları içərisində buğda və buğda məhsullarının üstünlük təşkil etdiyini Qazaxıstan rəsmiləri qeyd etdi. Bundan əlavə digər kənd təsərrüfatı məhsullarının-xüsusilə ət və süd məhsullarının ixracının artırılması üçün böyük potensialın olduğu qabardılaraq, Xəzəryanı dövlətlər arasında ticarət əlaqələrini inkişaf etdirmək üçün nəqliyyat-logistika infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsinə ehtiyacın böyük olması vurğulandı. Qazaxıstan rəsmiləri bütün bunların konteksində Xəzərdə ərzaq qovşağının yaradılmasını günün tələbi hesab edirdilər. Qazaxıstan ərazisində kənd təsərrüfatı məhsullarının saxlanması və satışını həyata keçirmək üçün yeni infrastruktur qurulmaqdadır ki, bu qovşaqların gələcəkdə Xəzər ərzaq qovşağına inteqrasiyası sahilyanı dövlətlər arasında faydalı əməkdaşlıq üçün yeni imkanlar yaratmış olacaqdır.

Xəzərin ekoloji vəziyyəti də Qazaxıstan Prezidentinin diqqətindən kənarda qalmadı. Son zamanlar dünyada baş verən iqlim dəyişiklikləri, su ehtiyatlarının kəskin azalması Xəzərə də mənfi təsirini göstərməkdədir. Q.Tokayev uzunluğuna görə Avropanın üçüncü çayı hesab edilən Uralda kritik vəziyyətin yaranmasını acı bir nümunə kimi göstərdi. Yeri gəlmişkən qeyd edək ki, Xəzərin su səviyyəsi bir-neçə ildir ki, enməkdə davam edir və bu daha çox Rusiya və Qazaxıstan sahillərində problemlər yaratmaqdadır. Belə ki, su səviyyəsinin hədsiz enməsi gəmilərin limanlara daxil olmasına mane olur.

Qazaxıstan Prezidenti Q.Tokayev Rusiya Federasiyasının Prezidenti V.Putinin sahilanı dövlətlərin Xarici İşlər Nazirlikləri Şurasının ildə azı bir dəfə iclasının keçirilməsi təşəbbüsünü dəstəklədi.

Aşqabad sammitində Xəzəryanı dövlətlərlə iqtisadi, siyasi, humanitar, mədəni və digər sahələrdə əməkdaşlığı dərinləşdirməkdə daha çox maraqlı görünən tərəf Rusiya idi ki, bunu da doğuran səbəb Ukrayna müharibəsi ilə əlaqədar rəsmi Moskvaya tətbiq edilmiş sanksiyalar hesab olunmalıdır. Aşqabad sammitində çıxış edən Rusiya Prezidenti V.Putinin çıxışında da bu açıq-aydın görünürdü. V.Putin Rusiyanın Xəzərsahili dövlətlər ilə ticarət dövriyyəsinə diq-

qəti yönəldərək qeyd edib ki, 2021-ci ildə bu göstərici əvvəlki illə müqayisədə 35 faiz artaraq, 34 milyard dollar həcmində olmuşdur ki, bu da çox yaxşı haldır. V.Putin sahilyanı dövlətlər arasında ticarət əlaqələrinin artımında Xəzər İqtisadi Forumunun rolunu yüksək qiymətlənidirdi. Yeri gəlmişkən xatırladaq ki, Xəzr İqtisadi Forumunun keçirilməsi Türkmənistanın təşəbbüsü ilə olmuşdur və ilk belə tədbir 2019-cu ildə Türkmənbaşıda keçirilmişdir.

Aşqabad sammitində nəqliyyat-logistika infrastrukturunun genişləndirilməsinin müzakirəsinə geniş yer verilmişdir və bu baxımdan V.Putinin də çıxışında sözügedən məsələ xüsusi yer tumuşdur. Rusiya lideri regionun nəqliyyat arxitekturasında Peterburqdan Hindistana qədər uzanacaq 7200 kilometr uzunluğunda "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin əhəmiyyətindən danışdı. Adıçəkilən nəqliyyat dəhlizi kontektsində Qazaxıstan və Azərbaycanda əsaslı infrastruktur işlərinin aparılması V.Putin tərəfindən təqdirəlayiq hesab edildi. 2030-cu ilə qədər Rusiyanın Xəzər hövzəsi limanlarının inkişaf strategiyasının qəbul olunması və bu limanların avtomobil və dəmir yolları ilə daha sıx birləşdirlməsi istiqamətində ciddi işlərin aparıldığı sammit iştirakçlarının nəzərinə çatdırıldı. Xatırlatmaq yerinə düşər ki, Rusiyanın Xəzərdə 3 mühüm limanı vardır ki, bunlar da Həştərxan, Mahaçqala və Olya limanlarıdır. Xəzərin ekologiyasının qorunması sahəsində görülən işlərdən danışarkən-balıq növlərinin qorunması və inkişafı üçün inkubasiya zavodlarından hər il 40 milyona qədər nərə balığının bu su akvatoriyasına buraxıldığı qeyd edildi.

Xəzərin kövrək ekosisteminin qorunması üçün hüquqi bazanın formalaşdırılması prosesinin başa çatdırılması zərurəti yaranmışdır. Bu konteksdə V.Putin Xəzərin dəniz mühitinin mühafizəsini gücləndirmək məqsədilə "Çərçivə Konvensiyası"nın yaradılmasını təklif etdi. İqtisadi, siyasi, hərbi və digər mühüm sahələrə tətbiq edilən sanksiyalar mənganəsində sıxılan Rusiya VI Xəzər sammitində daha çox əməkdaşlığın demək olar ki, bütün sahələrinin genişlənməsi üçün təşəbbüslər göstərirdi. Məsələn, sahilyanı dövlətlər arasında kino forumunun keçirilməsi, regional turizmin inkişafı, mədəniyyət sahəsində pilot layihə kimi xalçaçılıqla bağlı səyyar sərgilə-

rin keçirilməsi və s. Rusiya Prezidentinin Həştərxan vilayətindən növbəti ildən – 2023-cü ildən başlayaraq “I Pyotr” adına səyahət gəmisi ilə Xəzərə tematik səyahətlərin başlanacağı və bu səyahətin sahilyanı dövlətlərin tarixi, mədəni irsi ilə yaxından tanış olmaqla bərabər, turizmin inkişafı və maarifləndiricilik baxımından da əhəmiyyətli olacağına ümid etdiyini bildirdi.




*Şəkil 35. VI Xəzər sammiti – Aşqabad şəhəri*

Beləliklə VI Xəzər sammitində sahilyanın dövlət başçıları qarşıdakı illərdə liman infrastrukturunun genişləndirilməsi, logistik kommunikasiya zəncirinin yaradılması işlərinə daha çox üstünlük verilməsinə razılıqlarını bildirdilər.

Aşqabad sammitində daha çox diqqət yetirilən məsələlərdən biri ticarət əlaqələrinin genişləndirilməsi oldu. Əslində nəqliyyat-kommunikasiyaların, liman infrastrukturunun genişləndirilməsi zərurəti də, heç şübhəsiz ticarətin genişləndirilməsi üçün baza formalaşdırmalı idi.

Dünyada gedən iqlim dəyişiklikləri və bunun Xəzərə təsirləri, onun nadir bioresurslarının mühafizəsi və digər bu qəbildən olan məsələlər də sözügedən sammitdə tərəflər arasında geniş müzakirə olundu. Düzdür, bu sahələrdə artıq əməkdaşlıq mexanizmləri mövcud idi, növbəti illərdə onların daha koordinasiyalı şəkildə həyata keçirilməsi razılaşdırıldı.

VI Xəzər sammitinin yekunu olaraq sahilyanı dövlətlər kommunike qəbul etdilər. Kommunikedə sahilyanı dövlət başçılarının bu vaxta qədər keçirilmiş zirvə toplantılarında qəbul edilmiş qərarlara hörmətlə yanaşılmalı olduğunu, 12 avqust 2018-ci ildə Aktauda Xəzərin yekun hüquqi statusunun qəbulu və ondan doğan təhəddüdlərin yerinə yetirilməsinin vacibliyi vurğulanırdı.

Qəbul edilmiş sənədin mətnində aydın şəkildə göstərilirdi ki, sahilyanı dövlətlər bir-birinin ərazi bütövlüyünə, suverenliyinə hörmət edərək, qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq, güc tətbiq etməmək öhdəliyini götürür. Xəzərdən yalnız dic məqsədlər üçün istifadə edilə bilər. Qarşıya çıxan bütün problemlər yalnız sülh yolu həll edilə bilər.

Maraqlıdır ki, Rusiya Ukrayna ilə apardığı müharibədə vaxtaşırı Xəzərdəki donanmasından istifadə etməklə raket qurğuları vasitəsi ilə Ukrayna ərazisinə zərbələr endirir və təəssüf ki, bu proses davam edir. Bu, həm 2018-ci ildə imzalanmış yekun hüquqi statusun, həm də bu vaxta qədər qəbul edilmiş digər sənədlərin Rusiya tərəfindən kobud şəkildə pozulması deməkdir.

Kommunikedə həmçinin göstərilirdi: Xəzərdə silahlanma prosesi sahilyanı dövlətlərin maraqları və təhlükəsizlikləri nəzərə alınmaqla, balans gözlənilməklə həyata keçirilə bilər. Qeyd edək ki. bu müddəalar əvvəlki sənədlərdə də (Tehran, Bakı, Həştərxan və Aktau sammitlərinin yekun sənədlərindədə) öz əksini tapmışdır. Digər dövlətlərin hərbi birləşmələrinin Xəzərdə yerləşdirilməsi də qadağan olunurdu. Sahilyanı dövlətlərin hər hansı birinin ərazisi digər sahilyanı dövlətə hərbi müdaxilə üçün istifadə edilə bilməzdi. Xəzərdən digər dənizlərə sərbəst çıxış hüququ tanınırdı. Xəzərin ekosisteminin çirklənməsinə görə buna yol verən dövlətin məsuliyyəti nəzərdə tutulurdu. Xəzər üzərində hava məkanından Beynəlxalq Mülki Aviasiya Təşkilatının müəyyən etdiyi qaydalar çərçivəsində mülki təyyarələrin uçuş azadlığı təmin edilirdi.

Sahilyanı dövlət rəsmilərinin Xəzər ilə bağlı apardığı son danışıqları içərisində ən mühüm vəzifələrdən biri Xəzərdə birbaşa əsas xətlərin yaradılmasının metodologiyası haqqında sazişin şərtlərinin razılaşdırılması hesab olunur.

VI Xəzər sammitində tərəflər COVİD-19 pandemiyasının hələ tam bitmədiyi bir dönəmə təsadüf etdiyindən, müzakirə olunan məsələlər iərisində sanitar-epidemoloji xarakterli fövqəladə hadisələrin və eləcə də yoluxucu xəstəliklərin qarşısının alınması istiqamətində imkanlardan koordinasiyalı şəkildə birgə istifadə edilməsi zəruriliyini bildirdilər.

Sammitin gedişində 2019-cu il 11-12 avqust tarixlərində Türkmənbaşı şəhərində keçirilən sahilyanı dövlətlərin I İqtisadu Forumunun əhəmiyyətini nəzərə olaraq, növbəti belə bir tədbirin 2023-cü ildə Moskvada keçirilməsi razılaşdırıldı.

Yeri gəlmişkən qeyd edək ki, sammitlərarası dönəmdə sahilyanı dövlətlərin Xarici İşlər Nazirlikləri çərçivəsində qarşılıqlı olaraq problemlərin müzakirələri aparılır, əməkdaşlığın daha da dərinləşdirilməsinin birgə yolları axtarılır və növbəti sammitin gündəliyi hazırlanır. Növbəti Xəzər sammitinin İranda keçirilməsi qərarlaşdırılıb.



***Şəkil 36. VI Xəzər sammiti Aşqabad, 29 iyun 2022-ci il***


ПРОЕКТЫ
соединения
ВОЛГИ с ДОНОМ
Москва
Тула
Орел
Курск
Воронеж
Белгород
Тамбов
Ртищево
Балашов
Саратов
Сызрань
Куйбышев
Ершов
Урал
Медведица
Камышин
Калач
к. солима
Петра Великого
оз. Эльтон
оз. Баскунчак
Волга
Старобельск
Рубежное
Миллерово
Таганрог
Ростов
Краснодар
Новороссийск
Ворошиловск
Грозный






***Şəkil 37. İlovlya və Kamışinka arasındakı kanalın sxemi. Kruys Atlasından bir səhifə***


КАРТА
ВОДНОЙ МАГИСТРАЛИ
ВОЛГА - ДОН - АЗОВСКОЕ МОРЕ
С ПОКАЗАНИЕМ СУЩЕСТВУЮЩИХ И
ПРОЕКТИРУЕМЫХ СООРУЖЕНИЙ
СТАЛИНГРАД


Карта Волго-Донского судоходного канала
и сети оросительных каналов
в Ростовской области и южных районах
Сталинградской области
Клетская
Сталинград
Калач
Дон
Чернышковский
Морозовск
Шахты
Цимлянская
Новочеркасск
Ростов
Заветное
Пролетарская
Сальск
Ремонтное
УСЛОВНЫЕ ОБОЗНАЧЕНИЯ
КАНАЛЫ
ВОДОХРАНИЛИЩА
ПЛОТИНЫ
ГИДРОЭЛЕКТРОСТАНЦИИ
ПЛОЩАДИ ОРОШЕНИЯ И ОБВОДНЕНИЯ
ЛЕСНЫЕ НАСАЖДЕНИЯ ВДОЛЬ КАНАЛОВ НА МАССИВАХ ПЕСКОВ И ГОСУДАРСТВЕННЫЕ ЛЕСНЫЕ ПОЛОСЫ
ЖЕЛЕЗНЫЕ ДОРОГИ







Рис. 9. Схема „Донского моря"



***Rəssam V.Q.Lenn. Portal kranının quraşdırlması***



***Şəkil 38. Çimlyansk bəndinin tikintisi zamanı***
***Rəssamlar qrupu tərəfindən rəsm:*** *Y.E.Quslisty, S.A.Suxorukov, A.M.Çernışev, N.M.Zamkovoy, İ.İ.Sokolov, F.İ.Baranov*




***Volqa-Don kanalının tikinti-layihə işləri ilə bağlı arxiv materialları***

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI


***Azərbaycan dilində***

1. Aslanlı A.A. Geosiyasi Rəqabət və Geoiqtisadi Maraqlar Zəminində Xəzər Hövzəsinin "Qordi Düyünü" Xəzərin statusu və Transxəzər əməkdaşlığı kontekstində İran-Azərbaycan münasibətləri Konrad-Adenauer-Stiftung e.V. 2014, 14 s.
2. Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi (2003-2008). AR XİN. Bakı. 2003, 1 hissə, "GARISMA MMC", 670 s.
3. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında" sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. Azərbaycan Respublikasının qanunvericilik toplusu. İNbS (59), 31 may 2002-ci il, I kitab, Bakı, 2002, 436 s.
4. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında sazişə əlavə protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. Azərbaycan Respublikasının qanunvericilik toplusu. X9İ2 (78) (iki kitabda), 31 dekabr 2003-cü il. I kitab, Bakı, 2003, 424 s.
5. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. 13 may 2003-cü il. – Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. Sənədlər məcmuəsi (2003-2008). AR XİN. Bakı. 2003, 1I hissə, "GARISMA MMC", 656 s.
6. Azərbaycan-İran əməkdaşlığı: əsas istiqamətlər və imkanlar. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Bakı, 2018, 204 s.
7. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Qanun", 2017, 67 s.
8. "Azərbaycan" qəzeti, 7 yanvar 1998-ci il.
9. "Azərbaycan" qəzeti, 25 sentyabr 2002-ci il.
10. "Azərbaycan" qəzeti, 6 mart 2008-ci il.
11. "Azərbaycan" qəzeti, 21 may 2008-ci il.
12. "Azərbaycan" qəzeti, 13 avqust 2018-ci il.
13. "Azərbaycan" qəzeti, 14 avqust 2018-ci il.
14. Babaoğlu H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər). Bakı, "Elm" nəşriyyatı, 2007, 515 s.
15. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, "Aypara-3" nəşriyyatı". 2009, 328 s.
16. Bağırov E. M. Xəzər regionunda Azərbaycanın milli maraqlarının prioritet istiqamətləri. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2008, 156 s.

17. Bayramzadə Y.K. Yanacaq-enerji resurslarının coğrafi bölgüsü və dünya iqtisadiyyatının inkişafındakı rolu. "Vergi xəbərləri". – 2011, №12, s. 97-112 Elektron resurs: https://www.elibrary.az/docs/jurnal/jrn2011_856.pdf
18. "Bizim yol" qəzeti 13 avqust 2018-ci il
19. Əliyev I. H. Azərbaycan nefti dünya siyasətində (dördüncü kitab). Bakı, "Azərbaycan", 1997, 478 s.
20. Əliyev A.A. İran İslam Respublikasının digər Xəzəryanı ölkələrlə əməkdaşlığı. Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2010, 161 s.
21. Əliyev A. Sahilyanı dövlətlərin Xəzər siyasəti. //Tarix və onun problemləri jurnalı, Bakı, № 1-2, 2009, s.191-201
22. Əliyev.Ş.C. Xəzər dənizi tarixi xəritələrdə. Bakı, "Elm", 1973, 128 s.
23. Əsədov N.C. Azəraycan-İran münasibətlərində Xəzər problemi. //Tarix və onun problemləri. № 3, 2013, s.183-187
24. Əzimli.D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı-XVII əsrin I yarısı) Bakı, "Təhsil", 2012, 282 s
25. Hacızadə E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı, "Elm", 2002, 472 s.
26. Hacızadə E.M, Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Bakı, "Elm", 2003, 512 s.
27. Hacızadə E.M, Paşayev T.Ə. Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri. Bakı, "Elm", 2000, 200 s.
28. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2016, 296 s.
29. Həsənov Ə.M. Hüquqi statusu məsələsi və Azərbaycanın geoiqtisadi maraqları. Xəzərin hüququ statusu probleminin tarixi.//525-ci qəzet. 14 noyabr 2010- cu il, s.8-13
30. Həsənov S.S. Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı. "Elm", 2002. 170 s.
31. Hüseyn B.V. ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2013, 158 s.
32. Hümbətov M. Azərbaycan ilə İran arasında nəqliyyat və tranzit sahəsində əməkdaşlıq. Azərbaycan-İran əməkdaşlığı: əsas istiqamətlər və imkanlar. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2018, «COSTCO COMPANY» MMC, 204 s, s. 54-65
33. Xəlilov Q. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ekoloji təhlükəsizliyinin beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri. Bakı, "Elm və Təhsil", 2009, 392 s.
34. İbrahimov M. N. Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi: XX əsrin sonu-XXI əsrin əvvəlləri. Bakı, "Turxan", 2020, 224 s.

35. Kovalyov A.A. Müasir beynəlxalq dəniz hüququ və onun tətbiqi praktikası. (tərcümə edənlər: Rüstəm Məmmədov, Etibar Əliyev, Anar Məhərrəmov) Bakı, "Səda" nəşriyyatı, 2006, 336 s.
36. Qarayev E.T. Azərbaycan XVIII əsr Rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, "ADPU-nun mətbəəsi", 2005, 159 s.
37. Qasımlı M.C. Azərbaycan Respublikasının diplomatiya tarixi (1991-2003) 2 hissədə, I hissə, Bakı, "Mütərcim", 2015, 648 s.
38. Qonaqov R.R. Xəzər hövzəsi və enerji təhlükəsizliyi. Bakı. "Elm", 2018, 199s.
39. Məmmədov N.E. Müasir Türkiyənin neft problemi. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı, 2006, 146 s.
40. Məmmədov R.X. Xəzər dənizinin geosiyasəti: 1995-1999-cu illərdə Siyasət, diplomatiya və hüququn qarşılıqlı əlaqəsi. // "Geostrategiya", 2012 №2(08) s.32-35
41. Məhəmmədi M. İran İslam Respublikasına Dair Rüblük Hesabat. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Yanvar-Mart 2013, Elektron resurs:http://sam.az/uploads/gallery/ 20.04/ Iran%20Islam%20Respublikasi%20Yanvar-Mart.pdf
42. Məmmədəliyev A.V. Azərbaycan qlobal neft təhcizatı sistemində. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bskı, 2010, 171 s.
43. Məsimov A.X. "BP-Azərbaycan" Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti. Bakı, "Elm və Təhsil", 2018, 256 s.
44. Mirzəyev A.B, Şıxəliyev F.B. Abşeron yarımadası və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft mədən ərazilərinin ekoloji problemləri və onların aradan qaldırılması yolları. Bakı, "Elm", 2012, 368 s.
45. Nəsibov E. M. ABŞ və Türkiyənin Cənubi Qafqaz da maraqları və Azərbaycan Respublikası. Siyasi elmlər üzrə elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. ADİA, 2009, 263 s.
46. Nəsirov E.Q. Azərbaycan nefti və beynəlxalq müqavilələr. 1991-1999-cu illər". Bakı, "Qanun" , 1999, 104 s.
47. Nəsirov E.Q. Azərbaycan-ABŞ münasibətləri 1991-1997-ci illər. Bakı, "Qanun"nəşriyyatı, 1998, 136 s.
48. Nəsirov E.Q. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003, 262 s.
49. Paşayev N.Ə. Təbii və texnogen fəlakətlərin Azərbaycanın neft-qaz sənayesinin ərazi təşkilinə təsiri. // "Coğrafiya və təbii resurslar" , 2015, №2, s. 66-70
50. "Respublika" qəzeti, 25 sentyabr 2002-ci il.
51. "Respublika" qəzeti, 15 may 2003-cü il.
52. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XIX əsrin 90-cı illəri). Bakı, "Adiloğlu", 2005, 236 s.

53. Rzayeva G. Sanksiyalardan sonra enerji sahəsində Azərbaycan-İran əməkdaşlığı. Azərbaycan-İran əməkdaşlığı: əsas istiqamətlər və imkanlar. Bakı: 2018, «COSTCO COMPANY» MMC, 204 səh, s. 65-81
54. Rzayeva G. The Outlook for Azerbaijani Gas Exports to Europe. Oxford Institute for Energy Studies, Oxford, 2014. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri 1991-2016-cı illər. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Bakı, 2017, 899 s.
55. Səfərov H.İ. Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətləri və xarakterik xüsusiyyətləri. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissrtasiya . Bakı, "Elm", 2010, 164 s
56. Süleymanov Ə.M. Xəzərin milli sektorlara bölünmə prinsipində regional təhlükəsizlik problemi. Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2012, 154 s
57. Vəliyev S. Xəzər haqqında deyirlər. "Elm və Həyat" jurnalı, 1977. №3 s. 30-36

*Türk dilində*

58. Aidarbek. A. Soğuk Savaş Sonrası Hazar'ın Statusu ve Sınırlandırma Sorunu: Kıyıdaş devletlerin yaklaşımları acısından analizi. Karadeniz Araştırmaları. Yaz 2015, sayı 46, s.23-48. Elektron resurs: https:// dergipark.org.tr/en/ download/ article-file/1851498
59. Alperen Ü. "Bir Kuşak Bir Yol" girişimi ve Çin'in Orta Asya politikası. Bilg Strateji, Cilt 10, Sayı 19, 2018, s.17-38
60. Aslıhan P.T. "Hazar Havzası'nda Enerji Diplomasisi", Bilge Strateji, Cild:2, Sayı:2, 2010, s. 38-46
61. Atagenç Ö. Çin ve Hindistan'ın Deniz Stratejisi ve Hint Okyanusu'nda Güç Mücadelesi. Bilge Strateji, Cilt 4, Sayı 6, Bahar 2012, s 135-166
62. Aydın A. Küresel mücadele politikaları: Orta Asya'da Rusya, ABD ve Çin. //Süleyman Demirel Universitesi Vizyoner Dergisi. Yıl, 2015, Cilt:6, Sayı: 13. s. 1-11
63. Burian O. Türk-İngilis münasibetinin ilk yılları // Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, cilt IX, sayı: 1-2. Ankara, "Türk Tarih Kurumu basımevi", Mart-Haziran 1951, s.1-17
64. Cesare P. R. Hazar: Hukuki bir bulanıklık, uyuşmazlıkların kaynağı. EÜHFD, yıl 2010, cilt XIV, sayı 3-4, s. 271-289. Çeviren Yasin Poyraz
65. Croissant C.M, Croissant M.P. Hazar denizi statüsü sorunu: İçerigi ve Yansımaları., Avrasiya Etkileri Dergisi (1996-1997) №3(4), s.23-49
66. Çinar B. Tarihte üçüncü güc ve Orta Asya enerji savaşları. Güvenlik Stratejileri Dergisi, cilt 4, sayı 8, 2008, s. 21-45
67. Çamyamaç A. İtaliyanın boğazları. İnönü Üniversitesi Hukuk Fakültesi Dergisi. "İnÜHFD", cilt:8 Sayı:1, Yıl 2017, s.53-90

68. Çolakoğlu S. Uluslarası hukukta Hazarın statüsü sorunu. DergiPark, Yıl 1998, Cilt: 53 Sayı 1, s. 107-122
69. Duran H, Purevsuren N. Güvenlik, enerji ve pazar ekseninde Çinin Orta Asya politikası. Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi /Afro-Avrasya Özel Sayısı-Aralık 2016, s. 281-294
70. Demircilu M. "Nigah-ı İrani be Seyr-i Tahavvulat-ı Rejim-i Hukuki-i Derya-yı Hazer", Muta'вlat-ı Avrasya-yı Merkezo ,Sal 1, Şomare 1, Zemistan-Behar, 1386-1387, s.21-46
71. Efegil E. Orta Asya Bölgesinin Jeostratejik, askeri, siyasi, iktisadi ve doğal kaynaklar açısından önemi. "Yakın Dönem Güç Mücadeleleri Işığında Orta Asya " dergisi, İstanbul, "Gündoğan yayınları" 2004, s. 54-62
72. Efegil E. Vashinqtonun Hazar havzası politikası ve Türkiye. Avrasya Dosyası, yıl 2000, 6 (2), s. 187-190
73. Efegil E. Avrupa Birliginin Orta Asya politikasının analizi: proje bazlı yaklaşımdan stratejik işbirligi anlayışına geçiş. Akdeniz İBF Dergisi, 2008, 8 (16), s. 65-82
74. Gökçe M. Soğuk savaş öncesinden günümüze İranın Hazar denizi siyaseti. Tarihin Peşinde-Uluslararası Tarih ve Sosyal Araştırmaları Dergisi. Yıl: 2011, Sayı: 6, s. 153-176
75. Ismayılov E, Budaq T. Bağımsızlıq sonrası Kazakıstanın enerji Politikası. BİLGESAM Analiz/ Enerji No:1189, 13 şubat 2015, s.1-8
76. İşcan İ.H. Uluslararsı Enerji Güvenligi Acısından Hazar Bölgesi Enerji Ekonomisi ve Hazar Denizinin Paylaşım Sorunu. Sosyo Ekonomi Özel sayı, 2010-EN, s.64-92. Elektron resurs: https:// dergipark.org.tr/en/ download/ article-file/197671
77. Kahraman A. Hazar ekseninde boru hatları diplomasisi. Stratejik Araştırmalar Dergisi. Stratejik öngörü, 2008, sayı 12, s. 133-144
78. Karagöl E.T, Kaya S. Enerji arz güvenli ve Güney gaz koridoru (GGK) Analiz-SETA/Siyaset, Ekonomi ve Toplum Araştırmalar Vakfı, İstanbul, Eylül 2014, 32 s. Elektron resurs: https://www.researchgate.net/publication/340591826_ENERJI_ARZ_GUVENLIGI_VE_GUNEY_GAZ_KORIDORU_GGK
79. Kakışım C. Enerji Krizlerinin Etkisiyle Şekillenen Avrupa Birliği'nin Enerji Politikası. Gümüşhane Üniversitesi Sosyal Bilimler Enstitüsü Elektronik Dergisi, 2019, 10(2), s. 460-472
80. Kaliaskarova Z. "Hazar Denizi'nin Petrol ve Gaz Kaynakları Potansiyelinin Araştırılması", Çev. Janar Temirbekova, "Asya-Avrupa Uluslararası İlişkiler ve Stratejik Araştırmalar Dergisi", Sayı 5, Nisan-2007, Ankara, s. 5-16
81. Karagöl E.T, Kızılkaya M, Kaya S. Statü sorunu ikileminde Hazarda enerji denklemi. /SETA Siyaset, Ekonomo ve Toplum Araştırmaları Vakfı/ Analiz, Baskı: "Turkuvaz Haberleşme ve Yayıncılık A.Ş", İstanbul, Nisan 2016, 28 s.

82. Koçaslan G. Avropa Birliyinin doğal qaz politikası ve bu eksende Türkiyenin önemi. Istanbul Üniversitesi İktisat Fakültesi İngilizce İktisat Bölümü. Yıl 2011, cilt 61, sayı 2, s.236-255. Elektron resurs: https://dergipark.org.tr/tr/download/article-file/8555
83. Kocaman M.E. Hazar havzasının hukuki statüsü. EGE Stratejik Araştırmalar Dergisi, 2018, cilt:9, sayı1, s. 99-114
84. Kısacık S. ABD'nin Avrasya Enerji Politikası Bağlamında Azerbaycan ve Orta Asya Ülkeleriyle İlişkileri. Uluslararası Politika Akademesi, 03 ocak, 2013, 124 s.
85. Köten F. Boru hattı projelerinin Hazar havzası jeopolitik ve jeoekonomisindeki rölü. Avrasya İncelemeleri Dergisi (AVİD), II/1 (2013), s. 65-84
86. Küçükyıldız C. Modern İpek Yolunda Bakü-Tiflis-Kars kesintisiz demiryolu hattı projesi. //Turan Stratejik Araştırmalar Merkezi Dergisi. Yıl 2012, cilt 4, sayı 16, s. 59-64
87. Qurbavov İ. Hazar havzasında stratejik oyunlar:Hukuki statü sorunu ve uluslararası enerji polotiği. // Turan Stratejik Araştırmalar Merkezi Dergisi. Yıl 2011, cilt 3, sayı 12, s.4-17
88. Müslüme N. Küresel kriz sürecinde Türkiyenin enerji koridoru olma konumu: Güney Dogal Gaz Koridoru. Turkiye Ekonomi Kurumu, Ankara, Discussion Paper, No 96/2012. Elektron resurs:https://www.econstor. eu/bitstream /10419/81671/1/728679825.pdf
89. Oğan G. "Çinin Orta Asyada nüfuzu artıyor" Stratejik Analiz, Ekim, 2005, s.16-17
90. Selva B. Güney-Doğu Asiyada Osmanlı imperatorluğu etkileri // Türk kültürü, Sayı 439, yıl. Kasım 1999, s.641-648
91. Suat. P "Barbarlığın Kaynağı PETROL", "Anka Yayınları", İstanbul, 2003, 154 s.
92. Taşcıoğlu Ö.L. "GKRY'nin Türkiye Cumhuriyeti'ne ve Kuzey Kıbrıs Türk Cumhuriyeti'ne Ait Deniz Yetki Alanlarındaki Petrol ve Doğal Gaz Arama Çalışmaları ve Münhasır Ekonomik Bölge Anlaşmaları", Social Sciences Studies Journal, 2018, 4(26), s. 5697-5709
93. Terzioğlu S.S. Hazarın statüsü hakkında kıyıdaş devletlerin hukuksal görüşleri. Uluslararası Stratejik Araştırmalar Kurumu. Cilt:3, Sayı: 5, 2008, s. 26-47
94. Uzunçarşılı.İ.H. Osmanlı tarixi. III cild, I hissə. Türk Tarix Kurumu. "Basımevi-Ankara",1988, 3114 s
95. Yalçınkaya A. Kafkasya'da siyasi gelişmeler/etnik dügünden küresel kördügüme. "Lalezar kitab evi", Ankara, 2006, 419 s
96. Yorkan A. "Avrupa Birliği'nin Enerji Politikası ve Türkiye'ye Etkileri", Bilge Strateji, cilt 1, sayı 1, yıl.2009, s. 25-41
97. Yüce Ç.K. Hazar enerji kaynaklarının Türk Cümhuriyyetleri için önemi ve bölgedeki yeni büyük oyun. Stratejik Araştırmalar Dergisi, 2008, 1(1), s.158-183

***İngilis dilində***


98. Abbadı A.K. Security and Cooperation in the Mediterranean Basin, Ocean Development// International Law, vol. 14 (1), 1984, pp. 56-58
99. Abilov Sh. Legal status of the Caspian. Hazar Raporu summer-2013 pp. 123-143
100. Akhundzada E. ve Seray Özkan, "Iran Energy Outlook", Hazar Strateji Enstitüsü Enerji ve Ekonomi Araştırmaları Merkezi, İstanbul, Aralık 2014, 13 s. Elektron resurs: https://www.academia.edu/ 9722597/ Iran_Energy_Outlook
101. Assemblee de 1 'Union de 1 'Europe occidentale. Actes officiels, 43 session. Deuxieme partie, desembre 1997. IV. Proces Verbaux. Compte. Rendu du debats, 170 p
102. Bagian M, Lohrasbi M. Iranian-Russian relations: definition of the legal regime of the Caspian Sea. Development Strategy, 2011;28, pp.281- 285
103. Bahgat G. "The Caspian Sea: Potentials and Prospects", Governance: An Internatio(nal Journal of Policy, Administration, and Institutions, Vol: 17, No: 1, Januvary 2004, 123 p
104. "Beijing hosts Turkmen-Chinese summit talks", 13 Mayıs 2014. Elektron resurs: http://www.turkmenistan.ru/en/articles/17707.html
105. Bradford J. "Southeast Asian Maritime Security in the Age of Terror: Threats, Opportunity and Charting the Course Forward", IDSS Working Papers (April 2005, pp. 10- 15
106. BP Statistical Review of World Energy. June 2009; 2008 in review/ 2010, 44 p. Elektron resurs: http://large.stanford. edu/courses/2014/ph241/ christensen2 /docs/bpreview.pdf
107. Campbell C J. The Coming Oil Crisis. Multi-Science Publishing Co. Ltd, 2004, 210 p
108. Central Asia's Economic Evolution From Russia To China", StratIorhttps://worldview. Elektron resurs: stratfor.com/article/central-asia-china-russia-trade-kyrgyzstan-kazakhstan-turkmenistan-tajikistanuzbekistan (Erişim: 10.04. 2018)
109. Clageu B.M. "Ownership of the Seabed and Suboil Resources in the Caspian Sea under the Rules of International Law", Caspian Crossroads, No. 3, Summer-Fall, 1995, pp. 3-12
110. Clinton H. "America's Pacifc Century".Foreign Policy; Washington Изд. 189, 2011, pp.56-63. Elektron resurs: https://foreignpolicy.com/2011/10/11/ americas-pacifc-century
111. Clawson P. Knitting Iran Together: The Land Transport Revolution, 1920-1940 //Iranien Studies, vol.26, № 3-4, pp. 235-250
112. Dabiri M. R. "A New Approach to the Legal Regime of the Caspian Sea as a Basis for Peace and Development", The Iranian Journal of International Affair, Vol. 6, No. 1-2, Spring-Summer, 1994, pp. 28-46

113. Details of 21 Iranian gas fields, offered to foreigners. Azernews, 4 December 2015. http://www.azernews.az/region/90492.html
114. Department of Commerce, Government of India, Ministry of Commerce and Industry International North South Transport Corridor Dry Run Report. 2014, 14 p. Elektron resurs:http://commerce.nic.in/ publications/ INSTC_ Dry_run_report_Final.pdf
115. Gurpreet S. Khurana, "China"s String of Pearls" in the Indian Ocean and Its Security Implications". Strategic Analysis, Routledge Taylaor Francis Group, Vol. 32, No.1, "İDSA" January 2008, 39 p
116. Elder M. Putin's grand vision: a new Eurasian bloc with old Soviet neighbours. "The Guardian", 04 Oct. 2011. Elektron resurs: https://www. theguardian.com/world/2011/oct/04/putin-grand-vision eurasian-bloc
117. "Fayneşil Tayms" 1 February 2007
118. Fedorenko V. "The New Silk Road Initiatives in Central Asia", Rethink institute, Rethink paper (Том 10), 2013, 36 p
119. Fisher K. "A Meeting of Blood and Oil: The Balkan factor in Western energy security"/ Journal of Southern Europe and the Balkans, Vol.4, No. 1, Mayıs 2002.Elektron resurs: https://www. tandfonline. com/doi/epdf/ 10.1080/ 14613190220130313
120. Galagan D. "Arbitration: Who Is The Winner in The Gas War?", "Jurist", Legal News, Reporting the rule of law in crisis. 22 November 2014 Elektron resurs: https://www.jurist.org/commentary/2014/11/dmytro-galagan-arbitration-gaswar/
121. Government of India, Ministry of Commerce and Industry (International North South Transport Corridor Dry Run Report), 25 February 2014. Elektron resurs: http://commerce.nic.in/publications/ INSTC_ Dry_run_report_Final .pdf
122. Gustafson. T, Reteyum A, Ruseckas L. "The Caspian Sea: Whose Waters? Whose Oil?, Cambridge Energy Research Associates, July 1995, pp. 1-26
123. Granmayeh A. "Legal History of the Caspian Sea", in Akiner, Shirin ed., The Caspian: Politics, Energy and Security. London, Routledge, 2004. pp.17- 47
124. Huttenbach H. R. The post-sovietic conflict over off-shore boundaries in the Caspian Sea // Law Journal. The City College of New-York. Vol. 12. 1996, pp. 5-6
125. Iran to construct 6500 km in railroads by 2022. Real Iran (20 June 2017). Elektron resurs:http://realiran.org/iran-toconstruct-6500-km-in-railroads-by-2022
126. Joel H. S. "Condominum Arrangements in International Practice: Reviving an Abandoned Concept of Boundary Dispute Resolution", University of South Carolina School of Law. Michigan Journal of International Law, Vol. 29, Issue: 4, 2008, pp. 727-776

127. “Joint Statement-United States and India: Prosperity Through Partnership”, Ministry of Extemall Afrairs, Govermment of İndia, June 27, 2017. Elektron resurs:http://mea.gov.in/bilateral-documents.htm?dtl/28560/
128. Joyner C.C and Walters K.Z. “The Caspian Conundrum: Reflections on the Interplay Between Law, the Environment and Geopolitics”, Brill / Nijhoff, 2006, p.173-216
129. Kalehsar O. S. Iran’s Joint Fields Offer Development, Partnership Opportunities. Oil&Gas Journal. 2017;115, pp. 38-42
130. “Kazakhstan”, U.S. Energy Information Administration (EIA), 14 Ocak 2015
131. Karagöl E.T. ve Kaya S. Energy Supply Security and The Southern Gas Corridor (SGC), Foundation for Political, Economic and Social Research, Analysis SETA, NO: 10, Ankara, 2014, 33 p
132. KEPCO *The Visit of Sardar-e- Jangal Oil Field by Petroleum Minister.* 2017. Retrieved from http://en.kepco.ir/index.aspx?fkeyid=&siteid=2&pageid=187&newsview=1045 Accessed on: 05.11.2017
133. Kucera J. “The New Silk Road ?”, The Diplomat, November 11, 2011. Elektron resurs: https://thediplomat com/2011/11/the-new-silk-road/
134. Kottasova I. Map: Europe's Thirst for Russian Gas, CNN, 2014. Elektron resurs:http://edition.cnn.com/2014/07/22/business/russian-gas-eu sanctions/index.html
135. Mehdiyoun K. “Ownership of Oil and Gas Resources in the Caspian Sea”, The American Journal of International Law, Vol. 94, No. 1, January 2000, pp. 179-189
136. Nasibli N. “Iran’s Caspian Policy: Time To Make A Decision?”, Central Asia Caucasus Analyst. Washington, 29 January 2003 Issue. Elektron resurs: http://www.cacianalyst.org
137. Natural Gas. World Why Ukraine Can Live Without Russian Gas For Now, 2015. Electron resurs: https://www.naturalgasworld.com/ukraine-russian-gas-price-dispute-effects
138. Nicklas N, Nicklas S. “The Shangai Cooperation Organization, Trade and Rolaes of İran, İndia and Pakistan” Central Asian Survey, vol: 26, № 3, September 2007, pp. 429-444
139. Parkhomchik L.A. Recent Developments in the Energy Strategy of Iran in the Caspian Region. Проблемы постсоветского пространства Научный журнал Т. 5, № 2 2018, pp. 149-160
140. Schofield, C, Prau M. "Claims to the Caspian Sea", Jane's Intelligence Review, February 1996, pp.75-78
141. Svante C. E. Azerbaijan since Independence. Printed in the United States of America, New York, M.E. Sharpe, 2011, 485 p.

142. Tomberg I. “Caspian Basin And Central Asia-Outlook for Russia” “RİA Novosti” 29 th March 2005. www.site.securities.com
143. U.S. Energy Information Administration, U.S. Geological Survey, IHS EDIN. Elektron resurs: http://www.eia.gov/beta /international/ analysis _includes/regions_of_interest/Caspian_Sea/images/caspian_fields_map.png
144. Yusifzade Kh.B. The Status of the Caspian Sea-Dividing Natural Resources Between Five Countries (SOCAR. Autumn 04.05.i998). Elektron resurs: http://www.azer.com/2ti.folder/24.statuscaspian.html. yusifzade.html

***Rus dilində***

145. Аиянова Е.Г. Проблемы Каспийского моря в современном международном праве: Автореф. дис. ...канд. юрид. паук. М, 2010, 33 с.
146. Аникина Е.А. Конкурентоспособность различных трубопроводных поставщиков газа в перспективе развития стран ЕС. Мировая энергетика: конкуренция и сотрудничество // Под ред. С.В. Жукова, М, ИМЭМО РАН, 2019, 220 с, сс. 18-28
147. Английское серебро XVI-XX веков: выставка. Москва-Ленинград. 1977. «Английское серебро XVI-XX веков из собраний Великобритании: каталог выставки: (Пер. с англ.). М, Советский Художник, 1977, 64 с.
148. Арабов М.Ш, Арабов С.М. Особенности добычи нефти и газа на месторождениях Каспийского моря. Газовая промышленность № 4 /783/ 2019 г. сс. 46-49
149. Бадирбейли Р. Ф. Отношение западно-европейских дипломатов к персидскому походу Петра I //Известия АН Азерб. ССР. Серия: история, философия и право. Баку, « Изд-во АН Азербайджан», 1979, №4, s.40-48
150. Бжезинский З.К. Великая шахматная доска. М., Международные отношения, 2009, 280 с
151. Быбочкиным М.А. Инструкция по применению классификации запасов месторождений, перспективных и прогнозных ресурсов нефти и горючих газов. М, ГКЗ СССР, 1984, 64 с
152. Газовый рынок Европы: утраченные иллюзии и робкие надежды //Подготовлено Институтом энергетики Ниу вшэ и Институтом энергетических исследований Ран Под ред. В.А.Кулагина, Т.А.Митровой; Ниу вшэ-Инэи Ран, Москва, 2015, 84 с.
153. Гарифулина Ю. В, Дукмасова Н. В, Теслюк Л. М. Анализ развития нефтегазового комплекса Норвегии. Уральский Федеральный Университет, Екатеринбург, сс. 162-168. Elektron resurs https://elar.urfu.ru/ bitstream/10995/113188/1/sueb_2022_029.pdf
154. Гущер А. Каспийский треугольник: Стратегия США в Каспийском регионе // жури. Азия и Африка сегодня, М. 2003. №5, сс. 16-22

155. Гюль К.К. Каспийское море. Баку, «Азнефтьиздат», 1956, 327 с.
156. Дмитриевский А.Н, Белонин М.Д. Перспективы освоения нефтегазовых ресурсов российского шельфа. //журналь Природа, 2004, №9, сс. 3-10
157. Жильцов С.С, Зонн И.С. Основные направления политики Китая в Каспийском регионе. Современные проблемы исполъзования морских акваторий и прибрежных Зон. Вестник Московского университета имени С. Ю. Витте. Серия 1: Экономика и управление, 2015, 2 (13) 96-104 сс.
158. Жильцов С.С, Пархомчик Л.А. Роль углеводородных ресурсов в развитии Каспийского региона. //РолитBook, 2017, №3, 159-171 сс.
159. Зонн И.С. Триста лет на Каспии. (Хронология основных исторических событий XVIII-XX веков). М, ООО «Эдель-М», 2001, 96 с.
160. Икаев Д.Г. Проблемы определения международно-правового статуса Каспийского моря. Российский Университет Дружбы Народов, Дис. канд. юрид. наук. Москва, 2006, 203 с.
161. Каспийское море в арабских источниках (перевод с арабского и примечания З.М. Буниятава и Н.М. Велихановой) // Известия АН Азерб. ССР, Серия история, философия и право, 1988, №3, сс.113-126
162. Кепбанов Е. Туркменистан за равноправное и взаимовыгодное сотрудничество на Каспии // Казахстан спектр, 2006, № 2 (36), с. 26-33
163. Коллон М. Нефть PR война. Глобальный контроль над ресурсами планеты. Перевод: В. Семенов, Издательство: Форум, Крымский мост-9Д, М, 2002, 416 с.
164. Колодкин А.Л, Гуцуляк В.Н, Боброва Ю.В. Мировой океан. Международно-правовой режим. Основные проблемы. М, «Статут», 2007, 637 с.
165. Конвенция о правовом статусе Каспийского моря / Kremlin.ru, 12 avqust 2018
166. Куртов А.А. Проекты новых каналов: потенциал для сотрудничества или скрытая угроза интересам России? Проблемы национальной стратегии. 2012; 4, сс.71-90
167. Лерх И.Я. Извлечния из дневника путашествия доктора Иоганна Якоба Лерха (второе путашествия, перевод с немец. Яз. Абезгуза) AMEA TİEA fond 1, siyahı 2 iş 491, səh 121
168. Леухова М.Г, Пьянов А.Е. Проблема правового статуса Каспийского моря в отношениях прикаспийских государств в 1990-2000 гг. Вестник КемГУ, Т.3 История. Часть 2, 2013 №2 (54), сс. 235-240
169. Листсов В.П. Персидский подход Петра 1 в 1722-1723 гг. М, «Издательство Московского университета», 1951, 245 с
170. «ЛУКОЙЛ» принял ОИР о начале добычи на Ракушечном месторождении на Каспии в 2023 году. OILGASCOM. Электронный

ресурс:https://oilgascom.com/lukojl-prinyal-oir-o-nachale-dobychi-na-rakushechnom-mestorozhdenii-na-kaspii-v-2023-godu/
171. Malışeva D. "Mnogostoronniye sopernicestvo na Kaspii", Sentralnaya Asia i Kafkaz, № 2 (20), 2002, сс. 25-29
172. Мамедов Р.Ф. Международно-правовой статус Каспийского моря вчера, сегодня, завтра. Вопросы теории и практики. Часть I. Центральная Азия и Кавказ. Общественно-политический журнал, ИАЦ «Central Asia and the Caucasus» (Швеция), No 2 (8), 2000, сс. 231-243
173. Мамедов Р.Ф. Международно-прававой статус Каспийского моря (вопросы теории и практики). Диссертации по соискание ученой степении доктора юридических наук. Институте по Правам Человека НАН Азербайджана, Баку, 2007, 264 с.
174. Мамедов Р.Ф.Международно-правовой статус Каспийского моря вчера, сегодня, завтра . Баку, «Азернешр». 2006, 456 с.
175. Медведев И.П, Куликов Е.А, Рабинович А.Б. Приливы в Каспийском море. // Океанология, 2017, том 57, № 3, сс. 400-416
176. Международные отношения в Центральной Азии. События и документы. Под редакцией Богатурова А.Д. 2011, Москва, "Аспект Пресс", 549 с.
177. Международное право. Особенная часть: учеб. / отв. ред. Валеев RM, Курдюков Г.И. М, «Статут», 2010, 624 с.
178. Минь Н.Н. Международное морское право. М, "Прогресс", 1981, 184 с.
179. Мировая экономика и международные экономические отношения. Под ред. А Булатова, М, «ЮРИСТЪ», 2008, 557 с.
180. Мировая энергетика: конкуренция и сотрудничество / Под ред. С.В.Жукова. М, "Имэро Ран", 2019, 220 с.
181. Мухамеджанова Д. Влияние Китая на экономику Центральной Азии /Analytic (Казахстан). 2012. № 2, 74-82 сс.
182. Мурзагалиев Д.М. Каспийкое море: разведка и разработка морских месторождений. Geologiya, Geografiya i Globalnaya Energiya (Geology, Geography and Global Energy) 2017, No. 4 (67), сс. 20-32
183. Нагорный Ю. Своповые поставки через Казахстан. Поднебесная становится крупнейшим получателем российской нефти // Деловой Казахстан. 2014, 17 января
184. Нагорный Ю. КНР вкладывает в казахстанскую нефть // Деловой Казахстан. 2013, 13 сентября
185. Нартов Н.А. Геополитика. М, ЮНИТИ, 1999, 359 с
186. Ниязов С. Туркменистан встречает XXI век с надеждой и верой в себя и в человечество / С. Ниязов //Независимая газета. 1998 г. 20 июня

187. Поль К.К. Из истории географических исследований Каспийского моря // Известия АН Азерб. ССР, Серия геол.-геогр. наук, 1960, № 2. сс.88- 96
188. Попов Д.С. Каспийский вектор внешней политики США. //Российский институт стратегических исследований, 2016. Электронный ресурс:https://riss.ru/analitycs/27035/ (дата обращения: 01.11.2018).
189. Проблемы региона накануне IV Каспийского Саммита (Подготовлен Институтом Каспийского сотрудничества), Москва, сентябрь 2014 г, 69 с.
190. Рожков. И.С. Ретроспектива каспийских саммитов: от стабильности к прогрессу. Министерство Иностранных Дел России, Москва, Международно отношения Проблемы постсоветского пространства / Post-Soviet Issues, 2017, 4(3), сс.210-220
191. Рудашевский В. Д., Рыскулов Д. М Трансазийский коридор развития. НГ-Энергия. 2012, №7, сс. 10-12
192. Стрейс Я.Я. Три путешествия. Перевод Э.Бородиной. Редакция А.Морозова. М, “Огиз–Соцэкгиз”, 1935, 415 с.
193. Сыроежкин К.Л. Казахстан-Китай: от приграничной торговли к стратегическому партнерству. Монография-в трех книгах. Книга 1 Сборник документов Алматы: Казакыстанский Институт Стратегических Исследований При Президенте РК, Алматы, 2010, 336 с.
194. Темирбулатов А.М. Правовой статус Каспийского моря: позиции прикаспийских государств. «Геополитика и безопасность», 2011, №4(16), сс.74-80
195. Уткин А.И. Единственная сверхдержава. (Серия. 11ацнональытый интерес.) М, «Алгоритм», 2003, 576 с
196. Хамраев Н.Р. Проект орошения засушливых территорий Центральной Азии. Проблемы освоения пустынь. 1995; №6, сс.45-56
197. Хайтун А.Д. Россия-ЕС: Проблемы взаимодействия в энергетической сфере Доклады Института Европы № 323. Федеральное государственное бюджетное учреждение науки Институт Европы Российской Академии Наук. Москва 2015, 45 с.
198. Хантингтон С. Столкновение цивилизаций. М, “АСТ” издательство, 2003, 603 с.
199. Хорами С.Х.Х. Каспийский ресурс и интересы Ирана в этом регионе. Political problems of international relations, global and regional development. Theories and Problems of Political Studies. 2017, Vol. 6, Is. 4A, сс.101-112. Electron resurs: http://publishing-vak.ru/file/archive-politology-2017-4/9-seyed-hamid-hosseini-khorami.pdf
200. Хоссейнзадех В. Политика Ирана в Каспийском регионе на современном этапе: итоги и перспективы Проблемы постсоветского пространства / Post-Soviet Issues 2017 4(3), сс.221-228

201. Центральная Азия сегодня: вызовы и угрозы / под общей редакцией К.Л. Сыроежкина. Алматы, 2011, 290-298 сс.
202. Шарипов Э.У. Энергетические ресурсы Каспийского региона и внешние связи Казахстана и Туркменистана в области углеводородов. //Страны СНГ в системе международных отношений. М. МГУПП, 2008, 392-413 сс.
203. Шин Д. С. Становление и развитие основ правового регулирования статуса Каспийского моря в российском законодательстве: Историко-правовой аспект: диссертация..кандидата юридических наук. МВД, Санкт-Петербургский Университет, Санкт-Петербург, 2006, 153 с.

***İnternet resursları***

204. http://www.heritage.org/research/reports/2015/12/a-secureand-stable-caspian-sea-is-in-americas-interest
205. www.neftegaz.ru. – Rusiyanın neft-qaz portalı
206. “TRACECA Strateji”, http://www.traceca.org.tr/, (13.07.2017)
207. “INOGATE”, http://www.inogate.org/?lang=en, (13.07.2017)

Çapa imzalanıb: 07.12.2023.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 20 ç.v. Tiraj: 100. Sifariş № 287.

**TƏRCÜMƏ**
**VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az